Mobil Kamil oğlu Məcidov

Bakı Biznes Universitetinin
yaradılmasının 20 illiyinə
həsr olunur

VERGİ SİSTEMİ

DƏRSLİK

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 21 dekabr 2012-ci il tarixli 2307 saylı əmri ilə ali məktəb tələbələri üçün dərslik kimi tovsiyə edilmişdir.

BAKI - 2013

338.5
T M44

Elmi redaktor:

Sadıqov Rahim Fərahim oğlu – iqtisad elmləri namizədi, Bakı Biznes Universitetinin «Menecment və marketinq» kafedrasının dosenti.

Rəyçilər:

Həsənov İsmayıl Cəfər oğlu - iqtisad elmləri namizədi, Azərbaycan Dövlət Neft Akademiyasının «Yanacaq-enerji kompleksi sahələrinin iqtisadiyyatı və menecment» kafedrasının dosenti.

Əliyev Əsgər İmamalı oğlu - iqtisad elmləri namizədi, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının «Menecment, dövlət və bələdiyyə idarəetməsi» kafedrasının dosenti.

Həsənova Afidə İbrahim qızı - iqtisad elmləri namizədi, Bakı Biznes Universitetinin «Maliyyə» kafedrasının dosenti.

Əzizov Anar Əli oğlu - iqtisad elmləri namizədi, Bakı Biznes Universitetinin «Menecment və marketinq» kafedrasının dosenti.

2802329

«Vergi sistemi» dərsliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi Dövlət standartlarına, müvafiq təhsil proqramlarına uyğun olaraq hazırlanmış və «İqtisadiyyat», «Maliyyə», «Mühasibat uçotu və audit» ixtisasları üzrə təhsil alan bakalavriat səviyyəsinin tələbələri üçün nəzərdə tutulmuşdur.

Dərslikdə vergitutmanın nəzəri-metodoloji əsasları və tarixi inkişaf mərhələləri ətraflı şərh edilməklə yanaşı, vergi sisteminin qurulması, idarə edilməsi, vergi inzibatçılığı, vergi nəzarəti məsələlərinə də geniş yer verilmiş, Azərbaycan Respublikasının vergi sistemində müəyyən edilən və ödənilən vergilərin tətbiqi xüsusiyyətləri təqdim olunmuşdur.

Dərslik 2012-ci ilin sonunadək vergi qanunvericiliyində edilən bütün dəyişikliklər nəzərə alınmaqla işlənilmişdir.

MÜNDƏRİCAT:

Giriş.....9

I Fəsil. Vergitutmanın nəzəri məsələləri.

§1.1. Vergi anlayışı.....12
§1.2. Vergilərin funksiyaları.....15
§1.3. Vergilərin yaranması, formalaşması və tarixi inkişafı mərhələləri.....17
§1.4. İlk vergi nəzəriyyələri və iqtisadi baxışları.....20
§1.5. Klassik vergi nəzəriyyəsi.....25
§1.6. Vergitutmaya dair nəzəri baxışlar.....29

II Fəsil. Azərbaycanda vergilərin yaranması və inkişafı tarixi.

§2.1. III-V əsrlərdə tətbiq olunan vergilər. I Xosrovun vergi islahatları.....42
§2.2. Xilafət dövründə vergilər.....44
§2.3. Orta əsrlərdə Azərbaycanda xərac sistemi və mükəlləfiyyətlər.....47
§2.4. XVI-XIX əsrlərdə Azərbaycanda tətbiq edilən vergilər.....51
§2.5. 1918-1990-cı illərdə Azərbaycanda tətbiq edilən vergilər.....57

III Fəsil. Vergi siyasəti və həyata keçirilən vergi islahatlarının əsas istiqamətləri.

§3.1. Vergi siyasəti.....61
§3.2. Vergi islahatlarının nəticələri.....65

§3.3. Vergi sistemində kadr siyasəti və irimiqyaslı islahatlar.....71
§3.4. Vergitutmanın idarə olunması və vergi planlaşdırılması.....74

IV Fəsil. Azərbaycan respublikasının vergi sistemi və vergi qanunvericiliyi.

§4.1. Azərbaycan respublikasının vergi sisteminin əsas xüsusiyyətləri.....77
§4.2. Azərbaycan respublikasında vergi xidmətinin təşkili və inkişafı.....79
§4.3. Vergi inzibatçılığı.....84
§4.4. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi.....89
§4.5. Vergi sistemində vergi borcları problemi.....94

V Fəsil. Vergi münasibətlərinin iştirakçıları.

§5.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər və vergi qanunvericiliyi.....98
§5.2. Azərbaycan Respublikasında müəyyən edilən və ödənilən vergilər.....101
§5.3. Dövlət vergi orqanları.....104
§5.4. Vergi ödəyicisinin hüquqları və vəzifələri.....113
Biliyi möhkəmləndirmək üçün testlər.....120

VI Fəsil. Vergi nəzarəti.

§6.1. Vergi nəzarəti və onun formaları.....146
§6.2. Vergi ödəyicilərinin uçotu.....147
§6.3. Vergi ödəyicilərinin uçota alınma, yenidən uçota alınma və uçotdan çıxarılma qaydaları.....154

§6.4. Bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələri.....158
Biliyi möhkəmləndirmək üçün testlər.....160

VII Fəsil. Vergi yoxlamaları.

§7.1. Vergi orqanları tərəfindən keçirilən yoxlamalar. Kameral vergi yoxlaması.....166
§7.2. Səyyar vergi yoxlaması.....168
§7.3. Vergi orqanlarının vəzifəli şəxslərinin ərazilərə, binalara daxil olması və baxışın keçirilməsi.....174
§7.4. Sənədlərin tələb edilməsi, sənədlərin və nümunə kimi əşyaların götürülməsi.....176
§7.5. Səyyar vergi yoxlamasına yardımçı subyektlərin cəlb edilməsi.....180
§7.6. Səyyar vergi yoxlamasının nəticələri üzrə qərarın çıxarılması və qanunsuz zərərin vurulmasının yolverilməzliyi.....184
§7.7. Operativ vergi nəzarəti.....186
Biliyi möhkəmləndirmək üçün testlər.....191

VIII Fəsil. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

§8.1. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət.....214
§8.2. Vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiqi.....217
§8.3. Vergi orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti.....225
Biliyi möhkəmləndirmək üçün testlər.....226

IX Fəsil. Vergilərin hesablanması və ödənilməsi qaydaları.

§9.1. Vergilər üzrə borcların alınması və vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları.....236
§9.2. Uçot sənədləri və vergi hesabatı.....242
§9.3. Vergi ödəyiciləri ilə münasibətdə bankların və kredit təşkilatlarının vəzifələri.....246
§9.4. Vergi öhdəliyi.....248
§9.5. Vergi ödəyiciləri və vergi orqanları tərəfindən vergilərin hesablanması. Artıq ödənilmiş ödənişlərin məbləğlərinin qaytarılması və vergilər üzrə borcların ödənilməsi.....255
§9.6. Əmlakın siyahıya alınması və vergi ödəyicisinin əmlakı hesabına verginin tutulması.....259
Biliyi möhkəmləndirmək üçün testlər.....269

X Fəsil. Fiziki şəxslərdən gəlir vergisi və hüquqi şəxslərdən mənfəət vergisi.

§10.1. Fiziki şəxslərdən gəlir vergisinin ödəyiciləri və vergitutma obyekti. Gəlir anlayışı.....303
§10.2. Gəlir vergisindən azadolmalar və güzəştlər.....311
§10.3. Hüquqi şəxslərdən mənfəət vergisinin ödəyiciləri və vergitutma obyekti.....318
§10.4. Hüquqi şəxslərin mənfəət vergisi üzrə azadolmalar və güzəştlər.....321
§10.5. Gəlirdən çıxılan və çıxılmayan xərclər.....324
§10.6. Ödəmə mənbəyində vergilərin tutulması.....331
§10.7. Bəyannamənin verilməsi və cari vergi ödəmələri.....337
Biliyi möhkəmləndirmək üçün testlər.....341

XI Fəsil. Əlavə dəyər vergisi.

§11.1. Əlavə dəyər vergisinin tətbiqi xüsusiyyətləri.....369
§11.2. Əlavə dəyər vergisindən azadolmalar və verginin sıfır (0) dərəcə ilə tutulması.....379
§11.3. Vergi tutulan əməliyyatların aparıldığı vaxt, malların təqdim edildiyi, işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer.....383
§11.4. Qeyri-rezidentlərin ƏDV-yə cəlb edilməsi və həyata keçirilən əməliyyatların təsnifatı.....387
§11.5. Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan və əvəzləşdirilən ƏDV.....392
§11.6. Elektron vergi hesab-fakturaları və ƏDV-nin ödənilməsi.....395
Biliyi möhkəmləndirmək üçün testlər.....399

XII Fəsil. Aksizlər.

§12.1. Aksiz anlayışı və vergi tutulan əməliyyatlar.....413
§12.2. Aksizlər üzrə azadolmalar və istehsal ehtiyacları üçün aksizlərin əvəzləşdirilməsi.....417
§12.3. Aksizli malların siyahısı və vergi dərəcələri.....418
§12.4. Aksizli mallar üzərində vergi nəzarəti.....421
Biliyi möhkəmləndirmək üçün testlər.....424

XIII Fəsil. Torpaq vergisi və əmlak vergisi.

§13.1. Torpaq vergisinin tətbiqi xüsusiyyətləri.....436
§13.2. Əmlak vergisinin tətbiqi xüsusiyyətləri.....440
§13.3. Əmlak vergisinin hesablanması və ödənilməsi qaydası.....444
§13.4. Müəssisənin əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi qaydası.....447
Biliyi möhkəmləndirmək üçün testlər.....448

XIV Fəsil. Yol vergisi və mədən vergisi.

§14.1. Yol vergisinin ödəyiciləri və vergitutma obyekti.460
§14.2. Yol vergisinin dərəcələri.....462
§14.3. Mədən vergisinin ödəyiciləri və vergitutma obyekti.....466
§14.4. Mədən vergisinin hesablanması qaydası, ödənilməsi müddəti və bəyannamənin verilməsi.....469
Biliyi möhkəmləndirmək üçün testlər.....471

XV Fəsil. Sadələşdirilmiş vergi.

§15.1. Sadələşdirilmiş verginin ödəyiciləri və vergitutma obyekti.....482
§15.2. Sadələşdirilmiş verginin dərəcəsi.....485
§15.3. Sadələşdirilmiş verginin hesablanması qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi.....487
Biliyi möhkəmləndirmək üçün testlər.....493

Testlərin doğru cavabları.....499

Ədəbiyyat.....503

Giriş

Vergilər dövlətin maliyyə ehtiyatlarını formalaşdıran əsas mənbə kimi insan sivilizasiyasının yarandığı dövrlərdən mövcuddur. Dövlətin yaranması, ordunun formalaşması və dövlət aparatının saxlanılması hələ qədim dövrlərdə vergilərin yığılmasını zəruri edirdi. Vergilər bəşər tarixinin ta qədim zamanlarından müxtəlif formalarda tətbiq olunmağa başlamış və bu günə qədər də formalaşmaqdadır. Bu inkişaf vergilərin primitiv şəklindən təkmilləşdirilməsinə qədər olan uzun bir tarixi yol keçərək bu günə gəlib çıxmışdır. Vergilər həmişə dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olub və olmaqdadır. Bu baxımdan bu sahənin dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Son illərdə vergi sahəsində xeyli dərslik, dərs vəsaiti, monoqrafiya və metodik vəsait çap olunub. Bu sahədə yeni bir dərsliyin hazırlanmasına ehtiyac isə vergitutmanın durmadan inkişaf etməsi və hər il vergi qanunvericiliyində aparılan təkmilləşdirmə işləri ilə əlaqədardır.

Dərsliyin məqsədi - vergi sahəsində biliklərin mənimsənilməsinə və sistemləşdirilməsinə yardım etmək və gələcəyin mütəxəssislərini həm nəzəri, həm də təcrübi cəhətdən hazırlamaqdan ibarətdir.

Dərsliyin birinci fəsli vergitutmanın nəzəri məsələlərinə və tarixi inkişafına həsr edilib. Bu fəsildə vergi anlayışı, vergilərin funksiyaları, vergilərin yaranması, formalaşması və tarixi inkişaf mərhələləri, vergi nəzəriyyələri və vergitutmaya dair iqtisadi və nəzəri baxışlar təqdim olunub.

İkinci fəsil Azərbaycanda vergilərin yaranması və inkişafı tarixini, həmçinin müxtəlif dövrlərdə tətbiq edilən vergilər və həyata keçirilən vergi islahatlarını əks etdirir.

Üçüncü fəsildə vergi siyasəti və həyata keçirilən vergi islahatlarının əsas istiqamətləri, onların nəticələri, vergitutmanın idarə edilməsi və planlaşdırılması, həmçinin vergi sistemində aparılan kadr siyasəti verilmişdir.

Dördüncü fəsildə Azərbaycan Respublikasının vergi sisteminin əsas xüsusiyyətləri, vergi xidmətinin təşkili və inkişafı, vergi inzibatçılığı, vergi sistemində vergi borcları problemi və vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilib.

Beşinci fəsildə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər, Azərbaycan Respublikasında müəyyən edilən və ödənilən vergilər, dövlət vergi orqanları və vergi ödəyicilərinin hüquq və vəzifələri öz əksini tapmışdır.

Altıncı fəsildə Azərbaycan Respublikasında həyata keçirilən vergi nəzarəti, onun formaları, vergi ödəyicilərinin uçotu qaydaları, bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələri müəyyən olunub.

Yeddinci fəsil vergi orqanları tərəfindən keçirilən kameral və səyyar vergi yoxlamalarının, həmçinin operativ vergi nəzarətinin təşkili və keçirilməsi qaydalarına həsr olunub.

Səkkizinci fəsildə vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin ümumi əsasları, maliyyə sanksiyalarının tətbiqi, vergi orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti verilib.

Doqquzuncu fəsildə vergilər üzrə borcların alınması, vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edil-

məsi, vergi öhdəliyi, vergi ödəyiciləri və vergi orqanları tərəfindən vergilərin hesablanması qaydaları göstərilib.

Dərsliyin sonuncu fəsilləri Azərbaycan Respublikasında müəyyən edilən və ödənilən vergilərə həsr olunub. Bu fəsillərdə fiziki şəxslərdən gəlir vergisi, hüquqi şəxslərdən mənfəət vergisi, əlavə dəyər vergisi, aksizlər, torpaq vergisi, əmlak vergisi, yol vergisi, mədən vergisi və sadələşdirilmiş verginin tətbiqi xüsusiyyətləri təqdim olunub.

Dərslikdə mənimsəməni artırmaq və biliyi möhkəmləndirmək üçün mövzuları tam əhatə edən 680 test tapşırığı da verilmişdir.

I Fəsil. Vergitutmanın nəzəri məsələləri.

§1.1. Vergi anlayışı.

Vergilərin meydana gəlməsi cəmiyyətin sosial qruplara bölündüyü və dövlətin yarandığı dövrə təsadüf edir. Müasir iqtisadi ədəbiyyatlarda vergilərin müəyyən edilməsinin müxtəlif formaları fərqləndirilir. Lakin vergilərin müəyyən edilməsinin istənilən formasında birmənalı olaraq qeyd edilir ki, vergilər məcburi ödənişdir. Buradan belə çıxır ki, vergi ödəyiciləri üçün məcburi hesab edilməyən ödənişlər vergi deyil və yaxud könüllü ödənilən heç bir ödəniş vergilərə daxil deyil. Lakin, nəticə etibarı ilə vergi ödəyicisinin üzərinə qoyulan dövlət büdcəsinə vergi ödəmək öhdəliyindən boyun qaçırmaq hüququ yoxdur və onun dövlət büdcəsinə çatası vəsaitə sərəncam vermək səlahiyyəti də məhduddur. Vergilər eyni zamanda əvəzsiz ödənişdir, yəni dövlət vergi ödəyicisi olan şəxslər qarşısında üzərinə konkret öhdəliklər götürmür. Lakin dövlət və ya dövlət orqanı ilə bağlanmış hər hansı müqavilə nəticəsində yaranmış öhdəliklər üzrə ödənilən haqq da vergi hesab edilə bilməz. Vergilərə həmçinin sanksiya, cərimə, kompensasiya ödənişləri kimi məcburi xarakter daşıyan ödənişlər də aid edilmir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 11-ci maddəsində vergi anlayışı aşağıdakı kimi təsbit olunub:

- vergilər - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

Burada vergilərin tutulmasının məqsədi, onların tutulma mənbəyi, köçürüldüyü büdcələrin səviyyələri, məcburiliyi, fərdiliyi və əvəzsizliyi açıq-aydın əks olunub. La-

kin hesab edirik ki, bu tərifdə vergi ödəyicilərinin kimliyi və vergilərin qanunla müəyyən olunması haqqında əlamət əks olunmayıb, halbuki, vergilər yalnız qanunla müəyyən olunmalı və onların tutulması yalnız hüquqi əsaslarla həyata keçirilməlidir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq vergilərə aşağıdakı kimi tərif vemək olar:

Vergilər - dövlətin öz funksiyalarını icra etməsindən ötrü zəruri olan, fiziki və hüquqi şəxslərdən dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən qanunvericiliyə uyğun olaraq məcburi qaydada tutulan, dövlət büdcəsinə və ya yerli büdcələrə köçürülən fərdi, əvəzsiz ödənişdir.

Vergilərin tutulma məqsədi dövlətçiliyin qorunub saxlanılması, ölkə sərhədlərinin xarici təsirlərdən müdafiəsi, ictimai asayişin mühafizəsi, dövlət idarəetmə aparatının saxlanılması, sosial qayğıya ehtiyacı olanların sosial müdafiəsi və başlıca olaraq iqtisadi artıma nail olmaqdan ibarət olub, sadalananları maliyyə vəsaiti ilə təmin etməkdən ibarətdir. Vergilərin tutulma xarakteri isə bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da məcburidir. Çünki, dövlət könüllüyə üstünlük verərsə vergiləri toplamaq qeyri-mümkün olar. Düzdür bəzi inkişaf etmiş ölkələrdə vergitutmanın məcburi xarakterini yumşaltmaqdan ötrü müxtəlif xeyriyyə məqsədlərinə ayrılan vəsaitləri ya vergi tutulan ümumi məbləğdən çıxırlar, ya da müəyyən həddüzrə güzəştlər edirlər. Lakin bu da çox vaxt vergi ödəyicilərinə vergidən yayınmağa imkan yaradır. Hesab edirik ki, vergilərin tutulma xarakteri yalnız məcburi olmalıdır, həvəsləndirmədən isə yalnız güclü vergi nəzarəti sistemi formalaşdıqdan sonra istifadə etmək olar. Bir çox iqtisadçılar vergilərin yerinə yetirdiyi funksiyanı yalnız fiskal məqsədlərlə məhdudlaşdırmağa çalışırlar. Lakin, vergilər fiskal funksiyanı yerinə yetirməklə yanaşı, həmçinin iqtısadi artıma nail olmaqdan ötrü, tənzimləmə funksiyasını da yerinə ye-

tirirlər. Tənzimləmə funksiyası isə öz növbəsində stimullaşdırma və məhdudlaşdırmanı özündə birləşdirir. Tənzimləmə funksiyası əsasən güzəştlər və sanksiyalar formasında təzahür edir. Vergitutmada sanksiyaların tətbiqi tənzimləyici təsirə malikdir. Çünki, sanksiyalar maliyyə-təsərrüfat fəaliyyətinin bütün sahələrinə təsir kimi istifadə olunur.

Müasir dövrdə vergitutma iqtisadiyyatın idarə edilməsinin səmərəli üsullarından birinə çevrilmişdir və bütün ölkələrdə iqtisadiyyatın inkişafı xeyli dərəcədə vergi sistemindən asılıdır. Dövlət və iqtisadiyyatın dövlət tənzimlənməsinin mövcud olduğu yerdə mütləq vergitutma da mövcud olmalıdır. Vergilərin ümumi xarakterini dövlətin maliyyə sistemində başlıca yer tutan büdcə sistemi şərtləndirir. Çünki, dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri məhz büdcə vasitəsi ilə istifadə olunur. Dövlət büdcəsi isə gəlirlər, xüsusilə onun əsasını təşkil edən vergilər vasitəsi ilə formalaşır. Buna görə də bütün dövlətlərin maliyyə sistemində vergitutmanın rolu və əhəmiyyəti durmadan artır.

Vergilər keyfiyyətcə və kəmiyyətcə əsaslandırılmış pul resurslarının axınıdır. Bu axın istənilən dövrlərdə olan iki əsas subyektin: korporativ, fərdi sahibkarlar və cəmiyyəti idarə edən dövlət arasında bağlanmış «müqavilə»nin şərtlərinə əsasən hərəkət edir. Bu subyektləri şərti olaraq «biznes» və «büdcə» sferaları adlandıraq. Nəzəri cəhətdən belə müqavilə vergitutmanın fiskal və tənzimləmə funksiyalarının bərabərlik nisbətlərini təmin etməlidir. Çünki, vergitutmanın fiskal funksiyası «büdcə» sferası subyektlərinin maraqlarını, tənzimləmə fünksiyası isə «biznes» sferası subyektlərinin maraqlarını təmin edir. Məhz vergilərin mahiyyətcə əsas məqsədi «büdcə» və «biznes» sferası subyektlərinin maraqlarını balanslaşdıraraq, onlar arasında baş verə biləcək toqquşmaların qarşısını almaqdan ibarətdir. Bu toqquşma isə hər zaman baş

verə bilər, çünki, «büdcə» sferası hər zaman ödəyicilərin vergi ödənişlərini maksimallaşdırmağa, «biznes» sferası isə minimumlaşdırmağa çalışır.

Vergitutmanın nəzəri-metodologiyasının məntiqi əsasını vergitutmanın fəlsəfəsindən tutmuş müasir elastik vergi sisteminə qədər olan dövr təşkil edir. Bu gün vergitutmanın bütün sahələrinin tədqiqinə və dərindən öyrənilməsinə böyük ehtiyac vardır. Yalnız bütün vergi nəzəriyyələri dərindən öyrənildikdən, beynəlxalq təcrübəyə əsaslanaraq iqtisadçıların fikirləri araşdırıldıqdan sonra vergitutma sahəsində inkisafa nail olmaq olar.

§1.2. Vergilərin funksiyaları.

Müasir iqtisadiyyat elmində vergilərin yerinə yetirdiyi funksiyaların sayı barədə vahid bir fikir yoxdur. Belə ki, alimlərin böyük əksəriyyəti vergilərin yerinə yetirdiyi funksiyaların fiskal və iqtisadi (tənzimləmə) olduğunu iddia edirlər və bu funksiyaların tərkibində vergi münasibətlərinin tam əhatə olunduğunu əsaslandırırlar. Digər bir qism alimlər isə bu funksiyalara bölüşdürmə, paylama, inteqrasiyaetmə, stimullaşdırma, məhdudlaşdırma və nəzarəti də əlavə edirlər. Hesab edirik ki, vergilərin funksiyalarının bu formada fərqləndirilməsi şərti xarakter daşıyır. Çünki, bütün funksiyalar eyni zamanda yerinə yetirildiyi üçün bir funksiyanın hər hansı bir xüsusiyyəti digər funksiyalarda da öz əksini tapır. Bu baxımdan vergilərin funksiyaları bir-birilə həm qarşılıqlı surətdə bağlı və asılıdır. Ümumi nəticədə isə vergilərin bütün funksiyaları dövlətin vergi siyasətini və onun ölkənin iqtisadi vəziyyətinə təsirini müəyyənləşdirir.

Hesab edirik ik, vergilər iki əsas funksiyanı yerinə yetirir: fiskal funksiya və tənzimləmə funksiyası.

Fiskal (fiscus – fisk, latın dilindən tərcümədə dövlət xəzinəsi) funksiya vergilərin yerinə yetirdiyi əsas funksiya hesab olunur. Qədim Romada pulların saxlanıldığı yer, eramızdan əvvəl I əsrdə İmperatorun şəxsi xəzinəsi, IV əsrdə isə bütün gəlirlərin, vergilərin və yığımların toplanıldığı və xərclərin paylandığı Roma İmperiyasının dövlət xəzinəsi «fisk» adlanırdı. Məhz bu dövrdən «fisk» termini dövlət xəzinəsi mənasında işlədilməyə başlamışdır. Fiskal funksiya ümumi xarakter daşıyır, yəni bu funksiya istənilən dövlətin vergi sisteminin istənilən vergi növü üçün xarakterikdir. Çünki, fiskal funksiya dövləti pul vəsaitləri ilə təmin edir. Dövlət isə toplanmış vəsaitləri inzibati-idarəetmə aparatının saxlanılmasına, təhlükəsizliyin təmin olunmasına, daxili və xarici siyasətin həyata keçirilməsinə, sosial ehtiyacların ödənilməsinə və digər sahələrin inkişafına yönəldir. Deməli, fiskal funksiyanın əsas məqsədi dövləti öz funksiyalarını yerinə yetirmək üçün gəlirlərlə təmin etməkdir.

Vergilərin tənzimləmə funksiyası vergitutmada özünü şərtlər formasında göstərir. Dövlət vergi tutmaqla iqtisadi subyektlərin fəaliyyətinə bu və ya digər formada təsir göstərir ki, bu da ilk növbədə tənzimləmə vasitəsilə həyata keçirilir. Tənzimləmə funksiyası əsasən güzəştlər və sanksiyalar formasında təzahür edir. Dövlət hər hansı bir sahənin fəaliyyətini məhdudlaşdırmaqda və ya stimullaşdırmaqda güzəşt və sanksiyalardan geniş istifadə edir. Bəzi dövlətlər vergilərin tənzimləmə funksiyasından demoqrafik siyasətdə istifadə edir. Yəni, güzəşt və ya sanksiyalar tətbiq etməklə əhalinin artımını həm stimullaşdıra, həm də məhdudlaşdıra bilir. Bəzi dövlətlər isə geri qalan sahələri və ya regionları inkişaf etdirmək üçün vergi güzəştlərindən istifadə edir və bu sahələrə kapital qoyulmasını stimullaşdırır. Bütün sahələrdə olduğu kimi, vergitutmada da nəzarət həyata keçirilməlidir. Lakin, vergilər özü

nəzarət obyekti olduğu üçün, onların nəzarət etmə imkanı yoxdur. Çünki, nəzarət vergi orqanları tərəfindən həyata keçirilə bilər. Bu baxımdan vergilərin nəzarət adlanan funksiyası ola bilməz.

2202229

§1.3. Vergilərin yaranması, formalaşması və tarixi inkişafı mərhələləri.

Vergilərin yaranması, formalaşması və tarixi inkişafı iqtisadi ədəbiyyatlarda üç mərhələ üzrə qruplaşdırılır. Birinci mərhələyə qədim dünyadan başlayan və orta əsrlərədək davam edən dövr aid edilir. Bu mərhələ vergilərin müəyyənləşdirilməsinin qeyri-mümkünlüyü və təsadüfi xarakter daşıması, yığılma mexanizminin olmaması, vergilərin nəzəri cəhətdən əsaslandırılmaması ilə xarakterizə olunur. Lakin, görkəmli alim Nəsirəddin Tusinin elmi fəaliyyəti və onun «Maliyyə haqqında tədqiqat» əsərinin yaranması bu mərhələyə təsadüf edir. Bu baxımdan bu mərhələnin hüdudlarının dəqiq müəyyənləşdirilməsinə ehtiyac vardır. Belə ki, məhz bu əsərində N.Tusi vergilərə nəzəri cəhətdən münasibət bildirmiş, vergilərin sayının minimuma endirilməsi, vergilərin yığılma mexanizminin sistemləşdirilməsi, dövlətin gəlir və xərclərinin təsnifləşdirilməsi və ümumilikdə dövlətin maliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində islahatlar aparılmasını təklif etmiş və tətbiqinə nail olmuşdur.

İkinci mərhələyə XVI-XIX əsrlər aid edilir. Bu dövrdə artıq birbaşa və dolayı vergiləri özündə birləşdirən vergi sistemləri formalaşmağa başlamışdır. Vergitutmanın nəzəri və praktiki problemlərinə, ümumiyyətlə iqtisadiyyat elminə əvəzsiz xidmətlər göstərən Uilyam Petti, Adam Smit və David Rikardonun fəaliyyəti də məhz bu mərhələyə təsadüf edir. Bu mərhələni vergitutma elminin çiçək-

lənməsi dövrü adlandırmaq olar. Belə ki, U.Pettinin «Vergi və yığımlar haqqında tədqiqat», A.Smitin «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat», D.Rikardonun «Siyasi iqtisadın və vergitutmanın başlanğıcı», K.Marksın «Kapital» adlı əsərləri məhz bu mərhələdə işıq üzü görmüşdür. Bir sıra dövlət qurumlarının yaranması, həmçinin vergilərin müəyyən edilməsi və yığılması prosesinə nəzarət məhz bu mərhələdə həyata keçirilmişdir.

Üçüncü mərhələ vergilərə dair nəzəri baxışların yaranması ilə xarakterizə olunur. Bu mərhələdə dövlət bütün sahələrdə olduğu kimi vergitutma sahəsində də idarəçiliyi öz əlinə cəmləşdirməyi qarşısına məqsəd qoymuşdur. Bununla belə müasir vergi sistemlərinin bünövrəsinin qoyulması və elmi cəhətdən əsaslandırılmış islahatların həyata keçirilməsi Birinci Dünya müharibəsindən sonra baş vermişdir. İkinci Dünya müharibəsindən sonra isə vergilərdən əsasən iqtisadiyyatın dövlət tənzimlənməsi vasitəsi kimi istifadə olunmağa başlanmışdır. Vergitutma elminin formalaşması dövrü hesab olunan bu mərhələdə Con Meynard Keyns, Adolf Vaqner, Artur Laffer kimi alimlər vergitutmanın nəzəri məsələlərinin təkmilləşdirilməsi və vergilərin elmi cəhətdən əsaslandırılmasına böyük əmək sərf etmişlər.

Ümumilikdə vergilərin yaranması, formalaşması və inkişafı tarixinin belə qruplaşdırılması qənaətbəxşdir. Lakin hesab edirik ki, birinci mərhələ XIII əsrə qədər olan dövrü, ikinci mərhələ XIII-XIX əsrləri, üçüncü mərhələ isə XX-XXI əsrləri əhatə etməlidir. Lakin istənilən mərəhələdə vergilər ən zəruri və «təhlükəli» sahə olaraq qalmışdır. Belə ki, ABŞ-da müstəqilliyin əldə edilməsində əsas hərəkətverici qüvvə müstəmləkəçi İngiltərənin tətbiq etdiyi vergilərə qarşı göstərilən müqavimət, yaxud, Fransa inqilabının mühüm səbəblərindən biri kralın vergi sahəsində etdiyi özbaşınalıqlar olmuşdur. Belə hadisələr hökmdarla-

rı daim vergi islahatları aparmağa vadar etmişdir. Analoji vəziyyət digər dövlətlərdə də müşahidə olunmuşdur. Bəzi dövlətlər vergi islahatı adı altında dolayı vergilərin dərəcələrini artırır, büdcə kəsirini azaltmağa cəhd göstərirdilər. Bu isə bilavasitə vergi ödəyicilərinin həyat səviyyəsinin aşağı düşməsinə gətirib çıxarırdı ki, bu da çox vaxt sinfi mübarizələrlə nəticələnirdi. Buna misal olaraq 1961-ci ildə Belcikada olan tətilləri göstərmək olar. O dövrdə bu tətillər nəticəsində tətbiq olunan yeni vergini hökumət nəinki ləğv elədi, hətta bu hadisə digər dövlətlərə də dərs oldu və onları vergi məsələlərinə ehtiyatla yanaşmağa vadar etdi. Lakin, vergilərin sosial-iqtisadi və siyasi həyata təsiri ilə yanaşı, ölkələrin mədəni həyatına da ciddi təsirləri olmuşdur. Misal üçün, Fransada evlərin pəncərələrinin sayına görə vergilərin tətbiqi, bu ölkənin arxitekturasına ciddi ziyan vurmuşdur. Belə ki, hələ də bu ölkədə pəncərəsiz evlərə rast gəlmək mümkündür. Yenə də Fransada torpaq üzərində tikilən evlərə yüksək vergi dərəcələrinin tətbiqi su üzərində və yaxud asma evlərin tikilməsinə gətirib çıxarmışdır ki, bu da ölkənin estetik görünüşünə mənfi təsir göstərmişdir.

Tarixi təcrübə göstərir ki, XVI-XVII əsrlərə qədər Roma İmperiyası istisna olmaqla heç bir dövlətdə mütəşəkkil vergi sistemi olmamışdır. Hər yerdə vergi ödənişləri birdəfəlik xarakter daşımış, onların sayı və dərəcələri hökmdarların subyektiv rəyindən asılı olmuşdur.

XIX əsrin əvvəllərindən başlayaraq vergitutmanın inkişafında yeni bir mərhələ başlandı. Təsadüfi deyil ki, bu dövr vergilərin sayının azalması, onların tutulmasının hüquqi bazasının yaranması ilə xarakterizə olunurdu. Bu dövrdə maliyyə elminin inkişafı ilə əlaqədar vergitutmanın nəzəri problemləri də təşəkkül tapırdı.

Həmin dövrdə iqtisadçılar vergilərin ölkənin iqtisadi vəziyyətinə təsir göstərmək üçün istifadə edilə bilməsi

haqqında düşünməyə başladılar. İstehsalın inhisarçı inkişafı ilə əlaqədar olaraq iqtisadiyyatın dövlət tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malik idi. Vergilər bir çox ölkələrin dövlət gəlirlərinin əsas mənbəyinə çevrilirdi. Vergi yolu ilə qazancın müəyyən bir hissəsi məcburi qaydada özgəninkiləşdirildiyindən tarix boyu vergi ödəyicilərinin ona münasibəti heç də birmənalı olmamışdır.

Uzun əsrlər boyu vergilərin inkişafı hər hansı xüsusi nəzəri təfəkkürün əsasında deyil, obyektiv və subyektiv səbəblərin təsiri nəticəsində meydana gələn təcrübəyə əsaslanaraq baş vermişdir. Bu səbəblərə misal olaraq müharibələri, fövqaladə halları, rəhbərlərin şəxsi arzusunu göstərmək olar. Lakin, tədricən müxtəlif düşüncələr, ayrı-ayrı iqtisadçıların, filosofların vergilərə, onların təbiətinə, istifadə etmək imkanlarına, istehsalla əlaqəsinə, istehlakın tənzimlənməsinə dair fikirləri vergitutmanı sistemləşdirilmiş şəklə salmışdır.

§1.4. İlk vergi nəzəriyyələri və iqtisadi baxışları.

Vergi sistemlərinin inkişafı ilə bərabər bütün bu prosesləri tənzimləyən vergi nəzəriyyələri də yaranmışdır. Bu nəzəriyyələrin təkamülü iqtisadi fikrin müxtəlif istiqamətlərinin inkişafı ilə eyni zamanda baş vermişdir.

Xarici ölkələrin vergi nəzəriyyələri öz xarakterinə görə çox fərqlidir. Çünki, bu nəzəriyyələr inkişaf etmiş ölkələrin maliyyə qanunvericiliyinə və ənənəvi iqtisadi vəziyyətinə uyğun yaranmışdır.

Orta əsrlərə qədər vergitutuma haqqında söylənilən fikirlər təsadüfi və sistemləşməmiş olsa da bu dövrdən başlayaraq vergi nəzəriyyəsi formalaşaraq özünün ən ali dərəcəsinə gəlib çıxmışdır. İlk vergitutma nəzəriyyələrindən biri olan mübadilə nəzəriyyəsinin əsas mahiy-

yəti vətəndaşların ödədikləri vergilərin müqabilində dövlətdən müdafiə, mühafizə və digər bu kimi xidmətləri almasından ibarətdir. Bu nəzəriyyənin digər variantı olan atomistik nəzəriyyəyə görə vergi vətəndaşlarla dövlət arasında bağlanan müqavilə əsasında yığılır və bu müqavilənin şərtləri əsasən vətəndaşların mühafizəsinin və müdafiəsinin həyata keçirilməsindən ibarətdir. Bu nəzəriyyəyə əsasən heç kim nə tətbiq olunan vergilərdən, nə də dövlətin göstərdiyi xidmətlərdən imtina edə bilməz. Göründüyü kimi, bu nəzəriyyələrin əsas mahiyyəti ondan ibarətdir ki, ödənilən vergilərin müqabilində dövlət vergi ödəyicilərinə hər hansı bir xidmət göstərir. Əslində isə dövlət ödənilən vergilərin müqabilində yalnız xidmətlər göstərmir, eyni zamanda iqtisadi inkişafa təkan verən layihələr də həyata keçirir, bu xidmətlər isə dövlətin cari xərcləridir və dövlət bu xərcləri hansı mənbələr hesabına olursa-olsun təmin etməyə borcludur. Atomistik nəzəriyyənin bir qolu kimi Jozef Humun «fiskal müqavilə» ideyasını xüsusi qeyd etmək olar. J.Hum «Vergilər haqqında» essesində yazır: «istehlaka vergilər müəyyən olunanda, işçilər ya xərclərini ixtisar etməli, ya da öz əməklərinin yüksək qiymətləndirilməsini tələb etməlidirlər. Belə olan halda vergi yükü varlıların üzərinə keçəcək. Əgər vergilər tədricən tətbiq olunarsa, işçilər əvvəlki kimi yüksək məhsuldarlıqla çalışacaqlar, lakin onların həyat səviyyəsi dəyişməz qalacaq və bu situasiya ölkəni iqtisadi artıma aparacaq.» Məhz bu ideyanın əsasında məşhur fransız iqtisadçısı Jan Jak Russo «fiskal müqavilə» nəzəriyyəsini və ya «dövlətlə vətəndaşlar arasında xidmət mübadiləsi» konsepsiyasını formalaşdırdı. Bu konsepsiyanın mahiyyəti isə ondan ibarət idi ki, vergilər - ayrı-ayrı şəxslərin ictimai həyatda tam şəkildə iştirakıdır.

VIII əsrdə görkəmli iqtisadçı-hüquqşünas alim **Əbu Yusif** Yaqub İbrahim əl-Kufi vergi nəzəriyyəsinə öz töhfə-

lərini vermişdi. Əbu Yusif uzun illər Bağdadın baş hakimi ola-ola Harun ər-Rəşidin vergi məsələləri üzrə məsləhətçisi olub və onun göstərişi ilə vergilərin hesablanması və tutulması qaydalarını özündə əks etdirən «Kitab əl-Xərac» klassik əsərini yazıb. «Kitab əl-Xərac» tərcümədə «müsəlmanlarda vergitutma» mənasını verir. Əbu Yusif bu əsərində yalnız vergitutmanın hüquqi aspektlərinə deyil, dövlətin iqtisadi siyasətinin hüquqi məsələlərinə də toxunur. Əsərdə dəfələrlə təkrarlanır: «vergitutma qaydalarının daha dəqiq işləməsi və əhalinin gəlirlərinin və əmlakının mühafizəsi üçün vergi toplayanların səlahiyyətlərini azaltmaq lazımdır». Əbu Yusif yazır: «xərac ödəyicilərinə onların ödəməli olmadıqlarını ödətdirmək, bilərəkdən zor tətbiq etməkdir ki, bu da heç kimə icazə verilmir». Əsərdə əsas diqqət vergi yükünün düzgün və bərabər paylanmasına yönəldilir və əsas kimi vergi ödəyicisinin ödəmə qabiliyyəti götürülür.

«Kitab əl-Xərac» əsərində ilk dəfə olaraq faydalı qazıntıların vergiyə cəlb olunmasına da münasibət bildirilib. Hələ o dövrdə Əbu Yusif iddia edirdi ki, faydalı qazıntıların aşkar olunmuş hövzəsini deyil, çıxarılan qızılı, gümüşü, dəmiri vergiyə cəlb etmək lazımdır. Lakin bu məsələdə əsas çatışmazlıq faydalı qazıntıları çıxaran şəxslərin, onların çıxarılmasına çəkdikləri xərclərinin vergi tutularkən nəzərə alınmaması idi. Belə ki, bəzən, çəkilən xərclər gəliri üstələyirdi. Buna baxmayaraq, vergi ödəyicisi təmizlənmiş metalın 1/5-i həcmində vergi ödəməli idi.

Əbu Yusif «Kitab əl-Xərac» əsərində vergi inzibatçılığının prinsiplərinə də aydınlıq gətirib. Əbu Yusif yazır: birincisi, vergi toplayanların xərci topladıqları məbləğlərdən çox olmamalıdır, ikincisi, vergi toplamağı dürüst insanlara etibar etmək lazımdır və onlar məsuliyyətli, etibarlı, qanun tərəfdarı, qanunu bilən olmalıdır, üçüncüsü, vergi ödəyicilərinin qarşısına qoyulan tələblər, vergi yığanla-

rın da qarşısına qoyulmalıdır. Belə ki, «vergini toplayanda ədalətsizliyə yol verən vergi yığan, vergini ödəməkdən boyun qaçıran vergi ödəyicisi qədər günahkardır». Bu məqsədlə Əbu Yusif vergi yığanların fəaliyyətinə daim nəzarət etməyi təklif edirdi.

XIII əsrdə görkəmli alim **Nəsirəddin Tusinin** (1201-1274) vergitutmaya dair nəzəri baxışları olmuş və o, «Maliyyə haqqında tədqiqat» əsərini yazmışdır. Avropada bu əsəri 1940-ci ildə şərqşunas-alimlər M.Minovi və B.Minorski Londonda çap etdirərək sərhini verdikdən sonra tanımışlar. Ümumilikdə «Maliyyə haqqında tədqiqat» əsəri o dövr üçün dövlətin maliyyə quruculuğunun icmalı hesab olunur. Belə ki, bu əsərdə N.Tusi vergitutma prinsiplərinin təkmilləşdirilməsi və səmərələşdirilməsi barədə külli miqdarda qiymətli ideya və təkliflər, həmçinin feodal dövlətinin gəlir və xərclərinin tövsiyə olunan təsnifatı sistemini vermişdir. Bu əsərdə N.Tusi, o dövrdə mövcud olan 37 növ vergi və yığımların ləğv edilməsini və onların 4 verginin tərkibində birləşməsini təklif edirdi. O dövr üçün bu islahat böyük hadisə idi. Belə ki, iqtisadi fikir tarixində N.Tusi ilk dəfə olaraq vergitutmanın diferensiallıq prinsipini irəli sürmüş və xərac vergisi üzrə daxilolmaların üç prinsipini fərqləndirmişdir. O, dövlətin büdcəsinin təsnifatını verərək, dövlətin gəlir və xərclərini iki kateqoriyaya ayırır, padşahın gəlir və xərclərini ayrıca maddədə qeyd edirdi. Çünki, o dövr üçün padşahın xərcləri dövlətin xərclərini çox üstələdiyi. Ümumilikdə, bu əsərin dövlətin maliyyə sisteminin səmərəli formalaşması və cəmiyyətin inkişafı istiqamətində böyük əhəmiyyəti olmuşdur. Belə ki, o dövrdə vergi yükünün azaldılması və iqtisadi inkişafın stimullaşdırılması istiqamətində islahatların aparılması müasir şəraitdə də öz aktuallığını qoruyub saxlayır.

XIV əsrdə də vergitutmaya dair nəzəri fikirlər və təkliflər olmuşdur. XIV əsrin görkəmli iqtisadçılarından biri

Əbdürrəhman ibn Məhəmməd ibn Xaldun əl Xədramidir (1332-1406) **(İbn Xaldun)**. Məhz İbn Xaldunun iqtisadi fikirləri amerika iqtisadçısı A.Lafferi məşhur əyrisini yaratmağa sövq etmişdir. İbn Xaldunun ideyalarinin əksini biz «Təklif iqtisadiyyatı» nəzəriyyəsində görürük. İbn Xaldun iqtisadiyyatın funksiyalarını sistemləşdirən, onun texniki bazasının zəruriliyini və əhəmiyyətini qeyd edən, xarici ticarət və istehsalın ixtisaslaşmasını təklif edən ilk alim olmuşdur. O, eyni zamanda əhalinin məşğulluğunun və istehsal qabiliyyətinin yüksəldilməsində dövlətin iqtisadi siyasətinin rolunu da təhlil etmişdir.

İbn Xaldunu maraqlandıran digər məsələlər optimal vergitutma sisteminin qurulması, dövlət xidmətinin ixtisara salınması, güzəştlər sisteminin formalaşması, normativ hüquqi bazanın təkmilləşdirilməsi, istehsalın artırılması, iqtisadiyyatın inkişaf etdirilməsi və qiymətlərin sabitləşdirilməsi idi. İbn Xaldunun əsas məqsədi dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün tələb olunan vəsaitləri minimal vergitutma yolu ilə xəzinəyə cəlb etmək idi.

İbn Xaldun hesab edirdi ki: optimal vergitutma o yerdə olur ki, orada dövlət vergilər vasitəsilə istehsal və ticarətə müdaxilə etmir. Belə ki, əgər dövlət öz bürokratik sistemini genişləndirmək və müdafiə ordusunu qüvvətləndirmək üçün yüksək vergitutmadan istifadə edərsə, iqtisadi artım səviyyəsi aşağı düşər, ixtisaslaşma, istehsal və ticarət zəifləyər.

İbn Xaldun yazır: «Onlar (dövlət, hökümət) hətta şəhərə getmək üçün də yığım toplayırlar. Yeni tətbiq olunan vergilərin həcmi dövlətin zənginliyə can atdığına və bununla da əlavə xərclərin əmələ gəldiyinə görə getdikcə yüksəlir. Artım isə kiçik hissələrlə, lakin, tez-tez həyata keçirildiyindən bəzi ödəyicilər bunu heç başa da düşmürlər. Buna görə də yüksək vergitutma, qüvvətli ordu və bürokratik aparat iqtisadi aktivliyə mənfi təsir göstərir».

İbn Xaldunun fikrincə ən yaxşı dövlət - minimal bürokratik aparatı, minimal ordusu, hansının ki, vəzifəsi yalnız qanun-qaydanı təmin etməkdir və dövlətin fəaliyyətinin maliyyələşdirilməsi üçün minimal vergitutma tətbiq edəndir. İbn Xaldun vergi və yığımları - dövlətin materiyasının yaradıcısı hesab edərək qeyd edirdi ki: vergilərin ölçüsü nə qədər aşağı müəyyənləşdirilərsə istənilən dövlətin, şəhərin və ya cəmiyyətin çiçəklənməsi realdır. Əhalidən güc ilə yüksək vergilər toplamaq onları əməyin nəticələrindən məhrum edir və dövlətin inkişafını məhdudlaşdırır. Vergilər stabil oldüqda isə insanlarda əməyə və istehsala qarşı maraq yaranır.

İbn Xaldun «Müqəddimə» əsərində yazır: «bilin – istənilən dövlət yalnız qanunvericiliklə müəyyən olunmuş vergiləri (sədəqə, ianə, xərac, torpaq vergisi, cizyə) toplayırsa, hansıların ki, həcmi elə də böyük deyil, o dövlət sürətlə inkişaf edir. Əksinə əlavə vergi və yığımlar toplayan dövlət ilk vaxtlarda inkişaf edəcək, sonradan isə təcrübəsizlik, səriştəsizlik, diqqətsizlik onları iflasa uğradacaq. Çünki, birinci halda vergi ödəyiciləri məlum olan vergiləri ödədikləri üçün daha həvəslə işləyirlər, istehsalı artırırlar və s... İkinci halda isə məlum vergilərdən və əlavə yığımlardan yayınmaq üçün yollar axtarırlar».

§1.5. Klassik vergi nəzəriyyəsi.

Uilyam Petti (1623-1687), Adam Smit (1723-1790) və David Rikardonun (1772-1823) adları ilə bağlı olan klassik vergitutma nəzəriyyəsi daha yüksək nəzəri səviyyəyə malikdir. İqtisadiyyat elminə əvəzsiz töhvələr verən bu iqtisadçılar elmi əsərlərində vergitutmaya öz münasibətlərini bildirmiş və bu gün də öz əhəmiyyətini itirməyən nəzəri baxışlarını əks etdirmişlər. **U.Petti** ilk dəfə olaraq

vergiləri sistemləşdirilmiş şəkildə öyrənməyə başlamışdır. Onun ən böyük əsəri olan «Vergi və yığımlar haqqında tədqiqat» əsərinin girişində yazılır: «... İrlandiyada böyük bir ordu saxlanılır və bu ordunu saxlamaq üçün yüksək vergitutmaya ehtiyac vardır. Bu baxımdan İrlandiya üçün vergi və yığımların təbiətini və ölçülərini bilmək zəruridir». Əsərdə U.Petti bütün növ vergi və yığımları İrlandiyanın timsalında sitemləşdirməyə cəhd göstərib. Vergi problemləri ilə paralel olaraq o, dövlət xərclərinin müxtəlif növlərini təhlil etmiş, dövlət xərclərini artıran səbəbləri araşdırmışdır. Bu əsərdə maraqlı məqamlardan biri də U.Pettinin vergi ödəyicilərinin narazılığını azaltmaq istiqamətində düşüncələridir. Əsərdə o yazır: «verginin həcminin nə qədər olmasından asılı olmayaraq, əgər vergi hamıya mütənasib qaydada eyni həcmdə tətbiq olunarsa, bu vergi ödəyicisinə elə də ciddi təsir göstərməz. Əksinə insanları ən çox qıcıqlandıran səbəb onların qonşularından daha çox vergi ödəməsidir. Belə olan halda insanlar yığılan vergilərin necə xərclənəcəyi barədə də düşünməyə başlayırlar». Belə düşüncələr müasir dövrdə də öz aktuallığını itirməyib. Çünki, indi də çətinliklə yığılan vergilər heç də həmişə rasional qaydada istifadə olunmur.

U.Petti əsərdə daha çox diqqəti vergitutmanın müxtəlif üsullarına yönəldir, dövlətin xərclərini təmin etmək üçün ümumi məbləği müəyyənləşdirməyin zəruriliyini qeyd edir və xəzinəyə bu məbləği yığmaq üçün müxtəlif yollar təklif edir. O hesab edirdi ki, əgər insan faktiki olaraq yeyirsə, içirsə, geyinirsə və digər ümumi sərvətlərdən istifadə edirsə, deməli o, dövlətin xərclərinin təmin olunmasında da iştirak etməlidir. O təklif edirdi ki, məhsul istehlak ediləndə vegiyə cəlb olunmalıdır. Yəni, buğdanı deyil, ondan hazırlanan istehlak mallarını vergiyə cəlb etmək lazımdır.

U.Petti elmi fəaliyyətində dolayı vergilərə üstünlük vermiş və dolayı vergitutmanın sərfəli olduğunu nəzəri cəhətdən sübut etmişdir. O, dolayı vergilərin, xüsusilə aksizlərin xeyrini bir neçə istiqamətdə əsaslandırmışdır. Onun fikirlərinə əsasən ilk növbədə ədalətlilik prinsipi, həqiqətən hər kəsin istehlak etdiynə uyğun vergi ödəməsini tələb edir. Bu baxımdan aksiz vergisi məcburi hesab oluna bilməz və onun ödəyiciləri öz tələbatlarına uyğun əldə etdikləri mallara görə müəyyən olunan vergini təbii hal kimi qəbul edir və məmnuniyyətlə ödəyirlər. İkincisi, bu vergi iltizam üsulu ilə yığılmadıqda və mütəmadi olaraq qanunauyğun şəkildə toplanıldıqda xalqın sərəncamında daha çox vəsait qalır ki, bu da onların varlanmasının yeganə üsulu hesab olunur. Üçüncüsü, heç bir şəxs aksiz vergisi üzrə eyni mala görə iki dəfə vergiyə cəlb edilmir. Düzdür, ayrı-ayrı hallarda insanlar eyni zamanda torpaqlarından renta, tüstü vergisi və rüsumlar ödəyirlər. Aksizlərdə isə heç bir şəxs bir dəfədən artıq vergiyə cəlb edilmir. Nəhayət, bu üsulla vergitutma dövlətin gücü, sərvəti və iqtisadi artımı haqqında təsəvvürlər yaratmağa imkan verir. Petti vergilərin ödənilməsini - yemək qədər zəruri hesab edirdi.

Klassik məktəbin digər nümayəndəsi **A.Smitin** 1776-cı ildə nəşr etdiyi «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» adlı kitabında, onun vergitutmaya dair nəzəri baxışları və bu gün də aktuallığını qoruyub saxlayan prinsipləri əks olunmuşdur. O, belə qənaətdə idi ki, ölkənin varlanmasının əsas şərti təsərrüfat fəaliyyətinin müstəqilliyidir. Çünki, dövlət ölkənin iqtisadi həyatına nə qədər az müdaxilə edərsə, təsərrüfatların inkişafı bir o qədər sürətlə gedər. A.Smitin iqtisadi platformasında maliyyə məsələləri önəmli yer tuturdu. Belə ki, o vergi proqramının əsasını qoymuş və vergi nəzəriyyəsini inkişaf etdirmişdir. Onun «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» adlı əsərinin birinci kitabı

bütövlükdə dövlətin maliyyə məsələlərinə həsr olunub. A.Smit dövlətin gəlir mənbələri məsələlərinə münasibət bildirərək qeyd edirdi ki, ictimai kapital və torpaqlar dövlətin xərclərini ödəməyə qadir deyil, buna görə vergilərdən istifadə etmək lazımdır. Onun fikirlərinə əsasən dövlətin vətəndaşları imkan daxilində öz gücü və bacarığına müvafiq, dövlətin himayəsi və müdafiəsi sayəsində əldə etdiyi gəlirinə uyğun hökumətin saxlanılmasında iştirak etməli, hər bir şəxsin ödəməli olduğu vergi, onun ödənilmə vaxtı və məbləği əvvəlcədən dəqiq müəyyən olunmalı, vergilər vergi ödəyicilərinə uyğun olan vaxtda və qaydada tutulmalı, vergi yükü vergi ödəyicilərinin gəlirlərinə uyğun olmalı və nəhayət, vergi ödəyicisi vergi yığanın təsiri altına düşməməlidir.

A.Smitin iqtisadi irsini onun davamçısı olan **D.Rikardo** inkişaf etdirmişdir. D.Rikardo da öz əsərlərində vergitutmaya geniş yer vermiş və ən böyük tədqiqatı olan «Siyasi iqtisadın və vergitutmanın başlanğıcı» (1817) əsərini iqtisadiyyat və vergitutmanın problemlərinə həsr etmişdir. 32 bölümdən ibarət olan bu əsərin 11 bölümü vergitutmanın nəzəri və praktiki məsələlərinə həsr olunmuşdur. D.Rikardo ilk dəfə olaraq vergi anlayışını açıqlamışdır. Onun fikirlərinə əsasən: Vergilər ölkənin əməyinin və torpağın məhsulunun hökumətin sərəncamına daxil olan hissəsini təşkil edir. D.Rikardo «Siyasi iqtisadın və vergitutmanın başlanğıcı» əsərində vergitutmanın prinsiplərini də əsaslandırmış və ədalətlilik prinsipini ön plana çəkmişdir. Onun fikirlərinə əsasən, vergiləri ödəmək qabiliyyəti hər bir insanın pul gəlirlərinin dəyərinin, istehlak etdiyi malların dəyərinə mütənasib olmağından çox asılıdır.

D.Rikardo düşünürdü ki, istehsalın fəaliyyət sahəsini genişləndirmək üçün kapitala toxunmamalı və vergilər yalnız gəlirlərdən tutulmalıdır, çünki, kapitalın azalması istehsalın aşağı düşməsinə gətirib çıxarır. D.Rikardo tət-

biq edilən vergiləri də ayrı-ayrılıqda təhlil etmiş və xüsusi münasibət bildirmişdir. İlk növbədə o, gəlirin azalmamağı üçün xammala tətbiq edilən vergilərlə ehtiyatlı olmağı təklif etmişdir. Torpaq vergisini isə renta vergisi ilə eyniləşdirərək hər iki verginin tətbiqinin A.Smitin prinsiplərinə zidd olduğunu əsaslandırmışdır. O, hesab edirdi ki, yalnız bir təbəqəni vergiyə cəlb etmək ədalətsizlikdir və dövlət xərclərinin yükünü hər bir vətəndaş çəkməlidir. Bütün qeyd olunanlarla bərabər D.Rikardo sübut edirdi ki, «vergilər-bəladır». Çünki, onlar istehsalın inkişafının stimulunu məhv etmək tendensiyasına malikdirlər və vergilərin səmərəsizliyi ondadır ki, vergilər vasitəsi ilə dövlətin əlinə keçən vəsaitlər istehsalın inkişafında istifadə oluna bilər. Bu baxımdan vergilərin məhdudlaşdırılmasına çalışmaq lazımdır. Bundan əlavə D.Rikardo bu əsərində vergilərlə qiymətin və gəlirlərin əlaqəsini də əsaslandırmışdır. Onun fikrincə: hər hansı bir mala tətbiq olunan vergi həm qiymətlərə, həm də onu istehlak edənin gəlirlərinə təsir göstərir.

Göründüyü kimi, klassik məktəbin nümayəndələri öz elmi fəaliyyətlərində vergitutmaya önəmli yer vermiş və vergi nəzəriyyəsinin formalaşması və inkişafında əvəzsiz xidmətlər göstərmişlər.

§1.6. Vergitutmaya dair nəzəri baxışlar.

XVIII əsrdə fiziokratlar məktəbinin əsasını qoyan fransız iqtisadçısı **Fransua Kenenin** (1694-1774) vergilərə nəzəri baxışları daha böyük maraq doğurur. Onun fikirlərinə əsasən vergilər çətinlik yaratmamalı və gəlirlərin həcminə mütənasib olmalıdır. F.Kene dövlətin gəlirlərinin formalaşmasında iştirak edən və fiskal funksiyanı yerinə yetirən vergiləri öz əsərlərində daha geniş təhlil edərək

belə nəticəyə gəlmişdir ki, ayrı-ayrı təbəqələrə vergilərin müəyyənləşdirilməsi mexanizmi xalqın yoxsulluğuna səbəb olur və ədalətsizlik yaradır. O, hesab edirdi ki, dövlət üçün vergilər deyil, onların tətbiqi üsulları daha təhlükəlidir. Bu məqsədlə o, kəndlilərin və sənətkarların vergidən azad edilməsini və vergiləri torpaq sahiblərinin ödəməsini təklif edirdi. F.Kene vergitutma ilə bağlı prosesləri tənzimləmək üçün müəyyən prinsiplər hazırlamışdır. Onun prinsiplərinə əsasən vergilər milli gəlirin həcminə mütənasib olmalı və soyğunçu xarakteri daşımamalı, vergilərin dərəcələrinin yüksəldilməsi milli gəlirin artım tempinə uyğun həyata keçirilməli və vergilər əmək haqqından deyil, hazır məhsuldan tutulmalıdır.

XIX əsrdə digər nəzəriyyələrdən qismən fərqlənən ləzzət nəzəriyyəsi meydana gəldi. Bu nəzəriyyəni elmə daxil edən isə İsveçrəli **Jan Simond de Sismondi** idi. O, ödənilən vergilərin müqabilində dövlətdən alınan xidmətlərdən istifadəni böyük zövq və ləzzət hesab etmiş və bütün bunları «Siyasi iqtisadın yeni başlanğıcları» (1819) adlı əsərində həm nəzəri, həm də təcrübi nöqteyi-nəzərdən əsaslandırmışdır.

XX əsrin əvvələrində yaranan **Keyns** nəzəriyyəsi özündə klassik nəzəriyyənin tam əksini təcəssüm etdirir. Məhşur ingilis iqtisadı Con Meynard Keynsin (1883-1946) adı ilə bağlı olan bu nəzəriyyəyə əsasən vergilər yalnız iqtisadiyyatı tənzimləmək üçün istifadə olunan bir vasitədir. C.Keyns vergitutmanın proqressivliyinin tərəfdarı idi və hesab edirdi ki, proqressiv vergi sistemi istehsalçını kapital qoyuluşu istiqamətində risk etməyə stimullaşdırır. Onun nəzəriyyəsinin başlıca müddəası ondan ibarətdir ki, iqtisadi inkişaf tam məşğulluq şəraitində əhalinin pul yığımlarından asılı olur. Əgər məşğulluq yoxdursa, deməli iri həcmli yığımlar iqtisadi inkişafa mane olur, çünki, onlar

istehsala qoyulmur və passiv gəlir mənbəyinə çevrilirlər. Bu halda isə dövlətin iqtisadiyyata vergilər vasitəsilə müdaxiləsinə zərurət yaranır ki, yığılan bu vəsaitlər hesabına investisiya, həmçinin cari dövlət xərcləri maliyyələşdirilir. Keyns nəzəriyyəsinə əsasən vergilər iqtisadi sistemdə qurulmuş elastiklik mexanizmidir və bu mexanizmdə yüksək vergilər aparıcı mövqeyə malikdirlər. Büdcə gəlirlərinin ayrılmaz hissəsi olan vergilər iqtisadiyyatın tənzimlənməsinə təsir göstərir. Belə ki, vergi daxilolmalarının azalması büdcə gəlirlərinə birbaşa təsir edir və iqtisadi dayanıqsızlığı kəskinləşdirir. Vergilər isə bu prosesi tənzimləyir. Keynsə görə iqtisadi artım zamanı vergi qoyulan gəlir, vergi daxilolmalarından zəif inkişaf edir, əksinə, böhran zamanı isə vergilər, gəlirlərdən sürətlə aşağı enir. Bu baxımdan vergi daxilolmaları yalnız vergi dərəcələrinin səviyyəsindən deyil, həmçinin vergi qoyulan gəlirlərin həcminin dəyişməsindən də asılıdır. Təcrübədə Keyns nəzəriyyəsini Birinci dünya müharibəsindən əvvəl, dövlətin bütün gücünün hərbi-sənaye istehsalının inkişafına yönəlməsinə baxmayaraq İngilis hökuməti uğurla tətbiq etmişdir. Ümumi nəticədə Keyns nəzəriyyəsinə görə vergilər iqtisadiyyatın tənzimlənməsində mühüm rol oynamalıdır.

XX əsrin ortalarında tanınmış iqtisadçı **Milton Fridman** (1912-2006) tərəfindən irəli sürülən monetarizm nəzəriyyəsinə əsasən dövlət iqtısadi sabitliyə, iqtisadi artıma nail olmaq üçün, ümumıyyətlə, dövlət büdcəsinin balansını qoruyub saxlamaq üçün pul faktorundan geniş istifadə etməli, pulun axını, emissiyası və dövriyyəsi üzərində nəzarəti gücləndirməlidir. Onun fıkrincə iqtisadiyyatın tənzimlənməsini pul dövriyyəsi vasitəsi ilə həyata keçirmək olar. Bu zaman vergilər çox da əhəmiyyətli rol oynamırlar. Vergilər digər mexanizmlərlə bərabər pul dövriyyəsinə təsir göstərirlər. Vergilər vasitəsi ilə artıq pul kütləsi dövriy-

yədən çıxarılır. Pul kütləsinin dövriyyədən çıxarılması isə pul kütləsinin tənzimlənməsinə kömək edə bilər. Bu nəzəriyyədən belə nəticə çıxır ki, vergilərin azaldılması ilə pul kütləsi və faiz dərəcəsi ilə manipulyasiya edilməsinin vəhdəti həm dövlət, həm də xüsusi müəssisələrin fəaliyyət mexanizminin sabitləşdirilməsinə imkan verir.

Məşhur alman alimi **Adolf Vaqner** (1835-1917) bu gün də öz əhəmiyyətini itirməyən vergiqoymanın 9 prinsipini 4 qrupda təsnifləşdirərək sistemli şərhini vermişdir. Onun prinsiplərində verginin elastikliyi, vergiqoyma mənbəyinin seçilməsi, ədalətlilik prinsipi, inzibati-texniki qaydalar, verginin müəyyənliyi, vergının ödənilməsinin rahatlığı, vergi tutulması ilə bağlı xərclərin maksimum azaldılması əks olunmuşdur. A.Vaqner vergitutmanın problemlərini tədqiq edərək, vergi nəzəriyyəsinin də əsas problemlərinə toxunmuşdur. O, proqressiv vergitutmanın tərəfdarı idi və vergi daxilolmalarının əsas mənbəyini xalq təsərrüfatından gələn təmiz gəliri hesab edirdi. A.Vaqner maliyyə siyasətini elə həyata keçirməyi təklif edirdi ki, yığılan vergilər yalnız müəyyən olunmuş maliyyə dövrünü deyil, daha uzun bir dövrü əhatə etsin. O, vergitutmada vergi mənbəyinin düzgün seçilməsini, vergilərin vergi ödəyicisinə təsirinin yüngülləşdirilməsini, vergi planlaşdırılmasının qanunauyğun həyata keçirilməsini iqtisadi prinsiplərin əsası hesab edirdi. Onun ədalətlilik prinsipi ümumi bərabərliyə əsaslanırdı. A.Vaqner bura ümumilik, bərabərlik, aşağı gəlirlərin vergidən azad edilməsi və proqressivliyi daxil etmişdi və vergitutmanın idarə olunmasında müəyyənliyi və vergi ödəyiciləri üçün rahat ödəmə şəraitini əsas meyar hesab edirdi.

Vergi nəzəriyyəsinin inkişafına xüsusi töhfəni marjinalist məktəbi vermişdir. **Marjinalist məktəbi**nin nümayəndələri A.Kurno (Fransa), İ.Tyunen, Q.Qossen (Alma-

niya), K.Menqer, F.Vizer, E.Bem-Baverk (Avstriya) iqtisadi proseslərin tədqiqində dəyər və qiymətəmələgəlmə məsələləri ilə bərabər vergitutma məsələlərini də təhlil etmişlər. Marjinalist məktəbi iqtisadi problemlərin tədqiqini bərabərliyin təmin olunmasına yönəltmişdir ki, bu məqsədə də çatmaqda onlar əsas alət kimi vergilərdən istifadə edirdilər. Marjinalist məktəbinin tədqiqatları vergitutmanın müasir proqressivliyi prinsipinin yaranması ilə nəticələndi. Düzdür, bu nəticə ayrı-ayrı iqtisadçılar tərəfindən tənqidə məruz qalsa da, marjinalistlər bu nəticəni əsaslandırmağı bacarmışdılar.

Marjinalist məktəbinin vergitutma elmi üçün vacib iqtisadi əhəmiyyəti olan ikinci addımı vergi tutulmayan minimum həddin müəyyən olunması olmuşdur. Vergi tutulmayan minimum həddin müəyyən olunması ideyasını bəyənən bir sıra inkişaf etmiş ölkələr sınaqdan keçirmiş və müsbət nəticələr almışlar. Hazırda dünya ölkələrinin əksəriyyətində bundan geniş istifadə olunur.

Vergi nəzəriyyəsinin inkişafında **Knut Viksellin** (1851-1926) də xüsusi rolu olmuşdur. İsveç iqtisadçısı K.Viksell öz tədqiqatlarında səmərəlilik və qiymət nəzəriyyələrini birləşdirməyə cəhd göstərmiş, vergi konsepsiyasını Rifah halı nəzəriyyəsinin prinsiplərinə söykənərək qurmuşdur. «Vergi sisteminin yeni prinsipləri» əsərində K.Viksell vergilərə ilk növbədə sərhədsiz dövlət xərclərinin maliyyələşdirilməsi mənbəyi kimi baxıb. Onun vergi prinsipləri birbaşa vergi inzibatçılığı ilə əlaqələnirdi. K.Viksell vergilərin parlament tərəfindən təsdiq olunmasını zəruri hesab edirdi. Viksell vergi ödəyicilərindən alınan vəsaitlərin onlara müxtəlif dövlət xidmətləri vasitəsilə qaytarılmasını zəruri hesab edirdi. K.Viksell yüksək vergi xərclərinin əleyhidarı idi. Çünki, yüksək vergi xərcləri tələbi ixtisar edir. O, hesab edirdi ki, dolayı vergitutma sistemi im-

kanlılara vergidən yayınmağa şərait yaradır. Onun fikrincə, yüksək vergiləri yüksək gəliri olanlar ödəməlidir və vergilər əhalinin sosial qruplarının rifah halını pisləşdirməməlidir.

Knut Viksellin ideyalarını, davamçısı isveç iqtisadçısı **Erik Lindal** (1891-1960) inkişaf etdirmişdir. Onun «Vergi prinsipləri və vergi siyasəti» əsəri (1960) vergi nəzəriyyəsi üçün böyük hədiyyədir. E.Lindalın vergi prinsiplərinin əsasını səmərəlilik, bərabərlik və gəlirlərin eyniləşdirilməsi təşkil edirdi. Lindal vergiləri dövlətin göstərdiyi xidmətlərin dəyəri kimi qiymətləndirirdi. Bütün vergi ödəyicilərinin müxtəlif rifah halına sahib olmasını qeyd edən Lindal hesab edirdi ki, «müxtəlif vergi dərəcələri cəmiyyətdəki qeyri-tarazlığı bərpa edir».

XX əsrdə vergitutmanın inkişafında xüsusi yeri olan iqtisadçı alimlərdən biri **Artur Sesil Piqu**dur (1877-1959). Kembric neoklassik məktəbinin yaradıcısı olan Alfred Marşalın tələbəsi olan A.Piqu iqtisadiyyatın praktik məsələlərini və sosial-iqtisadi siyasətin ayrı-ayrı aspektlərini tədqiq etməklə yanaşı rifah halının iqtisadi nəzəriyyəsini tədqiq etməklə də böyük şöhrət qazanmışdır. Məhz onun adı ilə bağlı olan Piqu vergiləri mənfi xarici təsir vasitələrinin korrektə olunması məqsədilə tətbiq olunan vergilərdir. Piqu vergilərinin tətbiq olunduğu ən geniş sahə tullantı sferasıdır. Hesab edilir ki, bu vergilər tullantıların həcminin azalmasına səbəb olur. Misal üçün: İki zavod (kağız istehsalı zavodu və dəmir istehsalı zavodu) hər biri ildə çaya 500 ton tullantı axıdır. Dövlət bunu azaltmaq üçün həlli yollarını axtarır və iki çıxış yolu təklif edir: Tənzimləmə - hər bir zavoda tapşırılır ki, tullantılarını 300 tona qədər azaltsın; Piqu vergisi - hər bir ton tullantıya görə 50 min dollar vergi ödəsin. Birinci halda dövlət müəssisələrə öz şərtlərini təklif edir, ikinci halda isə tullantıların səviyyə-

sini azaltmaq üçün zavod sahiblərində iqtisadi stimul yaradır. İqtisadçıların əksəriyyəti ikincini, yəni vergini seçirlər. Çünki, vergilər tullantıların səviyyəsini aşağı salmaq üçün ən effektli metoddur. Yəni vergi nə qədər yüksəkdirsə çirklənmə bir o qədər az olacaq. Düzdür müəssisələrin hər birindən eyni miqdarda tullantı ixtisarı tələb etmək düzgün deyil. Çünki, əgər kağız istehsalı müəssisəsi üçün tullantıları ixtisar etmək asandırsa, dəmir istehsalı ilə məşğul olan müəssisə üçün bu olduqca çətindir. Kağız istehsalı müəssisəsi birinci yolu seçə bilər, dəmir istehsalı müəssisəsi isə hətta bağlanmaq təhlükəsi ilə də qarşılaşa bilər. Əslində Piqu vergisinin əsas məqsədi gəlir gətirmək yox, ətraf mühiti tullantılardan mühafizə etməkdir. Digər tərəfdən dövlət bu vergini o vergi ödəyicilərinə tətbiq edir ki, onların tullantıları olduqca iri həcmlidir. Tullantılarının həcmini 300 tona endirə bilməyən müəssisə isə məcburdur yeni istehsal sahələri yaratsın ki, tətbiq olunan vergiləri ödəyə bilsin. Bu isə istehsalı artırır, işsizliyi minimuma endirir, iqtisadi artıma təkan verir. Deməli Piqu vergiləri iqtisadiyyatı stimullaşdırır. Piqu vergilərini digər vergilərdən fərqləndirən əsas xüsusiyyət onun sosial-iqtisadi rifah halının yüksəldilməsinə və iqtisadi səmərəliliyin artmasına səbəb olmasıdır.

Keyns məktəbinin parlaq davamçısı Nobel mükafatı laureatı, məşhur «İqtisadiyyat» kitabının müəllifi **Pol Samuelson**dur. O, vergiləri, vergi siyasətini iqtisadiyyatın tənzimlənməsinin əsas aləti hesab edir. Onun fikrincə - vergilər vasitəsilə makroiqtisadi artım və iqtisadi stabillik stimullaşır, işsizlik və inflyasiya aşağı düşür, iqtisadi artım genişlənir. Pol Samuelson vergi sisteminin təşkilinin dörd prinsipini fərqləndirir: Alınan səmərə əsasında vergitutma prinsipi - yəni vergi ödəyicisinin ödədiyi vergi onun götürdüyü səmərəyə uyğun olmalıdır; Ödəmə qabiliyyətinə

əsaslanan vergitutma prinsipi - yəni vergi ödəyicisi tərəfindən ödənilən vergi məbləği onun gəlirləri və rifah halına uyğun olmalıdır; Ədalətlilik prinsipi - yəni vergilər vergi ödəyicisinə münasibətdə ədalətli müəyyən olunmalıdır; Bərabərlik prinsipi - yəni bərabər gəlirə malik olan vergi ödəyiciləri bərabər vergi ödəməlidirlər.

Pol Samuelson vergilərlə qiymət arasında olan əlaqəyə də öz əsərlərində geniş yer verib. O, hesab edirdi ki, vergilər qiymətin formalaşmasında mühüm rol oynayır. Hər bir istehsalçı vergi yükünü istehlakçının üzərinə keçirməyə çalışır və istər-istəməz qiymətləri artırır. Bu isə tələb və təklifin tarazlığının pozulmasına gətirib çıxarır.

Vergi nəzəriyyəsinin inkişafında xüsusi rolu olan iqtisadçılardan biri Nobel mükafatı laureatı **Djozef Stiqlits**dir. (1943) ABŞ-ın timsalında vergi sistemini tədqiq edən D.Stiqlits əsas diqqətini vergitutmanın təcrübi problemlərinə - vergi yükünə, optimal vergitutmaya, kapitaldan vergitutmaya, fərdi gəlirlərdən vergitutmaya, vergidən yayınma hallarının aradan qaldırılmasına və vergi islahatlarına yönəltmişdir. D.Stiqlits vergi sisteminin 5 prinsipini fərqləndirir: İqtsadi səmərəlilik prinsipi - yəni vergi sistemi iqtsadi cəhətdən səmərəli olmalıdır; Sadə inzibatçılıq prinsipi - yəni vergi inzibatçılığı sadə və ucuz olmalıdır; Çeviklik prinsipi - yəni vergi sistemi iqtisadi şəraitin dəyişməsinə hər zaman reaksiya verməyə hazır olmalıdır; Siyasi cavabdehlik prinsipi - yəni vergi sistemi elə qurulmalıdır ki, insanları inandırsın ki, onlar vergi ödəyirlər ki, siyasi sistem onların problemlərini həll etmək iqtidarında olsun; Ədalətlilik prinsipi - yəni vergi sistemi hər bir fərdə münasibətdə ədalətli olmalıdır.

Amerika alimləri **M.Ueydenbaum, M.Berns, Q.Stayn və A.Lafferin** hazırladığı büdcə konsepsiyası daha geniş yayılmışdır. Təklif iqtisadiyyatı adlanan bu nə-

zəriyyəyə görə yüksək vergitutma sahibkarlıq və investisiya fəaliyyətinə mənfi təsir göstərir və son nəticədə vergi daxilolmalarının həcminin azalmasına, vergidən yayınma hallarının artmasına səbəb olur. Bu baxımdan vergi dərəcələrinin tətbiqində ehtiyatlı olmaq son dərəcə vacib məsələlərdəndir. Belə ki, əgər vergi dərəcələri daim artırsa, tezliklə o, elə bir səviyyəyə çatacaqdır ki, heç kim işləmək istəməyəcək və vergi daxilolmaları dayanacaq. İqtisadi fikir tarixində bu məsələ ilə bağlı müxtəlif fikirlər olmuşdur. Con Stüart Mill (1801-1873) yazırdı ki, «yüksək gəlirlərdən yüksək dərəcələrlə, aşağı gəlirlərdən aşağı dərəcələrlə vergi tutmaq - əməksevərlik və qənaətçilikdən vergi tutmaq, həmçinin, ürəklə işləyən və öz qonşusuna qayğı ilə yanaşan insanları cərimələmək deməkdir» və yaxud, J.Dyupyui yazırdı ki, «Tədricən yüksələn vergi dərəcələri elə bir səviyyəyə gəlib çıxır ki, gəlirlər onlardan imtina edir. Digər bir səviyyədə isə gəlirlər vergilərdən aşağı olur. Nəticədə isə vergi heç nə vermir». Klassik məktəbin əleyhidarı olan C.M.Keyns hələ 1933-cü ildə bu ideya ilə razılaşırdı və yazırdı ki, «vergi dərəcələrinin azaldılması büdcənin tənzimlənməsində daha böyük əhəmiyyətə malikdir, nəinki onların yüksəldilməsi». Bu problemin həlli istiqamətində aparılan islahatlar Laffer əyrisi adlanan və vergi dərəcələri ilə vergi daxilolmalarının həcmi arasındakı asılılığı əks etdirən əyrini meydana gətirdi. A.Lafferin fikirlərinə əsasən «kölgə» iqtisadiyyatnın inkişafı vergi sistemi ilə əks əlaqəlidir, başqa sözlə, vergi dərəcələrinin artımı «kölgə» iqtisadiyyatının ölçülərinin artımına səbəb olur. A.Laffer belə hesab edir ki, vergi dərəcəsi 30%-ə qalxdıqda maksımum gəlir əldə olunacaqdır. Dərəcələr yüksəldikcə, ödəyicilər vergi yükünü yumşaltmaqdan ötrü yeni yollar axtarmağa başlayırlar. Nəticədə gözlənilənin əksinə olaraq iqtisadi fəallıq aşağı düşür və gəlirlər deyil,

vergidən yayınma halları artmağa başlayır. Bu da öz «acı nəticələrini» dövlət büdcəsinin gəlirlərində biruzə verir. Professor M.X.Həsənlinin «vergiləri yox, vergi ödəyicilərinin sayını artırmaq daha məqsədəmüvafiqdir» fikri qeyd olunan «acı nəticələrdən» yan qaçmağa imkan yaradır.

XX əsrin ortalarında yaranan neokeynsçi nəzəriyyəsində vergi problemlərinə əhəmiyyətli yer verilmişdir. Bu nəzəriyyəni elmə daxil edən **İ.Fişer** və **N.Kaldor** istehlaka münasibətdə vergitutma obyektlərinin bölünməsini və istehlak mallarının son qiymətinin vergiyə cəlb edilməsini zəruri hesab edirdilər. Buradan da qənaətçiliyə həvəsləndirmək metodu, eyni zamanda inflyasiyaya qarşı mübarizə vasitəsi kimi özünü göstərən istehlak vergiləri ideyası meydana gəldi. N.Kaldor hesab edirdi ki, «satışa tətbiq olunan təsbit edilmiş vergidənsə, hansının ki, ödəyiciləri az gəlirdi insanlardır, gündəlik tələbat mallarına proqressiv dərəcələrlə və nəzərdə tutulmuş güzəştlərlə tətbiq edilən istehlak vergiləri daha ədalətlidir».

Qeyd olunan ümumi vergi nəzəriyyələri ilə yanaşı müxtəlif dövrlərdə xüsusi vergi nəzəriyyələri də mövcud olmuşdur ki, bunlara vahid vergi, birbaşa və dolayı vergilərin nisbəti, mütənasib və mütərəqqi vergitutma, vergilərin başqasının üzərinə qoyulması nəzəriyyələri aid edilir.

Vahid vergi nəzəriyyəsinin əsas mahiyyəti müəyyən bir vergitutma obyektinə müstəsna verginin tətbiq olunmasından ibarətdir. Burada müəyyən bir vergitutma obyekti dedikdə torpaq, daşınmaz əmlak, gəlir, kapital və s... nəzərdə tutulur. Vahid verginin ilkin forması torpaq rentasına vergi hesab olunur. İlk dəfə «vahid vergi» ideyasını XIX əsrdə amerika iqtisadçısı **Henri Corc** irəli sürmüşdür. Vahid vergi nəzəriyyəsindən siyasətçilər sosial-siyasi islahatlarda dəfələrlə istifadə ediblər. Həqiqətən də bu nəzəriyyəyə vergi problemi səviyyəsindən daha çox,

sosial-hüquqi səviyyələrdə baxılıb. Vahid verginin tətbiq olunması ideyası dövrün müxtəlif mərhələlərində çox populyar olub. XVIII əsrdə hətta İngiltərədə vahid vergi devizi ilə partiya da fəaliyyət göstərib. Bu nəzəriyyənin müxtəlif dövrlərdəki tərəfdarları vahid vergini bütün bəlalardan xilas yolu kimi görürdülər və belə hesab edirdilər ki, vahid vergi tətbiq olunduqdan sonra kasıbçılıq aradan qalxacaq, əmək haqqı yüksələcək, sənayenin bütün sahələrində istehsal artımı baş verəcək və s...

Mütənasib vergitutma nəzəriyyəsinə görə vergilər miqdarından asılı olmayaraq vergi ödəyicisinin gəlirlərinə eyni bir faizlə təyin edilməlidir.

Proqressiv vergitutma nəzəriyyəsinə görə isə vergi ödəyicisinin gəlirlərinin artmasına uyğun olaraq vergi dərəcələri də artmalıdır. Bu nəzəriyyəni əsasən **K.Marks** və **F.Engels** dəstəkləmişlər. Lakin, A.Smitin, J.J.Russonun, J.B.Seyin əsərlərində də proqressiv vergitutmanın elementlərinə rast gəlmək mümkündür. Proqressiv vergitutmanın tərəfdarları onu daha ədalətli hesab edirdilər. Çünki, proqressiv vergitutma bərabərsizliyi aradan qaldırır, gəlir və əmlakın düzgün bölüşdürülməsinə birbaşa təsir göstərir.

Vergitutmanın əsas problemlərindən biri öz əksini vergilərin başqasının üzərinə keçirilməsi nəzəriyyəsində tapmışdır. Vergilərin başqasının üzərinə keçirilməsi nəzəriyyəsini elmə ingilis filosofu **Con Lokk** (1632-1704) gətirmişdir. Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, vergi yükünün bölüşdürülməsi, yalnız nəticəsi qiymətin əmələ gəlməsi olan mübadilə prosesində mümkündür. Yəni, yalnız mübadilə və bölüşdürmə prosesləri vasitəsilə verginin hüquqi ödəyicisi vergi yükünü başqa bir şəxsin üzərinə keçirmək iqtidarındadır. Tarixən bütün dövrlərdə iqtisadçılar vergilərin başqasının üzərinə keçirilməsi proble-

mini həll etməyə cəhd göstəribələr. Vergilərin başqasının üzərinə keçirilməsi prosesinin miqyasları genişləndikcə artıq XIX əsrin ikinci yarısında hökümətlər bir suala cavab axtarırdılar: kim hansı həcmdə vergi yükü daşıyır? Getdikcə bu problem iqtisadi məcradan çıxaraq siyasi xarakter daşımağa başladı.

Bu problemlərin tədqiqi XVII əsrdə başlasa da XX əsrin əvvəllərində də maliyyə elmi bu problem barədə dəqiq və yeku qərar çıxara bilmirdi. Problemin tam işlənməməsinin səbəbi isə vergilərin başqasının üzərinə keçirilməsi prosesinin mürəkkəbliyi ilə əlaqədar idi. Yalnız XX əsrin sonunda qiymət və qiymətəmələgəlmə problemi nəzəri cəhətdən öz həllini tapdıqdan sonra vergilərin başqasının üzərinə keçirilməsi probleminə aydınlıq gətirildi. Tanınmış amerika iqtisadçısı **R.Masqreyv**in bu sahədə xidmətləri əvəzsizdir. R.Masqreyv vergitutmanın formalarından və gəlirlərin mənbələrindən asılı olaraq vergi yükünün necə formalaşmasını müəyyən etdi. Amerika maliyyə məktəbi öz tədqiqatlarında həmçinin istehsalçılarla istehlakçılar arsında vergi yükünün necə bölüşdürülməsi məsələsinə də aydınlıq gətirildi. Artıq vergi yükü müəyyən edildikdən sonra daha ciddi bir problem qarşıya çıxdı: «bu və ya digər vergini kim ödəməlidir» və ya «vergi yükünü həmişə o şəxs daşımalıdırmı, hansının ki, əvvəldə üzərinə vergi ödəmək öhdəliyi qoyulub». Kolumbiyalı alim Edvin Seliqman (1861-1939) isə 1892-ci ildə nəşr etdirdiyi «Vergilərin başqasının üzərinə keçirilməsi və qoyulması» adlı kitabında bu nəzəriyyənin əsas müddəalarını şərh etmiş və onun iki növünü fərqləndirmişdir: verginin satıcıdan alıcının üzərinə keçirilməsi və verginin alıcıdan satıcının üzərinə keçirilməsi. E.Seliqmanın əsas xidməti ondan ibarət idi ki, o vergilərin başqasının üzərinə keçirilməsinin

təhlilini verməklə kifayətlənməmiş, bu və ya digər verginin başqasının üzərinə keçirilməsinin təcrübi əhəmiyyətini və şərtlərini də müəyyən etmişdir.

Verginin satıcıdan alıcının üzərinə keçirilməsinə biz dolayı vergitutmada rast gəlirik. Həqiqətdə istehsalçılar və ya satıcılar tərəfindən ödənilən dolayı vergilər, sonradan istehlakçıların və ya alıcıların üzərinə keçirilir. Bu zaman istehsalçı və ya satıcı vergi məbləğini məhsulun qiymətinə əlavə edir və istehlakçı və ya alıcı faktiki vergi yükünü daşıyır. E.Seliqmanın təklif etdiyi ikinci forma verginin alıcıdan satıcının üzərinə keçirilməsidir ki, buna nadir hallarda rast gəlinir. Belə keçirilmə yalnız o zaman baş verir ki, hər hansı bir sahəyə yüksək vergilər qoyulur və istehsalçılar öz məhsullarını satmaq üçün istehlakçıların ödəməli olduqları vergi məbləğinin ya bir hissəsini, ya da hamısını öz üzərlərinə götürürlər.

Beləliklə, bütün vergi nəzəriyyələrinin şərhinin yekununda belə bir nəticəyə gəlirik ki, öz əhəmiyyətini müasir şəraitdə də itirməyən prinsipləri vergitutma elminə gətirən A.Smitin adı ilə bağlı olan klassik vergitutma nəzəriyyəsi bu gün də öz aktuallığını qoruyub saxlayır, digər vergi nəzəriyyələri isə yüksək elmi səviyyəyə malik olsalar da, onların bəziləri vergitutmanın məqsədini, bəziləri xarakterini müəyyən edir, bəziləri vergitutmanın müəyyən bir istiqamətini əhatə edir, bəziləri isə dövri xarakter daşıyaraq yalnız yarandığı dövr və şərait üçün aktual hesab olunur. Hesab edirik ki, bütün vergi nəzəriyyələri ayrı-ayrılıqda xüsusi çəkiyə malikdir və müasir şəraitdə onların bəzi elementlərindən istifadə etmək olar.

II Fəsil. Azərbaycanda vergilərin yaranması və inkişafı tarixi.

§2.1. III-V əsrlərdə tətbiq olunan vergilər. I Xosrovun vergi islahatları.

Cəmiyyətin inkişaf tarixində hələ heç bir dövlətə vergilərsiz keçinmək müəssər olmamışdır. Bu da təbiidir, çünki, dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün hər zaman müəyyən həcmdə pul vəsaitinə ehtiyac olmuşdur ki, bu ehtiyac da yalnız vergilər vasitəsilə ödənilə bilərdi. Azərbaycanda vergilərin inkişafı uzun tarixi bir yol keçmişdir. Vergilər III-IV əsrlərdə Sasanilər dovründən tutulmağa başlanmış, müxtəlif formalarda tətbiq olunaraq bu günə qədər gəlib çıxmışdır. Hələ o dövrdə Azərbaycanda əhali sinfi strukturuna görə dörd zümrəyə bölünmüşdür - kahinlər, döyüşçülər, katiblər və vergi verənlər. Vergi verənlər zümrəsinə əkinçilər, sənətkarlar, ticarətlə məşğul olanlar, bir sözlə əsas zəhmətkeş kütlə aid edilirdi. Vergi və yığımlardan ən geniş tətbiq olunanı qazidağ, xaraq və xarq idi. Qazidağ I Xosrovun islahatlarından sonra can vergisi adlandırılmağa başlanmışdır. Xaraq isə tədricən dəyişərək torpaq vergisi mənasını daşımağa başlamışdır. Xarq terminine isə Sasani «Qanunnamısində» daha çox rast gəlinir. İran mənşəli olan bu termin tərcümədə «mükəlləfiyyət», «biyar», «vergi» mənalarını verir. Vergilərin əsas növü olan xarqbed Sasani dövlətinin idarəetmə aparatında yüksək mövqeyə malik idi.

I Xosrovun vergi islahatlarına qədər vergi sistemi dövri xarakter daşıyırdı. Ət-Təbəri o dövrün vergi sisteminin xarakteri barədə yazır: «torpaq vergisi vaxtlı-vaxtında toplanılmırdı, onun miqdarı isə suvarma və əkinçiliyin yerlərdəki vəziyyətindən asılı olaraq məhsulun 1/3-i ilə 1/6-i arasında tərəddüd edirdi». Tarixi təcrübə göstərir ki, I

Xosrov Roma İmperatoru Diokletianın (284-305) apardığı vergi islahatları nümunə götürərək, irimiqyaslı islahatlar həyata keçirmişdir. I Xosrovun ilk göstərişi sələfi Kavadın dövründə başlayan torpaq siyahıya alınmasını yekunlaşdırmaq olmuşdur. İslahatlar nəticəsində tezliklə vergi vahidi torpağın 1/10-nə bərabər olan qarib sayılmağa başladı. Qaribdən əsasən torpaq vergisinin hesablanmasında geniş istifadə olunurdu. Torpaq vergisinin miqdarı isə əkilən bitkinin növündən və xarakterindən asılı olaraq dəyişirdi.

I Xosrovun vergi islahatlarından biri də kişilərin yaşlarına uyğun ayrı-ayrı məbləğlərdə can vergisinin müəyyənləşdirilməsi idi. Lakin, I Xosrov can vergisinin ağırlığını nəzərə alıb ou bir neçə dəfəyə ödəməyə imkan verirdi. Bununla belə can vergisi üzrə islahatların ana xəttini azadolmalar təşkil edirdi. Belə ki, kübar nəsillər, əyanlar, döyüşçülər, katiblər, kahinlər və məmurlar can vergisini ödəməkdən azad edilmişdi. I Xosrovun dövründə can vergisindən əlavə şəhər darvazalarının tikilməsi və təmirinə görə, şəhər mühafizəçilərinə görə, su kanallarının təmizlənməsinə və ya yenilərinin tikilməsinə görə xüsusi vergilər tətbiq olunurdu. Yol və körpülərin tikilməsində isə vergi həm natural və fiziki şəkildə alınırdı. Belə ki, əhali yolların və körpülərin tikilməsi üçün lazımi materiallar, xüsusilə daş və ağac verməli, özləri isə bu tikintilərdə təmənnasız iştirak etməli idilər.

Dövrün əsas fərqli xüsusiyyəti sənətkarlığın ayrı-ayrı növlərinin vergiyə cəlb olunması idi. Ümumilikdə, I Xosrovun vergi islahatları vergi yükünü xeyli ağırlaşdırmışdı. Bəzi vergi ödəyiciləri vergi öhdəliklərini ödəmək və ya ümumiyyətlə yaşamaq üçün öz trpaqlarını girov qoymağa məcbur olurdular və belə şəxslərin 10 il müddətində öz torpaqlarını geri almaq hüqüqü yox idi. Bəzi torpaq sahibləri isə torpaq vergisini ödəyə bilmədiyi halda tor-

pağını satmağa məcbur olurdu ki, bu da kütləvi torpaqsızlaşmaya aparırdı.

V əsrin sonunda ən çox istismara məruz qalan əkinçiləri, maldarları, sənətkarları və ticarətlə məşğul olanları tərkibində birləşdirən «vergi verənlər» zümrəsi idi. Həm dövlətin, həm iri torpaq sahiblərinin, həm də kahinlərin istismarına məruz qalan əhali ağır vergi yükünü daşımağa məcbur idi. Vergi verənlərlə əyanlar arasında getdikcə dərinləşən ziddiyyət dövrün ən böyük ictimai və siyasi cərəyanı olan Məzdəkilər hərəkatını meydana gətirdi. Məzdəkilər əsasən vergitutmada bərabərliyi təbliğ edirdilər.

§2.2. Xilafət dövründə vergilər.

Torpaq uğrunda gedən mübarizələr Xilafət dövründə də davam etmişdir. Bütün istilaçı dövlətlər kimi Xilafətin də əsas məqsədi daha çox torpaq ələ keçirmək və vergi toplamaq idi. Ərəblər tərəfindən zor gücünə ələ keçirilmiş Azərbaycanda münasibətlər əhali ilə işğalçılar arasında bağlanmış müqavilələrlə tənzimlənirdi. Müqavilənin əsas şərtlərindən biri isə ödəniləcək vergilərlə bağlı idi. Ərəblərin tətbiq etdikləri əsas vergi növləri torpaq vergisi (xərac) və can vergisi (cizyə) idi. Ərəblər torpaq vergisini müəyyənləşdirərkən ərazinin zor ilə və ya öz xoşuna alındığını nəzərə alır və müəyyən güzəştlər tətbiq edirdilər. Azərbaycanın başqa dinə mənsub olan əhalisi xəzinəyə cizyə və xərac ödəyirdilər. Cizyə İslam qaydalarına görə sənətkarlıq və ticarətlə məşğul olan kişilərin gəlirinə uyğun ildə bir dəfə alınan vergi növü idi. Cizyəni varlılar 48 dirhəm, orta təbəqə 24 dirhəm, zəhmətkeş kasıblar isə 12 dirhəm həcmində ödəyirdilər. Xərac isə həm müsəlmanlardan, həm də başqa dinə mənsub olanlardan alınır-

dı. Fərq isə qeyri-müsəlmanların bu vergini ikiqat ödəməsində idi. Əsl müsəlmanlardan isə uşr adlı məhsulun 1/10-nə bərabər olan vergi alınırdı.

İşğalın ilk illərində xəracın məbləği Sasanilər dövründə müəyyənləşdirilən həcmdə idi. Hətta bəzi mənbələrdə xəracın adı «Xosrov xəracı» da adlandırılırdı. Vergi yükü nə qədər ağır olsa da, cizyədən azadolmalar da mövcud idi. Belə ki, qadınlar və uşaqlar, xroniki xəstələr azadolma hüququna malik idilər.

Tarixə nəzər saldıqda görürük ki, dördüncü xəlifə Əli ibn Əbu Talibin dövründə vergilər daha ədalətli toplanılmışdır. Onun göstərişlərinin birində belə deyilir: «əsas diqqət xəracı yığmağa deyil, torpağı əkib-becərməyə yönəldilməlidir. Əgər əkilməyən torpaqdan xərac alınsa, az vaxtdan sonra ölkə var-yoxdan çıxar və adamlar qırılıb tükənərlər». Lakin getdikcə vergi qanunları sərtləşirdi. Tezliklə Tiflis sakinləri üçün cizyənin məbləği «hər həyətdən bir dinar» təsdiq edildi. Artıq vergilər yalnız pul şəklində deyil, natural şəkildə də yığılırdı. Nəticədə əhalidən yığılan vergilərin natural hissəsi pul hissəsindən 3 dəfə çox artdı. O dövrdə Azərbaycanda vergiləri təyin olunmuş canişin toplayır, İraq və Şam xəzinəsinə çatdırırdı.

VII əsrin sonunda xəlifə Əbd əl-Məlik (685-705) vergilərin alınması qaydalarını təkmilləşdirmək məqsədilə islahatlar keçirməyə başladı. O, ilk növbədə ümumi siyahıya alma həyata keçirdi və cizyənin toplanması qaydalarını sərtləşdirdi ki, bu da Ərəb xilafətində narazılıqlara səbəb oldu. Nəticədə «yeni» müsəlmanlar can vergisindən azad edildi. Getdikcə amansızlaşan vergi siyasəti yalnız yoxsulları deyil, bir çox varlıları da səfalətə düçar edirdi. Əyalətlərdə məmurların vergilərlə bağlı özbaşınalıqları Xilafətin xəzinəsinə də ciddi təsirini göstərirdi. Əyalət məmurlarının özbaşınalıqlarını aradan qaldırmaq məqsədilə ərəblərin əvəzinə, maliyyə işlərini yaxşı bilən yerli feodal-

ları vəzifəyə təyin edən Əməvi Xəlifəsi heç bir nəticə əldə edə bilmədi.

VIII əsrin ortalarında Abbasilər hakimiyyətə gəldikdən sonra vergi verən əhalinin vəziyyəti daha da ağırlaşdı. Artıq natura şəklində alınan xərac qızıl və gümüşlə ölçülürdü.

Xəlifə əl-Mehdinin dövründə vergi verən zümrənin vəziyyəti xeyli yüngülləşdi. Onun ilk sərəncamı ilə xərac-alma sistemi dəyişdirildi. Belə ki, misahə xəracının (torpağın sahəsinə görə alınan vergi) əvəzinə, müqasəmə xəracı (məhsula görə alınan vergi) qoyuldu. Sonradan meyvə ağaclarına, zeytun və üzüm bağlarına qoyulan xərac vergi yükünü ağırlaşdırdı. Narazılıqlar böyük üsyanlara səbəb oldu ki, bunları da yatırmaq xəlifə Harun ər-Rəşidin dövrünədək davam etdi.

VIII əsrin sonunda Xilafətdə vergilər müqatiə, yəni iltizam üsulu ilə toplanılmağa başlandı. İltizam üsulunun tətbiq edilməsinin əsas səbəbi isə xilafət xəzinəsinin gündən-günə boşalması idi. İltizamçılar xüsusi etibar edilən dövlət adamları idilər ki, onlara təyin edildikləri vilayətlərdən vergi toplamaq tapşırılmışdı. Lakin iltizamçıların əksəriyyəti vəzifəsindən sui-istifadə edir, əhalini soyub-talayırdılar. Dövrün görkəmli hüquqşünası Əbu Yusifin xəlifə Harun ər-Rəşidə verdiyi əsas məsləhətlərdən biri məhz səmərəsiz iltizam üsulunu ləğv etmək idi. O, hesab edirdi ki; «iltizam məbləğindən xeyli artıq yığmağa can atan iltizamçı buna ancaq öz təbəələri ilə rəhmsiz rəftar etmək, onları ağır bədən cəzalarına məruz qoymaq, qızmar günəş altında saxlamaq, boyunlarından daş asmaq, onlara əzab, işgəncə vermək yolu ilə nail ola bilər». İltizamçıların özbaşınalıqları əyalətlərdə narazılıqları artırdı ki, bu da Azərbaycanda Xürrəmilər hərəkatı ilə nəticələndi.

Bu dövrdə Azrbaycanda torpaq və can vergilərindən başqa xüms (mülkiyyətdən və əmlakdan alınan və

gəlirin 1/5-nə bərabər olan vergi), zəkat (yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan vergi), zəkat əl-fitr (ildə bir dəfə, orucluq ayının başa çatması ilə əlaqədar ödənilən vergi), sədəqə (yoxsullara verilən ianə), uşr (məhsulun 1/10-nə bərabər olan vergi) vergiləri tətbiq olunurdu. Bakıda isə əlavə olaraq neft və duz mənbələrinin üzərinə əlavə vergi qoyulmuşdu.

İbn Xaldunun və ər-Cəhşiyərinin təqdim etdiyi siyahıya əsasən IX əsrin əvvəllərində Cənubi Azərbaycan vilayəti xəzinəyə 4 milyon dirhəm, Qudamanın göstəricilərinə əsasən isə 4,5 milyon dirhəm verirdi. Bu göstəriciləri Əl-Yaqubi də təsdiqləyir. Lakin 833-cu ildən əl-Mütəsimin hakimiyyəti dövründə İbn Xordadbehin məlumatına görə ödəmələr 2 milyon dirhəmə qədər azaldılmışdır.

§2.3. Orta əsrlərdə Azərbaycanda xərac sistemi və mükəlləfiyyətlər.

XII əsrdə Azərbaycanda feodal münasibətləri inkişaf etdikcə kəndlilərin və sənətkarların istismarı da güclənirdi. Kəndlilər vergiləri torpaqlarında çalışdıqları ağalarına ödəyirdilər. Bu dövrdə feodal cəmiyyətinin əsas ağırlığı rəiyyətin üzərinə düşürdü ki, bunun da əsas səbəbkarı vergilər idi. Kəndlilər və sənətkarlar istehsal etdikləri məhsulun 70%-ni vergi şəklində ödəyirdilər. Bu dövrdə tətbiq edilən ən ağır vergi növləri torpaq vergisi olan xərac və qeyri-müsəlmanlardan alınan cizyə idi. Köçəri maldarlar isə «otlaqlardan istifadəyə görə xəzinəyə haqq» deyilən vergini ödəməyə məcbur idilər. Əhali həmçinin, hərbi və mülki mühafizə dəstəsini, rəsmi şəxsləri və onların atlarını yemləmək üçün ələf vergisi, hakim təbəqənin nümayəndələrini, onların qulluqçularını və atlarını saxlamaq üçün nüzl vergisi, gömrük və gözləmə üçün təhək-

kümat vergisi, cehiz pulu məqsədilə isə şir baha vergisi ödəyirdilər. Vergilərin ağırlığı torpaqsız, yoxsul kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı ki, bütün bunların da əksəriyyəti üsyanlarla nəticələnirdi.

XIII əsrin 30-50-ci illərində monqolların həyata keçirdiyi vergi siyasəti iqtisadiyyatı ağır vəziyyətə saldı. Bu dövr də vergi yığanların xüsusi amansızlığı və zorakılığı ilə müşahidə olunur. XIII əsrin 50-60-cı illərində Exanilər dövləti ağır vergi yükünü yüngülləşdirmək və vergi sistemini təkmilləşdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirdi. XIV əsrdə isə vergi və mükəlləfiyyətlərin sayı 45-dək artırıldı və əsas vergi növü kimi xərac müəyyən edildi. Atabəylər dövründə tətbiq edilən xəracın fərqli xüsusiyyəti məhsulsuzluq şəraitində bu verginin tələb edilməməsi idi. Xərac ildə iki dəfə yığılırdı: ilin əvvəlində, yəni Novruzda pulla, məhsul yığımı dövründə isə pul və məhsulla ödənilirdi.

Monqolların tətbiq ediyi əsas vergi növlərindən biri də qopçur idi. Bu vergi natural şəkildə hər 100 baş malqaraya görə 1 baş heyvan şəklində alınırdı. Tədricən bu vergi yalnız maldarlardan deyil, şəhər və kənd əhalisindən can vergisi şəkldində alınmağa başlandı. Qazan xan qopçurun məbləğinin artırılmasına qadağa qoysa da, dövrün ən ağar vergisi məhz qopçur hesab olunurdu.

Bu dövrdə tətbiq edilən digər vergi növü tamğa idi. Tamğa böyük və kiçik tamğa hissələrinə ayrılmaqla çox böyük məbləğlərdə tutulurdu. Böyük tamğa şəhər darvazalarında məhsulların şəhərə daxil olduğu zaman, kiçik tamğa isə bazarlarda məhsulların satışı zamanı ödənilirdi. XIV əsrin əvvəllərində Qazan xan bəzi şəhərlərdə tamğanın məbləğini 50%-dək azaltdı, bəzi şəhərlərdə isə müvəqqəti olaraq tamamilə ləğv etdi. Lakin güzəştlərə baxmayaraq ticarətin və sənətkarlığın inkişafı tamğa vergisi üzrə xəzinəyə daxilolmaların sürətlə artmasına səbəb ol-

du. Bu dövrdə həmçinin şəhər darvazalarında və körpülərdə ticarət karvanlarından yol haqqı da (bac) alınırdı. Dövrün ən böyük bac yığımı məntəqəsi Araz çayının üzərindəki Xudafərin körpüsü hesab olunurdu.

Əhalini müflisləşdirən vergi növləri, föqaladə xərcləri ödəmək məqsədilə dövlət və feodallar tərəfindən toplanılan avariz vergisi, hər bağın məhsulunun 1/10-nə bərabər olan bağbaşı və əhaliyə dövlət anbarlarında yığılıb qalan izafi kənd təsərrüfatı məhsullarının bazar qiymətindən yüksək qiymətə satılmasını özündə əks etdirən tərx idi.

Lakin bu dövrün ən böyük hadisəsi Qazan xanın həyata keçirdiyi islahatlar idi. Onu bu islahatları keçirməyə vadar edən əsas səbəb gündən günə ağırlaşan iqtisadi vəziyyət idi. İslahatların əsas məqsədi vergi sistemini sabitləşdirmək, vergi zülmünü yumşaltmaq, verginin yığılması zamanı baş verən özbaşınalıqları aradan qaldırmaq və bunun nəticəsində əkinçiliyin və şəhər iqtisadiyyatının yüksəlişini təmin etmək idi.

Maliyyə və vergi sisteminin yenidən qurulmasına nail olan Qazan xan vergi verməli olan əhalini siyahıya aldı, vergilərin növlərini, məbləğini və ödənilmə vaxtını və qaydasını müəyyən etdi. Bu dövrün əsas vergisi olan xərac sahəsində aparılan əsas islahatlar isə güzəştlərlə əlaqədar idi. Qazan xanının həyata keçirdiyi vergi islahatları Azərbaycanın vergi tarixinin ən parlaq səhifəsi hesab olunur.

XV əsr vergi və mükəlləfiyyətlərin sayının çoxluğu ilə fərqlənir. Belə ki, bu dövrdə vergi və mükəlləfiyyətlərin sayı 30-a qədər olmuşdur. Dövrün əsas vergisi isə məhsulun 1/5-nə bərabər olan malcahət və ya bəhrə vergisi hesab olunurdu. Hərbçilərin, mülki və ruhani vəzifələrini tutan şəxslərin xeyrinə toplanılan vergilərin məcmusu isə ixracat adlanırdı. Qeyri-qanuni toplanılan vergilər isə şilta-

qat adlandırılırdı. Bunlardan əlavə yerli inzibati polis məmurunun xeyrinə - dəruğəki, vergi yığan məmurların xeyrinə - mümayizane, ruhani başçılarının xeyrinə - rəsm əl vüzarə və maldarlardan çobanbəyi vergisi toplanılırdı.

Qazan xandan sonra həyata keçirdiyi islahatlarla tarixə XV əsrdə Uzun Həsən düşmüşdür. Onun apardığı islahatlar barədə kifayət qədər məlumat olmasa da, Osmanlı İmperiyasının tarixinə ekskurs etmək bəzi məsələləri aydınlaşdırmağa imkan verir. Uzun Həsənin islahatları barədə «Tarix əl-Qiyasi»də deyilir: «Uzun Həsən ədalətli və xeyirxah idi. O, bütün dövlət ərazisində tamğanı ləğv etmək istəyirdi. O, tamğanın məbləğini 1/20 dirhəmə çatdırmışdı... O, bütün ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirmişdi». İslahatlar nəticəsində tətbiq edilən bütün vergilərin məbləği azaldılmışdı. Uzun Həsənin əsas məqsədi feodal özbaşınalıqlarını məhdudlaşdırmaq və vergilərin yığılması zamanı sui istifadə hallarını aradan qaldırmaqla iqtisadiyyatın inkişafına təkan vermək və dövlət xəzinəsini zənginləşdirmək idi.

Uzun Həsənin varisi Yaqub da atasının həyata keçirdiyi vergi siyasətini davam etdirmişdir. Yaqubun vergi islahatları yekunda tamğanın ləğvi ilə nəticələndi. Sonuncu Ağqoyunlu hökmdarı olan Əhməd də Uzun Həsənin və Yaqubun vergi islahatlarını davam etdirməyə cəhd göstərmişdir. O, ilk növbədə monqollar tərəfindən tətbiq olunmuş ağır vergiləri ləğv etmiş və yalnız İslam dininin icazə verdiyi vergiləri tətbiq etməyə başlamışdır. Onun tətbiq etdiyi vergi və mükəlləfiyyətlərə xərac, üşr, can vergisi və cizyə, ləğv etdiklərinə isə ixracat, şiltaqat, biyar və ən əsası tamğa daxil idi.

§2.4. XVI-XIX əsrlərdə Azərbaycanda tətbiq edilən vergilər.

XVI əsrdə Səfəvilər dövründə torpaqların əsas formaları divani, xassə, vəqf və mülk idi. Torpaq sahələri olmayan kəndlilər ağır şərtlərlə dövlətdən və ya digər torpaq sahiblərindən torpaq sahələrini icarəyə götürürdülər. Əhalinin vəziyyəti getdikcə ağırlaşırdı. Bunu nəzərə alan Səfəvi hökuməti ən ağır vergi növü olan malcəhəti azaltdı, bəzi vergi növlərini isə tamamilə ləğv elədi. Bu dövrdə əhaliyə əziyyət verən digər vergi növləri ixracat və şiltaqat idi. Bütün bunlarla bərabər əhali digər vergi və mükəlləfiyyətlər də daşıyırdı. Onlardan: idxal, ümmal, mümayizane, dəruğəki, kələntəri, mirabi, dosullük, novruzi, peşkəş, şilən-bəha, eydi, çərik, tərh, ulaq, ulam, biyar, çobanbəyi, xariciyat, baxraçe, çıraqlıq və s. göstərmək olar.

XVIII əsr də vergi və mükəlləfiyyətlərin sayının çoxluğu ilə seçilir. Feodal torpaqlarında yaşayan kəndlilər ağalarına vergilər ödəməklə yanaşı, bir sıra mükəlləfiyyətlər də daşıyırdılar. Feodal rentasının əsasını kənd təsərrüfatı vergiləri təşkil edirdi. Bu dövrdə Azərbaycanda torpaq vergilərindən malcəhət, uşr, çobanbəyi, adambaşına alınan vergilərdən sər-şomari, cizyə, qoşunları saxlamaq üçün ulufa, sursat, əsb-e-çapar, hərbi qulluq mükəlləfiyyəti olan çərik, şahin, dövlət məmurlarının xeyrinə toplanılan vergilərdən rüsumat, təhzilat, pişkeş, xərac-e təyin mütərəddin, feodallar üçün bikar, avariz və torpaq basdı vergisi olan rahdari tətbiq edilirdi.

Dövlət xəzinəsinin yeganə gəlir mənbəyi vergi və mükəlləfiyyətlər olduğu üçün şah hökuməti vergi verənləri çox ciddi nəzarətdə saxlayırdı. Nadir şah xəzinədə yaranan boşluqları yalnız vergiləri artırmaq hesabına bərpa edirdi. Bu isə onu əhalinin gözündən salırdı. 1739-cu ildə Hindistan yürüşündən böyük qənimət əldə edən Nadir

şah nüfuzunu bərpa etmək üçün əhalini 3 il müddətində vergiləri ödəməkdən azad etdi.

XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqları öz saraylarını, hərəmxanalarını, idarəetmə aparatını, ordusunu saxlamaq və digər ehtiyaclarını ödəmək üçün vergi və mükəlləfiyyətlərdən geniş istifadə edirdilər. Azərbaycan xanlıqlarında əsasən malcəhət və ya bəhrə, otlaqlardan istifadəyə görə verilən çöpbaşı, bəylərə verilən toypulu, bağbaşı, hər bir həyətdən tutulan otaqxərci, xan atlarının saxlanılması üçün verilən at arpası, muzdlu əsgərlərin saxlanılması üçün verilən diş kirəsi və vergi yığanların xeyrinə toplanılan darğalıq tətbiq edilirdi.

Məhəmmədhəsən xanın dövründə Şəki xanlığında «Dəs ul-əməl» adlı qanunlar məcmuəsi tərtib olunmuşdur ki, bu qanunla da vergi və mükəlləfiyyətlər tənzimlənirdi. Azərbaycan xanlıqlarında da qədim iltizam üsulu ilə vergitutma qüvvədə idi. Öz sələfləri kimi, bu dövrün iltizamçılarının da əsas məqsədi müxtəlif zorakılıq və qarət yolu ilə öz gəlirlərini artırmaq idi.

XIX əsrdən başlayaraq vəziyyət qismən dəyişmişdir. Belə ki, 1828-ci il 10 fevral Türkmənçay müqaviləsinə əsasən Azərbaycan iki yerə parçalanmış yarısı İranın, yarısı isə Rusiyanın tərkibinə qatılmışdır. Bu da bəzi üzdəniraq vergilərin ləğv olunmasına gətirib çıxartmışdır. Bu dövrdə Azərbaycan Rusiyanın tərkib hissəsi olduğuna görə vergilərin müəyyən edilməsi və tutulmasına dair bütün qanunvericilik məhz mərkəzdən verilirdi. Azərbaycanın isə öz ərazisi daxilində yalnız kıçik vergiləri müəyyən etmək və onları toplamaq səlahiyyəti var idi. Göstərişlərin mərkəzdən verilməsi isə çox zaman əyalətlərdə narazılıqlara səbəb olurdu. Düzdür, vergi sistemində mühüm dəyişikliklər hələ 1819-cu ildə Şəki əyalətində həyata keçirilmişdir. Bununla belə vergi sistemində problemlər qalmaqda idi. Belə ki, əyalətlərin əksəriyyətində ödənilən vergilər

kəndlər və ya həyətlər üzrə deyil, sahələr üzrə müəyyənləşdirilirdi. Vergilərin sonrakı bölgüsü isə yerli inzibati orqanların ixtiyarında idi. Vergilərin toplanılmasında isə, nə kəndlilərin torpağının sahəsi, nə onların iş heyvanlarının miqdarı, nə də onların ailələrindəki işçi qüvvəsinin sayı nəzərə alınmırdı. Bunun nəticəsi idi ki, vergilərin bölünməsi və onların yığılması üsulu da bir-birindən fərqlənirdi. Məsələn, Şirvan əyalətində vergilər hər kənd, Qarabağ əyalətində hər həyət, Lənkəran əyalətində isə mahallar üzrə təyin olunurdu. Bütün bunlar isə yerli hakimiyyət orqanlarının özbaşınalıqları üçün geniş imkanlar açırdı. Bu dövrdə əsasən torpaq vergisi, daşınmaz əmlaka görə vergi, ticarət və sənaye vergisi, aksiz vergisi kimi dövlət vergiləri tutulurdu. Yerli özünüidarəetmə orqanları olan quberniyalar, vilayətlər və qəza zemstvoları tərəfindən isə yerli vergilər toplanılırdı. Yerli vergilər içərisində zemstvo mükəlləfiyyətləri adlanan vergi əsas yerlərdən birini tuturdu. Dövlət quberniya rüsumu adı altında iki yerə bölünərək tətbiq edilən bu vergilər kəndlilər üçün həddindən artıq ağır idi. Bu verginin belə ağır olmasına səbəb isə vergilərin yığılması zamanı baş verən özbaşınalıqlar idi. Digər yerli vergi növü isə yol vergisi və ya yol mükəlləfiyyəti adlanan vergi idi. Bu vergi yolların çəkilməsi, körpülərin tikilməsi, onların təmir edilməsi, təmizlənməsi, həmçinin, hərbi dəstələrin xərclərinin təmin edilməsi məqsədilə yığılırdı. Bu vergi də əhali arasında böyük narazılıqla qarşılanırdı. Çünki, bu vergi yalnız əhalinin vəsaitlərini əlindən almır, eyni zamanda bu işlər yazda və payızda, tarla işləri zamanı həyata keçirildiyi üçün, bəzən, əhalinin il boyu çəkdiyi əziyyəti heçə endirirdi. Bu dövrdə qeyd olunan vergilərdən başqa əlavə ticarət və sənaye vergisi, əlavə aksiz vergisi, tüstü vergisi, faytonçulardan vergi, qəssablardan vergi, kommunal vergi, təbiətdən istifadəyə (çə-

mən və otlaq) görə vergi, yollardan istifadəyə görə vergi və digər bu kimi yerli vergilər tətbiq olunurdu.

Rusiya İmperiyasının əsas məqsədi gündən-günə artan dövlət xərclərini ödəmək üçün dövlət xəzinəsini maksimun maliyyə vəsaiti ilə təmin etmək idi ki, bu da öz əksini vergi qanunvericiliyində edilən dəyişikliklərdə tapırdı. Yoxsullara və aztəminatlılara yüksək vergilər tətbiq olunur, vergi güzəştləri ləğv edilir, eyni zamanda zadəganların, adlı-sanlı nəsildən olanların vergi yükü azaldılır, onlara vergi güzəştləri tətbiq edilir və bununla da əsas vergi yükü zəhmətkeşlərin, aztəminatlı təbəqələrin üzərinə keçirilirdi. Bu dövrdə bütün Qafqazda olduğu kimi, Azərbaycanda da ən geniş yayılmış vergi növlərindən biri, «həyət» və ya «tüstü» adlı vergi idi. Bu vergi demək olar ki, hər bir həyətdən alınırdı, xalq arasında bu vergini «həyətbaşı» da adlandırdılar. Lakin, torpaq töycüsü şəklində alınan bu vergini heç kim könüllü ödəmirdi. Azərbaycan kəndlilərinin çox hissəsi aztorpaqlılıqdan əziyyət çəksə də, kəndlilərdən alınan vergi və mükəlləfiyyətlərin bütün ağırlığı onların üzərinə düşürdü. Çar hakimiyyəti orqanları isə torpaq vergisinin həcmini müəyyənləşdirərkən əhalinin gəlirlərini nəzərə almırdılar. Çünki, onları əhalinin real imkanları deyil, xəzinənin mənafeyi maraqlandırırdı. Bu dövrdə tətbiq olunan daşınmaz əmlaka görə vergini dövlət və dini təşkilatlar istisna olmaqla bütün mülk sahibləri ödəyirdilər. Vergitutma obyekti olan daşınmaz əmlak dedikdə, şəhər və kənd yerlərinin hüdudları çərçivəsində yerləşən daşınmaz əmlak başa düşülürdü. Ən geniş yayılmış və ən çox gəlir gətirən vergi növlərindən biri isə ticarət vergisi idi. Ticarət vergisi topdansatış və pərakəndə satış ticarət obyektlərindən tutulurdu. Ticarət vergisi dövlətə ən çox gəlir gətirsə də, dövlət ən irimiqyaslı vergi güzəştlərini məhz bu verginin ödəyicilərinə tətbiq edir, bununla da işgüzar fəaliyyəti stimullaşdıraraq iqtisadi inkişa-

fa nail olmaq istəyirdi. Bütün təbəqələrdən olan kənd əhalisinə isə bazarlarda öz məhsullarını vergi ödəmədən satmağa icazə verilirdi. Bu dövrdə mövcud olan vergi sistemi ticarət və sənaye fəaliyyətinin bütün sahələrini əhatə etmişdi və vergi dərəcələri də çox müxtəlif idi. Hər bir vergi ödəyicisi öz fəaliyyətinin növünə və miqyasına görə vergi ödəyirdi. Ticarət və sənaye fəaliyyətindən vergilər həmin fəaliyyət növü ilə məşğul olmaq hüququ verən biletlərdən vergi tutulması yolu ilə həyata keçirilirdi.

Pul kapitalından vergi müəssisələrin, səhmdar cəmiyyətlərin, digər ictimai və xüsusi təşkilatların qiymətli kağızlardan əldə etdiyi gəlirlərindən qanunvericiliklə müəyyən olunan faizlərlə tutulurdu. Rusiya İmperiyasının tətbiq etdiyi vergilərdən biri də müsəlmanlardan hərbi xidmətdən azad olmaq üçün tutulan əsgəri və ya hərbi vergi idi. Bu vergi orduya səfərbərliyə alınmalı olan şəxslərin üç illik orta qazancı nəzərə alınmaqla hesablanırdı. Bu vergının dövlət xəzinəsində payı da kifayət qədər yüksək idi və yalnız 1893-cü ildə Bakı quberniyası 158000 rubl, İrəvan quberniyası 69000 rubl, Tiflis quberniyası 14500 rubl, Yelizavetpol quberniyası 14000 rubl əsgəri vergi ödəmişdi. Fikrimizcə, əsgəri verginin yalnız müsəlman əhaliyə tətbiq olunmasında Rusiya İmperiyasının məqsədi dövlət gəlirlərini artırmaq və ya sadəcə olaraq ayrı-seçkilik deyil, müsəlmanları hərbi hazırlıqsız yetişdirərək daim itaətdə saxlamaq olmuşdur.

Bu dövrdə tətbiq olunan vergi növlərindən biri də aksizlər idi. Qafqazda bu vergiyə cəlb olunan malların siyahısını və onlara tətbiq olunan dərəcələri, həmçinin onların yığılmasına nəzarəti Zaqafqaziya Aksiz İdarəsi həyata keçirirdi. Aksiz əsasən spirtli içkilərə, yuna, aşılanmamış dəriyə, odun və odundan hazırlanmış əşyalara, yanacağa, tütün və tütün məmulatlarına, şəkər tozuna və kibritə tətbiq olunurdu. Dövlət xəzinəsi şərab və spirtdən hazırlan-

mış içkilərdən vergiləri iki şəkildə alırdı: istehsal olunan içkiləri, məmulatları, mayaları hazırlayan zavodlardan və içki satan müəssisələrdən patent vergisi şəklində. Aksiz spirtdən, şərabdan və araqdan tərkibində olan susuz spirtin miqdarına görə alınırdı. Aksizlər spirt və şərab satıldıqca xəzinəyə ödənilirdi. Sənaye üsulu ilə meyvələrdən və üzümdən spirt alınarkən isə qabaqcadan xüsusi şəhadətnamə əsasında aksiz ödənilirdi. Lakin, aksizlərin ödənilməsi hər zaman müsbət nəticələr vermirdi. «Neft mədənləri və ağ neft istehsalından aksizlər haqqında» 1 fevral 1872-ci il tarixli qaydaya əsasən müəyyənləşdirilən neftayırma sənayesindən dövlətin xeyrinə aksizin toplanılması buna əyani sübutdur. Bu qaydalar qüvvəyə mindikdən sonra neftayırma sənayesinin təşkili bütövlükdə Aksiz idarəsinin sərəncamına keçdi və aksizin həcmi neftayıran qazanların həcminə uyğun olaraq gündəlik dörd manatdan on manatadək müəyyənləşdirildi. Düzdür, aksizin məbləği kiçik ağ neft zavodları üçün cüzi idi, lakin, bununla belə, aksiz iqtisadi tərəqqini ciddi ləngidirdi. Bütün bunlarla bərabər aksizin tətbiqi neft məhsulları istehsalına da mənfi təsir göstərdi. Çünki, aksiz hər neftayıran qazana görə müəyyənləşdirildiyi üçün, zavodlar gün ərzində bir qazandan bir neçə dəfə ağ neft almağa çalışırdılar. Bu yolla alınan neft isə aşağı keyfiyyətli olurdu və satılmırdı. Bu isə bir çox müəssisənin müflisləşməsinə səbəb olurdu. Nəticədə, 1877-ci ildə akşiz ləğv olundu.

Bütün bunlarla bərabər dövlət xəzinəsinə ayrıca olaraq tütün vergisi də tutulurdu. Tütündən xəzinəyə daxil olan gəlirlər əsasən tütün fabriklərinin, tütün və tütün məmulatlarının satışı ilə məşğul olan müəssisələrdən patent yığımı kimi və emal olunmuş tütündən aksizin alınması tütün məmulatları qutularının üzərinə aksiz markaları yapışdırmaqla həyata keçirilirdi.

Qeyd olunan dövrdə bütün vergilərdən fərqlənən və dövlət xəzinəsinə ən çox gəlir gətirən vergi növü torpaq vergisi idi. Zaqafqaziyada torpaq vergisi güzəştli torpaq sahələri istisna olmaqla bütün torpaq sahələrindən tutulurdu. Vergi məbləği yararlı torpaq və meşə sahəsinə görə müəyyən edilirdi. Ümumilikdə, bu dövrdə Azərbaycanda dövlət xəzinəsinə ən çox vergi torpaq vergisindən və əsgəri vergidən daxil olurdu, sonra isə ticarət və sənaye fəaliyyətindən vergi, aksiz vergisi və vətəndaşların gəlirlərindən tutulan vergi gəlirdi. Torpaq vergisinin birinci sırada dayanmasına səbəb isə XX əsrin başlanğıcında bu sahədə aparılan islahatlar olmuşdur. Bu islahatların əsasını «Qafqazda xəzinənin xeyrinə toplanılan evbaşı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında» qanun təşkil edirdi ki, bu qanunun qüvvəyə minməsi ilə, kəndlilərin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti, bütün başqa torpaqlar üçün torpaq vergisi və həmişəlik zemski vergisi müəyyən edilmişdir. Ümumilikdə, XIX əsrdən başlayaraq XX əsrin əvvəllərinədək aparılan islahatların və tətbiq olunan vergilərin əsas ağırlığı əhalinin üzərinə düşmüşdür.

§2.5. 1918-1990-cı illərdə Azərbaycanda tətbiq edilən vergilər.

1918-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra başlıca məqsəd ölkənin yeni iqtisadi bazasının yaradılması idi. İqtisadi bazanın yaradılması isə dövlətin əsas gəlir mənbəyi olan vergilərdən birbaşa asılı idi. Lakin parlament yenə də üstünlüyü ənənəvi vergilərə vermişdi. Bu dövrdə büdcə gəlirlərinin əsasını dolayı vergilər olan aksizlər, gömrük vergiləri və yerli yığımlar təşkil edir-

di. 1919-cu ilədək dövlət büdcəsinin gəliri 600 milyon manata çatmışdır ki, bunun da 400 milyon manatı məhz dolayı vergilər hesabına formalaşmışdı. Bu dövrdə vergitutma sahəsində bir sıra qanunlar qəbul edilmişdi ki, bu qanunlar içərisində dövlətin vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində başlıca rol oynayanı 1919-cu ildə Maliyyə Nazirliyi tərəfindən qəbul edilən «Kapital vergisinin ödəniş möhləti və tarif dərəcələrinin dəyişdirilməsi haqqında» qanun olmuşdur. Bu qanun cəmi iki maddədən ibarət olsa da bu qanunla bütün vergi növlərinin dərəcələri və ödənilmə vaxtı müəyyən olunmuşdur. Lakin dövlətin xərcləri gündən-günə çoxaldığı üçün hökümət vergi dərəcələrini artırmağa məcbur olurdu. Bu isə son nəticədə daxili bazarda qiymətlərin qalxmasına, inflyasiyaya və bununla da əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Ümumilikdə isə Azərbaycan hökümətinin iqtisadi inkişafa nail olmaq üçün həyata keçirdiyi siyasətin və tutduğu mövqeyin əsasını iqtisadi fəaliyyəti tənzimləyən normativ hüquqi bazanın yaradılması; idxal-ixrac proseslərinin tənzimlənməsi; pul-kredit siyasətinin təkmilləşdirilməsi; vergi və gömrük sahəsində islahatların aparılması və kadr hazırlığı məsələləri təşkil edirdi.

1920-1991-ci illərdə Azərbaycan yenidən SSRİ-nin tərkibində olduğundan, Sovet İttifaqının qanunları da qüvvədə olmuş və Azərbaycanın müstəqil vergi sistemi olmamışdur. Sovet İttifaqının ilk vergi islahatları Yeni İqtisadi Siyasət dövrünə təsadüf edir. Belə ki, 1921-ci ilin mart ayından ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsi ilə Sovet vergi sisteminin əsası qoyuldu. 1921-ci ilin may ayında I Sovetlər qurultayı Azərbaycanda ərzaq vergisinin əvəzinə «çanaq» adlanan könüllü natural rüsum tətbiq etmək barədə qərar qəbul etdi. Həcmcə cüzi olan bu verginin əsasını bərabərlilik prinsipi təşkil edirdi və bu vergi-

nin tətbiqi zəhmətkeşlər tərəfindən rəğbətlə qarşılandı. Azərbaycan kəndlilərinin ərzaq vergisindən azad edilməsi respublikada əkin sahələrinin artmasına, kəndli kütlələrinin kənd təsərrüfatının bərpası işində daha da fəallaşmasına səbəb oldu. Bu dövrdə pul şəklində tətbiq edilməyə başlayan ilk vergi, xüsusi ticarət və sənaye müəssisələrindən patent şəklində tutulan mədən vergisi idi. Tətbiqinin ilk illərində əgər mədən vergisi üzrə büdcəyə cüzi vəsaitlər daxil olurdusa, illər keçdikcə bu vergi növü üzrə nəzərə çarpacaq artım müşahidə olunmuşdur. Belə ki, əgər 1922-1923-cü illərdə mədən vergisi üzrə büdcəyə 118,2 milyon rubl daxil olmuşdursa, 1925-1926-cı illərdə bu həddə 428,9 milyon rubla, 1927-1928-ci illərdə isə 703,9 milyon rubla qalxmışdır. Mədən vergisinin pul şəklində tətbiqi əmək haqqının pul şəklində ödənilməsinə təkan verdi və gəlir vergisi pul şəklini aldı. 1922-ci ildən gəlir vergisi artıq pilləvari mütərəqqi şkala üzrə hesablanırdı və vergi ödəyicilərinin təqdim etdikləri yarımillik bəyannamələr üzrə onların məcmu gəlirindən tutulurdu. 1922-ci ilin sonunda vərəsəlik vergisi, 1923-cü ildən isə dövlət və kooperativ təşkilatlardan gəlir vergisi və vahid kənd təsərrüfatı vergisi tutulmağa başlandı. Birbaşa vergilərin inkişafı ilə bərabər dolayı vergilər də inkişaf edirdi. Əgər 1921-ci ildə aksizlər yalnız çaxıra, tütün məmulatlarına və kibritə tətbiq edilirdisə, 1924-cü ildən aksizli malların siyahısına pivə, kvas, araq, duz və neft məhsulları da daxil edildi. Bu dövrdə dövlət dolayı vergiləri tətbiq etməkdə maraqlı idi. Çünki, bir tərəfdən dolayı vergilərin tətbiqi birbaşa vergilərlə müqayisədə çox sadə idi, digər tərəfdən isə dövlət əsas vergi yükünü əhalinin imkanlı təbəqəsinin üzərinə qoyurdu. Qısa müddət ərzində aksiz vergisi büdcənin əsas gəlir mənbəyinə çevrilmişdir. Belə ki, əgər 1922-1923-cü illərdə aksiz vergisi üzrə büdcəyə daxilol-

malar 103,5 milyon rubl təşkil etmişdirsə, 1925-1926-cı illərdə bu həddə 841,6 milyon rubla, 1926-1927-ci illərdə 1 milyard 209,9 milyon rubla və nəhayət 1927-1928-ci illərdə 1 milyard 491,2 milyon rubla qalxmışdır. Ümumilikdə, 1927-1928-ci illərdə büdcəyə vergilər üzrə 3 milyard. 522,8 milyon rubl vəsait daxil olmuşdur ki, bunun da 42,33%-i aksiz vergisinin payına düşmüşdür.

Ötən əsrin 20-ci illərinin sonunda büdcəyə 100-ə yaxın ödəniş daxil olurdu. Bütün bunlar isə vergi sistemin islahatını zəruri edirdi. 1930-1932-ci illərdə aparılan vergi islahatları nəticəsində aksiz vergisi ləğv edildi, müəssisələr üçün isə dövriyyə vergisi və mənfəətdən ayrılmalar müəyyən olundu. 1941-ci ildə müharibə ilə əlaqədar yeni vergi növü - hərbi vergi tətbiq edilməyə başlandı və 1946-cı ildə ləğv edildi. 50-ci illərdə ən geniş yayılmiş və büdcəyə ən çox gəlir gətirən vergi - dövriyyə vergisi idi. 1954-cü ildə dövlət büdcəsinin gəlirlərində dövriyyə vergisindən daxilolmaların payı 41% təşkil edirdi.

Bu dövrdə bir sıra məqsədli vergi islahatları da aparılmışdır. Belə ki, 1960-cı ildə «Fəhlə və qulluqçuların əmək haqqından vergilərin ləğv edilməsi haqqında» qanun qəbul edilmiş və iki il sonra 1962-ci ildə bu qanun ləğv edilmişdir. Lakin, bu 1960-cı ildə hakimiyyət dəyişikliyi ilə bilavasitə əlaqədar olan vergi islahatı idi.

Ötən əsrin 80-cı illərinin ortalarında SSRİ-nin büdcəsi demək olar ki, xalq təsərrüfatından daxil olan vəsaitlər hesabına formalaşırdı, vergilər isə çox cüzi bir hissəni təşkil edirdi. 1990-cı ildən başlayaraq vergi sahəsində yenidənqurma işləri görməyə çalışan dövlətin buna vaxtı çatmadı, çünki SSRİ-nin dağılması məhz bu dövrə təsadüf etdi.

III Fəsil. Vergi siyasəti və həyata keçirilən vergi islahatlarının əsas istiqamətləri.

§3.1. Vergi siyasəti.

Davamlı iqtisadi inkişaf proseslərinin təmin olunması və cəmiyyətin sosial problemlərinin həll olunması üçün dövlət iqtisadiyyata təsir göstərmək istiqamətində bütün vasitələrdən istifadə etməlidir. Çünki, bazar iqtisadiyyatı o, demək deyil ki, dövlət gedən iqtisadi proseslərin idarə edilməsindən və tənzimlənməsindən kənarda qalmalıdır. Əksinə bazar münasibətlərinin ilkin mərhələsi iqtisadiyyatın inkişafında dövlətin tənzimləyici rolunu daha da artırır.

Qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün dövlətin istifadə etdiyi əsas iqtisadi alət məhz vergi siyasətidir. İqtisadiyyatın inkişafi isə dövlətin həyata keçirdiyi vergi siyasətindən birbaşa asılıdır. Çünki, dövlətin həyata keçirdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsini vergi sıyasəti təşkil edir. Vergi siyasəti dövlətin və cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə ehtiyaclarının təmin olunması, həmçinin milli iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə ölkənin vergi sisteminin formalaşdırılması üzrə dövlət tərəfindən işlənib hazırlanan və həyata keçirilən iqtisadi və hüquqi tədbirlərin məcmusudur.

Vergi siyasəti praktiki olaraq ölkənin bütün sosial-iqtisadi sferasına təsir göstərir və dövlət idarəetməsinin bir çox elementləri (pul-kredit siyàsəti, qiymətin əmələ gəlməsi, iqtisadiyyatın struktur islahatları, sənaye-ticarət siyasəti və s...) ilə ayrılmaz bağlara malikdir.

Vergi siyasəti vasitəsilə dövlət iqtisadi inkişafı stimullaşdırır və o, dövlət tənzimlənməsinin dolayı metodlarına aiddir. Lakin vergi siyasəti dövlət tənzimlənməsinin dolayı metodu olmaqla iqtisadiyyat tərəfindən daha sərt

qəbul olunur və bu səbəbdən bazar sistemində daha geniş tətbiq olunur.

Müasir şəraitdə vergi siyasətinin əsas məqsədi büdcə gəlirlərini təmin etməklə yanaşı, ölkə iqtisadiyyatının inkişafını sürətləndirmək, əlverişli investisiya mühiti yaratmaq və sahibkarlıq fəaliyyətini stimullaşdırmaqdan ibarətdir. İqtisadi ədəbiyyatlarda vergi siyasətinin məqsədi bir neçə istiqamtdə fərqləndirilir: iqtisadi məqsədlər, fiskal məqsədlər, sosial məqsədlər və beynəlxalq məqsədlər.

İqtisadi məqsədlər – iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini, işgüzar aktivliyin canlanmasını, təsərrüfat fəaliyyətinin stimullaşdırılmasını və uyğunsuzluqların aradan qaldırılmasını nəzərdə tutur.

Fiskal məqsədlər – iqtisadi və sosial siyasəti həyata keçirmək üçün hakimiyyətin bütün səviyyələrinin ehtiyaclarının maliyyə resursları ilə təmin olunmasını, həmçinin müvafiq dövlət idarəetmə orqanlarının üzərinə düşən funksiyaların yerinə yetirilməsini nəzərdə tutur.

Sosial məqsədlər – gəlirlərin tənzimlənməsi üzrə dövlət siyasətinin təmin edilməsini, milli gəlirin ayrı-ayrı sosial qrupların maraqlarına uyğun bölüşdürülməsini və bərabərsizliyin bərpa edilməsini nəzərdə tutur.

Beynəlxalq məqsədlər – dövlətin beynəlxalq maliyyə öhdəliklərinin yerinə yetirilməsini və digər dövlətlərlə iqtisadi əlaqələrin möhkəmləndirilməsini nəzərdə tutur.

Hazırda Azərbaycanda həyata keçirilən vergi siyasətinin əsas istiqaməti vergi dərəcələrinin aşağı salınması, vergi məkanının və vergitutma bazasının genişləndirilməsi, vergi ödəyiciləri arasında vergi yükünün ədalətli tarazlığının qorunması, iqtisadiyyata investisiya qoyulmasının stimullaşdırılması, sahibkarlıq fəaliyyətinin inkişafı üçün şəffaf mühitin formalaşması və bütün bunların nəticəsi kimi əhalinin sosial-iqtisadi rifah halının yüksəldilməsidir.

Vergi siyasətinin forma və metodları əsasən siyasi quruluş, milli maraqlar və məqsədlər, inzibati ərazi quruluşu və s... ilə müəyyən olunur. İstənilən dövlətdə həyata keçirilən vergi siyasəti onun həyata keçirilməsinin forma və metodlarından asılıdır. Dünya təcrübəsində bu siyasəti həyata keçirmək üçün əsasən iki formadan istifadə olunur: igtisadi inkişaf siyasəti və maksımal vergi sıyasəti. İqtisadi inkişaf siyasətini həyata keçirən dövlət öz fiskal maraqlarını gözləməklə bərabər, vergi ödəyicilərinin maraqlarını da nəzərə alır. Bu halda dövlət sahibkarlara vergi təzyiqini yumşaldır və öz xərclərini, xüsusilə sosial proqramlara yönəldilən xərclərini ixtisar edir. İqtisadi inkişaf siyasətinin məqsədi kapitalın prioritet inkışafını təmin etmək və investisıya fəaliyyətini stimullaşdırmaqdır. Belə siyasəti adətən iqtisadi eniş və böhran gözlənildiyi hallarda həyata keçirirlər. Vergi siyasətinin bu forması 80-ci illərin əvvəllərində «reyqanomika» adı aldında ABŞ-da həyata keçirilmişdir.

Vergi siyasətinin digər bir forması kimi - Maksimal vergi siyasəti çıxış edir. Bu siyasəti həyata keçirən dövlət kifayət qədər yüksək vergi dərəcələri təyin edir, vergi güzəştlərini ixtisar edir və vergi növlərinin sayını artırır. Maksimal vergi siyasətini həyata keçirən dövlət nəticələrini düşünmədən öz vətəndaşlarından daha çox vəsait qoparmağa çalışır və mülkiyyət formasından asılı olamayaraq cəmiyyətin heç bir üzvünün iqtisadi cəhətdən inkişaf etməyə imkanı olmur. Belə vergi siyasətindən adətən iqtisadi böhran, müharibə və digər fövqəladə hallarda istifadə olunur. Vergi siyasətinin bu forması 90-cı illərin əvvəllərində Rusiyada həyata keçirilmişdir.

İqtisadi ədəbiyyatlarda vergi siyasətinin digər bir forması kimi «düşünən» vergilər siyasətinə də rast gəlinir. «Düşünən» vergilər sıyasətin mahiyyəti ondan ibarətdir ki, bu siyasət həyata keçirildikdə hüquqi və fiziki şəxslərə

vergitutmanın ən yüksək səviyyəsi müəyyən olunur, eyni zamanda vətəndaşların sosial müdafiəsi və dövlətin sosial proqramları ön planda dayanır.

Müasir şəraitdə vergi siyasəti həyata keçirilən zaman iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirakı vergi dərəcələri, vergitutma bazası, vergi güzəştləri, maliyyə sanksiyaları və digər bu kimi alətlərin köməyi ilə reallaşdırılır.

Adətən dövlət istənilən prosesə təsir göstərmək üçün bir sıra metodlardan istifadə edir ki, bu da vergi islahatları vasitəsilə həyata keçirilir. İstənilən vergi növü sahəsində azadolma və güzəştlərin tətbiqi birbaşa tənzimlənmə və ya stimullaşdırma prosesinə təsir edir. Məsələn: vergiqoyma bazası mənfəət və ya gəlir olan vergi növləri üzrə azadolma və güzəştlərin tətbiqi iqtisadiyyatın yeni sahələrinin inkişafına, həmçinin qeyri-əlverişli regionlara investisiya qoyuluşlarının stimullaşdırılmasına təkan verir. Bu tip azadolmalar adətən qısa müddət ərzində tətbiq edilir. Azərbaycanda 90-cı illərin əvvəllərində xarici investisiyalı birgə müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin iki il müddətinə mənfəət vergisini ödəməkdən azad edilməsi buna misal ola bilər. Ümumilikdə isə, dünya vergi təcrübəsində əsasən gəlirin və ya mənfəətin vergidən tam azad edilməsi və ya qismən güzəştlərin verilməsi; zərərin növbəti illərin mənfəəti hesabına silinməsi; differensial vergi dərəcələrinin tətbiqi, ayrı-ayrı sosial qruplara vergi güzəştlərinin verilməsi, ödənişə möhlət verilməsi və s. bu kimi tipik güzəştlərdən istifadə olunur. Belə ki, hökümət yalnız vergi dərəcəsinə dəyişiklik etməklə vergi tənzimləməsini həyata keçirə bilir. Dövlətin vergi siyasətinin əsas vasitələrindən biri, vergitutma bazasının formalaşdırılması sayılır. Belə ki, vergi ödəyicilərinin dövlət qarşısında vergi öhdəliklərinin artımı və azalması bu göstəricidən əhəmiyyətli dərəcədə asılıdır.

Hazırda isə Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasəti vergi sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, vergi mədəniyyətinin formalaşdırılması, vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli mühitin yaradılması və vergi ödəyicilərinin hüquqlarının maksimum qorunması, vergi yükünün optimal səviyyədə azaldılması, vergi qanunvericiliyinə əməl edilməsinin praktiki cəhətdən rahat olması üçün müvafiq şəraitin yaradılması prinsipləri üzrə aparılır.

§3.2. Vergi islahatlarının nəticələri.

Ölkəmizdə həyata keçirilən vergi siyasətinin hüquqi əsası Vergi Məcəlləsi vasitəsilə reallaşdırılır. Vergi siyasəti iqtisadi inkişafı stimullaşdırmaq, dölətə davamlı məhsullar istehsal edən müəssisələrin vergi yükünü azaltmaq, investisiya qoyuluşlarını müxtəlif üsullarla stimullaşdırmaq məqsədi ilə daim təkmilləşdirilməkdədir. Son illərdə Vergi Məcəlləsində edilən əsaslı dəyişiklər əsasən vergi ödəyicilərinin yükünün yüngülləşdirilməsi istiqamətində edilən dəyişikliklərdir ki, bunların da cəmiyyətin sosial-iqtisadi inkişafına müsbət və mənfi təsirləri mövcuddur.

«Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» 28 noyabr 2006-cı il tarixli qərara əsasən 01 yanvar 2007-ci il tarixindən etibarən ölkəyə idxal edilən avtonəqliyyat vasitələri aksiz vergisinə cəlb edilmişdir. Bu dəyişikliklər nəticəsində ölkəyə idxal edilən avtonəqliyyat vasitələrinin qiyməti qismən artmış, büdcə gəlirlərində isə aksiz vergisi üzrə artım müşahidə olunmuşdur. Rəsmi olaraq tətbiq edilən verginin əsas yükü avtonəqliyyat vasitələrinin idxalçılarının üzərinə düşsə də faktiki vergi yükü istehlakçıların üzərinə düşür. Lakin nəzərə almaq lazımdır ki, avtonəqliyyat vasitələrin

idxalçıları içərisində yalnız imkanlı şəxslər deyil, imkansız şəxslər də vardır. Fikrimizcə, cəmiyyətin sosial qayğıya ehtiyacı olan şəxslərinə müəyyən güzəştlərin verilməsi məqsədəuyğun olardı. Bu güzəştlərə misal olaraq vergi krediti və xüsusi kompensasiyaları qeyd edə bilərik. Vergi krediti dedikdə ödənilməli aksiz vergisinin kredit yolu ilə ödənilməsi nəzərdə tutulur. Yəni, avtonəqliyyat vasitəsini idxal edən şəxs aksiz vergisini ödəyə bilmədiyi halda, ona aşağı faizlərlə vergi kreditinin verilməsi məqsədəuyğun olardı. Xüsusi kompensasiyalar dedikdə isə müəyyən kateqoriya şəxslərə (şəhid ailələləri, milli qəhrəmanlar, I qrup əlillər) verilən güzəştləri nəzərdə tuturuq.

«Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» 28 noyabr 2003-cü il tarixli qanuna əsasən Vergi Məcəlləsinin 101-ci maddəsi üzrə gəlir vergisinin hesablanma şkalası üç pillədən iki pilləyə endirilmiş, gəlir vergisinin vergi tutmayan məbləği 20 manatdan 30 manata qaldırılmış, 20 manatdan 200 manatadək olan 12%-lik dərəcə müvafiq olaraq 600 manata qaldırılaraq 14%-lə əvəz edilmişdir. Bu dəyişikliklər nəticəsində gəlir vergisinin hesablanma mexanizmi sadələşdirilmiş, aztəminatlı vergi ödəyicilərinin vergi yükü nisbətən azaldılmışdır. Lakin, əvəzinə 90 manatdan 200 manatdək əmək haqqı alan vergi ödəyiciləri 2003-cü ilə nisbətən, 2004-cü ildə orta hesabla 0,2-2,2 manat artıq vergi ödəyirdilər. Hesablamalara əsasən deyə bilərik ki, bu dövrdə ölkədə fiziki şəxslərin böyük əksəriyyətinin 200 manatdək əmək haqqı aldığını nəzərə alsaq, gəlir vergi sistemi sahəsində edilən dəyişikliklər nəticəsində əlavə vergi yükü məhz əhalinin 200 manatdək əmək haqqı alan təbəqəsinin üzərinə düşmüşdür. Müsbət cəhət kimi 200 manatdan çox əmək haqqı alan vergi ödəyicilərini göstərmək olar. Misal üçün 2003-cü ildə 300 manat əmək haqqı alan fiziki şəxs 46,6 manat gəlir vergisi ödəyirdisə, 2004-

cü ildə 37,8 manat gəlir vergisi ödəmişdir və ya 600 manat əmək haqqı alan şəxs 121,6 manat gəlir vergisi ödəyirdisə, dəyişiklərdən sonra 79,8 manat gəlir vergisi ödəmişdir. Göründüyü kimi yüksək əmək haqqı alanların vergi yükü xeyli azalmışdır.

«Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli qanununa əsasən isə aylıq gəliri şərti maliyyə vahidinin 200 mislinədək olanlara, şərti maliyyə vahidinin 30 misli həcmində güzəşt verildi, bu həddən yuxarı, yəni 1000 manatadək əmək haqqı alanlar isə birbaşa 14%-lə vergiyə cəlb olundu. Hesablamalardan sonra belə nəticəyə gəlmək olar ki, bu dəyişikliklərin də əhaliyə müsbət və mənfi təsiri olmuşdur. Belə ki, 2006-cı ildə 50-220 manat əmək haqqı alanların sərəncamında, 2005-ci ilə nisbətən cüzi də olsa artım müşahidə olunur, əksinə 220 manatdan 600 manatadək əmək haqqı alanların vəsaiti 4,2 manat azalmışdır. 620 manatdan yuxarı əmək haqq alanların sərəncamında qalan vəsait isə orta hesabla 16,8 manatdan, 79,8 manatadək artmışdır. Misal üçün, 2005-ci ildə 240 manat əmək haqqı alan şəxs 29,4 manat vergi ödəyirdisə, 2006-cı ildə 33,6 manat ödəmişdir və ya 2005-ci ildə 1000 manat əmək haqqı alan şəxs 219,8 manat vergi ödəyirdisə, 2006-cı ildə 140 manat vergi ödəmişdir. 2007-ci ildən etibarən artıq 220 manatadək deyil, 200 manatdək vergi güzəşti verilmişdir və bu güzəşt əvvəlki kimi şərti maliyyə vahidinin 30 misli həcmində deyil, 30 manat miqdarında müəyyən edilmişdir. Bu dəyişikliklərdən sonra 220 manatadək əmək haqqı alanların ödədiyi verginin həcmi qismən azalmışdır. «Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında» 07 may 2007-ci il tarixli qanuna əsasən 2008-ci ildən bu güzəşt minimum əmək haqqının bir misli̇nə bərabər tutulmuş,

14% tətbiq edilən gəlir isə 1000 manatdan 2000 manata qaldırılmışdır. Bu dəyişikliklərdən sonra 200 manatadək və 1000 manatdan 2000 manatdək əmək haqqı alanların sərəncamında qalan vəsaitlər xeyli artmışdır. Belə ki, 2007-ci ildə 160 manat əmək haqqı alan şəxs 18,2 manat vergi ödəyirdisə, 2008-ci ildə 14 manat vergi ödəmişdir və ya 2007-ci ildə 200 manat əmək haqqı alan şəxs 23,8 manat vergi ödəyirdisə, 2008-ci ildə 19,6 manat vergi ödəmişdir, həmçinin 2007-ci ildə 1500 manat əmək haqqı alan şəxs 315 manat vergi ödəyirdisə, 2008-ci ildə 210 manat ödəmişdir və ya 2007-ci ildə 2000 manat əmək haqqı alan şəxs 490 manat vergi ödəyirdisə 2008-ci ildə 280 manat vergi ödəmişdir. Lakin, ölkədə minimum əmək haqqı ildən ilə artdığı üçün 200 manatadək əmək haqqı alanların vergi yükü qismən azalmışdır. Nəhayət «Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında» 21 dekabr 2012-ci il tarixli qanuna əsasən 2013-cü ilin yanvar ayının 1-dən 200 manatadək əmək haqqı alanlar üçün nəzərdə tutulan güzəşt (minimum əmək haqqı), əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu ilə əvəz edildi. 2000 manatadək nəzərdə tutulan 14%-lik həddisə 2500 manata qaldırıldı, bu məbləğdən yuxarı əmək haqqı alanlar üçün isə 30% əvəzinə 25% müəyyən edildi. Bu dəyişikliklərdən sonra 200 manatadək, 2000 manatdan yuxarı əmək haqqı alanların sərəncamında qalan vəsaitlər xeyli artmışdır. Belə ki, 2012-ci ildə 180 manat əmək haqqı alan fiziki şəxs 12,11 manat vergi ödəyirdisə, 2013-cü ildə 7,7 manat vergi ödəyəcəkdir və ya 2012-ci ildə 2400 manat əmək haqqı alan fiziki şəxs 400 manat vergi ödəyirdisə, 2013-cü ildə 350 manat vergi ödəyəcəkdir və nəhayət 2012-ci ildə 3000 manat əmək haqqı alan fiziki şəxs 580 manat vergi ödəyirdisə, 2013-cü ildə 475 manat vergi ödəyəcəkdir.

Təhlillər göstərir ki, son illərdə bu sahədə aparılmış islahatlar nəticəsində vergi yükü azalmış, bəzi vergi ödəyicilərinin sərəncamında qalan vəsaitlərin həcmi cüzi olaraq artsa da, bəzilərində xeyli artım müşahidə olunmuşdur.

İlk baxışdan bütün bunlar büdcə gəlirlərində gəlir vergisindən daxilolmaların azalacağı kimi görünsə də, statistik göstəricilər bunun tam əksini sübut edir. Əgər 2003-cü ildə dövlət büdcəsinin gəlirlərində gəlir vergisindən daxilolmalar 150,4 mln. manat təşkil edirdisə, 2004-cü ildə bu rəqəm 221,6 mln. manata, 2005-ci ildə 317,5 mln. manata, 2006-cı ildə 407,3 mln. manata, 2007-ci ildə 588,6 mln. manata, 2011-ci ildə isə 715,7 mln. manata qalxmışdır.

Mütəxəssislərin fikrincə gəlir vergisi sahəsində eyni səviyyəli dərəcənin tətbiqi müsbət nəticələr verərdi. Bu təcrübədən artıq Rusiyada istifadə olunub və nəticələr qənaətbəxş hesab edilir. Rusiyadan sonra Ukraynadada eyni səviyyəli dərəcə tətbiq edilmiş və vergi dərəcəsi Rusiyadakı kimi 13% müəyyən edilmişdir. Digər dövlətlər olan Estoniya və Latviyada da müvafiq olaraq 25 və 26%-lik eyni səviyyəli dərəcə tətbiq edilir. Lakin nəzərə almaq lazımdır ki, eyni səviyyəli vergi dərəcəsinin tətbiqi bu ölkələrdə heç də gəlir vergisi sahəsində daxilolmaların artmasına gətirib çıxarmamışdır. Məsələn, Rusiyada daxilolmaların artmasına əsas səbəb əmək haqlarının artırılması olmuşdur.

Bununla belə hal-hazırda ölkədə tətbiq edilən dərəcələri də qənaətbəxş heab edə bilərik. Çünki, hazırda gəlir vergisi üzrə dərəcələrin maksimum həddi 25% təşkil edir. Bu isə digər dövlətlərlə müqayisədə normal hal hesab edilir və dünya reytinqində Azərbaycanda tətbiq edilən vergi dərəcələrinin 28-ci yerdə dayanması buna əyani sübutdur. Bu siyahıya isə 60%-lə Danimarka, Hollandiya

və Vyetnam başçılıq edir, Azərbaycan isə Malta, Finlandiya, Litva, Pakistan, Argentina və Meksika ilə bir sırada dayanır. Ən aşağı dərəcələr isə Kipr (4,25%) və Səudiyyə Ərəbistanında (2,5%) tətbiq edilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsində mənfəət vergisi sahəsində də son illərdə əsaslı dəyişikliklər edilmişdir. «Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 26 noyabr 2002-ci il tarixli qanununa əsasən 1 yanvar 2003-cü il tarixdən mənfəət vergisinin dərəcəsi 27%-dən 25%-ə endirilmiş və 25%-lik dərəcə üzrə regionlar və sahələr üzrə mənfəət vergisinin dərəcələri müəyyən olunmuşdur. Belə ki, Gəncə, Mingəçevir, Sumqayıt, Əli-Bayramlı (Şirvan), həmçinin bu şəhərlərin tabeçiliyində olan qəsəbələr 20%-lə, dağ rayonları və Naxçıvan Muxtar Respublikası 10%-lə, Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla digər rayonlar 15%-lə mənfəət vergisini ödəyirdilər. Bu dəyişikliklər büdcə daxilolmalarında mənfəət vergisindən daxilolmaların artması ilə bərabər, həmçinin ölkədə sahibkarlığın inkişafına da böyük təkan vermişdir. Lakin, «Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 28 noyabr 2003-cü il tarixli qanununa əsasən bütün bunlar ləğv edilmiş və mənfəət vergisi üzrə vahid 24% dərəcə qəbul olunmuşdur. Bütün bunlara müəssisə səviyyəsində baxsaq tamamilə başqa bir mənzərənin şahidi oluruq. Düzdür fəaliyyətdə olan müəssisəyə bu dəyişiklik o qədər də ciddi təsir göstərmir. Lakin, yeni yaradılan müəssisə üçün bu böyük bir zərbədir. Çünki uzun illər boyu əvvəlcə 35%, sonradan 27%, daha sonra 25% dərəcə ilə vergini ödəməyə vərdiş etmiş müəssisə üçün bu normal haldır. Məsələn, 2003-cü ilin yanvar ayında Naxçıvanda təsis edilmiş hər hansı bir müəssisə öz biznes planını hazırlayarkən yaxın 3 il ərzində 10%-lə

mənfəət vergisi ödəyəcəyini planlaşdırır. Lakin, mənfəət vergisi sahəsində edilən dəyişiklik (xüsusən dərəcəsində) onun planlarını alt-üst edir. Bu müəssisənin sərəncamında qalan vəsaitin 14% azalmasına gətirib çıxarır ki, bir çox yeni yaranmış məssisələr bu iqtisadi sıxıntıya dözə bilməyib iflasa uğrayırlar.

Büdcə gəlirlərində mənfəət vergisinin payının stabil qalmasına səbəb isə, fikrimizcə mənfəət vergisinin əsas ödəyicilərinin Bakı və Abşeron rayonunda yerləşməsi ilə əlaqədardır.

Qeyd olunanlarla bərabər fikrimizcə vergi siyasətinin təkmilləşdirilməsi və səmərəli vergi sisteminin qurulması istiqamətində vergi sahəsində olan bütün bürokratik əngəllər aradan qaldırılmalı, bəzi səmərəsiz vergi növləri ya ləğv edilməli, ya da bu problemin həlli ilə bağlı tədbirlər həyata keçirilməli, vergidən yayınma halları minimuma endirilməli, Vergi Məcəlləsində edilən dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi həyatına təsiri qabaqcadan ətraflı öyrənilməli, qiymətləndirilməli iqtisadi inkişafla nəticələnəcək vergi siyasəti həyata keçirilməlidir.

§3.3. Vergi sistemində kadr siyasəti və irimiqyaslı islahatlar.

Vergi sistemində aparılan islahatlar sırasında kadr siyasəti də önəmli yerdə dayanır. Belə ki, «Dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2004-cü il tarixli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Vergilər Nazirliyinin müvafiq əmrləri ilə aidiyyatı olan struktur bölmələrin vəzifələri müəyyən edilmişdir. 2005-ci ildə Müsabiqə komissiyası və iş-

çi qrupu yaradılmış, normativ sənədlər, o cümlədən «Vergi orqanlarına işə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin toplanması və yoxlanılması» və «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi» qaydaları təsdiq edilmişdir. 2005-ci ildən «İşə qəbulla əlaqədar elektron Ərizə» proqram təminatı da yaradılmışdır. Son illər ərzində TQDK ilə birlikdə 6 dəfə müsabiqə elan olunmuş və işçi heyətinin gənc və savadlı kadrlarla zənginləşdirilməsi istiqamətində şəffaf kadr seçimləri aparılmışdır. Ümumilikdə keçirilən müsabiqələrdə 4200 nəfər namizəd iştirak etmiş, onlardan 557 nəfəri müsabiqədən keçmiş, 347 nəfəri işlə təmin olunmuş, 210 nəfəri isə Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilmişdir.

Vergi sistemində aparılan islahatlar içərisində Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Belə ki, vergi orqanlarının işçi heyəti üçün Tədris Mərkəzində ixtisaslaşma kursları təşkil edilir. Bu məqsədlə «Vergilər Nazirliyinin tədris konsepsiyası», «Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili qaydaları», «Tədris Mərkəzində Dövlət vergi orqanlarının vəzifəli şəxsləri üçün müxtəlif tədris kurslarının təşkili və keçirilməsi qaydaları» hazırlanaraq təsdiq edilmişdir.

Son illərdə azad sahibkarlığın inkişafına təkan verən bir sıra irimiqyaslı islahatlar aparılmışdır ki, bunlardan da birincisi «Vahid pəncərə» prinsipinin tətbiqinə başlanmasıdır. Sahibkarlıq subyektlərinin «Vahid pəncərə» prinsipi ilə qeydiyyatı sistemi Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən müəssisələrin qeydiyyatı sahəsində ən uğurlu islahat hesab edilmiş və «Doing Business» hesabatının «Biznesə başlama» reytinqində Azərbaycan Respublikası 64-cü yerdən 13-cü yerə yüksəlmişdir. «Vahid pəncərə» prinsipi vasitəsilə 150000 sahibkar

dövlət qeydiyyatından keçib ki, bunların da 18000-i kommersiya hüquqi şəxsləridir. Lakin, bu uğurlara baxmayaraq Vergilər Nazirliyi bu sahənin təkmilləşdirilməsi istiqamətində işlərini davam etdirir. Hazırda əsas məqsəd kommersiya hüquqi şəxslərinin «on-line» qeydiyyatının təşkilidir. Bu proses qanunvericilik bazasında müvafiq dəyişikliklərdən sonra başlayacaq və bu, biznesə başlamaq üçün şərtlərin maksimum sadələşdirilməsinə gətirib çıxaracaq.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi öz strukturunu, vergi inzibatçılığını, vergi ödəyicilərinə xidmət sahəsini təkmilləşdirmək üçün müxtəlif layihələr həyata keçirir. Hazırda Avropa Birliyinin TACİS proqramı ilə birlikdə dəyəri 1,5 milyon avro olan texniki yardım layihəsi reallaşdırılır. Yardım vergi işçilərinin və vergi ödəyicilərinin tədrisinə, xidmət strukturunun genişlənməsinə, daxili kommunikasiya texnologiyasının tətbiqinə yönəldilmişdir. Bundan əlavə ABŞ-ın Xəzinədarlıq Departamentinin bir qrup məsləhətçisi və daimi rezident koordinatoru vergi sisteminin inkişafına texniki yardım göstərir.

Azərbaycanın vergi sisteminin əldə etdiyi uğurlardan biri də, onun beynəlxalq vergi sisteminə tam inteqrasiya etməsidir. Ölkəmiz 2004-cü ildə «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Strasburq Konvensiyasına qoşulub. Bu Konvensiya Avropa Şurasına daxil olan ölkələrin vergi orqanları arasında vergi məsələlərinə dair informasiya mübadiləsinin çərçivəsini müəyyən etməklə ölkəmizin belə bir mübadilə sisteminə qoşulmasına hüquqi imkan yaradıb. Vergilər Nazirliyi xarici ölkələrin vergi orqanları ilə əməkdaşlıq edir, vergi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla işgüzar əlaqələr qurur. Hazırda Vergilər Nazirliyi Avropadaxili Vergi Administrasiyaları Təşkilatının, MDB ölkələri vergi orqanları rəhbərlərinin Koordinasiyası Şurasının üzvüdür. Son illər ər-

zində xarici ölkələrin vergi orqanları ilə aparılan əməkdaşlığın hüquqi bazası da genişləndirilmiş, Fransa, Çexiya və Estoniyanın vergi orqanları ilə əməkdaşlığa dair memorandium imzalanmışdır. Hazırda Böyük Britaniya, İrlandiya, Latviya və Macarıstanın vergi orqanları ilə anoloji sənədin imzalanması üçün hazırlıq işləri həyata keçirilir.

Həyata keçirilən uğurlu siyasət nəticəsində 39 dövlətlə «Gəlir və əmlaka görə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması» və «Vergidən yayınmanın aradan qaldırılması» haqqında sazişlər imzalanmış, 15 ölkə ilə anoloji sazişin imzalanmasına hazırlıq işləri gedir.

§3.4. Vergitutmanın idarə olunması və vergi planlaşdırılması.

Səmərəli maliyyə siyasətinin həyata keçirilməsində vergitutmanın idarə olunması mühüm rol oynayır. Bazar münasibətləri şəraitində vergitutmanın idarə olunmasından iqtisadi proseslərin tənzimlənməsində istifadə olunan maliyyə alətlərinin fəaliyyəti də asılıdır. Vergitutmanın idarə olunması - kompleks anlayışdır. Vergitutmanın idarə olunması əsasən vergilərin hesabına formalaşan pul fondlarının yaradılması proseslərinin və bu proseslərə nəzarət edən vergi aparatı işçilərinin məqsədli fəaliyyətinin, həmçinin sistem şəklində bütün vergi orqanlarının fəaliyyətinin idarə olunmasıdır. Ümumilikdə vergitutmanın idarə olunması: cəmiyyətdə vergi münasibətlərinin, vergilərin yığılmasına nəzarətin və vergi aparatının idarə olunmasını əhatə edir.

Vergitutmanın idarə olunması makroiqtisadi səviyyədə ümummilli məsələlərin, mikroiqtisadi səviyyədə isə spesifik məsələlrin həllini nəzərdə tutur.

İdarəetmənin ümummilli məsələlərinə vergi daxilolmalarının səfərbər edilməsi yolu ilə mərkəzləşdirilmiş büdcə fondlarının formalaşmasını, vergi resurslarının büdcə sisteminin həlqələri arasında optimal bölüşdürülməsini və vergi daxilolmaları üzrə ümumi planların və proqnozların hazırlanmasını aid etmək olar.

İdarəetmənin spesifik məsələlərinə büdcə gəlirlərinin formalaşmasında hüquqi və fiziki şəxslərin rolunun müəyyən olunmasını, vergi dərəcələrinin təyin olunması sahəsində elmi cəhətdən əsaslandırılmış tədqiqatların aparılmasını, hüquqi və fiziki şəxslərin vergi ödəmələrinə nəzarətin həyata keçirilməsini və vergidən yayınan şəxslərə qarşı görülən ciddi məsuliyyət tədbirlərini aid etmək olar.

Vergi sisteminin idarə olunmasında vergi planlaşdırılmasının mühüm əhəmiyyəti vardır. Vergilərin planlaşdırılması həyata keçirilən vergi siyasətinin məqsədlərinə uyğun olaraq, ölkədə vergi sisteminin qurulmasına və strukturuna əsaslanır. Vergi planlaşdırılması eyni zamanda, dövlətin vergi siyasətinin tərkib hissəsidir. Vergilər planlaşdırılarkən dövlət və yerli özünüidarəetmə orqanlarının mövqeyi ilə bərabər, onları ödəyəcək təsərrüfat subyektlərinin də mövqeyi nəzərə alınmalıdır. Vergi planlaşdırılmasının cari və perspektiv növləri fərqləndirilir. Cari vergi planlaşdırılması operativ və qısamüddətli, perspektiv vergi planlaşdırılması isə ortamüddətli və uzunmüddətli olur.

Makroiqtisadi səviyyədə vergilər planlaşdırılarkən, planlaşdırmanın subyekti dövlətdir, hansı ki, vergi elementləri vasitəsilə vergi daxilolmalarını tənzimləyir. Makroiqtisadi səviyyədə vergilərin planlaşdırılması - dövlətin iqtisadi, siyasi və sosial problemləri həll etmək üçün müxtəlif səviyyəli büdcələrə və büdcədənkənar fondlara vergi daxilolimalarının həcminin müəyən olunmasının kompleks

prosesidir. Makroiqtisadi səviyyədə vergilərin planlaşdırılması bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının proqnozlaşdırılmasına xidmət edir. Bir şərtlə ki, ölkənin ümumi iqtisadi göstəriciləri (ÜDM, milli gəlir, əhali gərləri, inflyasiya, ehtiyatlar, dövlət borcu, ödəmə balansı və s...) nəzərə alınsın. Çünki, məhz bu göstəricilər həm vergitutma bazasını, həm də konkret vergi növü üzrə daxilolmaların maksimal həddini formalaşdırır.

Mikroiqtisadi səviyyədə vergilərin planlaşdırılması qanunvericiliyə ciddi riayət etməklə vergi yükünü maksimum minimallaşdırmağa çalışan iqtisadi subyektin fəaliyyətinin təşkilini özündə təcəssüm etdirir. Lakin, iqtisadi subyekt qanunvericiliyə riayət etməklə bərabər, müəyyən olunmuş iqtisadi tələblərə də riayət etməlidir. Belə ki, düşünülmədən həyata keçirilən vergi planlaşdırılması vergi yükünü minimallaşdırmaqla bərabər gələcək gəlirlərin azalması ilə də nəticələnə bilər.

İqtisadi ədəbiyyatlarda «Vergilərin planlaşdırılması» anlayışı ilə bərabər «vergi ödəməkdən qanuni yayınma», «vergidən yan keçmə» anlayışlarından da istifadə edilir. Çünki, bu anlayışlardan istifadənin yekun məqsədi eynidir – dövlətə ödənilən vergilərin minimallaşdırılması. Qanunvericilikdə nə vergilərin planlaşdırılmasına, nə vergiləri ödəməkdən qanuni yolla yayınmaya, nə də vergidən yan keçməyə dair heç bir məsuliyyət tədbiri nəzərdə tutulmayıb. Çünki, məsuliyyət o zaman yaranır ki, vergi ödəyicisi bunları qanuvericiliyi pozaraq həyata keçirsin. Qanunvericilik pozulduqda isə vergi sisteminin ən böyük problemi olan vergidən yayınma halları yaranır.

Beləliklə, vergilər planlaşdırılarkən qanunvericiliyin tələbləri mütləq gözlənilməli, vergidən yayınma ilə nəticələnəcək tədbirlər həyata keçirilməməlidir.

IV Fəsil. Azərbaycan Respublikasının vergi sistemi və vergi qanunvericiliyi.

§4.1. Azərbaycan Respublikasının vergi sisteminin əsas xüsusiyyətləri.

Müasir vergi sistemi sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla beynəlxalq standartlara cavab verməlidir. Vergi sistemi büdcə gəlirlərinin vaxtında tam yığılmasını təmin etməli, gəlirlərin formalaşması və xalq təsərrüfatının ayrı-ayrı sahələrində istehsalın tənzimlənməsi üçün şərait yaratmalıdır. Vergi sistemi bütün ölkələrdə olduğu kimi Azərbaycanda da iqtisadiyyatın tənzimlənməsində, dövlət büdcəsinin gəlirlərlə təmin olunmasında aparıcı rol oynayır. Müasir vergi sistemi yalnız proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərini təmin edən vasitə kimi deyil, həm də iqtisadi inkişafı stimullaşdıran vasitə kimi də çıxış edir.

Bütün ölkələrdə olduğu kimi Azərbaycanda da vergi sisteminin qarşısına qoyulan tələblərdən biri tətbiq olunan vergilərin həm sayının, həm də dərəcələrinin uzun müddət ərzində sabit qalmasıdır. Çünki sahibkarların yaxın illər üçün gəlir və xərclərini düzgün proqnozlaşdırılması bu amildən çox asılıdır. Yalnız bu halda onlar həm istehsal, həm də sosial infastrukrur üçün investisiya proqramını hazırlamaq imkanını əldə edirlər. Vergi sisteminin sabitliyi isə dövlət büdcəsinin gəlir və xərclərinin tarazlığını təmin edir ki, bu da ölkədə sərbəst sosial-iqtisadi siyasətin aparılmasına geniş imkanlar yaradır. Vergi sisteminin dayanıqlı olması xarici iş adamlarını da narahat edən məsələlərdəndir. Xarici investorları güzəşt və imtiyazlardan daha çox vergi sisteminin qeyri-sabitliyi narahat edir. Lakin bu sahədə də Azərbaycan hökuməti tərəfindən mütərəqqi işlər görülmüş, bir sıra beynəlxalq müqavilələr və sazişlər

bağlanmışdır ki, bununla da investisiyaların qorunması təmin olunmuş gəlirlərə və əmlaka görə ikiqat vergitutma aradan qaldırılmış, vergi rejiminin sabitliyinə nail olunmuşdur.

Vergi ödəyicilərini narahat edən məsələlərdən biri də Azərbaycanda vergi yükünün nisbətən yüksək olmasıdır. Vergi yükü - vergi ödəyicilərindən alınan verginin həcmidir və o, ilk növbədə vergi ödəyicilərinin mənfəətinin səviyyəsindən birbaşa asılıdır. Düzdür bəzi tədqiqatçılar öz elmi əsərlərində Azərbaycanda gəlir vergisi dərəcəsinin maksimum həddinin 30%, inkişaf etmiş ölkələr olan Danimarkada 60%, Fransada 48%, Almaniyada 45% olduğunu qeyd edirlər. Lakin unutmaq olmaz ki, bu ölkələrdə fiziki şəxslərin gəlirlərinin səviyyəsi bizdən dəfələrlə çoxdur və vergi dərəcəsinin yüksəkliyi, həmçinin vergi yükünün ağırlığı onlara o qədər də ciddi təsir etmir. Məsələn: İsveçdə vergi sistemi elə qurulmuşdur ki, vergi ödəyiciləri öz gəlirlərinin yarısından çoxunu dövlətə vergi şəklində ödəyirlər, əvəzində dövlət bir çox sosial-iqtisadi məsələləri vergilər hesabına həll edir və maraqlar balansı qorunmuş olur.

Ümumillikdə isə təcrübə göstərir ki, vergi yükünün artması, vergi dərəcələrinin yüksəldilməsi, güzəşt və imtiyazların ləğv edilməsi əvvəlcə vergi sisteminin səmərəliliyini artırır, sonradan isə getdikcə büdcə gəlirlərinin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Çünki, vergi ödəyicilərinin əksəriyyəti vergi yükünün ağırlığını aşağı salmaq üçün müxtəlif qeyri-qanuni vasitələrdən istifadə etməklə vergidən yayınmağa çalışırlar. Bu zaman büdcə gəlirlərinin itkiləri əvəzedilməz olur. Beynəlxalq vergitutma təcrübəsi göstərir ki, vergi ödəyicilərindən alınan vergilər onun məcmu gəlirinin 30-40%-dən çox olduqda iqtisadi fəallıq aşağı düşür, iqtisadiyyata qoyulan investisiyaların həcmi azalır. Hazırda Azərbaycanda vergi yükünün

ağırlıq səviyyəsi 30%-i ötmür. Bununla belə vergi yükünün yüngülləşdirilməsi istiqamətində tədbirlər görülməlidir.

Qeyd edək ki, vergi yükünün ağırlaşdırılması və ya yüngülləşdirilməsi Vergi Məcəlləsində edilən dəyişikliklərdən birbaşa asılıdır. Hazırda ölkənin vergi qanunvericiliyi sistemləşdirilmiş, vergilərin müəyyənedilmə, yığılma və dövlət büdcəsinə köçürülmə qaydaları xeyli sadələşdirilmiş, vergi siyasətinin istiqamətləri və vergitutmanın prinsipləri müasir tələblərə uyğunlaşdırılmışdır. Vergi qanunvericiliyində vergi güzəştlərinə geniş yer verilmişdir. Vergi güzəştləri istənilən dövlətin vergi siyasətində mühüm yer tutur. Hüquqi baxımdan güzəşt - ciddi surətdə müəyyən edilmiş hallarda fəaliyyət göstərən xüsusi normadır. Bu baxımdan vergi qanunvericiliyində vergi güzəştlərinin müəyyən edilməsi, bilavasitə vergi yükünün yüngülləşdirilməsinə xidmət edən mexanizmlərdəndir. Hazırda mövcud vergi sistemində, bəzi vergi növləri üzrə vergi güzəştləri müəyyən edilmiş, ədalətli və çevik vergi sisteminin qurulması istiqamətində mütərəqqi addımlar atılmışdır.

Vergi sistemi anlayışı vergilərin yaranması və inkişafı nəticəsində təşəkkül tapmışdır. Vergilərə vergi ödəyiciləri ilə dövlət büdcəsinin qarşılıqlı maliyyə münasibətləri kimi baxmaq olar. Bu zaman maliyyə ehtiyatlarının dövlət büdcəsində konsentrasiyası baş verir ki, bu prosesi vergi sistemi öz vəzifə, forma, üsul və prinsipləri ilə inkişaf etdirir və konkretləşdirir.

§4.2. Azərbaycan respublikasında vergi xidmətinin təşkili və inkişafı.

Vergi xidməti sahəsində atılmış ən mütərəqqi addım 11 fevral 2000-ci il tarixdə Baş Dövlət Vergi müfəttişliyinin

bazasında dövlətin vergi siyasətinin həyata keçirilməsi və vergitutma sahəsində dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyinin yaradılması olmuşdur. Vergilər Nazirliyi yaradıldıqdan sonra vergi orqanlarının strukturunun modernləşdirilməsi və təkmilləşdirilməsi ilə bağlı quruculuq işlərinə başlanılmışdır. Vahid və möhkəm strukturun qurulması məqsədilə qabaqcıl ölkələrin təcrübəsi öyrənilmiş, müxtəlif idarəetmə formaları təhlil edilmiş və vergi orqanlarının funksional əsasda fəaliyyət göstərən strukturunun tətbiqinə üstünlük verilmişdir.

Vergilər Nazirliyinin strukturunun yenidən təşkili və vergi inzibatçılığının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə 2000-ci ildə Vergi idarəsinin Pilot strukturu təsdiq olunmuş və fəaliyyətə başlamışdır. Sınaqdan uğurla çıxan Pilot idarə 2000-ci ilin sonunda digər bölgələrdə də yaradılmağa başlanmışdır. Yaradılan yeni struktur əvvəlkindən fərqli olaraq vergi siyasətinin daha yaxşı həyata keçirilməsinə və vergitutma sahəsində güclü nəzarət sisteminin tətbiqinə imkan verən mexanizm kimi müsbət keyfiyyətləri özündə birləşdirdi. Struktur islahatları ilə bərabər vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində də layihələr həyata keçirilirdi. Belə ki, Vergilər Nazirliyi yaradılmasının ilk iki ilində beynəlxalq maliyyə qurumları, mütəxəssislər, yerli və xarici iş adamları ilə birlikdə Vergi Məcəlləsinin hazırlanmasına və 2001-ci ildə qəbuluna nail olmuşdur. Bu dövr üçün Vergi Məcəlləsinin qəbul edilməsi çox mühüm addım idi. Çünki vergi sahəsində aparılan islahatların uğurlu davamını təmin etmək üçün vergi qanunvericiliyindəki pərakəndəlik və ziddiyyətlər aradan qalxmalı idi. Vergi Məcəlləsinin qəbul edilməsi, vahid qanunvericilik bazasının yaradılması vergi sistemində aparılan islahatlara mühüm bir təkan vermək-

lə dövlət – sahibkar münasibətlərində yeni bir mərhələnin əsasını qoydu.

Ümumilikdə 221 maddəni və 4000-dək müddəanı özündə birləşdirən Vergi Məcəlləsinə dəfələrlə dəyişikliklər edilmişdir ki, bu dəyişikliklər nəticəsində vergi sistemi sadələşdirilmiş, vergi ödəyicilərinin mənafelərinin qorunması, vergi inzibatçılığının yaxşılaşdırılması və vergidən yayınma hallarının qarşısının alınması istiqamətində bir çox təkmilləşdirmə işləri aparılmışdır. Hazırda Azərbaycan Respublikasının Vergi qanunvericiliyi Avropa Birliyinin 6-cı Konvensiyasına uzlaşdırılmış qanunvericilikdir və beynəlxalq standartlara cavab verir.

Son illərdə vergi sistemində aparılan islahatların əsas məqsədlərindən biri ölkə iqtisadiyyatının bütün sahələrinin potensial imkanlarından istifadənin səmərəliliyini artırmaq, onların dinamik inkişafını təmin etmək, ümumiyyətlə iqtisadi sistemdə işgüzarlığı, çevikliyi, təşəbbüskarlığı stimullaşdırmaqdır. Buna görə də vergi yükünü aşağı salmaqla yanaşı, hökumət vergi siyasətinin məhz bu aspektlərindən istifadə edir. Məsələn 1999-cu ildən kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilməsi bu sahədə işgüzar fəaliyyəti nəzərəçarpacaq dərəcədə fəallaşdırmışdır. Məhz buna görə də həmin vergi güzəşti 2004-cü ildə daha 5-il müddətinə uzadıldı. Bu tədbirlərlə yanaşı Azərbaycan hökuməti həmçinin köhnə vergi borclarının silinməsi yolu ilə regionlarda yerləşən müəssisələrin maliyyə cəhətdən sağlamlaşdırılması siyasətini həyata keçirir. «Hüquqi şəxslərin dövlət büdcəsinə borclarının güzəştli ödənişi haqqında» və «Özəlləşdirilən dövlət müəssisələrinin - aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında» qanunlarla bir çox müəssisələrin dövlət büd-

cəsinə və büdcədənkənar fondlara vaxtı keçmiş vergi borcları silinmişdir.

Vergi xidmətində aparılan islahatların mühüm bir tərkib hissəsini təşkil etmiş vergi inzibatçılığı sahəsində həyata keçirilmiş islahatları qeyd etməmək mümkün deyil. Vergi inzibatçılığının təkmilləşdirilməsi prosesində mühüm istiqamətlərdən biri vergi xidmətinin strukturunun təkmilləşdirilməsidir. Son illərdə Azərbaycan Respublikası Vergilər Nazirliyi inzibati idarəetmə strukturunu və vergi ödəyiciləri ilə iş prosesini təkmilləşdirməklə sahibkarlıq subyektlərinin işinə maksimum az müdaxilə etməyə, vergi ödənişlərinin həyata keçirilməsində şəffaflıq və könüllülük yaratmağa çalışır.

Təşkilati-idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə 2002-ci ildə regionlarda yerləşən 54 yerli vergi orqanı ləğv edilərək, onların əvəzinə 12 ərazi vergilər idarəsi yaradıldı. Bakı şəhərində isə Bakı şəhər Baş Vergilər idarəsi və 11 rayon idarəsi ləğv olunaraq yeni vergi orqanı - Bakı şəhər Vergilər Departamenti və onun tərkibində 3 filial təşkil edildi. İşçilərin sayı isə 1600 nəfərdən 800 nəfərədək endirildi.

Vergi sistemində aparılan islahatların ana xətlərindən biri vergi ödəyiciləri üçün xidmətin təşkilidir. Bu sahədə işləri daha yaxşı qurmaq üçün Azərbaycan Respublikası Vergilər Nazirliyində vergi ödəyiciləri ilə iş üzrə ayrıca idarə yaradılmışdır ki, bu idarənin də əsas məqsədi vergi ödəyicilərini informasiya ilə təmin etməkdir. Çünki, bu gün qanun pozuntularının əksəriyyəti vergi ödəyicilərinin qanunvericiliyi yaxşı öyrənməməyi səbəbindən baş verir. Bu isə vergi ödəyicilərinin məlumat və informasiyaya ehtiyac duymalarından xəbər verir. Bu ehtiyacları ödəmək məqsədi ilə vergi ödəyiciləri ilə mütəmadi brifinqlər, görüşlər, vergi həftəliyi və sair tədbirlər həyata keçirilir. Həmçinin, 2004-cü ildə MDB məkanında ilk dəfə olaraq

Vergilər Nazirliyi tərəfindən Bakıda, 2006-cı ildə isə Azərbaycanın bütün ərazisində vergi ödəyicilərinin suallarını cavablandırmaq üçün pulsuz məlumat-telefon xidməti də yaradılmışdır ki, bu xətt (195) vasitəsi ilə 2012-ci ildə 200 minə yaxın sorğu cavablandırılmışdır. Bundan əlavə 2006-cı ildən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) də fəaliyyətə başlamışdır ki, bu proqramın vasitəsilə vergi borclarının alınması prosesində mövcud olan neqativ hallar aradan qaldırılmışdır. AVİS həm də vergi xidmətində sənəd dövriyyəsinin elektron formata keçirilməsini və operativ informasiya mübadiləsini də təmin etmişdir. Müasir texnologiyalardan istifadə edilməklə yeniliklərin tətbiqi vergi xidməti orqanları qarşısında duran vəzifələr sırasında əsas məsələlərdəndir. 2011-ci ildə Vergilər Nazirliyi Avropa Komisşiyası ilə birgə və Niderland Krallığının Vergi Administrasiyasının dəstəyi ilə həyata keçirilən «Kompyuter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» tvinninq-layihəsinin təqdimatı keçirilmişdir. Avropa Komissiyası tərəfindən maliyyələşdirilən layihə 6 komponentdən ibarətdir: elektron auditin tətbiqi üçün hüquqi bazanın hazırlanması; zəruri proqram təminatının seçilməsi; elektron audit üçün məlumat bazasının yaradılması; metodologiyanın hazırlanması və auditorlar üçün treninqlərin keçirilməsi; orta və iri müəssisələr tərəfindən tətbiq edilən elektron mühasibatlığın tətbiqi təcrübəsinin inkişafı; Azərbaycanda elektron audit sisteminin tətbiqi. Elektron audit sisteminin tətbiqi müəssisələrdə mühasibat uçotunu elektron şəkildə aparmağa imkan verəcək. Bundan əlavə, elektron audit sisteminin tətbiqi səyyar vergi yoxlamalarının sayının xeyli azalmasına, vergi ödəyiciləri ilə vergi orqanı işçiləri arasında təmasın minimuma endirilməsinə səbəb olacaq. Bununla belə bu sahədə təkmilləşdirilmə işləri daim aparılmalıdır.

§4.3. Vergi inzibatçılığı.

Vergi inzibatçılığında çox mühüm məqamlardan biri də vergi nəzarətinin təşkilidir. Son illərdə vergi xidmətində aparılan dəyişikliklər məqsəd etibarı ilə sistemin sadələşməsinə, vergi ödəyiciləri üzərində nəzarətin azaldılmasına xidmət etsə də, inzibatçılığın yaxşılaşdırılması və daha müasir üsulların tətbiqi vasitəsi ilə vergi nəzarəti bir qədər də təkmilləşdirilmişdir. Səyyar vergi yoxlamalarının statistikasına diqqət yetirsək görərik ki, vergi yoxlamalarının sayı ilbəil azalmaqdadır. Ümumiyyətlə, Vergilər Nazirliyi öz fəaliyyət sistemini sahibkarlar üzərində kütləvi nəzarətdə deyil, səmərəli nəzarət mexanizmləri tətbiq etməklə qurmağa çalışır. Son illərdə vergi nəzarətinin bütün aspektlərində informasiya texnologiyaları tətbiq edilmişdir. Düzdür, sahibkarın öz vergi öhdəliklərinə məsuliyyətlə yanaşmağı vergi xidmətinin işini asanlaşdırır. Lakin bundan sui-istifadə etmək istəyən vergi ödəyicilərinə də rast gəlinir. Belə halların qarşısının alınması məqsədi ilə 2001-ci ildə Vergilər Nazirliyi yanında «Vergi cinayətlərinin İbtidai Araşdırılması Departamenti» yaradılmışdır. Departamentin əsas vəzifəsi vergi hüquqpozmalarına və bu sahədə törədilən cinayətlərə qarşı mübarizə aparmaq, dövlət büdcəsindən yayındırılan vəsaitlərin büdcəyə ödənilməsini təmin etməkdən ibarətdir.

Azərbaycanın vergi sisteminin özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, Azərbaycanda vergi ödəyiciləri ilə vergi orqanı arasında münasibət partnyorluq əsasında qurulur. Bu uzun illər dünya təcrübəsində formalaşmış və vergi ödəyiciləri ilə qanunların sərt dilində aparılan ənənəvi yanaşmadan fərqlənir.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi baxımından Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2005-ci il tarixdə imzaladığı sərəncamla qüvvəyə minən

«Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında 2005-2007-ci illər üçün Dövlət proqramı» mühüm əhəmiyyət kəsb edir. Bu proqram vergi inzibatçılığı sahəsində aparılacaq islahatların növbəti mərhələsini təşkil edir. Proqramın əsas məqsədi ölkədə vergi sistemini beynəlxalq standartlara uyğunlaşdırmaqla bu sahədə səmərəli inzibatçılığın yaradılmasına nail olmaqdan və ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə təkan verən vergi dâxilolmalarının ilbəil artırılmasını təmin etməkdən ibarətdir. Bütün bu məqsədlərə nail olmaq üçün bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Bu vəzifələrə vergi orqanlarının vergi ödəyicilərinə münasibətdə xidmət işini təkmilləşdirmək, regionlarda kiçik və orta sahibkarlıq subyektləri üçün özəl vergi məsləhətxanalarını yaratmaq, vergi ödəyicilərinin hüquqlarının qorunması üçün mükəmməl apellyasiya sistemini qurmaq, fiziki şəxslərin ümumi gəlirləri haqqında bəyannamənin verilməsinə hazırlıq işini sürətləndirmək, vergi ödəyicilərinin uçotu sistemini təkmilləşdirmək, vergi borclarının məcburi alınması sahəsində texnoloji və inzibati imkanlarını gücləndirmək, vergi sahəsində kadr hazırlığı səviyyəsini yüksəltmək, vergi orqanları ilə vergi ödəyicisi arasında elektron əlaqəyə keçidi təmin etmək və nəhayət bütövlükdə vergi mədəniyyətini yüksəltmək aiddir. Müasir şəraitdə vergi inzibatçılığının təkmilləşdirilməsi üçün müəyyən prinsiplər mövcuddur. Bu prinsiplərin əsasını vergi inzibatçılığının səmərəliliyinin artırılmasının iqtisadi inkişafa müsbət təsir göstərməsi, vergi ödənilməsi sahəsində bürokratik əngəllərin aradan qaldırılması, vergidən yayınma hallarının qarşısının alınması üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, vergi ödəyicilərinin müflisləşməsinin qarşısını almaq üçün onların hüquqlarının müdafiəsinin təmin edilməsi və s. təşkil edir. Müasir şəraitdə həyata keçirilən vergi siyasəti tarazlaşdırılmış vergi qa-

nunvericiliyinin və stabil vergi sisteminin yaradılmasını və inkişafını tələb edir. Hazırda Azərbaycan Respublikasında Vergi qanunvericiliyinin əsasını Vergi Məcəlləsi təşkil edir və son beş ildə Vergi Məcəlləsinə inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmaqla dəfələrlə əlavə və dəyişikliklər edilmişdir. Hazırda qüvvədə olan qanunvericilik vergi bazasının genişləndirilməsini, vergi nəzarətinin tətbiqini, vergi yoxlamalarının aparılmasını özündə əks etdirir. Bununla belə Azərbaycan hökuməti vergi inzibatçılığının təkmilləşdirilməsi və inkişafı istiqamətində vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi və vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin edilməsi; vergi saxtakarlığı və vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergi inzibatçılığının az riskli sistem kimi formalaşması; vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması; vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması; müasir tələblərə cavab verən kompüter informasiya sisteminin yaradılması kimi tədbirlərin görülməsini məqsədəuyğun hesab edir.

Azərbaycan Respublikasında vergi inzibatçılığının əsas istiqamətlərindən biri olan vergilərin könüllü ödənilməsi sisteminin yaradılması və vergi ödəyicilərinin hüquqlarının etibarlı müdafiəsinin təmin edilməsi üçün bir sıra işlərin görülməsi nəzərdə tutulur ki, bunlara vergi ödəyicilərinin maarifləndirilməsi konsepsiyasının hazırlanması; vergi mədəniyyətinin artırılmasına yönəldilmiş proqramların həyata keçirilməsi; vergi ödəyicilərinin hüquqlarının müdafiəsi, onların şikayətlərinə obyektiv baxılması məqsədi ilə daha mükəmməl apellyasiya sisteminin yaradılması aiddir.

Vergilərin ödənişində könüllülüyün artırılması, mövcud beynəlxalq təcrübədən istifadə etməklə, Azərbaycan

Respublikasında fiziki şəxslərin ümumi gəlirləri haqqında bəyannamənin tətbiqi sahəsində zəruri işlərin görülməsini tələb edir. Həmin bəyannamədə əmək haqqının və digər gəlirlərin mənbələrinin düzgün göstərilməsi üçün maarifləndirmə işləri böyük əhəmiyyət kəsb edir.

Vergi inzibatçılığının səmərəliliyinin artırılmasında vergi auditi işinin təkmilləşdirilməsi və audit xidmətinin azriskli sistem kimi fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə vergi ödəyiciləri haqqında hüquqi məlumat bazasının Azərbaycan Respublikası Vergilər Nazirliyinin vahid kompüter informasiya sisteminə inteqrasiyası, səyyar vergi yoxlamaları üçün vergi ödəyicilərinin seçilməsi prosesinin avtomatlaşdırılması və yoxlamanın nəticələrinin xüsusi meyar əsasında qiymətləndirilməsi nəzərdə tutulur.

Vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində Azərbaycan Respublikası Vergilər Nazirliyinin kompüter informasiya sistemi vasitəsilə borcları yaranma müddətlərinə görə qruplaşdırmaq, vergi ödəyicilərinə vergi borcları haqqında bildirişlərin göndərilməsini avtomatlaşdırmaq; əlavə dəyər vergisi üzrə könüllü qeydiyyat prosedurunu təkmilləşdirmək və vaxtı keçmiş vergilər üzrə faiz dərəcələrini sərtləşdirməklə vergi borclarının yaranmasının qarşısını almaq; vergi borclarının məcburi ödənişi işinin səmərəliliyini artırmaq üçün vergi inzibatçılığının gücləndirilməsi tələb olunur. Bununla əlaqədar məcburi ödəmə mexanizminin texnoloji, iqtisadi və hüquqi aspektləri hazırlanıb tətbiq olunmalıdır.

Vergi orqanlarında idarəetmə sisteminin təkmilləşdirilməsi və onun bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılması kadr potensialından səmərəli istifadə edilməsini, mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəlməsini, vergi ödəyiciləri ilə münasibətlərin təkmilləşdirilməsini tə-

min etməklə dövlət büdcəsinə daxilolmaların vaxtında və daha dolğun köçürülməsinə yönəldilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Vergilər Nazirliyinin fəaliyyətinin digər istiqamətləri, o cümlədən kargüzarlıq, kadrların uçotu və idarəetmə, kadr hazırlığı işi, işçilərin və ayrı-ayrı idarələrin fəaliyyətinin müvafiq meyarlar əsasında qiymətləndirilməsi, vergi daxilolmalarının proqnozlaşdırılması kimi idarəetmədə vacib rol oynayan proseslər avtomatlaşdırılıb vahid kompüter informasiya sisteminə inteqrasiya olunmalıdır.

Ümumilikdə isə vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş modernləşdirmə tədbirləri nəticəsində aşağıdakılara nail olunmuşdur:

- ölkədə könüllü vergi ödəmə dərəcəsi artmışdır;
- vergi ödəyicilərinə xidmət sisteminin çevik və təkmil fəaliyyəti təmin edilmişdir;
- vergi saxtakarlığına və vergidən yayınma hallarına qarşı səmərəli mübarizə sisteminin fəaliyyəti nəticəsində bu sahədə risklər ciddi şəkildə azalmışdır;
- vergi yoxlamalarının obyektivliyi artmışdır;
- daha az cari inzibati xərclərlə vergi daxilolmalarının artırılması təmin olunmuşdur;
- büdcə gəlirlərinin proqnozlaşdırılması üçün daha real məlumat bazası formalaşdırılmışdır;
- vergi ödəyicilərinin hüquqlarının qorunması gücləndirilmişdir;
- vergi borclarının tez aşkar edilməsində və ödənilməsində səmərəli hüquqi-iqtisadi mexanizimlər və texnologiyaların tətbiqinə başlanılmışdır;
- vergi orqanlarının vergi ödəyiciləri ilə tədricən həm bəyannamələr, həm də ödəmələr üzrə kontaktsız münasibətlərə keçməsi təmin edilmişdir;

- vergi orqanlarında fəaliyyət sahələri və insan resurslarının idarə edilməsi üzrə müasir, çevik və təkmil menecment sistemi yaradılmışdır;

- xidmət etikası standartlarına riayət edilməsi təmin olunmuşdur;

- korrupsiya risklərini ifşa edən mexanizmlər və qaydaların tətbiqinə başlanılmışdır.

§4.4. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi.

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra, həyata keçirilən məqsədyönlü siyasət ölkədə iqtisadiyyatın bütün sahələrində genişmiqyaslı islahatların aparılmasını təmin etmişdir. Bunlardan idarəetmənin təkmilləşdirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, iqtisadiyyatda struktur dəyişiklikləri və vergi siyasətinin həyata keçirilməsini qeyd etmək olar. Son illərdə səmərəli vergi sisteminin formalaşdırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi orqanları işçilərinin peşəkarlıq səviyyəsinin artırılması, ölkədə əlverişli vergi mühitinin və vergi mədəniyyətinin yaradılması sahəsində əhəmiyyətli işlər görülmüşdür. Ümumilikdə bu günədək ölkədə həyata keçirilən vergi siyasətini iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-1999-cu illəri əhatə edir. Bu dövrdə həyata keçirilən iqtisadi siyasətin əsas məqsədi ölkənin iqtisadi tarazlığının təmin edilməsinə, makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə, əlverişli investisiya mühitinin yaradılmasına, milli istehsalın artırılmasına nail olmaqdan ibarət olmuşdur. Bununla yanaşı respublikada həyata keçirilən irimiqyaslı islahatlar proqramının tərkib hissəsi kimi vergilər sahəsində də köklü dəyişikliklər aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1996-cı il tarixli «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyə-

tinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» və 7 yanvar 1997-ci il tarixli «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» fərmanları ilə nəzarət təşkilatlarının, o cümlədən vergi orqanlarının qarşısında çox mühüm vəzifələr qoyulmuş, ölkə iqtisadiyyatının dinamik inkişafına xidmət edən səmərəli vergi sisteminin formalaşdırılması zərurəti ilə əlaqədar müvafiq dövlət orqanlarına tapşırıqlar verilmişdir. Həmin tapşırıqlar əsasında formalaşdırılması nəzərdə tutulan vergi sistemi vergi ödəyiciləri və cəmiyyətin hüquq və mənafelərinin qorunmasına, milli istehsalçıların məhsullarının rəqabət qabiliyyətinin artırılmasına, qanunsuz sahibkarlıq fəaliyyətinin qarşısının alınmasına, sosial ədalət və obyektivlik prinsiplərinə əməl olunmasına, ölkənin iqtisadi təhlükəsizliyi və müdafiə qüdrətinin təmin olunmasına xidmət etməli idi. Vergi orqanlarının strukturunun təkmilləşdirilməsi istiqamətində aparılan işlər sistemlilik, çeviklik, koordinasiya olunma və təşkilati idarəetmə mexanizminin tətbiqi kimi bir sıra müsbət keyfiyyətlərə nail olmağa imkan vermişdir. Bu məqsədlə ilk növbədə görüləsi işlər sırasında vergi xidmətində kompleks islahatların müfəssəl strateji planı və bu islahatların həyata keçirilməsinin optimal müddətləri işlənib hazırlanmışdır. Bu plan beynəlxalq standartlara cavab verən yeni qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi, vergi inzibatçılığının müasirləşdirilməsi, vergilərin dövlət büdcəsinə tam və vaxtında səfərbər edilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılan ən mühüm addım Azərbaycan Respublikası Vergi Məcəlləsinin qüvvəyə minməsi olmuşdur. «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri

haqqında» Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli qanuna əsasən Azərbaycan Respublikası Vergi Məcəlləsi təsdiq edilmiş və bu dövrədək vergi sahəsində olan «Əlavə dəyər vergisi haqqında», «Aksizlər haqqında», «Fiziki şəxslərdən gəlir vergisi haqqında», «Dövlət vergi xidməti haqqında», «Dövlət Yol Fondu haqqında», «Mədən vergisi haqqında», «Əmlak vergisi haqqında», «Torpaq vergisi haqqında», «Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında», «Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin intizam məsuliyyəti haqqında» qanunlar qüvvədən düşmüşdür. Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin 30 avqust 2000-ci il tarixli fərmanına əsasən qüvvədə olan qanunvericilik aktları bu qanuna və Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğunlaşdırılmış, həcminin Vergi Məcəlləsində nəzərdə tutulmuş malın, işin və xidmətin bazar qiymətinin müəyyən edilməsi haqqında, vergi orqanlarının maddi həvəsləndirmə və inkişaf fondundan istifadə haqqında, xronometraj metodu ilə müşahidə aparılması haqqında, məsul saxlama haqqında, vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi haqqında, vergi ödəyicisinin vahid dövlət reyestirinin aparılması haqqında, səyyar vergi yoxlaması zamanı əşyaların nümunə kimi götürülməsi haqqında, hüquqi şəxslərdən vergilər üzrə borcların və faizlərin alınması haqqında, birbaşa və dolayı qiymətləndirmə metodlarının tətbiq edilməsi haqqında, xarici hüquqi şəxsin əldə etdiyi mənfəəti birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin hesablanması haqqında, vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması haqqında, vergi ödəyicisinin siyahıya alınmış əmlakının açıq hərraclarda satılması haqqında, fiziki şəxslərin gəlir vergisindən azad olunan kom-

pensasiya xarakterli ödəmələrinin müəyyən edilməsi haqqında, ƏDV ödəyicilərinin dövlət reyestirinin aparılması haqqında, ümumi qaydalara əsasən vergitutma bazasının müəyyənləşdirilməsi çətin olan sahələr üzrə ƏDV-nin hesablanması haqqında, aksizli mallar üçün aksiz dərəcələrinin müəyyən edilməsi haqqında, aksizli mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi haqqında, əmlak vergisinin hesablanması haqqında, hasil edilmiş neftin və qazın texnoloji proseslə əlaqədar quyuya geri vurulma normativləri haqqında qaydalar Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. Bu fərmanda həmçinin vergi yoxlaması aktının formasının, vergi ödəyicisinin uçota alınmaq üçün ərizə və şəhadətnamə formalarının, vergi hesabat formasının, ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında ərizə formasının, ƏDV ödəyicisinin qeydiyyat bildirişinin formasının, ƏDV və aksizlər üzrə vergi-hesab fakturalarının formalarının Vergilər Nazirliyi tərəfindən təsdiq olunması nəzərdə tutulmuşdur. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addım Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının 26 noyabr 2002-ci tarixli qanunu və bu qanunun tətbiq edilməsi haqqında Azərbaycan respublikası Prezidentinin 26 dekabr 2002-ci il tarixli fərmanı olmuşdur. Bu fərmana əsasən Azərbaycan Respublikası Vergi Məcəlləsidə nəzərdə tutulmuş banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları tərəfindən xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin gəlirdən çıxılması haqqında, ƏDV-dən azad olunan əməliyyatların müxtəlif mərhələlərdə rəsmiləşdirilməsi haqqında, aksiz markası ilə markalanmalı olan aksizli malları istehsal edən müəssisələrdə gündəlik vergi nəzarətinin aparılması haqqında qaydalar təsdiq edilmişdir.

2003-cü ildən etibarən Vergi Məcəlləsində vergi yükünün yüngülləşdirilməsi və vergitutma prosesinin sadələşdirilməsi istiqamətində dəfələrlə əlavə və dəyişikliklər edilmişdir ki, bunların içərisində xüsusilə seçilən «Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 6 noyabr 2007-ci il tarixli qanununu göstərmək olar. Belə ki, bu qanunu əvvəlki qanunlardan fərqləndirən bəzi xüsusiyyətləri vardır. Bu qanunda vergitutma sahəsində yenilik olan ƏDV-nin depozit hesabının yaradılması nəzərdə tutulmuşdur. ƏDV-nin depozit hesabı – ƏDV-nin mədaxili, uçotu, hərəkəti və dövlət büdcəsinə məxarici ilə bağlı əməliyyatları aparan xəzinə hesabıdır. MDB məkanında ilk dəfə olaraq Azərbaycanda ƏDV-nin depozit hesabının yaradılması ilk növbədə dövlət tərəfindən ƏDV-nin ödənilməsinə nəzarəti təmin edəcək və vergidən yayınma hallarının qarşısının alınmasına xidmət edəcəkdir. Bundan əlavə ƏDV-nin derozit hesabı nağdsız hesablaşmaların aparılmasını nəzərdə tutur ki, bu da nağd qaydada aparılan hesablaşmaların məhdudlaşdırılmasına gətirib çıxaracaq. Hesab edirik ki, nağd qaydada aparılan hesablaşmaların məhdudlaşdırılması ƏDV sahəsində olan bir çox problemləri həll edəcəkdir.

Bu qanunu əvvəlki qanunlardan fərqləndirən digər xüsusiyyət isə vergi qanunvericiliyinin pozulmasına görə daha sərt tədbirləri özündə əks etdirməsi ilə əlaqədardır. Əgər əvvəlki qanunlarda vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə mülayim tədbirlər nəzərdə tutulurdusa, bu dəyişikliklərdən sonra daha ciddi cəza tədbirləri görüləcəkdir. Belə ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 58.1-ci maddəsinə əsasən verginin hesabatda göstərilən məbləği göstərilməli olan məbləğinə nisbətən azaldılmasına və ya budcəyə çatası vergi məbləğinin yayındırılmasına görə vergi ödəyicisinə azaldılmış

və ya yayındırılmış vergi məbləğinin 25%-i miqdarında maliyyə sanksiyası tətbiq edilirdisə, dəyişikliklərdən sonra 50% miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir. Vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarının artırılması ilə bərabər Vergi Məcəlləsinə bu sahədə bəzi müddəalarda əlavə edilmişdir. Belə ki, 2008-ci ildən etibarən artıq vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını ödəməməsi barədə verməli olduğu məlumatı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicilərinə 100 manat məbləğində; Vergi ödəyicisi tərəfindən iki və ya daha çox ödəmə aparılmış vergi hesab fakturası üzrə alınmış malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri ödənilərkən, ƏDV məbləğinin ödənilməsinə görə vergi ödəyicisinə ödənilməmiş ƏDV məbləğinin 50%-i miqdarında; Azərbaycan Respublikası Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamadan işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin və ya xidmətlərin yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə və ya azaldılmasına şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətliq edilir.

Hesab edirik ki, vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində aparılan işlər davamlı xarakter daşımalıdır.

§4.5. Vergi sistemində vergi borcları problemi.

Azərbaycan Respublikasının əsas makroiqtisadi göstəricilərinin artırılması, özəl sektorun fəaliyyət dairəsinin genişlənməsi, vergi daxilolmalarının payın dövlət büdcəsinin gəlirlərində ildən-ilə artması ölkə iqtisadiyyatının dinamik inkişaf yolu tutmasından xəbər verir. Lakin,

müşahidə olunan bu artımı fikrimizcə, daha da yüksəltmək olar. Belə artım dövlətin maliyyə imkanlarının genişləndirməsinə şərait yaradar, bu isə müəssisələrin öz vergi öhdəliklərini mütəmadi olaraq yerinə yetirməsindən bilavasitə asılıdır. Son illərdə bu sahədə əhəmiyyətli dərəcədə dəyişikliklər edilir. Vergi qanunvericiliyi təkmilləşdirilir, vergi intizamı və vergi nəzarəti gücləndirilir və bununla vergi borclarının artım tempinin azalmasına nail olunur. Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçid mərhələsini yaşadığı üçün, bu ölkələrə xas olan vergi borcları problemi bizdə də müşahidə olunan məsələlərdəndir. Bu baxımdan istər vergi qanunvericiliyi, istərsə də vergi inzibatçılığı sahəsində bu istiqamətdə təkmilləşdirmələrə ehtiyac vardır. Müasir şəraitdə vergi ödəyiciləri qanunvericiliyə uyğun olaraq hesablanan vergilərdən müxtəlif yollarla yayınmağa cəhd edirlər. Bu isə son nəticədə büdcə vəsaitlərinin vaxtında yığılmamasıyla və bununla da normal iqtisadi inkişafın zəifləməsiylə nəticələnir. Hazırda vergi borclarının yaranmasında obyektiv və subyektiv amillərin rolu vardır və dövlət vergi borclarının yaranmasının qarşısını almaqdan ötrü müxtəlif mexanizmlərdən istifadə edir. Məsələn, 2007-ci ilədək vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən olunan vaxtda yerinə yetirmədikdə, ödəmə müddətindən sonrakı hər gün üçün ondan ödənilməyən vergi məbləğinin 0,05 %-i həcmində faiz tutulurdu. 2007-ci ildən Vergi Məcəlləsinə edilən dəyişikliklər nəticəsində bu cərimənin 0,1%-ə qaldırılması bu problemi qismən həll etdi. Hazırda vergi qanunvericiliyində vergi borclarının məcburi alınması üçün geniş baza yaradılmışdır. Belə ki, ödəmə müddəti başa çatan vergi ödəyicilərinə vergi borclarının ödəmələri üçün bildiriş göndərilir və bun-

dan qanunvericiliyə uyğun olaraq digər tələblər yerinə yetirilir. Bu mexanizm son zamanlar istifadə edilən və səmərə verən mexanizmlərdəndir. Lakin, bununla belə bəzi vergi ödəyiciləri vergini vaxtında ödəməməkdə və ya vergi ödənişlərini gecikdirməkdə maraqlıdırlar. Bu baxımdan faizlərin yüksəldilməsindən istifadə etdikdə ilk növbədə bank kreditlərinin faizləri ilə uzlaşdırma aparılması vacibdir. Yəni tətbiq edilən faiz, bank kreditinin faizini üstələdikdə bu problemi həll etmək mümkündür.

Vergi hesablaması və ödənilməsi arasında müəyyən vaxt fərqi olduğu üçün ödəniləcək məbləğin gələcəkdə dəyərdən düşməsi ehtimalı nəzərə alınır. Faizlərin ödənilməsində isə bu problem daha qabarıq şəkildə hiss olunur. Yəni yüksək inflyasiya şəraitində birinci 90 gün üçün hesablanan faiz məbləğinin dəyəri ikinci 90 gün üçün hesablanan faiz məbləğinin real dəyərinə bərabər olmayacaq. Bu fakt da vergi faizləri üçün hesablama üsulunun məqsədəuyğunluğunu göstərir. Məhz faizlərin məbləğinin artımının bu tempi ölkəmizdə mövcud inflyasiyanın tempini üstələyə bilər ki, bu da nəticədə itirilməsi ehtimal olunan vəsaitləri kompensasiya edəcəkdir.

Göstərilən bu üsulların müsbət məqamları ilə yanaşı, mənfi cəhətləri də mövcuddur. Faizlərin dərəcələrinin artırılması vergi ödəyicilərinin narazılığına səbəb ola bilər. Yəni, vergi yükünün aşağı salınması siyasətinin həyata keçirildiyi bir dövrdə ödəyicilərin ödədiyi hər hansı bir verginin və ya faizin artırılması real görünmür. Buna görə də vergi və ya cari vergi ödəmələrini gecikdirmiş vergi ödəyicilərinə hesablanan faiz məbləğini birbaşa deyil, dolayı yolla və faiz dərəcələrini dəyişmədən artırmaq daha əlverişlidir.

Bəzi hallarda «faizə faiz hesablanmalıdır» kimi fikirlər də səsləndirilir. Eyni zamanda nəzərə almaq lazımdır ki, vergi borcu dedikdə dövlət büdcəsinə çatası məbləğin vergi ödəyicisində müvəqqəti saxlanılan hissəsi başa düşülür. Başqa sözlə bu halda vergi borcu bank krediti anlayışı ilə eyni mənada çıxış edir. Odur ki, banklar tərəfindən kreditlərə hesablanan faizlərin mexanizminə müvafiq olaraq vergi borcuna da faizlərin eyni prinsip əsasında hesablanması normal hal hesab edilə bilər.

Ümumiyyətlə, xarici ölkələrdə vergi borclarının qaytarılması vergi siyasətində prioritet istiqamətlərdən hesab olunur. Bəzi xarici ölkələrdə vergi borcuna görə hesablanan faizlər, vergilərin vaxtında ödənilməməsi və ödənilməli vergilər üzrə hesabatların düzgün tərtib edilməməsinə görə müxtəlif maliyyə sanksiyaları tətbiq olunur. Məsələn, Fransada vergiləri vaxtında ödəməyən şəxslərə ödənilməli vergi məbləğinin 10%-i, Almaniyada 1%-i, Türkiyədə 4%-i, Yunanıstanda isə 1,5%-i həcmində cərimə tətbiq edilir. Yaponiyada vergi borclarına görə daha ciddi maliyyə sanksiyaları hesablanır. Belə ki, Yaponiyada vergilərin ödənilməsi 2 aya qədər gecikdirildikdə 7,3%, 2 aydan çox davam etdikdə 14,6% həcmində cərimə hesablanır. Böyük Britaniyada isə 6 aylıq gecikdirilmiş vergi ödəmələrinə əlavə olaraq 5% həcmində cərimə tətbiq edilir.

Göründüyü kimi, xarici ölkələrdə vergi borclarının ödənilməməsinə görə yüksək cərimələr tətbiq edilir. Hesab edirik ki, vergi borclarının ödənilməsinə görə faiz dərəcələrinin müəyyənləşdirilməsində beynəlxalq təcrübədən faydalanmaq gələcəkdə vergi borclarının bir problem olaraq aradan qaldırılmasına yardım edəcəkdir.

V Fəsil. Vergi münasibətlərinin iştirakçıları.

§5.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər və vergi qanunvericiliyi.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən və ya hərəkətsizliyindən şikayət edilməsi qaydalarını müəyyən edir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər müəyyən edilir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunan anlayışlar və qaydalar vergitutma məqsədi ilə müəyyən edilir və müstəsna olaraq Vergi Məcəlləsi və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən vergitutma və vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq olunur.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin əsasında və ya onun icrası məqsədi ilə qəbul edilmiş normativ hüquqi aktlar Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına zidd olmamalıdır.

Vergi qanunvericiliyi aktları ilə digər sahə qanunvericilik aktları arasında (*8-ci abzasda qeyd olunanlar istisna olmaqla) vergitutma və vergi nəzarəti məsələləri üzrə ziddiyyət yarandıqda vergi qanunvericiliyinin aktları tətbiq edilir.

Aşağıdakılar istisna olunmaqla, vergi qanunvericiliyindən başqa digər qanunvericilik aktlarına vergitutma və vergi nəzarəti məsələləri daxil edilə bilməz: 1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan vergi münasibətlərinə aid inzibati xətalar haqqında müddəalar; 2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vergi cinayətləri haqqında müddəalar; 3. vergi öhdəliklərinin üstünlüyü haqqında müflisləşmə və iflas haqqında qanunvericilikdə nəzərdə tutulan müddəalar; 4. büdcə qanunvericiliyində vergilərlə bağlı müddəalar; 5. vergilər üzrə dövlət təminatlarının və müddətli güzəştlərin verilməsi ilə bağlı müddəalar; 6. hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda nəzərdə tutulan müddəalar; 7. İxrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalar.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə vergilər haqqında Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə və ona müvafiq olaraq qəbul edilmiş normativ hüquqi aktlarla nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilə ilə bu müqavilə bağlanan dövlətin rezidentinə verilən vergi güzəştlərinə və üstünlüklərinə münasibətdə, həmin müqavilə onu bağlamış dövlətin rezidenti olmayan şəxs tərəfindən qeyd edilən güzəştlərin və üstünlüklərin

alınması üçün istifadə edilirsə, yuxarıdakı abzasda qeyd olunan müddəalar tətbiq olunmur.

*Azərbaycan Respublikasının Vergi Məcəlləsi qüvvəyə minənədək və ya o, qüvvəyə mindikdən sonra qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda Azərbaycan Respublikasının Vergi Məcəlləsində və vergilər haqqında digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir.

Növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri müvafiq icra hakimiyyəti orqanına cari ilin may ayının 1-dək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən isə Azərbaycan Respublikasının Milli Məclisinə cari ilin may ayının 15-dən gec olmayaraq təqdim edilir. (Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının prezidenti həyata keçirir).

Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi və vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər;
2. Azərbaycan Respublikasının dövlət vergi və gömrük orqanları;
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikasının maliyyə orqanları;

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan hallarda vergi ödəyicilərindən vergilərin ödənilməsi üçün vəsaitlərin alınmasını və onların büdcəyə köçürülməsini, vergi və gömrük orqanlarından başqa, müəyyən edilmiş qaydada həyata keçirən dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, digər səlahiyyətli orqanlar və vəzifəli şəxslər.

§5.2. Azərbaycan Respublikasında müəyyən edilən və ödənilən vergilər.

Vergi qanunvericiliyi vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır. Vergilər mütləq iqtisadi cəhətdən əsaslandırılmalıdır. Belə ki, hər kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir. Respublikanın vahid iqtisadi məkanını pozan, xüsusilə, Respublika ərazisində malların, işlərin, xidmətlərin və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran və vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran vergilərin müəyyən edilməsinə yol verilmir. Heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz. Vergilər həmçinin siyasi, ideoloji, etnik və digər xüsusiyyətlər əsas götürülməklə də müəyyən edilə bilməz. Mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qanunla qadağandır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi və gömrük qanunvericiliyi ölkəyə gətirilən mallara, həmin malların hansı ölkədən gətirilməsindən asılı olaraq müxtəlif gömrük rüsumu dərəcələrinin müəyyən edilməsini qa-

dağan etmir. Azərbaycan Respublikasının ərazisində vergilər yalnız Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilir, onların dəyişdirilməsi və ya ləğv edilməsi isə yalnız Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi yolu ilə həyata keçirilir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilməyən vergiləri ödəmək vəzifəsi heç bir şəxsin üzərinə qoyula bilməz. Hazırki vergi qanunvericiliyi elə formalaşdırılmışdır ki, hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilir. Müasir vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir və vergi qanunvericiliyinin bütün ziddiyyətləri, aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edilməlidir.

Azərbaycan Respublikasında müəyyən edilən və ödənilən vergilər - dövlət vergiləri, muxtar respublika vergiləri və yerli vergilər (bələdiyyə vergiləri) kimi fərqləndirilir. Dövlət vergiləri dedikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən və bütün ölkə ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur. Muxtar respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və orada ödənilən vergilər nəzərdə tutulur. Yerli vergilər dedikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və müvafiq qanunlarda müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Yerli vergilərin dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir, lakin, vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələrin öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, həmçinin vergi dərəcəsini azaltmaq barədə qərar qəbul etmək səlahiy-

yətləri vardır. Dövlət vergilərinə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa), əlavə dəyər vergisi, aksizlər, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, yol vergisi, mədən vergisi və sadələşdirilmiş vergi aiddir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə dövlət vergilərinin dərəcələrinin ən yüksək hədləri müəyyən edilmişdir. Muxtar respublika vergilərinə Naxçıvan Muxtar Respublikasında tutulan yuxarıda sadalanan dövlət vergiləri aiddir. Yerli vergilərə fiziki şəxslərin torpaq vergisi, fiziki şəxslərin əmlak vergisi, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi aiddir. Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən və ya hərəkətsizliyindən şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

Azərbaycan Respublikasında vergi məbləğləri bilavasitə mənbədən, bəyannamə üzrə və bildiriş üzrə tutulur. Vergi məbləğlərinin bilavasitə mənbədən tutulması verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulmasıdır. Vergi məbləğlərinin bəyannamə üzrə tutulması verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulmasıdır. Vergi məbləğlərinin bildiriş üzrə tutulması isə vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsini nəzərdə tutur.

Vergilər o halda müəyyən edilmiş hesab olunur ki, vergi ödəyicisi, vergitutma obyekti, vergitutma bazası,

vergi dövrü, vergi dərəcəsi, verginin hesablanması qaydası, verginin ödənilməsi qaydası və müddəti müəyyən edilmiş olsun. Vergilər müəyyən edildikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan əsaslarla vergi güzəştləri də müəyyənləşdirilə bilər. Vergitutma obyektinə gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların, işlərin və xidmətlərin dəyəri və s... aiddir. Vergitutma bazası - vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsidir.

§5.3. Dövlət vergi orqanları.

Azərbaycan Respublikasının vergi sisteminə nəzarət öz səlahiyyətləri çərçivəsində hüquq mühafizə orqanlarının səlahiyyətlərini icra edən dövlət vergi orqanları tərəfindən həyata keçirilir. Dövlət vergi orqanlarını Azərbaycan Respublikasının Vergilər Nazirliyi və bilavasitə ona tabe olan vergi orqanları təşkil edir. Dövlət vergi orqanları öz fəaliyyətlərini yerli dövlət hakımiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirir və onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidir. Vergi orqanları yerli vergilər, habelə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş yol vergisi, ƏDV və aksiz istisna olmaqla, vergilərin tam və vaxtında ödənilməsinə nəzarəti həyata keçirirlər. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan hallarda vergi orqanlarının səlahiyyətlərini qanunla müəyyən edilmiş hallarda və qaydada yol vergisi və idxal-ixrac əməliyyatları sahəsində gömrük orqanları həyata keçirir. Gömrük orqanları öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, digər

qanunlara və onlara uyğun qəbul edilmiş qanunvericilik aktlarına əsasən fəaliyyət göstərirlər.

Vergi orqanlarının fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Vergi Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktları təşkil edir.

Vergi orqanlarının işçilərinin sosial müdafiəsinə dövlət təminat verir və onlar dövlət büdcəsinin vəsaiti hesabına icbari qaydada sığorta olunurlar. Vergi orqanının işçisinə xidməti fəaliyyəti həyata keçirdiyi zaman peşə fəaliyyəti ilə məşğul olmağa imkan verməyən ağır bədən xəsarəti yetirildikdə, ona dövlət büdcəsinin vəsaiti hesabına vəzifə maaşı ilə pensiyası arasındakı fərq ödənilir. Xidməti fəaliyyətlə əlaqədar vergi orqanının işçisinin və ya onun ailə üzvlərinin əmlakına dəymiş zərər, sonradan təqsirkar şəxsdən tutulmaqla, tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Vergi orqanları işçilərinin sosial müdafiəsi məqsədilə vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 25 faizi hesabına bu orqanların büdcədənkənar fondu yaradılır.

Vergi orqanlarının **hüquqları** aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək;
2. vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq, yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumatlar almaq, habelə mühasibat uçotu elektron formatda

aparıldığı halda elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatlarının verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb etmək;

3. vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi məqsədilə xronometraj metodu ilə müşahidə aparmaq və baxış keçirmək, Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada elektron və ya kağız formatda aparılan sənədləri və əşyaları götürmək, mülkiyyətində və ya istifadəsində olan əmlakın (yaşayış sahələri istisna olmaqla) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydada inventarizasiyasını aparmaq;

4. vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını, habelə vergi ödəyicisi auditor tərəfindən yoxlanılmalı olduğu halda auditor rəyini tələb etmək;

5. qanunla müəyyən edilmiş qaydada vergi qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, hüquqi və fiziki şəxslərin vergi borclarına faizlər hesablamaq, bu şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək;

6. müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək;

7. Vergi ödəyicilərinin hesablaşma, valyuta və ya digər hesablarından qanunvericiliyə müvafiq olaraq hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün

banklara və ya digər kredit təşkilatlarına icra (ödəniş) sənədi olan sərəncam vermək, inzibati cərimələrin alınmasını təşkil etmək;
8. qanunla müəyyən edilmiş hallarda vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırmaq, Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin əmlakının siyahıya alınması üçün tədbirlər görmək;
9. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunu həyata keçirmək;
10. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada binalara (yaşayış sahələri istisna olmaqla), qurğulara və torpaq sahələrinə daxil olmaq və baxış keçirmək;
11. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada nəzarət qaydasında mal alqısını həyata keçirmək;
12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada təhqiqat aparmaq;
13. aksiz markası ilə markalanmalı olan malların, habelə dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materialların markalanmadan satışının həyata keçirilməsi aşkar edildikdə, həmin malları siyahıya almaq və vergi ödəyicisində və ya onun razılığı ilə vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə məsul saxlamaya qoymaq;

14. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada mütəxəssisləri, ekspertləri, tərcüməçiləri, müşahidəçiləri cəlb etmək;
15. məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışını qanunvericiliyə uyğun olaraq təşkil etmək;
15.1. hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması barədə məhkəmədə iddia qaldırmaq;
15.2. vergi risklərinin minimallaşdırılması məqsədi ilə vergi ödəyiciləri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və formada «Vergi partnyorluğu sazişi» bağlamaq;
16. Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq nəzərdə tutulmuş başqa hüquqları həyata keçirmək.

Yuxarı vergi orqanları tabeliyində olan vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarını və qərarlarını ləğv edə bilərlər.

Vergi orqanlarının **vəzifələri** aşağıdakılardır:
1. vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək; vergi qanunvericiliyinə tam və dəqiq riayət etmək;
2. vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləmək və müdafiə etmək;
3. vergi qanunvericiliyi və vergi qanunvericiliyində edilən dəyişikliklər barədə vergi ödəyicilərinə kütləvi informasiya vasitələri ilə və ya fərdi qaydada əvəzsiz olaraq məlumat vermək, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarını izah etmək, vergilərin hesablanması və ödənilməsi barədə izahatlar vermək, vergi ödəyicilərinə onların hüquq və vəzifələrini izah etmək;

4. hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparmaq və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat vermək;
5. vergi qanunvericiliyinin pozulması hallarına dair məlumatları toplamaq, təhlil etmək və qiymətləndirmək, belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər vermək;
5.1. vergi ödəyicilərinin vergidən yayınması və vergi qanunvericiliyinin pozulması faktları barədə şəxslərdən müraciət daxil olduqda, muraciətdə qeyd edilən faktları həmin vergi ödəyicilərində keçiriləcək növbəti operativ vergi nəzarəti tədbiri və ya növbəti səyyar vergi yoxlaması zamanı araşdırmaq və vergi nəzarəti başa çatdıqdan sonra nəticələri barədə müraciət edən şəxslərə məlumat vermək;
6. vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər bölmələrinin (obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparmaq;
7. kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini aparmaq və bununla bağlı məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna göndərmək;
8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və qanunvericilikdə nəzərdə tutulmuş qaydada vergi ödəyiciləri haqqında məlumatın, o cümlədən vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət etmək və onu təmin etmək;

9. vergi ödəyicilərinə vergi yoxlamalarının nəticələri haqqında aktın, habelə qanunvericiliklə müəyyən edilmiş hallarda vergi orqanının qərarının surətini vermək;
10. vergi ödəyiciləri tərəfindən artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi və ya geri qaytarılması, habelə vergi ödəyicilərindən düzgün tutulmayan vergi məbləğlərinin, maliyyə sanksiyalarının, faizlərin və inzibati cərimələrin geri qaytarılması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirləri görmək;
11. tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək;
12. Azərbaycan Respublikasının Vergi Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

Dövlət gömrük orqanları mallar Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildikdə, vergilərin tutulması sahəsində Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və digər qanunları ilə müəyyən edilmiş hüquqları və vəzifələri həyata keçirirlər. Vergi orqanları öz vəzifələrini mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlər.

Vergi orqanlarının vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar digər dövlət hakimiyyəti orqanları vergi orqanlarına kömək etməyə və zəruri hallarda müəyyən edilmiş qaydada onlara lazımi məlumatları verməyə borcludurlar. Gömrük orqanları vergitutma ilə əlaqədar onlarda olan məlumatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə verməlidir.

Vergi orqanlarının vəzifəli şəxsləri dövlət qulluğundadırlar və onlar müəyyən edilmiş qaydada vəzifəyə təyin olunur və vəzifədən azad olunurlar. Onlara vəzifəsinə, ix-

tisasına və iş stajına görə xüsusi rütbələr verilir. Vergi orqanlarının vəzifəli şəxslərinin elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, heç bir sahibkarlıq və digər ödənişli fəaliyyət növləri ilə məşğul olmağa ixtiyarı yoxdur.

Vergi orqanları və onların vəzifəli şəxsləri (vergi orqanlarında işlədikləri dövrdə və ya işdən çıxdıqdan sonra) xidməti vəzifələrini yerinə yetirərkən vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar edilən hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar.

Aşağıdakı məlumatlar istisna olmaqla vergi orqanı və onun vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisi barədə əldə edilən istənilən məlumat kommersiya (vergi) sirri və şəxsi həyata dair məlumat hesab olunur:

1. vergi ödəyicisinin razılığı ilə aşkar edilən;
2. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında;
3. müəssisənin Nizamnamə fondu haqqında;
4. vergi qanunvericiliyinin pozulması və bu pozulmalara görə məsuliyyət tədbirləri haqqında;
5. vergi ödənişləri üzrə borclar;
6. hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar.

Kommersiya (vergi) sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla açılmamalıdır. Kommersiya (vergi) sirrinin açılmasına əsas etibarilə, ancaq bununla məhdudlaşmayan, vergi yoxlaması zamanı vəzifələrini yerinə yetirərkən vergi orqanının vəzifəli şəxsinə, cəlb edilmiş mütəxəssisə və ya ekspertə bəlli olmuş vergi ödəyicisinin kommersiya (vergi) sirrinin istifadə edilməsi və ya başqa şəxsə verilməsi aiddir.

Vergi orqanına daxil olmuş və kommersiya (vergi) sirrini təşkil edən məlumatların qorunmasının və əldə edilməsinin xüsusi rejimi vardır. Kommersiya (vergi) sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı

tərəfindən müəyyən edilən siyahı üzrə vəzifəli şəxslər əldə edə bilər. Kommersiya (vergi) sirrini təşkil edən məlumatların itirilməsi və yaxud belə məlumatların açılması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatı ancaq aşağıdakı hallarda digər orqanlara qanunvericiliklə müəyyən edilmiş qaydada verə bilərlər:

1. vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergi orqanlarının vəzifələrinin həyata keçirilməsi məqsədi ilə;
2. vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə əlaqədar onların qarşısının alınması və istintaq aparılması üçün müvafiq icra hakimiyyəti orqanına;
3. inzibati xətalar və ya vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə bağlı işlərə baxılma ilə əlaqədar müvafiq məhkəmələrə;
4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq digər dövlətlərin müvafiq dövlət hakimiyyəti orqanlarına;
5. sosial müdafiə haqqında qanunların yerinə yetirilməsi üçün zəruri olan hədlərdə dövlət sosial müdafiə və tibbi sığorta fondlarına;
6. gömrük qanunvericiliyinin tətbiq edilməsi məqsədləri üçün gömrük orqanlarına;
7. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə maliyyə monitorinqi orqanına.

Dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri kommersiya (vergi) sirrini təşkil edən məlumatları əks etdirən sənədləri həmin sənədləri onlara təqdim etmiş vergi orqanlarına qaytarmalıdırlar. Vergi ödəyicisinə aid məlumat vergi ödəyicisinin yazılı icazəsi ilə digər şəxsə verilə bilər.

Vergi orqanlarının vəzifəli şəxslərinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və Azərbaycan Respublikasının digər qanunlarına ciddi riayət etmək, vergi orqanlarının hüquq və vəzifələrini öz səlahiyyətləri daxilində yerinə yetirmək; vergi ödəyicilərinə, onların nümayəndələrinə və vergi münasibətlərinin digər iştirakçılarına diqqət və nəzakətlə yanaşmaq kimi mühüm vəzifələri vardır.

§5.4. Vergi ödəyicisinin hüquqları və vəzifələri.

Vergi ödəyicisinin hüquqları və qanuni maraqları qanunvericilik normaları ilə təmin edilir. Vergi ödəyicisinin hüquqlarının və qanuni maraqlarının müdafiəsi qaydası Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilir. Vergi ödəyicisinin hüquqları və qanuni maraqları vergi orqanlarının və onların vəzifəli şəxslərinin səlahiyyətləri ilə təmin edilir. Vergi ödəyicisinin hüquqlarının və qanuni maraqlarının təmin olunmaması və ya lazımınca təmin olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Vergi ödəyicisi vergi münasibətlərində bilavasitə və ya səlahiyyətli nümayəndəsi vasitəsi ilə iştirak edə bilər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi ödəyicisinin aşağıdakı **hüquqları** vardır:

1. vergi orqanlarından qeydiyyat (uçot) yeri üzrə qüvvədə olan vergilər və onların ödənilməsi qaydasını və şərtlərini tənzimləyən normativ-hüquqi aktlar, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi orqanlarının və onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında əvəzsiz olaraq yazılı məlumat almaq;
2. vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar almaq;

3. vergi qanunları ilə müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə etmək;
4. artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək;
5. vergi münasibətlərində bilavasitə və ya öz nümayəndəsi vasitəsi ilə iştirak etmək;
6. vergi yoxlaması ilə bağlı tərtib edilən aktların (protokolların) və vergi orqanlarının qərarlarının surətini almaq;
7. vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə vergilər haqqında qanunvericiliyə riayət olunmasını tələb etmək;
8. vergi orqanlarının və onların vəzifəli şəxslərinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər vergi normativ-hüquqi aktlarına uyğun olmayan aktlarını (qərarlarını) və tələblərini yerinə yetirməmək;
9. müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və ya məhkəməyə şikayət etmək;
10. qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya (vergi) sirrinin qorunmasını tələb etmək;
11. vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qeyri-qanuni aktları (qərarları) və hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin tam ödənilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada tələb etmək;
12. vergi yoxlamalarının aktları və digər materialları ilə tanış olmaq, vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergilərin hesablanması və ödənilməsi, habelə keçirilən vergi yoxlamalarının aktları üzrə öz rəyini bildirmək;
13. xronometraj metodu ilə aparılan sonuncu müşahidədən sonra istehsal həcminin və ya satış dövriyyəsinin dəyişməsi ilə əlaqədar xronometraj metodu ilə yeni müşahidənin aparılmasını vergi orqanlarından tələb etmək;

14. vergi orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi üçün nəzarət-kassa aparatının müəyyən olunmuş modelini sifariş vermək;
15. nağd pul hesablaşmaları nəzarət-kassa aparatları vasitəsi ilə aparılmayan fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicisi tərəfindən nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək;
16. vergi risklərinin minimallaşdırılması məqsədilə «Vergi partnyorluğu sazişi» bağlamaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada ərizə ilə vergi orqanına müraciət etmək;
17. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi ödəyicisinin aşağıdakı **vəzifələri** vardır:
1. qanunla müəyyən edilmiş vergiləri, habelə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada hesablanmış faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək;
2. vergi orqanlarından vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almaq;
3. qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq;
4. vergi orqanlarına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə, auditor rəyi əlavə edilməklə vergi hesabatını təqdim etmək;
5. vergi orqanlarının vergi qanunvericiliyinin aşkar edilmiş pozuntularının aradan qaldırılması haqqında qanuni tələblərini icra etmək, habelə vergi orqanlarının vəzifəli şəxslərinin qanuni fəaliyyətinin icra edilməsinə maneçilik törətməmək;

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün və filiallarının elektron daşıyıcılarında olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək;
7. qanunvericiliklə müəyyən edilmiş müddətdə mühasibat sənədlərinin və vergilərin hesablanması və ödənilməsi üçün zəruri olan digər sənədlərin, habelə alınan gəliri (hüquqi şəxslər üçün çəkilən xərcləri də) və ödənilən (tutulan) vergiləri təsdiq edən sənədlərin saxlanılmasını təmin etmək;
8. aşağıdakı fəaliyyət növləri istisna olmaqla, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək:
8.1. qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
8.2. qiymətli kağızların satışı;
8.3. lotereya biletlərinin satışı, idman mərc oyunları üzrə operator və satıcı tərəfindən həyata keçirilən fəaliyyət;
8.4. sərnişin və yük daşıma (dəmir yolu, hava, su və avtomobil nəqliyyatı vasitəsilə) fəaliyyəti (oturacaq yerlərinin sayı 6-dan az olan qanunvericiliyə uyğun olaraq taksometr tətbiq edilməli taksilərdən başqa);
8.5. kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
8.6. şüşə qablar və dəmir tullantılarının qəbul məntəqələrinin fəaliyyəti;
8.7. rabitə xidməti (İnternet klubların fəaliyyəti istisna olmaqla);
8.8. reklam xidməti;
8.9. mənzil təsərrüfatı obyektlərinin fəaliyyəti;

8.10. yaşayış və qeyri-yaşayış obyektlərinin kirayəyə verilməsi;
8.11. mehmanxana, motel, kempinq və yataqxana xidmətləri;
8.12. elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti, lift və təhlükəsizlik xidməti;
8.13. kanalizasiya və sanitar təmizləmə xidməti;
8.14. turizm-ekskursiya, sanatoriya-kurort və sağlamlaşdırma xidmətləri;
8.15. bədən tərbiyəsi və idman xidməti;
8.16. səhiyyə xidməti;
8.17. vəkillik, notariat və digər hüquq xidmətləri;
8.18. təhsil müəssisələrinin təhsillə bağlı olan fəaliyyəti və tədris kurslarının fəaliyyəti;
8.19. avtomobil dayanacaqlarının fəaliyyəti;
8.20. paltarların kimyəvi təmizlənməsi və boyanması, yuyulması;
8.21. mənzillərin təmiri və tikintisi;
8.22. stasionar olmayan məntəqələrdə mərasim xidmətləri və bununla əlaqədar kirayə;
8.23. lombard xidməti;
8.24. cildləmə xidməti;
8.25. səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;
8.26. bank fəaliyyəti, həmçinin sığorta və sığorta vasitəçiliyi xidmətləri;
8.27. işçilərin sayı iki nəfərdən çox olmayaraq həyata keçirilən aşağıdakı fəaliyyətlər:
8.27.1. mebellərin təmiri və hazırlanması;
8.27.2. foto, audio-video xidməti;
8.27.3. ayaqqabıların, paltarların, trikotaj və gön-dəri məmulatlarının təmiri və fərdi tikilişi;

8.27.4. saatların, televizor, soyuducu və digər məişət cihazlarının təmiri;
8.27.5. nəqliyyat vasitələrinə texniki və digər xidmətlər;
8.27.6. bərbər xidməti;
8.27.7. zərgərlik və metal məmulatlarının təmiri və hazırlanması;
8.27.8. nəqqaşlıq və rəssamlıq emalatxanaları və təmiri məntəqələrinin fəaliyyəti.
9. nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək;
10. istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi orqanlarına dərhal məlumat verməklə, nəzarət-kassa aparatından istifadəni müvəqqəti dayandırmaq və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada aparılmasını təmin etmək;
11. sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında hesabların açılması üçün vergi orqanlarından alınmış şəhadətnamə-dublikatların bildiriş hissəsində müvafiq qeydlər etməklə, bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim etmək;
11.1. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq nağdsız ödənişlərin aparılması üçün POS-terminalların quraşdırılmasını və istifadəsini təmin etmək;
11.2. vergi orqanı tərəfindən kameral və səyyar vergi yoxlamaları zamanı hesablanmış və ya yenidən hesablanmış vergilər, faizlər, habelə tətbiq edilmiş maliyyə sanksiyala-

rından verilmiş şikayətə məhkəmədə baxıldığı dövrdə və həmin şikayət üzrə məhkəmənin çıxardığı qərar qanuni quvvəyə minənədək (vergi ödəyicisinin həmin vəsaitləri öz razılığı ilə ödədiyi hallar istisna olmaqla) əlavə hesablanmış məbləğin 105 faizi həcmində pul vəsaitinin milli və ya xarici valyutada cari və digər hesablarında məxaric əməliyyatları üzrə dondurulmasını təmin etmək.

Vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir.

Vergi ilində vergi ödəyicisi sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdıqda, həmin fəaliyyətin və ya əməliyyatların dayandırılması günündən gec olmayaraq vergi orqanına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada arayış təqdim edilməlidir. Arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir. Vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrdə faktiki olaraq fəaliyyət göstərməsi müəyyən edildikdə vergi ödəyicisinə bildiriş göndərilməklə sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrlər üzrə vergi orqanına hesabatlar təqdim etməsi tələb olunur.

Bu qaydalara uyğun olaraq arayış təqdim edən vergi ödəyicilərinin əmlakı və ya torpağı olduqda əmlak və ya torpaq vergisinin hesabatları Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətlərdə vergi orqanına təqdim edilir.

Biliyi möhkəmləndirmək üçün testlər:

Test 1.

1. Azərbaycan Respublikasında vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları hansı qanunvericiliklə tənzimlənir?

A) Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə

B) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə

C) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə

D) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə

2. Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları və vergilər hansı qanunla müəyyən edilir?

A) Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə

B) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə

C) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə

D) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə

3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən anlayışlar və qaydalar vergitutma məqsədi ilə müəyyən edilir və ...

A) müstəsna olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən vergitutma və vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq edilir

B) müstəsna olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən vergitutma və vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq edilir

C) müstəsna olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında qəbul edilmiş normativ hüquqi aktlar ilə tənzimlənən yalnız vergitutma ilə bağlı münasibətlər hüdudlarında tətbiq edilir

D) müstəsna olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən yalnız vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq edilir

4. Azərbaycan Respublikasının vergi qanunvericiliyi hansı qanunvericilik aktlarından ibarətdir?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir
B) Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir
C) Azərbaycan Respublikasının Konstitusiyasından və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir
D) Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Gömrük Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin əsasında və ya onun icrası məqsədi ilə qəbul edilmiş normativ hüquqi aktlar Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına...
A) zidd olmalıdır
B) eyni olmalıdır
C) oxşar olmalədır
D) zidd olmamalıdır

6. Hansı qanunvericilik aktlarına vergitutma və vergi nəzarəti məsələləri daxil edilə bilməz?
A) Azərbaycan Respublikasının Ailə Məcəlləsinə
B) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə
C) Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə
D) Büdcə qanunvericiliyinə

7. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə vergilər haqqında Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə və ona müvafiq olaraq qəbul edilmiş normativ hüquqi aktlarla nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, hansı müddəalar tətbiq edilir?

A) İnzibati Xətalar Məcəlləsinin müddəaları
B) Beynəlxalq müqavilələrin müddəaları
B) Vergi Məcəlləsinin müddəaları
D) digər qanunvericilik aktlarının müddəaları

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsi qüvvəyə minənədək və ya o, qüvvəyə mindikdən sonra qanunla təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda, Vergi Məcəlləsində və vergilər haqqında digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, hansı müddəalar tətbiq edilir?
A) hasilatın pay bölgüsü haqqında qanunun müddəaları tətbiq edilir
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəaları tətbiq edilir
C) həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir
D) neft və qaz haqqında qanunun müddəaları tətbiq edilir

9. Növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri müvafiq icra hakimiyyəti orqanına hansı müddətədək təqdim edilir?
A) cari ilin may ayının 1-dək
B) cari ilin iyun ayının 15-dək
C) cari ilin aprel ayının 1-dək
D) cari ilin mart ayının 15-dək

10. Vergi qanunvericiliyi vergitutmanın hansı prinsiplərinə əsaslanmalıdır?
A) ümumi, bərabər və elastik olmasına
B) ədalətli və səmərəli olmasına
C) xüsusi və neytral olmasına
D) ümumi, bərabər və ədalətli olmasına

Test 2.

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergilər hansı cəhətdən əsaslandırılmalıdır?
A) vergilər siyasi cəhətdən əsaslandırılmalıdır
B) vergilər inzibati cəhətdən əsaslandırılmalıdır
C) vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır
D) vergilər ideoloji cəhətdən əsaslandırılmalıdır

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən nəcə vergilərin müəyyən edilməsinə yol verilmir?
A) iqtisadi fəaliyyətə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir
B) hər kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir
C) vergi daxilolmalarının formalaşmasında rolu az olan vergilərin müəyyən edilməsinə yol verilmir
D) böyük müəssisələrin inkişafına maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir

3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən hansı vergilərin müəyyən edilməsinə yol verilmir?
A) Azərbaycan Respublikasının vahid iqtisadi məkanını pozmayan vergilərin müəyyən edilməsinə yol verilmir
B) Azərbaycan Respublikasının vahid iqtisadi məkanını pozan vergilərin müəyyən edilməsinə yol verilmir
C) Azərbaycan Respublikasının siyasi sabitliyini pozmayan vergilərin müəyyən edilməsinə yol verilmir
D) Azərbaycan Respublikasının iqtisadi inkişafına səbəb olan vergilərin müəyyən edilməsinə yol verilmir

4. Əldə edilən mənfəətdən və ya gəlirdən eyni növ vergini neçə dəfə almaq olar?
A) bir dəfədən artıq almaq olmaz

B) zəruri hallarda iki dəfə almaq olar
C) istisna hal kimi üç dəfə almaq olar
D) istənilən sayda almaq olar
5. Vergilər hansı xüsusiyyətlər əsas götürülərək müəyyən edilə bilməz?
A) vergilər iqtisadi, elmi, etnik, konfessional və digər bu kimi xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz
B) vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə bilməz
C) vergilər müəyyən edilərkən heç bir xüsusiyyətlər əsas götürülə bilməz
D) vergilər dövlətin siyasi maraqları əsas götürülməklə müəyyən edilə bilməz

6. Mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergi dərəcələri necə müəyyən edilir?
A) mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsinə müstəsna hallarda icazə verilir
B) mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin güzəştli dərəcələrinin müəyyən edilməsi qadağan deyil
C) mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi qadağandır
D) mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələrinin müəyyən edilməsi mümkündür

7. Azərbaycan Respublikasına mallar gətirilərkən hansı amil gömrük rüsumunun müxtəlif dərəcələrinin müəyyən edilməsini mümkün edir?

A) həmin malların hansı ölkədən gətirilməsi
B) həmin malların hansı miqdarda gətirilməsi
C) həmin malların siyasi məqsədlə gətirilməsi
D) həmin malların milli istehsala ziyan vurmamaq şərtilə gətirilməsi

8. Azərbaycan Respublikasında vergilər hansı qanunvericilik aktı ilə müəyyən edilir?
A) Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə
B) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə
C) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə

9. Azərbaycan Respublikasında vergilərin dəyişdirilməsi və ya ləğv edilməsi necə həyata keçirilir?
A) Azərbaycan Respublikası Milli Məclisinin qərarına əsasən
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi yolu ilə
C) "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi yolu ilə
D) Azərbaycan Respublikasının Vergilər nazirinin göstərişinə əsasən

10. Vergilər haqqında qanunvericilik hansı tərzdə formalaşdırılmalıdır?
A) hər kəs hansı vergiləri, hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin
B) hər kəs hansı vergiləri, kimə və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin
C) hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin
D) hər kəs hansı vergiləri necə ödəməli olduğunu dəqiq bilsin

Test 3.

1. Vergi sistemi hansı fəaliyyəti təşviq etməlidir?
A) Vergi sistemi qeyri-sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir
B) Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir
C) Vergi sistemi biznes fəaliyyətini təşviq etməlidir
D) Vergi sistemi istehsal fəaliyyətini təşviq etməlidir

2. Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları kimin xeyrinə şərh edilməlidir?
A) Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi orqanlarının xeyrinə şərh edilməlidir
B) Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edilməlidir
C) Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları dövlətin xeyrinə şərh edilməlidir
D) Vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları heç kimin xeyrinə şərh edilməməlidir

3. Fiziki və hüquqi şəxslərin vergilərə aid normativ hüquqi aktlarla azad tanış olmaq imkanı hansı orqan tərəfindən təmin edilməlidir?
A) Azərbaycan Televiziyası tərəfindən
B) vergi orqanları tərəfindən
C) gömrük orqanları tərəfindən
D) bələdiyyələr tərəfindən

4. Azərbaycan Respublikasında hansı vergilər müəyyən edilir və ödənilir?
A) dövlət vergiləri, regional vergilər, yerli vergilər (bələdiyyə vergiləri)
B) dövlət vergiləri, muxtar respublika vergiləri və yerli vergilər (bələdiyyə vergiləri)
C) muxtar respublika vergiləri və yerli vergilər (bələdiyyə vergiləri)
D) dövlət vergiləri və muxtar respublika vergiləri

5. Dövlət vergiləri dedikdə hansı vergilər nəzərdə tutulur?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən və Bakı şəhərində ödənilməli olan vergilər
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün bələdiyyələrində ödənilməli olan vergilər
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilməli olan vergilər
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilər

6. Muxtar respublika vergiləri dedikdə hansı vergilər nəzərdə tutulur?
A) Naxçıvan Muxtar Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən dolayı vergilər
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən birbaşa vergilər

7. Yerli vergilər dedikdə hansı vergilər nəzərdə tutulur?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsi və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsi və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və ödənilən torpaq vergisi

C) Azərbaycan Respublikasının Vergi Məcəlləsi və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və ödənilən əmlak vergisi
D) Azərbaycan Respublikasın Vergi Məcəlləsi və müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən komunal vergilər

8. Bələdiyyələr öz ərazilərində vergitutmanın hansı məsələləri barədə qərar qəbul edə bilərlər?
A) vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam azad etmək və onlara xüsusi vergi statusunu vermək barədə
B) vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən və komunal ödənişlərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə
C) vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək barədə
D) vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə

9. Xüsusi vergi rejimi nədir?
A) xüsusi vergi rejimi - müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydasıdır
B) xüsusi vergi rejimi - müəyyən dövr ərzində vergilərin hesablanmasının xüsusi qaydasıdır
C) xüsusi vergi rejimi - uzun dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydasıdır
D) xüsusi vergi rejimi - bir gün ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydasıdır

10. Hansı vergilərin müəyyən edilməsinə yol verilmir?
A) Gömrük Məcəlləsi ilə nəzərdə tutulmayan vergilərin müəyyən edilməsinə yol verilmir
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmayan vergilərin müəyyən edilməsinə yol verilmir
C) Torpaq Məcəlləsində nəzərdə tutulmayan vergilərin müəyyən edilməsinə yol verilmir
D) Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmayan vergilərin müəyyən edilməsinə yol verilmir

Test 4.

1. Aşağıdakılardan hansı vergitutmanın forması deyil?
A) bilavasitə mənbədən
B) bəyannamə üzrə
C) bildiriş üzrə
D) göndəriş üzrə

2. Vergi məbləğlərinin bilavasitə mənbədən tutulması dedikdə nə başa düşülür?
A) verginin birbaşa gəlirdən tutulması
B) verginin gəlir və mənfəət əldə edilməsinədək tutulması
C) verginin rüblərlə tutulması
D) verginin dövriyyədən tutulması

3. Vergi məbləğlərinin bəyannamə üzrə tutulması dedikdə nə başa düşülür?
A) verginin vergitutma obyektinin dəyəri və sahəsi əsasında tutulması
B) verginin mənfəət əldə edilməsinədək tutulması
C) verginin gəlir və mənfəət əldə edilməsindən sonra tutulması
D) verginin birbaşa dövlət büdcəsinə tutulması

4. Vergi məbləğlərinin bildiriş üzrə tutulması dedikdə nə başa düşülür?
A) vergitutma obyektinin dəyəri və sahəsi əsasında bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi
B) vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi
C) vergitutma obyektinin sahəsi əsasında vergi orqanının hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi
D) vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən dolayı vergilərin ödənilməsi

5. Aşağıdakılardan hansılar dövlət vergilərinə aid deyil?
A) fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi
B) aksizlər, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi
C) fiziki şəxslərin əmlak vergisi, fiziki şəxslərin torpaq vergisi, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi
D) yol vergisi, mədən vergisi, sadələşdirilmiş vergi

6. Aşağıdakılardan hansı yerli vergilərə aid deyil?

A) fiziki şəxslərin əmlak vergisi
B) yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi
C) hüquqi şəxslərin torpaq vergisi
D) bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi

7. Azərbaycan Respublikası ərazisində vergilər hansı pul vahidi ilə hesablanır və ödənilir?
A) ABŞ dolları ilə
B) Avro ilə
C) hər bir ölkənin vergi ödəyiciləri öz pul vahidləri ilə
D) Azərbaycan Respublikasının pul vahidi olan manatla

8. Aşağıdakılardan hansı vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçısı deyil?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikasının maliyyə orqanları
D) Azərbaycan Respublikasının dövlət hüquq-mühafizə orqanları

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən Vergi nədir?
A) dövlətin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir
B) dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir
C) dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən könüllü ödənişdir
D) dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir

10. Aşağıdakılardan hansı vergitutma elementi deyil?
A) vergitutma obyekti
B) vergitutma bazası
C) vergi dərəcəsi
D) vergi agenti

Test 5.

1. Vergi nə zaman müəyyən edilmiş hesab olunur?
A) vergi ödəyicisi, vergitutma obyekti, vergitutma subyekti, vergi dərəcəsi, vergi yükü, verginin hesablanma qaydası, vergilərin ödənilməsi qaydası və müddəti müəyyən edildikdə
B) vergi ödəyicisi, vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, verginin hesablanma qaydası, vergilərin ödənilməsi qaydası və müddəti müəyyən edildikdə
C) vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, verginin hesablanma qaydası, vergilərin ödənilməsi qaydası və müddəti müəyyən edildikdə
D) vergi ödəyicisi, vergitutma subyekti, vergi dərəcəsi, vergi yükü, verginin hesablanma qaydası, vergilərin ödənilməsi qaydası və müddəti müəyyən edildikdə

2. Vergitutma obyekti dedikdə nə başa düşülür?
A) əlavə dəyər, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri
B) gəlir, mənfəət, yol, torpaq, dövriyyə, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri
C) gəlir, mənfəət, əmlak, torpaq, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri
D) dəyər, mənfəət, əmlak, su, faydalı qazıntılar, təqdim edilmiş malların (işin, xidmətin) dəyəri

3. Vergi müəyyən edildikdə hansı əsaslarla vergi güzəştləri müəyyənləşdirilə bilər?
A) iqtisadi qanunvericilik aktları ilə ilə nəzərdə tutulan əsaslarla
B) Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulan əsaslarla
C) Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulan əsaslarla
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulan əsaslarla

4. Vergitutma bazası nədir?
A) vergitutma obyektinin vergi hesablanan dəyərinin kəmiyyətcə ifadəsidir

B) vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsidir
C) vergitutma subyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsidir
D) vergi dərəcəsinin vergitutma obyektinə tətbiq olunan hissəsidir

5. Vergitutma məqsədləri üçün şəxs kim hesab olunur?
A) istənilən fiziki və ya hüquqi şəxs, qeyri-rezidentin daimi nümayəndəliyi, filialı və digər bölməsi
B) istənilən rezident və ya qeyri-rezidentin daimi nümayəndəliyi
C) rezident fiziki şəxs, qeyri-rezidentin filialı və digər bölməsi
D) istənilən hüquqi şəxs

6. Vergitutma məqsədləri üçün hüquqi şəxs dedikdə kim nəzərdə tutulur?
A) xarici dövlətin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılmış müəssisə və təşkilatlar
B) Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılmış müəssisə və təşkilatlar
C) Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılmış korporasiyalar
D) Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən təşkilatlar

7. Vergitutma məqsədləri üçün fiziki şəxs dedikdə kim nəzərdə tutulur?
A) vergi ödəyicisi olan əcnəbi vətəndaşlar
B) əcnəbi və vətəndaşlığı olmayan şəxs
C) Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və vətəndaşlığı olmayan şəxs
D) Azərbaycan Respublikasının vətəndaşı

8. Vergitutma məqsədləri üçün vergi ödəyicisi dedikdə kim nəzərdə tutulur?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən fiziki şəxs
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən hüquqi şəxs
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən rezident fiziki şəxs

9. Aşağıdakılardan hansı rezident olmanın tələbi deyil?
A) təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olmaq
B) təqvim ili içərisində, yaxud bir təqvim ili ərzində xarici ölkədə Azərbaycan Respublikasının dövlət xidmətində olmaq
C) Azərbaycan Respublikasının ərazisində konsulluq statusunda olmaq
D) Azərbaycan Respublikasının vətəndaşı olmaq

10. Azərbaycan Respublikasının ərazisində və ya xarici ölkədə fiziki şəxsin olma müddəti 182 gündən artıq olmadıqda, həmin fiziki şəxs hansı meyarlara əsasən Azərbaycan Respublikasının rezidenti sayılır?
1. daim yaşayış yeri
2. həyati mənafelərinin mərkəzi
3. bəzən yaşadığı yer
4. adətən yaşadığı yer
5. ailəsinin yaşadığı yer
6. Azərbaycan Respublikasının vətəndaşlığı
A) 1,2,4,6
B) 2,3,5,6
C) 2,3,4,5
D) 2,3,4,6

Test 6.

1. Aşağıdakılardan hansı qeyri-rezident deyil?
A) Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və onun ailə üzvləri
B) məqsədi yalnız Azərbaycan Respublikasının ərazisindən bir xarici dövlətdən digər xarici dövlətə keçmək olan şəxs
C) Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik imtiyazları və immunitetləri olan diplomatik nümayəndəliklər, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olan xarici təşkilatların və firmaların nümayəndəlikləri
D) Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı

2. Aşağıdakılardan hansı vergi ödəyicisinin ailə üzvlərinə aid deyil?
A) ər-arvadlar, onların bacıları və qardaşları
B) vərəsələr, varislər, himayədarlar
C) valideynlər, övladlar, övladlığa götürülmüş şəxslər
D) bacılar, qardaşlar, onların övladları

3. Vergitutma məqsədləri üçün mal nədir?
A) hər hansı qeyri-maddi əmlak (aktiv), elektrik və istilik enerjisi, qaz, su, torpaq, minerallar
B) hər hansı maddi əmlak (aktiv), o cümlədən, elektrik enerjisi, qaz, telekommunikasiya, su
C) hər hansı maddi və qeyri-maddi əmlak (aktiv), o cümlədən, elektrik və istilik enerjisi haqları
D) hər hansı maddi və qeyri-maddi əmlak (aktiv), o cümlədən, elektrik və istilik enerjisi, qaz və su

4. Vergitutma məqsədləri üçün qeyri-maddi aktivlər nədir?
A) intellektual, o cümlədən ticarət nişanları, brendlər, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada vergi ödəyicisinin mülkiyyət hüququnun obyekti kimi tanınan digər analoji vəzifələr
B) ticarət nişanları, sənaye mülkiyyəti obyektləri, digər analoji hüquqlar

C) intellektual, o cümlədən ticarət nişanları, digər sənaye mülkiyyəti obyektləri, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada vergi ödəyicisinin mülkiyyət hüququnun obyekti kimi tanınan digər analoji hüquqlar
D) intellektual, o cümlədən ticarət nişanları, digər sənaye və ticarət obyektləri, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada vergi ödəyicisinin mülkiyyət hüququnun obyekti kimi tanınan digər hüquqlar

5. Vergitutma məqsədləri üçün xidmət (iş) nədir?
A) malların təqdim edilməsi sayılmayan, nəticələri maddi ifadə kəsb etməyən fəaliyyət
B) malların təqdim edilməsi sayılmayan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət
C) malların təqdim edilməsi sayılan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət
D) malların təqdim edilməsi sayılan, nəticələri maddi ifadə kəsb etməyən fəaliyyət

6. Aşağıdakılardan hansı maliyyə xidmətlərinə aid deyil?
A) investisiya layihələri ilə bağlı əməliyyatlar
B) törəmə maliyyə vasitələri ilə əqdlərə, forvard müqavilələrinə, opsionlara və anoloji sazişlərə aid əməliyyatlar
C) qanuni tədiyə vasitələri olan valyutanın, pul vəsaitlərinin və əskinasların (numizmatika əşyalarından başqa) tədavülü ilə bağlı əməliyyatlar
D) sığorta və təkrar sığorta əməliyyatları, habelə bu əməliyyatlarla bağlı sığorta agenti və sığorta brokeri xidmətləri

7. Aşağıdakılardan hansı maliyyə xidmətlərinə aid deyil?
A) müştərilərin depozitlərinin və hesablarının idarə edilməsi, tədiyələr, köçürmələr, borc öhdəlikləri və tədiyə vasitələri ilə bağlı əməliyyatlar
B) investisiya fondlarının idarə edilməsi ilə bağlı xidmətlər
C) qiymətli kağızların emissiyası ilə bağlı xidmətlər
D) törəmə maliyyə vasitələri ilə əqdlərə, forvard müqavilələrinə, opsionlara və anoloji sazişlərə aid əməliyyatlar

8. Vergitutma məqsədləri üçün dividend nədir?
A) hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis xərclərinin bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş
B) hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş
C) fiziki şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş
D) hüquqi şəxsin törəmələrinin və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş

9. Aşağıdakılardan hansı Azərbaycan mənbəyindən gəlir sayılmır?
A) Azərbaycan Respublikasında müzdlu işdən gəlir
B) Azərbaycan Respublikasında istehsal edilmiş malların istehsalçı tərəfindən təqdim edilməsindən gəlir
C) Azərbaycan Respublikasında malların təqdim edilməsindən, iş görülməsindən və xidmət göstərilməsindən gəlir
D) vergi ödəyicisinin borclarının onun ortaqları tərəfindən ödənilməsindən gəlir

10. Vergitutma məqsədləri üçün əsas vəsaitlər nədir?
A) istifadə müddəti bir ildən çox olmayan və dəyəri 100 manatdan çox olan və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun amortizasiya edilməli olan maddi aktivlər
B) istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun amortizasiya edilməli olan maddi aktivlər
C) istifadə müddəti bir ildən çox olan və dəyəri 100 manatdan az olan və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun amortizasiya edilməli olan maddi aktivlər
D) istifadə müddəti bir ildən çox olan və dəyəri 1000 manatdan çox olan və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun amortizasiya edilməli olmayan maddi aktivlər

Test 7.

1. Vergitutma məqsədləri üçün faizlər nədir?
A) borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) alınması üçün ödəmə
B) borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) açılması üçün ödəmə
C) borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) verilməsi üçün ödəmə
D) borc alınması ilə bağlı olan hər hansı nağd ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) verilməsi üçün ödəmə

2. Vergitutma məqsədləri üçün xalis mənfəət nədir?
A) mənfəət vergisi çıxıldıqdan sonra qalan mənfəət
B) gəlir vergisi çıxıldıqdan sonra qalan mənfəət
C) torpaq vergisi çıxıldıqdan sonra qalan mənfəət
D) əmlak vergisi çıxıldıqdan sonra qalan mənfəət

3. Vergitutma məqsədləri üçün iştirakçı dedikdə nə başa düşülür?
A) səhmdar, payçı və onların ailə üzvləri
B) səhmdar və ya müəssisənin mənfəətində payı olan bank
C) səhmdar cəmiyyəti
D) səhmdar, payçı və ya müəssisənin mənfəətində digər iştirakçı

4. Vergitutma məqsədləri üçün əmlak nədir?
A) hər hansı daşınmaz əmlak, o cümlədən qeyri-maddi aktivlər, dövriyyə vasitələri və mülkiyyət hüququnun digər obyektləri
B) hər hansı daşınan və daşınmaz əmlak, o cümlədən qeyri-maddi aktivlər, dövriyyə vəsaitləri və mülkiyyət hüququnun digər obyektləri
C) hər hansı daşınan əmlak, dövriyyə vəsaitləri və mülkiyyət hüququnun digər obyektləri
D) hər hansı daşınan və daşınmaz mülk, o cümlədən maddi aktivlər, dövriyyə vəsaitləri və mülkiyyət hüququnun digər obyektləri

5. Vergitutma məqsədləri üçün əmlakın qalıq dəyəri dedikdə nə başa düşülür ?

A) əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər artırılan məbləği
B) əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəri
C) əsas vəsaitlərin ilkin dəyəri ilə yekun dəyərinin fərqi
D) əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan həcmi

6. Vergitutma məqsədləri üçün nəzarət-kassa aparatı nədir?
A) malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olmayan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemləri
B) malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçməyən elektron avadanlıq və ya kompüter sistemləri
C) malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və maliyyə orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemləri
D) malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemləri

7. Vergitutma məqsədləri üçün opsion nədir?
A) qiymətli kağızlar, mallar və ya pul vəsaitləri gələcəkdə müəyyən şərtlərlə bu cür opsionun bağlanması anına və ya tərəflərin qərarına əsasən, bu cür əldə etmənin anına satış qiymətlərinin təsbit edilməsi ilə əldə etməyə (satmağa) hüququ təsdiq edən sənəddir
B) qiymətli kağızlar, mallar və ya pul vəsaitləri gələcəkdə müəyyən şərtlərlə bu cür opsionun bağlanması anına və ya tərəflərin qərarına əsasən, bu cür əldə etmənin anına alış qiymətlərinin təsbit edilməsi ilə əldə etməyə (satmağa) hüququ təsdiq edən sənəddir
C) mallar və ya pul vəsaitləri gələcəkdə müəyyən şərtlərlə bu cür opsionun bağlanması anına və ya tərəflərin qərarına əsa-

sən, bu cür əldə etmənin anına satış qiymətlərinin təsbit edilməsi ilə əldə etmək hüququnu təsdiq edən sənəddir
D) qiymətli kağızlar, mallar və yâ pul vəsaitləri keçmişdə müəyyən şərtlərlə bu cür opsionun bağlanması anına və ya tərəflərin qərarına əsasən, bu cür əldə etmənin anına satış qiymətlərinin təsbit edilməsi ilə əldə etməyə (satmağa) hüququ təsdiq edən sənəddir

8. Qeyri-kommersiya fəaliyyəti hansı fəaliyyətdir?
A) məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsidir
B) məqsədi gəlir götürmək olan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsidir
C) məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsidir
D) məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilən fəaliyyətin həyata keçirilməsidir

9. Xeyriyyə təşkilatı nədir?
A) xeyriyyəçilik fəaliyyətini həyata keçirən qeyri-kommersiya təşkilatı
B) xeyriyyəçilik fəaliyyətini həyata keçirən kommersiya təşkilatı
C) xeyriyyəçilik fəaliyyətini həyata keçirməyən qeyri-kommersiya təşkilatı
D) xeyriyyəçilik fəaliyyətini həyata keçirən və məqsədi vergi immuniteti qazanmaq olan qeyri-hökümət təşkilatı

10. ƏDV-nin depozit hesabı nədir?
A) ƏDV-nin mədaxili və məxarici ilə bağlı əməliyyatlar aparılan xəzinə hesabıdır
B) ƏDV-nin mədaxili, uçotu, hərəkəti ilə bağlı əməliyyatlar aparılan vahid xəzinə hesabıdır
C) ƏDV-nin mədaxili, uçotu, hərəkəti və dövlət büdcəsinə məxarici ilə bağlı əməliyyatlar aparılan vahid xəzinə hesabıdır
D) ƏDV-nin uçotu, hərəkəti və dövlət büdcəsinə məxarici ilə bağlı əməliyyatlar aparılan bank hesabıdır

Test 8.

1. Aşağıdakılardan hansı vergi ödəyicilərinin hüquqlarına aid deyil?
A) vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar almaq
B) vergi qanunları ilə müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə etmək
C) artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək
D) vergi münasibətlərində öz nümayəndəsi vasitəsilə iştirak etməmək

2. Aşağıdakılardan hansı vergi ödəyicilərinin hüquqlarına aid deyil?
A) vergi yoxlaması ilə bağlı tərtib edilən aktların, protokolların və vergi orqanlarının qərarlarının surətini almaq
B) vergi orqanlarından vergi ödəyicisinə münasibətdə vergilər haqqında qanunvericiliyə riayət olunmasını tələb etmək
C) vergi orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi üçün nəzarət-kassa aparatının ən sərfəli modelini sifariş vermək
D) qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya (vergi) sirrinin qorunmasını tələb etmək

3. Aşağıdakılardan hansı vergi ödəyicilərinin vəzifələrinə aid deyil?
A) qanunla müəyyən edilmiş vergiləri habelə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada hesablanmış faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək
B) bütün nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək
C) vergi orqanlarından VÖEN almaq
D) qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin, xərclərinin və vergitutma obyektlərinin uçotunu aparmaq

4. Vergi agenti kimdir?
A) Vergi Məcəlləsinə uyğun olaraq vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxsdir

B) Vergi Məcəlləsinə uyğun olaraq vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa, lakin təyinatı üzrə köçürməyə borclu olmayan şəxsdir
C) Vergi Məcəlləsinə uyğun olaraq vergini hesablamağa borclu olan şəxsdir
D) Gömrük Məcəlləsinə uyğun olaraq vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa olan şəxsdir

5. Azərbaycan Respublikasında dövlət vergi orqanlarını hansı orqanlar təşkil edir?
A) müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan maliyyə orqanları
B) müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olmayan vergi orqanları
C) müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan gömrük orqanları
D) müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan vergi orqanları

6. Vergi orqanları öz səlahiyyətləri çərçivəsində hansı orqanların səlahiyyətlərini həyata keçirirlər?
A) icra hakimiyyəti orqanlarının
B) yerli özünüidarəetmə orqanlarının
C) hüquq mühafizə orqanlarının
D) məhkəmə orqanlarının

7. Vergi orqanları öz fəaliyyətlərini hansı formada həyata keçirirlər?
A) öz fəaliyyətlərini yerli dövlət hakimiyyəti orqanlarından asılı olaraq müstəqil həyata keçirirlər
B) öz fəaliyyətlərini istədikləri kimi həyata keçirirlər
C) öz fəaliyyətlərini yerli dövlət hakimiyyəti orqanlarından asılı olaraq həyata keçirirlər
D) öz fəaliyyətlərini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirirlər

8. Vergi orqanlarının fəaliyyətinin hüquqi əsasını hansı qanunvericilik aktları təşkil edir?

A) Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktları
B) Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Vergi Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktları
C) Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktları
D) Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi

9. Vergi orqanları işçilərinin sosial müdafiəsi necə həyata keçirilir?
A) Vergi orqanlarının işçilərinin sosial müdafiəsinə dövlət təminat vermir, lakin onlar dövlət büdcəsinin vəsaiti hesabına icbari qaydada sığorta olunurlar
B) Vergi orqanlarının işçilərinin sosial müdafiəsinə dövlət təminat verir və lakin onlar şəxsi vəsaitləri hesabına icbari qaydada sığorta olunurlar
C) Vergi orqanlarının işçilərinin sosial müdafiəsinə dövlət təminat verir və onlar dövlət büdcəsinin vəsaiti hesabına könüllü qaydada sığorta olunurlar
D) Vergi orqanlarının işçilərinin sosial müdafiəsinə dövlət təminat verir və onlar dövlət büdcəsinin vəsaiti hesabına icbari qaydada sığorta olunurlar

10. Vergi orqanının işçisinə xidməti fəaliyyəti həyata keçirdiyi zaman peşə fəaliyyəti ilə məşğul olmağa imkan verməyən ağır bədən xəsarəti yetirildikdə, ona dövlət tərəfindən hansı ödənişlər edilir?
A) ona dövlət büdcəsinin vəsaiti hesabına vəzifə maaşı ilə pensiyası arasındakı fərq ödənilir
B) ona dövlət büdcəsinin vəsaiti hesabına vəzifə maaşı həcmində birdəfəlik ödəniş ödənilir
C) ona dövlət büdcəsinin hesabına pensiya ödənilir
D) ona dövlət büdcəsinin vəsaiti hesabına vəzifə maaşı ilə pensiyasının cəmi ödənilir

Test 9.

1. Xidməti fəaliyyətlə əlaqədar vergi orqanının işçisinin əmlakına dəymiş zərər hansı vəsait hesabına ödənilir?
A) sonradan təqsirkar şəxsdən tutulmamaqla, tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir
B) sonradan təqsirkar şəxsdən tutulmaqla, tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir
C) sonradan təqsirkar şəxsdən tutulmaqla, bir hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödənilir
D) tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir

2. Vergi orqanları işçilərinin sosial müdafiəsi məqsədi ilə büdcədənkənar fond hansı mənbələrin hesabına yaradılır?
A) vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 15 faizi hesabına
B) vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 10 faizi hesabına
C) vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 25 faizi hesabına
D) vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 0.5 faizi hesabına

3. Aşağıdakılardan hansı vergi orqanlarının hüquqlarına aid deyil?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və hallarda kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək
B) vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını, habelə vergi ödəyicisi auditor tərəfindən yoxlanılmalı olduğu halda auditor rəyini tələb etmək
C) müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək
D) qanunla müəyyən edilmiş qaydada əmək qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, hüquqi və fiziki şəxslərin vergi borclarına faizlər hesablamaq, bu şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək

4. Aşağıdakılardan hansı vergi orqanlarının hüquqlarına aid deyil?

A) qanunla müəyyən edilmiş hallarda vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırmaq
B) «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunun həyata keçirmək
C) «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada binalara, şəxsi evlərə, qurğulara və torpaq sahələrinə daxil olmaq və baxış keçirmək
D) «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada nəzarət qaydasında mal alqısını həyata keçirmək

5. Aşağıdakılardan hansı vergi orqanlarının vəzifələrinə aid deyil?
A) vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək
B) vergi qanunvericiliyinə tam və dəqiq riayət etmək
C) hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparmaq və bu barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat vermək
D) vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etməmək

6. Aşağıdakılardan hansı vergi orqanlarının vəzifələrinə aid deyil?
A) tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarət etməmək
B) vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər bölmələrinin obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparmaq
C) kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini aparmaq
D) vergi ödəyicilərinə vergi yoxlamalarının nəticələri haqqında aktın, habelə qanunvericiliklə müəyyən edilmiş hallarda vergi orqanının qərarının surətini vermək

7. Vergi orqanlarının vəzifəli şəxsləri hansı fəaliyyət növləri ilə məşğul ola bilməzlər?
A) elmi-pedaqoji fəaliyyətlə
B) elmi yaradıcılıqla
C) sahibkarlıq fəaliyyəti ilə

D) pedaqoji fəaliyyətlə

8. Vergi ödəyicisi barədə hansı məlumatlar kommersiya sirri hesab olunur?
A) vergi ödəyiciləri haqqında məxvi məlumatlar
B) vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında məlumatlar
C) vergi ödəyicisinin şəxsi razılığı ilə aşkar edilən məlumatlar
D) vergi ödənişləri üzrə borclar haqqında məlumatlar

9. Kommersiya sirrini təşkil edən məlumatları kim əldə edə bilər ?
A) Kommersiya sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə istənilən şəxs əldə edə bilər
B) Kommersiya sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə fiziki şəxslər əldə edə bilər
C) Kommersiya sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə vəzifəli şəxslər əldə edə bilər
D) Kommersiya sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə hüquqi şəxslər əldə edə bilər

10. Vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatları hansı hallarda digər orqanlara verə bilərlər?
1. vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə əlaqədar onların qarşısının alınması və istintaq aparılması üçün müvafiq icra hakimiyyəti oqanına
2. digər dövlətlərin müvafiq dövlət hakimiyyəti oqanlarına
3. inzibati xətalar və ya vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə bağlı işlərə baxılma ilə əlaqədar müvafiq məhkəmələrə
4. ədliyyə orqanlarına və onların vəzifəli şəxslərinə vəzifələrinin həyata keçirilməsi məqsədi ilə
5. sosial müdafiə haqqında qanunların yerinə yetirilməsi üçün zəruri olan hədlərdə dövlət sosial müdafiə və tibbi sığorta fondlarına
6. gömrük qanunvericiliyinin tətbiq edilməsi məqsədləri üçün gömrük orqanlarına
A) 1, 2, 4, 5 B) 1, 3, 4, 6 C) 2, 3, 5, 6 D) 1, 3, 5, 6

VI Fəsil. Vergi nəzarəti.

§6.1. Vergi nəzarəti və onun formaları.

Vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədi ilə vergi orqanlarının həyata keçirdiyi fəaliyyət vergi nəzarəti adlanır. Vergi nəzarəti vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemidir. Vergi nəzarəti həm də, nəzarət olunan obyektlərin müşahidəsinin aparılmasını, vergi sahəsində proqnozlaşdırmanı, planlaşdırmanı, uçotu və təhlili, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirlərini, həmçinin qanunpozucularının aşkar olunmasını və məsuliyyətə cəlb olunmasını özündə əks etdirən nəzarət sistemidir. Vergi nəzarətinin subyektləri - vergi nəzarətində iştirak edən tərəflərdir. İqtisadi ədəbiyyatlarda vergi nəzarətinin subyektlərini ənənəvi olaraq, nəzarət edən, nəzarət olunan və yardımçılar kimi fərqləndirirlər. Nəzarət olunan subyektlərə vergi ödəyiciləri, vergi agentləri və vergi qanunvericiliyinə əsasən üzərlərinə vergi öhdəlikləri qoyulmuş digər şəxslər aiddir. Yardımçı subyektlərə isə vergi nəzarətində xüsusi əhəmiyyəti olan müşahidəçilər, mütəxəssislər, ekspertlər və tərcüməçilər aiddir.

Azərbaycan Respublikasında vergi nəzarətini vergi və gömrük Məcəllələrində nəzərdə tutulmuş hallarda və qaydada müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər. Yerli vergilərin qanunvericiliyə uyğun olaraq hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət isə bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir.

Vergi nəzarəti vergi və gömrük orqanlarının, habelə, onların vəzifəli şəxslərinin səlahiyyətləri hədlərində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Azərbaycan

Respublikasının Gömrük Məcəlləsinə və digər qanunvericilik aktlarına müvafiq olaraq həyata keçirilir.

Vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara (ərazilərə) baxış keçirməklə və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər formalarda həyata keçirirlər.

§6.2. Vergi ödəyicilərinin uçotu.

Vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə vergi ödəyicisi olan hüquqi şəxslər - olduqları yer üzrə vergi orqanlarında uçota alınırlar. Olduqları yer dedikdə dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan nəzərdə tutulur. Vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə vergi orqanlarında uçota alınırlar. Fərdi sahibkarlar və bəyannamə verməli olan rezident fiziki şəxslər yaşadıqları yer üzrə, xüsusi notariuslar isə fəaliyyət göstərdiyi yer üzrə vergi orqanlarında uçota alınırlar.

Kommersiya hüquqi şəxslərinə, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filiallarına qanunvericiliyə müvafiq qaydada dövlət qeydiyyatına alındığı zaman vergi ödəyicisinin eyniləşdirmə nömrəsi verilir və həmin andan onlar vergi uçotuna alınmış hesab olunurlar. Bu zaman verilən dövlət qeydiyyatı haqqında şəhadətnamə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin məqsədləri üçün vergi ödəyicisinin vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamə hesab edilir.

Vergi ödəyicisinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti) olduqda, vergi ödəyicisi həm özünün olduğu yer üzrə, həm də filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu ünvan üzrə vergi uçotuna alınır. Vergi ödəyicisinin olduğu yer üzrə uçota alınması Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir və bu barədə vergi ödəyicisinə müvafiq arayış verilir.

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxslərin sərbəst balansa, cari və ya digər hesablara malik olan filialları, struktur bölmələri, habelə qeyri-rezidentin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış filialları və daimi nümayəndəlikləri ayrıca uçota alınır və onlara VÖEN verilir.

Azərbaycan Respublikasının büdcə və qeyri-kommersiya təşkilatları olduğu yerdən kənarda yerləşən və onların funksiyalarının həyata keçirilməsi məqsədilə yaradılan bölmələri ayrıca uçota alına və onlara VÖEN verilə bilər.

Hüquqi şəxsin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin, yəni fərdi sahibkarın Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə vergi ödəməsi vəzifəsini şərtləndirən halların olub-olmamasından asılı olmayaraq onlar vergi orqanında vergi ödəyicisi kimi uçota alınır. Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri, habelə beynəlxalq təşkilatların nümayəndəlikləri də vergi orqanında uçota alına bilərlər. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini fiziki şəxs kimi həyata keçirmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən vəsiqə əsasında vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar.

Vergi orqanlarında uçota alınmaq üçün vergi ödəyiciləri tərəfindən (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) onların olduğu və ya yaşadığı yer üzrə vergi orqanına ərizə verilir. Vergi orqanına ərizə qeyri-kommersiya hüquqi şəxsin dövlət qeydiyyatına alındığı gündən, Azərbaycan Respublikasında filial və nümayəndəlik vasitəsi ilə sahibkarlıq fəaliyyəti həyata keçirildikdə isə filialın və ya nümayəndəliyin yaradılmasından sonra 30 gün müddətində verilməlidir.

Dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı birinci abzasda göstərilən şəxslərin dövlət qeydiyyatına alınması barəsində onlara qeydiyyat sənədləri ilə birlikdə həmin sənədlərin verilməsi tarixini əks etdirən arayış verməlidir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs ərizəni, sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanına verməlidir.

Ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan və ya tutulması mümkün olmayan gəlirləri olan və ya royaltidən gəliri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir əldə edən rezident fiziki şəxslər ərizəni gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq vergi orqanına verməlidirlər.

Vergi ödəyicisinin vergi uçotuna alınması yerinin müəyyən edilməsi ilə bağlı çətinliklər ortaya çıxdıqda, təqdim olunmuş məlumatlar əsasında yuxarı vergi orqanı tərəfindən qərar qəbul edilir.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilən iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr aşağıdakı qaydada mərkəzləşdirilmiş uçota alına bilər:

1. İri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrin mərkəzləşdirilmiş uçotu Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müəyyən etdiyi vergi orqanı tərəfindən aparılır;
2. İri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrə eyniləşdirmə nömrələrinin verilməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir;
3. Olduqları yer üzrə vergi uçotuna alınmış şəxslər sonradan iri vergi ödəyicilərinə və ya xüsusi vergi rejimli müəssisələrə aid edildikdə, əvvəlki eyniləşdirmə nömrələri ilə mərkəzləşdirilmiş uçota alınırlar;
4. Mərkəzləşdirilmiş uçota alınmış iri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrin filiallarının, nümayəndəliklərinin və ya digər təsərrüfat subyektlərinin (obyektlərinin) vergi uçotu Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir;
5. Olduqları yer üzrə vergi uçotuna alınmış hüquqi şəxslər xüsusi vergi rejimi üzrə fəaliyyətə başladığı gündən sonra 15 gün müddətində mərkəzləşdirilmiş uçota alınmaq üçün vergi ödəyicilərinin mərkəzləşdirilmiş uçotunu aparan müvafiq vergi orqanına müraciət etməyə borcludurlar;
6. Xüsusi vergi rejimində fəaliyyət göstərən müəssisələrin mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması, onların xüsusi vergi rejimində fəaliyyətə başlaması və ya həmin fəaliyyəti dayandırması barədə onların mərkəzləşdirilmiş uçotunu aparan müvafiq vergi orqanına ərizə ilə müraciət etdiyi gündən sonra 15 gün müddətində həyata keçirilməlidir;
7. İri vergi ödəyicilərinə aid edilən müəssisələrin olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması barədə Azərbaycan Respublikasının Vergilər

Nazirliyinin müəyyən etdiyi vergi orqanı tərəfindən hər il may ayının 15-dək qərar qəbul edilir;
8. İri vergi ödəyicilərinə aid edilən müəssisələrin mərkəzləşdirilmiş uçota alınması onların mərkəzləşdirilmiş uçota alınması barədə qərar qəbul edildiyi vergi ilindən sonrakı ilin yanvar ayında həyata keçirilir;
9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi hər il iyun ayının 15-dək olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınmış və ya mərkəzləşdirilmiş uçotdan çıxarılmış iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr barədə məlumatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrə əsasən xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında fəaliyyət göstərən və daimi nümayəndəlik yaratmayan bölmələrinin vergi orqanında uçota alınması aşağıdakı qaydada aparılır:
1. Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələr Azərbaycan Respublikasında fəaliyyətə başladıqdan 30 gün müddətində, idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxslər isə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin müddəalarına əsasən idarəetmə yerinə görə rezident sayıldıqları vaxtdan 30 gün müddətində olduqları yer üzrə vergi orqanına ərizə təqdim etməlidirlər;
2. Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələrin, habelə idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi uçotuna alınması üçün verilən ərizə xarici hüquqi şəxs və ya onun müvəkkil etdiyi şəxs tərəfindən imzalanmalıdır;

3. Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələrinin, habelə idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi orqanlarında uçota alınması üçün bu göstərilənlərdən başqa digər sənəd və məlumatlar tələb olunmur;
4. Xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələrinin uçota alınması barədə verilən ərizəyə aşağıdakılar əlavə edilməlidir:
4.1. xarici hüquqi şəxsin qeydiyyata alındığı dövlətdə qeydiyyat (inkorporasiya) sənədi və ticarət reyestrindən çıxarış;
4.2. xarici dövlətin rezidentinin səlahiyyətli orqanının Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölməsinin yaradılması haqqında qərarı;
4.3. təsis sənədləri;
4.4. rezidentliyi barədə vergi orqanları tərəfindən təsdiq edilmiş sənəd;
4.5. Azərbaycan Respublikasında hüquqi ünvanını təsdiq edən sənəd (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən və ya digər sənədlər);
4.6. bölmənin rəhbərinin (təmsilçisinin) şəxsiyyətini təsdiq edən sənədin surəti;
4.7. Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələr və gəlir mənbələri barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilən forma üzrə məlumat.
5. İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs tərəfindən uçota alınma barədə verdiyi ərizəyə aşağıdakılar əlavə edilməlidir:
5.1. qeydiyyata alındığı dövlətdə qeydiyyat (inkorporasıya) sənədi və ticarət reyestrindən çıxarış;
5.2. təsis sənədləri;

5.3. Azərbaycan Respublikasında hüquqi ünvanını təsdiq edən sənəd (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən və ya digər sənədlər);
5.4. hüquqi şəxsin rəhbərinin və ya təmsilçinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
5.5. Azərbaycan Respublikasında və digər ölkələrdə bilavasitə və ya dolayısı yolla nəzarətində olan qurumlar və gəlir mənbələri haqqında Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilən forma üzrə məlumat.
6. 4.1-4.4-cü, 5.1-ci və 5.2-ci bəndlərdə göstərilən sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələri) tərəfindən leqallaşdırılır;
7. 4-cü və 5-ci bəndlərdə göstərilən sənədlər Azərbaycan dilinə notariat qaydasında təsdiqlənən tərcümə ilə birgə ərizəyə əlavə edilir.
8. Xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında fəaliyyət göstərən daimi nümayəndəlik yaratmayan bölməsinin vergi uçotundan çıxarılması və VÖEN-nin ləğv edilməsi aşağıdakı hallarda həyata keçirilir:
8.1. xarici dövlətin rezidenti olan şəxs və ya daimi nümayəndəlik yaratmayan bölmə ləğv edildikdə;
8.2. daimi nümayəndəlik yaratmayan bölmənin fəaliyyəti daimi nümayəndəlik yaratdıqda.
9. İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi uçotundan çıxarılması və VÖEN-nin ləğv edilməsi aşağıdakı hallarda həyata keçirilir:
9.1. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin qeydiyyata alındığı dövlətdə ləğv edildikdə;
9.2. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin rezidentliyi dəyişildikdə.

Yerli vergilərin ödəyicilərinin uçotu bələdiyyələrin vergi xidməti orqanı tərəfindən aparılır.

§6.3. Vergi ödəyicilərinin uçota alınma, yenidən uçota alınma və uçotdan çıxarılma qaydaları.

Vergi orqanında uçota alınmaq üçün vergi ödəyicisi (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) tərəfindən ərizə verilir. Bu şəxslər uçota alınmaq üçün ərizə ilə birgə vergi orqanına müraciət etdikdə, müəyyən edilmiş qaydada təsdiq edilmiş onların dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin, nizamnaməsinin (və ya əsasnaməsinin), rəhbərin təyin olunmasını və hüquqi şəxsin ünvanını təsdiq edən sənədlərin, habelə rəhbərin şəxsiyyətini təsdiq edən sənədin bir nüsxədə surətlərini və olduğu yer (ünvanı) haqqında məlumatı vergi orqanına təqdim etməlidirlər. Belə şəxslərin yuxarı təşkilatlarına VÖEN verildikdən sonra onlar uçota alınırlar. Ərizə vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən doldurulur. Ərizədə göstərilənlərin düzgünlüyünə vergi ödəyicisi (onun rəhbəri) cavabdehdir. Vergi ödəyicisi olan fərdi sahibkar uçota alınması üçün ərizə ilə birgə onun şəxsiyyətini təsdiq edən sənədin sürətini təqdim edir. Vergi orqanları tərəfindən fiziki şəxslərin vergi uçotuna alınması elektron və ya kağız formatda aparılır. Onların uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Vergi ödəyiciləri olan fiziki şəxslər uçota alındıqda, onların şəxsi məlumatlarına, o cümlədən onların adı, doğulduğu tarix və yer, cinsi, yaşadığı ünvan, şəxsiyyətini təsdiq edən sənədin məlumatları, vətəndaşlığı

haqqında məlumat daxil edilir. Uçota alınmaq üçün ərizənin forması müvafiq vergi orqanı tərəfindən təsdiq olunur.

Vergi orqanı vergi ödəyicisinin uçota alınmasını vergi uçotuna alınması haqqında ərizə və digər sənədlər daxil olduğu gündən sonrakı 2 gün müddətində həyata keçirməli və həmin müddətdə də vergi ödəyicisinə müvafiq şəhadətnamə verməlidir. Şəhadətnamə vergi ödəyicisinin uçotda olmasını təsdiq edən əsas sənəd olmaqla, vergi ödəyicisinə bir dəfə verilir və onda saxlanılır. Şəhadətnamə itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciəti əsasında şəhadətnamənin yeni nüsxəsi verilir. Bu zaman verilən nüsxənin üzərində şəhadətnamənin yeni nüsxə olması barədə müvafiq qeyd aparılır. Vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin forması müvafiq vergi orqanı tərəfindən təsdiq edilir.

Vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə, vergi orqanına bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində ərizə verməlidir. Ərizə ilə müraciət edilən gündən sonra 15 gün müddətində həmin vergi orqanı vergi ödəyicisinin yenidən uçota alınmasını, yəni əvvəlki vergi orqanından uçotdan çıxarılması və yeni vergi orqanında uçota alınmasını həyata keçirməlidir. Vergi ödəyicisi vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 40 gün müddətində vergi orqanına məlumat verməlidir.

Hüquqi şəxsin ləğvi və ya yenidən təşkil edilməsi, hüquqi şəxs tərəfindən öz filialının və ya nümayəndəliyinin ləğv edilməsi, nümayəndəlik vasitəsi ilə fəaliyyətinin ləğvi, fərdi sahibkarın fəaliyyətinin ləğvi hallarında uçotdan çıxarılma yuxarıda göstərilən müddətlər nəzərə alın-

maqla vergi ödəyicisinin müraciətinə əsasən həyata keçirilir. İstənilən halda uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma ödənişsiz həyata keçirilir.

Hər bir vergi ödəyicisinə bütün vergilər üzrə, o cümlədən gömrük sərhədindən malların keçirilməsi ilə bağlı ödənişlər üzrə Azərbaycan Respublikasının bütün ərazisində vahid olan VÖEN verilir. Vergi orqanı vergi ödəyicisinə göndərilən bütün bildirişlərdə onun eyniləşdirmə nömrəsini göstərir. Vergi ödəyiciləri mühasibat, statistika hesabatlarında, vergi haqq-hesablarında, bəyannamələrdə, təsərrüfat müqavilələrində, hesab-fakturalarda, qaimələrdə, nəzarət-kassa aparatlarının çeklərində, məktublarda, habelə gömrük, bank və bütün digər ödəniş sənədlərində VÖEN-i mütləq göstərməlidirlər.

Vergi ödəyicilərinin hər hansı tədiyə, bank və gömrük sənədində VÖEN göstərilmədikdə, ödənişi aparan müvafiq bank idarələri, vergi və gömrük orqanları tərəfindən bu sənədlərin icra üçün qəbul edilməsinə yol verilmir.

Vergi ödəyicisi olan fiziki şəxsin uçotdan çıxarılması aşağıdakı hallarda mümkündür:

1. onun fəaliyyətinə xitam verildikdə;
2. məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda;
3. həmin şəxs vəfat etdikdə.

Vergi ödəyicisi uçotdan çıxarıldıqda, onun uçota alınmasını təsdiq edən şəhadətnamə vergi orqanına təhvil verilir və vergi orqanı şəhadətnamə-dublikatın etibarsız hesab olunması barədə bank idarələrinə məlumat verməlidir.

Uçot məlumatları əsasında vergi orqanı vergi ödəyicilərinin vahid dövlət reyestrini Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq aparır:

1. vergi ödəyiciləri vahid dövlət reyestrinə daxil edilərkən onların uçota alınması haqqında vergi orqanına təqdim etdikləri ərizədəki məlumatlardan istifadə olunur. Vahid dövlət reyestri kağız və ya elektron yazıları formasında aparılmalıdır.

2. vergi ödəyicilərinin vahid dövlət reyestrinin aparılması aşağıdakılardan ibarətdir:

2.1. xronoloji qaydada vergi ödəyicilərinin reyestr jurnalının aparılması;

2.2. ləğv edilmiş vergi ödəyicilərinin reyestr jurnalının aparılması;

2.3. uçota alınmış vergi ödəyicilərinin reyestr məlumatlarında dəyişikliklərlə bağlı dəqiqləşdirmələrin aparılması;

2.4. uçota alınmış vergi ödəyicilərinə müvafiq məlumatın verilməsi.

3. Vergi orqanı vergi ödəyicilərinin vahid dövlət reyestrinin məlumat bankının aparılmasını, onun bütövlüyünü və qorunmasını təmin edir, rəsmi sorğulara cavab olaraq vahid dövlət reyestrindən çıxarışı (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) təqdim edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmadıqda, vergi ödəyicisi haqqında məlumatlar onun uçota alınması anından vergi sirrini təşkil edir.

Vergi ödəyicisi kimi uçota alınmayan vergi agenti olan təşkilatlar bu paraqrafda nəzərdə tutulmuş qaydada olduqları yer üzrə vergi orqanlarında uçota alınırlar.

§6.4. Bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələri.

Dövlət qeydiyyatı vergi orqanları tərəfindən aparılan hüquqi şəxslər, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları dövlət qeydiyyatına alınması haqqında ərizə ilə birlikdə və ya qeydiyyata alındıqdan sonra istənilən vaxt, digər vergi ödəyiciləri isə uçota alınması haqqında şəhadətnaməni aldıqdan sonra bank idarəsində hesab açmaq üçün vergi orqanına ərizə verir. Vergi orqanı bu ərizə əsasında vergi ödəyicisinə 2 gündən gec olmayaraq şəhadətnamə-dublikat verir. Vergi ödəyicisinə verilən şəhadətnamə-dublikatların sayı məhdudlaşdırılmır və onların hər biri nömrələnir. Bank hesabının açılması məqsədi ilə şəhadətnamə-dublikat vergi ödəyicisinin büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olmadıqda, 2 gün müddətində verilir. Şəhadətnamə-dublikatın alınması üçün vergi ödəyicisi tərəfindən verilən ərizənin və şəhadətnamə-dublikatın forması müvafiq vergi orqanı tərəfindən təsdiq edilir.

Vergi orqanı şəhadətnamə-dublikatı vergi ödəyicisinə verdikdən sonra 1 gün müddətinə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna vergi orqanının müəyyən etdiyi formada məlumatı elektron və ya kağız daşıyıcılar vasitəsilə göndərir.

Banklar hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə, fərdi sahibkarlara yalnız onlar vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikatını təqdim etdikdən sonra bank hesabları açırlar (qeyri-rezident üçün sahib-

karlıq fəaliyyəti ilə bağlı olmayan hesabların açılması halları istisna olmaqla).

Şəhadətnamə-dublikat alındığı tarixdən 10 gün müddətində hesabın açılması üçün istifadə olunmadıqda qüvvədən düşmüş hesab edilir. Şəhadətnamə-dublikat iki hissədən ibarətdir. Onun bir hissəsi vergi ödəyicisinin hesab açdığı bankda qalır, bildiriş adlanan digər hissəsini isə bank idarəsi müvafiq qeydləri apardıqdan sonra onu vermiş vergi orqanına göndərir.

Vergi orqanı bank idarəsindən bildirişi aldıqdan sonra bildirişdə göstərilən məlumatları vergi uçotu məlumatlarına daxil edir və 1 gün müddətinə həmin məlumatları Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna elektron və ya kağız daşıyıcılar vasitəsilə göndərir.

Şəhadətnamə-dublikatla yalnız onda göstərilmiş bankda və ya onun filialında hesab açmaq olar. Şəhadətnamə-dublikatın bildiriş hissəsi bank idarəsi tərəfindən 10 gün müddətində qaytarılmadıqda, vergi orqanı bunun səbəblərini vergi ödəyicisi və müvafiq bank idarəsi ilə dəqiqləşdirməlidir. Şəhadətnamə-dublikat 10 gün ərzində istifadə olunmadıqda, vergi ödəyicisinə verilmiş şəhadətnamə-dublikat geri alınır və hesabın açılmaması barədə bankdan alınmış rəsmi məlumata əsasən onun etibarsız olması haqqında vergi ödəyicisinin uçot məlumatlarında müvafiq qeydlər edilir.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 10.

1. Vergi orqanları vergi nəzarətini hansı məqsədlə həyata keçirirlər?
A) vergi ödəyicilərini izləmək məqsədilə
B) vergi ödəyicilərinin uçotunu aparmaq məqsədilə
C) əlavə qazanc əldə etmək məqsədilə
D) vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədilə

2. Vergi nəzarəti nədir?
A) vergi ödəyicilərinə vahid nazarət sistemidir
B) vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nazarət sistemidir
C) vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına nazarət sistemidir
D) vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna nəzarət sistemidir

3. Vergi orqanları vergi nəzarətini hansı formalarda həyata keçirirlər?
A) uçot və hesabat məlumatlarını yoxlamamaq şərtilə vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirməklə
B) vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmadan Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər formalarda
C) uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında mübahisə yaratmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirməklə
D) vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara (ərazilərə) baxış keçirməklə və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər formalarda

4. Vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə vergi ödəyicisi olan hüquqi şəxslər harada uçota alınırlar?
A)vergi ödəyicisinin yerləşdiyi yer üzrə vergi orqanlarında
B) dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan üzrə vergi orqanlarında
C) vergi ödəyicisinin yaşadığı yer üzrə vergi orqanlarında
D) vergi ödəyicisinin arzu etdiyi yer üzrə vergi orqanlarında

5. Vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər harada uçota alınırlar?
A) Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə vergi orqanlarında
B) Azərbaycan mənbəyindən gəlirin alındığı yerdən 100 km məsafədə yerləşən vergi orqanlarında
C) vergi ödəyicisinin həqiqi yaşadığı yer üzrə vergi orqanlarında
D) vergi ödəyicisinin qeydiyyatda olduğu yer üzrə vergi orqanlarında

6. Fərdi sahibkarlar və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq bəyannamə verməli olan rezident fiziki şəxslər harada uçota alınırlar?
A) fərdi sahibkarın fəaliyyət göstərdiyi ərazi üzrə vergi orqanlarında
B) rezident fiziki şəxslərin istədiyi yerdə
C) vergi ödəyicisinin yaşadığı yer üzrə vergi orqanlarında
D) ən yaxın bələdiyyədə

7. Vergi ödəyicisinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti) olduqda vergi ödəyicisi necə uçota alınır?
A) vergi ödəyicisi yalnız özünün olduğu yer üzrə vergi orqanlarında
B) vergi ödəyicisi həm özünün olduğu yer üzrə, həm də filialının, nümayəndəliyinin olduğu yer üzrə bələdiyyələrdə

C) vergi ödəyicisi həm özünün olduğu yer üzrə maliyyə orqanlarında, həm də filialının, nümayəndəliyinin olduğu yer üzrə vergi orqanlarında
D) vergi ödəyicisi həm özünün olduğu yer üzrə, həm də filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu ünvan üzrə vergi uçotuna alınır

8. Azərbaycan Respublikasının büdcə və qeyri-kommersiya təşkilatlarının olduğu yerdən kənarda yerləşən və onların funksiyalarının həyata keçirilməsi məqsədilə yaradılan bölmələri necə uçota alınırlar?
A) ayrıca uçota alınır, lakin onlara VÖEN verilmir
B) ayrıca uçota alınır və onlara VÖEN verilir
C) onların uçota alınması qanunla qadağandır
D) Azərbaycanda belə təşkilatlar mövcud deyil

9. Qeyri-kommersiya hüquqi şəxsi vergi orqanlarında uçota alınmaq üçün nə vaxt ərizə verməlidir?
A) dövlət qeydiyyatına alındığı gündən
B) dövlət qeydiyyatına alındığı gündən 5 gün ərzində
C) dövlət qeydiyyatına alındığı gündən 15 gün ərzində
D) dövlət qeydiyyatına alındığı gündən 30 gün ərzində

10. Azərbaycan Respublikasında filial və nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-kommersiya hüquqi şəxsi vergi orqanlarında uçota alınmaq üçün nə vaxt ərizə verməlidir?
A) filialın və ya nümayəndəliyin yaradılmasından sonra 20 gün müddətində
B) filialın və ya nümayəndəliyin yaradılmasından sonra 10 gün müddətində
C) filialın və ya nümayəndəliyin yaradılmasından sonra 30 gün müddətində
D) filialın və ya nümayəndəliyin yaradılmasından sonra 5 gün müddətində

Test 11.

1. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs vergi orqanlarında uçota alınmaq üçün nə vaxt ərizə verməlidir?
A) sahibkarlıq fəaliyyətinə başladığı günədək
B) sahibkarlıq fəaliyyətinə başladığı gündən sonra 30 gün müddətində
C) sahibkarlıq fəaliyyətinə başladığı gün
D) sahibkarlıq fəaliyyətinə başladığı gündən sonra 1 il müddətində

2. Ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan və ya tutulması mümkün olmayan gəlirləri olan fiziki şəxslər vergi orqanlarında uçota alınmaq üçün nə vaxt ərizə verməlidir?
A) gəlir əldə etmək hüququ yarandığı günədək
B) gəlir əldə etmək hüququ yarandığı gündən sonra 10 gün müddətində
C) gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq
D) gəlir əldə etmək hüququ yarandığı aydan gec olmayaraq

3. Royaltidən gəliri olan fiziki şəxslər vergi orqanlarında uçota alınmaq üçün nə vaxt ərizə verməlidir?
A) gəlir əldə etmək hüququ yarandığı gündən sonra 90 gün müddətində
B) gəlir əldə etmək hüququ yarandığı gündən sonra 30 gün müddətində
C) gəlir əldə etmək hüququ yarandığı rübdən gec olmayaraq
D) gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq

4. Xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələrinin uçota alınması barədə verilən ərizəyə hansı sənədlər əlavə edilməlidir?
1. xarici hüquqi şəxsin qeydiyyata alındığı dövlətdə qeydiyyat sənədi və ticarət reyestrindən çıxarış

2. xarici dövlətin rezidentinin səlahiyyətli orqanının Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölməsinin yaradılması haqqında məktub
3. təsis sənədləri
4. qeyri-rezidentlik barədə vergi orqanları tərəfindən təsdiq edilmiş sənəd
5. Azərbaycan Respublikasında hüquqi ünvanı təsdiq edən sənəd
6. bölmənin rəhbərinin şəxsiyyətini təsdiq edən sənədin surəti
A) 1, 3, 4, 5 B) 2, 4, 5, 6 C) 1, 3, 5, 6 D) 1, 2, 5, 6

5. İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs tərəfindən uçota alınma barədə verdiyi ərizəyə hansı sənədlər əlavə edilməlidir?
1. qeydiyyata alındığı dövlətdə qeydiyyat sənədi və ticarət reyestrindən çıxarış
2. təsis sənədləri
3. Azərbaycan Respublikasında hüquqi ünvanı təsdiq edən sənəd
4. hüquqi şəxsin rəhbərinin ailə üzvlərinin şəxsiyyətlərini təsdiq edən sənədlərinin surəti
5. Azərbaycan Respublikasında və digər ölkələrdə bilavasitə və ya dolayısı yolla nəzarətində olan qurumlar və gəlir mənbələri haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən forma üzrə məlumat
6. nizamnamə kapitalı barədə məlumat
A) 1, 2, 3, 5 B) 2, 4, 5, 6 C) 1, 3, 5, 6 D) 2, 3, 5, 6

6. Vergi ödəyicisi vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən neçə gün müddətində vergi orqanına məlumat verməlidir?
A) 20 gün müddətində
B) 30 gün müddətində
C) 40 gün müddətində
D) 10 gün müddətində

7. Uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma prosesində ödəniş necə həyata keçirilir?
A) 100 manat məbləğində
B) 50 manat məbləğində
C) 10 manat məbləğində .
D) proses ödənişsiz həyata keçirilir

8. Vergi ödəyicisinin hansı sənədlərində VÖEN mütləq göstərilməlidir?
1. mühasibat, statistika hesabatlarında
2. texniki pasportlarda
3. təsərrüfat müqavilələrində
4. nəzarət-kassa aparatlarının üzərində
5. bank ödəniş sənədlərində
6. bəyannamələrdə
A) 1, 4, 5, 6 B) 1, 2, 3, 5 C) 2, 4, 5, 6 D) 1, 3, 5, 6

9. Vergi ödəyicilərinin hansı sənədlərində VÖEN göstərilmədikdə, ödənişi aparan müvafiq bank idarələri, vergi və gömrük orqanları tərəfindən bu sənədlərin icra üçün qəbul edilməsinə yol verilmir?
A) komunal ödəniş sənədlərində
B) tədiyə, bank və gömrük sənədlərində
C) qeydiyyat sənədlərində
D) belə bir tələb yoxdur

10. Vergi ödəyicisi olan fiziki şəxsin uçotdan çıxarılması hansı hallarda mümkündür?
1. vergi ödəyicisi olan fiziki şəxs xaricə getdikdə
2. vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə
3. vergi ödəyicisi olan fiziki şəxs ailə qurduqda
4. vergi ödəyicisi olan fiziki şəxs məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda
5. vergi ödəyicisi olan fiziki şəxs vəfat etdikdə
A) 1, 4, 5 B) 2, 3, 5 C) 2, 4, 5 D) 1, 3, 5

VII Fəsil. Vergi yoxlamaları.

§7.1. Vergi orqanları tərəfindən keçirilən yoxlamalar. Kameral vergi yoxlaması.

Vergi orqanları vergi ödəyicilərinin fəaliyyətini yoxlamaq məqsədilə vergi yoxlamaları həyata keçirirlər. Vergi yoxlamaları iki formada həyata keçirilir: kameral vergi yoxlaması və səyyar vergi yoxlaması. Vergi yoxlamaları keçirildikdə, düzgün qərar qəbul edilməsi üçün əhəmiyyətli olan bütün hallar, o cümlədən vergi ödəyicisi üçün əlverişli olan bütün hallar vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən aydınlaşdırmalıdır.

Səyyar vergi yoxlaması mənfəət, gəlir, əmlak, yol və torpaq vergiləri üzrə vergi ödəyicisinin son 3 təqvim ilindən çox olmayan fəaliyyətini, digər vergilər üzrə həmin yoxlamanın keçirildiyi il də daxil olmaqla vergi ödəyicisinin son 3 ildən çox olmayan fəaliyyətini əhatə edə bilər.

Vergi yoxlaması keçirildikdə, vergi orqanının vergi ödəyicisinin üçüncü şəxslərlə əlaqədar fəaliyyəti barədə vergi yoxlamasının predmetinə aid olan məlumat alması üçün sənədlərlə təsdiq edilmiş zərurət yarandığı halda, vergi orqanı əsaslandırılmış qərara uyğun olaraq həmin şəxslərdən yoxlanılan vergi ödəyicisinin fəaliyyətinə aid olan sənədləri ala bilər. Bu zaman tələb yönəldilən üçüncu şəxs və ya onun səlahiyyətli nümayəndəsi müvafiq sənədləri və ya məlumatları təsdiq edərək, tələbnaməni aldığı gündən 10 iş günü müddətində vergi orqanına təqdim etməyə borcludur.

Vergi ödəyicisi olan hüquqi şəxslərin ləğvi və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxsin sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciəti ilə bağlı və növbədənkənar keçirilən yoxlamalar istisna olmaqla, vergi orqanı tərəfindən yoxlanılmış vergi

dövrü üçün vergi ödəyicisinin ödədiyi və ya ödəməli olduğu vergilər üzrə səyyar vergi yoxlamalarının keçirilməsi qanunla qadağan edilir.

Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar vergi yoxlamasının keçirilməsini tələb edə bilərlər. Lakin, bu halda növbədənkənar vergi yoxlaması əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxslər tərəfindən keçirilə bilməz. Vergi ödəyicilərinin eyni zamanda, keçirilən vergi yoxlamaları üzrə məhkəməyə müraciət etmək hüququ da vardır.

Kameral vergi yoxlaması vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan digər sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında, yerlərə getmədən vergi orqanında keçirilən yoxlama formasıdır.

Kameral vergi yoxlaması sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilir. Lakin, təqdim olunmuş bəyannamə ilə, sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və ya izahat tələb edə bilər. Kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması, yəni vergi məbləğinin az və ya artıq göstərilməsi aşkar edildikdə, vergi ödəyicisinə 5 gün müddətində hesablamanın səbəbləri və vergi ödəyicisinin şikayət etmək hüququ göstərilən müvafiq vergi orqanının qərarı göndərilir.

Kameral yoxlama aparmaq üçün zəruri olan vergi bəyannaməsi, sənədlər və məlumatlar üzrlü əsas olmadan müəyyən olunmuş müddətdə təqdim edilmədikdə, vergi orqanının vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydalarına müvafiq olaraq vergiləri hesablamaq hüququ vardır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 15.1.13-cü maddəsinə (ARVM m-15.1.13. xronometraj metodu ilə aparılan sonuncu müşahidədən sonra istehsal həcminin və ya satış dövriyyəsinin dəyişməsi ilə əlaqədar xronometraj metodu ilə yeni müşahidənin aparılmasını vergi orqanlarından tələb etmək;) əsasən vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olan dövrədək, (vergi ödəyicisinin fəaliyyətini dayandırdığı, xronometrajın keçirildiyi dövrü əhatə edən səyyar vergi yoxlamasının keçirildiyi hallar istisna olmaqla) xronometraj metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər.

Kameral vergi yoxlaması zamanı vergi orqanı müəyyən edilmiş qaydalara riayət etmədikdə, vergi ödəyicisinin səyyar vergi yoxlaması keçirilən zaman vergi orqanının təklifi əsasında həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi səhvləri (vergi məbləğlərinin düzgün hesablanmaması, vergi məbləğlərinin azaldılması və s..) 30 gün müddətində düzəltmək hüququ vardır və o, həmin müddət bitənədək, yol verdiyi və kameral yoxlama zamanı müəyyən edilə bilən vergi qanunvericiliyinin pozulmasına görə (faizlərin ödənilməsi istisna olmaqla) məsuliyyət daşımır.

§7.2. Səyyar vergi yoxlaması.

Vergi orqanının qərarına əsasən ildə bir dəfə vergi ödəyicilərində səyyar vergi yoxlaması həyata keçirilir. Səyyar vergi yoxlaması növbəti və müstəsna hallarda növbədənkənar ola bilər. Növbəti səyyar vergi yoxlaması keçirildikdə, vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından ən azı 15 gün əvvəl yazılı bildiriş göndərilir. Bil-

dirişdə mütləq vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin və vergi orqanlarının hüquq və vəzifələri göstərilməlidir. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və 30 günədək davam edir. Müstəsna hallarda yuxarı vergi orqanının qərarına müvafiq olaraq səyyar vergi yoxlamasının keçirilməsi müddəti 90 günə qədər artırıla bilər. Səyyar vergi yoxlaması iş günü və vergi ödəyicisinin iş vaxtı ərzində keçirilir.

Səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən nümunə kimi götürülən əşyaların tədqiqi, səyyar vergi yoxlaması zamanı ekspertizanın keçirilməsi və ya mütəxəssis tərəfindən rəy verilmə üçün müxtəlif bilik sahələrindən istifadə etməklə aparıldıqda; səyyar vergi yoxlaması ilə əlaqədar vergi orqanları tərəfindən göndərilən sorğulara cavabların alınma müddətləri cavab göndərən şəxslər tərəfindən pozulduqda yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 gündən çox olmayan müddətə uzadıla bilər.

Vergi orqanları tərəfindən aşağıda göstərilən hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilər:

1. verginin hesablanması və ödənilməsi üçün zəruri olan vergi hesabatı sənədləri müəyyən edilmiş müddətdə və bu barədə vergi orqanının xəbərdarlığından sonra da təqdim edilmədikdə;
2. vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və təhrif olunmuş məlumatlar aşkar edildikdə;
3. ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə. Bu halda növbədənkənar

vergi yoxlaması yalnız vergi ödəyicisinin ƏDV-yə cəlb edilən əməliyyatları üzrə aparıla bilər;
4. artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə vergi ödəyicisinin ərizəsi daxil olduqda;
5. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə;
6. cinayət prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda;
7. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 42.4-cü maddəsində (ARVM m-42.4. Vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlər və ya onların lazımi qaydada təsdiq edilmiş surətləri vergi orqanının müraciətinə əsasən vergi ödəyicisi tərəfindən 20 gün müddətində təqdim edilməlidir.) göstərilən sənədlər həmin maddədə göstərilən müddətdə təqdim edilmədikdə və ya dürüst olmayan, yaxud təhrif olunmuş məlumatlar təqdim edildikdə;
8. vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciəti olduqda.

Yoxlama barədə qərar qəbul etmiş vergi orqanının əsaslandırılmış qərarına əsasən növbəti və ya növbədənkənar səyyar vergi yoxlaması aşağıda göstərilən hallarda və müddətlərdə, lakin 9 aydan çox olmamaqla dayandırılır və ya təxirə salınır:
1. vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması zamanı şəxs vergi orqanında qeydiyyatda olan ünvanlarda

olmadıqda və ya şəxsin olduğu yerin müəyyən edilməsi və digər səbəblərdən tapılması mümkün olmadıqda - həmin şəxsin olduğu yer müəyyən olunana qədər;
2. səyyar vergi yoxlaması aparılan vergi ödəyicisinin rəhbəri və ya fərdi sahibkar müvəqqəti olaraq əmək qabiliyyətini itirdikdə - əmək qabiliyyəti bərpa olunanadək;
3. vergi orqanının təşəbbüsü ilə mütəxəssis dəvət edildikdə və ya ekspertiza keçirildikdə - mütəxəssisin və ya ekspertin rəyi yoxlamaya təqdim edilənədək;
4. səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən vergi orqanının sorğusuna cavab xarici ölkədən alındıqda - xarici ölkədən cavab alınanadək;
5. Vergi ödəyicisi sənədləri və əşyaları vermədiyi halda, həmin sənədlərin və nümunə kimi əşyaların götürülməsi məhkəmənin qərarı ilə həyata keçirilməli olduqda – məhkəmənin qərarı qanuni qüvvəyə minənədək.

İnventarizasiya səyyar vergi yoxlaması zamanı aşağıda göstərilən hallarda vergi orqanının əsaslandırılmış qərarı ilə aparılır:
1. vergi ödəyicisində vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən bilərəkdən hesabat sənədlərinin aparılmaması aşkar edildikdə;
2. vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq hesabat sənədlərinin aparılmaması aşkar edildikdə və bununla əlaqədar vergi orqanının xəbərdarlığından sonra yol verilmiş dəqiqsizliklər aradan qaldırılmadıqda və hesabat müəyyən edilmiş qaydalara uyğun olaraq aparılmadıqda;
3. vergi ödəyicisində səyyar vergi yoxlaması zamanı aksiz markaları ilə markalanmalı olan, ancaq markalanmamış mallar aşkar edildikdə;

4. vergi ödəyicisində əmlak vergisinin hesablanmasının və ödənilməsinin düzgünlüyü yoxlanıldıqda.

Səyyar vergi yoxlaması zamanı inventarizasiyanın aparılması qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi. Səyyar vergi yoxlamasının nəticələri üzrə vergi orqanlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada vergi yoxlaması aktı tərtib edilir və həmin şəxslər və yoxlanılan vergi ödəyicisinin rəhbəri (onu əvəz edən şəxs) və ya fərdi sahibkar tərəfindən imzalanır. Vergi ödəyicisi yoxlama aktında öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər. Bu barədə həmin aktda müvafiq qeyd aparılır.

Vergi yoxlaması aktında yoxlama zamanı aşkar olunmuş və sənədlərlə təsdiq edilmiş vergi qanunvericiliyinin pozulması halları və həmin pozuntulara görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının Vergi Məcəlləsinin və digər qanunların konkret maddələri, yaxud vergi qanunvericiliyinin pozulması hallarının olmaması göstərilməlidir.

Vergi yoxlaması aktının forması və onun tərtib edilməsinə dair tələblər Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilir. Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə (onun səlahiyyətli nümayəndəsinə) verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq verilir və ya göndərilir. Vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər. Bu halda vergi ödəyicisi yoxlama aktını imzalamamasını və ya etirazını ona

öz yazılı izahatını (etirazını) təsdiq edən sənədlərin surətini əlavə edərək vergi orqanına təqdim etməyə hüququ vardır. 30 gün bitdikdən sonra 15 gündən çox olmayan müddətdə vergi orqanının rəhbəri (onun müavini) vergi ödəyicisindən Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada götürülmüş, habelə vergi ödəyicisi tərəfindən təqdim edilmiş sənədlərə və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldırılması və müvafiq sanksiyaların (cərimələrin) tətbiq edilməsi məsələsinə baxır.

Vergi ödəyicisi tərəfindən vergi yoxlaması aktı üzrə yazılı izahatlar və ya etirazlar təqdim edildikdə, yoxlamanın materialları vergi ödəyicisinin vəzifəli şəxslərinin və ya fərdi sahibkarın və ya onların nümayəndələrinin iştirakı ilə baxılır. Vergi orqanı vergi yoxlamasının materiallarına baxılmanın yeri və vaxtı haqqında vergi ödəyicisinə əvvəlcədən məlumat verir. Vergi ödəyicisi ona əvvəlcədən məlumat verilməsinə baxmayaraq, üzrlü səbəb olmadan gəlməyibsə, yoxlamanın materiallarına, vergi ödəyicisi tərəfindən təqdim edilən etirazlara, izahatlara, digər sənəd və materiallara onun iştirakı olmadan baxılır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda vergi yoxlamasının keçirilməsi zamanı protokollar tərtib edilir. Protokollar Azərbaycan dilində tərtib edilir və orada aşağıdakılar göstərilir:

1. protokolun adı;
2. konkret hərəkətlərin həyata keçirilməsinin yeri və tarixi;
3. hərəkətin başlanması və bitirilməsinin vaxtı;
4. protokolu tərtib etmiş şəxsin vəzifəsi, adı;
5. hərəkətin həyata keçirilməsində iştirak edən və ya onun həyata keçirilməsini müşahidə edən şəxsin adı, lazım olduqda - onun ünvanı, vətəndaşlığı, Azərbaycan dilində danışa bilib-bilməməsi;

6. hərəkətin məzmunu, onun həyata keçirilməsinin ardıcıllığı;
7. hərəkətin həyata keçirilməsi zamanı aşkar olunan və iş üçün əhəmiyyətli olan faktlar və hallar;
8. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq əşyalar nümunə kimi götürüldükdə protokolda əşyaların miqdarı, həcmi və digər xüsusi əlamətləri göstərilməlidir.

Protokol hərəkətin həyata keçirilməsində iştirak edən bütün şəxslər tərəfindən oxunur. Həmin şəxslərin protokola daxil edilməli olan və ya işə tikilməli olan qeydlər etmək hüququ vardır. Protokol onu tərtib etmiş vergi orqanının vəzifəli şəxsi, habelə hərəkətin həyata keçirilməsində iştirak edən bütün şəxslər tərəfindən imzalanır.

§7.3. Vergi orqanlarının vəzifəli şəxslərinin ərazilərə, binalara daxil olması və baxışın keçirilməsi.

Səyyar vergi yoxlaması keçirən vergi orqanının vəzifəli şəxslərinin vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazisinə və ya binasına (yaşayış binaları (sahələri) istisna olmaqla) bilavasitə daxil olması həmin şəxslər tərəfindən öz xidməti vəsiqələrini və həmin vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarı və ya məhkəmənin qərarını təqdim etdikdən sonra həyata keçirilir.

Vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanlarının vəzifəli şəxslərinin yaşayış binalarına (sahələrinə) orada yaşayan fiziki şəxslərin iradəsindən kənar və ya onların iradəsinə zidd olaraq daxil olmasına yol verilmir.

Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxslərinə ərazilərə və ya binalara (yaşayış bina-

ları (sahələri) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir. Həmin akta əsasən vergi orqanının ödənilməli olan vergi məbləğlərini «Vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları»na uyğun olaraq müəyyən etmək hüququ vardır. Vergi ödəyicisi həmin aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda qeyd edilir və aktın surəti vergi ödəyicisinə verilir. Lakin, vergi ödəyicisi onu da bilməlidir ki, səyyar vergi yoxlamasını bilavasitə keçirən vergi orqanlarının vəzifəli şəxslərinin vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazisinə və ya binasına (yaşayış binaları istisna olmaqla) daxil olmasına qeyri-qanuni maneçilik vergi qanunvericiliyinin pozulması hesab olunur və qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Baxış. Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsinin yoxlamanın dolğun və obyektiv keçirilməsi üçün bütün halların ayırd edilməsi məqsədi ilə vergi yoxlaması keçirilən vergi ödəyicisinin ərazilərinin, binalarının, habelə sənədlərin və əşyaların həmin orqanın əsaslandırılmış qərarı əsasında baxışını keçirmək hüququ vardır.

Aşağıda göstərilən hallar istisna olmaqla, səyyar vergi yoxlaması keçirilmədən ərazilərin, binaların, sənədlərin və əşyaların baxışının keçirilməsinə yol verilmir:

1. sənədlər və əşyalar vergi orqanının vəzifəli şəxsi tərəfindən əvvəl həyata keçirilmiş səyyar vergi yoxlaması zamanı əldə edilmişdirsə; və ya
2. həmin sənədlərin və əşyaların sahibinin razılığı olduqda.

Baxış müşahidəçilərin iştirakı ilə həyata keçirilir. Baxış keçirildiyi zaman vergi yoxlaması həyata keçirilən şəxsin və ya onun nümayəndəsinin, habelə mütəxəssis-

lərin baxışda iştirak etmək hüququ vardır. Baxışın keçirilməsi barəsində protokol tərtib edilir.

§7.4. Sənədlərin tələb edilməsi, sənədlərin və nümunə kimi əşyaların götürülməsi.

Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsi vergi ödəyicisinə göndərdiyi bildirişlə birlikdə yoxlama üçün zəruri olan sənədləri, habelə elektron faylları vergi ödəyicisindən Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada tələb edə bilər. Sənədlərin və ya elektron faylların verilməsi barəsində tələb yönəldilən şəxs həmin sənədləri və ya elektron faylları 15 iş günü müddətində vergi orqanına təqdim etməlidir.

Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsinə tələb olunan sənədlər vergi ödəyicisi tərəfindən 15 gün müddətində təqdim edilmədikdə və ya həmin sənədlərin və ya elektron faylların onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə, yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir. Vergi ödəyicisi həmin aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda qeyd edilir və aktın surəti vergi ödəyicisinə verilir. Tələb olunan sənədləri və ya surətlərini səyyar vergi yoxlamasının keçirildiyi müddətdə digər mənbələrdən əldə etmək mümkün olmadıqda, həmin akta əsasən vergi orqanının ödənilməli olan vergi məbləğlərini «Vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları»na uyğun olaraq müəyyən etmək hüququ vardır.

Səyyar vergi yoxlaması üçün zəruri olan vergi orqanı tərəfindən tələb edilən sənədlərin və ya elektron faylların vergi ödəyicisi tərəfindən vergi orqanına verilmə-

sindən imtina edilməsi və ya 15 gün müddətində təqdim edilməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur. Sənədlərin təqdim edilməsindən imtina edildikdə, səyyar vergi yoxlamasını həyata keçirən vergi orqanının vəzifəli şəxsi sənədlərin və nümunə kimi əşyaların götürülməsi qaydasında sənədlərin götürülməsini həyata keçirə bilər.

Vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlər və ya onların lazımi qaydada təsdiq edilmiş surətləri vergi orqanının müraciətinə əsasən vergi ödəyicisi tərəfindən 20 gün müddətində təqdim edilməlidir.

Sənədlərin və nümunə kimi əşyaların götürülməsinə yalnız səyyar vergi yoxlaması keçirildikdə yol verilir. Səyyar vergi yoxlaması keçirildikdə yoxlamanın predmetinə aid olan və vergilərin hesablanması üçün tələb olunan vergi ödəyicisi tərəfindən təqdim olunan sənədlərin və əşyaların öyrənilməsinə əlavə vaxt tələb olunduğu halda, həmçinin təqdim olunmuş sənədlərdə vergi qanunvericiliyinin pozulması halları müəyyən edildikdə və ya bu pozuntular bilavasitə əşyalarla bağlı olduqda, səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsi «Sənədlərin tələb edilməsi» qaydalarına müvafiq olaraq ona təqdim edilmiş sənədləri və nümunə kimi əşyaları götürə bilər. Vergi ödəyicisi tərəfindən yoxlamanı bilavasitə həyata keçirən vəzifəli şəxsə verilən sənədlərin və nümunə kimi əşyaların götürülməsi vergi orqanının rəhbərinin (onun müavininin) əsaslandırılmış qərarı ilə həyata keçirilir.

Səyyar vergi yoxlaması zamanı nümunə kimi əşyalar aşağıdakı məqsədlər üçün götürülür:

1. gəlirdən çıxılan xərclərə aid edilən malların (işlərin, xidmətlərin) dəyərinin onların fiziki və keyfiyyət göstəriciləri,

növü, mənşəyi və digər göstəriciləri ilə uyğunluğunun yoxlanılması;
2. malların (işlərin, xidmətlərin) təqdim olunmasından əldə edilən və uçota alınan gəlirin həmin malların (işlərin, xidmətlərin) fiziki və keyfiyyət göstəriciləri, növü, mənşəyi və digər göstəricilərinə uyğunluğunun yoxlanılması;
3. malların (işlərin, xidmətlərin) bazar qiymətlərinin müəyyənləşdirilməsi;
4. vergi qanunvericiliyinin pozulmasının, o cümlədən aksiz markası ilə markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların saxlanılmasının, satışının və idxal olunmasının sübut edilməsi;
5. vergi qanunvericiliyinin pozulmasının sübut edilməsi məqsədi ilə əşyaların nümunə kimi götürülməsi zəruri olan digər hallarda.

Səyyar vergi yoxlaması keçirildiyi zaman əşyaların nümunə kimi götürülməsinə yuxarıda müəyyən edilmiş hallarda və məqsədlərlə yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsi həmin gün vergi orqanının rəhbərinə və ya onun müavininə yazılı məlumat verməlidir. Həmin məlumatda əşyaların nümunə kimi götürülməsi əsaslandırılmalıdır. Vergi orqanının səyyar vergi yoxlamasını həyata keçirən vəzifəli şəxsinin əşyaların nümunə kimi götürülməsini əsaslandıran məlumatı vergi orqanının rəhbəri (rəhbərin müavini) tərəfindən araşdırılır və yalnız bundan sonra həmin əşyaların nümunə kimi götürülməsi barədə qərar qəbul edilir.

Səyyar vergi yoxlaması zamanı əşyaların nümunə kimi götürülməsi haqqında qərarın forması Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsdiq edilir.

Vergi orqanının vəzifəli şəxsi tərəfindən səyyar vergi yoxlaması zamanı nümunə kimi götürülən əşyalar xüsusiyyətindən asılı olaraq qablaşdırılır, zəruri hallarda isə yoxlayıcı tərəfindən möhürlənir. Səyyar vergi yoxla-

ması keçirilərkən əşyaların nümunə kimi götürülməsinin miqdarı, həcmi və götürülmə ilə əlaqədar digər şərtlər Azərbaycan Respublikasının ərazisində qüvvədə olan standartlara və normativlərə əsasən müəyyən edilir. Nümunə kimi götürülmüş əşyalar, həmin əşyaların tədqiq edilməsi üçün zəruri olan vaxtı nəzərə almaqla 30 gündən artıq olmayan müddətə götürülə bilər.

Nümunə kimi götürülmüş əşyaların saxlanılması və onların qorunması, qanunvericiliyə uyğun olaraq yaradılmış və fəaliyyət göstərən təşkilatlarda tədqiq edilməsi vergi orqanının hesabına həyata keçirilir. Nümunə kimi götürülmüş əşyalar istehlak xassələrini itirmədiyi halda, həmin əşyalar vergi ödəyicisinə qaytarılır. Nümunə kimi götürülmüş əşyalar istehlak xassələrini itirdikdə isə onların dəyəri vergi orqanı tərəfindən ödənilir.

Sənədlərin vergi ödəyicisi tərəfindən təsdiq olunmuş surətləri götürülür. Sənədlərin və nümunə kimi əşyaların gecə vaxtı, yəni, axşam saat 20.00-dan səhər saat 8.00-a qədər götürülməsinə yol verilmir. Səyyar vergi yoxlaması zamanı vergilərin hesablanması üçün zəruri olmayan sənədlərin və nümunə kimi əşyaların götürülməsi qadağandır. Sənədlərin və nümunə kimi əşyaların götürülməsi sənədləri və əşyaları götürülən şəxslərin və onların nümayəndələrinin iştirakı ilə həyata keçirilir. Zəruri hallarda sənədlərin və nümunə kimi əşyaların götürülməsində iştirak etmək üçün mütəxəssis dəvət oluna bilər.

Vergi orqanının vəzifəli şəxsi sənədlərin və nümunə kimi əşyaların götürülməsinə qədər götürülmə barədə vergi orqanının rəhbərinin (onun müavininin) əsaslandırılmış qərarını təqdim edir və iştirak edən şəxslərə onların hüquq və vəzifələrini izah edir.

Sənədlərin və nümunə kimi əşyaların götürülməsi barədə «Vergi yoxlamasının həyata keçirilməsi üzrə hə-

rəkətlərin icraatı zamanı tərtib edilən protokola dair ümumi tələblər»ə riayət etməklə protokol tərtib edilir.

Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında protokolun surəti sənədləri və əşyaları götürülən şəxsə verilir. Bu barədə protokolda qeyd edilir, sənədləri və əşyaları götürülən şəxsin imzası ilə təsdiqlənir.

Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi sənədləri və nümunə kimi əşyaları vermədiyi halda, bu barədə vergi orqanı tərəfindən təsdiq edilmiş formada imtina aktı tərtib edilir və həmin akt vergi orqanının vəzifəli şəxsləri, yoxlamada iştirak edən digər şəxslər (müşahidəçilər, ekspertlər, mütəxəssislər), habelə vergi ödəyicisi və ya onun nümayəndəsi tərəfindən imzalanır.

Vergi ödəyicisinin sənədləri və əşyaları vermədiyi hallarda həmin sənədlərin və nümunə kimi əşyaların götürülməsi səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının əsaslandırılmış müraciətinə əsasən məhkəmənin qərarı ilə həyata keçirilir.

§7.5. Səyyar vergi yoxlamasına yardımçı subyektlərin cəlb edilməsi.

Zəruri hallarda səyyar vergi yoxlamasına ekspert cəlb edilə bilər. Ortaya çıxan məsələlərin izah olunması üçün xüsusi biliklər tələb olunduğu hallarda ekspertiza təyin edilir. Ekspert qarşısında qoyulan suallar və onun rəyi ekspertin xüsusi biliyindən kənara çıxa bilməz. Ekspert müqavilə əsasında cəlb edilir. Müqavilədə tərəflərin hüquqları və vəzifələri, ekspert qarşısında qoyulan suallar, səhv və ya bilərəkdən yalan rəy verməsinə görə ekspertin məsuliyyəti və mülki qanunvericiliklə müəyyən edilmiş digər məsələlər nəzərdə tutula bilər.

Ekspertiza səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının qərarı ilə təyin edilir. Qərarda ekspertizanın təyin edilməsi üçün əsaslar, ekspertin adı və ya ekspertiza keçirən təşkilatın adı, ekspert qarşısında qoyulan məsələlər və ekspertə təqdim olunan materiallar göstərilir. Ekspertin yoxlamanın predmetinə aid olan yoxlama materialları ilə tanış olmaq, ona əlavə materialların verilməsi barədə vəsatət qaldırmaq hüququ vardır. Ekspert, ona təqdim edilmiş materiallar kifayət qədər olmadıqda və ya ekspertizanın keçirilməsi üçün onun bilikləri kifayət qədər olmadıqda rəy verilməsindən imtina edə bilər.

Ekspertiza keçirilməsi haqqında qərar çıxarmış vergi orqanı həmin qərarla yoxlanılması keçirilən vergi ödəyicisini bu qərarla tanış etməyə və həmin şəxsin hüquqlarını ona izah etməyə borcludur.

Ekspertizanın təyin edilməsi və keçirilməsi zamanı yoxlanılan şəxsin aşağıda göstərilən hüquqları vardır:

1. ekspertə etiraz etmək;
2. ekspertin onun tərəfindən göstərilən şəxslərdən təyin edilməsi barədə müraciət etmək;
3. ekspertin rəyinin alınması üçün əlavə suallar təqdim etmək;
4. ekspertiza keçirildikdə vergi yoxlaması keçirən vergi orqanının vəzifəli şəxsinə əvvəlcədən məlumat verməklə bilavasitə və ya nümayəndəsinin vasitəsi ilə ekspertiza keçirilməsində iştirak etmək;
5. ekspertin rəyi ilə tanış olmaq.

Ekspert rəyi öz adından verir və imzalayır. Ekspertin rəyində onun tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr və qoyulan suallara əsaslandırılmış cavablar əks etdirilir. Ekspertin, ekspertiza aparıldıqda, barəsində onlara dair suallar qoyulmamış, iş üçün əhəmiyyətli olan halları müəyyən etdikdə, həmin hallar haqqında özünün rəyi-

nə nəticələr daxil etmək hüququ vardır. Ekspertin rəyinin surəti və ya onun rəy vermək imkanının olmaması barədə xəbər yoxlanılan şəxsə verilir. Həmin şəxsin izahat vermək, öz etirazlarını bəyan etmək, ekspertə əlavə sualların qoyulmasını, əlavə, yaxud təkrar ekspertizanın təyin edilməsini tələb etmək hüququ vardır. Əlavə ekspertiza ekspertin rəyi kifayət qədər aydın və dolğun olmadığı hallarda təyin edilir və bu ekspertiza həmin və ya başqa ekspertə həvalə edilir. Təkrar ekspertiza ekspertin rəyi əsaslı olmadığı və onun düzgün olmasında şübhələrin olduğu hallarda təyin edilir və başqa ekspertə həvalə edilir. Əlavə və təkrar ekspertiza Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada təyin edilir.

Yoxlanılan şəxsin Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş hüquqları ilə əlaqədar vəsatəti təmin edilmədikdə, vergi orqanının rəhbəri və ya onun müavini vəsatətin rədd edilməsi səbəbləri göstərilməklə əsaslandırılmış qərar çıxarır və qərarın surətini yoxlanılan şəxsə təqdim edir.

Səyyar vergi yoxlamasının keçirilməsi zamanı bilavasitə vergi orqanlarının fəaliyyət dairəsinə aid olmayan sahələr üzrə xüsusi bilik və təcrübə tələb olunduqda, vergi orqanlarının rəhbərinin və ya onun müavininin qərarına əsasən **mütəxəssis** dəvət oluna bilər. Mütəxəssisin xüsusi bilik və təcrübəsi olmalıdır və o, işin nəticələrində maraqlı olmamalıdır. Bu şərtlərə cavab verməyən mütəxəssisin rəyi vergi orqanları tərəfindən istifadə oluna bilməz.

Mütəxəssis müqavilə əsasında dəvət olunur. Müqavilədə tərəflərin hüquq və vəzifələri, mütəxəssis qarşısında qoyulan suallar, səhv və ya bilərəkdən yalan rəy verməsinə görə mütəxəssisin məsuliyyəti və mülki qanunvericiliklə müəyyən edilmiş digər məsələlər nəzərdə tutula bilər. Cəlb olunmuş mütəxəssis onun qarşısında

qoyulmuş suallar barəsində öz rəyini bildirməlidir. Mütəxəssisin rəyi yazılı şəkildə tərtib olunur, onun tərəfindən imzalanır və səyyar vergi yoxlamasının aktına əlavə edilir. Vergi ödəyicisi vergi yoxlamasının aktına əlavə olunmuş mütəxəssisin rəyi ilə razılaşmadıqda bu barədə yoxlama aktında müvafiq qeydlər edə bilər. Mütəxəssisin səhv və ya bilərəkdən yalan rəy verməsi nəticəsində vergi orqanlarına və ya vergi ödəyicisinə dəyən zərərin ödənilməsi mülki qanunvericiliyə müvafiq olaraq tələb oluna bilər.

Səyyar vergi yoxlamasının keçirilməsi zamanı zəruri hallarda **tərcüməçi** dəvət oluna bilər. Tərcüməçinin dəvət olunması vergi orqanının rəhbərinin və ya onun müavininin qərarı əsasında həyata keçirilir. Tərcüməçi tərcümə üçün lazım olan dili bilən, işin nəticələrində marağı olmayan şəxs olmalıdır.

Bu qaydalar, həmçinin eşitməyən və danışmayan fiziki şəxsin işarələrini başa düşən şəxsə də aiddir.

Tərcüməçi müqavilə əsasında dəvət olunur. Müqavilədə tərəflərin hüquq və vəzifələri, bilərəkdən yalan tərcüməyə görə tərcüməçinin məsuliyyəti və mülki qanunvericiliyə müvafiq olaraq digər məsələlər müəyyən edilə bilər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda səyyar vergi yoxlamasının keçirilməsi zamanı **müşahidəçilər** dəvət edilir. Müşahidəçilər iki nəfərdən az olmayaraq dəvət edilir. Müşahidəçilər qismində yoxlamanın nəticələrində maraqlı olmayan fiziki şəxslər dəvət edilə bilər. Müşahidəçi kimi vergi orqanlarının vəzifəli şəxslərinin iştirak etməsinə yol verilmir. Müşahidəçilər onların iştirakı ilə keçirilən hərəkətlərin faktını, məzmununu və nəticələrini protokolda təsdiq etməyə borcludur. Müşahidəçilərin həyata keçirilən hərəkətlərə dair öz qeydlərini protokola daxil etmək hüququ vardır. Zərurət olduqda müşahidəçilər həmin hərəkətlərə dair öz

izahatlarını da verə bilər. Eyni şəxs vergi orqanları tərəfindən vergi ili ərzində bir dəfədən artıq müşahidəçi kimi dəvət oluna bilməz.

§7.6. Səyyar vergi yoxlamasının nəticələri üzrə qərarın çıxarılması və qanunsuz zərərin vurulmasının yolverilməzliyi.

Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbərliyi 10 gün müddətində ya vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi, ya vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması, ya da əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında qərar çıxarır. Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında qərarda vergi yoxlaması ilə müəyyən olunan vergi qanunveryciliyinin pozulmasının şəraiti, həmin şəraiti təsdiq edən sənədlər və digər məlumatlar, vergi ödəyicisinin özünün müdafiəsi üçün gətirdiyi dəlillər və bu dəlillərin yoxlanılmasının nəticələri, vergi qanunvericiliyinin pozulmasına görə və tətbiq olunan məsuliyyət tədbirlərini nəzərdə tutan müvafiq qanunların maddələri göstərilməklə vergi ödəyicisinin vergi qanunvericiliyinin konkret hansı tələblərinin pozulmasına görə məsuliyyətə cəlb olunması ona izah olunur.

Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi barədə çıxarılmış qərar əsasında 10 gündən gec olmayaraq vergi ödəyicisinə vergi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin, habelə aşkar edilmiş pozuntuların aradan qaldırılması barədə tələbnamə göndərilir.

Vergi orqanının qərarının surəti və tələbnamə vergi ödəyicisinə və ya onun nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla təqdim edilir. Vergi ödəyicisi və ya onun nümayəndəsinin bilərəkdən hərəkətləri nəticəsində vergi orqanının qərarının surəti və ya tələbnaməsi ona təqdim oluna bilinmirsə, bu sənədlər sifarişli məktubla alınması günündən təqdim edilmiş hesab edilir. Vergi orqanının vəzifəli şəxsləri tərəfindən bu tələblərin gözlənilməməsi vergi orqanının qərarının yuxarı vergi orqanı və məhkəmə tərəfindən ləğv edilməsi üçün əsasdır.

Vergi orqanı tərəfindən aşkar edilmiş vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisi inzibati məsuliyyətə cəlb edilməli olduqda, vergi yoxlamasını keçirən vergi orqanının səlahiyyətli vəzifəli şəxsi inzibati hüquq pozuntusu haqqında ayrıca protokol tərtib edir. Bu hüquq pozuntuları haqqında işlərə baxılma və inzibati tənbeh tədbirlərinin həmin pozuntuların edilməsində günahkar olan vergi ödəyicisinin vəzifəli şəxslərinə və vergi ödəyicisi - fərdi sahibkara münasibətdə tətbiq edilməsi vergi orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq həyata keçirilir.

Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi haqqında qərarın çıxarılmasından sonra müvafiq vergi orqanı vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilən şəxsdən Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə sanksiyalarını Məcəllə ilə müəyyən edilən qaydada və ya məhkəmə qaydasında alır. Vergi orqanları tərəfindən maliyyə sanksiyalarının alınması barədə iddialarına Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə müvafiq olaraq baxılır. Məhkəmənin maliyyə sanksiyalarının alınması haqqında qanuni qüvvəyə minmiş qərarının icrası qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

Vergi yoxlaması keçirildikdə qanunsuz zərərin vurulmasının yolverilməzliyi. Vergi yoxlaması keçirildikdə, vergi ödəyicisinə və ya onun sahibliyində, istifadəsində və sərəncamında olan əmlaka qanunsuz olaraq zərər vurulmasına yol verilmir. Vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə vergi yoxlaması keçirildikdə, vurulan ziyan tam həcmdə, buraxılmış fayda (əldə edilməyən gəlir) da daxil olmaqla vergi ödəyicisinə ödənilməlidir. Vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyicisinə qanunsuz hərəkətləri nəticəsində vurduqları ziyana görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Vergi orqanlarının vəzifəli şəxslərinin qanuni hərəkətləri nəticəsində vergi ödəyicisinə vurulan ziyan qanunla müəyyən edilmiş hallar istisna olmaqla ödənilmir.

§7.7. Operativ vergi nəzarəti.

Operativ vergi nəzarəti sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması ilə bağlı olan anbar, ticarət və bu qəbildən olan digər binalarında (yaşayış binaları istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) həyata keçirilən və aşağıdakı məsələləri əhatə edən vergi nəzarəti formasıdır:

1. vergi orqanlarında uçota dayanmayan və ya «Fərqlənmə nişanı»nı almayan vergi ödəyicilərinin aşkar edilməsi;
2. aksiz markaları ilə markalanmalı olan malların, habelə dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və

dini məzmunlu başqa məlumat materiallarının markalanmadan və ya saxta aksiz markaları ilə markalanmaqla satılması, satış məqsədi ilə saxlanılması və ya istehsal binasının hüdudlarından kənara çıxarılması faktlarının aşkar edilməsi;

3. əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması;

4. valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktlarının aşkar edilməsi;

5. xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olan şəxslərin aşkar edilməsi;

6. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsini bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin və ya xidmətlərin yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi;

7. istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi.

Operativ vergi nəzarətinin həyata keçirilməsi üçün - vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması zamanı aşkar edilmiş faktlar; vergi orqanları tərəfindən mənbəyi bəlli mənbələrdən əldə edilən məlumatlar; vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə vergi orqanlarının tələblərini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirməməsi faktları əsas hesab olunur. Bunlarla bərabər vergi orqanlarının əlində, sahibkarlıq fəaliyyəti ilə məşğul

olan hüquqi və fiziki şəxslər tərəfindən vergi qanunvericiliyinin pozulması barədə kifayət qədər əsas olduqda da operativ vergi nəzarəti keçirilə bilər.

Operativ vergi nəzarəti vergi orqanının əsaslandırılmış qərarına əsasən həyata keçirilir ki, həmin qərarda vergi ödəyicilərinin yerləşdiyi ərazi, habelə operativ vergi nəzarəti ilə əhatə olunmalı olan məsələlər, operativ vergi nəzarətinin müddəti və operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsi və ya şəxsləri göstərilir. Operativ vergi nəzarəti vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanır və vergi ödəyicilərinin faktiki iş vaxtı həyata keçirilir. Operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsi nəzarətə başladıqdan sonra vergi orqanının qərarını vergi ödəyicisinə dərhal təqdim etməlidir.

Operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsləri tərəfindən öz səlahiyyətləri çərçivəsində vergi ödəyicilərinin ərazilərinə və ya binalarına (yaşayış binaları istisna olmaqla) daxil olması, ərazilərinə, binalarına, habelə sənədlərinə və əşyalarına baxış keçirilməsi, sənədlərin tələb edilməsi, sənədləri və nümunə kimi əşyaları götürməsi, ekspert cəlb edilməsi, mütəxəssis, tərcüməçi və müşahidəçi dəvət edilməsi və aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Operativ vergi nəzarətinin nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən akt tərtib edilir. Operativ vergi nəzarətinin nəticələrinin rəsmiləşdirilməsi və operativ vergi nəzarətinin materiallarına baxılması Azərbaycan Res-

publikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Azərbaycan Respublikasının ərazisində nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri belə hesablaşmaları nəzarət-kassa aparatları vasitəsilə həyata keçirirlər. Nəzarət-kassa aparatının çeklərində vergi ödəyicisinin adı; VÖEN-i; çekin vurulmasının tarixi və saatı; obyektin adı və yerləşdiyi ünvan; malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ; gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi; nəzarət-kassa aparatının markası və zavod nömrəsi; nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti) olmalıdır.

Xronometraj metodu ilə müşahidə operativ vergi nəzarəti növü olmaqla istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədi ilə vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) aşağıdakı hallarda aparılır:

1. vergi ödəyicisinin təqdim etdiyi vergi bəyannamələrində vergi tutulan dövriyyə əvvəlki hesabat dövriyyələri ilə müqayisədə 30 faizdən çox azaldıqda, yaxud dövriyyə məbləğlərinin vergi ödəyicisinin fəaliyyəti barədə iqtisadi göstəricilərinə, işçilərinin sayına, əmtəə-material ehtiyatlarının həcminə, satış qiymətlərinə və aktivlərinin dəyərinə uyğun olmaması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;

2. əhali ilə pul hesablaşmalarının aparılması qaydalarının təkrar pozulması faktları aşkar olunduqda;

3. vergi ödəyicisi tərəfindən yeni xronometraj metodu ilə müşahidə keçirilməsi haqqında vergi orqanına tələb irəli sürdükdə.

Yeni xronometraj metodu ilə müşahidə keçirilməsi haqqında tələbi vergi ödəyicişi istənilən vaxt, lakin sonuncu xronometraj metodu ilə müşahidədən ən azı 1 ay keçdikdən sonra, növbəti dəfə isə sonuncu müşahidədən ən azı 2 ay keçdikdən sonra təqdim edə bilər. Xronometraj metodu ilə muşahidə obyektin normal fəaliyyətinə maneçilik törətməməklə 15 iş günündən çox olmayan müddətdə aparılır. Müşahidəyə başlamazdan əvvəl xronometraj metodu ilə müşahidə aparılmalı olan obyektdə malın, işin və ya xidmətin qiymətini müəyyən etmək məqsədi ilə vergi orqanının nəzarət qaydasında mal, iş və ya xidmət alqısı həyata keçirmək hüququ vardır.

Xronometraj metodu ilə müşahidə keçirilən zaman müxtəlif vergi ödəyicilərinin tətbiq etdikləri qiymətlərin nəzarət qaydasında mal alqısı zamanı rəsmiləşdirilmiş qiymətlərdən 30 faizdən çox (aşağı və ya yuxarı) fərqlənməsi faktları aşkar edildikdə, istehsal həcmi və ya satış dövriyyəsi nəzarət qaydasında mal alqısı zamanı rəsmiləşdirilmiş qiymətlər nəzərə alınmaqla hesablanır.

Xronometraj metodu ilə müşahidə zamanı müəyyən edilmiş göstəricilər hər iş gününün sonunda müvafiq aktla rəsmiləşdirilir. Xronometraj metodu ilə müşahidənin son nəticəsi müşahidə ilə müəyyən edilmiş günlük göstəricilər əsasında orta günlük göstərici kimi ümumiləşdirilir və bu barədə müvafiq akt tərtib olunur.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 12.

1. Mənfəət, gəlir, əmlak, yol və torpaq vergiləri üzrə səyyar vergi yoxlaması vergi ödəyicisinin fəaliyyətinin hansı dövrünü əhatə edir?
A) vergi ödəyicisinin son 5 təqvim ilindən çox olmayan fəaliyyətini
B) vergi ödəyicisinin son 1 təqvim ilindən çox olmayan fəaliyyətini
C) vergi ödəyicisinin son 2 təqvim ilindən çox olmayan fəaliyyətini
D) vergi ödəyicisinin son 3 təqvim ilindən çox olmayan fəaliyyətini

2. Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri vergi oqanından nə tələb edə bilər?
A) kənar auditorun yoxlama keçirməsini
B) növbədənkənar vergi yoxlamasının keçirilməsini
C) qərarın geri oxunmasını
D) növbəti vergi yoxlamasının keçirilməsini

3. Vergi yoxlamalarının formaları hansılardır?
A) komunal və səyyar vergi yoxlaması
B) cari və səyyar vergi yoxlaması
C) kameral və növbədənkənar vergi yoxlaması
D) kameral və səyyar vergi yoxlaması

4. Vergi ödəyicilərinin keçirilən yoxlamalar üzrə hansı hüququ vardır?
A) Müdafiə Nazirliyinə müraciət etmək hüququ
B) məhkəməyə müraciət etmək hüququ
C) bələdiyyəyə müraciət etmək hüququ
D) polisə müraciət etmək hüququ

5. Kameral vergi yoxlaması hansı sənədlər əsasında keçirilir?
A) Kameral vergi yoxlaması vergi orqanı tərəfindən yerlərə getmədən internetdə olan, vergi ödəyicisi tərəfindən təqdim edilən

vergi hesabatları, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən sənədlər əsasında keçirilir
B) Kameral vergi yoxlaması vergi orqanı tərəfindən yerlərə gedərək vergi ödəyicisi tərəfindən təqdim edilən vergi hesabatları, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən sənədlər əsasında keçirilir
C) Kameral vergi yoxlaması vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan digər sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında, yerlərə getmədən vergi orqanında keçirilir
D) Kameral vergi yoxlaması vergi orqanı tərəfindən yerlərə getmədən vergi orqanında olan, vergi ödəyicisi tərəfindən təqdim edilən bəyannamələr, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında gömrük orqanında olan digər sənədlər əsasında keçirilir

6. Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən vergilərin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən neçə gün müddətində keçirilir?
A) 10 gün müddətində
B) 30 gün müddətində
C) 20 gün müddətində
D) 40 gün müddətində

7. Kameral yoxlama aparmaq üçün vergi ödəyicisi tərəfindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən hansı sənədləri tələb edə bilər?
A) əlavə hesabatlar və bəyannamələr
B) heç bir sənəd tələb edə bilməz
C) əlavə verginin ödənilməsini
D) əlavə məlumatlar, sənədlər və izahatlar

8. Kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması aşkar edildikdə.....
A) vergi ödəyicisinə 5 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergilərin hesablanmasına dair göndəriş göndərilir
B) vergi ödəyicisinə 10 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergilərin hesablanmasına dair bildiriş göndərilir
C) vergi ödəyicisinə 5 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergilərin hesablanmasına dair vergi orqanının qərarı göndərilir
D) vergi ödəyicisinə 5 gün müddətində gömrük orqanının müəyyən etdiyi formada vergilərin hesablanmasına dair bildiriş göndərilir

9. Kameral yoxlama zamanı aşkar edilən səhvləri düzəltmək üçün vergi ödəyicisinə nə qədər müddət verilir?
A) 30 gün
B) 20 gün
C) 10 gün
D) 5 gün

10. Hansı hallarda xronometraj metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər?
A) vergi ödəyicisindən müraciət daxil olan dövrədək
B) vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olandan sonra 10 gün müddətində
C) vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olan dövrədək (vergi ödəyicisinin fəaliyyətini dayandırdığı, xronometrajın keçirildiyi dövrü əhatə edən səyyar vergi yoxlamasının keçirildiyi hallar istisna olmaqla)
D) vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olduqda

Test 13.

1. Səyyar vergi yoxlaması neçə cür olur?
A) növbəti və növbəli
B) növbəti və növbədənkənar
C) birinci və ikinci
D) faktiki və sənədli

2. Növbəti səyyar vergi yoxlaması keçirildikdə, vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından neçə gün əvvəl yazılı bildiriş göndərilir?
A) vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl
B) vergi yoxlamasının başlanmasından azı 10 gün əvvəl
C) vergi yoxlamasının başlanmasından azı 1 gün əvvəl
D) vergi yoxlamasının başlanmasından azı 5 gün əvvəl

3. Növbəti səyyar vergi yoxlaması ilə bağlı vergi ödəyicisinə göndərilən bildirişdə nələr öz əksini tapmalıdır?
A) vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin hüquq və vəzifələri göstərilməlidir
B) vergi yoxlamasının vaxtı, habelə vergi orqanlarının hüquq və vəzifələri göstərilməlidir
C) vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin vergi yükü göstərilməlidir
D) vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin və vergi orqanlarının hüquq və vəzifələri göstərilməlidir

4. Növbəti səyyar vergi yoxlaması ildə neçə dəfə və hansı müddətdə keçirilə bilər?
A) ildə iki dəfədən çox olmayaraq 30 günədək
B) ildə bir dəfədən çox olmayaraq 30 günədək
C) ildə üç dəfədən çox olmayaraq 30 günədək
D) məhdudiyyət qoyulmur 30 günədək

5. Hansı hallarda növbəti səyyar vergi yoxlamasının keçirilməsi 90 günə qədər uzadıla bilər?
A) müstəsna hallarda vergi ödəyicisinin qərarına müvafiq olaraq

B) müstəsna hallarda Nazirlər Kabinetinin qərarına müvafiq olaraq
C) müstəsna hallarda yuxarı vergi orqanının qərarına müvafiq olaraq
D) vergi orqanının qərarına müvafiq olaraq istənilən vaxt

6. Hansı hallarda yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 günden çox olmayan müddətə uzadıla bilər?
1. səyyar vergi yoxlamasını keçirən vəzifəli şəxs qəflətən xəstələndikdə
2. səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən vergi orqanının sorğusuna cavab xarici ölkədən alındıqda
3. nümunə kimi götürülən əşyaların tədqiqi, səyyar vergi yoxlaması zamanı ekspertizanın keçirilməsi və ya mütəxəssis tərəfindən rəy verilmə üçün müxtəlif bilik sahələrindən istifadə etməklə aparıldıqda
4. səyyar vergi yoxlamasının keçirilmə vaxtı bayrama düşdükdə
5. səyyar vergi yoxlaması ilə əlaqədar vergi orqanları tərəfindən göndərilən sorğulara cavabların alınma müddətləri cavab göndərən şəxslər tərəfindən pozulduqda
A) 2, 4, 5 B) 2, 3, 5 C) 1, 4, 5 D) 1, 3, 5

7. Növbədənkənar səyyar vergi yoxlaması vergi orqanları tərəfindən hansı hallarda keçirilə bilər?
1. verginin hesablanması və ödənilməsi üçün zəruri olan vergi hesabatı sənədləri vergi orqanının xəbərdarlığından sonra təqdim edildikdə
2. artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə vergi ödəyicisinin ərizəsi daxil olduqda
3. vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və təhrif olunmuş məlumatlar aşkar edildikdə.
4. aksizlər üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər vergilərin, faizlərin və maliyyə sanksıyalarının ödənil-

məsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə
5. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə
A) 1, 2, 3 B) 1, 3, 4 C) 2, 3, 5 D) 1, 3, 5

8. Səyyar vergi yoxlaması hansı vaxtda həyata keçirilir?
A) vergi ödəyicisinin iş günü və iş vaxtı ərzində keçirilir
B) vergi ödəyicisinin istədiyi vaxtda keçirilir
C) vergi ödəyicisinin iş günü və nahar vaxtı ərzində keçirilir
D) vergi orqanının iş günü və iş vaxtı ərzində keçirilir

9. Səyyar vergi yoxlamasının nəticələrini rəsmiləşdirmək üçün kim tərəfindən hansı sənəd tərtib edilir?
A) vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada qərar layihəsi tərtib edilir
B) vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada akt tərtib edilir
C) vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada protokol tərtib edilir
D) vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada arayış tərtib edilir

10. Səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirildiyi akt kimlər tərəfindən imzalanır?
A) vergi ödəyicisinin rəhbəri, onu əvəz edən şəxs və ya fərdi sahibkar tərəfindən
B) vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən
C) vergi orqanlarının vəzifəli şəxsləri və yoxlanılan vergi ödəyicisinin rəhbəri, onu əvəz edən şəxs və ya istənilən şəxs tərəfindən
D) vergi orqanlarının vəzifəli şəxsləri və yoxlanılan vergi ödəyicisinin rəhbəri, onu əvəz edən şəxs və ya fərdi sahibkar tərəfindən

Test 14.

1. Vergi ödəyicisi səyyar vergi yoxlamasının aktı üzrə hansı hərəkətləri edə bilər?
A) vergi ödəyicisi səyyar vergi yoxlamasının aktında öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilməz
B) vergi ödəyicisi səyyar vergi yoxlamasının aktında öz fikirlərini yaza bilər, aktı vergi orqanlarının vəzifəli şəxslərinə verməkdən imtina edə bilər
C) vergi ödəyicisi səyyar vergi yoxlamasının aktında öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər
D) vergi ödəyicisi səyyar vergi yoxlamasının aktında öz qeydlərini edə bilməz, aktı imzalamaqdan imtina edə bilər

2. Vergi yoxlaması aktının vergi ödəyicisinə verilməsi nə vaxt və necə həyata keçirilir?
A) vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə və ya onun səlahiyyətli nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən 10 gündən gec olmayaraq verilir və ya göndərilir
B) vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə və ya onun səlahiyyətli nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən 5 gündən gec olmayaraq verilir və ya göndərilir
C) vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə və ya onun səlahiyyətli nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən 15 gündən gec olmayaraq verilir və ya göndərilir
D) vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə və ya onun səlahiyyətli nümayəndəsinə aktın tərtib edildiyi gün verilir

3. Vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda...
A) ...vergi yoxlaması aktının verilməsi günündən 5 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini

izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər
B) ...vergi yoxlaması aktının verilməsi günündən 10 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər
C) ...vergi yoxlaması aktının verilməsi günündən 15 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər
D) ...vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər

4. Hansı hallarda səyyar vergi yoxlamasının materiallarına vergi ödəyicisinin vəzifəli şəxslərinin və ya fərdi sahibkarın iştirakı ilə baxılır?
A) vergi ödəyicisi tərəfindən yoxlama aktı üzrə yazılı izahatlar və ya etirazlar təqdim edildikdə
B) vergi ödəyicisi tərəfindən yoxlama aktı üzrə məhkəməyə müraciət edildikdə
C) vergi ödəyicisi tərəfindən yoxlama aktı üzrə Vergilər Nazirliyinə müraciət edildikdə
D) istənilən halda vergi ödəyicisinin buna hüququ vardır

5. Səyyar vergi yoxlaması keçirən vergi orqanının vəzifəli şəxslərinin vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazisinə və ya binasına (yaşayış binaları istisna olmaqla) bilavasitə daxil olması necə həyata keçirilir?
A) həmin şəxslər tərəfindən öz şəxsiyyət vəsiqələrini və vergi orqanının rəhbərinin və ya onun müavininin həmin vergi ödəyi-

cisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarını və ya məhkəmənin qərarını təqdim etdikdən sonra
B) həmin şəxslər tərəfindən öz xidməti vəsiqələrini və vergi orqanının rəhbərinin və ya onun müavininin həmin vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında sərəncamını və ya məhkəmənin qərarını təqdim etdikdən sonra
C) həmin şəxslər tərəfindən öz xidməti vəsiqələrini və vergi orqanının rəhbərinin və ya onun müavininin həmin vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarını və ya məhkəmənin qərarını təqdim etdikdən sonra
D) həmin şəxslər tərəfindən öz şəxsiyyət vəsiqələrini və vergi orqanının rəhbərinin və ya onun müavininin həmin vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında sərəncamını və ya məhkəmənin qərarını təqdim etdikdən sonra

6. Səyyar vergi yoxlaması keçirən vergi orqanının vəzifəli şəxslərinə vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazisinə və ya binasına (yaşayış binaları istisna olmaqla) daxil olmağa icazə verilmədikdə hansı sənəd tərtib edilir?
A) yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir
B) yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan protokol tərtib edilir
C) yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan arayış tərtib edilir
D) yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan tələbnamə tərtib edilir

7. Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsi vergi ödəyicisinin ərazilərinin, binalarının, habelə sənədlərin və əşyaların baxışını hansı məqsədlə keçirir?
A) yoxlamanın sərfəli keçirilməsi üçün bütün halların ayırd edilməsi məqsədi ilə

B) yoxlamanın dolğun və obyektiv keçirilməsi üçün bütün halların ayırd edilməsi məqsədi ilə
C) yoxlamanın daha effektiv keçirilməsi məqsədi ilə
D) vergi ödəyicisinin maliyyə vəziyyətini öyrənmək məqsədi ilə

8. Səyyar vergi yoxlaması zamanı baxışın keçirilməsi barəsində hansı sənəd tərtib edilir?
A) yekun qərar tərtib edilir
B) akt tərtib edilir
C) arayış tərtib edilir
D) protokol tərtib edilir

9. Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsi yoxlama üçün zəruri olan sənədləri, habelə elektron faylları vergi ödəyicisindən müəyyən edilmiş qaydada tələb edərsə, sənədlərin, habelə elektron faylların verilməsi barəsində tələb yönəldilən şəxs həmin sənədləri, habelə elektron faylları neçə gün müddətində vergi orqanına təqdim etməlidir?
A) 30 gün müddətində
B) 15 gün müddətində
C) 20 gün müddətində
D) 5 gün müddətində

10. Səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsinə tələb olunan sənədlər və ya elektron fayllar 15 gün müddətində təqdim edilmədikdə və ya həmin sənədlərin onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə hansı sənəd tərtib edilir?
A) yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan arayış tərtib edilir
B) yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan protokol tərtib edilir
C) yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir
D) yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan müqavilə tərtib edilir

Test 15.

1. Vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlər və ya onların lazımi qaydada təsdiq edilmiş surətləri vergi orqanının müraciətinə əsasən vergi ödəyicisi tərəfindən neçə gün müddətində təqdim edilməlidir?
A) 25 gün
B) 30 gün
C) 20 gün
D) 10 gün

2. Sənədlərin və nümunə kimi əşyaların götürülməsinə hansı hallarda yol verilir?
A) səyyar vergi yoxlaması keçirildikdə
B) kameral vergi yoxlaması keçirildikdə
C) operativ vergi nəzarəti keçirildikdə
D) baxış və nəzarət həyata keçirildikdə

3. Vergi ödəyicisi tərəfindən yoxlamanı həyata keçirən vəzifəli şəxsə verilən sənədlərin və nümunə kimi əşyaların götürülməsi hansı qaydaya əsasən həyata keçirilir?
A) vergi orqanının rəhbərinin və ya onun muavininin şifahi göstərişi ilə
B) vergi orqanının rəhbərinin və ya onun muavininin əsaslandırılmış qərarı ilə
C) vergi orqanının rəhbərinin və ya onun muavininin əsaslandırılmamış qərarı ilə
D) maliyyə orqanının rəhbərinin və ya onun muavininin əsaslandırılmış qərarı ilə

4. Səyyar vergi yoxlaması zamanı nümunə kimi əşyalar hansı məqsədlər üçün götürülür?
1. gəlirdən çıxılan xərclərə aid edilən malların (işlərin, xidmətlərin) dəyərinin onların fiziki və keyfiyyət göstəriciləri, növü, mənşəyi və digər göstəriciləri ilə uyğunluğunun yoxlanılması;
2. malların mənşə ölkəsinin müəyyən edilməsi

3. malların (işlərin, xidmətlərin) təqdim olunmasından əldə edilən və uçota alınan gəlirin həmin malların (işlərin, xidmətlərin) fiziki və keyfiyyət göstəriciləri, növü, mənşəyi və digər göstəricilərinə uyğunluğunun yoxlanılması;
4. malların (işlərin, xidmətlərin) maya dəyərinin müəyyənləşdirilməsi;
5. vergi qanunvericiliyinin pozulmasının, o cümlədən aksiz markası ilə markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların saxlanılmasının, satışının və idxal olunmasının sübut edilməsi
6. vergi qanunvericiliyinin pozulmasının sübut edilməsi məqsədilə əşyaların nümunə kimi götürülməsi zəruri olmayan hallarda
A) 1, 3, 6 B) 1, 3, 4 C) 2, 3, 5 D) 1, 3, 5

5. Vergi orqanının vəzifəli şəxsi tərəfindən səyyar vergi yoxlaması zamanı nümunə kimi götürülən əşyalar xüsusiyyətindən asılı olaraq...
A) ...qablaşdırılır, zəruri hallarda isə vergi ödəyicisi tərəfindən möhürlənir
B) ...qablaşdırılır, zəruri hallarda isə müşahidəçi tərəfindən möhürlənir
C) ...qablaşdırılır, zəruri hallarda isə yoxlayıcı tərəfindən möhürlənir
D) ...qablaşdırılır, zəruri hallarda isə xidmətçi tərəfindən möhürlənir

6. Səyyar vergi yoxlaması keçirilərkən əşyaların nümunə kimi götürülməsinin miqdarı, həcmi və götürülmə ilə əlaqədar digər şərtlər nəyə əsasən müəyyən edilir?
A) Azərbaycan Respublikasının ərazisində qüvvədə olan standartlara və normativlərə əsasən
B) Vergilər Nazirliyinin qüvvədə olan standartlarına və normativlərinə əsasən
C) Azərbaycan Respublikasının ərazisində qüvvədə olmayan standartlara və normativlərə əsasən

D) Bakı şəhərinin ərazisində qüvvədə olan standartlara və normativlərə əsasən

7. Nümunə kimi götürülmüş əşyalar, həmin əşyaların tədqiq edilməsi üçün zəruri olan vaxtı nəzərə almaqla neçə gündən artıq olmayan müddətə götürülə bilər?
A) 5 gündən artıq olmayan müddətə
B) 10 gündən artıq olmayan müddətə
C) 20 gündən artıq olmayan müddətə
D) 30 gündən artıq olmayan müddətə

8. Nümunə kimi götürülmüş əşyaların saxlanılması və onların qorunması, qanunvericiliyə uyğun olaraq yaradılmış və fəaliyyət göstərən təşkilatlarda tədqiq edilməsi kimin hesabına həyata keçirilir?
A) vergi müfəttişinin hesabına
B) vergi ödəyicisinin hesabına
C) vergi orqanının hesabına
D) ədliyyə orqanının hesabına

9. Nümunə kimi götürülmüş əşyalar hansı hallarda vergi ödəyicisinə qaytarılmır?
A) nümunə kimi götürülmüş əşyalar istehlak xassələrini itirmədiyi halda
B) nümunə kimi götürülmüş əşyalar istehlak xassələrini itirdiyi halda
C) nümunə kimi götürülmüş əşyalar itirildiyi halda
D) nümunə kimi götürülmüş əşyalar istifadəyə yararsız olduğu halda

10. Nümunə kimi götürülmüş əşyalar istehlak xassələrini itirdikdə onların dəyəri kim tərəfindən ödənilir?
A) vergi müfəttişi tərəfindən ödənilir
B) vergi ödəyisisi tərəfindən ödənilir
C) dövlət büdcəsindən ödənilir
D) vergi orqanı tərəfindən ödənilir

Test 16.

1. Sənədlərin və nümunə kimi əşyaların götürülməsinə günün hansı vaxtında icazə verilmir?
A) axşam saat 21.00-dən səhər saat 8.00-dək
B) axşam saat 20.00-dən səhər saat 8.00-dək
C) axşam saat 20.00-dən səhər saat 7.00-dək
D) məhdudiyyət qoyulmur

2. Səyyar vergi yoxlaması zamanı hansı sənədlərin və nümunə kimi əşyaların götürülməsi qadağandır?
A) vergilərin hesablanması üçün zəruri olmayan sənədlərin və nümunə kimi əşyaların
B) vergilərin hesablanması üçün zəruri olan sənədlərin və nümunə kimi əşyaların
C) vergilərin tutulmasında ehtiyac olmayan sənədlərin və nümunə kimi əşyaların
D) vergi ödəyicisinin vermək istəmədiyi sənədlərin və nümunə kimi əşyaların

3. Sənədlərin və əşyaların nümunə kimi götürülməsi barədə hansı sənəd tərtib edilir?
A) əqd B) arayış C) protokol D) akt

4. Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi sənədləri və nümunə kimi əşyaları vermədiyi halda vergi orqanı tərəfindən hansı tədbirlər görülür?
A) bu barədə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş formada imtina aktı tərtib edilir və həmin akt vergi orqanının vəzifəli şəxsləri, yoxlamada iştirak edən digər şəxslər, habelə vergi ödəyicisi və ya onun nümayəndəsi tərəfindən imzalanır
B) bu barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada imtina aktı tərtib edilir və həmin akt vergi orqanının vəzifəli şəxsləri, yoxlamada iştirak edən digər şəxslər, habelə vergi ödəyicisi və ya onun nümayəndəsi tərəfindən imzalanır
C) bu barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada akt tərtib edilir
D) bu barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada imtina aktı tərtib edilir və həmin akt vergi orqa-

nının vəzifəli şəxsləri, yoxlamada iştirak edən digər şəxslər, habelə vergi ödəyicisinin ailə üzvləri tərəfindən imzalanır

5. Səyyar vergi yoxlaması zamanı ekspertiza nə vaxt təyin edilir?
A) səyyar vergi yoxlaması zamanı ortaya çıxan məsələlərin həlli üçün xüsusi səbəblər olunduğu hallarda
B) səyyar vergi yoxlaması zamanı ortaya çıxan məsələlərin həll olunması üçün xüsusi biliklər tələb olunduğu hallarda
C) səyyar vergi yoxlaması zamanı ortaya çıxan məsələlərin izah olunmaması üçün
D) səyyar vergi yoxlaması zamanı ortaya çıxan məsələlərin izah olunması üçün xüsusi biliklər tələb olunduğu hallarda

6. Səyyar vergi yoxlaması zamanı ekspertiza hansı orqanın qərarı ilə təyin edilir?
A) səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının qərarı ilə
B) səyyar vergi yoxlamasının təşkilində bilavasitə iştirak edən gömrük orqanının qərarı ilə
C) səyyar vergi yoxlamasının təşkilində bilavasitə iştirak edən maliyyə orqanının qərarı ilə
D) səyyar vergi yoxlamasını həyata keçirən vergi müfəttişinin qərarı ilə

7. Səyyar vergi yoxlaması zamanı dəvət edilən ekspertin hansı hüquqları vardır?
A) yoxlamanın predmetinə aid olmayan yoxlama materialları ilə tanış olmaq, ona əlavə materialların verilməsi barədə vəsatət qaldırmaq
B) yoxlamanın predmetinə aid olan yoxlama materialları ilə tanış olmaq, ona əlavə materialların verilməsi barədə vəsatət qaldırmaq
C) yoxlamanın predmetinə aid olan yoxlama materialları ilə tanış olmaq, ona əlavə materialların verilməsi barədə iqtisad məhkəməsi qarşısında vəsatət qaldırmaq
D) yoxlamanın predmetinə aid olan yoxlama materialları ilə tanış olmaq, ona əlavə və dəyişikliklər etmək

8. Səyyar vergi yoxlaması zamanı dəvət edilən ekspert hansı hallarda rəy verməkdən imtina edə bilər?
A) ekspertə təqdim edilmiş ödəniş kifayət qədər olmadıqda
B) ekspertə təqdim edilmiş materiallar kifayət qədər olmadıqda və ya ekspertizanın keçirilməsi üçün onun vaxtı kifayət qədər olmadıqda
C) ekspertə təqdim edilmiş materiallar kifayət qədər olmadıqda və ya ekspertizanın keçirilməsi üçün onun bilikləri kifayət qədər olmadıqda
D) ekspertlə vergi ödəyicisi arasında razılaşma baş tutmadıqda

9. Səyyar vergi yoxlaması keçirilərkən ekspertizanın təyin edilməsi və keçirilməsi zamanı yoxlanılan şəxsin hansı hüquqları vardır?
1. ekspertə etiraz etməmək
2. ekspertin onun tərəfindən göstərilən şəxslərdən təyin edilməsi barədə müraciət etmək
3. ekspertin rəyinin alınması üçün əlavə suallar təqdim etmək
4. ekspertiza keçirildikdə vergi yoxlaması keçirən vergi orqanının vəzifəli şəxsinə əvvəlcədən məlumat verməklə bilavasitə və ya nümayəndəsinin vasitəsi ilə ekspertiza keçirilməsində iştirak etmək
5. ekspertin rəyi ilə tanış olmamaq
A) 2, 3, 4 B) 2, 4, 5 C) 1, 2, 3 D) 1, 3, 5

10. Səyyar vergi yoxlaması zamanı ekspertiza keçirildikdə ekspertin rəyində hansı məlumatlar əks etdirilir?
A) ekspertin rəyində onun tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr qoyulan suallara əsaslandırılmamış cavablar əks etdirilir
B) ekspertin rəyində yoxlayıcı tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr, qoyulan suallara əsaslandırılmış cavablar əks etdirilir
C) ekspertin rəyində onun tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr, qoyulan suallara əsaslandırılmış cavablar əks etdirilir
D) ekspertin rəyində vergi agenti tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr, qoyulan suallara əsaslandırılmış cavablar əks etdirilir

Test 17.

1. Səyyar vergi yoxlaması zamanı əlavə ekspertiza hansı hallarda təyin edilir?
A) əlavə ekspertiza ekspertin rəyi kifayət qədər aydın və dolğun olduğu hallarda təyin edilir
B) əlavə ekspertiza ekspertin rəyi kifayət qədər səliqəli olmadığı hallarda təyin edilir
C) əlavə ekspertiza vergi ödəyicisinin narazı olduğu hallarda təyin edilir
D) əlavə ekspertiza ekspertin rəyi kifayət qədər aydın və dolğun olmadığı hallarda təyin edilir

2. Səyyar vergi yoxlaması zamanı təkrar ekspertiza hansı hallarda təyin edilir?
A) təkrar ekspertiza ekspertin rəyi əsaslı olduğu və lakin onun düzgün olmasına şübhələrin olduğu hallarda təyin edilir
B) təkrar ekspertiza ekspertin rəyi əsaslı olmadığı və onun düzgün olmasına şübhələrin olduğu hallarda təyin edilir
C) təkrar ekspertiza vergi ödəyicisinin narazı olduğu hallarda təyin edilir
D) təkrar ekspertiza təyin edilmir

3. Səyyar vergi yoxlamasının keçirilməsi zamanı hansı hallarda mütəxəssis dəvət oluna bilər?
A) səyyar vergi yoxlamasının keçirilməsi zamanı bilavasitə vergi orqanlarının əməkdaşlarına aydın olmayan sahələr üzrə xüsusi bilik və təcrübə tələb olunduqda
B) səyyar vergi yoxlamasının keçirilməsi zamanı bilavasitə vergi orqanlarının fəaliyyət dairəsinə aid olan sahələr üzrə xüsusi bilik və təcrübə tələb olunduqda
C) səyyar vergi yoxlamasının keçirilməsi zamanı bilavasitə vergi orqanlarının fəaliyyət dairəsinə aid olmayan sahələr üzrə xüsusi bilik və təcrübə tələb olunduqda
D) səyyar vergi yoxlamasının keçirilməsi zamanı vergi ödəyicisinin tələbi olduqda

4. Səyyar vergi yoxlaması zamanı dəvət olunan mütəxəssisin rəyi necə tərtib olunur və ondan necə istifadə olunur?
A) mütəxəssisin rəyi yazılı şəkildə tərtib olunur, vergi ödəyicisi tərəfindən imzalanır və səyyar vergi yoxlamasının aktına əlavə edilir
B) mütəxəssisin rəyi yazılı şəkildə tərtib olunur, onun tərəfindən imzalanır və səyyar vergi yoxlamasının aktına əlavə edilir
C) mütəxəssisin rəyi yazılı şəkildə tərtib olunur, onun tərəfindən imzalanır və səyyar vergi yoxlamasının protokoluna əlavə edilir
D) mütəxəssisin rəyi yazılı şəkildə tərtib olunur və vergi yoxlamasının arayışına əlavə edilir

5. Səyyar vergi yoxlaması zamanı dəvət edilən müşahidəçi ən azı neçə nəfər olmalıdır?
A) ən azı 3 nəfər
B) ən azı 4 nəfər
C) ən azı 2 nəfər
D) ən azı 10 nəfər

6. Səyyar vergi yoxlaması zamanı müşahidəçi qismində kimlər dəvət edilə bilər?
A) səyyar vergi yoxlaması zamanı müşahidəçi qismində yoxlamanın nəticələrində maraqlı olmayan fiziki şəxslər dəvət edilə bilər
B) səyyar vergi yoxlaması zamanı müşahidəçi qismində vergi orqanlarının vəzifəli şəxsləri dəvət edilə bilər
C) səyyar vergi yoxlaması zamanı müşahidəçi qismində yoxlamanın nəticələrində maraqlı olan fiziki şəxslər dəvət edilə bilər
D) səyyar vergi yoxlaması zamanı müşahidəçi qismində istənilən vəzifəli şəxs dəvət edilə bilər

7. Səyyar vergi yoxlaması zamanı dəvət edilən müşahidəçilər nəyi protokolda təsdiq etməyə borcludurlar?
A) səyyar vergi yoxlaması zamanı dəvət edilən müşahidəçilər eşitdikləri bütün fikirləri protokolda qeyd etməyə borcludurlar

B) səyyar vergi yoxlaması zamanı dəvət edilən müşahidəçilər gördükləri bütün hərəkətlərin faktını protokolda təsdiq etməyə borcludurlar
C) səyyar vergi yoxlaması zamanı dəvət edilən müşahidəçilər onların iştirakı ilə keçirilən hərəkətlərin faktını, məzmununu və nəticələrini protokolda təsdiq etməyə borcludurlar
D) səyyar vergi yoxlaması zamanı dəvət edilən müşahidəçilər heç bir faktı protokolda təsdiq etməyə borclu deyillər

8. Vergi yoxlamasının həyata keçirilməsi üzrə hərəkətlərin icraatı zamanı tərtib edilər protokolda hansı məlumatlar göstərilmir?
A) hərəkətin başlanması və bitirilməsinin vaxtı
B) konkret hərəkətlərin həyata keçirilməsinin yeri və vaxtı
C) hərəkətin həyata keçirilməsi zamanı aşkar olunan və iş üçün əhəmiyyətli olan faktlar və hallar
D) protokolu tərtib etmiş şəxsin təvəllüdü

9. Vergi yoxlamasının həyata keçirilməsi üzrə hərəkətlərin icraatı zamanı tərtib edilən protokol kimlər tərəfindən imzalanır?
A) vergi orqanı tərəfindən dəvət edilmiş mütəxəssislər tərəfindən
B) vergi orqanının vəzifəli şəxsi və vergi ödəyicisi tərəfindən
C) vergi orqanının vəzifəli şəxsi tərəfindən
D) vergi orqanının vəzifəli şəxsi və hərəkətin həyata keçirilməsində iştirak edən bütün şəxslər tərəfindən

10. Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbəri 10 gün müddətində hansı qərarı çıxara bilməz?
A) vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi
B) vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina edilməsi
C) vergi ödəyicisinin əmlakının müsadirə edilməsi
D) əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi

Test 18.

1. Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi barədə çıxarılmış qərar əsasında 10 gündən gec olmayaraq vergi ödəyicisinə nə barədə tələbnamə göndərilir?
A) vergi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin, habelə aşkar edilmiş pozuntuların aradan qaldırılmaması barədə
B) vergi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin, habelə aşkar edilmiş pozuntuların aradan qaldırılması barədə
C) vergi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin, habelə aşkar edilmiş pozuntuların bağışlanması barədə
D) vergi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin güzəştli ödənilməsi barədə

2. Vergi orqanı tərəfindən aşkar edilmiş vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisi inzibati məsuliyyətə cəlb edilməli olduqda, vergi yoxlamasını keçirən vergi orqanının səlahiyyətli vəzifəli şəxsi inzibati hüquq pozuntusu haqqında hansı sənədi tərtib edir?
A) inzibati hüquq pozuntuşu haqqında arayış
B) inzibati hüquq pozuntusu haqqında ayrıca protokol
C) inzibati hüquq pozuntusu haqqında məlumat
D) inzibati hüquq pozuntusu haqqında akt

3. Operativ vergi nəzarəti nədir?
A) sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri binalarında həyata keçirilən vergi nəzarəti formasıdır
B) sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin gəlir götürmək üçün istifadə etdikləri binalarında, nəqliyyat vasitələrində həyata keçirilən Vergi Məcəlləsinə əsasən (maddə 50.1) aşkar edilən məsələləri əhatə edən vergi nəzarəti formasıdır

C) sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri binalarında, nəqliyyat vasitələrində həyata keçirilən Vergi Məcəlləsinə əsasən (madde 50.1) aşkar edilən məsələləri əhatə edən vergi nəzarəti formasıdır
D) sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri nəqliyyat vasitələrində həyata keçirilən Vergi Məcəlləsinə əsasən (madde 50.1) aşkar edilən məsələləri əhatə edən vergi nəzarəti formasıdır

4. Operativ vergi nəzarəti hansı məsələləri əhatə edən vergi nəzarəti formasıdır?
1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarında uçota durmayan vergi ödəyicilərinin cəzalandırılması
2. «Fərqlənmə nişanı»nı almayan vergi ödəyicilərinin aşkar edilməsi
3. aksiz markası ilə markalanmalı olan malların markalanmadan və ya saxta aksiz markaları ilə markalanmaqla satılması, satış məqsədi ilə saxlanılması və ya istehsal binasının hüdüdlarından kənara çıxarılması faktlarının aşkar edilməsi
4. əhali ilə pul hesablaşmalarının aparılması qaydalarında özbaşınalıqlara şərait yaradılması
5. valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması, və ya dəyişdirilməsi faktlarının aşkar edilməsi
6. xüsusi razılıq tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olan şəxslərin aşkar edilməsi
A) 1; 3; 4; 6
B) 2; 4; 5; 6
C) 2; 3; 5; 6
D) 1; 4; 5; 6

5. Operativ vergi nəzarətinin həyata kecirilməsi üçün aşağıdakılardan hansı əsas götürülə bilməz?

A) vergi orqanı tərəfindən kecirilən səyyar vergi yoxlaması zamanı aşkar edilmiş faktlar
B) vergi orqanları tərəfindən mənbəyi bəlli mənbələrdən əldə edilən məlumatlar
C) telefonla zəng vurularaq anonim şəxslər tərəfindən verilən məlumatlar
D) vergi ödəyiçisi tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə vergi orqanlarının tələblərinin, Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirilməməsi

6. Operativ vergi nəzarətinin həyata kecirilməsi ücün vergi orqanının əsaslandırılmış qərarında hansı məlumatlar göstərilməlidir?
A) vergi ödəyicilərinin yerləşdiyi ərazi, operativ vergi nəzarəti ilə əhatə olunmalı olan məsələlər, operativ vergi nəzarətinin müddəti və operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxslərinin yaşları
B) vergi ödəyicilərinin yerləşdiyi ərazi, operativ vergi nəzarəti ilə əhatə olunmalı olan məsələlər, operativ vergi nəzarətinin müddəti və operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxslərinin adları
C) vergi ödəyicilərinin yerləşdiyi ərazi, operativ vergi nəzarəti ilə əhatə olunmalı olan məsələlər, vergi ödəyicilərinin gəlirələri barədə məlumatlar
D) vergi ödəyicilərinin yaşadıqları ərazi, operativ vergi nəzarəti ilə əhatə olunmalı olan məsələlər, operativ vergi nəzarətinin müddəti və operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxslərinin adları

7. Operativ vergi nəzarəti başlanması və həyata keçirilməsi necə baş verir?
A) vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanır və vergi ödəyicisinin iş vaxtında həyata keçirilir

B) vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilməklə başlanılır və vergi ödəyicisinin iş vaxtında həyata keçirilir
C) vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanılır və 3 sutka ərzində həyata keçirilir
D) vergi ödəyicisinin icazəsi ilə başlanılır və vergi ödəyicisinin iş vaxtında həyata keçirilir

8. Azərbaycan Respublikasının ərazisində nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri belə hesablaşmaları necə həyata keçirirlər?
A) Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi qaydada nəzarət-kassa aparatları vasitəsilə
B) Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada nəzarət-kassa aparatları vasitəsilə
C) Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada nəzarət-kassa aparatları vasitəsilə
D) Azərbaycan Respublikası Gömrük Komitəsinin müəyyən etdiyi qaydada nəzarət-kassa aparatları vasitəsilə

9. Nəzarət-kassa aparatının çeklərində hansı məlumatlar olmamalıdır?
A) obyektin adı və yerləşdiyi ünvan
B) çek vurulmasının tarixi və saatı
C) vergi ödəyicisinin ev ünvanı
D) nəzarət-kassa aparatının markası və zavod nömrəsi

10. Nəzarət-kassa aparatının çeklərində hansı məlumatlar olmamalıdır?
A) vergi ödəyicisinin VÖEN-i
B) əraziyə nəzarət edən edən vergi orqanının işçisinin telefon nömrəsi
C) gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi
D) vergi ödəyicisinin adı

VIII Fəsil. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

§8.1. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir. Heç bir kəs vergi qanunvericiliyinin pozuntusu olan eyni hərəkətə və ya hərəkətsizliyə görə təkrarən məsuliyyətə cəlb oluna bilməz.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təqsiri təsdiq edilməyənədək hər bir vergi ödəyicisi vergi qanunvericiliyinin pozulmasında təqsirsiz hesab edilir və vergi ödəyicisi vergi qanunvericiliyinin pozulmasında özünün təqsirsiz olmasını sübut etməyə borclu deyildir. Vergi qanunvericiliyinin pozulması faktını təsdiq edən halların və vergi ödəyicisinin təqsirinin sübut edilməsi vergi orqanlarının üzərinə qoyulur.

Vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirinin olmasında aradan qaldırılmaz şübhələr olduqda, onlar vergi ödəyicisinin xeyrinə şərh olunur. Vergi

ödəyicisinin vergitutma obyektinin uçotunda, vergilərin hesablanmasında və ödənilməsində yol verdiyi səhvləri müstəqil düzəltmək hüququ vardır.

Vergi qanunvericiliyinin pozulması halları nəzərdən keçirildikdə, onun bilərəkdən və ya ehtiyatsızlıq nəticəsində törədilməsi, inzibati məsuliyyətin tətbiq edilməsi üçün təqsirkar şəxsin müəyyən yaşa çatması, yüngülləşdirici və ya ağırlaşdırıcı hallar və Azərbaycan Respublikasının Vergi Məcəlləsi və İnzibati Xətalar Məcəlləsinin müddəaları müəyyən edilməlidir. Vergi qanunvericiliyinin pozulması malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı olduqda, həmin işlərə Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

Vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin bir neçə pozuntusuna yol verildikdə, maliyyə sanksıyaları hər pozuntuya münasibətdə ayrıca tətbiq edilir. Vergi ödəyicisinin və ya vergi agentinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi, onları vergi öhdəliklərinin və vergi orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərinin yerinə yetirilməsindən azad etmir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə başqa qaydalar nəzərdə tutulmadığı hallarda, bu sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə vergi ödəyicisinin vəzifəli şəxsinin həmin hərəkətə görə inzibati məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq həyata keçirilir.

Şəxs aşağıda müəyyən olunmuş hallardan ən azı biri olduqda, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilə bilməz:

1. vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusu hadisəsinin olmaması;
2. vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunda şəxsin təqsirinin olmaması;
3. vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunu törədən fiziki şəxsin həmin əməl törədildiyi ana məsuliyyətə cəlb edilmə yaşına çatmaması;
4. vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlbetmə müddətinin qurtarması.

Vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar aşağıdakılardır:

1. vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunun təbii fəlakət, yaxud digər fövqəladə və qarşısıalınmaz hadisələr nəticəsində törədilməsi;
2. vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunun vergi ödəyicisi - fiziki şəxs tərəfindən xəstə halı ilə əlaqədar olaraq öz hərəkətlərinə nəzarət (özünə hesabat verməyi) və rəhbərlik etməyi bacarmadığı vəziyyətdə törədilməsi;
3. vergi ödəyicisi və ya vergi agenti tərəfindən vergi orqanının və ya digər səlahiyyətli dövlət orqanının, yaxud onların vəzifəli şəxslərinin öz səlahiyyətləri daxilində verdikləri yazılı göstərişlərinin və ya izahatlarının yerinə yetirilməsi;
4. vergi orqanlarının qərarlarına yenidən baxıldıqda vergi ödəyicisinin hərəkətləri üçün hüquqi əsaslar olmasının aşkar edilməsi;
5. hər hansı vergilər, o cümlədən vergi agentləri tərəfindən ödənilən vergilər üzrə artıq ödənilmiş məbləğlərin hesabına digər vergilər üzrə borcların nəzərə alınması;
6. vergilərin düzgün hesablanmaması və vergi öhdəliklərinin yerinə yetirilməməsi ilə bağlı vergi qanunvericiliyinin

pozulmasının vergi orqanının yoxlamasına qədərki dövrdə vergi ödəyicisinin özü tərəfindən aradan qaldırılması.

Yuxarıda qeyd edilən hallar olduqda, şəxs vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusuna görə, 6-cı bənddə göstərilən hallarda faizlərin ödənilməsi istisna olmaqla, məsuliyyət daşımır.

§8.2. Vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiqi.

Vergi qanunvericiliyinin pozulması anından 3 il keçmişdirsə, şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi qanunvericiliyinin pozulmasına görə aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

Hesabatın və digər məlumatın təqdim edilməsi ilə bağlı huquqpozmalara görə maliyyə sanksiyaları:

1. Vergi hesabatını və ya Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16.2-ci maddəsində (ARVM m-16.2. Vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir.) nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 89.3-cü maddəsində (ARVM m-89.3. Vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını 5 gün ərzində ödəmədikdə, vergi orqanı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada aktivləri barədə məlumatın 10 gün ərzində vergi orqanına təqdim edilməsini vergi ödəyicisindən tələb edə bılər.) nəzərdə tutulmuş məlumatı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

3. sənədlərin, o cümlədən elektron formatda məlumatların müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə, habelə sənədlərin və ya məlumatların üzürlü səbəb olmadan saxlanılmamasına görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyaları:

1. Vergının (o cümlədən ödəmə mənbəyində vergının) hesabatda göstərilən məbləği, verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 33.4-cü maddəsində göstərilən 30 gün müddətində vergi orqanında uçota alınmaq üçün və ya 34.3-cü maddəsində göstərilən 40 gün müddətində olduğu yer barədə ərizənin

verilməməsinə, həmçinin digər uçot məlumatlarında (vergi ödəyicisinin vergi uçotuna alınma haqqında ərizədə qeyd olunan rekvizitlər) dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə görə, habelə «Fərqlənmə nişanı» olmadan, avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 65-ci maddəsi (ARVM m-65. Vergilər üzrə borcların alınması qaydası.) ilə müəyyən edilmiş qaydada vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə sərəncamın verildiyi tarixdən kredit təşkilatlarında və ya bank əməliyyatları aparan şəxslərdə hesabları olmadığı halda bildirişdə göstərilən müddətin başa çatdığı tarixdən vergi ödəyicisi tərəfindən onun kassasından Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hesabdan pul vəsaitinin silinməsi növbəliliyi pozulmaqla nağd qaydada məxaric əməliyyatları aparıldıqda - aparılmış məxaric əməliyyatlarının 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 155-ci maddəsinə (ARVM m-155. Qeydiyyata dair ərizə verilməsinin tələb edilməsi.) müvafiq olaraq vergi ödəyicisi tərəfindən ƏDV üzrə qeydiyyat məcburi olduğu halda, qeydiyyat olmadan fəaliyyət göstərilməsinə görə vergi ödəyicisinə ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 157-ci və 158-ci maddələrinə (ARVM m-157. Qeydiyyat., m-158. Qeydiyyatın ləğv edilməsi.) müvafiq olaraq ƏDV məqsədləri üçün qeydiyyat qüvvəyə minmədən və ya ləğv edildiyi halda ƏDV üzrə elektron vergi hesab-fakturasının təqdim edilməsinə görə vergi ödəyicisinə təqdim edilmiş elektron vergi hesab-fakturasında göstərilmiş vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 175. 1.3-cü maddəsinə (ARVM m-175.1.3. vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə iki və ya daha çox ödəmə aparılarsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır. Vergi ödəyicisinə verilmiş elektron vergi-hesab fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec olmayaraq, ƏDV-nin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada ödənilməlidir. Bu zaman malların (iş və xidmətlərin) dəyəri üzrə iki və ya daha çox ödəmə aparılarsa, ƏDV-nin məbləği aparılmış ödəniş məbləğinə uyğun olaraq ƏDV-nin depozit hesabı vasitəsilə ödənilməlidir.) müvafiq olaraq, ƏDV ödəyiciləri, habelə ƏDV-nin məqsədləri üçün qeydiyyatda olmayan səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec ƏDV məbləğinin ödənilməsinə görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.
7. Nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi

hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə, qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə, əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə: təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə - 400 manat məbləğində; təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə - 800 manat məbləğində; təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə - 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

8. Xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə vergi ödəyicisinə: gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə - 5 faiz miqdarında; il ərzində belə hallara təkrar yol verildikdə,

gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə - 10 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən nəzərdə tutulmuş plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsinə, texnoloji avadanlıqlardakı plombların zədələnməsinə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalanmamasına, tam uçota alınmamasına, aksiz markalarının inventarizasiyasında kənarlaşmalara yol verilməsinə, eləcə də Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 191.2-ci maddəsinin (ARVM m-191.2. Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər, həmin əməliyyatların aparıldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxarmağa hüququ yoxdur.) tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılmasına görə vergi ödəyicisinə 5000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

10. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

11. Vergi orqanından şəhadətnamə-dublikat alınmadan sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında

açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) mədaxil edilmiş pul vəsaitinin 100 faiz miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir.

Ödənilmə vaxtı keçmiş və artıq ödənilmiş vergilər üzrə faizlər:

1. Vergi və ya cari vergi ödəməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur. Bu faiz vergi ödənişlərinə münasibətdə bütün ötmüş müddətə, ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir. Bu faiz səyyar vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergi məbləğlərinə həmin vergi məbləğlərinin vergi ödəyicisinə hesablandığı gündən tətbiq edilir.
2. Müəyyən edilmiş vergi məbləğindən artıq ödənilmiş məbləğ və ya düzgün tutulmayan vergi məbləği ödənildikdə, vergi ödəyicisinin ərizəsinin verildiyi tarixdən həmin məbləğlər geri qaytarılanadək gecikdirilən hər bir gün üçün (ödəmə günü də daxil olmaqla) vergi ödəyicisinə müvafiq məbləğlərin 0,1 faizi məbləğində faiz ödənilir. Vergi ödəyicisinin artıq ödənilmiş məbləğlərin qaytarılmasına dair ərizə verdiyi müddətdən 45 gün ərzində məbləğ qaytarılarsa, faizlər vergi ödəyicisinə qaytarılmır.

Banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarına tətbiq olunan maliyyə sanksiyaları:

1. vergi orqanı tərəfindən hüquqi şəxsə, fərdi sahibkara, filiala və nümayəndəliyə - vergi orqanı tərəfindən verilən

şəhadətnamə-dublikat olmadan sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin hesablaşma hesabı və ya digər hesablar açdığına görə - hər açılmış hesab üçün 400 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

2. sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda, onun vergilərin ödənilməsinə dair tapşırıqlarını, habelə vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından Mülki Məcəllədə nəzərdə tutulmuş ödənişlərin növbəliyinə uyğun tutulması yaxud Vergi Məcəlləsi ilə müəyyən edilən həcmdə vəsaitin dondurulması haqqında vergi orqanlarının sərəncamlarını icra etmədiyinə görə növbəliliyi pozmaqla aparılan əməliyyatların məbləğlərinin yaxud Vergi Məcəlləsi ilə müəyyən edilən həcmdə pul vəsaitinin dondurulması haqqında vergi orqanlarının sərəncamlarında göstərilən məbləğlərin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Bu zaman tətbiq edilən maliyyə sanksiyasının məbləği həmin ödəmə tapşırıqlarında və ya vergi orqanının sərəncamında göstərilən məbləğin 50 faizindən çox olmamalıdır.

Vergi ödəyicisinin valyuta hesabından vəsait mübahisəsiz qaydada tutulduğu halda bank həmin gün Mərkəzi Bankın müəyyən etdiyi rəsmi məzənnə ilə sərəncamda göstərilən məbləğin 105 faizinədək hesabdakı valyuta vəsaitini dondurur. Valyuta vəsaiti vergi ödəyicisi tərəfindən manata konvertasiya edildikdən sonra sərəncam icra olunur; Bu halda vergi ödəyicisindən banka və ya bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatına müvafiq tapşırıq və ya sərəncam daxil olduğu gündən həmin günlər üçün vergi ödəyicisinə faiz hesablanmır.

§8.3. Vergi orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti.

Vergi orqanlarının hüquqa zidd hərəkətləri (qərarları) və ya hərəkətsizliyi, habelə vergi orqanlarının vəzifəli şəxslərinin və digər işçilərinin öz vəzifələrini icra etdikdə, onların hüquqa zidd hərəkətləri (qərarları) və ya hərəkətsizliyinə, həmçinin bunların nəticəsində vergi ödəyicilərinə dəymiş zərərə görə vergi orqanları və vergi orqanlarının vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergi ödəyicilərinə yuxarıda göstərilən hərəkətlər (qərarlar) və ya hərəkətsizlik nəticəsində dəymiş zərər məhkəmənin qərarına əsasən ödənilir.

Vergi orqanları tərəfindən düzgün tutulmayan vergi, maliyyə sanksiyaları, faizlər və inzibati cərimələrin məbləğləri, vergilər üzrə borclar olmadıqda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmadıqda vergi ödəyicisinin müraciətinə əsasən 45 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər.

Vergi orqanlarının vəzifəli şəxsləri və digər işçiləri özlərinin hüquqa zidd hərəkətlərinə (qərarlarına) və ya hərəkətsizliyinə, o cümlədən öz xidməti vəzifələrini yerinə yetirmədiyinə və ya lazımınca yerinə yetirmədiyinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Bilyi möhkəmləndirmək üçün testlər:

Test 19.

1. Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hansı məsuliyyət tədbirləri tətbiq edilir?
A) maliyyə sanksiyaları
B) faizlər
C) inzibati cərimələr
D) maliyyə sanksiyaları və faizlər

2. Hansı hallarda vergi ödəyicisi vergi qanunvericiliyinin pozulmasında təqsirsiz hesab edilir?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə
B) Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təqsiri sübut edilməyənədək
D) məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təqsiri sübut edilməyənədək

3. Vergi qanunvericiliyinin pozulması halları nəzərdən keçirildikdə aşağıdakı hansı məsələlər müəyyən edilməlidir?
A) vergi qanunvericiliyinin pozulmasının bilərəkdən və ya ehtiyatsızlıq nəticəsində törədilməsi, inzibati məsuliyyətin tətbiq edilməsi üçün təqsirkar şəxsin müəyyən yaşa çatması, yüngülləşdirici və ya ağırlaşdırıcı hallar müəyyən edilməməlidir
B) vergi qanunvericiliyinin pozulmasının bilərəkdən və ya ehtiyatsızlıq nəticəsində törədilməsi, inzibati məsuliyyətin tətbiq edilməsi üçün təqsirkar şəxsin müəyyən yaşa çatmaması, ağırlaşdırıcı hallar müəyyən edilməlidir
C) heç bir məsələnin müəyyən edilməsinə ehtiyac yoxdur
D) vergi qanunvericiliyinin pozulmasının bilərəkdən və ya ehtiyatsızlıq nəticəsində törədilməsi, inzibati məsuliyyətin tətbiq

edilməsi üçün təqsirkar şəxsin müəyyən yaşa çatması, yüngülləşdirici və ya ağırlaşdırıcı hallar müəyyən edilməlidir

4. Vergi qanunvericiliyinin pozulması malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı olduqda, həmin işlərə hansı qaydada baxılır?
A) həmin işlərə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır
B) həmin işlərə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır
C) həmin işlərə Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır
D) həmin işlərə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır

5. Vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin bir neçə pozuntusuna yol verildikdə maliyyə sanksiyaları necə tətbiq edilir?
A) bu halda maliyyə sanksiyaları tətbiq edilmir
B) bu halda maliyyə sanksiyalarının iki misli tətbiq edilir
C) bu halda maliyyə sanksiyaları hər pozuntuya münasibətdə ayrıca tətbiq edilir
D) bu halda maliyyə sanksiyalarının ən yüksək həddi ilə ən aşağı həddinin fərqi tətbiq edilir

6. Vergi ödəyicisinin və ya vergi agentinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi, onları....
A) ...vergi öhdəliklərinin və vergi orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərini yerinə yetirilməsindən azad edir
B) ...vergi öhdəliklərinin və vergi orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərini yerinə yetirilməsindən azad etmir
C) ...vergi öhdəliklərinin və vergi orqanlarının vəzifəli şəxslərinin qanunsuz tələblərini yerinə yetirilməsindən azad etmir
D) ...vergi öhdəliklərinin və gömrük orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərini yerinə yetirilməsindən azad etmir

7. Aşağıdakılardan hansı vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edən hallara aid deyil?
A) vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusu hadisəsinin olması

B) vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunda şəxsin təqsirinin olmaması
C) vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunu törədən fiziki şəxsin həmin əməl törədildiyi anda məsuliyyətə cəlb edilmə yaşına çatmaması
D) vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb etmə müddətinin qurtarması

8. Vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar hansılardır?
1. vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun təbii fəlakət, yaxud digər fövqəladə və qarşısıalınmaz hadisələr nəticəsində törədilməsi
2. vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun vergi ödəyicisi - fiziki şəxs tərəfindən xəstə xalı ilə əlaqədar olaraq, öz hərəkətlərinə nəzarət və rəhbərlik etməyi bacarmadığı vəziyyətdə törədilməsi
3. vergi ödəyicisi və ya vergi agenti tərəfindən vergi orqanının verdiyi yazılı göstərişlərin yerinə yetirilməməsi
4. vergi orqanlarının qərarlarına yenidən baxıldıqda vergi ödəyicisinin hərəkətləri üçün hüquqi əsaslar olmasının aşkar edilməsi
5. hər hansı vergilər, o cümlədən vergi agentləri tərəfindən ödənilən vergilər üzrə artıq ödənilmiş məbləğlərin hesabına digər vergilər üzrə borcların nəzərə alınmaması
A) 1, 3, 5 B) 2, 3, 4 C) 1, 2, 5 D) 1, 2, 4

9. Vergi qanunvericiliyinin pozulması anından neçə il keçdikdə şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz?
A) 4 il keçdikdə C) 3 il keçdikdə
B) 1 il keçdikdə D) 5 il keçdikdə

10. Vergi hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin qərarına əsasən hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) 100 manat C) 50 manat
B) 80 manat D) 40 manat

Test 20.

1. Vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını bildirişdə göstərilən müddət ərzində ödəmədikdə vergi orqanının tələbinə əsasən aktivləri barədə verməli olduğu məlumatı 10 gün ərzində təqdim edilmədiyinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin qərarına əsasən hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

A) 500 manat
C) 100 manat
B) 200 manat
D) 50 manat

2. Verginin hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə hansı miqdarda maliyyə sanksiyası tətbiq edilir?

A) vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 25 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

B) vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

C) vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

D) vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 75 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

3. Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün və ya Vergi Məcəlləsində göstərilən müddətdə olduğu yer barədə ərizənin verilməməsinə, həmçinin digər uçot məlumatlarında dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə görə, habelə Vergi Məcəlləsində nəzərdə tutulmuş «Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

A) 100 manat
C) 40 manat
B) 200 manat
D) 20 manat

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergilər üzrə borcların və faizlərin, tətbiq edil-

miş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə sərəncamın verildiyi tarixdən, kredit təşkilatlarında və ya bank əməliyyatları aparan şəxslərdə hesabları olmadığı halda bildirişdə göstərilən müddətin başa çatdığı tarixdən vergi ödəyicisi tərəfindən onun kassasından, Mülki Məcəlləsində nəzərdə tutulmuş hesabdan pul vəsaitinin silinməsi növbəliliyi pozulmaqla, nağd qaydada məxaric əməliyyatları aparıldıqda hansı miqdarda maliyyə sanksiyası tətbiq edilir?
A) aparılmış məxaric əməliyyatlarının 80 faizi miqdarında
B) aparılmış məxaric əməliyyatlarının 50 faizi miqdarında
C) aparılmış məxaric əməliyyatlarının 25 faizi miqdarında
D) aparılmış məxaric əməliyyatlarının 30 faizi miqdarında

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq vergi ödəyicisi tərəfindən ƏDV üzrə qeydiyyat məcburi olduğu halda, qeydiyyat olmadan fəaliyyət göstərilməsinə görə vergi ödəyicisinə hansı miqdarda maliyyə sanksıyası tətbiq edilir?
A) ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin 10 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir
B) ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin 20 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir
C) ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir
D) ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq ƏDV məqsədləri üçün qeydiyyat qüvvəyə minmədən və ya ləğv edildiyi halda ƏDV üzrə vergi hesab-fakturasının təqdim edilməsinə görə vergi ödəyicisinə hansı miqdarda maliyyə sanksiyası tətbiq edilir?
A) təqdim edilmiş vergi hesab-fakturalarında göstərilmiş vergi məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir
B) təqdim edilmiş vergi hesab-fakturalarında göstərilmiş vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir
C) təqdim edilmiş vergi hesab-fakturalarında göstərilmiş vergi məbləğinin 200 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

D) təqdim edilmiş vergi hesab-fakturalarında göstərilmiş vergi məbləğinin 25 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

7. Nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 200 manat, ikinci dəfə yol verildikdə 400 manat, üç və ya çox dəfə yol verildikdə 800 manat məbləğində
B) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 100 manat, ikinci dəfə yol verildikdə 200 manat, üç və ya çox dəfə yol verildikdə 300 manat məbləğində
C) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və ya çox dəfə yol verildikdə 1200 manat məbləğində
D) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və ya çox dəfə yol verildikdə 1000 manat məbləğində

8. Vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə nağd pul hesablaşmalarının aparılmasına təqvim ili ərzində ikinci dəfə yol verildikdə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) 200 manat
B) 400 manat
C) 800 manat
D) 1200 manat

9. Qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına təqvim ili ərzində birinci dəfə yol verildikdə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) 200 manat
B) 400 manat
C) 800 manat
D) 1200 manat

10. Alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə təqvim ili ərzində ikinci dəfə yol verildikdə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) 400 manat
B) 800 manat
C) 1200 manat
D) 2400 manat

Test 21.

1. Nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

A) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 200 manat, ikinci dəfə yol verildikdə 400 manat, üç və ya çox dəfə yol verildikdə 800 manat məbləğində

B) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 100 manat, ikinci dəfə yol verildikdə 200 manat, üç və ya çox dəfə yol verildikdə 300 manat məbləğində

C) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və ya çox dəfə yol verildikdə 1000 manat məbləğində

D) təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və ya çox dəfə yol verildikdə 1200 manat məbləğində

2. Xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə vergi ödəyicisinə hansı miqdarda maliyyə sanksiyası tətbiq edilir?

A) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinin 25 faizi miqdarında

B) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinin 15 faizi miqdarında

C) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinin 5 faizi miqdarında

D) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında

3. Xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına il ərzində təkrarən yol verildikdə vergi ödəyicisinə hansı miqdarda maliyyə sanksiyası tətbiq edilir?
A) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 50 faizi miqdarında
B) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında
C) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinin 15 faizi miqdarında
D) gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 10000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsinə, texnoloji avadanlıqlardakı plombların zədələnməsinə görə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) 5000 manat
B) 10000 manat
C) 500 manat
D) 1550 manat

5. İstehsal olunmuş məhsulların aksiz markası ilə markalanmamasına, tam uçota alınmamasına, aksiz markaların inventari-

zasiyasında kənarlaşmalara yol verilməsinə görə vergi ödəyicisinə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

A) 50000 manat
B) 10000 manat
C) 5000 manat
D) 500 manat

6. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqavilesi bağlamadan işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin və xidmətlərin yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə və ya azaldılmasına şərait yaradıldığına görə işəgötürənə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

A) bir belə şəxs üzrə 2000 manat məbləğində
B) bir belə şəxs üzrə 1000 manat məbləğində
C) bir belə şəxs üzrə 5000 manat məbləğində
D) bir belə şəxs üzrə 500 manat məbləğində

7. Vergi orqanından şəhadətnamə-dublikat alınmadan sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) mədaxil edilmiş pul vəsaitinin neçə faizi miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir?

A) pul vəsaitinin 50 faizi miqdarında
B) pul vəsaitinin 10 faizi miqdarında
C) pul vəsaitinin 30 faizi miqdarında
D) pul vəsaitinin 100 faizi miqdarında

8. Vergi və ya cari vergi ödəməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, vergi ödəyicisindən və ya vergi agentindən faizlər necə tutulur?

A) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0.01 faizi

məbləğində faiz tutulur (ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir)
B) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0.1 faizi məbləğində faiz tutulur (ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir)
C) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0.2 faizi məbləğində faiz tutulur (ötmüş müddətə ancaq üç ildən çox olmamaq şərti ilə tətbiq edilir)
D) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0.1 faizi məbləğində faiz tutulur (ötmüş müddətə ancaq iki ildən çox olmamaq şərti ilə tətbiq edilir)

9. Vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikat olmadan sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərə hesablaşma hesabı və digər hesablar açdığına görə banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarına hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?
A) hər açılmış hesab üçün 500 manat məbləğində
B) hər açılmış hesab üçün 1000 manat məbləğində
C) hər açılmış hesab üçün 400 manat məbləğində
D) hər açılmış hesab üçün 100 manat məbləğində

10. Vergi ödəyicisinin valyuta hesabından vəsait mübahisəsiz qaydada tutulduğu halda bank həmin gün Mərkəzi Bankın müəyyən etdiyi rəsmi məzənnə ilə sərəncamda göstərilən məbləğin neçə faizinədək hesabdakı valyuta vəsaitini dondurur?
A) 150 faizinədək
B) 100 faizinədək
C) 105 faizinədək
D) 115 faizinədək

IX Fəsil. Vergilərin hesablanması və ödənilməsi qaydaları.

§9.1. Vergilər üzrə borcların alınması və vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları.

Vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə vergi orqanı hesablanmış və ya yenidən hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsinə dair vergi ödəyicisinə bildiriş göndərir.

Aşağıda qeyd olunan 1-ci və 4-cü bəndlərdə nəzərdə tutulan hallar istisna olmaqla, digər hallarda vergi orqanının hesabladığı və ya yenidən hesabladığı vergilər, faizlər və ya tətbiq etdiyi maliyyə sanksiyaları üzrə vergi orqanı vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra sənədi olan sərəncam verir.

Vergi orqanı aşağıdakı hallarda vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verir:

1. vergi ödəyicisi tərəfindən hesablanmış və bəyan edilmiş vergilər müəyyən edilmiş müddətdə ödənilmədikdə;
2. vergi orqanının hesabladığı vergilər, faizlər və tətbiq etdiyi maliyyə sanksiyaları üzrə vergi ödəyicisi tərəfindən bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verilmədikdə;

3. məhkəmənin müvafiq qərarı olduqda həmin qərara uyğun olaraq;
4. vergi ödəyicisinin yazılı razılığı olduqda.

Vergi orqanının hesablamaları üzrə vergi ödəyicisi tərəfindən bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verildikdə kredit təşkilatı və ya bank əməliyyatları aparan şəxs məhkəmənin qanuni qüvvəyə minmiş qərarına uyğun olaraq və 3-cü bəndə əsasən verilmiş sərəncamın icrasını təmin edir.

Vergi orqanı vergi ödəyicisinin ƏDV depoziti hesabından yalnız ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınmasını təmin edir. ƏDV üzrə vergi borclarının ödənilməsi üçün ƏDV depoziti hesabında vergi ödəyicisinin kifayət qədər vəsaiti olmadıqda, ƏDV üzrə vergi borclarının dovlət büdcəsinə alınması üçün həmin şəxsin digər hesablarına sərəncam verilə bilər.

Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncamın daxil olduğu gün icra edilir. Vergi ödəyicisinin hesablarında vəsait olmadıqda və ya vergilər üzrə borcların və faizlərin tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinə yaxud vəsaitin dondurulmasına kifayət etmədikdə vergi orqanının sərəncamı bankda və ya digər kredit təşkilatında saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca icra edilir.

Vergi orqanlarının vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında sərəncamları bank və digər kredit təşkilatı tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq icra edilir.

Vergi orqanlarının vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsi-

nə alınması haqqında sərəncamı vergi ödəyicisinin valyutada olan bank hesabına yönəldildikdə, bank və ya digər kredit təşkilatı hesabdakı vəsaiti Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 60.1.2-ci maddəsində (ARVM m-60.1.2. sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda, onun vergilərin ödənilməsinə dair tapşırıqlarını, habelə vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından Mülki Məcəllədə nəzərdə tutulmuş ödənişlərin növbəliyinə uyğun tutulması haqqında vergi orqanlarının sərəncamlarını icra etmədiyinə görə növbəliyi pozmaqla aparılan əməliyyatların məbləğlərinin 50 faizi. Bu zaman tətbiq edilən maliyyə sanksiyasının məbləği həmin ödəmə tapşırıqlarında və ya vergi orqanının sərəncamında göstərilən məbləğin 50 faizindən çox olmamalıdır.) müəyyən edilmiş qaydada dondurur və dərhal bu barədə vergi ödəyicisinə məlumat göndərir. Vergi ödəyicisi tərəfindən konvertasiya əməliyyatı aparıldıqdan sonra bank və ya digər kredit təşkilatı vergi orqanının sərəncamını icra edir.

Vergi orqanının vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında sərəncamı bir neçə bank və ya kredit təşkilatına verildikdə və bu zaman vergilər üzrə borclar, faizlər və maliyyə sanksiyaları vergi ödəyicisinin hər hansı milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alındıqda və ya dondurulduqda vergi orqanı digər banklara və ya kredit təşkilatlarına verilən sərəncamların dərhal geri qaytarılmasını təmin edir. Vergi orqanının sərəncamı geri qaytarılana qədər kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslər vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınmasını (ödənilməsini) təsdiq edən sənəd əsasında alınmış (ödənilmiş) həmin məbləğ həcmində vergi ödəyicisi-

nin vəsaitini hesabda dondurmaqla, belə vəsaitlər üzrə sərəncamın icrasını dayandırır.

Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə artıq alınmış vəsaitin geri qaytarılması Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 87-ci maddəsi (ARVM m-87. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğlərinin qaytarılması.) ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Qeyri-qanuni əldə edilən gəlir Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq müsadirə edilmirsə, həmin gəlirin qeyri-qanuniliyi onun vergiyə cəlb edilməsinə təsir göstərmir.

Vergi ödəyicisi verginin hesablanması üçün zəruri olan hesabat məlumatlarını müəyyən edilən müddətdən sonra vergi orqanının xəbərdarlıq etdiyi gündən 5 gün müddətində əsas olmadan təqdim etmədikdə, səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər təqdim edilmədikdə, ərazi və ya binalara (yaşayış bınası (sahəsi) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, mühasibat uçotunu aparmadıqda və ya mühasibat uçotunu müəyyən edilmiş qaydada aparmadıqda, mühasibat və hesabat sənədləri məhv olunduqda (itirildikdə), həmçinin vergitutma obyektinin müəyyənləşdirilməsi hər hansı başqa səbəblərdən mümkün olmadıqda, vergi orqanlarının ödənilməli olan verginin məbləğini aşağıda göstərilən **əlaqəli məlumat**lardan istifadə etməklə hesablamaq hüququ vardır:

1. vergi ödəyicisi tərəfindən vergi orqanına əvvəlki hesabat dövrləri üçün təqdim edilmiş vergi bəyannamələri;
2. vergi ödəyicisinin gəlirləri, o cümlədən satışdankənar gəlirləri barədə rəsmi məlumatlar;
3. vergi ödəyicisinin xərcləri, o cümlədən fərdi istehlakı üçün malların (daşınar və daşınmaz əmlakın), işlərin və

xidmətlərin alınmasına çəkilən xərcləri barədə rəsmi məlumatlar;
4. vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan maddi və qeyri-maddi əmlak barədə rəsmi məlumatlar;
5. vergi ödəyicisi tərəfindən istehsal olunmuş və ya təqdim edilmiş malların (işlərin, xidmətlərin) fiziki həcmi barədə rəsmi məlumatlar;
6. vergi ödəyicisinin idxal-ixrac əməliyyatları barədə rəsmi məlumatlar;
7. vergi ödəyicisinin bank hesablarındakı vəsaitlər, o cümlədən bank hesablarındakı vəsaitlərin hərəkəti barədə alınan rəsmi məlumatlar;
8. vergi ödəyicisində aparılmış xronometraj müşahidələrin nəticələri;
9. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar.

Vergi ödəyicisi tərəfindən ödənilməli olan verginin əlaqəli məlumatlara əsasən müəyyənləşdirilməsi üçün aşağıda göstərilən meyarlar nəzərə alınmaqla vergi ödəyicisinin fəaliyyətinə analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir:
1. eyni xüsusiyyətli və ya eynicinsli malların istehsalı;
2. eyni xüsusiyyətli və ya eynicinsli malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;
3. fəaliyyət göstərilən ərazi.

Vergilər əlaqəli məlumatlar və analoji vergi ödəyicisi barədə məlumatlar əsasında hesablandıqda, verginin məbləği vergi ödəyicisinin müvafiq olaraq gəlirinin, yaxud gəlirdən çıxılan xərclərinin məbləğini analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin həmin hesabat dövründə gəlirində, yaxud gəlirdən çıxılan xərclərində verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirilir.

Vergi ödəyicisi barədə əlaqəli məlumatları əldə etmək mümkün olmadıqda, vergilər analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin uçot və hesabat məlumatları əsasında hesablanır. Muzdla işləyən fiziki şəxslərin gəlir vergisini əlaqəli məlumata əsasən hesablamaq qeyri-mümkün olduqda və ya fiziki şəxslərin işləməsi rəsmiləşdirilmədikdə, vergi orqanı gəlir vergisinin məbləğini ötən ilin ölkə üzrə orta aylıq əmək haqqı əsasında hesablayır. Verginin hesablanması üçün vergi ödəyicisi barədə vergi orqanında bir neçə əlaqəli məlumat olduqda, ən yuxarı məbləğdə verginin hesablanmasına əsas verən əlaqəli məlumata əsasən vergi hesablanır. Əlaqəli məlumata əsasən vergi hesablanarkən, vergi ödəyicisinin artıq ödənilmiş vergiləri, faizləri və maliyyə sanksiyaları nəzərə alınır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16.2-ci maddəsinə (ARVM m-16.2. Vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir.) uyğun olaraq sahibkarlıq fəaliyyəti, əmlakının, torpağının və vergi tutulan əməliyyatının olmaması barədə vergi orqanına arayış təqdim etmiş vergi ödəyicilərinə əlaqəli məlumatlar əsasında vergilər hesablanmır.

Əlaqəli məlumatlara əsasən hesablanmış vergilərə dair bəyannamələr vergi orqanına təqdim edildikdən sonra, hesablanmış vergilər bəyannamələr nəzərə alınmaqla yenidən hesablanır. Əlaqəli məlumatlara əsasən hesablanmış vergilərin alınması Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 65-ci maddəsinə (ARVM m-65. Vergilər üzrə borcların alınması qaydası.) uyğun olaraq həyata keçirilir.

Qarşılıqlı surətdə asılı olan şəxslər arasında hər hansı əməliyyat aparıldıqda, vergi orqanı müstəqil şəxslər arasındakı əməliyyatlar zamanı əldə edilə bilən vergi tutulan gəliri müəyyənləşdirmək üçün gəlirləri və ya xərcləri həmin şəxslər arasında bölə bilər.

Şəxs fərdi istehlakına, o cümlədən əmlak alınmasına çəkilən xərclərin ödənilməsi üçün kifayət olmayan məbləğdə gəlir əldə etdiyini bildirirsə, vergi orqanı gəliri və vergiləri həmin şəxsin əvvəlki dövrlərdəki gəlirlərini, habelə kredit və borclarını nəzərə almaqla çəkdiyi xərclərə əsasən müəyyənləşdirir.

Verginin məqsədləri üçün barter əməliyyatları malların (işlərin, xidmətlərin) bazar qiymətləri ilə satışı kimi qiymətləndirildikdə, müvafiq əməliyyatlar elektron vergi hesab-fakturaları ilə rəsmiləşdirilməlidir. Barter əməliyyatının vergi hesab fakturasında göstərilən məbləği azaldılmışdırsa, vergi orqanı vergitutma obyektlərini bazar qiymətləri nəzərə alınmaqla dəqiqləşdirir, vergının məbləğini yenidən hesablayır və Azərbaycan Respublikasının vergi qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulan sanksiyaları tətbiq edir.

§9.2. Uçot sənədləri və vergi hesabatı.

Vergi orqanının vergi ödəyicisinə və ya vergi ödəyicisinin vergi orqanına tələbi yazılı şəkildə və ya elektron formada tərtib edilməmişdirsə və bir tərəf onu digər tərəfə verməmişdirsə, belə tələblərin heç biri vergi orqanı və ya vergi ödəyicisi üçün hüquqi qüvvəyə malik deyildir.

Vergi orqanının vergi ödəyicisinə göndərdiyi hər hansı bildiriş və ya digər sənəd adı göstərilməklə vergi orqanının rəhbəri tərəfindən imzalanmalı və möhürlə təsdiq edilməlidir. Sənədlər vergi ödəyicisi olan hüquqi şəxsin

dövlət qeydiyyatı haqqında sənədlərində və ya vergi ödəyicisi olan fiziki şəxsin uçot sənədlərində sonuncu ünvan kimi qeyd olunmuş ünvana zərfin qəbul edildiyinə dair bildiriş yazılan sifarişli məktubla çatdırıldıqda və ya şəxsən verildikdə lazımi qaydada vergi ödəyicisinə verilmiş sayılır.

Vergi hesablamalarına dair sənədlərin və ya vergi qanunvericiliyinə əsasən tərtib edilən digər sənədlərin heç biri, əgər onlar öz məzmununa və mahiyyətinə görə vergi qanunvericiliyinə uyğun gəlirsə və ya vergi hesablanılan və ya bu sənədlərin aid olduğu şəxs hamı üçün aydın şəkildə göstərilmişdirsə etibarsız və ya prosessual pozuntularla tərtib edilmiş sayıla bilməz.

Vergi ödəyiciləri tərəfindən uçot sənədlərinin tərtib edilməsi və saxlanılması. Vergi ödəyicisi olan hər hansı şəxsin vergi öhdəliklərinin yaranmasına və vergi tutulmasına dair öhdəliklər yaranmasına səbəb ola bilən və həmin şəxsdə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq məlumat verməyə dair öhdəliklər yaranmasına səbəb ola bilən əməliyyatları sənədləşdirməyə və qanunvericiliklə müəyyən edilmiş qaydada aparmağa borcludur. Vergi ödəyicisinin ayrı-ayrı uçot sənədləri xarici dildə tərtib edildikdə, vergi orqanları onların Azərbaycan dilinə rəsmi surətdə tərcümə olunmasını tələb edə bilər. Mühasibat uçotu sənədləri, o cümlədən elektron və ya kağız formatda məlumatlar tam oxunaqlı şəkildə 5 ildən az olmamaqla qanunla müəyyən edilmiş müddətdə saxlanmalıdır.

Vergi hesabatının tərtib edilməsi və verilməsi qaydası. Vergi hesabatı vergi bəyannaməsindən ibarətdir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və ona müvafiq olaraq qəbul edilmiş qanunlara uyğun olaraq vergi hesabatını verməyə borclu olan vergi ödəyiciləri vergi hesabatını Azərbaycan Respublikasının Vergi Məcəllə-

sində göstərilən müddətlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər.

Vergi hesabatları vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər. Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir. Vergi hesabatını elektron sənəd formasında təqdim edən vergi ödəyicilərinə imza və ya möhürlə təsdiq barədə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəaları şamil edilmir. Vergi hesabatını vergi ödəyicisi, yaxud onun müəyyən edilmiş qaydada vəkil edilmiş nümayəndəsi imzalamalıdır.

Qanunvericiliyə müvafiq olaraq vergi ödəyicisinin vergi hesabatının tərtib edilməsində müstəqil auditor iştirak edirsə, o, vergi hesabatını imzalamalı, möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir. Hesabatı bir nəfərdən çox tərtibatçı hazırlayırsa, onu ancaq baş tərtibatçı imzalayır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 163-cü maddəsində (ARVM m-163. Vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi.) nəzərdə tutulan hallar istisna olmaqla əvvəlki hesabat dövrləri üzrə təqdim edilmiş hesabatlardakı məlumatlar ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olmadığı hallarda vergi ödəyiciləri tərəfindən həmin hesabat dövri üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməlidir. Dəqiqləşdirilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləği əvvəl təqdim edilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləğindən çox olduqda əlavə hesablanmış vergi məbləği faizlərlə birlikdə büdcəyə ödənilir, az olduqda isə hesablanmış vergi və faiz

məbləğləri azaldılır. Vergi ödəyicisi tərəfindən dəqiqləşdirilmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar vergi ödəyicisində səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilə bilər.

Vergi orqanı tərəfindən vergi hesabatının onun barəsində kameral vergi yoxlaması aparıldıqdan sonra və ya hər hansı digər hərəkətlərin həyata keçirilməsi ilə qəbul edilməsinin şərtləndirilməsi yolverilməzdir və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Vergi orqanı tərəfindən vergi hesabatı yalnız - vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə və ya səhv göstərildikdə; vergi dövrü əks olunmadıqda; vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən kağız daşıyıcı vasitəsi ilə verilən vergi hesabatı imzalanmadıqda və möhürlə təsdiq olunmadıqda; vergi ödəyicisi olan fiziki şəxs tərəfindən vergi hesabatı imzalanmadıqda; vergi ödəyicisi olan hüquqi və fiziki şəxslər tərəfindən elektron sənəd formasında göndərilən vergi hesabatı müvafiq qanunvericiliyin və ya qaydaların tələblərinə uyğun olmadıqda qəbul edilmir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və ya digər qanunvericilik aktlarına müvafiq olaraq vergi orqanına təqdim edilmiş vergi hesabatı yuxarıdakı hallarda qəbul edilmədikdə, hesabatın vergi orqanına daxil olduğu gündən 3 iş günü ərzində vergi ödəyicisinə bu barədə, habelə aşkar edilmiş dəqiqsizliklər aradan qaldırılaraq, vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərilir.

Ödəmələr haqqında məlumatın verilməsi. Görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı digər ödəmələr aparan şəxs, qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat verməlidir.

Hesabatın verilməsi müddətinin uzadılması. Hesabatın verilmə müddəti başa çatanadək vergi ödəyicisi gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının

verilməsi müddətinin uzadılması barədə müraciət edirsə və bu zaman ödənilməli olan verginin məbləğini tamamilə ödəyirsə, hesabatın verilməsi müddəti üç ayadək uzadılmış hesab olunur. Müddətin uzadılması verginin ödənilməsi müddətini dəyişdirmir.

Hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda, yaranan fərq, verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə keçirilməlidir.

§9.3. Vergi ödəyiciləri ilə münasibətdə bankların və kredit təşkilatlarının vəzifələri.

Banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatları borcludurlar:

1. yalnız vergi orqanları tərəfindən VÖEN verildiyini təsdiq edən sənədlər verildikdən sonra hüquqi şəxslərə və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərə milli və ya xarici valyutada cari və ya digər hesablar açmağa, bank sənədlərində VÖEN göstərilmədikdə hesablar üzrə əməliyyatlar aparmamağa;
2. hüquqi şəxslərə və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin öz milli və ya xarici valyutada cari və ya digər hesablarından vergilərin ödənilməsi haqqında ödəmə tapşırıqlarını icra etməyə;
3. hüquqi şəxslərə və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarından vəsaitin tutulması üzrə əməliyyatların aparıldığı gün vergi məbləğlərini müvafiq büdcəyə keçirməyə (banka və ya büdcəyə kassa xidməti göstərən digər maliyyə idarəsinə köçürməyə).

Banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları tərəfindən məlumatların verilməsi. Vergi ödəyicisinin qanuni qaydada gəlirlərinin və xərclərinin uçotunun aparılmaması, fəaliyyəti dayandırıldığı zaman bank əməliyyatlarının aparılması, mühasibat və hesabat sənədlərinin məhv olunması, itirilməsi halları aşkar edildikdə, vergi bəyannamələri müəyyən olunmuş müddətdə təqdim edilmədikdə və ya vergi yoxlamasının aparılması zamanı vergi ödəyicisi tərəfindən vergi orqanlarının vəzifəli şəxslərinə sənədlər təqdim edilmədikdə, onlara əraziyə (yaşayış sahəsi istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, habelə Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı vergi məsələlərinə dair beynəlxalq müqavilələrin məlumat mübadiləsi haqqında müddəalarına əsasən digər dövlətin aidiyyəti orqanları tərəfindən vergi məqsədləri üçün həmin müqavilənin tətbiq edildiyi şəxsin Azərbaycan Respublikasındakı banklarda olan hesabları və həmin hesablar üzrə əməliyyatlar barədə məlumatların alınması üçün sorğu edildikdə, vergi orqanları kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə yazılı bildiriş göndərməklə, həmin bankın xidmət etdiyi vergi ödəyicisinin bank hesabı və əməliyyatları barədə məlumat almaq hüququna malikdir. Kredit təşkilatı və ya bank əməliyyatları aparan şəxs bildirişi aldıqdan sonra həmin bildirişdə göstərilən məlumatların vergi orqanına veriləcəyi barədə 5 iş günu müddətində hesab sahibinə rəsmi məlumat göndərməlidir və 15 gün müddətində tələb olunan məlumatları vergi orqanına təqdim etməlidir.

Bu qaydada bank hesabları və ya əməliyyatlar barədə alınmış məlumatlar müvafiq beynəlxalq müqavilənin müddəaları əsasında digər dövlətin aidiyyəti orqanlarına verilə bilər. Digər hallarda bank hesabları və əməliyyatlar

barədə alınmış məlumatların digər orqanlara və ya vətəndaşlara verilməsi qadağandır.

§9.4. Vergi öhdəliyi.

Vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən hallarda və qaydada müəyyən edilən vergini, həmçinin cari vergi ödəmələrini ödəmək vəzifəsi onun vergi öhdəliyi hesab olunur. Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsaslar, həmçinin vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri yalnız Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilir. Vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir.

Vergi öhdəliyinə aşağıdakı hallarda xitam verilmiş hesab olunur:

1. verginin ödənilməsi;
2. verginin ödənilməsi öhdəliyinin xitam verilməsi vergilər haqqında qanunvericiliyə müvafiq olaraq ortaya çıxan hallarda;
3. vergi ödəyicisi vəfat etmiş və ya Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edildikdə. Vəfat etmiş və ya ölmüş hesab edilmiş şəxsin əmlak vergiləri üzrə borcları vərəsəlik əmlakının dəyəri hədlərində ödənilir;
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq ləğvetmə komissiyası tərəfindən büdcə ilə bütün hesablaşmalar aparıldıqdan sonra vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə;
5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müflis olması nəticəsində ləğv edilmiş borclu vergi ödəyicisinin məhkəmənin qərarı ilə ödə-

nilməsindən imtina edilmiş tələblər ləğv edilmiş sayıldıqda.

Vergi öhdəliklərinin yerinə yetirilməsi. Vergi öhdəliklərinin yerinə yetirilməsi ödənilməli olan vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada ödənilməsidir. Vergi ödəyicisinin hesablarında və ya kassasında vəsaitin, habelə onun əmlakının olub-olmamasından asılı olmayaraq vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir.

Vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir. Vergi öhdəliklərinin yerinə yetirilməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, bilavasitə vergi ödəyicisi tərəfindən həyata keçirilir. Vergi öhdəliklərinin yerinə yetirilməsi digər şəxsin üzərinə qoyula bilməz.

Müəssisə və ya təşkilat ləğv edildikdə vergi öhdəliklərinin yerinə yetirilməsi. Ləğv edilən müəssisənin və ya təşkilatın vergi öhdəliklərini onun pul vəsaitləri, o cümlədən müəssisənin və ya təşkilatın əmlakının satışından əldə edilən gəlir hesabına ləğvetmə komissiyası yerinə yetirir. Başqa hallar nəzərdə tutulmamışdırsa, ləğvetmə komissiyası müəssisənin və ya təşkilatın filiallarının, digər struktur bölmələrinin və daimi nümayəndəliyinin vergi öhdəliklərini də yerinə yetirməlidir. Ləğv edilən müəssisənin və ya təşkilatın filialının və ya digər ayrıca bölməsinin öhdəliklərini bilavasitə həmin ayrıca bölmənin daxil olduğu müəssisə və ya təşkilat, bu müəssisə və ya təşkilat ləğv edildikdə isə həmin müəssisənin və ya təşkilatın ləğvetmə komissiyası yerinə yetirir.

Ləğv edilən müəssisənin və ya təşkilatın pul vəsaiti, o cümlədən vergi öhdəliklərinin yerinə yetirilməsindən ötrü əmlakın satışından əldə edilən vəsait onun vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi üçün kifayət etmədiyi halda, vergi öhdəlikləri üzrə qalan borc qanuna, Nizamnaməyə və ya digər təsis sənədinə uyğun olaraq

müəssisənin və ya təşkilatın öhdəlikləri üçün onun iştirakçıları (təsisçiləri) birgə məsuliyyət daşıyırlarsa, həmin iştirakçılar (təsisçilər) tərəfindən ödənilməlidir.

Müəssisənin iflas prosesinə məruz qaldığı hallarda vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir.

Müəssisə və ya təşkilat yenidən təşkil edildikdə vergi öhdəliklərinin yerinə yetirilməsi. Yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini onun hüquqi varisi və ya varisləri bu bölümdə müəyyən edilmiş qaydada yerinə yetirir.

Yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirməməsinin, yaxud lazımi qaydada yerinə yetirməməsinin yenidən təşkili başa çatanadək hüquqi varisə və ya varislərə məlum olub-olmamasından asılı olmayaraq yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini onun hüquqi varisi və ya varisləri yerinə yetirməlidir.

Hüquqi şəxsin yenidən təşkil edilməsi onun vergi öhdəliklərinin bu hüquqi şəxsin hüquqi varisi və ya varisləri tərəfindən yerinə yetirilməsi müddətlərini dəyişdirmir. Bir neçə hüquqi şəxs birləşdikdə, onların vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi bu cür birləşmə nəticəsində yaranan hüquqi şəxs sayılır. Bir hüquqi şəxs digər hüquqi şəxsə birləşdirildikdə, onun birləşdiyi hüquqi şəxs birləşdirilmiş hüquqi şəxsin vergilərinin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi sayılır.

Hüquqi şəxs bölündükdə, bu cür bölünmə nəticəsində əmələ gələn hüquqi şəxslər bölünmüş hüquqi şəxsin vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisləri sayılırlar.

Bir neçə hüquqi varis olduqda, onların hər birinin yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirilməsində iştirak payı bölüşdürücü balansa və ya digər təhvil aktına uyğun olaraq müəy-

yənləşdirilir. Bölüşdürücü balans və ya digər təhvil aktı yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin hər bir hüquqi varisinin payını müəyyənləşdirməyə imkan vermirsə və ya hər hansı hüquqi varis tərəfindən vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi imkanını aradan qaldırırsa, yeni yaranan hüquqi şəxslər yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin vergi öhdəliklərini və ya bu öhdəliklərin müvafiq hissəsini yerinə yetirmək üçün birgə məsuliyyət daşıyırlar.

Bir hüquqi şəxs təşkilati-hüquqi formasının dəyişdirilməsi yolu ilə digər hüquqi şəxsə çevrildikdə, onun vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi yeni yaranan hüquqi şəxs sayılır.

Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs çıxdıqda, çıxmış hüquqi şəxslərin yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini yerinə yetirməsi üzrə hüquqi varisliyi yaranmır, bu şərtlə ki, bu cür yenidəntəşkil hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirilməməsinə yönəldilməmiş olsun.

Vəfat etmiş, fəaliyyət qabiliyyətini itirmiş və ya itkin düşmüş fiziki şəxslərin vergi öhdəliklərinin yerinə yetirilməsi. Vəfat etmiş fiziki şəxsin vergi öhdəliklərini onun varisi və ya varisləri miras qalan əmlakın dəyəri hüdudlarında və mirasın alındığı tarixdəki payına mütənasib şəkildə ödəyirlər. Varislər olmadıqda vəfat etmiş fiziki şəxsin vergi öhdəlikləri silinir və yaxud ləğv edilir.

Məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayılan fiziki şəxsin vergi öhdəliklərini itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin əmlak sərəncamçısı kimi səlahiyyətləndirilən şəxs həmin əmlakın hesabına ödəyir.

Qanunvericiliklə müəyyən olunmuş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınan fiziki şəxsin əmlakı onun vergi öhdəliklərini ödəmək üçün kifayət deyilsə, vergilərin əmlakın çatışmaması ilə əlaqə-

dar ödənilməyən hissəsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 93-cü maddəsində (ARVM m-93. Ümidsiz borcların silinməsi.) göstərilən qaydada silinir.

Fiziki şəxsin itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınmasının ləğv olunmasına dair məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada qərar qəbul edildikdə, əvvəllər silinmiş vergi öhdəlikləri bərpa edilir, lakin fiziki şəxsin itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldığı vaxtdan bu cür tanınmanın ləğv olunduğuna dair qərar qəbul edildiyi vaxtadək olan dövr ərzində faizlər hesablanmır və maliyyə sanksiyaları tətbiq edilmir.

Hər bir vergiyə dair ödənilmə müddətləri müəyyən edilir. Vergilərin müəyyən edilmiş ödənilmə müddətinin dəyişdirilməsi yalnız Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilə bilər. Vergilərin ödənilmə müddətləri pozulmaqla ödənilməsinə görə vergi ödəyicisi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və şərtlərlə faiz ödəyir. Vergilərin ödənilməsi müddəti təqvim tarixi ilə və ya illərlə, rüblərlə, aylarla, dekadalarla, həftələrlə və günlərlə hesablanan dövrün qurtarması ilə, habelə baş verməli hadisə və yaxud edilməli olan hərəkət göstərilməklə müəyyən olunur.

Vergi orqanları vergiyə cəlb edilən hesabat dövri qurtardıqdan sonra 3 il ərzində vergi ödəyicisinin vergisini, faizləri və maliyyə sanksiyasını hesablamaq və hesablanmış məbləği yenidən hesablamaq, verginin, faizlərin və maliyyə sanksiyalarının hesablanmış (yenidən hesablanmış) məbləğini vergiyə cəlb edilən hesabat dövri qurtardıqdan sonra 5 il ərzində tutmaq hüququna malikdirlər.

Vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra 3 il ərzində ondan düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq

ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini 5 il ərzində tələb etmək hüququna malikdir.

Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri olduqda Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər:

1. təbii fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə. Bu halda vergi ödəyicisi hadisənin baş verməsi barədə və onun nəticəsində dəymiş zərərin məbləği barədə müvafiq dövlət orqanlarının arayışlarını təqdim etməlidir;
2. verginin birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda. Bu halda vergi ödəyicisi müraciət edilmə tarixinə vergi ödəyicisinin kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların adı, VÖEN göstərilməklə debitor və kreditor borcları barədə arayışları təqdim etməlidir.

Vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır. Vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciətini vergi orqanına göndərir. Müraciət vergi növü (növləri) üzrə onların müvafiq hesabat dövri üçün qanunvericiliklə müəyyən edilmiş ödəmə müddətinədək təqdim olunmalıdır. Vergi orqanı 30 gün müddətində bu müraciətə baxır və müvafiq əsaslar olduğu halda müddətin uzadılması barədə qərar qəbul edir.

Yuxarıda qeyd olunmuş iki əsasdan biri olduqda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi ili ərzin-

də 1 aydan 9 ayadək uzadıla bilər. Həmin müddət ərzində vergi ödəyicisinə faizlər hesablanmır.

Vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmənin müddəti və qaydası, habelə girov və ya zəmanət haqqında qeydlər göstərilməlidir.

Uzadılmış müddətlərdə (1 aydan 9 ayadək) vergi öhdəliyi mərhələlərlə yerinə yetirildikdə vergi orqanlarının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında vergi öhdəliyinin mərhələlərlə yerinə yetirilməsi qaydası göstərilməlidir. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərar bu qərarda müəyyən edilmiş müddətdən qüvvəyə minir.

Girov müqaviləsinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada etibarsız hesab edilməsi vergi ödəyicisinin vergi öhdəliyini ləğv etmir. Girov müqaviləsinin qeydiyyatı ilə bağlı xərclər vergi ödəyicisi tərəfindən ödənilir.

Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

1. vergi ödəyicisi vergi öhdəliyini vaxtından əvvəl yerinə yetirdikdə;
2. vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilinmədiyi halda;
3. vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərarının şərtlərinə əməl edilmədikdə.

Bu hallarda vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar vermiş vergi orqanı 5 gün müddətində vergi ödəyicisinə bu barədə məlumat verməlidir. Vergi ödəyicisi məlumatı aldığı tarixdən 30 gün müddətində borc məbləğini və ödəmə gününə qədər həmin məbləğə qanunveri-

ciliyə uyğun olaraq hesablanmış faizləri büdcəyə ödəməlidir.

Vergi orqanı rüblər üzrə (dövri olaraq) müddəti uzadılan vergi öhdəliklərinin məbləği barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat verir.

Vergilər bildirişdə göstərilən yerdə; Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisinin uçotda olduğu yer üzrə; vergi agentləri ödəmə mənbəyində tutulmuş vergiləri özlərinin uçotda olduqları yer üzrə; Azərbaycan Respublikasının Vergi Məcəlləsində verginin ödənildiyi yer müəyyən edilməmişdirsə, vergi ödəyicisi fiziki şəxsin yaşadığı yer üzrə, yaxud vergi ödəyicisi hüquqi şəxsin idarə olunduğu yer üzrə ödənilir.

§9.5. Vergi ödəyiciləri və vergi orqanları tərəfindən vergilərin hesablanması. Artıq ödənilmiş ödənişlərin məbləğlərinin qaytarılması və vergilər üzrə borcların ödənilməsi.

Azərbaycan Respublikasının Vergi Məcəlləsin başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisi vergi bazasını, vergi dərəcəsini və vergi güzəştlərini əsas götürərək hesabat dövri üçün ödənilməli olan verginin məbləğini sərbəst surətdə özü hesablayır. Ödənilməli olan vergi məbləğini hesablamaq vəzifəsi vergi agentinə həvalə edilə bilər. Verginin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsində və ya ona müvafiq olaraq qəbul edilmiş qanunvericilik aktında müvafiq vergi üçün müəyyən edilmiş qaydada hesablanır. Müəyyən edilmiş müddətlərdə ödənilməli olan verginin məbləği vergi ödəyicisi və ya qanunla müəyyən edilmiş hallarda digər şəxs tərəfindən ödənilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi məbləğinin hesablanması konkret hesabat dövri üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğinin vergi orqanının uçot sənədlərində qeyd edilməsi deməkdir. Hesablanmış vergi məbləğlərinin vergi orqanları tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda yenidən hesablanaraq uçot sənədlərində qeyd edilməsi də vergilərin hesablanması deməkdir.

Vergi orqanının Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin vergi öhdəliklərini aşağıdakı məlumat mənbələrindən birinə və ya bir neçəsinə əsaslanaraq hesablamaq hüququ vardır:

1. vergi ödəyicilərinin vergi bəyannamələrində olan məlumata;
2. ödəmələr haqqında məlumata;
3. vergi yoxlaması materiallarına;
4. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumata, o cümlədən Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş əlaqəli məlumatlara.

Vergi orqanının səyyar və kameral vergi yoxlamasının nəticələrinə görə hesablanmış vergiləri, faizləri və maliyyə sanksiyalarını hesabat dövrü qurtardıqdan sonra 3 il ərzində yenidən hesablamaq hüququ vardır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq verginin vergi bəyannaməsini vermək şərti ilə ödənilməsində, yaxud əvvəllər verginin hesablanmasında səhv olunduğu müəyyən edildiyi hallarda, vergi orqanı qanunvericiliyə uyğun vergiləri hesablayır və sonra verginin hesablanmasına dair bildirişi 5 gün müddətində vergi ödəyicisinə göndərir. Vergi orqanı 3 il başa çatanadək vergi məbləğini qanunvericiliklə müəyyən edilmiş qaydada hesablaya və ya əvvəllər hesablanmış vergi məbləğinə düzəliş edə bilər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq verginin vergi bəyannaməsini vermək şərti ilə ödənilməsi müəyyən edildiyi halda, verginin ödənilməsinə dair öhdəliyin əks etdirildiyi bəyannamənin tərtib edilməsi bu cür verginin hesablanması və onun ödənilməsinə dair bildirişdir.

Vergilər bilavasitə mənbədən tutulduqda, illik yol vergisi şəklində və ya sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisindən hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi şəklində ödənildikdə və vergi ödəyicisi vergi bəyannaməsini vermədiyi, vergi orqanı isə vergi ödəyicisinin ödəməli olduğu verginin məbləğini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada digər məlumata əsasən hesablamadığı halda, hesab olunur ki, vergi orqanı vergi ödəyicisinin illik vergi öhdəliyini vergi ödəyicisinin il ərzində vergitutma bazasından tutulmuş və ya ödənilmiş vergi məbləğində hesablamış və verginin hesablanması barədə vergi ödəyicisinə bildiriş vermişdir.

Vergi orqanlarında vergi ödəyicisinin vergini ödəməkdən yayınmaq niyyətində olduğunu təsdiq edən əsaslandırılmış konkret məlumat varsa və vergının tutulmasının təmin edilməsi zəruridirsə, vergi orqanının vergini onun ödənildiyi tarixədək hesablamaq hüququ vardır. Vergi orqanı bu barədə əsaslandırılmış qərar çıxarmalıdır.

Vergi ödəyicisinin bu müddəalara uyğun olaraq verginin hesablanması barəsində vergi orqanının qərarından aşağıdakıları əsas tutaraq məhkəməyə müraciət etmək hüququ vardır:

1. vergi məbləğinin ödənilməli olan miqdarından çox olduğunu;
2. verginin vaxtından əvvəl hesablanmasına əsas vermiş amilin və ya vəziyyətin olmadığını.

Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı halda, həmin mənfəət (gəlir) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır.

Vergi ödəyicisinə verginin hesablanması haqqında bildiriş göndərilir. Verginin hesablanması haqqında bildirişdə vergi ödəyicisinin adı və ya obyektin adı; vergi ödəyicisinin eyniləşdirmə nömrəsi; bildirişin tarixi; bildirişin aid olduğu obyekt və bildirişin əhatə etdiyi vergi dövri və ya vergi dövrləri; verginin növü, hesablanmış verginin və faizlərin məbləği; verginin ödənilməsinə dair tələb və ödəmənin müddətləri; verginin ödənildiyi yer və üsul; verginin hesablanmasına əsas olmuş hallar; şikayət etmə qaydası göstərilir.

Vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilmiş məbləğləri onların hesablanmış məbləğlərindən artıq olduqda, **artıq ödənilmiş məbləğlər**: ya digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına, ya da vergi ödəyicisinin razılığı ilə sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edilir.

Vergi ödəyicisinin ödədiyi vergilərin, faizlərin və maliyyə sanksiyalarının artıq məbləğləri digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına aid edildiyi halda, vergi ödəyicisinin tələbi ilə ona şəxsi vərəqədən çıxarış və üzləşmə aktı verilir, habelə rübdə bir dəfə rüb başa çatdıqdan sonra 20 gün ərzində ona bildiriş göndərilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar müəyyən edilməmişdirsə, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qalan məbləğləri vergi ödəyicisinin yazılı ərizəsinə əsasən 45 gün ərzində vergi ödəyicisinə qaytarılır.

Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğlərinin vergi ödəyicisinə qaytarılması qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Vergilər üzrə yaranmış **borc** aşağıdakı sıra qaydası ilə ödənilir: 1. yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği; 2. hesablanmış faizlərin məbləği; 3. tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği.

§9.6. Əmlakın siyahıya alınması və vergi ödəyicisinin əmlakı hesabına verginin tutulması.

Vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər.

Əmlakın siyahıya alınması vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququna malik olmur, həmin əmlaka sahiblik və ondan istifadə edilməsi vergi orqanının nəzarəti ilə həyata keçirilir. Vergi ödəyicisi siyahıya alınmış əmlakı barəsində bu məhdudiyyətlərin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıdığı barədə vergi orqanı tərəfindən xəbərdar edilir.

Vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını ona göndərilən bildirişdə göstərilən müddət ərzində ödəmədikdə, vergi orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən

edilmiş formada aktivləri barədə məlumatın 10 gün ərzində vergi orqanına təqdim edilməsini vergi ödəyicisindən tələb edə bilər. Məlumatın vaxtında verilməməsinə görə vergi ödəyicisi Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq məsuliyyət daşıyır.

Vergi ödəyicisinin vergi öhdəliyini yerinə yetirməkdən boyun qaçırması barədə vergi orqanının kifayət qədər əsası olduqda, vergi orqanı vergi ödəyicisinə yazılı bildiriş göndərməklə, eyni zamanda ondan vergi öhdəliyini dərhal ödəməyi tələb edə bilər.

Vergi ödəyicisi vergi öhdəliyini yerinə yetirmədikdə, vergi orqanı özünün əsaslandırılmış qərarı əsasında vergi ödəyicisinin əmlakının siyahıya alınmasını həyata keçirə bilər. Təxirəsalınmaz hallar istisna olunmaqla, gecə vaxtı (axşam saat 20.00-dan səhər saat 8.00-a qədər) əmlakın siyahıya alınmasına yol verilmir.

Vergi ödəyicisi olan hüquqi şəxsin bütün əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin isə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tələb yönəldilə bilməyən əmlakından başqa digər əmlakı siyahıya alına bilər.

Yalnız vergi öhdəliyinin yerinə yetirilməsi, həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının, habelə əmlakın satışı üzrə xərclərin ödənilməsi üçün zəruri və kifayət olan, satış üçün yararlı və öz əmtəə xassəsini itirməmiş əmlak siyahıya alınır. Əmlakın siyahıya alınması bu müddəalar nəzərə alınmaqla aşağıdakı ardıcıllıqla həyata keçirilir:

- nağd pul vəsaitləri;
- bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak (qiymətli kağızlar, valyuta dəyərliləri, qeyri-istehsal binaları, minik avtonəqliyyatı, xidmət otaqlarının dizayn əşyaları və sair);

- hazır məhsullar (mallar), habelə istehsalda iştirak etməyən və (və ya) bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər;
- istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar, habelə dəzgahlar, avadanlıqlar, binalar, qurğular və digər əsas vəsaitlər;
- digər əmlak.

Əmlakın siyahıya alınması vergi orqanının rəhbərinin qərarına əsasən həyata keçirilir. Qərarda vergi ödəyicisinin adı və əmlakın yerləşdiyi ünvan göstərilməlidir. Əmlakın siyahıya alınması vergi ödəyicisinin, habelə müşahidəçilərin və zəruri hallarda mütəxəssislərin iştirakı ilə vergi orqanı tərəfindən həyata keçirilir. Əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanı vergi ödəyicisinin (onun qanuni və səlahiyyətli nümayəndəsinin) əmlakın siyahıya alınması prosesində iştirak etməsinə icazə verməməyə səlahiyyətli deyildir. Əmlakın siyahıya alınması prosesində müşahidəçilərə, mütəxəssis kimi iştirak edən şəxslərə, həmçinin vergi ödəyicisinə (onun nümayəndəsinə) onların hüquq və vəzifələri izah edilməlidir.

Əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanının vəzifəli şəxsləri vergi ödəyicisinə (onun nümayəndəsinə) siyahıya alınma haqqında vergi orqanının rəhbərinin qərarını və özlərinin səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidirlər. Siyahıya alınma zamanı vergi orqanının vəzifəli şəxsləri tərəfindən əmlakın siyahıya alınması haqqında protokol tərtib edilir, əmlak siyahıya alınır və bu siyahı protokola əlavə edilir. Siyahıda əmlakın dəqiq adı, sayı, fərdi əlamətləri, mümkün olduqda qiymətləri göstərilməklə əmlak tam təsvir edilir. Siyahıya alınan bütün əmlak müşahidəçilərə və vergi ödəyicisinə (onun nümayəndəsinə) baxış üçün təqdim edilir.

Vergi ödəyicisinin bu qaydanı pozaraq siyahıya alınmış əmlaka dair bağladığı əqdlər etibarsız sayılır. Ver-

gi ödəyicisi siyahıya alınmış əmlakı barəsində bu məhdudiyyətlərin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıdığı barədə vergi orqanı tərəfindən xəbərdar edilir. Əmlakın siyahıya alınması haqqında qərar qanunla müəyyən edilmiş qaydada ləğv edildiyi andan, yaxud vergi öhdəliyinin yerinə yetirildiyi andan öz qüvvəsini itirir.

Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması aşağıdakı qaydada həyata keçirilir:

1. aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması vergi ödəyicisinin həmin mallar barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik deyildir.

2. aksiz markaları ilə markalanmalı olan malların həmin markalarla markalanmadan və ya saxta aksiz markaları ilə markalanmaqla satışı və ya saxlanılması aşkar edildikdə (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) ümumi miqdarı, aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) miqdarı Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formaya uyğun olan aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir. Vergi ödəyicisi və ya onun səlahiyyətli nü-

mayəndəsi aktda öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər və bu barədə həmin aktda müvafiq qeyd aparılır.

3. aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formaya uyğun olan siyahısı tərtib edilir. Siyahıda həmin malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, vergi orqanının adı, siyahıya almanı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, siyahıya almanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumatlar əks etdirilir.

4. aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) mənşə mənbəyi, alış və satış qiymətləri ilkin sənədlərlə və ya vəzifəli şəxsdən (vəzifəli şəxs olmadıqda satıcıdan) alınmış izahatla müəyyənləşdirilir.

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində göstərilən inzibati xətalara yol vermiş vəzifəli şəxs (şəxslər) barəsində həmin Məcəlləyə müvafiq olaraq protokol tərtib olunur.

6. tərtib olunmuş aktın, siyahının və protokolun surətləri vəzifəli şəxsə verilir.

7. aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınmasını həyata keçirən vergi orqanının nümayəndəsi həmin malların siyahıya alınması prosesində vergi ödəyicisinin və ya onun nümayəndəsinin iştirak etməsinə icazə verməməyə səlahiyyətli deyildir.

8. aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması prosesində vergi orqanının nümayəndəsi vergi ödəyicisinə və ya onun nümayəndəsinə hüquq və vəzifələrini izah etməlidir.

Siyahıya alınmış malların vergi ödəyicisində məsul saxlamaya qoyulması aşağıdakı qaydada həyata keçirilir:

1. Siyahıya alınmış mallar vergi ödəyicisində və ya onun razılığı ilə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə məsul saxlamaya qoyulur.

2. Vergi ödəyicisinin bu qaydaları pozaraq siyahıya alınmış mallara dair bağladığı əqdlər qanunvericiliklə müəyyən edilmiş qaydada etibarsız hesab edilir.

3. Vergi ödəyicisi siyahıya alınmış malların məsul saxlamaya qoymaq üçün qəbul etməkdən imtina etdikdə və ya vergi ödəyicisinin malları saxlamaq üçün müvafiq şəraiti olmadıqda, vergi orqanının vəzifəli şəxslərinin (şəxsinin), vergi ödəyicisinin (və ya onun nümayəndəsinin), iki müşahidəçinin və obyektin məsul şəxsinin iştirakı ilə edilən hərəkətlər protokolla rəsmiləşdirilərək mallar yerindəcə qablaşdırılır, möhürlənir və obyektdən vergi orqanının müəyyən etdiyi digər vergi ödəyicisində və ya vəzifəli şəxsdə məsul saxlamaya qoyulmaq üçün götürülür.

4. Malların obyektdən götürülməsi haqqında protokolda protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı; protokolun tərtib edildiyi tarix və yer; malları götürülən şəxs barədə məlumat; protokolun tərtibində iştirak edən müşahidəçilər barədə məlumat; götürülən malların siyahısı və miqdarı barədə məlumat göstərilir.

5. Malların götürülməsi haqqında protokol vergi orqanının vəzifəli şəxsləri, habelə vergi ödəyicisi (və ya onun nümayəndəsi), obyektin məsul şəxsi və müşahidəçilər tərəfindən imzalanır. Vergi ödəyicisi və ya onun səlahiyyətli nü-

mayəndəsi protokolu imzalamaqdan imtina etdikdə həmin protokolda bu barədə müvafiq qeyd aparılır.
6. Götürülən mallar inzibati xəta haqqında işə baxılanadək, vergi orqanının müəyyən etdiyi yerdə digər vergi ödəyicisinə və ya vəzifəli şəxsə məsul saxlamaya qoyulmaq üçün təhvil verilir.
7. Siyahıya alınmış mallar məsul saxlamaya qoyulmaq üçün vergi ödəyicisinə təhvil verildikdə, o, siyahıya alınmış malların özgəninkiləşdirilməsinə, israf edilməsinə, gizlədilməsinə, dəyişdirilməsinə yol verdiyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıdığı barədə xəbərdar olunmalıdır.
8. Tərtib olunmuş aktlara və protokollara müvafiq olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq baxılır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə özəlləşdirilməsi qadağan olunan dövlət əmlakının, habelə özəlləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının* qərarı ilə həyata keçirilən, lakin özəlləşdirilməsi barədə qərar qəbul edilməmiş və ya özəlləşdirilməsi başa çatmamış vergi ödəyicilərinin əmlakının siyahıya alınması yalnız müvafiq icra hakimiyyəti orqanının* razılığı ilə həyata keçirilir.

Vergilər üzrə borcların, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması haqqında banka və ya digər kredit təşkilatına sərəncam verilən gündən 15 gün müddətində vergi orqanı, əmlakın siyahıya alınmasına razılıq bildirilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına* rəsmi müraciət edir. Əmlakın siyahıya alınmasına bir ay müddətində razılıq verildikdə, siyahıya alınma vergi orqanı tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. (qeyd: birinci abzasda (birinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səla-

hiyyətlərini «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının 2000-ci il 16 may tarixli 878-IQ nömrəli qanunu ilə müəyyən edilmiş özəlləşdirilməsi qadağan olan əmlaka və Azərbaycan Respublikasının Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»nın 2.2-ci bölməsində nəzərdə tutulmuş müəssisə və obyektlərə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, 2.3-cü bölməsində nəzərdə tutulmuş müəssisə və obyektlərə münasibətdə isə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirir; birinci abzasın (ikinci halda) və ikinci abzasın birinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirir).

Vergi ödəyicisinin pul vəsaitləri siyahıya alınarkən siyahıya alındığı gündən sonrakı iş günündən gec olmayaraq müvafiq büdcə hesabına depozitə qoyulur. Vergi orqanı vergi ödəyicisinin pul vəsaitlərinin depozitə qoyulmasını təsdiq edən sənədin surətini ona təqdim edir. Qızıldan, gümüşdən, platindən və platin qrupundan olan materiallardan, qiymətli daşlardan və mirvaridən hazırlanmış zərgərlik məmulatları siyahıya alınarkən qablaşdırılır, möhürlənir və məsul saxlanması üçün vergi ödəyicisinə və ya vergi orqanının müəyyən etdiyi digər şəxsə təhvil verilir.

Vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə, vergi orqanı vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər.

Siyahıya alınmış əmlakın yararlıq müddəti göstərilən müddət başa çatanadək bitirsə, vergi orqanı dərhal məhkəməyə müraciət edə bilər. Məhkəmə vergi orqanının müraciətinə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində müəyyən edilmiş qaydada baxır.

Vergi ödəyicisinin siyahıya alınmış əmlakının əmtəə birjalarının nəzdində yaradılmış ixtisaslaşdırılmış təşkilat (hərracın təşkilatçısı) tərəfindən ixtisaslaşdırılmış açıq hərraclarda (hərrac) satılması haqqında məhkəmənin qərarı qüvvəyə mindikdən sonra qətnamə ilə təmin edilmiş borca faizin hesablanması dayandırılır və vergi borcunun dövlət büdcəsinə ödənilməsi icra məmuru tərəfindən təmin edilir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışından əldə olunan vəsait barədə rüblük məlumatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə təqdim edir.

Əmlakın hərracda satılması məqsədilə vergi ödəyicisinin siyahıya alınmış əmlakı, qanunvericiliyə müvafiq olaraq tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna edilməklə, «Qiymətləndirmə fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən qiymətləndirilir.

Məhkəmə qərarlarına əsasən verilən icra vərəqələri daxil olduqdan 10 (on) gün müddətində qiymətləndirici icra məmuru tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada dəvət olunur. Qiymətləndiricinin xidməti məhkəmənin qərarı ilə əmlakı satılan vergi ödəyicisi tərəfindən ödənilir.

Əmlakın satılmasından əldə edilən məbləğlər əvvəlcə tənbeh tədbirinin yönəldilməsi və əmlakın satışı üzrə xərclərin, sonra isə hesablanmış vergilərin, faizlərin və

maliyyə sanksiyalarının ödənilməsinə yönəldilir. Vəsaitin qalan hissəsi vergi ödəyicisinin yeni borcu yaranmadıqda 3 bank günü ərzində vergi ödəyicisinə qaytarılır.

Əmlakın satışından daxil olan pul vəsaiti vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsi üçün kifayət etmədikdə və ya əmlak qanunvericilikdə nəzərdə tutulmuş qaydada satılmadıqda, borcların dövlət büdcəsinə ödənilməsini təmin etmək məqsədilə icra məmuru tərəfindən vergi ödəyicisinin həmin borclarının qalan məbləği həcmində digər əmlakı qanunvericilikdə nəzərdə tutulmuş qaydada siyahıya alına bilər.

Vergi ödəyicisinin vergi öhdəlikləri siyahıya alınmış əmlakın satışından sonra yerinə yetirilməmiş qaldıqda, başqa ad altında fəaliyyət göstərən, lakin məhkəmənin qərarı əsasında həmin vergi ödəyicisinə məxsus olması müəyyən edilən və Vergi Məcəlləsində müəyyən edilmiş qaydada siyahıya alınma tətbiq edildiyi gündən əvvəlki 3 illik dövr ərzində aparılmış əməliyyatda onun aktivlərini almış şəxs, aldığı aktivlərin dəyərindən bu cür aktivlərə görə ödədiyi hər hansı məbləğlər çıxılandan sonra qalan məbləğdə vergi ödəyicisinin öhdəlikləri üzrə birgə məsuliyyət daşıyır.

Vergi Məcəlləsində nəzərdə tutulan hallarda ödəmə mənbəyində gəlirdən (mənfəətdən) vergi tutmadan həmin məbləği ödəyən hüquqi şəxslər və onların müvafiq işçiləri və ya fiziki şəxslər verginin tutulmamasına və büdcəyə köçürülməməsinə görə Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 22.

1. Vergi ödəyicisinə vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədiyinə görə vergi orqanı tərəfindən göndərilən bildirişdə nələr tələb olunur?
A) vergi ödəyicisindən vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 15 gün müddətində ödənilməsi tələb olunur
B) vergi ödəyicisindən vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 10 gün müddətində ödənilməsi tələb olunur
C) vergi ödəyicisindən vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsi tələb olunur
D) vergi ödəyicisindən vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsi tələb olunur

2. Vergi orqanı hansı hallarda vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verir?
1. vergi ödəyicisi tərəfindən hesablanmış və bəyan edilmiş vergilər 5 gün müddətində ödənilmədikdə
2. vergi ödəyicisi xarici ölkədə işgüzar səfərdə olduqda
3. vergi orqanının hesabladığı vergilər, faizlər və tətbiq etdiyi maliyyə sanksiyaları üzrə vergi ödəyicisi tərəfindən bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verilmədikdə
4. vergi ödəyicisinin razılığı olmadıqda
5. məhkəmənin müvafiq qərarı olduqda həmin qərara uyğun olaraq
6. vergi ödəyicisinin yazılı razılığı olduqda
A) 1, 3, 4, 6 B) 2, 3, 4, 6 C) 1, 2, 5, 6 D) 1, 3, 5, 6

3. Vergi orqanı vergi ödəyicisinin ƏDV depoziti hesabından vergi ödəyicisinin hansı borclarının dövlət büdcəsinə alınmasını təmin edir?
A) yalnız ƏDV üzrə vergi borclarının
B) yalnız aksizlər üzrə vergi borclarının
C) vergi ödəyicisinin bütün borclarının
D) vergi ödəyicisinin bütün vergi borclarının

4. ƏDV üzrə vergi borclarının ödənilməsi üçün ƏDV depoziti hesabında vergi ödəyicisinin kifayət qədər vəsaiti olmadıqda vergi orqanı hansı tədbirləri görür?

A) vergi orqanı ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınması üçün vergi ödəyicisinin digər hesablarına göstəriş verir
B) vergi orqanı vergi ödəyicisinin ƏDV depoziti hesabına vəsaitlərin daxil olmasını gözləyir
C) vergi orqanı ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınması üçün vergi ödəyicisinin digər hesablarına sərəncam verir
D) vergi orqanı ƏDV üzrə vergi borclarının dövlət büdcəsinə alınması üçün vergi ödəyicisinin əmlakına sərəncam verir

5. Vergi ödəyicisinin milli və xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda vergi orqanının sərəncamı nə vaxt icra edilir?
A) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncam daxil olduğu gün icra edilir
B) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncam daxil olduğu gün icra edilir
C) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncam daxil olduğu gün icra edilir
D) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncam daxil olduğu gün icra edilir

6. Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olmadıqda və ya vergilər üzrə borcların və faizlərin tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinə kifayət etmədikdə vergi orqanının sərəncamı nə vaxt icra edilir?
A) vergi orqanının sərəncamı geri qaytarılır
B) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatında saxlanılır və 30 gün ərzində icra edilir
C) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatında saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca hissələrlə icra edilir
D) vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatında saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca icra edilir

7. Qeyri-qanuni əldə edilən gəlir nə vaxt vergiyə cəlb edilir?
A) vergiyə cəlb olunmur
B) gəlir müsadirə edilmədikdə
C) gəlir müsadirə edildikdə
D) qanunla müəyyən edilməyib

8. Hansı səbəbdən vergi orqanı vergi məbləğlərini hesablamaq üçün əlaqəli məlumatlara müraciət etməli olur?

1. səyyar vergi yoxlamasının aparılması zamanı ərazilərə, binalara daxil olmağa icazə verilmədikdə
2. səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər təqdim edilmədikdə
3. səyyar vergi yoxlamasının aparılması zamanı yaşayış evlərinə daxil olmağa icazə verilmədikdə
4. vergi ödəyicisi tərəfindən mühasibat uçotu aparılmadıqda
5. mühasibat və hesabat sənədləri məhv edilmədikdə
6. vergitutma obyektinin müəyyənləşdirilməsi hər hansı səbəbdən mümkün olmadıqda
A) 1, 3, 4, 6 B) 2, 3, 5, 6 C) 1, 2, 4, 6 D) 3, 4, 5, 6

9. Vergi məbləğlərini hər hansı səbəbdən hesablamaq mümkün olmadıqda vergi orqanının hansı əlaqəli məlumatlara əsasən vergi məbləğlərini hesablamaq hüququ vardır?
1. vergi ödəyicisi tərəfindən vergi orqanına əvvəlki hesabat dövrləri üçün təqdim edilmiş vergi bəyannamələri
2. vergi ödəyicisinin gəlirləri, o cümlədən satışdankənar gəlirləri barədə qeyri-rəsmi məlumatlar
3. vergi ödəyicisinin xərcləri, o cümlədən fərdi istehlakı üçün malların (daşınar və daşınmaz əmlakın), işlərin və xidmətlərin alınmasına çəkilən xərcləri barədə rəsmi məlumatlar
4. vergi ödəyicisinin mülkiyyətində və istifadəsində olan maddi və ya qeyri-maddi əmlak barədə rəsmi məlumatlar
5. vergi ödəyicisi tərəfindən istehsal olunmuş və təqdim edilmiş malların tərkibi barədə rəsmi məlumatlar
A) 1, 3, 4 B) 2, 3, 5 C) 2, 3, 4 D) 3, 4, 5

10. Vergi məbləğlərini hər hansı səbəbdən hesablamaq mümkün olmadıqda vergi orqanının hansı əlaqəli məlumatlara əsasən vergi məbləğlərini hesablamaq hüququ vardır?
1. vergi ödəyicisinin idxal-ixrac əməliyyatları barədə qeyri-rəsmi məlumatlar
2. vergi ödəyicisinin bank hesablarındakı vəsaitlər, o cümlədən bank hesablarındakı vəsaitlərin hərəkəti barədə alınan rəsmi məlumatlar
3. vergi ödəyicisində aparılmış xronometraj müşahidələrin nəticələri
4. vergi ödəyicisinin mülkiyyətində və istifadəsində olan maddi və qeyri-maddi əmlak barədə rəsmi məlumatlar
5. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olmayan hər hansı digər məlumatlar
A) 1, 3, 4 B) 2, 3, 5 C) 2, 3, 4 D) 1, 4, 5

Test 23.

1. Vergi ödəyicisi tərəfindən ödənilməli olan verginin əlaqəli məlumatlara əsasən müəyyənləşdirilməsi üçün hansı vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir?
A) ən çox vergi ödəyən vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir
B) analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir
C) ən az vergi ödəyən vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə edilir
D) analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin maliyyə orqanında olan məlumatlarından istifadə edilir

2. Vergi ödəyicisi barədə əlaqəli məlumatları əldə etmək mümkün olmadıqda, vergilər analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin hansı məlumatları əsasında hesablanır?
A) analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin xərcləri barədə təqdim edilmiş məlumatları əsasında
B) analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin rəsmi nəşr olunmuş hesabat məlumatları əsasında
C) analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin gəlirləri barədə təqdim edilmiş məlumatları əsasında
D) analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin uçot və hesabat məlumatları əsasında

3. Muzdla işləyən fiziki şəxslərin gəlir vergisini əlaqəli məlumata əsasən hesablamaq qeyri-mümkün olduqda və ya fiziki şəxslərin işləməsi rəsmiləşdirilmədikdə vergi orqanı gəlir vergisinin məbləğini necə hesablayır?
A) cari ilin ölkə üzrə orta aylıq əmək haqqı əsasında
B) ötən ilin ölkə üzrə orta aylıq əmək haqqı əsasında
C) minimum əmək haqqı əsasında
D) ölkə üzrə ən yüksək əmək haqqı ilə minimum əmək haqqı arasında olan fərq əsasında

4. Verginin hesablanması üçün vergi ödəyicisi barədə vergi orqanında bir neçə əlaqəli məlumat olduqda, vergi hansı məlumata əsasən hesablanır?
A) ən yuxarı məbləğdə verginin hesablanmasına əsas verən əlaqəli məlumata əsasən
B) istənilən məbləğdə verginin hesablanmasına əsas verən əlaqəli məlumata əsasən
C) ən yuxarı məbləğdə verginin hesablanmasına əsas verən qeyri-rəsmi məlumata əsasən

D) ən aşağı məbləğdə verginin hesablanmasına əsas verən əlaqəli məlumata əsasən

5. Əlaqəli məlumata əsasən vergi hesablanarkən, vergi ödəyicisinin hansı ödəmələri nəzərə alınır?
A) vergi ödəyicisinin artıq ödənilmiş vergiləri, və inzibati cərimələri
B) vergi ödəyicisinin artıq ödənilmiş yalnız maliyyə sanksiyaları
C) vergi ödəyicisinin artıq ödənilmiş vergiləri, faizləri və maliyyə sanksiyaları
D) vergi ödəyicisinin heç bir ödəməsi nəzərə alınmır?

6. Şəxs fərdi istehlakına, o cümlədən əmlak alınmasına çəkilən xərclərin ödənilməsi üçün kifayət olmayan məbləğdə gəlir əldə etdiyini bildirirsə, vergi orqanı gəliri və vergiləri nəyə əsasən müəyyənləşdirir?
A) vergi orqanı gəliri və vergiləri həmin şəxsin əvvəlki dövrlərdəki gəlirlərinə əsasən müəyyənləşdirir
B) vergi orqanı gəliri və vergiləri həmin şəxsin əvvəlki dövrlərdəki gəlirlərini, habelə kredit və borclarını nəzərə almaqla çəkdiyi xərclərə əsasən müəyyənləşdirir
C) vergi orqanı gəliri və vergiləri həmin şəxsin cari dövrdəki xərclərinə əsasən müəyyənləşdirir
D) vergi orqanı gəliri və vergiləri həmin şəxsin əvvəlki dövrlərdəki gəlirlərini, habelə kredit və borclarını nəzərə almamaqla çəkdiyi xərclərə əsasən müəyyənləşdirir
7. Verginin məqsədləri üçün barter əməliyyatları malların (işlərin, xidmətləri) bazar qiymətləri ilə satışı kimi qiymətləndirildikdə, müvafiq əməliyyatlar hansı sənədə əsasən rəsmiləşdirilməlidir?
A) müvafiq əməliyyatlar bəyannamələr ilə rəsmiləşdirilməlidir
B) müvafiq əməliyyatlar müqavilələrə əsasən rəsmiləşdirilməlidir
C) müvafiq əməliyyatlar elektron qaydada rəsmiləşdirilməlidir
D) müvafiq əməliyyatlar vergi hesab-fakturaları ilə rəsmiləşdirilməlidir

8. Verginin məqsədləri üçün barter əməliyyatının vergi hesab fakturasında göstərilən məbləği azaldılmışdırsa vergi orqanı hansı tədbirləri görməlidir?
A) vergi orqanı vergitutma obyektlərini bazar qiymətləri nəzərə alınmamaqla dəqiqləşdirməli, verginin məbləğini yenidən hesablamalı və Azərbaycan Respublikasının vergi qanunvericiliyi-

nin pozulmasına görə nəzərdə tutulan sanksiyaları tətbiq etməlidir
B) vergi orqanı vergitutma obyektlərini bazar qiymətləri nəzərə alınmaqla dəqiqləşdirməli, verginin məbləğini yenidən hesablamalıdır
C) vergi orqanı vergitutma obyektlərini bazar qiymətləri nəzərə alınmaqla dəqiqləşdirməli, verginin məbləğini yenidən hesablamalı və Azərbaycan Respublikasının vergi qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulan sanksiyaları tətbiq etməlidir
D) vergi orqanı vergitutma obyektlərini dəqiqləşdirməli, verginin məbləğini hesablamalı və Azərbaycan Respublikasının vergi qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulan sanksiyaları tətbiq etməlidir

9. Vergi orqanının vergi ödəyicisinə və ya vergi ödəyicisinin vergi orqanına tələbi hansı halda hüquqi qüvvəyə malikdir?
A) tələb yazılı şəkildə tərtib edildiyi və bir tərəfin onu digər tərəfə şəxsən halda
B) tələb yazılı şəkildə tərtib edildiyi və bir tərəfin onu digər tərəfə lazımı qaydada verdiyi halda
C) tələb yazılı şəkildə tərtib edildiyi və bir tərəfin onu digər tərəfə qeyri-rəsmi qaydada verdiyi halda
D) tələb əlyazma şəklində tərtib edildiyi halda

10. Vergi hesablamalarına dair sənədlər və ya vergi qanunvericiliyinə əsasən tərtib edilən digər sənədlər hansı hallarda etibarlı və qanuni sayılır?
A) Vergi hesablamalarına dair sənədlər və ya vergi qanunvericiliyinə əsasən tərtib edilən digər sənədlər öz məzmununa və mahiyyətinə görə vergi qanunvericiliyinə uyğun gəlmədikdə
B) Vergi hesablamalarına dair sənədlər və ya vergi qanunvericiliyinə əsasən tərtib edilən digər sənədlər öz xüsusiyyətinə görə vergi qanunvericiliyinə uyğun gəldikdə, lakin vergi hesablanılan şəxs hamı üçün aydın şəkildə göstərilmədikdə
C) Vergi hesablamalarına dair sənədlər və ya vergi qanunvericiliyinə əsasən tərtib edilən digər sənədlər öz məzmununa və mahiyyətinə görə vergi qanunvericiliyinə uyğun gəldikdə və vergi hesablanılan və ya bu sənədlərin aid olduğu şəxs hamı üçün aydın şəkildə göstərildikdə
D) Vergi hesablamalarına dair sənədlər və ya vergi qanunvericiliyinə əsasən tərtib edilən digər sənədlər öz məzmununa görə vergi qanunvericiliyinə uyğun gəldikdə və vergi hesablanılmayan şəxslər hamı üçün aydın şəkildə göstərildikdə

Test 24.

1. Vergi ödəyicisi olan hər hansı şəxs hansı əməliyyatları sənədləşdirməyə və onlarla bağlı olan uçot sənədlərini qanunvericilikle müəyyən edilmiş qaydada aparmağa borcludur?
A) həmin şəxsin vergi öhdəliklərinin yaranmasına və vergi yükünün yüngülləşməsinə səbəb ola bilən əməliyyatları
B) həmin şəxsin vergi öhdəliklərinin azalmasına səbəb ola bilən əməliyyatları
C) həmin şəxsin vergi öhdəliklərinin yaranmasına və həmin şəxsdə vergi tutulmasına dair öhdəliklərin yaranmasına, həmçinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq məlumat verməyə dair öhdəliklərin yaranmamasına səbəb ola bilən əməliyyatları
D) həmin şəxsin vergi öhdəliklərinin yaranmasına və həmin şəxsdə vergi tutulmasına dair öhdəliklərin yaranmasına, həmçinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq məlumat verməyə dair öhdəliklərin yaranmasına səbəb ola bilən əməliyyatları

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin məqsədləri üçün vergi hesabatı hansı sənəddən ibarətdir?
A) vergi hesabatı vergi hesab-fakturasından ibarətdir
B) vergi hesabatı vergi uçot sənədlərindən ibarətdir
C) vergi hesabatı vergi bəyannaməsindən ibarətdir
D) vergi hesabatı vergi nomenklaturasından ibarətdir

3. Vergi ödəyicisi tərəfindən ödənilməli olan verginin əlaqəli məlumatlara əsasən müəyyənləşdirilməsi üçün analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin hansı meyarları nəzərə alınmalıdır?
1. eyni xüsusiyyətli və ya eyni cinsli malların istehsalı
2. eyni xüsusiyyətli işçilərin mövcudluğu
3. eyni xüsusiyyətli və ya eyni cinsli malların təqdim edilməsi, işlərin görüməsi və xidmətlərin göstərilməsi
4. yaşadıqları ərazi
5. fəaliyyət göstərilən ərazi

A) 2, 3, 4 B) 2, 4, 5 C) 2, 3, 5 D) 1, 3, 5

4. Vergi hesabatı vergi ödəyicisi tərəfindən hansı qaydada təqdim edilə bilər?
A) vergi hesabatı vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər
B) vergi hesabatı vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilməyən hər hansı digər üsulla təqdim edilə bilər
C) vergi hesabatı vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi istisna olmaqla) təqdim edilə bilər
D) vergi hesabatı vergi ödəyicisi tərəfindən hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı üsulla (rabitə təşkilatına təhvil verilməsi istisna olmaqla) təqdim edilə bilər

5. Qanunvericiliyə müvafiq olaraq vergi ödəyicisinin vergi hesabatının tərtib edilməsində müstəqil auditor iştirak edirsə, o, vergi hesabatında hansı qeydləri aparmalıdır?
A) müstəqil auditor vergi hesabatını imzalamalı, möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir
B) müstəqil auditor yalnız vergi hesabatına möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir
C) müstəqil auditor vergi hesabatında heç bir qeyd aparmağa ixtiyarı yoxdur
D) müstəqil auditor vergi hesabatını imzalamalı, möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini göstərməlidir

6. ƏDV üzrə vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi istisna olmaqla, hansı hallarda vergi ödəyiciləri tərəfindən hesabat dövrü üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməlidir?

A) əvvəlki hesabat dövrləri üzrə təqdim edilmiş hesabatlardakı məlumatlar ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olduğu hallarda
B) əvvəlki hesabat dövrləri üzrə təqdim edilmiş hesabatlardakı məlumatlar ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olmadığı hallarda
C) əvvəlki dövrlər üzrə təqdim edilmiş hesabatlardakı məlumatlar doğru olmadığı hallarda
D) cari hesabat dövrü üzrə təqdim edilmiş hesabatdakı məlumatlar təhrif olunmuş olmadığı hallarda

7. Dəqiqləşdirilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləği əvvəl təqdim edilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləğindən çox olduqda əlavə hesablanmış vergi məbləği büdcəyə necə ödənilir?
A) əlavə hesablanmış vergi məbləğinin 50 faizi büdcəyə ödənilir
B) əlavə hesablanmış vergi məbləği faizlər çıxılmaqla büdcəyə ödənilir
C) əlavə hesablanmış vergi məbləği faizlərlə birlikdə büdcəyə ödənilir
D) əlavə hesablanmış vergi məbləğinin 20 faizi büdcəyə ödənilir

8. Dəqiqləşdirilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləği əvvəl təqdim edilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləğindən az olduqda hesablanmış vergi və faiz məbləğləri ....
A) artırılır
B) azaldılır
C) büdcəyə ödənilir
D) vergi ödəyicisinin sərəncamında qalır

9. Vergi orqanı tərəfindən vergi hesabatı hansı hallar olduqda qəbul edilmir?

1. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə və ya səhv göstərildikdə;
2. vergi dövrü əks olunduqda;
3. vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən kağız daşıyıcı vasitəsi ilə verilən vergi hesabatı imzalanmadıqda və möhürlə təsdiq olunmadıqda
4. vergi ödəyicisi olan fiziki şəxs tərəfindən vergi hesabatı imzalanmadıqda
5. vergi ödəyicisi olan hüquqi və fiziki şəxslər tərəfindən elektron sənəd formasında göndərilən vergi hesabatı müvafiq qanunvericiliyin və ya qaydaların tələblərinə uyğun olmadıqda
6. vergi ödəyicisi olan hüquqi və ya fiziki şəxslərin inisialları tam yazılmadıqda
A) 1, 2, 4, 6 B) 1, 2, 3, 6 C) 2, 3, 4, 5 D) 1, 3, 4, 5

10. Vergi orqanına təqdim edilmiş vergi hesabatı Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş hallarda qəbul edilmədiyi hallarda vergi orqanı hansı tədbirləri görür?
A) vergi orqanı hesabatın vergi orqanına daxil olduğu gündən 10 iş günü ərzində vergi ödəyicisinə bu barədə, habelə aşkar edilmiş dəqiqsizlikləri aradan qaldıraraq, vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərir
B) vergi orqanı hesabatın vergi orqanına daxil olduğu gündən 7 iş günü ərzində vergi ödəyicisinə bu barədə, habelə aşkar edilmiş dəqiqsizlikləri aradan qaldıraraq, vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərir
C) vergi orqanı hesabatın vergi orqanına daxil olduğu gündən 3 iş günü ərzində vergi ödəyicisinə bu barədə, habelə aşkar edilmiş dəqiqsizlikləri aradan qaldıraraq, vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərir
D) vergi orqanı hesabatın vergi orqanına daxil olduğu gündən 5 iş günü ərzində vergi ödəyicisinə bu barədə, habelə aşkar edilmiş dəqiqsizlikləri aradan qaldıraraq, vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərir

Test 25.

1. Hansı şəxs qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat verməlidir?
A) görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəməyən şəxs
B) görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, lakin vergidən yayınan şəxs
C) yalnız görülmüş işlərin haqqını ödəyən şəxs
D) görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı digər ödəmələr aparan şəxs

2. Hesabatın verilmə müddəti başa çatanadək vergi ödəyicisi gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə müraciət edirsə və bu zaman ödənilməli olan verginin məbləğini tamamilə ödəyirsə hesabatın verilməsi müddəti neçə ayadək uzadılmış hesab olunur?
A) 3 ayadək
B) 2 ayadək
C) 1 ayadək
D) 6 ayadək

3. Hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda, yaranan fərq hansı qaydada büdcəyə keçirilməlidir?
A) yaranan fərq verginin ödənilməsinin ilk müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə keçirilməlidir
B) yaranan fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə keçirilməlidir
C) yaranan fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmamaqla büdcəyə keçirilməlidir
D) yaranan fərq verginin ödənilməsinin ikinci günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə keçirilməlidir

4. Aşağıdakılardan hansı bank və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarının vəzifə borclarına aid deyil?
A) yalnız vergi orqanları tərəfindən vergi ödəyicisinin eyniləşdirmə nömrəsi verildiyini təsdiq edən sənədlər verildikdən sonra hüquqi şəxslərə və sahibkarlıq fəaliyyətini hüquqi şəxs

yaratmadan həyata keçirən fiziki şəxslərə milli və ya xarici valyutada cari və ya digər hesablar açmaq
B) hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yarat-madan həyata keçirən fiziki şəxslərin öz milli və ya xarici valyutada cari və ya digər hesablarından vergilərin ödənilməsi haqqında ödəmə tapşırıqlarını icra etmək
C) hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarından vəsaitin tutulması üzrə əməliyyatların aparıldığı gün vergi məbləğlərini müvafiq büdcəyə keçirməyə (bank və ya büdcəyə kassa xidməti göstərən digər maliyyə idarəsinə köçürməyə)
D) bank sənədlərində vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə, hesablar üzrə əməliyyatlar aparmaq

5. Mühasibat uçotu sənədləri, o cümlədən elektron və ya kağız formatda məlumatlar tam oxunaqlı şəkildə neçə ildən az olmamaqla qanunla müəyyən edilmiş müddətdə saxlanmalıdır?
A) 3 ildən az olmamaqla C) 2 ildən az olmamaqla
B) 5 ildən az olmamaqla D) 10 ildən az olmamaqla

6. Kredit təşkilatı və ya bank əməliyyatları aparan şəxs Azərbaycan Respublikası Vergilər Nazirliyinin təsdiq etdiyi formada Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada göndərilən bildirişi aldıqdan sonra həmin bildirişdə göstərilən məlumatların vergi orqanına veriləcəyi barədə neçə iş günü müddətində hesab sahibinə rəsmi məlumat göndərməlidir?
A) 3 iş günü müddətində C) 7 iş günü müddətində
B) 5 iş günü müddətində D) 10 iş günü müddətində

7. Vergi öhdəliyi nə hesab olunur?
A) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən hallarda və qaydada müəyyən edilən vergini, o cümlədən cari vergi ödəmələrini ödəmək vəzifəsi
B) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən hallarda və qaydada müəyyən edilən vergini, o cümlədən cari vergi ödəmələrini ödəməmək vəzifəsi
C) vergi ödəyicisinin borclarını ödəməmək vəzifəsi

D) vergi ödəyicisinin Azərbaycan Respublikasının Gömrük Məcəlləsində göstərilən hallarda və qaydada müəyyən edilən vergini, o cümlədən cari vergi ödəmələrini ödəmək vəzifəsi

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə vergi öhdəliyinin hansı məqamları müəyyən edilir?
A) vergi öhdəliyinin yaranması
B) vergi öhdəliyinin dəyişdirilməsi və ya ləğv edilməsi
C) vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri
D) hamısı

9. Vergi ödəyicisi hansı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir?
A) vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməməsini nəzərdə tutan şəraitin yarandığı andan
B) vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan
C) vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı aydan
D) vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutmayan şəraitin yarandığı aydan

10. Vergi öhdəliyinə hansı hallarda xitam verilmiş hesab olunur?
1. vergi ödənilmədikdə
2. verginin ödənilməsi öhdəliyinə xitam verilməsi vergilər haqqında qanunvericiliyə müvafiq olaraq ortaya çıxan hallarda
3. vergi ödəyicisi vəfat etmiş və ya Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edildikdə
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq ləğvetmə komissiyası tərəfindən büdcə ilə bütün hesablaşmalar aparıldıqdan sonra, vergi ödəyicisi olan hüquqi şəxs yaradıldıqda
5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müflis olması nəticəsində ləğv edilmiş borclu vergi ödəyicisinin məhkəmənin qərarı ilə ödənilməsindən imtina edilmiş tələblər ləğv edilmiş sayıldıqda
A) 1, 3, 5 B) 1, 4, 5 C) 2, 4, 5 D) 2, 3, 5

Test 26.

1. Vergi öhdəliklərinin yerinə yetirilməsi dedikdə nə başa düşülür?
A) ödənilməli olan vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada hesablaşma hesabından çıxarılması
B) ödənilməli olan vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada ödənilməsi
C) ödənilməli olan vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada hesablanması
D) ödənilməli olan vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada ləğv edilməsi

2. Vergi ödəyicisinin hesablarında və ya kassasında vəsaitin, habelə onun əmlakının olub-olmamasından asılı olmayaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi...?
A) məcburidir
B) könüllüdür
C) müstəqildir
D) qənaətbəxşdir

3. Vergi öhdəliklərinin yerinə yetirilməsi ardıcıllığı hansı qanunvericiliyə əsasən həyata keçirilir?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş ardıcıllıqla
B) Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ardıcıllıqla
C) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş ardıcıllıqla
D) Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş ardıcıllıqla

4. Vergi öhdəliklərinin yerinə yetirilməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa kim tərəfindən həyata keçirilir?
A) yalnız vergi ödəyicisinin ortağı tərəfindən
B) vergi ödəyicisinin yaxınları tərəfindən
C) vergi orqanı tərəfindən

D) bilavasitə vergi ödəyicisi tərəfindən

5. Vergi öhdəliklərinin yerinə yetirilməsi digər şəxslərin üzərinə qoyula bilərmi?
A) müstəsna hallarda qoyula bilər
B) qoyula bilməz
C) istənilən şəxsin üzərinə qoyula bilər
D) ailə üzvlərinin üzərinə qoyula bilər

6. Ləğv edilən müəssisənin və ya təşkilatın vergi öhdəliklərini ləğvetmə komissiyası hansı vəsaitlərin hesabına yerinə yetirir?
A) ləğv edilən müəssisənin və ya təşkilatın pul vəsaitləri, o cümlədən onların əmlakının satışından əldə edilən gəlirlər hesabına
B) ləğv edilən müəssisənin və ya təşkilatın pul vəsaitləri, o cümlədən onların şəxsi əmlakının (yaşayış sahələri) satışından əldə edilən gəlirlər hesabına
C) ləğv edilən müəssisənin və ya təşkilatın ortaqlarının hesabına
D) ləğv edilən müəssisənin və ya təşkilatın daimi nümayəndəliyinin hesabına

7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa ləğvetmə komissiyası ləğv edilən müəssisənin və ya təşkilatın hansı bölmələrinin də öhdəliklərini yerinə yetirməlidir?
A) ləğvetmə komissiyası ləğv edilən müəssisənin və ya təşkilatın müştərilərinin vergi öhdəliklərini yerinə yetirməlidir
B) ləğvetmə komissiyası ləğv edilən müəssisənin və ya təşkilatın anoloji fəaliyyətlə məşğul olan tərəfdaşlarının vergi öhdəliklərini yerinə yetirməlidir
C) ləğvetmə komissiyası ləğv edilən müəssisənin və ya təşkilatın filiallarının, struktur bölmələrinin və daimi nümayəndəliyinin vergi öhdəliklərini yerinə yetirməlidir
D) ləğvetmə komissiyası ləğv edilən müəssisənin və ya təşkilatın filiallarının, struktur bölmələrinin və daimi nümayəndəliyinin vergi öhdəliklərini yerinə yetirməməlidir

8. Ləğv edilən müəssisənin və ya təşkilatın pul vəsaitləri, o cümlədən vergi öhdəliklərinin yerinə yetirilməsindən ötrü əmlakın satışından əldə edilən vəsait onun vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi üçün kifayət etmədiyi halda, vergi öhdəlikləri üzrə qalan borc kimlər tərəfindən ödənilməlidir?
A) vergi öhdəlikləri üzrə qalan borc qanunvericiliyə uyğun olaraq dövlət büdcəsi hesabına ödənilməlidir
B) vergi öhdəlikləri üzrə qalan borc qanuna, Nizamnaməyə və ya digər təsis sənədinə uyğun olaraq müəssisənin və ya təşkilatın öhdəlikləri üçün onun iştirakçıları (təsisçiləri) birgə məsuliyyət daşıyırlarsa, həmin iştirakçılar (təsisçilər) tərəfindən ödənilməlidir
C) vergi öhdəlikləri üzrə qalan borc anoloji fəaliyyətlə məşğul olan tərəfdaşlarının hesabına ödənilməlidir
D) vergi öhdəlikləri üzrə qalan borc ləğvetmə komissiyasının zərərinə aid edilməlidir

9. Müəssisənin iflas prosesinə məruz qaldığı hallarda vergi öhdəlikləri hansı qaydada yerinə yetirilir?
A) vergi öhdəlikləri dövlət büdcəsi hesabına yerinə yetirilir
B) vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir
C) vergi öhdəlikləri yerinə yetirilmir
D) vergi öhdəlikləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq yerinə yetirilir

10. Yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini kim və hansı qaydada yerinə yetirir?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada onun hüquqi varisi yerinə yetirir
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada onun qeyri-rəsmi varisi yerinə yetirir
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən bu halda heç bir öhdəlik yaranmır
D) Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada onun hüquqi varisi yerinə yetirir

Test 27.

1. Hüquqi şəxsin yenidən təşkil edilməsi onun vergi öhdəliklərinin bu hüquqi şəxsin hüquqi varisi tərəfindən yerinə yetirilməsi müddətlərini dəyişdirirmi?
A) dəyişdirir
B) müstəsna hallarda dəyişdirir
C) əksinə müddətlər üzrə əlavə güzəştlər verilir
D) dəyişdirmir

2. Hüquqi şəxs bölündükdə, bölünmüş hüquqi şəxsin vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi kimlər sayılır?
A) bu cür bölünmə nəticəsində əmələ gələn fiziki şəxslər
B) bu cür bölünmə nəticəsində əmələ gələn hüquqi şəxslər
C) bu cür bölünmə nəticəsində əmələ gələn qız şirkətlər
D) bu cür bölünmə nəticəsində əmələ gələn ana şirkətlər

3. Bölüşdürücü balans və ya digər təhvil aktı yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin hər bir hüquqi varisinin payını müəyyənləşdirməyə imkan vermirsə, yeni yaranan hüquqi şəxslər yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin vergi öhdəliklərini və ya bu öhdəliklərin müvafiq hissəsini yerinə yetirmək üçün hansı qaydada məsuliyyət daşıyırlar?
A) heç bir məsuliyyət daşımırlar
B) ayrı-ayrı məsuliyyət daşıyırlar
C) birgə məsuliyyət daşıyırlar
D) məsuliyyəti ləğv edilən hüquqi şəxsin üzərinə keçirirlər

4. Fiziki şəxs vəfat etdikdə onun vergi öhdəliklərini kim və hansı qaydada yerinə yetirir?
A) şəxsin vergi öhdəlikləri silinir
B) onun varisi miras qalan əmlakın dəyəri hüdudlarında və mirasın alındığı tarixdəki payına mütənasib şəkildə ödəyir
C) onun qohumları tərəfindən ödənilir
D) dövlət büdcəsinin hesabına silinir

5. Varis olmadıqda vəfat etmiş fiziki şəxsin vergi öhdəliklərini kim və hansı qaydada yerinə yetirir?

A) vergi öhdəlikləri vəfat etmiş fiziki şəxsin dostları tərəfindən yerinə yetirilir
B) vəfat etmiş fiziki şəxsin qalan əmlakının dəyəri hüdudlarında ödənilir
C) vergi öhdəlikləri vəfat etmiş fiziki şəxsin iş yoldaşları tərəfindən yerinə yetirilir
D) vəfat etmiş fiziki şəxsin vergi öhdəlikləri silinir

6. Məhkəmə tərəfindən qanunvericilikle müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayılan fiziki şəxsin vergi öhdəliklərini kim və hansı qaydada yerinə yetirir?
A) itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin əmlak sərəncamçısı kimi səlahiyyətləndirilən şəxs tərəfindən şəxsi əmlakının hesabına yerinə yetirilir
B) itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin ailə üzvləri tərəfindən yerinə yetirilir
C) itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin əmlak sərəncamçısı kimi səlahiyyətləndirilən şəxs tərəfindən həmin əmlakın hesabına yerinə yetirilir?
D) itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin vergi öhdəlikləri silinir.

7. Qanunvericilikle müəyyən olunmuş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınan fiziki şəxsin əmlakı onun vergi öhdəliklərini ödəmək üçün kifayət deyilsə, həmin şəxsin vergi öhdəliklərini kim və hansı qaydada yerinə yetirir?
A) vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada silinir
B) vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada silinir

C) vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Azərbaycan Respublikasının Əmək Məcəlləsində müəyyən edilmiş qaydada silinir
D) vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydada başqasının üzərinə keçirilir.

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisi vergitutmanın hansı elementlərini əsas götürərək hesabat dövrü üçün ödənilməli olan verginin məbləğini sərbəst surətdə özü hesablayır?
A) vergi güzəşti, vergi multiplikatoru, vergi dövrü;
B) vergi miqyası, vergi yükü, vergi bazası;
C) vergi bazası, vergi dərəcəsi, vergi güzəşti;
D) vergi dövrü, vergi dərəcəsi, vergi obyekti.

9. Hansı hallarda ödənilməli olan vergi məbləğini hesablamaq vəzifəsi vergi agentinə həvalə edilə bilər?
A) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilən hallarda;
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilən müstəsna hallarda;
C) işəgötürənin şəxsi arzusuna görə;
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsində belə hal müəyyən edilməmişdir.

10. Müəyyən edilmiş müddətlərdə ödənilməli olan verginin məbləği vergi ödəyicisindən başqa kim tərəfindən ödənilə bilər?
A) yalnız vergi ödəyicisi tərəfindən ödənilə bilər
B) qanunla müəyyən edilmiş qaydada digər şəxs tərəfindən
C) istənilən şəxs tərəfindən ödənilə bilər
D) vergi ödəyicisindən başqa heç kim tərəfindən ödənilə bilməz

Test 28.

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə vergi məbləğinin hesablanması dedikdə nə başa düşülür?
A) konkret hesabat dövrü üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğinin vergi orqanında qeydiyyatdan keçməsi deməkdir
B) konkret hesabat dövrü üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğinin vergi orqanına ödənilməsi deməkdir
C) konkret hesabat dövrü üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğının vergi orqanının uçot sənədlərində qeyd edilməsi deməkdir
D) konkret hesabat dövrü üçün vergi ödəyicisinin vergi öhdəliklərini yerinə yetirməsi deməkdir

2. Vergi orqanının vergi ödəyicisinin vergi öhdəliklərini hansı məlumat mənbələrinə əsaslanaraq hesablamaq hüququ yoxdur?
A) vergi ödəyicilərinin vergi bəyannamələrində olan məlumatlarına əsasən
B) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilən müvafiq ödəmələr haqqında məlumata əsasən
C) vergi yoxlaması materiallarına əsasən
D) vergi orqanının əldə etdiyi mənbəyi bəlli olmayan hər hansı digər məlumata əsasən

3. Vergi orqanının səyyar və kameral vergi yoxlamasının nəticələrinə görə hesablanmış vergiləri, faizləri və maliyyə sanksiyalarını hesabat dövri qurtardıqdan sonra neçə il ərzində yenidən hesablamaq hüququ vardır?
A) 1 il ərzində
B) 5 il ərzində
C) 2 il ərzində
D) 3 il ərzində

4. Hansı hallarda vergi orqanı qanunvericiliyə uyğun olaraq vergiləri hesablayır və sonra vergi ödəyicisinə verginin hesablanmasına dair 5 gün müddətində bildiriş göndərir?
A) verginin vergi bəyannaməsini verməmək şərti ilə ödənilməsində, yaxud əvvəllər verginin hesablanmasında səhv olunduğu müəyyən edildiyi hallarda
B) verginin vergi bəyannaməsini vermək şərti ilə ödənilməsində, yaxud əvvəllər verginin hesablanmasında səhv olunduğu müəyyən edilmədiyi hallarda
C) verginin vergi bəyannaməsini vermək şərti ilə ödənilməsində, yaxud əvvəllər verginin hesablanmasında səhv olunduğu müəyyən edildiyi hallarda
D) verginin ödənilməsində səhv aşkar edildiyi hallarda

5. Vergi orqanlarında vergi ödəyicisinin vergini ödəməkdən yayınmaq niyyətində olduğunu təsdiq edən əsaslandırılmış konkret məlumat varsa və verginin tutulmasının təmin edilməsi zəruridirsə, bu halda vergi orqanının hansı hüququ vardır?
A) vergi orqanının vergi ödəyicisinin fəaliyyətini dayandırmaq hüququ vardır
B) vergi orqanının vergini onun ödənildiyi tarixədək hesablamaq hüququ vardır
C) vergi orqanının vergini vergi ödəyicisindən zorla almaq hüququ vardır
D) bu halda vergi orqanının heç bir hüququ yoxdur

6. Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı halda, həmin mənfəət (gəlir) hansı icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır?
A) Maliyyə Nazirliyi
B) Vergilər Nazirliyi
C) İqtisadi İnkişaf Nazirliyi
D) Nazirlər Kabineti

7. Vergi ödəyicisinə verginin hesablanması haqqında hansı sənəd göndərilir?
A) göndəriş
B) bildiriş
C) çağırış
D) tələbnamə

8. Verginin hesablanması haqqında vergi ödəyicisinə göndərilən bildirişdə hansı məlumat göstərilmir?
A) vergi ödəyicisinin adı və ya obyektin adı
B) vergi ödəyicisinin eyniləşdirmə nömrəsi
C) vergi orqanının ünvanı
D) bildirişin tarixi

9. Verginin hesablanması haqqında vergi ödəyicisinə göndərilən bildirişdə hansı məlumat göstərilmir?
A) bildirişin aid olduğu obyekt və bildirişin əhatə etdiyi vergi dövrü
B) verginin növü, hesablanmış verginin və faizlərin məbləği
C) şikayət etmə qaydası
D) Azərbaycan Respublikasının Vergi Məcəlləsindən çıxarış

10. Verginin hesablanması haqqında vergi ödəyicisinə göndərilən bildirişdə hansı məlumat göstərilmir?
A) sanksiyaların məbləği
B) verginin ödənildiyi yer və üsul
C) verginin ödənilməsinə dair tələb və ödəmənin müddətləri
D) verginin hesablanmasına əsas olmuş hallar

Test 29.

1. Vergilərin müəyyən edilmiş ödənilmə müddəti hansı qaydada dəyişdirilə bilər?
A) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada
B) Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada
C) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada
D) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada

2. Vergilərin ödənilmə müddətləri pozulmaqla ödənilməsinə görə vergi ödəyicisinə Azərbaycan Respublikasının Vergi Məcəlləsində hansı məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur?
A) faizlər ödənilir
B) əlavə səyyar vergi yoxlaması təyin edilir
C) fəaliyyəti bir il müddətində dayandırılır
D) əmlakı müsadirə edilir

3. Vergilərin ödənilməsi müddəti necə müəyyən olunur?
A) təqvim tarixi ilə deyil, günlərlə hesablanan dövrün qurtarması ilə, habelə baş verməli hadisə, yaxud edilməli olan hərəkət göstərilməklə
B) vergi ödəyicisinin arzusu ilə
C) vergi orqanının arzusu ilə
D) təqvim tarixi ilə və ya illərlə, rüblərlə, aylarla, həftələrlə və günlərlə hesablanan dövrün qurtarması ilə, habelə baş verməli hadisə, yaxud edilməli olan hərəkət göstərilməklə

4. Vergi orqanları vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra vergini, faizləri və maliyyə sanksiyalarını neçə il ərzində hesablamaq hüququna malikdirlər?
A) 1 il ərzində
B) 2 il ərzində
C) 3 il ərzində
D) 5 il ərzində

5. Vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra neçə il ərzində ondan düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını tələb etmək hüququna malikdir?
A) 3 il ərzində
B) 2 il ərzində
C) 1 il ərzində
D) 5 il ərzində

6. Vergi ödəyicisi neçə il ərzində artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək hüququna malikdir?
A) 1 il ərzində C) 3 il ərzində
B) 2 il ərzində D) 5 il ərzində

7. Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri hansı halda müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər?
A) təbii fəlakət və digər qarşısı alınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə və ya vergini birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin inkişaf etmək təhlükəsi olduqda
B) təbii fəlakət və digər qarşısı alınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə və ya vergini birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda
C) təbii fəlakət nəticəsində vergi ödəyicisinə zərər dəymədikdə
D) vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri dəyişdirilə bilməz

8. Hansı hallarda vergi öhdəliyinin yerinə yetirilmə müddəti uzadıla bilməz?
A) vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyi ilə bağlı cinayət işinə xitam verildikdə
B) fövqəladə hallarda
C) vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyi ilə bağlı cinayət işi qaldırıldıqda
D) vergi ödəyicisinin ailə üzvü vəfat etdikdə

9. Təbii fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə, yaxud verginin birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflaşa uğramaq təhlükəsi olduqda vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri hansı müddətə uzadıla bilər?
A) vergi ili ərzində 1 aydan 6 ayadək
B) vergi ili ərzində 2 aydan 9 ayadək
C) vergi ili ərzində 3 aydan 6 ayadək
D) vergi ili ərzində 1 aydan 9 ayadək

10. Vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıldıqda, vergi ödəyicisinə həmin müddət üçün faizlər hesablanırmı?
A) faizlər hesablanır
B) hər ay üçün 0,1 faiz dərəcəsi ilə faiz hesablanır
C) faizlər hesablanmır
D) müstəsna hallarda hesablanmır

Test 30.

1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında hansı məlumatlar göstərilməlidir?
A) vergi üzrə borcun məbləği, ödənilməsi müddəti, habelə vergi orqanının rəhbərinin hesab nömrəsi göstərilməlidir
B) vergi üzrə borcun məbləği, ödənilməsi müddəti, uzadılan verginin növü, ödənilmənin müddəti və qaydası, habelə girov və ya zəmanət haqqında qeydlər göstərilməlidir
C) uzadılan verginin növü, ödənilmənin müddəti və qaydası, habelə vergi ödəyicisinin girov və borcları haqqında qeydlər göstərilməlidir
D) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarda heç bir məlumat göstərilmir

2. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərar hansı vaxtdan qüvvəyə minir?
A) uzadılmış müddətin ikinci ayından etibarən qüvvəyə minir
B) qərarın vergi orqanının ümumi şöbəsində qeydiyyatdan keçdiyi vaxtdan qüvvəyə minir
C) qərarın vergi ödəyicisinə təqdim edildiyi vaxtdan qüvvəyə minir
D) bu qərarda müəyyən edilmiş müddətdən qüvvəyə minir

3. Girov müqaviləsinin qeydiyyatı ilə bağlı xərclər kim tərəfindən ödənilir?
A) dövlət büdcəsinin hesabına
B) daimi nümayəndəlik tərəfindən
C) vergi ödəyicisi tərəfindən
D) vergi orqanı tərəfindən

4. Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə hansı hallarda vaxtından əvvəl xitam verilir?
1. vergi ödəyicisi vergi öhdəliyini vaxtından əvvəl yerinə yetirdikdə
2. vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırıldıqda

3. vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə heç bir halda vaxtından əvvəl xitam verilmir
4. vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərarının şərtlərinə əməl edilmədikdə.
5. vergi orqanının xəbərdarlığından sonra vergi öhdəliyi yerinə yetirildikdə
A) 1, 3, 4 B) 1, 2, 4 C) 1, 4, 5 D) 2, 3, 4

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi hansı yerlərdə ödənilir?
1. bildirişdə göstərilən yerdə;
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmadığı hallarda vergi ödəyicisinin uçotda olduğu yer üzrə;
3. vergi agentləri ödəmə mənbəyində tutulmuş vergiləri özlərinin uçotda olduqları yer üzrə
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində verginin ödənildiyi yer müəyyən edilmədikdə, vergi ödəyicisi - fiziki şəxsin yaşadığı yer üzrə
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində verginin ödənildiyi yer müəyyən edilmədikdə, vergi ödəyicisi - hüquqi şəxsin idarə olunduğu yer üzrə
A) 1, 2, 5 B) 1, 3, 4 C) 2, 3, 4 D) hamısında

6. Vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilmiş məbləğləri onların hesablanmış məbləğlərindən artıq olduqda, artıq ödənilmiş məbləğlər vergi ödəyicisinin hansı hesabına aid edilir?
A) digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına və ya vergi ödəyicisinin razılığı ilə sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edilir
B) anoloji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin vergilər üzrə ödəmələrinin hesabına aid edilir
C) vergi ödəyicisinin razılığı ilə komunal ödənişlər üzrə ödəmələrin hesabına aid edilir
D) vergi ödəyicisin şəxsi hesabına geri qaytarılır

7. Vergi ödəyicisinin ödədiyi vergilərin, faizlərin və maliyyə sanksiyalarının artıq məbləğləri digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına aid edildiyi halda, vergi ödəyicisinin tələbi ilə ona hansı sənədlər verilir və ya göndərilir?
A) şəxsi vərəqədən çıxarış verilir, habelə rübdə bir dəfə rüb başa çatdıqdan sonra 30 gün ərzində ona bildiriş göndərilir.
B) üzləşmə aktı verilir, habelə rübdə bir dəfə rüb başa çatdıqdan sonra 10 gün ərzində ona bildiriş göndərilir.
C) şəxsi vərəqədən çıxarış və üzləşmə aktı verilir, habelə rübdə bir dəfə rüb başa çatdıqdan sonra 20 gün ərzində ona bildiriş göndərilir.
D) şəxsi vərəqədən çıxarış və üzləşmə aktı verilmir, lakin rübdə bir dəfə rüb başa çatdıqdan sonra 20 gün ərzində ona bildiriş göndərilir.

8. Vergilər üzrə yaranmış borc hansı sıra qaydası ilə ödənilir?
A) tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği, yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği, hesablanmış faizlərin məbləği
B) hesablanmış faizlərin məbləği, yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği, tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği
C) hesablanmış verginin məbləği, hesablanmış faizlərin məbləği, tətbiq edilmiş cərimələrin məbləği
D) yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği, hesablanmış faizlərin məbləği, tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği

9. Vergi ödəyicisinin əmlakı hansı halda siyahıya alına bilər?
A) vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirdikdə
B) vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yeri-

nə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər

C) vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər

D) vergi ödəyicisi vergi öhdəliyini yerinə yetirmədikdə, yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilməz

10. Əmlakın siyahıya alınması nədir?

A) vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka sərəncam vermək hüququna malik olur, lakin həmin əmlaka sahiblik və ondan istifadə edilməsi vergi orqanının nəzarəti ilə həyata keçirilir.

B) vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququna malik olmur, həmin əmlaka sahiblik və ondan istifadə edilməsi gömrük orqanının nəzarəti ilə həyata keçirilir.

C) vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququna malik olmur, həmin əmlaka sahiblik və ondan istifadə edilməsi vergi orqanının nəzarəti ilə həyata keçirilir.

D) vergi ödəyicisinin öz əmlakı barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış əmlaka və ya onun bir hissəsinə sərəncam vermək hüququna malik olmur, həmin əmlaka sahiblik və ondan istifadə edilməsi sığorta şirkətinin nəzarəti ilə həyata keçirilir.

Test 31.

1. Vergi ödəyicisinin vergi öhdəliyini yerinə yetirməkdən boyun qaçırması barədə vergi orqanının kifayət qədər əsası olduqda, vergi orqanı vergi ödəyicisinə yazılı bildiriş göndərməklə eyni zamanda ondan nəyi tələb edə bilər?
A) vergi öhdəliyinin dərhal ödəməyi
B) vergi yükünü yüngülləşdirməyi
C) fəaliyyətini dayandırmağı
D) heç nə tələb edə bilməz

2. Təxirəsalınmaz hallar istisna olunmaqla, günün hansı vaxtında əmlakın siyahıya alınmasına yol verilmir?
A) gecə vaxtı (axşam saat 19.00-dan səhər saat 9.00-a qədər)
B) gecə vaxtı (axşam saat 20.00-dan səhər saat 9.00-a qədər)
C) gecə vaxtı (axşam saat 20.00-dan səhər saat 8.00-a qədər)
D) gecə vaxtı (axşam saat 21.00-dan səhər saat 8.00-a qədər)

3. Vergi ödəyicisi olan hüquqi və ya fiziki şəxsin hansı əmlakı siyahıya alına bilər?
A) vergi ödəyicisi olan hüquqi şəxsin şəxsi əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tələb yönəldilə bilməyən əmlakından başqa digər əmlakı
B) vergi ödəyicisi olan hüquqi şəxsin bütün əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tələb yönəldilə bilməyən əmlakından başqa digər əmlakı
C) vergi ödəyicisi olan hüquqi şəxsin bütün əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin 10000 manatadək dəyəri olan əmlakı
D) vergi ödəyicisi olan hüquqi şəxsin bütün əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin 20000 manatadək dəyəri olan əmlakı

4. Əmlakın siyahıya alınması ardıcıllığı hansı bənddə doğru verilib?
A) nağd pul vəsaitləri; bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak (qiymətli kağızlar, valyuta dəyərliləri, qeyri-istehsal binaları, minik avtonəqliyyatı, xidmət otaqlarının dizayn əşyaları və sair); hazır məhsullar (mallar), habelə

istehsalda iştirak etməyən və bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər; istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar, habelə dəzgahlar, avadanlıqlar, binalar, qurğular və digər əsas vəsaitlər; inventarizasiya aparılmaqla digər əmlak

B) bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak; nağd pul vəsaitləri; hazır məhsullar (mallar), habelə istehsalda iştirak etməyən və bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər; istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar; digər əmlak

C) nağd pul vəsaitləri; hazır məhsullar (mallar), habelə istehsalda iştirak etməyən və bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər; istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar, habelə dəzgahlar, avadanlıqlar, binalar, qurğular və digər əsas vəsaitlər; bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak; digər əmlak

D) bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak; hazır məhsullar (mallar), habelə istehsalda iştirak etməyən və bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər; istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar, habelə dəzgahlar, avadanlıqlar, binalar, qurğular və digər əsas vəsaitlər; nağd pul vəsaitləri; digər əmlak

5. Əmlakın siyahıya alınması kimin qərarına əsasən həyata keçirilir?

A) Azərbaycan Respublikasının Vergilər nazirinin

B) Azərbaycan Respublikasının Maliyyə nazirinin

C) Azərbaycan Respublikasının İqtisadi İnkişaf nazirinin

D) vergi orqanının rəhbərinin

6. Vergi orqanı tərəfindən əmlakın siyahıya alınması kimlərin iştirakı ilə həyata keçirilir?

A) müşahidəçilərin və zəruri hallarda mütəxəsislərin iştirakı ilə

B) vergi ödəyicisinin, habelə müşahidəçilərin və zəruri hallarda mütəxəsislərin iştirakı ilə

C) mütəxəsislərin iştirakı ilə
D) yalnız müşahidəçilərin iştirakı ilə
7. Əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanı vergi ödəyicisinə əmlakın siyahıya alınması prosesində iştirak etməsinə qadağa qoya bilərmi?
A) istisna hallarda qadağa qoya bilər
B) icazə verməməyə səlahiyyətli deyildir
C) icazə verməyə səlahiyyətli deyildir
D) qanunvericilikdə nəzərdə tutulmayıb

8. Əmlakın siyahıya alınması prosesində müşahidəçilərə, mütəxəssislərə və vergi ödəyicisinə hansı məsələlər izah edilməlidir?
A) əmlakın siyahıya alınmasının formaları
B) aktın doldurulma qaydası
C) vergi orqanlarının hüquq və vəzifələri
D) onların hüquq və vəzifələri

9. Əmlakın siyahıya alınmasını həyata keçirən vergi orqanının vəzifəli şəxsləri vergi ödəyicisinə hansı sənədləri təqdim etməlidirlər?
A) siyahıya alınma haqqında vergi orqanının rəhbərinin qərarını və özlərinin şəxsiyyətlərini təsdiq edən sənədi
B) siyahıya alınma haqqında vergi orqanının rəhbərinin qərarını və özlərinin vəsiqələrini
C) siyahıya alınma haqqında vergi orqanının rəhbərinin qərarını və özlərinin səlahiyyətlərini təsdiq edən sənədi
D) siyahıya alınmış əmlakın siyahısını

10. Əmlakının siyahıya alınması zamanı vergi orqanının vəzifəli şəxsləri tərəfindən hansı sənədlər tərtib edilir?
A) əmlakın siyahıya alınması haqqında protokol və əmlakın alış qiymətlərini özündə əks etdirən sənəd
B) əmlakın siyahıya alınması haqqında protokol və əmlakın siyahısı
C) əmlakın siyahıya alınması haqqında akt və əmlakın siyahısı
D) əmlakın siyahıya alınması haqqında qəydiyyat jurnalı

Test 32.

1. Əmlakının siyahıya alınması zamanı vergi orqanının vəzifəli şəxsləri tərəfindən tərtib edilən siyahıda hansı göstəricilər verilir?
A) əmlakın dəqiq adı, sayı, fərdi əlamətləri, mümkün olduqda qiymətləri
B) əmlakın dəqiq adı, istifadə müddəti
C) əmlakın dəqiq adı, istehsal ölkəsi
D) əmlakın dəqiq adı, gələcəkdə istifadə oluna biləcək həyat dövrü

2. Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması vergi ödəyicisinin həmin mallar barəsində hüquqlarının necə məhdudlaşdırılmasıdır?
A) bu elə məhdudlaşdırılmadır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malikdir
B) bu elə məhdudlaşdırılmadır ki, bu zaman vergi orqanı siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik deyildir
C) bu elə məhdudlaşdırılmadır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik deyildir
D) bu elə məhdudlaşdırılmadır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmamış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik deyildir

3. Aksiz markaları ilə markalanmalı olan aksizli malların markalanmadan və ya saxta aksiz markaları ilə markalanmaqla satışı və ya saxlanılması aşkar edildikdə, rəsmiləşdirmə hansı qaydada aparılır?
A) aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların miqdarı qanunvericiliklə müəyyən edilmiş formaya uyğun olan protokolla, hü-

quqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, protokol vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir.
B) aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların miqdarı Maliyyə Nazirliyinin müəyyən etdiyi formaya uyğun olan aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir.
C) aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların miqdarı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş formaya uyğun olan aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir.
D) aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların miqdarı Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formaya uyğun olan aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir.

4. Aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formaya uyğun olan tərtib edilmiş siyahısında hansı məlumatlar əks etdirilməlidir?
A) siyahıda malların adı, fərqləndirici əlamətləri, alış və satış qiymətləri, vergi orqanının adı, siyahıya alınanı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, ailə üzvlərinin adı, siyahıya alınanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat əks etdirilməlidir
B) siyahıda malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, vergi orqanının adı, siyahıya alma-

nı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, siyahıya alınanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumat əks etdirilməlidir

C) siyahıda malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, istifadə müddəti, saxlanma şəraiti, vergi orqanının adı, siyahıya alınanı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, siyahıya alınanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumat əks etdirilməlidir

D) siyahıda malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, əldə ediləcək gəlir məbləğləri, vergi orqanının adı, siyahıya alınanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumat əks etdirilməlidir

5. Aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların mənşə mənbəyi, alış və satış qiymətləri hansı sənədlər əsasında müəyyənləşdirilir?

A) ilkin sənədlərlə və ya alıcıdan alınmış izahatla müəyyənləşdirilir

B) vəzifəli şəxsdən alınmış izahatla müəyyənləşdirilir

C) ilkin sənədlərlə və ya vəzifəli şəxsdən (vəzifəli şəxs olmadıqda satıcıdan) alınmış izahatla müəyyənləşdirilir

D) hazır sənədlərlə və ya vəzifəli şəxsdən (vəzifəli şəxs olmadıqda satıcıdan) alınmış məlumatla müəyyənləşdirilir

6. Vergi ödəyicisinin pul vəsaitləri siyahıya alınarkən nə vaxt müvafiq büdcə hesabına depozitə qoyulur?

A) siyahıya alındığı gündən 15 gün müddətində

B) siyahıya alındığı gündən 10 gün müddətində

C) siyahıya alındığı gündən 5 gün müddətində

D) siyahıya alındığı gündən sonrakı iş günündən gec olmayaraq

7. Qızıldan, gümüşdən, platindən və platin qrupundan olan materiallardan, qiymətli daşlardan və mirvaridən hazırlanmış zərgərlik məmulatları siyahıya alınarkən qablaşdırılıb, möhürlənib məsul saxlanma üçün kimə təhvil verilir?

A) vergi ödəyicisinə (onun qanuni və səlahiyyətli nümayəndəsinə) və ya vergi orqanının müəyyən etdiyi digər şəxsə
B) vergi orqanına
C) gömrük orqanına
D) vergi ödəyicisinin səlahiyyətli nümayəndəsinə

8. Vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə, vergi orqanı hansı məqsədlə məhkəməyə müraciət edə bilər?
A) vergi orqanı siyahıya alınmış əmlakı dövlətin sərəncamına keçirmək məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər
B) vergi orqanı vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər
C) vergi orqanı vergi ödəyicisinin yükünü yüngülləşdirmək məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər
D) vergi orqanı vergidən yayınma hallarını aradan qaldırmaq məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər

9. Hansı hallarda vergi orqanı siyahıya alınmış əmlakın açıq hərracda satılması barədə dərhal məhkəməyə müraciət etməlidir?
A) siyahıya alınmış əmlakın yararlılıq müddəti 30 gün müddətində başa çatdıqda
B) siyahıya alınmış əmlakın yararlılıq müddəti başa çatdıqda
C) siyahıya alınmış əmlakın istifadə müddəti 10 gün müddətində başa çatdıqda
D) siyahıya alınmış əmlakın yararlılıq müddəti 2 ay müddətində başa çatdıqda

10. Vergi ödəyicisinin siyahıya alınmış əmlakının açıq hərracda satılması barədə vergi orqanının müraciətinə məhkəmə hansı qanunvericilik aktına uyğun olaraq baxır?
A) Mülki Məcəlləyə uyğun olaraq
B) Əmək Məcəlləsinə uyğun olaraq
C) Vergi Məcəlləsinə uyğun olaraq
D) Mülki Prosessual Məcəlləyə uyğun olaraq

X Fəsil. Fiziki şəxslərdən gəlir vergisi və hüquqi şəxslərdən mənfəət vergisi.

§10.1. Fiziki şəxslərdən gəlir vergisinin ödəyiciləri və vergitutma obyekti. Gəlir anlayışı.

Fiziki şəxslərin ödədiyi vergilər sırasında gəlir vergisi xüsusi yer tutur. İlk dəfə bu verginin tətbiqinə XVIII əsrin sonu, XIX əsrin əvvəllərində İngiltərədə cəhd göstərilib. Əsasən müharibələr və böhranlar zamanı tətbiqi nəzərdə tutulan bu vergi hər dəfə uğursuzluğa məruz qalmışdır. Gəlir vergisinin rəsmi tətbiqinə 1842-ci ildə yenidən İngiltərə hökuməti qərar verib və bu vergini ilk dəfə tətbiq edən dövlət kimi tarixə düşüb. Sonradan 1891-ci ildə Almaniyada, 1897-ci ildə Yaponiyada, 1913-cü ildə ABŞ-da və 1914-cü ildə Fransada gəlir vergisinin tətbiqinə başlanılıb. Azərbaycanda gəlir vergisinin tətbiqi 20-ci illərə təsadüf edir. Belə ki, keçmiş SSRİ-nin praktiki olaraq mövcud olmayan vergi sistemində uzun illər gəlir vergisi yeganə vergi kimi tətbiq olunmuşdur. Hazırda gəlir vergisi xarici ölkələrin əksəriyyətində tətbiq olunur. ABŞ-da gəlir vergisinin tətbiqi fərqli xüsusiyətlərə malikdir. Belə ki, fərdi gəlir vergisi adlanan bu vergi üç səviyyədən ibarət olan ABŞ-ın vergi sisteminin hər üç səviyyəsində tətbiq olunur. Həm federal, həm ştat, həm də yerli büdcələrdə fərdi gəlir vergisi üzrə daxilolmalara rast gəlmək mümkündür. Əhalidən tutulan fərdi gəlir vergisi federal büdcənin vergi daxilolmalarının əsas hissəsini təşkil edir. Fərdi gəlir vergisi fiziki şəxslərdən və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarlardan tutulur. Kanadada isə gəlir vergisi həm federal həm də regional büdcələrə ödənilir. Burada gəlir vergisi üzrə vergitutma obyektinə əmək haqqı, sahibkarlıq fəaliyyətindən gəlir, icarəyə verilən əmlakdan gəlir, faiz və dividend-

dən gəlir, kapital artımından gəlir aiddir. İspaniyada gəlir vergisini həm fərdi şəkildə, həm də ailə şəklində bəyannamə təqdim etməklə ödəmək olar. İspaniyada əldə edilən bütün gəlirlər (xaricdə əldə edilən gəlirlər də daxil olmaqla) gəlir vergisinə cəlb olunur. Burada gəlirlər iki kateqoriyaya ayrılır: mütəmadi gəlirlər və qeyri-mütəmadi gəlirlər. Mütəmadi gəlirlərə muzdlu fəaliyyətdən gəlir, kommersiya və peşəkar fəaliyyətdən gəlir, dividend, faiz və royalti gəliri və icarə ödəmələrindən alınan gəlir aiddir. Qeyri-mütəmadi gəlirlərə isə bir ildən artıq müddətdə alınmış daşınmaz əmlakın satılmasından gəlir və digər bu kimi təsadüfi gəlirlər aiddir.

Hazırda fiziki şəxslərdən gəlir vergisi Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirlərinin formalaşmasında xüsusi çəkiyə sahib olan vergi növlərindən biridir. Tətbiqinin ilk illərində bu vergi özünü doğrultmasa da, sonradan vergi qanunvericiliyində aparılan təkmilləşdirmə işləri gəlir vergisi üzrə daxilolmaların armasına gətirib çıxarmışdır. Belə ki, əgər 2000-ci ildə gəlir vergisi üzrə büdcə daxilolmaları 94 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddi 317.4 milyon manata, 2009-cu ildə 581.9 milyon manata, 2010-cu ildə 590.2 milyon manata və nəhayət 2011-ci ildə 715.7 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə gəlir vergisi üzrə 722 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Azərbaycan Respublikasında rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridirlər. Rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir. Xüsusi notarius tərəfindən bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan

haqlar (xərclər nəzərə alınmadan) vergitutma obyektidir. Ödəmə mənbəyində vergi tutulduğu halda, vergitutma obyekti vergiyə cəlb olunan gəlirdir. Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezident vergi ödəyicisi daimi nümayəndəliyi ilə əlaqədar olan vergiyə cəlb edilən gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir.

Vergiyə cəlb olunan gəlir, konkret dövrdə Azərbaycan mənbələrindən daimi nümayəndəliklə bağlı əldə edilən ümumi gəlirlə həmin dövrdə bu gəlirlərin əldə edilməsi ilə əlaqədar çəkilən və gəlirdən çıxılan məbləğ arasındakı fərqdir.

Qeyri-rezidentin vergiyə cəlb edilməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 125-ci maddəsində (ARVM m-125. Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması) nəzərdə tutulan ümumi gəliri, gəlirdən çıxılan məbləğ nəzərə alınmadan ödəniş yerində vergitutma obyektidir.

Məşğulluqdan və ya əmlakın təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident fiziki şəxs Azərbaycan mənbəyindən təqvim ili ərzində əldə etdiyi bu növ ümumi gəlirin Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyənləşdirilən, həmin dövrdə bu gəlirə aid olan və ondan çıxılan xərclər qədər azaldılan məbləği üzrə gəlir vergisinin ödəyicisidir.

Gəlir. Rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. Qeyri-rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirlərdən ibarətdir.

Gəlirlərə - muzdlu işlə əlaqədar əldə edilən gəlir; muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir və vergilərdən azad edilən gəlirlərdən və əsas vəsaitlərin ye-

nidən qiymətləndirilməsindən yaranan artımdan başqa bütün digər gəlirlər aiddir.

Fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əmək haqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir. Bu məqsədlər üçün gəlirin məbləği, aşağıda göstərilən məbləğdən işçinin əldə etdiyi gəlirə görə ödədiyi hər hansı xərc çıxıldıqdan sonra qalan məbləğə bərabərdir:

1. fiziki şəxsə banklararası kredit hərracında olan faiz dərəcəsindən aşağı faiz dərəcəsi ilə ssuda verildiyi halda - bu tipli ssudalar üzrə banklararası kredit hərracında olan faiz dərəcəsinə uyğun faizlə ödənməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun ödənməli olan məbləğ arasındakı fərq;
2. işə götürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda - bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyəri;
3. işçinin xərclərinin əvəzi ödənildiyi halda - ödənilən vəsaitin məbləği;
4. işçinin işə götürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı halda - həmin borcun və ya öhdəliyin məbləği;
5. işəgötürən tərəfindən ödənilən sığorta haqları;
6. hər hansı digər halda - normativ-hüquqi aktlarda başqa qiymətləndirmə metodu göstərilmirsə, bazar qiymətinə (ARVM m-14.) uyğun olaraq müəyyən edilən dəyər.

Faktiki ezamiyyə xərclərinin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin və ya digər işgüzar xərclərin əvəzinin ödənilməsi gəlirə daxil deyildir.

Yuxarıdakı 6 bənddə göstərilən məbləğlərə və xərclərə aksizlər, əlavə dəyər vergisi və qiymətləndirilən

əqdlə əlaqədar işə götürənin ödəməli olduğu hər hansı digər vergi daxildir.

İşə götürən tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 109.3-cü maddəsində (ARVM m-109.3. Əyləncə və yemək xərclərinin (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir.) nəzərdə tutulmuş xərclərin çəkilməsinin nəticəsi kimi əldə edilən gəlir vergi tutulan gəlirə aid deyildir.

Muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlər sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən, gəlirlərdən ibarətdir. Sahibkarlıq fəaliyyətindən gəlirlərə - sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir; sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alınan gəlir; əsas vəsaitlərin təqdim edilməsindən alınan və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 114.7-ci maddəsinə (ARVM m-114.7. Əsas vəsaitlərin (vəsaitin) təqdim edilməsindən əldə olunan məbləğ həmin əsas vəsaitlərin (vəsaitin) qalıq dəyərindən artıqdırsa yaranmış fərq gəlirə daxil edilir.) uyğun olaraq gəlirə daxil edilən məbləğlər; gəlirdən çıxılan kompensasiya edilən məbləğlərdən və ya ehtiyatların azalmasından gəlir aiddir.

Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlərə - faiz gəliri; dividend; əmlakın icarəyə verilməsindən gəlir; royalti; vergi ödəyicisinə bağışlanmış borcun məbləği (işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı hallar istisna olmaqla); sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən

gəlir; təqvim ili ərzində alınan hədiyyə və mirasların məbləği (işəgötürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda - bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyəri istisna olmaqla); vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir (təqdim olunduğu təqdirdə) - əmək haqqından başqa; həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq; xüsusi notarius tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar və vəkillik fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən bu fəaliyyətlə bağlı göstərilən xidmətə görə alınan haqlar aiddir.

Fiziki şəxsin aldığı və Azərbaycan Respublikasında ödəmə mənbəyindən vergi tutulmuş dividend, faiz, icarə haqqı və royalti gəlirdən çıxılır.

Fiziki şəxslərin aylıq gəlirindən aşağıdakı dərəcələrlə vergi tutulur:

- vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz;

- vergi tutulan aylıq gəlirin məbləği 2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi.

İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir. Fiziki şəxslərin ödəmə mənbəyində vergiyə cəlb olunan gəlirlərindən vergi yuxarıdakı dərəcələrə uyğun olaraq hesablanır və dövlət büdcəsinə ödənilir.

Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur:

- vergi tutulan illik gəlirin məbləği 30000 manatadək olduqda 14 faiz;

- vergi tutulan illik gəlirin məbləği 30000 manatdan çox olduqda 4200 manat + 30000 manatdan çox olan məbləğin 25 faizi

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20 faiz dərəcə ilə vergi tutulur. Xüsusi notarius üçün (ödəmə mənbəyində vergi tutulduğu halda) vergitutma obyektindən 10 faiz dərəcə ilə vergi tutulur.

Beynəlxalq təcrübədə gəlir vergisinin tətbiqinin müxtəlif formalarına rast gəlmək mümkündür. Misal üçün, ABŞ-da fərdi gəlir vergisinin dərəcələri 15-33% arasında dəyişir və fiziki şəxsin gəliri 17850 dollaradək olduqda 15%-lə, 17851 dollardan 43150 dollaradək olduqda 28%-lə, 43151 dollardan 89560 dollaradək olduqda 33%-lə, 89560 dollardan yuxarı olduqda isə 28%-lə gəlir vergisinə cəlb edilir. Burada, 33%-lə vergi ödəyən fiziki şəxs 5% qənaət etmək üçün daha çox gəlir əldə etməyə çalışırlar, bu isə sosial-iqtisadi rifah halının davamlı olaraq yüksəlməsilə nəticələnir. Ştat büdcələrinə ödənilən fərdi gəlir vergisinin dərəcələri isə 2-10% arasında dəyişir. Almaniyada gəlir 13499 avroyadək olduqda gəlir vergisi tutulmur, 13500 avrodan 17495 avroyadək olduqda 22.9-25%, 17496 avrodan 114695 avroyadək olduqda 25.01-51%, 114695 avrodan yuxarı olduqda isə 51% gəlir vergisi tətbiq edilir. İspaniyada gəlir vergisi 6 pilləli proqressiv şkala üzrə tətbiq edilir və vergi dərəcələri 18-48% arasında dəyişir. Belə ki, fiziki şəxsin gəliri 3678,19 avroyadək olduqda 18%, 3678,19 avrodan 12873,68 avroyadək olduqda 24%, 12873,68 avrodan 25134,33 avroyadək olduqda 28,3%, 25134,33 avrodan 40460,13 avroyadək olduqda 37,2%, 40460,13 avrodan 67433,56 avroyadək olduqda 45%, 67433,56 avrodan yuxarı olduqda isə 48% gəlir vergisi tətbiq edilir: İtaliyada gəlir vergisi yeddi pilləli proqressiv şkala üzrə tutulur. Belə ki, gəlir 4096 avroya-

dək olduqda 10%, 4097 avrodan 8192 avroyadək olduqda 22%, 8193 avrodan 20480 avroyadək olduqda 26%, 20481 avrodan 40960 avroyadək olduqda 33%, 40961 avrodan 102400 avroyadək olduqda 40%, 102401 avrodan 205312 avroyadək olduqda 45% və 205312 avrodan yuxarı olduqda isə 50% gəlir vergisi tətbiq edilir. İtaliyada tətbiq edilən gəlir vergisinin fərqli xüsusiyyəti vergi ödəyicisinin vergi tutulan məbləğdən bir çox xərclərini çıxmaq səlahiyyətinə malik olmasıdır. Belə ki, vergi ödəyicisi - yerli büdcəyə ödədiyi gəlir vergisinin məbləğini, daşınmaz əmlaka görə və ya icarəyə görə ödədiyi haqqı, aldıqları ipoteka krediti üzrə faizləri, müalicə xərclərini, təhsil xərclərini (dövlət müəssisələrində müəyyən olunmuş təhsil haqlarından çox olmamaq şərtilə), alimentləri, sosial ayırmaları, sığorta haqlarını (bədbəxt hadisələrə görə və həyatın mühafizəsinə görə), incəsənət əsərlərinin qorunması məqsədilə aparılan təmirə çəkilən xərcləri, aclıqla mübarizə fonduna köçürmələri (vergi tutulan məbləğin 2%-i həcmində), teatr birliklərinə yardımları, icarə müqavilələrinin icarədar tərəfindən pozulması nəticəsində yaranan itkiləri, kilsəyə ödənilən ianələri vergi tutulan məbləğdən çıxmaq hüququna malikdirlər. Çində gəlir vergisinin tətbiqi xüsusiyyətləri daha maraqlıdır. Əmək haqqına hesablanan vergilər doqquz pilləli proqressiv şkala üzrə tutulur və vergi dərəcələri 5-45% arasında dəyişir. Belə ki, fiziki şəxsin gəliri 500 yuana qədər olduqda 5%, 501 yuandan 2000 yuanadək olduqda 10%, 2001 yuandan 5000 yuanadək olduqda 15%, 5001 yuandan 20000 yuanadək olduqda 20%, 20001 yuandan 40000 yuanadək olduqda 25%, 40001 yuandan 60000 yuanadək olduqda 30%, 60001 yuandan 80000 yuanadək olduqda 35%, 80001 yuandan 100000 yuanadək olduqda 40%, 100000 yuandan yuxarı olduqda isə 45% gəlir vergisi tətbiq edilir. Digər maraqlı xüsusiyyət isə bütün məbləğlərə 800 yuan

həcmində vergi tutulmayan minimumun tətbiq edilməsidir. Nigeriyada da gəlir vergisi doqquz pilləli proqressiv şkala üzrə tutulur. Belə ki, gəlir 2000 nayradək olduqda 10%, növbəti 2000 nayr üçün 15%, növbəti 2000 nayr üçün 20%, növbəti 2000 nayr üçün 25%, növbəti 2000 nayr üçün 30%, növbəti 5000 nayr üçün 40%, növbəti 5000 nayr üçün 45%, növbəti 10000 nayr üçün 55% və 30000 nayrdan yuxarı olduqda 70% gəlir vergisi tətbiq edilir.

Göründüyü kimi; xarici ölkələrdə gəlir vergisinin tətbiqinin özünəməxsus xüsûsiyyətləri vardır. Hesab edirik ki, beynəlxalq təcrübədən istifadə edərək gəlir vergisinin tətbiqi təkmilləşdirilməli, ilk növbədə vergi tutulmayan minimum həddə və aşağı gəlirli fiziki şəxslər üçün minimum dərəcələr müyyən edilməlidir.

§10.2. Gəlir vergisindən azadolmalar və güzəştlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində gəlir vergisi üzrə bir sıra güzəştlər və azadolmalar nəzərdə tutulmuşudur. Azərbaycan Respublikasında fiziki şəxslərin aşağıdakı gəlirləri gəlir vergisindən azaddır:

1. rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əmək haqqı, Azərbaycan vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğulluğundan gəlir;
2. Azərbaycan Respublikasının rezidenti olmayan şəxsin iş yerindən gəlir - əgər bu gəlir Azərbaycan Respublikasının rezidenti olmayan işəgötürən tərəfindən, yaxud onun adından ödənilirsə və qeyri-rezidentin daimi nümayəndə-

liyi tərəfindən və ya onun adından, yaxud daimi nümayəndəlikdə fəaliyyəti ilə əlaqədar ödənilmirsə;
3. təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və miraslar:
3.1. hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 2000 manatadək olan hissəsi, mirasların dəyərinin 20000 manatadək olan hissəsi; (təhsil və ya müalicə haqları almış şəxslərə bu güzəşt o halda verilir ki, həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edilmiş olsun.)
3.2. hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda onun tam dəyəri.
4. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə, işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının Prezidentinin qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar;
5. alimentlər;
6. Fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 200 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun (2013-cü il üçün 125 manat) 1 misli, illik gəliri 2400 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi;

7. qiymətli daşlardan və metallardan, qiymətli daşlar və metalların məmulatlarından, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya istifadə edilmiş əmlakdan başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlir;
8. sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər;
9. vergi ödəyicisinin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakının təqdim edilməsindən gəlir;
10. dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;
11. bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər;
12. sənətkarlığın misgərlik, qalayçılıq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri;
13. müvafiq qaydada qeydiyyatdan keçmiş lotereyalardan, habelə dövlət daxili uduşlu istiqrazlardan əldə olunan uduşların dəyəri;

14. Fiziki şəxslərə kompensasiya xarakterli aşağıdakı ödəmələr:
14.1. iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği;
14.2. müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin məbləğləri;
14.3. ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri;
14.4. əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri və işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə verilən xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin dəyəri;
14.5. istehsalatdan ayrılmaqla təhsil almağa göndərilmiş tələbələrə, aspirantlara (magistrlərə) müəssisə və təşkilatların hesabına ödənilən təqaüd məbləğləri;
14.6. təbii fəlakət və digər fövqəladə hallarla əlaqədar müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında, habelə xarici dövlətlər və digər təşkilatlar tərəfindən göstərilən birdəfəlik yardımlar;
14.7. verdikləri qana görə donorlara ödənilən kompensasiya məbləğləri;
14.8. dalğıc işləri üçün pul mükafatı;
14.9. ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri və fondları tərəfindən verilən maddi yardımlar;

14.10. hərbi qulluqçulara, prokurorluq orqanlarının prokurorluq işçilərinə və prokurorluq işçiləri olmayan hərbi qulluqçularına, hüquq mühafizə və feldyeger rabitəsi orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarına ödənilən bütün növ ödənişlər (vəzifə və hərbi (xüsusi) rütbəyə görə maaşlar istisna olmaqla), habelə, əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərə, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərə ödənilən bütün növ əmək haqqı, mükafat və digər maddi təminatlar;
14.11. işəgötürən tərəfindən işçinin hərbi və alternativ xidmətə çağırılması ilə əlaqədar ödənilən müavinətlərin qanunvericilikdə nəzərdə tutulan məbləği;
15. yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində isə - 200 manatadək;
16. dövlət qulluqçusuna pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq;
17. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına və hakimlərə öz səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün qanunla müəyyən edilmiş miqdarda verilən aylıq pul təminatı və Azərbaycan Respublikasının Prezidentinin qərarı ilə vəzifəyə təyin olunan Azərbaycan Respublikasının icra hakimiyyəti və digər dövlət orqanlarının (təsisatlarının) rəhbər işçilərinə səlahiyyətlərinin icrası ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün verilən vəzifə maaşlarına aylıq əlavə pul təminatı.
18. «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikasının Qanununun 53-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarından əldə edilən uduşlar;

19. Azərbaycan Respublikasının keçmiş Prezidentinə və onun ailə üzvlərinə ödənilən pensiya, müavinət və digər ödənişlərin məbləği;
20. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir (əmək haqqından tutulan gəlir vergisi istisna olmaqla) - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 7 il müddətinə.

Qeyd olunan azadolmalardan başqa Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən kateqoriyadan olan fiziki şəxslər üçün güzəştlər də nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının; Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının; müharibə əlillərinin; həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının və ya ərlərinin; 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin; qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin və Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. Qeyd edək ki, Rusiyada Çernobıl AES-də qəza və digər radiasiya qəzaları nəticəsində xəsarət alanlara, Böyük Vətən müharibəsində əlil olanlara, habelə SSRİ və Rusiyanın müdafiəsi nəticəsində əlil olmuş hərbi qulluqçulara verilən güzəşt 3000 rubl, yəni 75 manat təşkil edir.

Bundan əlavə I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Bəzi fiziki şəxslərin isə hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Bu kateqoriyaya həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və təkrar nikaha girməmiş arvadları (ərləri); 1990-cı il 20 yanvar hadisələri nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və təkrar nikaha girməmiş arvadları (ərləri); Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər; daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyumlar; məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər (mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslər istisna olmaqla) aiddir.

Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır. Bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 yaşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır. Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır. Himayədə olanların sayı il ərzində azaldıqda (uşaqların ölüm halları istisna olmaqla) hima-

yədə olanların sayının azaldığı aydan sonrakı aydan başlayaraq onların saxlanması üçün məbləğin çıxılmasına xitam verilir. Təqaüd, pensiya və işsizlik müavinəti alan şəxslər (uşaqlardan başqa); dövlət təminatında olan texniki-peşə məktəblərinin şagirdləri, uşaq və körpə evlərində tərbiyə alanlar; xüsusi məktəblərin şagirdləri və internat evlərində olan, saxlanmasına görə qəyyumlardan haqq alınmayan uşaqlar, habelə tam dövlət təminatındakı məktəblər yanında internatlarda olan uşaqlar himayədə olanlara aid edilmirlər.

50 manatlıq güzəşt istisna olmaqla fiziki şəxsin hər hansı bir güzəşt hüququ (400 manat, 200 manat və ya 100 manat) olduqda, ona bu güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir.

Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin yuxarıda sadalanan vergi güzəştləri hüququ Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində, yəni, əmək kitabçasının olduğu yerdə həyata keçirilir.

§10.3. Hüquqi şəxslərdən mənfəət vergisinin ödəyiciləri və vergitutma obyekti.

Azərbaycan Respublikasında tətbiq edilən hüquqi şəxslərdən mənfəət vergisi beynəlxalq vergitutma təcrübəsində koorporasiyalardan vergi, koorporasiyaların gəlirlərindən vergi, korporativ vergi, təşkilatların gəlirlərindən vergi kimi adlandırılır. Lakin, necə adlandırılmasından asılı olmayaraq bu verginin iqtisadi mahiyyəti eynidir. Azərbaycan Respublikasında tətbiq edilən vergilərdən ən çox islahatlara məruz qalan vergi növü hüquqi şəxslərdən mənfəət vergisidir. Belə ki, mənfəət vergisinin dərəcəsi

mərhələlərlə əvvəlcə 27%-ə, sonra 25%-ə, sonra 24%-ə, sonra 22%-ə və nəhayət 20%-ə qədər endirilmişdir. Nəticədə isə bu vergi növü üzrə büdcə daxilolmalarında sürətli artım müşahidə olunmuşdur. Belə ki, əgər 2000-ci ildə mənfəət vergisi üzrə büdcə daxilolmaları 125.9 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddə 355.4 milyon manata, 2009-cu ildə 1 milyard 329.2 milyon manata, 2010-cu ildə 1 milyard 429.9 milyon manata və nəhayət 2011-ci ildə 2 milyard 134 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə mənfəət vergisi üzrə 1 milyard 780 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləri hesab olunurlar. Fiziki şəxs olmayan hər hansı xarici şəxs birgə sahibkarlıq fəaliyyətinin obyekti kimi baxılmalı olmadığını sübut etməyincə, ona müəssisə kimi baxılır.

Yuxarıdakı müddəalar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış hüquqi şəxslərin sərbəst balansa, cari və ya digər hesablara malik olan filiallarına, struktur bölmələrinə və ya digər ayrıca bölmələrinə şamil edilmir.

Rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Vergidən azad edilən gəlirdən başqa vergi ödəyicisinin bütün gəlirləri ilə gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir.

Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisəsi bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

Qeyri-rezidentin daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 125-ci maddəsində (ARVM m-125. Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması) nəzərdə tutulduğu hallarda xərclər çıxılmadan ödəmə mənbəyində vergiyə cəlb olunur.

Azərbaycan Respublikasındakı daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisəsinin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur.

Əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) mənfəət vergisinin vergitutma obyekti deyildir.

Müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur. Qeyri-rezidentin daimi nümayəndəliyinin fəaliyyəti ilə bağlı olmayan, lakin Azərbaycan mənbəyindən əldə edilən ümumi gəlirindən (ƏDV və aksizlər çıxılmaqla) Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 125-ci maddəsində (ARVM m-125. Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması.) göstərilən dərəcələrlə vergi tutulur.

Beynəlxalq vergitutma təcrübəsinə nəzər saldıqda görürük ki, mənfəət vergisinin vahid dərəcəsi heç bir ölkədə tətbiq olunmur. Hətta, bəzi ölkələrdə mənfəət vergisinin tətbiqi proqressiv şkala üzrə həyata keçirilir. Misal üçün, ABŞ-da korparasiyanın gəliri 50 min dollaradək olduqda 15%, 50 min dollardan 75 min dollaradək olduqda 25%, 75 min dollardan 100 min dollaradək olduqda 34%, 100 min dollardan 335 min dollaradək olduqda 39%, 335 min dollardan 10 milyon dollaradək olduqda 34%, 10 mil-

yon dollardan 15 milyon dollaradək olduqda 35%, 15 milyon dollardan 18 milyon 333 min 333 dollaradək olduqda 38% və bu məbləğdən yuxarı olduqda isə 35% vergi tətbiq edilir. Böyük Britaniyada tətbiq edilən korporativ verginin özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, kompaniyaların illik xalis gəliri 300 min funt sterlinqə qədər olduqda 25%, 1,5 milyon funt sterlinqdən yuxarı olduqda 33%, 300 min funt sterlinqdən 1,5 milyon funt sterlinqədək olduqda isə 300 min funt sterlinqə qədər olan hissə 25%-lə, yaranan fərq isə 35%-lə korporativ vergiyə cəlb edilir. Böyük Britaniyada tətbiq edilən korporativ vergi ən yüksək dərəcəli vergi kimi də seçilir. Belə ki, Şimal dənizində neft hasil edən kompaniyalar 75%-lə korporativ vergiyə cəlb edilirlər. Hətta, Böyük Britaniyada bu vergini «korporativ neft vergisi» də adlandırırlar. İspaniyada isə müəssisələrin gəlirləri fərqləndirilir və hər gəlir növü fərqli dərəcə ilə vergiyə cəlb edilir. İspaniyada daimi nümayəndəlik vasitəsilə gəlir əldə edən xarici hüquqi şəxslər 35%-lə, İspaniya mənbələrindən əldə edilən gəlirlər (dividend, faiz, royalti, daşınmaz əmlakın icarəyə verilməsindən gəlir) 25%-lə, kredit kooperativlərinin gəliri 26%-lə, istehsal kooperativləri 20%-lə, neft sektorunda olan kompaniyalar isə 40%-lə vergiyə cəlb edilir. Yaponiyada korparasiyaların gəlirindən verginin standart dərəcəsi 33,48% təşkil edir. Prefektura səviyyəsində bu vergi standart verginin 5%-i (gəlirin 1,67%-i), bələdiyyə səviyyəsində isə 12,3% (gəlirin 4,12 %-i) miqdarında tətbiq edilir.

§10.4. Hüquqi şəxslərin mənfəət vergisi üzrə azadolmalar və güzəştlər.

Vergi qanunvericiliyində mənfəət vergisi üzrə azadolma və güzəştlərin nəzərdə tutulması olduqca təqdirəlayiq haldır. Çünki, istənilən dövlətin vergi gəlirlərinin for-

malaşmasında mənfəət vergisi üzrə daxilolmaların xüsusi rolu vardır. Əvvəlki paraqrafda beynəlxalq təcrübədə olduqca yüksək dərəcələrin tətbiq olunduğunun şahidi olduq. Misal üçün ABŞ-da, İspaniyada, Yaponiyada və s... Lakin, bu ölkələr vergi yükünü yumşaltmaq üçün vergi güzəştlərindən geniş istifadə edirlər. İspaniyada yüksək dərəcələr tətbiq olunmasına baxmayaraq, qapalı investisiya kompaniyaları, peşəkar assosasiyalar, müvəqqəti müəssisələr ittifaqları, hər hansı bir əmtəənin istehsalı üzrə müqavilə əsasında fəaliyyət göstərən qısamüddətli müəssisələr, iqtisadi maraq qrupları bu vergini ödəməkdən azaddırlar. ABŞ-da vergi hesablanarkən xalis gəlirdən ştat və yerli büdcələrə ödənilən vergilər, qız kompaniyaların tam mülkiyyətində olan dividenddən alınan gəlirlər, xeyriyyə fondlarına ianələr, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə qoyulan investisiyalar gəlirdən çıxılır. Hətta, alternativ enerji (günəş enerjisi, külək enerjisi) mənbələrindən istifadə edən korparasiyalara onların avadanlıqlarının 50%-i həcmində «vergi krediti» də nəzərdə tutulur.

Azərbaycanda da mənfəət vergisi üzrə azadolma hüququ olan hüquqi şəxslər fəaliyyət göstərir ki, qanunvericiliklə onlara verilən imtiyazlar heç də xarici ölkələrdən geri qalmır. Belə ki, xeyriyyə təşkilatlarının gəlirləri, beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri, dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri və sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəlirləri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa) mənfəət vergisindən azaddır. Eyni zamanda əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr alan qeyri-kommersiya təşkilatları da mənfəət vergisinin ödəyicisi deyillər. Dövlət müəssisələrindən Azərbaycan Respublikasının Mərkəzi Bankının,

onun qurumlarının və Azərbaycan Respublikası Dövlət Neft Fondunun, habelə Əmanətlərin Sığortalanması Fondunun gəlirləri mənfəət vergisindən azaddır.

Bəzi hallarda hüquqi şəxsin qərarı ilə onun özünün və onun tam mülkiyyətində olan rezident törəmə müəssisələrinin birinin balansından digərinin balansına əvəzsiz olaraq aktivlər verilir və yaxud müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən bir hüquqi şəxsin balansından əvəzsiz olaraq digər şəxsin balansına əsas vəsaitlər verilir. Bu hallarda aktivlərin və yaxud əsas vəsaitlərin dəyəri mənfəət vergisindən azaddır.

Neft-qaz sənayesinin sürətlə inkişaf etdiyi bir şəraitdə bu sahədə Azərbaycanı təmsil edən tərəflərə imtiyazların verilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Respublikasının Vergi Məcəlləsində neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq əsas fondların, daşınar əmlakın və digər aktivlərin hər hansı şəkildə həmin sazişlərdə Azərbaycan Respublikasını təmsil edən tərəfə təqdim edilməsi üzrə əməliyyatlar mənfəət vergisindən azad edilib.

Vergi qanunvericiliyində hüquqi şəxslərin əvvəlcədən gözlənilməyən gəlirləri üçün də azadolmalar nəzərdə tutulmuşdur. Belə ki, alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlirlər mənfəət vergisindən azaddır.

Azərbaycan hökümətinin həyata keçirdiyi vergi siyasətinin əsasını vergi yükünün azaldılması istiqamətində aparılan islahatlar təşkil edir. Bu uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edi-

lən son dəyişikliklərdən sonra mənfəət vergisi üzrə azadolmaların siyahısına iki bənd də əlavə edildi. Artıq 1 yanvar 2013-cü il tarixindən etibarən müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının idarəedici təşkilatının və ya operatorunun mənfəətinin sənaye və texnologiyalar parkının infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi və sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir - (qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 7 il müddətinə) mənfəət vergisindən azaddır.

Azadolmalarla yanaşı Azərbaycan Respublikasının Vergi Məcəlləsində mənfəət vergisi üzrə bir güzəşt də nəzərdə tutulmuşdur. Belə ki, əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. Bu güzəştlərin alınması hüququ müəyyən edilərkən işçilərin orta siyahı sayına əvəzçilik, podrat müqavilələri və mülki-hüquqi xarakterli digər müqavilələr üzrə işləyən əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər daxil edilmir.

§10.5. Gəlirdən çıxılan və çıxılmayan xərclər.

Gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən əsas vəsaitlərin alınmasına və qurulmasına çəki-

lən xərclərin və kapital xarakterli digər xərclərin, qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclərin, əyləncə və yemək xərclərinin (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir. Əmək haqqı kartlarının alınmasına çəkilən xərclər istisna olmaqla, fiziki şəxsin fərdi istehlakla və ya əmək haqqının alınması ilə bağlı olan xərcləri və faktiki ezamiyyə xərclərinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyənləşdirdiyi normadan artıq olan hissəsi gəlirdən çıxılmır. Əgər sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəaliyyət çərçivəsində çəkilirsə, müvafiq olaraq əyləncə və sosial xərclər gəlirdən çıxılır.

Xaricdən alınmış borclar üzrə, habelə qarşılıqlı surətdə asılı olan şəxslərin bir-birinə ödədikləri faizlərin faktiki məbləği (hesablamalar metodundan istifadə edildikdə - ödənilməli faizlərin məbləği) faizlərin aid olduğu dövrdə eyni valyuta ilə, oxşar müddətə verilmiş banklararası kredit hərracında olan və ya hərraclar keçirilmədiyi təqdirdə Azərbaycan Respublikası Mərkəzi Bankının dərc etdiyi banklararası kreditlər üzrə faizlərin orta səviyyəsinin 125 faizdən artıq olmamaqla gəlirdən çıxılır.

Ümidsiz borcların gəlirdən çıxılması Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən aşağıdakı kimi həyata keçirilir:

1. Əgər malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə əlaqədar gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilmiş-

dirsə, vergi ödəyicisi onlarla bağlı olan ümidsiz borc məbləğini gəlirdən çıxmaq hüququna malikdir;
2. Ümidsiz borc məbləğinin gəlirdən çıxılmasına vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silindiyi vaxt yol verilir;
3. Banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları qanunvericiliyə müvafiq qaydada aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada gəlirdən çıxmaq hüququna malikdirlər.

Sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş normalara uyğun olaraq ehtiyat sığorta fondlarına ayırma məbləğlərini gəlirdən çıxmaq hüququna malikdir.

Gəlir götürmək məqsədi ilə aparılan elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclər (əsas vəsaitlərin alınması və qurulması ilə bağlı xərclər, habelə kapital xarakterli digər xərclər istisna olmaqla) gəlirdən çıxılır.

Torpaq, incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar, qurğular (tikililər) və köhnəlməyə məruz qalmayan aşağıdakı aktivlər amortizasiya olunmur:
1. elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün kabinetlərdə və laboratoriyalarda istifadə edilən avadanlıqlar, eksponatlar, nümunələr, fəaliyyətdə olan və olmayan modellər, maketlər və başqa əyani vəsaitlər;
2. məhsuldar heyvanlar (damazlıq inəklər, camışlar, madyanlar, dəvələr, marallar, donuzlar, qoyunlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və bunlar kimi digər məhsuldar heyvanlar);
3. heyvanxanalarda və digər analoji müəssisələrdə olan heyvanat aləminin eksponatları;
4. istismar vaxtı çatmayan çoxillik əkmələr;

5. kitabxana fondları, kinofondlar (video, audio, foto), səhnə rekvizitləri, muzey sərvətləri (eksponatları);
6. istismara yararlı tam amortizasiya olunmuş əsas vəsaitlər;
7. konservasiya edilmiş əsas vəsaitlər;
8. ümumi istifadədə olan avtomobil yolları;
9. ümumi istifadədə olan parklardakı avadanlıqlar;
10. istismara verilməmiş anbarda olan əsas vəsaitlər.

Sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətində istifadə edilən əsas vəsaitlər üzrə amortizasiya ayırmaları aşağıda müəyyənləşdirilən faizlərə uyğun olaraq gəlirdən çıxılır.

Amortizasiya olunan aktivlər üzrə illik amortizasıya normaları aşağıdakı kimi müəyyən edilir:
1. binalar, tikintilər və qurğular - 7%-dək;
2. maşınlar, avadanlıq və hesablama texnikası - 25%-dək;
3. nəqliyyat vasitələri - 25%-dək;
4. iş heyvanları - 20%-dək;
5. geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər - 25%-dək;
6. qeyri-maddi aktivlər - istifadə müddəti məlum olmayanlar üçün 10 faizədək, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə;
7. digər əsas vəsaitlər - 20%-dək;

Əsas vəsaitlərin kateqoriyaları üzrə amortizasıya ayırmaları yuxarıda müəyyən edilən hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin sonuna qalıq dəyərinə tətbiq etməklə hesablanır. Hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş amortizasiya normalarından aşağı norma tətbiq olunduqda, bunun nəticəsində yara-

nan fərq növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə oluna bilər.

Binalar, tikililər və qurğular üçün amortizasiya ayırmaları hər tikili üzrə ayrılıqda aparılır.

Amortizasiya hesablanması məqsədləri üçün əsas vəsaitlər üzrə vergi ilinin sonuna qalıq dəyəri aşağıdakı qaydada müəyyənləşdirilən (lakin sıfırdan aşağı olmayan) məbləğdən ibarət olur: əsas vəsaitlərin əvvəlki ilin sonuna qalıq dəyərinə (həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) cari ildə daxil olmuş əsas vəsaitlərin dəyəri, habelə cari ildə təmir xərclərinin məhdudlaşdırmadan artıq olan hissəsi əlavə edilir, vergi ilində təqdim edilmiş, ləğv edilmiş və ya qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərin 5 faizindən az olduqda əsas vəsaitlərin qalıq dəyəri çıxılır. Əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) amortizasiya hesablanması məqsədləri üçün əsas vəsaitlərin vergi ilinin sonuna qalıq dəyərinə əlavə olunmur.

Əsas vəsaitlərin təqdim edilməsindən əldə olunan məbləğ həmin əsas vəsaitlərin qalıq dəyərindən artıqdırsa yaranmış fərq gəlirə daxil edilir. İlin sonuna əsas vəsaitin qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olduqda, qalıq dəyərinin məbləği gəlirdən çıxılır. Əsas vəsaitlərin təqdim edilməsindən əldə olunan məbləğ, həmin əsas vəsaitlərin qalıq dəyərindən azdırsa, yaranmış fərq gəlirdən çıxılır.

Təmirlə bağlı xərclərin gəlirdən çıxılması. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq binalar, tikintilər və qurğuların ilin sonuna qalıq dəyərinin 2 faizi, maşınların, avadanlıqların, hesablama texnikasının və nəqliyyat vasitələrinin ilin sonuna qalıq dəyərinin 5 faizi, nəqliyyat vasitələrinin ilin so-

nuna qalıq dəyərinin 3 faizi və köhnəlmə hesablanmayan əsas vəsaitlər üzrə sıfır faizi həddi ilə məhdudlaşdırılır. Təmir xərclərinin faktiki məbləği bu hədd ilə müəyyənləşdirilən məbləğdən az olduqda, gəlirdən təmir xərclərinin faktiki məbləği çıxılır. Bu halda növbəti vergi illərində təmir xərclərinin gəlirdən çıxılan məbləğ həddi təmir xərclərinin faktiki məbləği ilə müəyyənləşdirilmiş hədd üzrə hesablanmış məbləği arasındakı fərq qədər artırılır. Yuxarıda müəyyən edilən məhdudlaşdırmadan artıq olan məbləğ cari vergi ilinin sonuna əsas vəsaitlərin qalıq dəyərinin artmasına aid edilir. Amortizasiya olunmayan, köhnəlmə hesablanmayan əsas vəsaitlərin təmirinə çəkilmiş xərclər gəlirdən çıxılmır və onların balans dəyərini artırır.

İcarəyə götürülmüş əsas vəsaitlər üzrə təmir xərclərinin gəlirdən çıxılması aşağıdakı bəndlərə uyğun olaraq müəyyən edilir:

1. İcarəyə götürülmüş əsas vəsaitlərin təmiri üzrə xərclərin gəlirdən çıxılan məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinin bu yarımbölmənin birinci abzasında müəyyən edilən faiz həddi ilə məhdudlaşdırılır;
2. Əsas vəsaitlərin icarəyə götürülməsi müddətləri, şərtləri, habelə onların təmiri üzrə xərclər qanunvericilikdə nəzərdə tutulmuş qaydada icarəyə verənlə icarəçi arasında bağlanan müqavilədə razılaşdırılır;
3. Təmir işləri icarəyə verənin hesabına aparıldıqda, yaxud icarəçinin hesabına aparılaraq, icarə haqqı ilə əvəzləşdirildikdə qeyd edilən qaydalar icarəçiyə tətbiq edilmir;
4. Əsas vəsaitlərin hər bir kateqoriyasının ilin sonuna qalıq dəyəri sıfıra bərabər olduqda, təmir xərclərinin faktiki məbləği müvafiq kateqoriyaya aid əsas vəsaitlərin qalıq dəyərinə aid edilir və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq amortizasiya hesablanır.

Bu müddəalar yalnız təmir xərclərinin gəlirdən çıxılan məbləğini məhdudlaşdırır və vergi ödəyicilərinin digər mənbələr hesabına təmir işlərini həyata keçirməsini qadağan etmir.

Sığorta haqlarının gəlirdən çıxılması. Öz işçilərinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə xarici sığortaçılar ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları istisna olmaqla, sığortalının ödədiyi sığorta haqları gəlirdən çıxılır. Fiziki şəxsin Azərbaycan Respublikası sığortaçıları ilə 3 ildən az olmayan müddətə bağlanmış və sığorta ödənişinin sığorta müqaviləsinin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra verilməsini nəzərdə tutan həyatın yığım sığortası və pensiya sığortası üzrə bağladığı sığorta müqavilələri əsasında ödədiyi sığorta haqları vergitutma məqsədləri üçün işəgötürən tərəfindən həmin fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılır. İşəgötürən tərəfindən fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılan həyatın yığım sığortası və pensiya sığortası üzrə ödədiyi sığorta haqları yalnız bank vasitəsilə sığortaçının bank hesabına ödənildikdə çıxılır. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödənilmiş sığorta haqları sığortaçı tərəfindən ödəmə mənbəyində vergiyə cəlb olunur.

Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclərin gəlirdən çıxılması. Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər amortizasiya dərəcəsi ilə hesablanan amortizasiya ayırmaları şəklində ümumi gəlirdən çıxılır. Bu qaydalar vergi ödəyicisinin geoloji-kəşfiyyat işlərini aparmaq və təbii ehtiyatları emal, yaxud istismar etmək hüquqlarını əldə etmək üçün qeyri-maddi aktivlərə çəkdiyi xərclərə də tətbiq olunur.

Qeyri-maddi aktivlərə çəkilən xərclərin gəlirdən çıxılması. Hüquqi və fiziki şəxslərin bir ildən artıq müd-

dətə təsərrüfat fəaliyyətində istifadə etdikləri qeyri-maddi obyektlərə çəkilən xərclər qeyri-maddi aktivlərə aiddir. Qeyri-maddi aktivlərə çəkilən xərclər amortizasiya dərəcəsi ilə hesablanan amortizasiya ayırmaları şəklində gəlirdən çıxılır. Qeyri-maddi aktivlərin alınmasına və ya istehsalına çəkilən xərclər vergi ödəyicisinin vergiyə cəlb olunan gəlirinin hesablanması zamanı gəlirdən çıxılmışdırsa, həmin xərclər amortizasiya olunmalı qeyri-maddi aktivlərin dəyərinə aid edilmir.

Gəlirdən çıxılan məbləğlərin məhdudlaşdırılması. Aşağıdakı vergilərin, faizlərin, maliyyə sanksiyalarının və cərimələrin gəlirdən çıxılmasına yol verilmir:

1. Azərbaycan Respublikasının və ya digər dövlətlərin ərazilərində ödənilmiş mənfəət vergisi və ya gəlirdən hesablanan hər hansı digər vergi;
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilmiş qaydada hesablanmış faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr (gəlirin əldə edilməsi ilə bağlı mülki hüquq müqavilələri üzrə faizlər, dəbbə pulu (cərimə), icranın gecikdirilməsi ilə əlaqədar vurulmuş zərərin əvəzinin ödənilməsi və digər analoji cərimələr istisna olmaqla).

§10.6. Ödəmə mənbəyində vergilərin tutulması.

Aşağıdakı şəxslər (vergi agentləri) ödəmə mənbəyində vergini tutmağa borcludurlar:

1. muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər;
2. muzdla işləyən fiziki şəxslərə ödəmələr verən sahibkarlar və xüsusi notariuslar;

3. dövlət sosial təminat sistemi vasitəsilə ödənilən pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən hüquqi şəxslər və ya sahibkarlar;
4. hüquqi və fiziki şəxslərə dividend ödəyən rezident hüquqi şəxslər;
5. hüquqi və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər və ya sahibkarlar;
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 124-cü, 125-ci və ya 126-cı maddələrində (ARVM m-124. Ödəmə mənbəyində icarə haqlarından və royaltydən vergi tutulması; m-125. Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması; m-126. Qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəətindən ödəmə mənbəyində vergi tutulması.) nəzərdə tutulan ödəmələr verən hüquqi şəxslər və ya sahibkarlar;
7. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar;
8. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 116.2-ci maddəsində nəzərdə tutulan sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar.

Yuxarıda göstərilən şəxslər verginin tutulması və büdcəyə köçürülməsi üçün cavabdehdirlər. Vergi məbləği tutulmursa və ya tutulmuş vergi büdcəyə köçürülmürsə, gəliri ödəyən hüquqi şəxslər və sahibkarlar tutulmamış və ya köçürülməmiş verginin məbləğini, həmçinin müvafiq faizləri və sanksiyaları büdcəyə ödəməyə borcludurlar.

Ödəmə mənbəyində vergi tutan hüquqi şəxslər, fərdi sahibkarlar və xüsusi notariuslar:

1. 1, 2 və 8-ci bəndlərə uyğun olaraq fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamağa

və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürməyə;

2. 3-7-ci bəndlərə uyğun olaraq, gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergini büdcəyə köçürməyə;

3. ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanının müəyyən etdiyi formada bəyannaməni vergi orqanına:

3.1. 3-8-ci bəndlərə uyğun olaraq ödəmə mənbəyində vergini tutanlar rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq;

3.2. 1-ci və 2-ci bəndlərə uyğun olaraq ödəmə mənbəyində vergi tutan ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq;

3.3. ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla, 1-ci və 2-ci bəndlərə uyğun olaraq ödəmə mənbəyində vergi tutan digər vergi ödəyiciləri rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq verməyə borcludurlar.

Vergi ödəyicisinin iş yerində vergi agenti aylıq gəlir üzrə vergi tutmağa borcludur. Vergi ödəyicisi nəzərdə tutulmuş hüquqlardan istifadə etmirsə, tutulmuş vergi gəlir vergisinin tam məbləği sayılır.

Ödəmə mənbəyində dividenddən vergi tutulması. Rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən 10 faiz dərəcə ilə vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən bir daha vergi tutulmur. Həmin gəlir yenidən dividend şəklində verilən zaman vergiyə cəlb olunmur. Neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlər üzrə mənfəətin

bölüşdürülməsi, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda hüquqi şəxsin tam mülkiyyətində olan törəmə müəssisələrin xalis mənfəətinin həmin hüquqi şəxsin mərkəzləşdirilmiş fondunda cəmləşdirilməsi üzrə köçürmələr və bu şəxsin həmin gəliri vergiyə cəlb olunmur.

Ödəmə mənbəyində faizlərdən vergi tutulması. Rezident kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə, maliyyə lizinqini həyata keçirən rezident şəxslərə və ya qeyri-rezident bankların, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Faizlərin faktiki sahibi mənfəəti vergiyə cəlb olunan rezident müəssisədirsə və ya qeyri-rezidentin daimi nümayəndəliyidirsə, 10 faiz dərəcə ilə vergi tutulmuş faizləri alan həmin müəssisə və ya qeyri-rezidentin daimi nümayəndəliyi hesabladığı verginin məbləğini, ödəmə mənbəyində verginin tutulduğunu təsdiq edən sənədləri vermək şərti ilə bu mənbədə ödənilmiş verginin məbləği qədər azaldır.

Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyindən 10 faiz dərəcəsi ilə vergi tutulur.

Faizlərin faktiki sahibi fiziki şəxsdirsə, birinci və üçüncü abzaslara uyğun olaraq vergi tutulmuş faizlər hə-

min fiziki şəxslərə ödənildikdən sonra onlardan bir daha vergi tutulmur.

Ödəmə mənbəyində icarə haqlarından və royaltidən vergi tutulması. Daşınan və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin ödədiyi və ya onun adından ödənilən royaltidən gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

İcarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə, icarəyə verən 14 faiz dərəcə ilə vergini özü ödəyir və qanunvericiliyə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verir.

İcarə haqqı və royaltidən gəlir əldə edən fiziki şəxslərdən yuxarıdakı qaydada vergi tutulmuşdursa və ya onun tərəfindən ödənilmişdirsə, həmin gəlirlərdən bir daha vergi tutulmur.

Azərbaycan Respublikasında daşınmaz əmlakın (yaşayış fondu istisna olmaqla) vergitutma məqsədləri üçün aylıq icarə haqqının məbləği bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması. Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur:

1. dividend - 10%; (ödəmə mənbəyində dividenddən vergi tutulması qaydalarına uyğun olaraq);
2. faizlər - 10% (ödəmə mənbəyində faizlərdən vergi tutulması qaydalarına uyğun olaraq);

3. rezident müəssisəsinin və ya sahibkarın riskin sığortasına və ya təkrar sığortasına dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri - 4%;
4. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin və ya sahibkarın ödəmələri - 6%;
5. rezident müəssisəsinin və ya sahibkarın ödəmələrindən: muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər, o cümlədən Azərbaycan Respublikasında istehsal edilmiş malların istehsalçı tərəfindən təqdim edilməsindən gəlirlər, Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlirlər və Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlakın təqdim edilməsindən gəlirlər (Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir istisna olmaqla), Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan əldə edilən gəlirlər, o cümlədən bu əmlakda iştirak payının təqdim edilməsindən gəlirlər; (Azərbaycan Respublikasındakı daşınmaz əmlakın icarəyə verilməsindən əldə edilən gəlir istisna olmaqla) və rezidentin sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan əmlak təqdim edilməsindən əldə etdiyi digər gəlirlər və Azərbaycan mənbəyindən əldə edilən digər gəlirlər - 10%;
6. rezident müəssisəsinin və ya sahibkarın muzdlu işlə əlaqədar ödədiyi gəlir - gəlir vergisinin tətbiq olunduğu dərəcələrlə;
7. icarə haqları və royalti - 14 % (ödəmə mənbəyində icarə haqlarından və royaltidən vergi tutulması qaydalarına uyğun olaraq).

Yuxarıda qeyd olunan məqsədlər üçün qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndə-

liyi tərəfindən və ya onun adından aparılan ödəmələr rezident müəssisənin ödəmələrinə bərabər tutulur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrdə vergilərin aşağı dərəcəsi və ya vergilərdən tam azad olunma nəzərdə tutulduğu halda, ödəmə mənbəyində artıq tutulmuş vergi məbləği artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğlərinin vergi ödəyicisinə qaytarılması qaydalarına uyğun geri qaytarılır.

Qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə olaraq bu daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentə köçürdüyü və ya verdiyi hər hansı məbləğdən 10% dərəcə ilə vergi tutulur.

§10.7. Bəyannamənin verilməsi və cari vergi ödəmələri.

Rezident müəssisələr; Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan qeyri-rezidentlər; vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər; xüsusi notariuslar, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər bu bölmədə göstərilən müddətlərdə vergi orqanlarına bəyannamə verirlər.

Bu şəxslər (xüsusi notariuslar istisna olmaqla) hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verirlər. Xüsusi notari-

uslar hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına bəyannamə verməlidirlər.

Vergi ödəyicisi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırdıqda, 30 gün müddətində vergi orqanlarına bəyannamə verməlidir. Hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövri əhatə edir.

Hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə, ləğvetmə komissiyası və ya vergi ödəyicisi bu barədə vergi orqanına məlumat verməlidir. Hüquqi şəxsin ləğv edilməsi haqqında qərarda göstərilən ləğvolunma tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixindən sonra 30 gün ərzində ləğvetmə komissiyası vergi orqanına bəyannamə verməyə borcludur. Bəyannamə verməli olmayan fiziki şəxs verginin yenidən hesablanması və vəsaitlərin qaytarılması haqqında tələb irəli sürülən bəyannamə verə bilər.

Cari vergi ödəmələri. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir. Xüsusi notariuslar hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəli-

rində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün 2-ci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda vergi orqanı 1-ci metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı 1-ci metodu tətbiq edir və həmin metod vergi ilinin sonunadək dəyişdirilmir.

Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyicilərinin cari vergi ödəmələri aşağıda göstərilən qaydada həyata keçirilir:

1. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən müvafiq vergi dərəcələrinə əsasən hesablanır.
2. Cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalıdır.

3. Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidirlər.
4. Cari vergi ödəmələri yuxarıda müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə müvafiq qaydada faiz tutulur.
5. Müəyyən edilmiş faiz aparılmış vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergilər üzrə cari vergi ödəmələrinə münasibətdə bütün ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir.
6. Cari vergi ödəmələri vergi ili üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
7. Sadələşdirilmiş verginin ödəyiciləri mənfəət və ya gəlir vergisi ödəyicisi olduqda cari vergi ödəmələrinin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilir.

Cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

Vergi ödəyiciləri vergi ili üçün bəyannamənin verilməsinin müəyyən edilmiş vaxtınadək son hesablamanı aparmalı və vergini ödəməlidirlər. Bələdiyyələrin mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə, digər müəssisələr isə dövlət büdcəsinə ödəyir.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 33.

1. Azərbaycan Respublikasında gəlir vergisinin ödəyiciləri kimlərdir?
A) rezident və qeyri-rezident fiziki şəxslər
B) rezident fiziki şəxslər
C) qeyri-rezident fiziki şəxslər
D) heç biri

2. Rezident fiziki şəxslərin gəlirləri üzrə vergitutma obyekti nədir?
A) vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəlirlərinin 50 faizi ilə həmin dövr üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir
B) vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir
C) vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılmayan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir
D) vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən xərclərdən ibarət olan vergiyə cəlb edilən gəlirdir

3. Fiziki şəxslərdən ödəmə mənbəyində vergi tutulduğu halda vergitutma obyekti nədir?
A) vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliridir
B) ödəmə mənbəyindən vergi tutulmur
C) vergitutma obyekti vergiyə cəlb olunmayan gəlirdir
D) vergitutma obyekti vergiyə cəlb olunan gəlirdir

4. Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezident vergi ödəyicisi hansı gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir?
A) qeyri-rezident vergi ödəyicisi daimi nümayəndəliyi ilə əlaqədar olmayan vergiyə cəlb edilən gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir

B) qeyri-rezident vergi ödəyicisi vergiyə cəlb edilən gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir
C) qeyri-rezident vergi ödəyicisi daimi nümayəndəliyi ilə əlaqədar olan vergiyə cəlb edilən gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir
D) qeyri-rezident vergi ödəyicisi gəlir vergisinin ödəyicisi deyil

5. Məşğulluqdan və ya əmlakın təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident fiziki şəxs hansı gəlirləri üzrə gəlir vergisinin ödəyicisidir?
A) Azərbaycan mənbəyindən təqvim ili ərzində əldə etdiyi bu növ ümumi gəlirin Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyənləşdirilən, həmin dövrdə bu gəlirə aid olan və ondan çıxılan xərclər qədər azaldılan məbləği üzrə
B) Azərbaycan mənbəyindən təqvim ili ərzində əldə etdiyi bu növ ümumi gəlirin Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyənləşdirilən, həmin dövrdə bu gəlirə aid olan və ondan çıxılan xərclər qədər azaldılan məbləği üzrə
C) Azərbaycan mənbəyindən təqvim ili ərzində əldə etdiyi bu növ ümumi gəlirin Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyənləşdirilən, həmin dövrdə bu gəlirə aid olan və ondan çıxılan gəlirlər qədər artırılan məbləği üzrə
D) Azərbaycan mənbəyindən son 3 il ərzində əldə etdiyi bu növ ümumi gəlirin Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyənləşdirilən, həmin dövrdə bu gəlirə aid olan və ondan çıxılan xərclər qədər azaldılan məbləği üzrə

6. Vergitutma məqsədləri üçün rezident vergi ödəyicisinin gəliri, onun hansı gəlirlərindən ibarətdir?
A) rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikasında əldə etdiyi gəlirdən ibarətdir
B) rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir
C) rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir
D) rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikasında əldə etdiyi və Azərbaycan Respublikasının hüdudlarından kənarda xərclədiyi məbləğin fərqindən ibarətdir

7. Vergitutma məqsədləri üçün qeyri-rezident vergi ödəyicisinin gəliri, onun hansı gəlirlərindən ibarətdir?
A) qeyri-rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirlərdən ibarətdir
B) qeyri-rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlərdən ibarətdir
C) qeyri-rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlərdən ibarətdir
D) qeyri-rezident vergi ödəyicisinin gəliri, onun Azərbaycan Respublikası mənbələrindən əldə etmədiyi gəlirlərdən ibarətdir

8. Aşağıdakılardan hansı sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə aid deyil?
A) sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir
B) sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alınan gəlir
C) əmlakın icarəyə verilməsindən gəlir
D) əsas vəsaitlərin təqdim edilməsindən alınan və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq gəlirə daxil edilən məbləğlər

9. Aşağıdakılardan hansı qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə aid deyil?
A) faiz gəliri
B) sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alınan gəlir
C) əmlakın icarəyə verilməsindən gəlir
D) sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir

10. Aşağıdakılardan hansı qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə aid deyil?
A) royalti
B) dividend
C) sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir
D) faiz gəliri

Test 34.

1. İki və daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hansı qaydada hesablanıb dövlət büdcəsinə ödənilir?
A) hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanıb dövlət büdcəsinə ödənilir
B) yalnız əsas iş yerində ödənilən məbləğdən ayrıca hesablanıb dövlət büdcəsinə ödənilir
C) bu halda vergi hesablanmır
D) fiziki şəxslərin ən yüksək əmək haqqı aldığı iş yerində ödənilən məbləğdən hesablanıb dövlət büdcəsinə ödənilir

2. Aylıq gəliri 2500 manatadək olan fiziki şəxslərin gəlirlərinə gəlir vergisi hansı dərəcə ilə tətbiq olunur?
A) 12% B) 18% C) 30% D) 14%

3. Aylıq gəliri 2500 manatdan çox olan fiziki şəxslərin gəlirlərinin 2500 manatdan artıq olan hissəsinə gəlir vergisi hansı dərəcə ilə tətbiq olunur?
A) 18% B) 14% C) 35% D) 25%

4. Aylıq gəliri 2000 manatdan çox olan fiziki şəxslərin gəlirlərinə gəlir vergisi hansı qayda ilə tətbiq olunur?
A) 280 manat + 2000 manatdan çox olan məbləğin 30%-i
B) 360 manat + 2000 manatdan çox olan məbləğin 30%-i
C) 350 manat + 2000 manatdan çox olan məbləğin 25%-i
D) 240 manat + 2000 manatdan çox olan məbləğin 30%-i

5. Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirinin məbləği 30000 manatadək olduqda hansı dərəcə ilə vergi tutulur?
A) 12% B) 14% C) 30% D) 16%

6. Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirinin məbləği 30000 manatdan artıq olduqda 30000 manatdan artıq olan hissəyə hansı dərəcə ilə vergi tətbiq olunur?
A) 30% B) 14% C) 25% D) 16%

7. Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirinin məbləği 30000 manatdan artıq olduqda gəlir vergisi hansı qayda ilə tətbiq olunur?

A) 3360 manat + 24000 manatdan çox olan məbləğin 32 %-i
B) 3360 manat + 24000 manatdan çox olan məbləğin 25 %-i
C) 3360 manat + 24000 manatdan çox olan məbləğin 35 %-i
D) 4200 manat + 30000 manatdan çox olan məbləğin 25 %-i

8. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən hansı dərəcə ilə vergi tutulur?
A) 14% B) 20% C) 30% D) 35%

9. Fiziki şəxslərin aşağıda qeyd olunan hansı gəliri gəlir vergisindən azad deyil?
A) rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əmək haqqı
B) alimentlər
C) əmək haqqı
D) Azərbaycan vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğulluğundan gəlir

10. Fiziki şəxslərin aşağıda qeyd olunan hansı gəliri gəlir vergisindən azad deyil?
A) Azərbaycan Respublikasının rezidenti olmayan şəxsin iş yerindən gəlir (əgər bu gəlir Azərbaycan Respublikasının rezidenti olmayan işəgötürən tərəfindən ödənilirsə)
B) Azərbaycan Respublikasının qanunuları və Azərbaycan Respublikasının Prezidentinin qərarları əsasında bələdiyyə büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar
C) əmək qabiliyyətinin müvəqqəti itirməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri
D) işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq olaraq ödənilən müavinətlər

Test 35.

1. Təqvim ili ərzində alınan hədiyyələrin, təhsil və müalicə haqlarını ödəmək üçün verilən maddi yardımın, müavinətin dəyərinin hansı hissəsi gəlir vergisindən azaddır?
A) 1000 manatadək olan hissəsi
B) 1000 manatdan çox olan hissəsi
C) 2000 manatadək olan hissəsi
D) 2000 manatdan çox olan hissəsi

2. Xaricdə müalicə haqlarını ödəmək üçün verilən maddi yardımın dəyərinin hansı hissəsi gəlir vergisindən azaddır?
A) 3000 manatadək olan hissəsi
B) 2000 manatdan çox olan hissəsi
C) 2000 manatadək olan hissəsi
D) 20000 manatdan çox olan hissəsi

3. Mirasların dəyərinin hansı hissəsi gəlir vergisindən azaddır?
A) 20000 manatdan çox olan hissəsi
B) 20000 manatadək olan hissəsi
C) 10000 manatdan çox olan hissəsi
D) 10000 manatadək olan hissəsi

4. Müalicə haqqı almış şəxslərə güzəşt hansı halda verilir?
A) həmin məbləğlərin xərcləndiyini təsdiq edən müvafiq sənədlər təqdim edildiyi halda
B) həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edilmədiyi halda
C) həmin məbləğlərin ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edildiyi halda
D) həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edildiyi halda

5. Hədiyyə və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda onun hansı hissəsi gəlir vergisindən azaddır?
A) 20000 manatadək olan hissəsi
B) 50000 manatadək olan hissəsi
C) onun tam dəyəri
D) 10000 manatadək olan hissəsi

6. Fiziki şəxsin əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə etdiyi aylıq gəliri 200 manatadək olduqda, ona gəlir vergisi üzrə hansı məbləğdə güzəşt verilir?
A) minimum əmək haqqının 2 misli məbləğində
B) əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli məbləğində
C) 93 manat məbləğində
D) minimum əmək haqqının 1 misli məbləğində

7. Fiziki şəxsin əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə etdiyi illik gəliri 2400 manatadək olduqda, ona gəlir vergisi üzrə hansı məbləğdə güzəşt verilir?
A) minimum əmək haqqının 12 misli məbləğində
B) minimum əmək haqqının 8 misli məbləğində
C) ölkə üzrə yaşayış minimumunun 10 misli məbləğində
D) əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində

8. Fiziki şəxslərin aşağıda qeyd olunan hansı gəliri gəlir vergisindən azad deyil?
A) qiymətli daşlardan və metallardan, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya edilmiş əmlakından başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlir
B) sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait
C) 10 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin ƏR-nın sığortaçılarına ödədikləri sığorta haqları
D) işəgötürən tərəfindən ödənilən bütün növ icbari və könüllü tibbi sığorta haqları

9. Fiziki şəxslərin aşağıda qeyd olunan hansı gəliri gəlir vergisindən azad deyil?
A) vergi ödəyicisinin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakın təqdim edilməsindən gəlir
B) müvafiq qaydada qeydiyyatdan keçmiş lotereyalardan, habelə uduşlu istiqrazlardan əldə olunan uduşların dəyəri
C) dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri
D) bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər

10. Sənətkarlığın misgərlik, qalayçılıq və saxsı məmulatlarının, bağçılıq-bostançılıq alətlərinin və qarğıdan məişət əşyalarının düzəldilməsi, ağac materiallarından məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri gəlir vergisinə necə cəlb olunur?
A) 2000 manatdan çox olan məbləğin 30 faizi
B) gəlir vergisinə necə cəlb olunmur
C) 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi
D) 280 manat + 2000 manatdan çox olan məbləğin 32 faizi

Test 36.

1. Fiziki şəxslərə ödənilən hansı kompensasiya xarakterli ödəmələr gəlir vergisindən azaddır?
1. iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği
2. qanunvericiliklə müəyyən edilmiş ezamiyyə xərclərinin (gündəlik yemək, kommunal və nəqliyyat xərcləri) məbləğləri
3. ağır və təhlükəli istehsalatlarda çalışmayan işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri
4. əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri
5. işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə verilən xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin dəyəri
6. istehsalatdan ayrılmamaqla təhsil almağa göndərilmiş tələbələrə, aspirantlara, magistrlərə müəssisə və təşkilatların hesabına ödənilən təqaüd məbləğləri
A) 1, 2, 3, 5 B) 2, 3, 4, 6 C) 1, 4, 5, 6 D) 1, 2, 4, 5

2. Fiziki şəxslərə ödənilən hansı kompensasiya xarakterli ödəmələr gəlir vergisindən azaddır?
1. fövqəladə hallarla əlaqədar xarici dövlətlər və digər təşkilatlar tərəfindən göstərilən birdəfəlik yardımlar
2. verdikləri qana görə donorların ailə üzvlərinə ödənilən kompensasiya məbləğləri
3. dalğıc işləri üçün pul mükafatı
4. ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri və fondları tərəfindən verilən maddi yardımlar
5. hərbi qulluqçulara, prokurorluq orqanlarının prokurorluq işçilərinə ödənilən bütün növ ödənişlər
6. işəgötürən tərəfindən işçinin hərbi xidmətə çağırılması ilə əlaqədar ödənilən müavinətlərin qanunvericilikdə nəzərdə tutulan məbləği

A) 1, 2, 4, 6 B) 2, 3, 4, 5 C) 1, 3, 4, 6 D) 1, 2, 3, 5

3. Beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri gəlir vergisinə necə cəlb olunur?
A) mükafatların 2000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
B) mükafatların 3000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
C) mükafatların 4000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
D) mükafatların 5000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur

4. Yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların dəyəri gəlir vergisinə necə cəlb olunur?
A) alınan mükafatların dəyəri gəlir vergisindən azaddır
B) mükafatların 1000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
C) mükafatların 2000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
D) mükafatların dəyərinin 50%-i gəlir vergisindən azaddır

5. Respublika, şəhər və rayon yarışlarında pul şəklində alınan mükafatların dəyəri gəlir vergisinə necə cəlb olunur?
A) mükafatların 2000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
B) mükafatların 300 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
C) mükafatların 1000 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur
D) mükafatların 200 manatadək olan hissəsi gəlir vergisindən azaddır, ondan çox olan hissəsindən vergi tutulur

6. Dövlət qulluqçusuna pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq gəlir vergisinə necə cəlb olunur?
A) verilən birdəfəlik haqqın 50%-i gəlir vergisindən azaddır
B) verilən birdəfəlik haqqın 30%-i gəlir vergisindən azaddır
C) verilən birdəfəlik haqq gəlir vergisinə cəlb olunmur
D) verilən birdəfəlik haqqın 70%-i gəlir vergisindən azaddır

7. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına və hakimlərə öz səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı xərclərinin ödənilməsi üçün qanunla müəyyən edilmiş miqdarda verilən aylıq pul təminatı gəlir vergisinə necə cəlb olunur?
A) verilən aylıq pul təminatının 25%-i gəlir vergisindən azaddır
B) verilən aylıq pul təminatı gəlir vergisinə cəlb olunmur
C) verilən aylıq pul təminatının 50%-i gəlir vergisindən azaddır
D) qanunvericilikdə belə pul təminatı nəzərdə tutulmayıb

8. Hansı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır?
1. Azərbaycan Respublikasının Milli Qəhrəmanları
2. Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları
3. I və II qrup əlillər
4. həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri)
5. 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər
6. Tərəqqi medalı ilə təltif edilmiş şəxslər
A) 1, 2, 3, 5 B) 2, 3, 4, 6 C) 1, 4, 5, 6 D) 1, 2, 4, 5

9. Hansı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır?
1. Azərbaycan Respublikasının Milli Qəhrəmanları
2. Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları
3. müharibədə iştirak edib, müharibə veteranı adı almamış şəxslər
4. məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər
5. Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə tutulmuş şəxslər
6. müharibə əlilləri
A) 1, 2, 4, 5 B) 1, 3, 4, 6 C) 1, 2, 5, 6 D) 1, 3, 4, 5

10. Hansı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır?
A) I və II qrup əlillər (müharibə əlillərindən başqa) və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər
B) I və II qrup müharibə əlilləri
C) Çernobıl AES-də şüa xəstəliyinə tutulmuş şəxslər
D) arxa cəbhədə əməyinə görə ordenlə təltif edilmiş şəxslər

Test 37.

1. Hansı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır?
1. həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və təkrar nigaha girməmiş arvadları (ərləri)
2. 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və təkrar nigaha girməmiş arvadları (ərləri)
3. məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər
4. Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər
5. daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya II qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum

A) 1, 2, 5 B) 1, 2, 4 C) 1, 3, 5 D) 1, 3, 4

2. Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı 3 nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri hansı məbləğdə azaldılır?

A) 100 manat məbləğində
B) 400 manat məbləğində
C) 55 manat məbləğində
D) 50 manat məbləğində

3. Aşağıdakı şəxslərdən hansı himayədə olunan hesab olunur?

A) təqaüd, pensiya və işsizlik müavinəti alan şəxslər (uşaqlardan başqa)
B) dövlət təminatında olan şəxslər (texniki-peşə məktəblərinin şagirdləri, uşaq və körpələr evlərində tərbiyə alanlar)
C) gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr
D) xüsusi məktəblərin şagirdləri və internat evlərində olan, saxlanmasına görə qəyyumlardan haqq alınmayan uşaqlar,

habelə tam dövlət təminatındakı məktəblər yanında internatlarda olan uşaqlar

4. Fiziki şəxsin bir neçə güzəşt hüququ olduqda, onun gəlirinə bu güzəştlər necə tətbiq edilir?
A) ona bu güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir
B) ona bu güzəştlərdən ikisi, məbləğcə ən böyük olanları verilir
C) ona bu güzəştlərdən biri, məbləğcə ən kiçik olanı verilir
D) ona bu halda heç bir güzəşt verilmir

5. Azərbaycan Respublikasında mənfəət vergisinin ödəyiciləri kimlərdir?
A) rezident və qeyri-rezident fiziki şəxslər
B) rezident və qeyri-rezident müəssisələr
C) rezident müəssisələr
D) qeyri-rezident fiziki şəxslər

6. Rezident müəssisə üçün vergitutma obyekti nədir?
A) rezident müəssisənin gəliridir
B) rezident müəssisənin xərcidir
C) rezident müəssisənin xalis gəliridir
D) rezident müəssisənin mənfəətidir

7. Vergitutuma məqsədləri üçün mənfəət nədir?
A) vergi ödəyicisinin bütün gəlirləri ilə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən gəlirdən çıxılan xərc arasındakı fərqdir
B) vergi ödəyicisinin bütün gəlirləri ilə (vergidən azad edilən gəlirdən başqa) Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən gəlirdən çıxılan xərc arasındakı fərqdir
C) vergi ödəyicisinin bütün gəlirləri ilə xərcləri arasındakı fərqdir
D) vergilər ödənildikdən sonra vergi ödəyicisinə qalan hissədir

8. Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisəsi bu fəaliyyətdən əldə etdiyi mənfəətdən hansı qaydada vergi ödəyir?

A) qeyri-rezident müəssisəsi daimi nümayəndəliyi ilə bağlı əldə etdiyi ümumi gəlirinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir
B) rezident müəssisəsi daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir
C) qeyri-rezident müəssisəsi daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir
D) qeyri-rezident müəssisəsi daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirindən vergi ödəyir

9. Azərbaycan Respublikasındakı daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisəsinin gəlirindən vergi necə tutulur?
A) təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxılmadan vergi tutulur
B) təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur
C) təqvim ayı ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur
D) təqvim ayı ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən vergi tutulur

10. Müəssisələrin mənfəətindən vergi hansı dərəcə ilə tutulur?
A) 18% B) 19% C) 20% D) 22%

Test 38.

1. Hüquqi şəxslərin hansı gəlirləri mənfəət vergisindən azaddır
1. xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa)
2. kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr
3. beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa)
4. dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa) gəliri
5. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin gəlirləri
6. Azərbaycan Respublikası Mərkəzi Bankının gəlirləri
A) 1, 4, 5, 6 B) 1, 3, 4, 6 C) 1, 2, 3, 5 D) 1, 3, 4, 5

2. Hüquqi şəxslərin hansı gəlirləri mənfəət vergisindən azaddır
1. xeyriyyə təşkilatlarının gəliri
2. alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa)
3. sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa)
4. qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir
5. qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr
6. dövlətlərarası və hökumətlərarası təşkilatların gəliri
A) 1, 2, 4, 6 B) 1, 3, 5, 6 C) 2, 3, 4, 5 D) 2, 3, 4, 6

3. Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan, işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi neçə faiz azaldılır?
A) 80% B) 70% C) 60% D) 50%

4. Gəlirdən çıxılmayan xərclər hansılardır?
1. əsas vəsaitlərin alınmasına və qurulmasına çəkilən xərclər
2. qeyri-kommersiya fəaliyyəti ilə bağlı xərclər
3. müalicə-profilaktik yeməklərə, süd məhsullarına sərf olunan xərclər
4. işçilərin mənzil və digər sosial xarakterli xərcləri
5. əmək haqqı kartlarının alınmasına çəkilən xərclər istisna olmaqla, fiziki şəxsin fərdi istehlakla və ya əmək haqqının alınması ilə bağlı xərcləri

6. faktiki ezamiyyə xərcləri
A) 1, 2, 4, 5 B) 1, 4, 5, 6 C) 2, 3, 4, 6 D) 2, 3, 4, 5

5. Sahibkarlıq fəaliyyəti əyləncə və sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəaliyyət çərçivəsində çəkilirsə, müvafiq olaraq əyləncə və sosial xərclər gəlirdən çıxılırmı?
A) müstəsna hallarda çıxılır
B) çıxılmır
C) çıxılır
D) 50% çıxılır

6. Aşağıdakılardan hansı gəlirdən çıxılmır?
A) ümidsiz borclar
B) ehtiyat sığorta fondlarına ayırmalar
C) amortizasiya ayırmalar
D) əsas vəsaitlərin alınmasına və qurulmasına çəkilən xərclərin

7. Aşağıdakılardan hansı gəlirdən çıxılmır?
A) elmi-tədqiqat işlərinə çəkilən xərclər
B) qeyri-kommersiya fəaliyyəti ilə bağlı xərclər
C) layihə-axtarış işlərinə çəkilən xərclər
D) təcrübə-konstruktor işlərinə çəkilən xərclər

8. Aşağıdakılardan hansı aktivlər amortizasiya olunur?
A) torpaq
B) iş heyvanları
C) incəsənət əsərləri
D) nadir tarixi və memarlıq abidələri olan binalar, qurğular

9. Elmi-tədqiqat, tədris və təcrübə üçün laboratoriyalarda istifadə edilən hansı əyani vəsaitlər amortizasiya olunmur?
A) eksponatlar, nümunələr, fəaliyyətdə olan və olmayan modellər, maketlər
B) maketlər, maşınlar, avadanlıqlar, hesablama texnikası
C) eksponatlar, nümunələr, incəsənət əsərləri, modellər
D) qurğular, fəaliyyətdə olan və olmayan modellər, hesablama texnikası

10. Aşağıdakılardan hansı aktivlər amortizasiya olunur?
A) ümumi istifadədə olan avtomobil yolları
B) heyvanxanalarda olan heyvanat aləminin eksponatları
C) istismar vaxtı çatmayan çoxillik əkmələr
D) nəqliyyat vasitələri

Test 39.

1. Aşağıdakılardan hansı aktivlər amortizasiya olunur?
A) konservasiya edilmiş əsas vəsaitlər
B) binalar və qurğular
C) kitabxana fondları, kinofondlar, səhnə rekvizitləri
D) ümumi istifadədə olan parklardakı avadanlıqlar

2. Aşağıdakılardan hansı aktivlər amortizasiya olunur?
A) istismara verilməmiş anbarda olan əsas vəsaitlər
B) istismara yararlı tam amortizasiya olunmuş əsas vəsaitlər
C) iş heyvanları
D) məhsuldar heyvanlar

3. Aşağıdakı heyvanlardan hansı amortizasiya olunur?
A) damazlıq inəklər, camışlar
B) madyanlar, dəvələr
C) donuzlar, qoyunlar
D) atlar, ulaqlar

4. Aşağıdakı heyvanlardan hansı amortizasiya olunur?
A) döllük buğalar, kəllər
B) atlar, ulaqlar
C) qabanlar, təkələr
D) ayğırlar, nərlər

5. Aşağıdakılardan hansı aktivlər amortizasiya olunmur?
A) maşınlar, avadanlıqlar, hesablama texnikası
B) nəqliyyat vasitələri, iş heyvanları
C) kitabxana fondları, kinofondlar, muzey sərvətləri
D) binalar, tikililər, qurğular

6. Aşağıdakılardan hansı aktivlər amortizasiya olunmur?
A) qeyri-maddi aktivlər
B) geoloji-kəşfiyyat işlərinə çəkilən xərclər
C) təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər
D) istismara yararlı tam amortizasiya olunmuş əsas vəsaitlər

7. Amortizasiya olunmayan aktivlər qrupu hansıdır?
1. məhsuldar heyvanlar
2. iş heyvanları
3. istismar vaxtı çatmayan çoxillik əkmələr
4. konservasiya edilmiş əsas vəsaitlər
5. nəqliyyat vasitələri
6. kitabxana fondları, kinofondlar, muzey sərvətləri
A) 1, 3, 4, 6
B) 3, 4, 5, 6
C) 2, 3, 4, 5
D) 2, 3, 4, 6

8. Amortizasiya olunan aktivlər qrupu hansıdır?
1. istismara yararlı tam amortizasiya olunmuş əsas vəsaitlər
2. maşınlar, avadanlıqlar, hesablama texnikası
3. binalar, tikililər, qurğular
4. nəqliyyat vasitələri
5. incəsənət əsərləri
6. iş heyvanları
A) 1, 3, 4, 6
B) 3, 4, 5, 6
C) 2, 3, 4, 5
D) 2, 3, 4, 6

9. İllik 7 faizədək hansı aktivlər amortizasiya olunur?
A) maşınlar, avadanlıqlar, hesablama texnikası
B) nəqliyyat vasitələri
C) binalar, tikililər, qurğular
D) iş heyvanları

10. İllik 25 faizədək hansı aktivlər amortizasiya olunur?
A) maşınlar, avadanlıqlar, hesablama texnikası
B) qeyri-maddi aktivlər
C) iş heyvanları
D) binalar, tikililər, qurğular

Test 40.

1. İllik 20 faizədək hansı aktivlər amortizasiya olunur?
A) nəqliyyat vasitələri
B) qeyri-maddi aktivlər
C) iş heyvanları
D) hesablama texnikası

2. Binalar, tikililər və qurğular üzrə illik amortizasiya norması neçə faizdir?
A) 7 faizədək
B) 25 faizədək
C) 20 faizədək
D) 10 faizədək

3. Maşınlar, avadanlıqlar və hesablama texnikası üzrə illik amortizasiya norması neçə faizdir?
A) 15 faizədək
B) 18 faizədək
C) 25 faizədək
D) 20 faizədək

4. Nəqliyyat vasitələri üzrə illik amortizasiya norması neçə faizdir?
A) 12 faizədək
B) 7 faizədək
C) 20 faizədək
D) 25 faizədək

5. İş heyvanları üzrə illik amortizasiya norması neçə faizdir?
A) 10 faizədək
B) 20 faizədək
C) 30 faizədək
D) 15 faizədək

6. Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər üzrə illik amortizasiya norması neçə faizdir?
A) 15 faizədək
B) 18 faizədək
C) 25 faizədək
D) 20 faizədək

7. İstifadə müddəti məlum olmayani qeyri-maddi aktivlər üzrə illik amortizasıya norması neçə faizdir?
A) 10 faizədək

B) 20 faizədək
C) 30 faizədək
D) 15 faizədək

8. Əsas vəsaitlərin kateqoriyaları üzrə amortizasiya ayırmaları necə hesablanır?
A) Vergi Məcəlləsi ilə hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin əvvəlinə qalıq dəyərinə tətbiq etməklə hesablanılır
B) Vergi Məcəlləsi ilə hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin sonuna qalıq dəyərinə tətbiq etməklə hesablanılır
C) Vergi Məcəlləsi ilə hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid olmayan əsas vəsaitlərin vergi ilinin sonuna qalıq dəyərinə tətbiq etməklə hesablanılır
D) Vergi Məcəlləsi ilə hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin hər rübün sonuna qalıq dəyərinə tətbiq etməklə hesablanılır

9. Hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş amortizasiya normalarından aşağı norma tətbiq olunduqda, bunun nəticəsində yaranan fərq hansı məbləğə əlavə oluna bilər?
A) növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə oluna bilər
B) növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılmayan məbləğinə əlavə oluna bilər
C) növbəti təqvim aylarında amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə oluna bilər
D) növbəti təqvim aylarında amortizasiyanın gəlirdən çıxılmayan məbləğinə əlavə oluna bilər

10. Binalar, tikililər və qurğular üçün amortizasiya ayırmalarının hesablanması necə aparılır?
A) binalar üzrə ayrı, tikililər və qurğular üzrə bir yerdə aparılır
B) tikililər üzrə ayrı, binalar və qurğular üzrə bir yerdə aparılır
C) hər tikili üzrə ayrılıqda aparılır
D) bir yerdə aparılır

Test 41.

1. Əsas vəsaitlərin təqdim edilməsindən əldə olunan məbləğ həmin əsas vəsaitlərin qalıq dəyərindən artıqdırsa, həmin fərq gəlirə daxil edilirmi?
A) gəlirə daxil edilmir
B) xərclərə əlavə edilir
C) qismən gəlirə daxil edilir
D) gəlirə daxil edilir

2. Aşağıdakı xərclərdən hansı gəlirdən çıxılmır?
A) təmirlə bağlı xərclər
B) maddi aktivlərə çəkilən xərclər
C) sığorta haqları
D) geoloji-kəşfiyyat işlərinə çəkilən xərclər

3. Aşağıdakı xərclərdən hansı gəlirdən çıxılmır?
A) təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər
B) qeyri-maddi aktivlərə çəkilən xərclər
C) sosial təminat xərcləri
D) təmirlə bağlı xərclər

4. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq binaların, tikililərin və qurğuların ilin sonuna qalıq dəyərinin neçə faizi həddi ilə məhdudlaşdırılır?
A) 5%
B) 7%
C) 3%
D) 2%

5. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq maşınların, avadanlıqların, hesablama texnikasının və nəqliyyat vasitələrinin ilin sonuna qalıq dəyərinin neçə faizi həddi ilə məhdudlaşdırılır?
A) 5%
B) 4%
C) 3%

D) 2%

6. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinə müvafiq olaraq digər əsas vəsaitlərin ilin sonuna qalıq dəyərinin neçə faizi həddi ilə məhdudlaşdırılır?
A) 0%
B) 10%
C) 3%
D) 1%

7. Hansı verginin gəlirdən çıxılmasına yol verilmir?
A) əlavə dəyər vergisinin
B) mənfəət vergisinin
C) torpaq vergisinin
D) heç bir verginin

8. Vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlər hansı qaydada gəlirdən çıxılır?
A) hesablanmış faizlərin 50%-i gəlirdən çıxılır
B) hesablanmış faizlər tam məbləğdə gəlirdən çıxılır
C) hesablanmış faizlərin 70%-i gəlirdən çıxılır
D) gəlirdən çıxılmasına yol verilmir

9. Rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində neçə faiz dərəcə ilə vergi tutulur?
A) 14%
B) 10%
C) 20%
D) 22%

10. Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən ödəmə mənbəyində vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən neçə faiz dərəcə ilə vergi tutulur?
A) 6%
B) 10%
C) 14%
D) vergi tutulmur

Test 42.

1. Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən ödəmə mənbəyində vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəliri yenidən dividend şəklində verilən zaman neçə faiz dərəcə ilə vergi tutulur?
A) 14 %
B) 12 %
C) vergiyə cəlb olunmur
D) 18 %

2. Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyində neçə faiz dərəcə ilə vergi tutulur?
A) 14% B) 10% C) 6% D) 20%

3. Daşınan və daşınmaz əmlak üçün icarə haqqından ödəmə mənbəyində neçə faiz dərəcə ilə vergi tutulur?
A) 20% B) 12% C) 14% D) 16%

4. İcarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə icarəyə verən neçə faiz dərəcə ilə vergi ödəyir?
A) 14% B) 6% C) 10% D) 15%

5. Fiziki şəxsdən icarə haqqı və ya royaltidən əldə etdiyi gəlirindən ödəmə mənbəyində vergi tutulmuşdursa, bu gəlirlərdən yenidən vergi tutulurmu?
A) həmin gəlirlərdən 10 % dərəcə ilə vergi tutulur
B) həmin gəlirlərdən bir daha vergi tutulmur
C) həmin gəlirlərdən 6 % dərəcə ilə vergi tutulur
D) həmin gəlirlərdən 4 % dərəcə ilə vergi tutulur

6. Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan dividend şəklində gəlirindən vergi necə tutulur?
A) ödəmə mənbəyində xərclər çıxılmadan 14% dərəcə ilə

B) ödəmə mənbəyində xərclər çıxılmaqla 10% dərəcə ilə
C) ödəmə mənbəyində xərclər çıxılmadan 10% dərəcə ilə
D) ödəmə mənbəyində xərclər çıxılmaqla 14% dərəcə ilə

7. Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan faizlər şəklində gəlirindən vergi necə tutulur?
A) ödəmə mənbəyində xərclər çıxılmadan 10% dərəcə ilə
B) ödəmə mənbəyində xərclər çıxılmaqla 10% dərəcə ilə
C) ödəmə mənbəyində xərclər çıxılmadan 12% dərəcə ilə
D) ödəmə mənbəyində xərclər çıxılmadan14% dərəcə ilə

8. Qeyri-rezidentə rezident müəssisənin və ya sahibkarın riskin sığortasına və ya təkrar sığortasına dair müqavilələyə uyğun olaraq sığorta ödəmələri ödəmə mənbəyində xərclər çıxılmadan neçə faiz dərəcə ilə vergiyə cəlb olunur?
A) 10% B) 14% C) 4% D) 6%

9. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə xidməti və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisənin və ya sahibkarın qeyri-rezidentə ödəmələri ödəmə mənbəyində xərclər çıxılmadan neçə faiz dərəcə ilə vergiyə cəlb olunur?
A) 2% B) 8% C) 4% D) 6%

10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrdə hansı məsələlər nəzərdə tutulduğu halda ödəmə mənbəyində artıq tutulmuş vergi məbləği müəyyən edilmiş qaydada geri qaytarılır?
A) vergilərin yuxarı dərəcəsi və ya vergilərdən azad olunma
B) vergilərin aşağı dərəcəsi və ya vergilərdən tam azad olunma
C) vergilərin aşağı dərəcəsi
D) vergilərdən tam azad olunma

Test 43.

1. Qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə olaraq bu daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentə köçürdüyü hər hansı məbləğdən neçə faiz dərəcə ilə vergi tutulur?
A) 12% B) 14% C) 10% D) 20%

2. Rezidentin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan mənbəyindən olmayan gəlirindən ödənilmiş hansı vergilərinin məbləğləri Azərbaycanda vergi ödənilərkən nəzərə alınır?
A) gəlir vergisi və mənfəət vergisi
B) gəlir vergisi və korporativ yığım
C) mənfəət vergisi və dövriyyədən vergi
D) nəzərə alınmır

3. Rezident güzəştli vergi tutulan ölkədə gəlir əldə edən qeyri-rezidentin nizamnamə fondunun neçə faizindən çoxuna bilavasitə və ya dolayısı ilə sahibdirsə, rezidentin həmin gəliri onun vergi tutulan gəlirinə daxil edilir?
A) 30%-dən
B) 50%-dən
C) 20%-dən
D) 25%-dən

4. Əvvəllər gəlirdən çıxılmış xərc, zərər və ya şübhəli borc ödənilirsə...
A) əldə edilən məbləğ onların ödənildiyi vaxtda gəlir sayılmır
B) əldə edilən məbləğ onların ödənildiyi vaxtda gəlir sayılır
C) əldə edilən məbləğ əvvəlki dövrlər üçün gəlir sayılır
D) əldə edilən məbləğ gələcək dövrlər üçün gəlir sayılır

5. Vergi tutulan gəlir müəyyən edilərkən hansı hallarda gəlir və ya zərər nəzərə alınmır?
1. aktivlər ər və arvad arasında verildikdə
2. aktivlər keçmiş ər-arvad arasında boşanma prosesində verildikdə

3. aktivlər kişi ilə arvad arasında evlənmə prosesində verildikdə
4. aktivin ləğv edildiyi, yaxud özgəninkiləşdirildiyi ildən sonrakı ilin axırınadək daxilolmaları analoji aktivə və ya eyni xarakterli aktivə təkrar investisiya etməklə aktiv qərəzsiz, yaxud onun sahibinin iradəsindən asılı olmayaraq məhv edildikdə, ləğv olunduqda və ya özgəninkiləşdirildikdə
5. istənilən halda
A) 1, 2, 4 B) 1, 3, 4 C) 2, 3, 4 D) 2, 4, 5

6. Aşağıdakı şəxslərdən hansının mart ayının 31-nə qədər bəyannamə verməsi məcburi deyil?
A) rezident müəssisələr
B) Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan qeyri-rezidentlər
C) ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan gəliri olan fiziki şəxslər
D) vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulan qeyri-rezidentlər

7. Vergi ödəyicisi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırdıqda neçə gün müddətində vergi orqanına bəyannamə verməlidir?
A) 5 gün müddətində
B) 15 gün müddətində
C) 30 gün müddətində
D) 45 gün müddətində

8. Vergi ödəyicisi sahibkarlıq fəaliyyətini dayandırdıqda hesabat dövrü hansı dövrü əhatə edir?
A) vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı rübə qədər olan dövrü
B) vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü
C) vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı aya qədər olan dövrü

D) vergi ilinin əvvəlindən vergi ilinin sonuna qədər olan dövrü

9. Hansı şəxslər ödəmə mənbəyində gəlir vergisini tutmağa borcludurlar?
1. muzdla işləməyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər
2. muzdla işləyən fiziki şəxslərə ödəmələr verən sahibkarlar
3. dövlət sosial təminat sistemi vasitəsilə pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən hüquqi şəxslər və ya sahibkarlar
4. hüquqi və fiziki şəxslərə cərimələr ödəyən hüquqi şəxslər və ya sahibkarlar
5. hüquqi və fiziki şəxslərə dividend ödəməyən rezident hüquqi şəxslər
6. vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar
7. 3 ildən az olmayan müddətə bağlanmış həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilələrə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar
A) 1, 2, 4, 5 B) 2, 3, 6, 7 C) 2, 3, 5, 6 D) 3, 4, 5, 7

10. Hansı şəxslər ödəmə mənbəyində verginin tutulmamasına və ya büdcəyə köçürülməsinə cavabdeh deyil?
A) muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və sahibkarlar
B) dövlət sosial təminat sistemi vasitəsilə pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən hüquqi şəxslər və ya sahibkarlar
C) vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar
D) hüquqi və fiziki şəxslərə dividend ödəməyən rezident hüquqi şəxslər

Test 44.

1. Ödəmə mənbəyində gəlir vergisini tutmağa borclu olan muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və sahibkarlar hesablanmış vergini hansı müddətdə büdcəyə köçürməyə borcludurlar?
A) növbəti ayın 20-dən gec olmayaraq
B) növbəti rübün 20-dən gec olmayaraq
C) növbəti ilin birinci rübündən gec olmayaraq
D) növbəti ayın 25-dən gec olmayaraq

2. Ödəmə mənbəyində gəlir vergisini tutmağa borclu olan dövlət sosial təminat sistemi vasitəsilə pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən hüquqi şəxslər və ya sahibkarlar hesablanmış vergini hansı müddətdə büdcəyə köçürməyə borcludurlar?
A) gəlirin ödəndiyi aydan sonrakı ayın 20-dən gec olmayaraq
B) gəlirin ödəndiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq
C) gəlirin ödəndiyi rübdən sonrakı rübün birinci ayından gec olmayaraq
D) gəlirin ödəndiyi aydan sonrakı ayın 30-dan gec olmayaraq

3. Ödəmə mənbəyində gəlir vergisini tutmağa borclu olan hüquqi və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər və ya sahibkarlar və hüquqi və fiziki şəxslərə dividend ödəyən rezident hüquqi şəxslər hesablanmış vergini hansı müddətdə büdcəyə köçürməyə borcludurlar?
A) gəlirin ödəndiyi rübdən sonrakı ayın 5-dən gec olmayaraq
B) gəlirin ödəndiyi rübdən sonrakı ayın 10-dan gec olmayaraq
C) gəlirin ödəndiyi rübdən sonrakı ayın 15-dən gec olmayaraq
D) gəlirin ödəndiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq

4. Ödəmə mənbəyində gəlir vergisini tutmağa borclu olan vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar hesablanmış vergini hansı müddətdə büdcəyə köçürməyə borcludurlar?
A) gəlirin ödəndiyi rübün son günündən gec olmayaraq
B) gəlirin ödəndiyi rübdən sonrakı ayın 10-dan gec olmayaraq
C) gəlirin ödəndiyi rübdən sonrakı ayın 15-dən gec olmayaraq
D) gəlirin ödəndiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq

5. Ödəmə mənbəyində gəlir vergisini tutmağa borclu olan 3 ildən az olmayan müddətə bağlanmış həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilələrə vaxtından əvvəl xitam ve-

rildikdə, sığorta haqları ödəyən sığortaçılar hesablanmış vergini hansı müddətdə büdcəyə köçürməyə borcludurlar?
A) gəlirin ödəndiyi aydan sonrakı ayın 20-dən gec olmayaraq
B) gəlirin ödəndiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq
C) gəlirin ödəndiyi gündən sonrakı 20-dən gec olmayaraq
D) gəlirin ödəndiyi ilin son ayının 20-dən gec olmayaraq

6. Hüquqi şəxslər və fərdi sahibkarlar cari ödəmələri hansı müddətdə dövlət büdcəsinə ödəməlidirlər?
A) rüb qurtardıqdan sonra 5 gündən gec olmayaraq
B) rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq
C) rüb qurtardıqdan sonra 20 gündən gec olmayaraq
D) rüb qurtardıqdan sonra 30 gündən gec olmayaraq

7. Gəlir (mənfəət) vergisi üzrə rüblük cari ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin neçə hissəsini təşkil edir?
A) 1/2 B) 1/3 C) 1/4 D) 1/5

8. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini necə müəyyənləşdirə bilər?
A) bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla
B) bu rübdəki gəlirinin həcmini onun keçən illərin gəlirlərində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla
C) bu rübdəki gəlirinin həcmini onun keçən rübün ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla
D) bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala bölməklə

9. Gəlir (mənfəət) vergisi üzrə cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin neçə metodu fərqləndirilir?
A) 6 B) 4 C) 2 D) 3

10. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanının tətbiq etdiyi metod vergi ilinin sonunadək dəyişdirilə bilərmi?
A) istisna hallarda dəyişdirilə bilər
B) dəyişdirilə bilər
C) dəyişdirilə bilməz
D) vergi ödəyicisinin müraciətinə əsasən dəyişdirilə bilər

XI Fəsil. Əlavə dəyər vergisi.

§11.1. Əlavə dəyər vergisinin tətbiqi xüsusiyyətləri.

Əlavə dəyər vergisi (ƏDV) Azərbaycan Respublikasında tətbiq olunan vergilər sırasında ən əhəmiyyətli və səmərəli vergi hesab olunur. Təsadüfi deyil ki, dövlət büdcəsinin gəlirlərinin mühüm hissəsini məhz ƏDV üzrə daxilolmalar təşkil edir. ƏDV-nin tutulması mexanizmi ilk dəfə 1954-cü ildə fransız iqtisadçısı M.Lore tərəfindən təklif edilmiş, 1955-ci ildə Fransanın tabeçiliyində olan Kot-d-ivuarda təcrübədən keçirilmiş, 1958-ci ildən isə Almaniya və Fransada tətbiq olunmağa başlamışdır. Müasir dünya iqtisadiyyatına nəzər saldıqda dolayı vergitutmanın rolunun gündən-günə artdığının şahidi oluruq. Əgər 50-ci illərdə ƏDV yalnız Fransada tətbiq edilirdisə, hazırda Avropa ölələrinin əksəriyyətində, Asiya, Afrika və Latın Amerikasının 40-a yaxın ölkəsində bu vergi tətbiq edilir. Öz mahiyyətinə görə ƏDV istehlaka tətbiq edilən mal və xidmətlərin istehsalının və tədavülünün hər bir mərhələsində yaranan əlavə dəyərin bir hissəsinin dövlət büdcəsinə alınmasıdır. ƏDV tətbiq olunan istənilən ölkənin dövlət büdcəsinin gəlirlərinin əsas hissəsini bu vergi üzrə daxilolmalar təşkil edir. Keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi Azərbaycanda da ƏDV üzrə daxilolmalar dövlət büdcəsinin gəlirlərinin formalaşmasında fəal iştirak edir və ildən-ilə bu vergi üzrə daxilolmaların payı artmaqdadır. Belə ki, əgər 2000-ci ildə ƏDV üzrə büdcə daxilolmaları 190.8 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddə 599.9 milyon manata, 2009-cu ildə 2 milyard 12.8 milyon manata, 2010-cu ildə 2 milyard 82.5 milyon manata və nəhayət 2011-ci ildə 2 milyard 222.7 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə ƏDV üzrə 2

milyard 301.8 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Azərbaycanda olduğu kimi dünya ölkələrinin əksəriyyətində ƏDV dövlət büdcəsinin gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Artıq Avropada ƏDV-yə xüsusi bir vergi növü kimi baxılır. 1993-cü ildə Avropa İttifaqına daxil olan ölkələr ƏDV-nin dərəcəsini yaxınlaşdırmaq üçün 15%-lik minimal səviyyə müəyyən etdi. Maraqlı cəhət budur ki, Avropa İttifaqına daxil olan ölkələrdən birbirinə ixrac ƏDV-dən azaddır. Bu məqsədlə Avropa İttifaqı daxilində ƏDV üzrə klirinq sisteminin tətbiq edilməsi nəzərdə tutulur. Bu sistemin tətbiqində məqsəd ixrac nəticəsində ƏDV-üzrə ixracatçıların büdcələrdə yaranan itkilərin yerini doldurmaqdır.

Dolayı vergilər içərisində dünyada ən çox yayılmış və tətbiq olunan vergi əlavə dəyər vergisi hesab olunur. Lakin, ƏDV-in tətbiqinin bütün ölkələr üçün özünəməxsus xüsusiyyətləri vardır ki, bu da xarici ölkələrin vergi sistemini bir-birindən fərqləndirməyə imkan verir. Məsələn, ƏDV-in yaradıcısı hesab olunan Fransada ƏDV-in 2 dərəcəsi tətbiq olunur. Standart dərəcə 19,6% və bəzi kənd təsərrüfatı məhsullarına, ərzağa, dərmana, tibbi avadanlığa, yük və sərnişin daşınmasına tətbiq edilən azaldılmış - 5,5% dərəcə. Fransada tətbiq edilən ƏDV-nin dərəcələrindən fərqli olaraq Böyük Britaniyada 3 dərəcə (0%, 8%, 20%) tətbiq olunur. 0% dərəcə ilə vergiyə əsasən yeyinti məhsulları, zəif görənlər üçün kitab və vəsaitlər, nəqliyyat materialları, beynəlxalq xidmətlər, xeyriyyəçilik, su təchizatı, 8% dərəcə ilə kommunal təminatla bağlı xidmətlər, 20% dərəcə ilə isə digər mal, iş və xidmətlər cəlb olunur. Böyük Britaniyada ƏDV, istehsal və vergiyə cəlb olunan şəxsin məhsulları və ya xidmətləri bölüşdürməsi prosesinin hər bir mərhələsində tutulur. Belə əmtəə və xidmətlər daxilolma, onlara tətbiq olunan

vergi isə daxilolma vergisi adlanır, vergiyə cəlb olunan şəxsin tədarük etdiyi əmtəə və xidmətlər məhsul buraxılışı, onlara tətbiq edilən vergi isə məhsul buraxılışı vergisi hesab olunur. Böyük Britaniya qanunvericiliyinə görə məhsul buraxılışı vergisi daxilolma vergisini üstələyərsə, vergiyə cəlb olunan şəxs yaranmış fərqi Krallığın gömrük və aksizlər xidmətinə ödəməlidir. Böyük Britaniyada vergiyə cəlb olunan şəxs hesab edilməyənlər, yəni illik gəliri 46 min funt sterlinqdən az olanlar ƏDV-ni fərqli qaydada ödəyirlər. Belə ki, vergiyə cəlb olunan şəxslərdən aldıqları bütün əmtəələrə və xidmətlərə görə vergi ödəsələr də, məhsul buraxılışı vergisinə cəlb edilmirlər. İspaniyada da digər avropa ölkələri kimi ƏDV müxtəlif dərəcələrlə tətbiq olunur. ƏDV-nin standart dərəcəsi 16% müəyyən olunsa da, ərzaq məhsulları, dərman preparatları, qəzet, kitab, restoran, mehmanxana, nəqliyyat xidməti və yaşayış evlərinin satışı 4-7%-lə, avtomobil və digər bahalı mallar 28%-lə vergiyə cəlb olunur.

İsveçdə, Fransa və Böyük Britaniyada olduğu kimi ƏDV-in dərəcələri müxtəlifdir. Əgər ƏDV-nin dərəcəsinin maksimum həddi 25% təşkil edirsə, ərzaq məhsullarına, turizm, mehmanxana, ekskursiya xidmətlərinə 12%, qəzet və jurnallara 6% vergi tətbiq olunur. İxrac olunan mallar, patent işi, mədəniyyət təşkilatlarının göstərdiyi xidmətlər, bank əməliyyatları və tibbi xidmətlər ƏDV-dən azaddır. İsveçrədə bir başqa mənzərənin şahidi oluruq. Belə ki, İsveçrədə ƏDV-nin ən aşağı dərəcələri tətbiq olunur: standart 6,5%, xüsusi 3% və azaldılmış 2%. Xüsusi dərəcə mehmanxana xidmətlərinə, azaldılmış dərəcə isə ərzaq məhsullarına, alkoqolsuz içkilərə, quşlara, balıqlara, tibb məhsullarına, poliqrafiya xidmətlərinə və buğdaya tətbiq edilir. ƏDV-nin büdcə gəlirlərində aparıcı rol oynamasına biz Belçikanın vergi sistemində də rast gəlirik. Digər Avropa ölkələrində olduğu kimi, Belçikada

da ƏDV-nin müxtəlif dərəcələri tətbiq edilir. Belə ki, ƏDV-nin standart dərəcəsi 21%, yaşayış evlərinin tikintisi 12% və kənd təsərrüfatı xammalı, dərman, kitab, qəzet, kommunal xidmətlər, sərnişin nəqliyyatı xidmətləri, mehmanxana xidmətləri 7%-lə ƏDV-yə cəlb edilir. Dərəcələrin müxtəlifliyinə biz İtaliyanın vergi sistemində də rast gəlirik. Belə ki, ƏDV güzəştli-2%, əsas-9%, yüksək 19%-38% və minimal 0,8% dərəcə ilə tətbiq edilir. Güzəştli vergi dərəcələri gündəlik tələbat mallarına, qəzet və jurnallara, yüksək vergi dərəcələri 19%-lə benzin, neft məhsulları, restoranda satılan ərzaq məhsullarına, 38%-lik dərəcə isə əsasən bahalı mallara, avtomobillərə, zərgərlik məmulatlarına, 9%-lə isə digər iş, mal və xidmətlərə tətbiq edilir.

Almaniyada, digər ölkələrdən fərqli olaraq iki dərəcə tətbiq olunur: standart vergi dərəcəsi 19% və güzəştli vergi dərəcəsi 7%. Standart vergi dərəcəsi məhsul, iş və xidmətlərin dövriyyəsinə, güzəştli vergi dərəcəsi isə ərzaq məhsulları, ictimai nəqliyyat, qəzet, kitab, jurnal və incəsənət əsərlərinə tətbiq edilir.

Azərbaycanda da xarici ölkələrdə olduğu kimi iş, mal və xidmətlər üzrə ƏDV-nin müxtəlif dərəcələrinin tətbiq olunması məqsədəuyğun olardı.

Əlavə dəyər vergisi (ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisidir. Qeydiyyatdan keçən şəxs qeydiyyatın qüvvəyə mindiyi andan etibarən, qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxs isə qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat

dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılır. Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər bu cür idxal malları üzrə ƏDV-nin ödəyiciləri sayılırlar. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 169-cu maddəsinə (AR VM m-169. Qeyri-rezidentlərin vergiyə cəlb edilməsi.) müvafiq surətdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxs həmin işlər və ya xidmətlər üzrə vergi ödəyicisi sayılır. Hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti də ƏDV-nin məqsədləri üçün ayrıca şəxs sayılır. Eyni zamanda aksizli malların istehsalçıları və mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-nin ödəyiciləridirlər.

Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan artıq olan şəxslər (Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 218.1.1. 1-ci maddəsində göstərilənlər istisna olmaqla: ARVM m-18.1.1.1. mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər) 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 120.000 manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Bu qaydalar qeyri-rezidentlərin vergi tutulan əməliyyatların ümumi dəyəri müəyyən edilərkən yalnız o zaman

nəzərə alınır ki, onlar Azərbaycan Respublikasındakı daimi nümayəndəlik vasitəsilə həyata keçirilmiş olsun.

Hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti göstərən şəxs də ƏDV-nin məqsədləri üçün vergi ödəyicisi olduğu halda, qeydiyyata alınmaq üçün ərizə verməyə borcludur. Qeydiyyatdan keçməli olmayan sahibkarlıq fəaliyyəti göstərən şəxs vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər. ƏDV-nin məqsədləri üçün məcburi və ya könüllü qeydiyyat haqqında ərizə Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə verilməlidir. Şəxs ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçərkən vergi orqanı həmin şəxsi ƏDV ödəyicilərinin dövlət reyestrində qeydə almağa və ərizə verildikdən sonra 5 iş günündən gec olmayaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə qeydiyyat bildirişi verməyə, həmin bildirişdə vergi ödəyicisinin adını və ona aid olan digər məlumatı, qeydiyyatın qüvvəyə mindiyi tarixi və VÖEN-i göstərməyə borcludur. Qeydiyyat bildirişi ƏDV ödəyicisinə bir dəfə verilir və onda saxlanılır. ƏDV ödəyicisinin qeydiyyat bildirişi itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciəti əsasında ona bildirişin surəti verilir. Qeydiyyat hansı tarixin əvvəl başlamasından asılı olaraq aşağıdakı tarixlərin birində qüvvəyə minir:

1. məcburi qeydiyyat zamanı - ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan artıq olduqda - növbəti ayın birinci günündə; bir əqd və ya müqavilə üzrə ƏDV-yə cəlb olunan əməliyyatın ümumi dəyəri 120.000 manatdan artıq olduqda - əməliyyatın aparıldığı günədək;
2. könüllü qeydiyyat zamanı - qeydiyyat haqqında ərizənin verildiyi aydan sonrakı hesabat dövrünün birinci günündə;

3. 3 il müddətindən çox olmamaqla, vergi ödəyicisinin qeydiyyat haqqındakı ərizəsində göstərilən tarixdə. (3 illik dövr bitdikdən sonra vergi ödəyicisi tərəfindən ƏDV-nin dəqiqləşdirilməsinə və əvəzləşdirilməsinə yol verilmir).

Vergi orqanı ƏDV-nin ödəyicilərinin reyestrini aparmağa borcludur. Vergi ödəyiciləri ƏDV-nin reyestrinə daxil edilərkən onların uçota alınması haqqında vergi orqanına təqdim etdikləri ərizədəki məlumatlardan istifadə olunur. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyə borclu olan, lakin qeydiyyat üçün ərizə verməyən vergi ödəyicisini vergi orqanı öz təşəbbüsü ilə qeydiyyata alır və ona müvafiq qeydiyyat bildirişi göndərir. ƏDV ödəyicilərinin məlumatlarında dəyişikliklər baş verdikdə ƏDV ödəyicilərinin dövlət reyestrində müvafiq düzəlişlər edilməlidir. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş hallarda rəsmi sorğulara əsasən sorğu edənə «ƏDV ödəyicilərinin reyestrindən çıxarış» verilir.

Vergi ödəyicisi ƏDV-nə cəlb olunan əməliyyatlar aparmağı dayandırırsa, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair ərizə verməyə borcludur. Bu halda, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi ödəyicisinin vergi tutulan əməliyyatları tam dayandırdığı gün qüvvəyə minir.

Vergi ödəyicisinin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 60000 manatdan çox deyilsə, yuxarıdakı hallar istisna edilməklə, vergi ödəyicisi ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən bir il keçdikdən sonrakı istənilən vaxt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilər. ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi orqanına qeydiyyatın ləğv edilməsinə dair ərizənin verildiyi gün qüvvəyə minir.

Vergi orqanı şəxsin ƏDV qeydiyyatının ləğv edilməsi barədə məlumatı bir iş günü ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərməlidir.

Vergi orqanı ƏDV-nin məqsədləri üçün qeydiyyatı ləğv edilən şəxsin adını, onun haqqında digər məlumatları ƏDV-nin ödəyicilərinin reyestrindən silməli və verilmiş qeydiyyat bildirişini geri almalıdır.

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal **vergitutma obyektidir.** Vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa, müstəqil sahibkarlıq fəaliyyəti və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti çərçivəsində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi, onlar Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 167-ci və ya 168-ci maddələrinə (ARVM m-167. Malların təqdim edildiyi yer., m-168. İşlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer.) uyğun olaraq Azərbaycan Respublikasının ərazisində həyata keçirilirsə, vergi tutulan əməliyyatlar sayılır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 168-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda xidmətlər göstərilməsi və ya işlər görülməsi vergi tutulan əməliyyatlara daxil edilmir.

Malların idxalı vergidən azad edilən idxal istisna edilməklə, vergi tutulan idxal sayılır. Tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar və ya gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir.

Vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi, habelə barter əməliy-

yatı vergi tutulan əməliyyat sayılır. Vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqaladə hallardan başqa malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.

Vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir.

Malları ƏDV-nə cəlb edilən əməliyyatlar nəticəsində əldə edən, lakin bu malları əldə edərkən ƏDV-ni əvəzləşdirməyə hüququ olmayan şəxsin həmin malları göndərməsinə vergi tutulan əməliyyat kimi baxılmır. Əgər mallar əldə edilərkən əvəzləşdirilməsinə qismən yol verilməmişdirsə, vergi tutulan əməliyyatın məbləği əvəzləşdirmənin qismən yol verilməmiş payına mütənasib olaraq azaldılır.

ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyən şəxslərin ƏDV tətbiq etməklə aparılan əməliyyatları, habelə ƏDV-dən azad edilən və ya sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb edilən, lakin ƏDV tətbiq etməklə aparılan əməliyyatları vergitutma obyektidir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ƏDV-nin məqsədləri üçün vergi tutulan minimum dövriyyə tikilən binanın ümumi sahəsinin (dövlətə ayrılan hissə, dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət zəmanəti və dövlətə ayrılan yardımlar hesabına tikilən yaşayış sahəsi, başqa tikintilərlə təmasda olmayan ayrıca tikilən fərdi və ya şəxsi yaşayış və ya bağ evlərinin, yaxud tikililərinin sahəsi istisna olmaqla) hər kvadrat metri üçün 225 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazi-

lərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

ƏDV-dən azad edilən idxal mallarının Azərbaycan Respublikasının ərazisində təqdim edilməsi vergi tutulan əməliyyat sayılır. Müəssisənin bir əməliyyat çərçivəsində bir vergi ödəyicisi tərəfindən digər vergi ödəyicisinə təqdim edilməsi vergi tutulan əməliyyat sayılmır. Bu halda müəssisəni alan və ya qəbul edən şəxs müəssisəyə aid hüquq və öhdəliklərini öz üzərinə götürür. Lakin bu müəssisəni təqdim edən şəxsi əvvəlki vergi dövrləri üçün vergiləri, faizləri və ya maliyyə sanksiyalarını ödəməkdən azad etmir.

Vergi tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) əsasında müəyyən edilir. Əgər vergi ödəyicisi vergi tutulan əməliyyatın əvəzində mal, iş və ya xidmət alırsa, yaxud almağa hüququ varsa, bu malların, işlərin və ya xidmətlərin ƏDV nəzərə alınmadan bazar dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) vergi tutulan əməliyyatın dəyərinə daxil edilir.

Vergi tutulan idxalın dəyəri malların Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyərindən və mallar Azərbaycan Respublikasına gətirilərkən ödənilməli olan rüsumlardan və vergilərdən (ƏDV nəzərə alınmadan) ibarətdir.

İdxalın bir hissəsi kimi sayılan xidmət göstərildikdə, onun ƏDV nəzərə alınmadan dəyəri yuxarıda göstərilən dəyərə əlavə edilir.

Bu qaydalar aşağıdakı hallarda mal göndərənin, iş görənin və xidmət göstərənin vergi tutulan əməliyyatlarına tətbiq edilir:

1. əməliyyat tam və ya qismən ləğv edildikdə, o cümlədən mal tam və qismən geri qaytarıldıqda;
2. əməliyyatın xarakteri dəyişdikdə;
3. qiymətlərin aşağı düşməsi və ya hər hansı digər səbəbdən əməliyyat üçün razılaşdırılmış kompensasiya dəyişdikdə; yaxud
4. vergi ödəyicisi elektron vergi hesab-faktura verdikdən sonra vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi üçün əsas verən hallar üzə çıxdıqda və bu cür dəqiqləşdirmə qanunvericiliyə müvafiq olaraq aparıldıqda.

Bu hallardan birinin nəticəsində: ƏDV üçün elektron vergi hesab-fakturanı vermiş və ƏDV-nin məbləğini həmin elektron vergi hesab-fakturada düzgün göstərməmişdirsə, yaxud ƏDV-nin bəyannaməsində verginin məbləğini düzgün göstərməmişdirsə, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq surətdə dəqiqləşdirmə aparılır. Dəqiqləşdirmə qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə aparılır.

§11.2. Əlavə dəyər vergisindən azadolmalar və verginin sıfır (0) dərəcə ilə tutulması.

ƏDV-nin vergitutma bazası olduqca geniş olduğu üçün vergi qanunvericiliyində azadolma və güzəştlərə böyük yer verilir. Azərbaycanda malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur:
1. özəlləşdirilmə qaydasında dövlət müəssisəsindən satın alınan əmlakın dəyəri, habelə dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının büdcəyə ödənilməli olan hissəsi;
2. maliyyə xidmətlərinin göstərilməsi;

3. milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi;
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş Azərbaycan Respublikası pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin idxalı;
5. idxal olunan əmlak istisna olmaqla müəssisənin Nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);
6. tutulan məbləğlər hədlərində dövlət hakimiyyəti, yerli özünüidarəetmə və digər səlahiyyətli orqanların tutduğu dövlət rüsumu, icazə haqları, yığımlar, xüsusi notariusların aldığı haqlar (notariat hərəkətlərinin aparılmasına və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə) və onların tutulması müqabilində göstərdiyi xidmətlər;
7. kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla);
8. orta məktəb dərslikləri, uşaq ədəbiyyatının və büdcədən maliyyələşdirilən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti;
9. dəfn və qəbiristanlığın mərasim xidmətləri;
10. Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun qanunve-

riciliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi;
11. Azərbaycan Respublikasına, o cümlədən onu təmsil edən hüquqi şəxslərə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondların, daşınan əmlakın və digər aktivlərin Azərbaycan Respublikası Dövlət Neft Fonduna və ya Azərbaycan Respublikasını təmsil edən tərəfə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar;
12. metropolitenlə sərnişindaşıma xidmətləri;
13. ödənişli təhsil xidmətlərinin göstərilməsi (digər fəaliyyətləri ilə bağlı xidmətlərin göstərilməsi istisna olmaqla);
14. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye və texnologiyalar parkının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı;
15. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 7 il müddətinə;

16. hüquqi şəxsin iştirak paylarının və ya səhmlərinin təqdim edilməsi.

Azərbaycan Respublikasının Nazirlər Kabineti konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilər.

Verginin sıfır (0) dərəcəsi ilə tutulması.

Aşağıdakı işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur:

1. Azərbaycan Respublikasında akkreditə edilmiş beynəlxalq təşkilatların və xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinini bu nümayəndəliklərin müvafiq statuslu Azərbaycan Respublikasının vətəndaşı olmayan diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər; (Burada sıfır (0) dərəcəsi ilə ƏDV o ölkələrə münasibətdə tətbiq edilir ki, həmin ölkələr tərəfindən bu işlərə, xidmətlərə və əməliyyatlara görə ƏDV sıfır (0) dərəcəsi ilə tətbiq edilsin.)
2. Xaricdən alınan əvəzsiz maliyyə yardımları (qrantlar) hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi;
3. malların ixracı;
4. beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması. Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi;
5. Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin göndərilməsi.

Xarici ölkələrin əksəriyyətinin vergi qanunvericiliyində ƏDV üzrə azadolma və güzəştlər nəzərdə tutulub. Məsələn, Fransada ixracla bağlı bütün əməliyyatlar, bank və maliyyə fəaliyyəti, xüsusi həkim və müəllimlər, kənd təsərrüfatı və balıqçılıq, inzibati, sosial, mədəni və idman funksiyalarını yerinə yetirən dövlət müəssisələri ƏDV-dən azaddır. Böyük Britaniyada isə bəzi əmtəə və xidmətlərin, ərzaq məhsullarının, suyun, kitabların tədarükü, eləcə də əcnəbi tacirlərə və ya xarici məqsədlər üçün müxtəlif xidmətlərin göstərilməsi ƏDV-yə cəlb olunmur. Bu da vergiyə cəlb olunan şəxsi, həmin əmtəə və xidmətləri tədarük etdikdə məhsul buraxılışı vergisini ödəməkdən azad edir, həmçinin alqı-satqı əməliyyatı zamanı dövlət büdcəsinə köçürdüyü daxilolma vergisini geri almağa imkan yaradır. Bütün bunlarla yanaşı sığorta, poçt, təhsil və səhiyyə xidmətləri də ƏDV-dən azaddır. Lakin, burada bir fərqli mexanizm tətbiq olunur. Yəni bu xidmətləri göstərənlər vergiyə cəlb edilən şəxs sayılmır və bununla da ödədikləri daxilolma ƏDV-ni geri almaq hüququnu itirirlər. İspaniyada malların ixracı, tibbi xidmət, poçt xidməti, təhsil, bank və maliyyə xidməti, sığorta işi, xeyriyyəcilik fəaliyyəti, Belçikada isə banklar, sığorta şirkətləri, hüquqşunaslar, həkimlər, müəllimlər, tibbi xidmətlər, beynəlxalq daşımalar ƏDV-dən azaddır.

§11.3. Vergi tutulan əməliyyatların aparıldığı vaxt, malların təqdim edildiyi, işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer.

Vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının

verildiyi vaxt sayılır. Aşağıda göstərilən müddətlərdən sonrakı beş gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat aşağıdakı vaxtlarda aparılmış sayılır:

1. malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra həyata keçirildikdə isə malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxtda;

2. malların göndərilməsi onların daşınmasını nəzərdə tutursa, ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra həyata keçirildikdə isə daşınmanın başlandığı vaxtda.

Ödəmə bu müddətlər başlananadək həyata keçirildikdə, ödəmədən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat ödəmə həyata keçirildikdə aparılmış sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır.

Xidmətlər müntəzəm və ya daimi əsasda göstərilirsə, xidmətlərin göstərilməsi vaxtı bu əməliyyatın hər hansı hissəsi üçün hər dəfə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt, yaxud ödəmə əvvəl həyata keçirilmişsə, əməliyyatın hər hansı hissəsinin ödənildiyi vaxt sayılır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 159.3-cü və 159.5-ci maddələri (ARVM m-159.3. Malların idxalı vergidən azad edilən idxal istisna edilməklə, vergi tutulan idxal sayılır. Tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar və ya gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul

olunmuş sayılmayan mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir. M-159.5. Vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqaladə hallardan başqa malların itməsi, əskik gəlməsi, xarab olması və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.) tətbiq edildikdə, vergi tutulan əməliyyatın aparılması vaxtı mallardan, işlərdən və ya xidmətlərdən istifadə edilməsinə, yaxud onların istehlakına başlandığı vaxt sayılır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 159.4-cü maddəsində (ARVM m-159.4. Vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi, habelə barter əməliyyatı vergi tutulan əməliyyat sayılır.) göstərilən hallarda vergi tutulan əməliyyatın aparılması vaxtı işçilər üçün mallar göndərildiyi, işlər görüldüyü, xidmətlər göstərildiyi vaxt sayılır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 159.6-cı maddəsi (ARVM m-159.6. Vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir.) tətbiq edildikdə, ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) malların göndərilməsi vaxtı sayılır.

İdxalın vaxtı. Gömrük qanunvericiliyinə uyğun olaraq mallara gömrük rüsumları tutulduğu vaxt malların idxal edilməsi vaxtı sayılır. Əgər idxal olunan mallar gömrük rüsumlarından azad edilirsə, malların idxal edilməsi vaxtı onların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt sayılır.

Malların təqdim edildiyi yer. Malların təqdim edilməsi onların verildiyi yerdə həyata keçirilir. Malların gön-

dərilməsi şərtlərində malların yola salınması və ya nəql edilməsi nəzərdə tutulursa, təqdim edildiyi yer onların yola salınmasına və ya nəql edilməsinə başlandığı yer sayılır. Lakin malları göndərən tərəf onları qurursa və ya quraşdırırsa, təqdim edilmə malların qurulduğu və ya quraşdırıldığı yer sayılır.

İşlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer aşağıdakılar sayılır:

1. daşınmaz əmlakın olduğu yer - işlər (xidmətlər) bilavasitə bu əmlakla bağlıdırsa. Bu cür işlərə (xidmətlərə) tikinti, tikinti-quraşdırma, təmir, bərpa işləri, daşınmaz əmlakla bağlı agent və ekspert xidmətləri və digər analoji işlər (xidmətlər) aiddir;
2. işlərin faktiki görüldüyü (xidmətlərin faktiki göstərildiyi) yer - bunlar daşınan əmlakla bağlıdırsa;
3. xidmətlərin faktiki göstərildiyi yer - xidmətlər mədəniyyət, incəsənət, təhsil, bədən tərbiyəsi və ya idman sahəsində, yaxud digər analoji fəaliyyət sahələrində göstərilirsə;
4. nəqletmənin faktiki həyata keçirildiyi yer - işlər (xidmətlər) bu nəqletmə ilə bağlıdırsa;
5. işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi nümayəndəliyin olduğu yer.

Bu müddəalar həmçinin növbəti xidmətlərə də tətbiq edilir: - patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi; - məsləhət, hüquq, mühasibat, mühəndis və ya reklam xidmətlərinin, həmçinin məlumatların işlənilməsi üzrə xidmətlərin və digər analoji xidmətlərin göstərilməsi; - işçi qüvvəsinin verilməsi üzrə xidmətlə-

rin göstərilməsi; - daşınan əmlakın icarəyə verilməsi (nəqliyyat müəssisələrinin nəqliyyat vasitələri istisna olmaqla); - müqavilənin əsas iştirakçısı adından bu bölumdə göstərilən xidmətlərin yerinə yetirilməsi üçün hüquqi və ya fiziki şəxsi cəlb edən agentin xidmət göstərməsi; - telekommunikasiya xidmətlərinin göstərilməsi (siqnalların, sənədlərin, şəkillərin və ya səsin, yaxud istənilən xarakterli informasiyanın teleqraf, radio, optik və ya digər elektromaqnit sistem vasitəsilə alınması, yayılması, ötürülməsi, o cümlədən bu cür ötürmə, alma və ya yayım hüquqlarının təqdim edilməsi və ya alınması); - radio və televiziya yayımı, poçt rabitəsi xidmətlərinin göstərilməsi; - kompüter, internet və digər elektron şəbəkələr, elektron poçt və digər oxşar vasitələrlə xidmətlərin göstərilməsi, yaxud bu cür şəbəkələrdən və ya xidmətlərdən istifadə hüququnun verilməsi;
6. işi yerinə yetirən və ya xidmət göstərən şəxsin fəaliyyəti həyata keçirdiyi yer.

Yuxarıda sadalananlar tətbiq edildikdə, birdən çox bənddə sadalanan işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer bu sıralama üzrə birincisi ilə müəyyənləşdirilir.

§11.4. Qeyri-rezidentlərin ƏDV-yə cəlb edilməsi və həyata keçirilən əməliyyatların təsnifatı.

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində bu bölümün 2-ci və ya 5-ci abzaslarında adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə, bu fəslin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi vergiyə cəlb olunur.

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınan hər hansı şəxs vergi agenti sayılır.

Vergi agenti qeyri-rezidentə ödənməli olan məbləğə ƏDV hesablamalı və ödəməlidir. Verginin məbləği vergi dərəcəsinin qeyri-rezidentə ödənməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmişdirsə, hesablanan vergi, əməliyyatın aparıldığı ay üçün ƏDV-nin bəyannaməsi verilərkən ödənilir. Hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi vergi agentinə ƏDV-nin məbləğini əvəzləşdirmək hüququnu verən elektron vergi hesab-fakturadır.

Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o, hesablanan vergini qeyri-rezidentə ödəmə verildikdən sonra 7 gün ərzində ödəməyə və növbəti ayın 20-dək Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada ƏDV bəyənnaməsi verməyə borcludur. Vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğ ƏDV-nin hesablanması üzrə əməliyyatları vergi agentinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir. Vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV-ni hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentdə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır.

Qeyri-rezidentə məxsus əmlak vergi agentinə icarəyə verilmək üçün idxal edildikdə, əmlakın sahibi olan qeyri-rezidentin icazəsi ilə vergi agenti idxaldan ödənilmiş vergidən ƏDV-nin məbləğinin əvəzləşdirilməsini tələb edə bilər. Bu halda vergi agenti vergi ödəyicisi sayılır və sonradan əmlakı təqdim edərkən (onun ixracı istisna edilməklə) ƏDV-nin ödənilməsi üçün cavabdehdir.

Vergi agenti qeyri-rezidentə ödəmə verilən aydan sonrakı ayın 20-dən gec olmayaraq ƏDV-nin hesablan-

ması barədə vergi orqanına Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müəyyən etdiyi formada bəyannamə təqdim etməlidir.

Qarışıq əməliyyatlar. Mallar göndərilməsinə, işlər görülməsinə və ya xidmətlər göstərilməsinə yardımçı xarakter daşıyan mallar göndərilməsi, işlər görülməsi, xidmətlər göstərilməsi onların bir hissəsi sayılır. İxracatçının malların idxalına yardımçı xarakter daşıyan işlər görməsi və ya xidmətlər göstərməsi malların idxalının bir hissəsi sayılır. Müstəqil elementlərdən ibarət əməliyyat bölünərkən vergiyə cəlb edilən və ƏDV-dən azad olan əməliyyatlara ayrılırsa, onlara ayrı-ayrı əməliyyatlar kimi baxılır.

Agentin həyata keçirdiyi əməliyyatlar. Digər şəxsin (vəkalət verən) agenti (vəkalət alan) olan şəxs tərəfindən mallar göndərilməsi, işlər görülməsi və ya xidmətlər göstərilməsi vəkalət verənin həyata keçirdiyi əməliyyat sayılır. Lakin bu agentin vəkalət verənə göstərdiyi xidmətlərə, həmçinin rezident olmayan və Azərbaycan Respublikasında ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçməmiş şəxsin rezident agentinin Azərbaycan Respublikasına mallar göndərməsinə tətbiq edilmir. Belə hallarda, ƏDV-nin məqsədləri üçün malların göndərilməsi agent tərəfindən həyata keçirilən əməliyyat sayılır. Lotereyalar, turist agentlərinin xidmətləri, komisyon qaydada satış, işlənmiş malların satışı və ümumi qaydalara əsasən vergitutma bazasının müəyyənləşdirilməsi çətin olan digər sahələr üzrə ödənilməli olan ƏDV-nin məbləği bu qaydalara uyğun olaraq müəyyənləşdirilir.

Digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlar üzrə ƏDV-nin vergitutma bazası Azərbaycan Respublikasının Vergi Məcəlləsində aşağıdakı kimi müəyyənləşdirilir:

1. Digər şəxs agent vasitəsi ilə malları təqdim etdikdə, işlər gördükdə və ya xidmətlər göstərdikdə, həmin malların

(işlərin, xidmətlərin) dəyəri vergi tutulan əməliyyatların dəyəri və vergitutma bazası hesab edilir.

Agent tərəfindən göstərilən xidmətlərə görə ona ödənilən haqlar (mükafatlar) agentin vergi tutulan əməliyyatlarına daxil edilməklə yanaşı, digər şəxsin gəlirdən çıxılan xərclərinə aid edilir.

Agentin digər şəxsdən aldığı elektron vergi hesab-fakturası ona ƏDV məbləğini əvəzləşdirmək hüququ vermir.

2. Digər şəxs üçün vergi tutulan əməliyyatların vaxtı malların (işlərin, xidmətlərin) agentə verildiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) hissə-hissə (qismən) verildikdə, vergi tutulan əməliyyatların vaxtı hər hissə üçün ayrılıqda müəyyən edilir.

3. Agent ƏDV üzrə vergi ödəyicisi olduqda, yalnız digər şəxsə göstərdiyi xidmətlərə görə elektron vergi hesab-fakturası verir. Elektron vergi hesab-fakturası ƏDV ödəyicisi olan digər şəxs tərəfindən agentə ödənilmiş ƏDV-ni əvəzləşdirmək hüququ verir.

Digər şəxs tərəfindən agentə verilmiş malların (işlərin, xidmətlərin) dəyərinə ƏDV daxil edilib-edilməməsindən asılı olmayaraq, agent malların (işlərin, xidmətlərin) alıcısına (sifarişçisinə) elektron vergi hesab-fakturası verə bilməz.

4. Agent üçün vergitutma bazası onun digər şəxslərə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə göstərdiyi xidmətlərin dəyəri, vergi tutulan əməliyyatların vaxtı bu xidmətlərin faktiki göstərildiyi vaxt, vergi tutulan əməliyyatların dəyəri isə onun digər şəxsdən almalı olduğu (aldığı) haqdır (mükafatdır).

Digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlarda ƏDV hesablanmasının sahəvi xüsusiyyətləri aşağıdakı qaydada müəyyənləşdirilir:

1. Lotereya keçirən şəxs üçün vergi tutulan əməliyyatların dəyəri lotereyaların satışından əldə olunan məbləğdən uduş fondunun məbləği çıxıldıqdan sonra qalan məbləğ hesab edilir.
2. Lotereyaların keçirilməsi şərtlərinə uyğun olaraq uduş fondu tam və ya qismən mallardan ibarət olduqda, lotereya keçirən şəxs tərəfindən uduş fondu üçün alınmış mallara görə ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.
3. Azərbaycan Respublikası ərazisindən digər ölkələrə keçən marşrutlar üzrə turist xidmətləri göstərən şəxslər üçün turist xidmətlərinin (Azərbaycan Respublikası ərazisindən kənarda göstərilən xidmətlər istisna olmaqla) dəyəri, turist vərəqələrini təqdim edən şəxslər (agentlər) üçün isə bu təqdimetmə üzrə göstərilən xidmətlərin dəyəri vergitutma bazası hesab edilir.
4. Malların komisyon qaydada satışı zamanı komitent üçün vergitutma bazası komisyonçuya verilmiş malların dəyəridir (komisyon haqları çıxılmadan).
5. Komisyonçunun komitentdən aldığı elektron vergi hesab-fakturası komisyonçuya ƏDV məbləğini əvəzləşdirmək hüququ vermir.
6. Komisyonçu komissiyaya götürdüyü malların dəyərinə ƏDV daxil edilib-edilməməsindən asılı olmayaraq, malların alıcısına elektron vergi hesab-fakturasını verə bilməz.
7. Komitent qeyri-rezident olduqda, malların komissiya qaydasında satışı üzrə əməliyyatlar agentin, yəni komisyonçunun apardığı əməliyyatlar hesab edilir.
8. Digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlar üzrə vergi tutulan əməliyyatların aparıldığı vaxt, büdcəyə ƏDV-nin hesablanması, büdcəyə ödəmələr müəyyən edilərkən ƏDV-nin əvəzləşdirilməsi və elektron vergi hesab-fakturalarının tətbiqi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq ümumi qaydada müəyyənləşdirilir.

ƏDV ödəyicisi olan şəxslər tərəfindən göstərilən əməliyyatlardan başqa digər əməliyyatlar da həyata keçirildikdə, həmin əməliyyatların uçotu ayrıca aparılır.

§11.5. Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan və əvəzləşdirilən ƏDV.

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. Vergi tutulan dövriyyə hesabat dövri ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir.

Hesabat dövrü ərzində vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV-nin məbləği vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqlə müəyyən olunur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 163-cü maddəsində (ARVM m-163. Vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi.) göstərilən hallarda ödənilməli olan ƏDV-nin məbləği vergi ödəyicisinin bəyannamədə göstərdiyi ƏDV-nin məbləğindən artıq olduqda, artıq məbləğ ödənilməli olan ƏDV sayılır və yuxarıdakı qaydalara* uyğun olaraq hesabat dövrü ərzində ödənilməli olan verginin məbləğinə əlavə edilir.

Büdcəyə ödəmələr müəyyən edilərkən əvəzləşdirilən ƏDV. Əvəzləşdirilən ƏDV-nin məbləği vergi ödəyicisinə verilmiş vergi hesab-fakturaları üzrə nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində aparılan əməliyyatlarda ödənilən vergi məbləği sayılır və bu zaman vergi tutulan əməliyyatın vaxtı aşağıdakı kimi müəyyənləşdirilir:

1. hesabat dövri ərzində həyata keçirilmiş sayılan mal göndərilməsini, iş görülməsini, yaxud xidmət göstərilməsini nəzərdə tutan əməliyyatlar üzrə - Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 176-cı maddəsinə (ARVM m-176. Elektron vergi hesab-fakturaları.) uyğun olaraq;
2. hesabat dövri ərzində malların idxalı üzrə - Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 170-ci maddəsinə (ARVM m-170. İdxalın vaxtı.) uyğun olaraq.
3. vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə iki və ya daha çox ödəmə aparılarsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır. Vergi ödəyicisinə verilmiş elektron vergi-hesab fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec olmayaraq, ƏDV-nin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada ödənilməlidir. Bu zaman malların (iş və xidmətlərin) dəyəri üzrə iki və ya daha çox ödəmə aparılarsa, ƏDV-nin məbləği aparılmış ödəniş məbləğinə uyğun olaraq ƏDV-nin depozit hesabı vasitəsilə ödənilməlidir.

Bir hissəsi vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti, digər hissəsi isə başqa məqsədlər üçün nəzərdə tutulan vergiyə cəlb edilən əməliyyatlara görə nağdsız qaydada ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) və malların idxalı üçün vergi ödəyicisinə verilmiş elektron vergi hesab fakturaları üzrə onun tərəfindən ödənilmiş ƏDV-nin məbləği sahibkarlıq fəaliyyəti üçün istifadə olunan malların (işlərin, xidmətlərin) xüsusi çəkisinə görə müəyyənləşdirilən ƏDV-nin məbləği qədər əvəzləşdirilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 109.4-cü maddəsində (ARVM m-109.4. Sahibkarlıq fəa-

liyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəaliyyət çərçivəsində çəkilirsə, müvafiq olaraq əyləncə və sosial xərclər gəlirdən çıxılır.) göstərilən xərclər istisna olmaqla Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 109.3-cü maddəsində (ARVM m-109.3. Əyləncə və yemək xərclərinin (Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir.) nəzərdə tutulan xərclər çəkiləndə, ƏDV-nin əvəzləşdirilməsinə yol verilmir.

Vergi ödəyicisi vergi tutulan əməliyyatlar və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164-cü maddəsinə (ARVM m-164. Vergi ödəməkdən azad edilmə.) uyğun olaraq ƏDV-dən azad edilmiş əməliyyatlar aparırsa, ƏDV üzrə əvəzləşdirmə üçün vergi tutulan dövriyyənin ümumi dövriyyədəki xüsusi çəkisinə uyğun olaraq müəyyən edilən ƏDV-nin məbləği qəbul olunur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 163-cü maddəsində (ARVM m-163. Vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi.) göstərilən hallarda bəyannamədə büdcəyə çatası ƏDV-nin məbləği düzgün göstərilməmişdirsə, büdcəyə ödənilməli olan ƏDV-nin məbləği həmin halların yarandığı hesabat dövri üzrə vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamədə dəqiqləşdirilir.

ƏDV-dən azad olunan, yaxud ƏDV-ə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 1.1.17-ci maddəsində nəzərdə tutulmuş subsidiyalar istisna olmaqla, dövlət büdcəsindən muxtəlif

mənbələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına mallar, işlər və ya xidmətlər alınarkən, ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilmir.

Sıfır (0) dərəcəsi ilə ƏDV tutulan əməliyyatlar ƏDV cəlb olunan əməliyyatlar hesab edilir və belə əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş ƏDV-nin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq əvəzləşdirilir.

ƏDV ödəyiciləri, habelə ƏDV-nin məqsədləri üçün qeydiyyatda olmayan səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları tərəfindən mallar, xidmətlər (işlər) alınarkən onlara verilmiş elektron vergi hesab-fakturaları üzrə ƏDV-nin məbləği ƏDV-nin depozit hesabına köçürülməlidir. ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə apârılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

§11.6. Elektron vergi hesab-fakturaları və ƏDV-nin ödənilməsi.

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və vergi tutulan əməliyyat aparan şəxs malları, işləri və ya xidmətləri qəbul edən şəxsə elektron vergi hesab-fakturasını verməyə borcludur. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyən şəxsin elektron vergi hesab-fakturası verməyə hüququ yoxdur.

Elektron vergi hesab-fakturası Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin müəyyənləşdirdiyi forma üzrə hazırlanan və özündə aşağıdakı məlumatları əks etdirən sənəddir: vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı; vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi; yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin adı; vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin vergi tutulan əməliyyatın həcmi; aksizli mallarda aksizin məbləği; vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği; elektron vergi hesab-fakturasının verilmə tarixi; elektron vergi hesab-fakturasının nömrəsi; ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicisinin qeydiyyat bildirişini vermiş vergi orqanının adı, bildirişin verilmə tarixi və nömrəsi; elektron vergi hesab-fakturasını imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndərilməndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur. Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə qaydaları Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, elektron vergi hesab-fakturası əvəzinə qəbz və ya çek verilə bilər. Qəbzlər, çeklər, müəyyən edilmiş qaydada tərtib edilməyən elektron vergi hesab-fakturaları, nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər verginin əvəzləşdirilməsinə əsas vermir və aparılan əvəzləşdirilmə etibarsız hesab edilir.

Gömrük orqanları tərəfindən verilmiş idxalda ƏDV-nin ödənildiyini göstərən idxal sənədləri ödənişin formasından asılı olmayaraq verginin əvəzləşdirilməsinə əsas verir.

Vergi ödəyicisi vergi orqanına hər hesabat dövrü üçün ƏDV-nin bəyannaməsini verməyə, bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə hər hesabat dövri üzrə vergini büdcəyə ödəməyə borcludur.

ƏDV-nin bəyannaməsi hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq verilir. Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, ƏDV bəyannaməsi Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir. Bu qaydalar yalnız malların idxalı üzrə vergi ödəyicisi olan şəxsə tətbiq edilmir.

Vergi tutulan idxal üzrə ƏDV Vergi Məcəlləsinə və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanır və alınır.

Qeydiyyat keçmiş tarixlə aparıldıqda, vergi ödəyicisi qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən vergiyə cəlb edilən əməliyyatlar üzrə ƏDV ödəməlidir və vergi ödəyiciləri üçün müəyyən edilmiş qaydada vergi məbləğlərini əvəzləşdirmək hüququna malikdir. Müvafiq əməliyyatlar vergi ödəyicisi tərəfindən verilən birinci bəyannamədə əks etdirilməlidir. Bu əməliyyatlar bəyannamənin verildiyi ay ərzində baş vermiş əməliyyatlar sayılır. Bu halda vergi ödəyicisi bəyannamədə əks etdirilmiş əməliyyatlar üçün ƏDV üzrə elektron vergi hesab-fakturaları təqdim etmək hüququna malikdir. ƏDV dövlət büdcəsinə ödənilir və ƏDV üzrə hesabat dövri təqvim ayı sayılır.

Hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50 faizi sıfır dərəcəsi ilə vergiyə cəlb olunan vergi ödəyici-

sinə, hesabat dövründə əvəzləşdirilən vergi məbləğinin hesablanmış vergidən artıq olan hissəsi onun vergi və ya gömrük orqanlarına ərizəsini verdiyi vaxtdan 45 gün ərzində qaytarılır.

Digər vergi ödəyiciləri üçün - əvəzləşdirilən vergi məbləğinin hesabat dövri ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi növbəti 3 aya keçirilir və bu ayların ödəmələrinə aid edilir, artıq ödəmənin hər hansı qalığı isə bu 3 ay bitdikdən sonra vergi ödəyicisinin ərizəsinə əsasən 45 gün ərzində büdcədən qaytarılır.

Müəyyən məbləğlərin vergi ödəyicisinə səhvən qaytarıldığı bütün hallarda vergi və ya gömrük orqanları həmin məbləğlərin vergilərin tutulması üçün müəyyən edilmiş qaydada qaytarılmasını tələb etməlidir.

ƏDV-nin düzgün hesablanması və vaxtında büdcəyə ödənilməsi üçün, həmçinin bəyannamələrin vergi orqanlarına müəyyən edilmiş müddətlərdə verilməsi üçün vergi ödəyiciləri və onların vəzifəli şəxsləri vergi qanunvericiliyinə uyğun olaraq, ƏDV-nin tutulması gömrük orqanlarının səlahiyyətinə aid olduqda isə gömrük qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Vergitutmanın idarə edilməsi Vergi Məcəlləsinə və gömrük qanunvericiliyinə uyğun olaraq vergi orqanları və gömrük orqanları tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə uyğun olaraq beynəlxalq təşkilatın, yaxud xarici hüquqi və ya fiziki şəxsin əvəzsiz köçürmələri ilə ödənilmiş malları alan və yaxud işlərin və ya xidmətlərin nəticələrini həmin əsaslarla əldə edən şəxs vergi orqanına elektron vergi hesab-fakturaları verərkən, həmin mallara, işlərə və ya xidmətlərə görə ödənilmiş ƏDV-ni vergi orqanına ərizə verdiyi vaxtdan 45 gün ərzində geri almaq hüququna malikdir.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 45.

1. Əlavə dəyər vergisi nədir?
A) dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara əsasən əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir
B) verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən vergi hesab-fakturalara və idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir
C) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir
D) vergi tutulmayan dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləğidir

2. Əlavə dəyər vergisinin ödəyicilərini hansılardır?
1. ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxslər
2. Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər (bu cür idxal malları üzrə)
3. Azərbaycan Respublikasına ƏDV tutulan malları ixrac edən şəxslər (bu cür ixrac malları üzrə)
4. aksizli malların istehsalçıları
5. mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər
6. maliyyə xidmətlərini göstərən şəxslər
A) 1, 2, 4, 5 B) 2, 3, 4, 5 C) 1, 2, 3, 6 D) 1, 3, 5, 6

3. Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi

neçə manatdan artıq olan şəxslər 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur?
A) 150000 manatdan
B) 90000 manatdan
C) 120000 manatdan
D) 180000 manatdan

4. ƏDV-nin məqsədləri üçün vergi tutulan əməliyyatların ümumi dəyəri müəyyən edilərkən qeyri-rezidentin mallar göndərməsi, işlər görməsi və xidmətlər göstərməsi hansı halda nəzərə alınır?
A) qeyri-rezidentin mallar göndərməsi, işlər görməsi və xidmətlər göstərməsi onun Azərbaycan Respublikasındakı iş ortağı vasitəsilə həyata keçirildikdə
B) qeyri-rezidentin mallar göndərməsi, işlər görməsi və xidmətlər göstərməsi onun Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi vasitəsilə həyata keçirildikdə
C) qeyri-rezidentin mallar göndərməsi, işlər görməsi və xidmətlər göstərməsi onun Azərbaycan Respublikasındakı tərəfdaşı vasitəsilə həyata keçirildikdə
D) qeyri-rezidentin mallar göndərməsi, işlər görməsi və xidmətlər göstərməsi onun Azərbaycan Respublikasındakı qohumları tərfindən həyata keçirildikdə

5. ƏDV-nin məqsədləri üçün məcburi və ya könüllü qeydiyyat haqqında ərizə hansı icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə verilməlidir?
A) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin
B) Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin
C) Azərbaycan Respublikası Vergilər Nazirliyinin
D) Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin

6. Şəxs ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçərkən vergi orqanı həmin şəxsi ƏDV ödəyicilərinin qeydiyyat reyestrində qeydə almağa və ərizə verildikdən sonra neçə iş günündən gec olmayaraq ona Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə qeydiyyat bildirişi verməyə borcludur?

A) 20 gün B) 15 gün C) 10 gün D) 5 gün

7. ƏDV üzrə qeydiyyat bildirişində hansı məlumatlar olmur?
A) vergi ödəyicisinin adı və ona aid olan digər məlumatlar
B) qeydiyyatın qüvvəyə mindiyi tarix
C) vergi ödəyicisinin ailə üzvlərinin adları
D) vergi ödəyicisinin VÖEN-i

8. ƏDV ödəyicisinin qeydiyyat bildirişi itirildikdə və ya yararsız hala düşdükdə ona hansı sənəd verilir?
A) vergi ödəyicisinin müraciəti əsasında ona yeni bildiriş verilir
B) vergi ödəyicisinin müraciəti əsasında ona bildirişin dublikatı verilir
C) vergi ödəyicisinin müraciəti əsasında ona bildirişin surəti verilir
D) vergi ödəyicisinin müraciəti əsasında ona bildirişin qeydiyyat nömrəsi verilir

9. Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri neçə manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur?
A) 150000 manatdan
B) 90000 manatdan
C) 100000 manatdan
D) 120000 manatdan

10. Vergi ödəyiciləri ƏDV-nin reyestrinə daxil edilərkən hansı məlumatlardan istifadə olunur?
A) onların uçota alınması haqqında dövlət orqanlarına təqdim etdikləri məlumatlardan
B) onların uçota alınması haqqında vergi orqanına təqdim etdikləri ərizədəki məlumatlardan
C) onların uçota alınması haqqında vergi orqanına təqdim etdikləri məlumatlardan
D) onların vergi orqanına təqdim etdikləri istənilən məlumatlardan

Test 46.

1. Hansı vergi ödəyicisini vergi orqanı ƏDV məqsədləri üçün öz təşəbbüsü ilə qeydiyyata alır və ona müvafiq qeydiyyat bildirişi göndərir?
A) ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyə məcbur edilən, lakin qeydiyyat üçün ərizə verməyən vergi ödəyicisinə
B) ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyə borclu olan, lakin qeydiyyat üçün ərizə verməyən vergi ödəyicisinə
C) ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyən vergi ödəyicisinə
D) ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyə imkanı çatmayan vergi ödəyicisinə

2. Hansı halda ƏDV ödəyicilərinin dövlət reyestrində müvafiq düzəlişlər edilir?
A) ƏDV ödəyicilərinin məlumatlarında dəyişikliklər baş verdikdə
B) ƏDV ödəyicisi vergidən yayındıqda
C) ƏDV ödəyicisi iflasa uğradıqda
D) ƏDV üzrə qeydiyyat ləğv edildikdə

3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş hallarda ƏDV ödəyicisi haqqında rəsmi sorğulara əsasən sorğu edənə hansı sənəd verilir?
A) ƏDV ödəyicilərinin gəlirləri haqqında məlumat
B) ƏDV ödəyicilərinin reyestrindən çıxarış
C) ƏDV ödəyicilərinin vergi borcları barədə çıxarış
D) kommersiya sirrinə aid edilməyən bütün məlumatlar

4. Vergi ödəyicisi ƏDV-nə cəlb olunan əməliyyatları aparmağı dayandırırsa, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair nə verməyə borcludur?
A) protokol
B) çıxarış
C) ərizə
D) məlumat

5. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi ƏDV üzrə nə hesab olunur?
A) vergitutma subyekti
B) vergitutma obyekti
C) vergitutma dövrü
D) vergitutma bazası

6. Vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa müstəqil sahibkarlıq fəaliyyəti çərçivəsində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi Azərbaycanın ərazisində həyata keçirilirsə bu ƏDV məqsədləri üçün vergi tutulan əməliyyat sayılırmı?
A) malların göndərilməsi üçün sayılır, işlərin görülməsi və xidmətlərin göstərilməsi üçün sayılmır
B) malların göndərilməsi və işlərin görülməsi üçün sayılır, xidmətlərin göstərilməsi üçün sayılmır
C) vergi tutulan əməliyyat sayılmır
D) vergi tutulan əməliyyat sayılır

7. Hansı mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir?
1. tranzit yük daşınması qaydasında Azərbaycan Respublikası ərazisinə buraxılan mallar
2. müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar
3. idxal olunan avtomobillər və yaxtalar
4. gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan mallar
5. idxal olunan spirtli içkilər və tütün məmulatları
A) 1, 2, 4 B) 1, 3, 4 C) 1, 4, 5 D) 2, 3, 4

8. Əməliyyatlardan hansı ƏDV üzrə vergi tutulan əməliyyat sayılmır?

A) vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi
B) barter əməliyyatları
C) tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində malların Azərbaycan Respublikası ərazisinə buraxılması
D) ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyən şəxslərin ƏDV tətbiq etməklə aparılan əməliyyatları

9. Əməliyyatlardan hansı ƏDV üzrə vergi tutulan əməliyyat sayılmır?
A) ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyən şəxslərin ƏDV tətbiq etməklə aparılan əməliyyatları
B) gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan malların ƏDV-nin məqsədləri üçün idxalı
C) ƏDV-dən azad edilən və ya 0 dərəcə ilə ƏDV-yə cəlb edilən, lakin ƏDV tətbiq etməklə aparılan əməliyyatlar
D) barter əməliyyatları

10. ƏDV-nin məqsədləri üçün vergi tutulan əməliyyatın dəyəri nəyin əsasında müəyyən edilir?
A) vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği ilə digər ödəmələrin fərqi əsasında
B) vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmaqla məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) əsasında
C) vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmamaqla) əsasında
D) vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) əsasında

Test 47.

1. Vergi ödəyicisi vergi tutulan əməliyyatın əvəzində mal, iş və ya xidmət alırsa, yaxud almağa hüququ varsa, bu malların, işlərin və ya xidmətlərin ƏDV nəzərə alınmadan hansı dəyəri vergi tutulan əməliyyatların dəyərinə daxil edilir?
A) ilkin dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla)
B) bazar dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla)
C) maya dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla)
D) izafi dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla)

2. ƏDV məqsədləri üçün vergi tutulan idxalın dəyəri necə müəyyənləşdirilir?
A) malların Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən ilkin dəyəri və mallar gətirilərkən ödənilməli olan vergilər (ƏDV nəzərə alınmadan) əsasında
B) malların Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən buraxılış dəyəri əsasında
C) malların Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyəri və mallar gətirilərkən ödənilməli olan rüsumlar və vergilər (ƏDV nəzərə alınmadan) əsasında
D) malların Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq müəyyən edilən dəyəri əsasında

3. Malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin hansı növlərindən ƏDV tutulmur?
1. özəlləşdirilmə qaydasında dövlət müəssisəsindən satın alınan əmlakın dəyəri
2. dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının icarədara çatan hissəsi
3. maliyyə xidmətlərinin göstərilməsi
4. milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi
5. qızılın və valyuta sərvətlərinin idxalı
A) 1, 3, 5 B) 3, 4, 5 C) 1, 2, 3 D) 1, 3, 4

4. Malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin hansı növlərindən ƏDV tutulmur?

1. dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının büdcəyə ödənilməli olan hissəsi
2. barter əməliyyatları
3. Mərkəzi Bankın və Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə Mərkəzi Bankın valyuta sərvətlərinin idxalı
4. xaricdə istehsal edilmiş Azərbaycan Respublikası pul nişanlarının idxalı
5. xaricdə istehsal edilmiş Azərbaycan Respublikasının milli markalarının idxalı
A) 1, 3, 4 B) 2, 4, 5 C) 1, 2, 3 D) 1, 2, 4

5. Malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin hansı növlərindən ƏDV tutulmur?
1. nəşriyyat və poliqrafiya fəaliyyəti
2. idxal olunan əmlak istisna olmaqla, müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda)
3. icarə fəaliyyəti
4. tutlan məbləğlər hədlərində dövlət hakimiyyəti, yerli özünüidarəetmə və digər səlahiyyətli orqanların tutduğu dövlət rüsumu, icazə haqları, yığımlar və onların tutulması müqabilində göstərmədiyi xidmətlər
5. dəfn və qəbiristanlığın mərasim xidmətləri
A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 2, 4 D) 1, 2, 3

6. Malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin hansı növlərindən ƏDV tutulmur?
1. kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla)
2. orta məktəb dərslikləri, uşaq ədəbiyyatının və büdcədən maliyyələşdirilən dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti
3. Mərkəzi Bankın və Dövlət Neft Fondunun qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi
4. maliyyə təsərrüfat fəaliyyəti
5. numizmatika məqsədləri üçün milli və ya xarici valyutanın, həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi
A) 1, 2, 3 B) 3, 4, 5 C) 1, 4, 5 D) 1, 3, 5

7. Malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin hansı növlərindən ƏDV tutulmur?
1. kütləvi informasiya vasitələrinin reklam xidmətləri
2. ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri
3. metropolitendə sərnişindaşıma xidmətləri
4. maliyyə xidmətlərinin göstərilməsi
5. ödənişli təhsil xidmətlərinin göstərilməsi (digər fəaliyyətləri ilə bağlı xidmətlərin göstərilməsi istisna olmaqla)
A) 1, 3, 5 B) 1, 4, 5 C) 3, 4, 5 D) 2, 3, 5

8. Konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilən icra hakimiyyəti orqanı hansıdır?
A) Azərbaycan Respublikası Vergilər Nazirliyi
B) Azərbaycan Respublikasının Nazirlər Kabineti
C) Azərbaycan Respublikası Maliyyə Nazirliyi
D) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

9. Hansı işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə ƏDV sıfır dərəcə ilə tutulur?
1. xaricdən alınan əvəzsiz maliyyə yardımları (qrantlar) hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi
2. beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması, beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi
3. malların idxalı
4. malların ixracı
5. Azərbaycan Respublikasının Beynəlxalq Bankına qızıl və digər qiymətlilərin göndərilməsi
A) 1, 2, 5 B) 1, 3, 5 C) 3, 4, 5 D) 1, 2, 4

10. Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər ƏDV-nə necə cəlb olunur?
A) cəlb olunmur
B) sıfır (0) dərəcə ilə cəlb olunur
C) 18 % dərəcə ilə cəlb olunur
D) 9 % dərəcə ilə cəlb olunur

Test 48.

1. Azərbaycan Respublikasında akkreditə edilmiş beynəlxalq təşkilatların rəsmi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər ƏDV-yə necə cəlb olunur?
A) 18%-lə B) 6%-lə C) 14%-lə D) sıfır (0) dərəcə ilə

2. Azərbaycan Respublikasına, o cümlədən onu təmsil edən hüquqi şəxslərə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondların, daşınan əmlakın və digər aktivlərin Azərbaycan Respublikası Dövlət Neft Fonduna və Azərbaycan Respublikasını təmsil edən tərəfə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar ƏDV-nə necə cəlb olunur?
A) 18 % dərəcə ilə cəlb olunur
B) 20 % dərəcə ilə cəlb olunur
C) cəlb olunmur
D) sıfır (0) dərəcə ilə cəlb olunur

3. Lotereya keçirən şəxs üçün ƏDV üzrə vergi tutulan əməliyyatların dəyəri hansı dəyər hesab edilir?
A) lotereyaların satışından əldə olunan məbləğdən xərclər çıxıldıqdan sonra qalan məbləğ
B) lotereyaların satışından əldə olunan məbləğdən uduş fondunun məbləği çıxıldıqdan sonra qalan məbləğ
C) lotereyaların satışından əldə olunan məbləğdən uduş fondunun məbləği və nəqliyyat xərcləri çıxıldıqdan sonra qalan məbləğ
D) lotereyaların satışından əldə olunan məbləğdən satış xərcləri çıxıldıqdan sonra qalan məbləğ

4. Lotereyaların keçirilməsi şərtlərinə uyğun olaraq uduş fondu tam və ya qismən mallardan ibarət olduqda, lotereya keçirən şəxs tərəfindən uduş fondu üçün alınmış mallara görə ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilirmi?
A) əvəzləşdirilir
B) 50%-i əvəzləşdirilir
C) istisna hallarda əvəzləşdirilir
D) əvəzləşdirilmir

6. Komisyonçunun komitentden aldığı vergi hesab-fakturası komisyonçuya ƏDV məbləğini əvəzləşdirmək hüququ verirmi?
A) verir
B) vermir
C) 50 % istifadə hüququ verir
D) 20 % istifadə hüququ verir

7. Vergi tutulan əməliyyatın və vergi tutulan idxalın dəyəri ƏDV-nə neçə faiz dərəcə ilə cəlb olunur?
A) 20% B) 0% C) 18% D) 0-18%

8. ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və vergi tutulan əməliyyat aparan şəxs malları, işləri və ya xidmətləri qəbul edən şəxsə hansı sənədi verməyə borcludur?
A) vergi hesab-fakturası
B) arayış
C) çıxarış
D) gömrük bəyannməsi

9. Hansı məlumatlar elektron vergi hesab-fakturasında əks etdirilir?
1. vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı
2. vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi
3. yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqı
4. vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin vergi tutulan əməliyyatların həcmi
5. aksizli mallarda aksizin aksizli malların adı
A) 1, 2, 5 B) 1, 3, 4 C) 3, 4, 5 D) 1, 2, 4

10. Hansı məlumatlar elektron vergi hesab-fakturasında əks etdirilir?
1. vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği
2. elektron vergi hesab-fakturasının verilmə tarixi
3. hesab-fakturanın sıra nömrəsi
4. qeydiyyat bildirişini vermiş gömrük orqanını adı, bildirişin verilmə tarixi və sıra sayı
5. elektron vergi hesab-fakturasını imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının və anasının adı
A) 1, 2, 3 B) 1, 3, 4 C) 2, 4, 5 D) 1, 2, 4

Test 49.

1. Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndərilməndən (iş görüləndən, xidmət göstəriləndən) sonra neçə gündən gec olmayaraq verməyə borcludur?
A) 2 gündən gec olmayaraq
B) 3 gündən gec olmayaraq
C) 5 gündən gec olmayaraq
D) 3 iş günündən gündən gec olmayaraq

2. Elektron vergi hesab-fakturasının tətbiqi, uçotu və istifadə qaydaları hansı icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir?
A) Azərbaycan Respublikasının Vergilər Nazirliyi
B) Azərbaycan Respublikasının Nazirlər Kabineti
C) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
D) Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi

3. ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, vergi hesab-fakturası əvəzinə onlara hansı sənəd verilə bilər?
A) sadə faktura
B) qəbz və ya çek
C) iltizamnamə
D) bəyannamə

4. Qəbzlər, çeklər, müəyyən edilmiş qaydada sifariş edilməyən, çap və tərtib edilməyən elektron vergi hesab-fakturaları, nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər ƏDV-nin əvəzləşdirilməsinə əsas verirmi?
A) əsas verir
B) qəbzlər istisna olmaqla digər sənədlər əsas verir
C) əsas vermir
D) elektron vergi hesab-fakturaları istisna olmaqla digər sənədlər əsas verir

5. Gömrük orqanları tərəfindən verilmiş idxalda ƏDV-nin nağd ödənildiyini göstərən idxal sənədləri, ödənişin formasından asılı olmayaraq verginin əvəzləşdirilməsinə əsas verirmi?
A) əsas vermir
B) əsas verir
C) idxal sənədləri yuxarı vergi orqanı tərəfindən təsdiqlənməsə əsas vermir
D) müstəsna hallarda əsas verir

6.Aşağıdakılardan hansı ƏDV ödəyicisinin qanuni borcu hesab edilir?
A) vergi orqanına hər rüb üçün ƏDV-nin bəyannaməsini vermək və bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə hər rüb üzrə vergini büdcəyə ödəmək
B) vergi orqanına hər hesabat dövrü üçün ƏDV-nin bəyannaməsini vermək və bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə hər hesabat dövrü üzrə vergini vergi orqanına ödəmək
C) vergi orqanına hər il üçün ƏDV-nin bəyannaməsini vermək və bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə vergini büdcəyə ödəmək
D) vergi orqanına hər hesabat dövrü üçün ƏDV-nin bəyannaməsini vermək və bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə hər hesabat dövrü üzrə vergini büdcəyə ödəmək

7. ƏDV-nin bəyannaməsi vergi orqanına hansı müddətədək verilməlidir?
A) hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq
B) hər rüb üçün, rübdən sonrakı ayın 20-dən gec olmayaraq
C) hər hesabat ili üçün, hesabat ilindən sonrakı ayın 20-dən gec olmayaraq
D) hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 25-dən gec olmayaraq

8. Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, ƏDV bəyannaməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə neçə gün müddətində vergi orqanına təqdim edilməlidir?
A) 10 gün müddətində
B) 15 gün müddətində
C) 20 gün müddətində
D) 30 gün müddətində

9. Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xıtam verildikdə ƏDV məqsədləri üçün vergi dövrü hansı dövrü əhatə edir?
A) hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı saata qədər olan dövrü
B) hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı iş həftəsinə qədər olan dövrü
C) hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü
D) hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı aya qədər olan dövrü

10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə uyğun olaraq beynəlxalq təşkilatın, yaxud xarici hüquqi və ya fiziki şəxsin əvəzsiz köçürmələri ilə ödənilmiş malları alan və yaxud işlərin və ya xidmətlərin nəticələrini həmin əsaslarla əldə edən şəxs vergi orqanına vergi hesab-fakturaları verərkən, həmin mallara, işlərə və ya xidmətlərə görə ödənilmiş ƏDV-ni vergi orqanına ərizə verdiyi vaxtdan neçə gün ərzində geri almaq hüququna malikdir?
A) 15 gün ərzində
B) 30 gün ərzində
C) 45 gün ərzində
D) 60 gün ərzində

XII Fəsil. Aksizlər.

§12.1. Aksiz anlayışı və vergi tutulan əməliyyatlar.

Bütün dövrlərdə dövlətlərin hökümətləri xəzinəni doldurmaq üçün müxtəlif mənbələr tapmağa çalışmışlar. Lakin, onlar elə mənbələr axtarırdılar ki, vətəndaşlar hər hansı bir vergini ödədiklərini başa düşməsinlər, yəni, bu proses avtomatik həyata keçirilsin. Aksizlərin yaranması da məhz bu axtarışların nəticəsində meydana gəlmişdir. Aksizlər vergitutmanın ən qədim vergi növü hesab edilir. Hələ Qədim Roma İmperiyasınnın dövlət xəzinəsinin əsas gəlir mənbəyi aksizlər hesab olunurdu. Çar Rusiyasında isə aksizlər üzrə xəzinəyə daxilolmalar, ümumi dolayı vergilər üzrə daxilolmaların yarısına bərabər idi.

Aksizlərin nəzəri cəhətdən əsaslandırılması ilk dəfə ingilis iqtisadçısı U.Pettinin «Vergi və yığımlar haqqında tədqiqat» əsərində öz əksini tapmışdır. O, həmçinin, aksizlərin hökümətə, sahibkarlara, vətəndaşlara və sağlam gələcək nəslin inkişafına xeyrini və səmərəsini elmi cəhətdən sübut etmişdir.

Aksizlər istənilən dövlətin büdcə daxilolmalarında orta mövqedə dayanır və Azərbaycan Respublikasının dövlət büdcəsinin dəlirlərinin formalaşmasında aksizlər üzrə daxilolmalar yaxından iştirak edir. Belə ki, əgər 2000-ci ildə aksizlər üzrə büdcə daxilolmaları 22.4 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddi 141 milyon manata, 2009-cu ildə 485.1 milyon manata, 2010-cu ildə 514.9 milyon manata qalxmış, 2011-ci ildə 480.2 milyon manata enmişdir. 2012-ci ildə isə dövlət büdcəsinə aksizlər üzrə 533.6 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Aksiz - aksizli malların satış qiymətinə daxil edilən vergidir. Azərbaycan Respublikasının ərazisində istehsal edilən və Azərbaycan Respublikasına idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olunmaqla, aksiz tutulur. Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli mallar istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri aksızin ödəyiciləridirlər. Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisidir. Bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır. Aksizli malların istehsalçısı və sifarişçisi qarşılıqlı surətdə asılı olan rezident şəxslər olduqda, malın sahibi (sifarişçi) aksizin ödəyicisidir. Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması, idxal malları üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması vergitutma obyektidir. Burada istehsal binalarına istehsalın olduğu ərazidə yerləşən anbarlar, köməkçi anbar sahələri və digər oxşar binalar aiddir.

Azərbaycan Respublikası ərazisində istehsal olunan neft məhsulları və tütün məmulatları üçün - vergi tutulan əməliyyatın məbləği vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında, aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir. Azərbaycan Respublikası ərazisində istehsal olunan digər aksizli mallar üçün vergi tutulan əməliyyat istehsal olunan malların miqdarı hesab olunur.

İdxal malları üçün (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) vergi tutulan əməliyyatın məbləği Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla).

İdxal olunan minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə vergi tutulan əməliyyat - onların mühərrikinin həcmidir.

Azərbaycan Respublikası ərazisində istehsal olunan mallar üçün - malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır. Malların idxalı üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır. Aksizli malların ixracı sıfır dərəcəsi ilə vergiyə cəlb olunur.

Aksizlər üzrə hesabat dövri təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövri üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir. (Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər bu tələblərə baxmayaraq, həmin əməliyyatların aparıldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxartmağa hüququ yoxdur.

Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

Vergi ödəyicisi Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müəyyən etdiyi qaydada verginin ödənilməsi üçün nəzərdə tutulmuş müddətlərdə, hesabat dövrü ərzində vergi tutulan əməliyyatlarını göstərməklə bəyannamə verməlidir. Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Aksizin ödəyicisi əvəzləşdirmə üçün ərizəni aksizin ödənilməsinə dair bəyannamə ilə birlikdə vergi orqanına verir.

Təkrar ixrac zamanı aksizin qaytarılması. Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz, malların idxalı vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır. Bu qaydalar aksizlərdən azad edilən idxal mallarına tətbiq edilmir.

Elektron vergi hesab-fakturaları. Aksizli malları göndərən vergi ödəyicisi normativ hüquqi aktlara uyğun olaraq malı qəbul edənə elektron vergi hesab-fakturası yazmalı və verməlidir. Elektron vergi hesab-fakturası Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin müəyyən etdiyi formada tərtib edilən və Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş rekvizitləri özündə əks etdirən sənəddir. Mallar pərakəndə qaydada göndərildiyi hallarda elektron vergi hesab-fakturası əvəzinə qəbz və ya çek verilə bilər.

§12.2. Aksizlər üzrə azadolmalar və istehsal ehtiyacları üçün aksizlərin əvəzləşdirilməsi.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən fiziki şəxsin fərdi istehlakı üçün 3 litr alkoqollu içkinin və 600 ədəd siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq; Azərbaycan Respublikası ərazisindən tranzitlə daşınan mallar; təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə, malların Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxalı və təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar aksizdən azad edilir.

Bu azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur.

Aksizli malları (xammal və materialları) alan və bu malları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə edən şəxs xammal və materialları alarkən ödənilmiş aksizin məbləğini əvəzləşdirmək və ya geri almaq hüququna malikdir.

Aksizin məbləği yalnız xammal və materialların istehsalçısı tərəfindən aksizin ödənildiyini təsdiq edən elektron vergi hesab-faktura, xammal və materiallar idxal edildikdə isə - müvafiq sənədlər vergi orqanına verildiyi zaman əvəzləşdirilir və ya geri qaytarılır. Sənədlər vergi orqanına verildikdən sonra 45 gün ərzində tutulmuş aksiz məbləği vergi ödəyicisinə qaytarılır.

§12.3. Aksizli malların siyahısı və vergi dərəcələri.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən içməli spirt, pivə və spirtli içkilərin bütün növləri; tütün məmulatları; neft məhsulları; minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla); istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr aksizli mallara aid edilir.

Azərbaycan Respublikasına idxal edilən aksizli mallara (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) aksizlərin dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasında istehsal olunan içməli spirtə, pivəyə, spirtli içkilərə və tütün məmulatlarına aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

1. içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) - hər litrinə 0,8 manat;
2. araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları - hər litrinə 0,5 manat;
3. konyak və konyak materialları - hər litrinə 0,2 manat;
4. şampan şərabı - hər litrinə 0,2 manat;
5. şərablar və şərab materialları - hər litrinə 0,1 manat;
6. pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər - hər litrinə 0,08 manat;
7. bütün növ tütün məmulatları - 12,5 faiz.

Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu

konyak, şampan - 20 q araq - 50 q
şərab - 10 q içməli spirt - 80 q
pivə - 8 q

məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

- minik avtomobillərinin mühərrikinin həcmi 2000 kub santimetrədək olduqda - mühərrikin həcminin hər kub santimetrinə görə - 0,15 manat;

- minik avtomobillərinin mühərrikinin həcmi 3000 kub santimetrədək olduqda - 300 manat + mühərrikin həcminin 2001-3000 kub santimetr hissəsi üçün hər kub santimetrinə görə - 1 manat;

- minik avtomobillərinin mühərrikinin həcmi 3000 kub santimetrədək olduqda - 1300 manat + mühərrikin həcminin 3001-4000 kub santimetr hissəsi üçün hər kub santimetrinə görə - 2 manat;

- mühərrikin həcmi 4000 kub santimetrdən çox olduqda - 3300 manat + mühərrikin həcminin 4000 kub santimetrindən çox hissəsi üçün hər kub santimetrinə görə - 4 manat;

- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrin – mühərrikinin həcminin hər kub santimetrinə görə - 1 manat.

Azərbaycan Respublikasında istehsal olunan neft məhsullarına, minik avtomobillərinə və istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr aksiz dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Hazırda Azərbaycan Respublikasında istehsal olunan və satılan neft məhsullarına 1 ton üçün aşağıdakı aksiz dərəcələri tətbiq edilir: avtomobil benzini Al-95 - 101%, avtomobil benzini Al-92 - 92%, avtomobil benzini Al-80 - 93%, dizel yanacağı - 24%, məişət soba yanacağı - 28%, ağ neft (KO-20) - 32%, maye qaz - 30%, mühərrik yanacağı (DT-36) - 52%, mühərrik yanacağı (DT-20) - 61%, soba mazutu - 11%, transformator yağı - 54%, turbin yağları - 39%, qaz benzini 37%, sənaye yağları 72%, digər

0,15 X.
300 + 1X. 1X.
1300 + 2X.
3300 + 4X

yağlar - 56%, motor yağı - 52%, reaktiv mühərrik yanacağı - 14%.

Aksizlər demək olar ki, dünyanın bütün ölkələrində tətbiq olunur. Məlumdur ki, aksizlər əsasən qiymətli əşyalara, spirtli içkilərə, tütün məmulatlarına, neft məhsullarına tətbiq olunur. Lakin, bəzi ölkələrdə aksizli malların siyahısı olduqca genişdir. Fransada aksizlərin ən yüksək dərəcələri tətbiq edilir. Belə ki, 3 avro dəyərində tütün məmulatının 2,25 avrosunu aksizlər təşkil edir. Fransada neft məhsulları, spirtli içkilər, pivə və tütün məmulatları ilə bərabər, elektrik enerjisi, qiymətli metallar, zərgərlik məmulatları, sığorta və birja əməliyyatları, oyun biznesi, televiziya reklamları, aviabiletlər, mineral sular aksiz vergisinə cəlb edilir. ABŞ-da isə ƏDV tətbiq olunmasa da aksizlər üçün geniş vergitutma obyekti yaradılmışdır. Belə ki, ABŞ-da aksizlərə cəlb olunan malların siyahısına tütün məmulatları, spirtli içkilər, benzin, telefon xidməti, sərnişin avtoxidməti, balıqçılıq ləvazimatları, hətta kibrit də daxildir. Bundan əlavə ABŞ-da bahalı avtomobillər, xəz, qiymətli əşyalar və şəxsi təyyarələr 10% dərəcə ilə aksizə cəlb olunur. ABŞ-da aksizləri cəmiyyətə, şəxsiyyətə və təbiədə ziyan verən əmtəələrə tətbiq olunduğu üçün «günahlara görə vergi» adlandırırlar. Böyük Britaniyada aksizlərin dərəcələri xidmətin qiymətinə, mallarının isə sayına, çəkisinə və həcminə əsasən müəyyən olunur. Böyük Britaniyada aksizin dərəcələri diferensialdır. Belə ki, alkaqollu içkilər üçün dərəcələr spirtin faizindən və içkinin tutumundan, tütün məmulatları üçün məhsulun çəkisindən, neft məhsulları üçün isə həcmindən asılı olaraq müəyyənləşdirilir və aksiz dərəcələri 10-30% intervalında dəyişir. Almaniyada isə digər ölkələrdən fərqli olaraq kofe, qənd və mineral yağlara da aksiz vergisi tətbiq edilir. Yaponiyada isə aksizlərin tətbiqi daha maraqlıdır. Burada mehmanxana, restoran xidmətlərinə, qaza da aksiz tətbiq

edilir. Belçikada aksizli malların siyahısına neft məhsulları, tütün məmulatları, spirtli içkilərlə bərabər elektrik enerjisi, kofe, oyun biznesi, hətta alkaqolsuz içkilər də daxil edilib. Rusiyada aksizli malların siyahısı daha genişdir. Belə ki, burada aksizli mallara spirtli içkilər, motor yağları, zərgərlik məmulatları, avtomobillər və motosikletlər də daxildir.

§ 12.4. Aksizli mallar üzərində vergi nəzarəti.

Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır və qanunvericilikdə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Vergi orqanları markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyiciləri tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş tələblərin pozulması hallarını müəyyən etdikdə, vergi ödəyicilərinin müvafiq binalarında va ya anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və digər tədbirləri görməklə aksizli malların uçota alınmadan, markalanmadan və müəyyən edilmiş prosedura uyğun olaraq aksizləri ödəmədən istehsal binasının hüdudlarından kənara çıxarılmasının qarşısının alınmasını təmin etməyə səlahiyyətlidirlər.

Nəzarət postları Azərbaycan Respublikasının Vergilər Nazirliyinin qərarına əsasən telefon və digər zəruri avadanlıqla təchiz edilməklə, markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicilərinin istehsal sahələri-

nin əsas giriş və çıxış qapısının yaxınlığında yaradılır. Nəzarət postları yaradıldıqda, markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicilərinin texnoloji avadanlıqlarının, ölçü vasitələrinin və laboratoriya cihazlarının texniki sazlığının, standartlara uyğunluğunun yoxlanılması və həmin cihazların plomblanması Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilir. Nəzarət postalrının işçiləri aksiz markalarının qalıqlarını inventarizasiya etməklə, istehsal həcmi üzrə nəzarət-ölçü cihazlarını, xammal, material və hazır məhsul anbarlarını, istehsal sahələrindəki texnoloji avadanlıqları plomblamaqla eləcə də hazır məhsul satılarkən malların ilkin təsdiqedici sənədlərinə (qaiməsinə, mal-nəqliyyat qaiməsinə, elektron vergi hesab-fakturasına və s.) baxış keçirməklə markalanmalı olan malların markalanmaqla istehsal sahələrindən kənara çıxarılmasına, hazır məhsulun anbara və oradan alıcılara buraxılmasına, markalarının yapışdırılması qaydalarına riayət olunmasına nəzarət edirlər.

İstehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının, xammal, material və hazır məhsul anbarlarının, istehsal sahələrindəki texnoloji avadanlıqların plomblanması nəzarət postlarının işçiləri tərəfindən istehsalçının nümayəndəsi ilə birlikdə vergi orqanının təsdiq etdiyi forma üzrə kitabda müvafiq qeydlər, o cümlədən istehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının göstəriciləri barədə qeydlər aparmaqla, iş gününün sonunda, növbələrarası fasilədə, həmçinin lisenziyaların qüvvədə olma müddətinin dayandırılması və ya onların ləğv edilməsi, hazır məhsulun markalanması üçün aksiz markalarının, istehsal üçün xammalın, yardımçı və qablaşdırıcı materialların olmaması, habelə texniki

səbəblərdən avadanlığın daha uzun müddət dayanması zamanı həyata keçirilir. Avadanlığın dayandırılması zamanı istehsal güclərinin qapanması istehsal üzrə texnoloji xətlərin və avadanlığın elə yerlərdə plomblanması vasitəsilə həyata keçirilməlidir ki, onlardan istifadə edilməsi mümkün olmasın. Plombların vurulması və çıxarılması nəzarət postunun işçiləri və istehsalçının nümayəndəsinin iştirakı ilə müvafiq aktla rəsmiləşdirilməlidir.

Nəzarət postlarının işçiləri iş başladığı vaxtda nəzarət postlarında olmadıqda, istehsalçının məsul şəxsləri tərəfindən vergi orqanına məlumat verilməklə, səbəbi və vaxtı göstərilməklə müvafiq akt tərtib edilərək plomblar açıla bilər. Nəzarət postlarının işçiləri satışa buraxılan hazır məhsulların sənədlərində göstərilən sayının, həcminin, çəkisinin onların faktiki sayı, həcmi və çəkisi ilə düzgünlüyünü yoxlamalı və sənədlərdəki göstəriciləri xüsusi jurnalda qeyd etməlidirlər. Bundan sonra nəzarət postalrının işçiləri malların ilkin təsdiqedici sənədlərində (qaimə, malnəqliyyat qaiməsi, elektron vergi hesab-faktura və s.) «buraxılışa icazə verilir» qeydini aparmalıdırlar.

Plombların vurulması və çıxarılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklər edildikdə, texnoloji avadanlıqlardakı plomblar zədələndikdə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalanmasında, tam uçota alınmasında, aksiz markalarının inventarizasiyasında kənarlaşma aşkar edildikdə, eləcə də Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılması müəyyən edildikdə, nəzarət postunun işçiləri müvafiq akt tərtib etməli, bu barədə dərhal vergi orqanına məlumat verməlidirlər.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 50.

1. Aksiz nədir?
A) Aksizli malların satış qiymətinə daxil edilən vergidir
B) Aksizli malların satış qiymətinə daxil edilən dövlət rüsumudur
C) Aksizli malların alış qiymətinə daxil edilən vergidir
D) Aksizli malların alış qiymətinə daxil edilən gömrük rüsumudur

2. Hansı mallardan aksiz tutulur?
A) neft məhsulları istisna olunmaqla Azərbaycan ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan
B) vergidən azad edilən mallar istisna olunmaqla Azərbaycan ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan
C) vergidən azad edilən mallar istisna olunmaqla Azərbaycan ərazisində istehsal edilməyən aksizli mallardan
D) vergidən azad edilən mallar istisna olunmaqla Azərbaycan ərazisində istehsal edilən, satışa çıxarılmayan aksizli mallardan

3. Aksizin ödəyiciləri kimlərdir?
A) Azərbaycan Respublikasının ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan fiziki şəxslər
B) Azərbaycan Respublikasının ərazisində aksizli malların istehsalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər
C) Azərbaycan Respublikasının ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri
D) Azərbaycan Respublikasının ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən Azərbaycan Respublikasının qeyri-rezidentləri

4. Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan ərazisində mallar istehsal edildiyi hallarda aksizin ödəyicisi kimdir?
A) bu halda aksiz ödənilmir

B) həmin malların sifarişçi
C) həmin malların istehlakçısı (alıcı)
D) həmin malların istehsalçısı (podratçı)

5. Aksizli malların istehsalçısı və sifarişçisi qarşılıqlı surətdə asılı olan rezident şəxslər olduqda aksizin ödəyicisi kimdir?
A) malın sahibi (sifarişçisi)
B) malın sahibi (istehsalçısı)
C) malgöndərən
D) malın istehlakçısı

6. Hansı əməliyyatlar aksizlər üzrə vergitutma obyektidir?
A) istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması və idxal mallarının gömrük xidmətinin nəzarətinə daxil olması
B) aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması və idxal malları üçün Vergi Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması
C) Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması və idxal malları üçün Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması
D) Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasına daxil olması və aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması

7. Vergitutma məqsədləri üçün aksizlər üzrə istehsal binasına hansı sahələr aiddir?
A) istehsalın olduğu ərazidə yerləşən istehsal və qeyri-istehsal sahələri
B) istehsalın olduğu ərazidə yerləşən anbarlar, köməkçi anbar sahələri və digər oxşar binalar
C) istehsalın olduğu ərazidə yerləşən anbarlar, köməkçi anbar sahələri və digər oxşar binalar (yaşayış sahələri də daxil olmaqla)
D) istehsalın olduğu ərazidə yerləşən anbarlar və istirahət obyektləri

8. Azərbaycan Respublikası ərazisində istehsal olunan neft məhsulları və tütün məmulatları üçün aksizlər üzrə vergi tutulan əməliyyatın məbləği ...

A) vergi ödəyicisinin müştəridən və yə hər hansı digər şəxsdən, o cümlədən barter əsasında aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxılmadan) aşağı olmayan məbləğidir
B) vergi ödəyicisinin müştəridən və yə hər hansı digər şəxsdən, o cümlədən barter əsasında aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir
C) vergi ödəyicisinin müştəridən və yə hər hansı digər şəxsdən aldığı və ya almalı olduğu haqqın pərakəndə satış bazar qiymətindən (ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir
D) vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında aldığı və ya almalı olduğu haqqın bazar qiymətindən aşağı olan məbləğidir

9. Azərbaycan Respublikasında istehsal olunan neft məhsulları və tütün məmulatları istsna olmaqla istehsal olunan digər aksizli mallar üçün vergi tutulan əməliyyat nə hesab olunur?
A) İstehsal olunan malların dəyəri
B) istehsal olunan malların maya dəyəri
C) İstehsal olunan malların keyfiyyət göstəriciləri
D) istehsal olunan malların miqdarı

10. İdxal malları üçün (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) aksiz tutulan əməliyyatın məbləği ...
A) Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən yuxarı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla)
B) Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla)
C) Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin pərakəndə satış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla)
D) Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla)

Test 51.

1. İdxal olunan minik avtomobilləri, istirahət və ya idman yaxtaları və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə aksiz üzrə vergi tututlan əməliyyat...
A) onların mühərrikinin qiymətidir
B) onların mühərrikinin həcmidir
C) onların dəyəridir
D) onların mühərrikinin çəkisidir

2. Azərbaycan Respublikası ərazisində istehsal olunan aksizli mallar üçün hansı vaxt vergi tutulan əməliyyatın vaxtıdır?
A) malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt
B) malların topdansatış qiymətinin formalaşdığı vaxt
C) malların pərakəndə satış qiymətinin formalaşdığı vaxt
D) malların ölkə hüdudlarından kənara buraxıldığı vaxt

3. İdxal olunan aksizli mallar üçün hansı vaxt vergi tutulan əməliyyatın vaxtıdır?
A) Vergi Məcəlləsinə uyğun olaraq malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt
B) Gömrük Məcəlləsinə uyğun olaraq malların gömrük xidmətinin nəzarətinə daxil olduğu vaxt
C) Gömrük Məcəlləsinə uyğun olaraq malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt
D) malların gömrük xidmətinin nəzarətindən yayındığı vaxt

4. Aksizli malların ixracı vergiyə necə cəlb olunur?
A) vergiyə cəlb olunmur B) sıfır (0) C) 15% D) 12.5%

5. Aşağıdakılardan hansı aksizdən azad edilir?
1. fiziki şəxsin fərdi istehlakı 5 litr alkoqollu içkininin və 3 blok siqaretin idxalı
2. Azərbaycana avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq
3. Azərbaycan ərazisindən tranzitlə daşınan mallar
4. Azərbaycan ərazisinə müvəqqəti idxal edilən mallar (təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə)
5. təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar
6. Azərbaycan ərazisindən ixrac edilən mallar
A) 2, 3, 4, 5 B) 1, 3, 4, 5 C) 2, 3, 4, 6 D) 2, 4, 5, 6

6. Aksizdən azadolmalar hansı şərtlərə əməl olunduqda tətbiq edilir?
A) gömrük qanunvericiliyinə əməl olunduqda

B) aksizlər üzrə tətəblərə riayət olunduqda
C) gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl olunduqda
D) belə bir şərt yoxdur

7. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunurmu?
A) tətbiq olunur
B) müstəsna hallarda tətbiq olunur
C) tətbiq olunmur
D) gömrük orqanının qərarına əsasən tətbiq oluna bilər

8. Aksizli malları alan şəxs xammal və materialları alarkən ödənilmiş aksiz məbləğini hansı halda əvəzləşdirmək və ya geri almaq hüququna malikdir?
A) bu malları şəxsi istehlakı üçün istifadə etdikdə
B) bu malları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə etdikdə
C) bu malları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə etmədikdə
D) bu malları vergi tutulan digər malların istehsalı üçün istifadə etdikdə

9. Hansı mallar aksizli mallara aiddir?
1. spirt, pivə və spirtli içkilərin bütün növləri
2. balıqçılıq ləvazimatları
3. tütün məmulatları və neft məhsulları
4. zərgərlik məmulatları
5. minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla)
6. istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr
A) 1, 3, 4, 5 B) 2, 3, 4, 6 C) 1, 3, 5, 6 D) 1, 2, 4, 6

10. Azərbaycan Respublikasına idxal edilən aksizli mallara (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) aksizlərin dərəcələri hansı icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir?
A) Maliyyə Nazirliyi tərəfindən
B) İqtisadi İnkişaf Nazirliyi tərəfindən
C) Vergilər Nazirliyi tərəfindən
D) Nazirlər Kabineti tərəfindən

Test 52.

1. Azərbaycan Respublikasında istehsal olunan içməli spirtə tətbiq olunan aksizin dərəcəsi neçə manatdır?
A) hər litrinə 0,2 manat
B) hər litrinə 0,5 manat
C) hər litrinə 1 manat
D) hər litrinə 0,8 manat

2. Azərbaycan Respublikasında istehsal olunan araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarına tətbiq olunan aksizin dərəcəsi neçə manatdır?
A) hər litrinə 0,8 manat
B) hər litrinə 0,5 manat
C) hər litrinə 0,2 manat
D) hər litrinə 0,1 manat

3. Azərbaycan Respublikasında istehsal olunan likyor və likyor məmulatlarına tətbiq olunan aksizin dərəcəsi neçə manatdır?
A) hər litrinə 0,6 manat
B) hər litrinə 0,7 manat
C) hər litrinə 0,8 manat
D) hər litrinə 0,5 manat

4. Azərbaycan Respublikasında istehsal olunan konyak və konyak materiallarına tətbiq olunan aksizin dərəcəsi neçə manatdır?
A) hər litrinə 0,3 manat
B) hər litrinə 0,08 manat
C) hər litrinə 0,2 manat
D) hər litrinə 0,5 manat

5. Azərbaycan Respublikasında istehsal olunan şampan şərabına tətbiq olunan aksizin dərəcəsi neçə manatdır?
A) hər litrinə 0,2 manat
B) hər litrinə 0,08 manat
C) hər litrinə 0,25 manat
D) hər litrinə 0,55 manat

6. Azərbaycanda istehsal olunan şərablar və şərab materiallarına tətbiq olunan aksizin dərəcəsi neçə manatdır?

A) hər litrinə 0,5 manat
B) hər litrinə 0,1 manat
C) hər litrinə 0,2 manat
D) hər litrinə 0,6 manat

7. Azərbaycan Respublikasında istehsal olunan pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərə tətbiq olunan aksizin dərəcəsi nəçə manatdır?
A) hər litrinə 0,8 manat
B) hər litrinə 0,5 manat
C) hər litrinə 0,2 manat
D) hər litrinə 0,08 manat

8. Azərbaycan Respublikasında bütün növ tütün məmulatlarına tətbiq olunan aksizin dərəcəsi nə qədərdir?
A) topdansatış qiymətinin 125 faizi
B) topdansatış qiymətinin 1,25 faizi
C) topdansatış qiymətinin 12,5 faizi
D) pərakəndə satış qiymətinin 12,5 faizi

9. Azərbaycan Respublikasına idxal olunan minik avtomobilinin mühərrikinin həcmi 2000 kub santimetrədək olduqda hansı aksiz dərəcəsi tətbiq edilir?
A) mühərrikin həcminin hər kub santimetrinə görə 0,12 m
B) mühərrikin həcminin hər kub santimetrinə görə 0,15 m
C) mühərrikin həcminin hər kub santimetrinə görə 1,5 m
D) mühərrikin həcminin hər kub.santimetrinə görə 1,0 m

10. Azərbaycan Respublikasına idxal olunan minik avtomobilinin mühərrikinin həcmi 3000 kub santimetrədək olduqda hansı aksiz dərəcəsi tətbiq edilir?
A) 300 manat + mühərrikin həcminin 2001-3000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 0,1 manat
B) 200 manat + mühərrikinin həcminin 2001-3000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 1 manat
C) 300 manat + mühərrikinin həcminin 2001-3000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 1 manat
D) 300 manat + mühərrikinin həcminin 2001-3000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 2 manat

Test 53.

1. Azərbaycan Respublikasına idxal olunan minik avtomobilinin mühərrikinin həcmi 4000 kub santimetrədək olduqda hansı aksiz dərəcəsi tətbiq edilir?
A) 1300 manat + mühərrikinin həcminin 3001-4000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 2 manat
B) 1500 manat + mühərrikinin həcminin 3001-4000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 2 manat
C) mühərrikinin həcminin hər kub santimetrə görə 2 manat
D) 1280 manat + mühərrikinin həcminin 3001-4000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə 1 manat

2. Azərbaycan Respublikasına idxal olunan minik avtomobilinin mühərrikinin həcmi 4000 kub santimetrdən çox olduqda hansı aksiz dərəcəsi tətbiq edilir?
A) 3300 manat + mühərrikinin həcminin 4000 kub santimetrdən çox hissəsi üçün hər kub santimetrə görə 1 manat
B) 1300 manat + mühərrikinin həcminin 4000 kub santimetrindən çox hissəsi üçün hər kub santimetrə görə 2 manat
C) hər kub santimetrə görə 4 manat
D) 3300 manat + mühərrikinin həcminin 4000 kub santimetrdən çox hissəsi üçün hər kub santimetrə görə 4 manat

3. Azərbaycan Respublikasına idxal olunan istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə hansı aksiz dərəcəsi tətbiq edilir?
A) mühərrikinin həcminin hər kub santimetrinə görə 2 manat
B) mühərrikinin həcminin hər kub santimetrinə görə 3 manat
C) mühərrikinin həcminin hər kub santimetrinə görə 4 manat
D) mühərrikinin həcminin hər kub santimetrinə görə - 1 manat

4. Azərbaycanda istehsal olunan neft məhsullarına, minik avtomobillərinə və istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aksiz dərəcələri hansı icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir?
A) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
B) Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi
C) Azərbaycan Respublikasının Vergilər Nazirliyi
D) Azərbaycan Respublikasının Nazirlər Kabineti

5. Aksizlər üzrə hesabat dövrü hansı dövr sayılır?
A) təqvim ili B) rüb C) təqvim ayı D) yarım il

6. Aksizli malların istehsalı zamanı vergi tutulan əməliyyatlar üzrə aksizlər hansı müddətədək ödənilməlidir?
A) hesabat dövründən sonrakı ayın 10-dan gec olmayaraq

B) hesabat dövründən sonrakı ayın 15-dən gec olmayaraq
C) hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq
D) hesabat dövründən sonrakı ayın 30-dan gec olmayaraq

7. Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi qaydaları hansı icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir?
A) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi
B) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
C) Azərbaycan Respublikasının Nazirlər Kabineti
D) Azərbaycan Respublikasının Vergilər Nazirliyi

8. Vergi orqanları markalanmalı olan aksizli mallar istehsal edən vergi ödəyiciləri tərəfindən Vergi Məcəlləsində müəyyən edilmiş tələblərin pozulması hallarını müəyyən etdikdə hansı tədbirləri görərək həmin malların uçota alınmadan, markalanmadan və aksizləri ödəmədən istehsal binasının hüdudlarından kənara çıxarılmasının qarşısının alınmasını təmin etməyə səlahiyyətlidirlər?
A) vergi ödəyicilərinin müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və digər tədbirləri görməklə
B) vergi ödəyicilərinin müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar daxil olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və digər tədbirləri görməklə
C) vergi ödəyicilərinin müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmadan digər tədbirləri görməklə
D) vergi ödəyicilərinin müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar da daxil olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və polisin səlahiyyətlərindən istifadə etməklə

9. Nəzarət postları Vergilər Nazirliyinin qərarına əsasən hansı zəruri avadanlıqlarla təchiz edilməlidir?
A) pul və digər zəruri avadanlıqlarla
B) xüsusi geyim və digər zəruri avadanlıqlarla
C) xüsusi maşın və digər zəruri avadanlıqlarla
D) telefon və digər zəruri avadanlıqlarla

10. Nəzarət postları aksizli malları istehsal edən vergi ödəyicilərinin istehsal sahələrinin hansı hissərində yaradılmalıdır?
A) giriş və çıxış qapılarında
B) əsas giriş və çıxış qapısının yaxınlığında
C) əsas giriş qapısından 50 metr məsafədə
D) çıxış qapısından 50 metr məsafədə

Test 54.

1. Nəzarət postları yaradıldıqda markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicisinin texnoloji avadanlıqlarının, ölçü vasitələrinin və laboratoriya cihazlarının texniki sazlığının, standartlara uyğunluğunun yoxlanması və cihazların ploblanması hansı icra hakimiyyəti orqanı tərəfindən yerinə yetirilir?
A) Maliyyə Nazirliyinin iştirakı ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən
B) İqtisadi İnkişaf Nazirliyinin iştirakı ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən
C) Vergilər Nazirliyinin iştirakı ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən
D) Nazirlər Kabinetinin nəzarəti ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən

2. Nəzarət postlarının işçiləri hansı tədbirlərəri görməklə markalanmalı olan malların markalanmaqla istehsal sahələrindən kənara çıxarılmasına, hazır məhsulun anbara və oradan alıcılara buraxılmasına, markalarının yapışdırılması qaydalarına riayət olunmasına nəzarət edirlər?
1) istehsal sahələrinə aid olan və aid olmayan texnoloji avadanlıqları plombalamaqla
2) aksiz markalarının qalıqlarının inventarizasiya etməklə
3) hazır məhsul satılarkən malların yekun sənədlərinə (qaimənə, mal-nəqliyyat qaiməsinə, vergi-hesab fakturasına) baxış keçirməklə
4) istehsalın həcmi üzrə nəzarət ölçü cihazlarını, xammal, material və hazır məhsul anbarlarını plombalamaqla
5) istehsal sahələrindəki texnoloji avadanlıqları plombalamaqla
6) hazır məhsul satılarkən malların ilkin təsdiqedici sənədlərinə (qaiməsinə, mal-nəqliyyat qaiməsinə , vergi-hesab fakturasına) baxış keçirməklə
A) 1; 3; 4; 6 B) 2; 3; 5; 6 C) 2; 4; 5; 6 D) 2; 3; 4; 5

3. İstehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının, xammal, material və hazır məhsul anbarlarının, istehsal sahələrindəki texnoloji avadanlıqların plomblanması hansı şəxslər tərəfindən həyata keçirilir?

A) istehsalçının nümayəndəsi ilə birlikdə nəzarət postlarının işçiləri tərəfindən
B) istehsalçının nümayəndəsi ilə birlikdə vergi orqanının işçiləri tərəfindən
C) istehsalçının nümayəndəsi ilə birlikdə Azərbaycan Respublikasının standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin işçiləri tərəfindən
D) istehsalçının nümayəndəsi ilə birlikdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin işçiləri tərəfindən

4. Avadanlığın dayandırılması zamanı istehsal güclərinin qapanması istehsal üzrə texnoloji xətlərin və avadanlığın plomblanması hansı səbəbdən istifaləsi çətin olan yerlərdə həyata keçirilir?
A) onlardan istifadə edildikdə nəzarət postlarına gizli siqnal verən cihazı quraşdırmaq üçün
B) onların istifadə edilməsinin mümkün olmaması üçün
C) vergi ödəyicilərinə maddi zərər vurmaq üçün
D) kənar şəxslərin toxuna bilməməsi üçün

5. Plombların vurulması və çıxarılması nəzarət postunun işçiləri və istehsalçının nümayəndəsinin iştirakı ilə hansı sənədlə rəsmiləşdirilir?
A) müvafiq protokolla
B) müvafiq aktla
C) müvafiq qaimə ilə
D) rəsmiləşdirilmir

6. Hansı halda istehsalçının məsul şəxsləri tərəfindən vergi orqanına məlumat verilməklə və müvafiq akt tərtib edilməklə plomblar açıla bilər?
A) nəzarət postlarının işçiləri iş başladığı vaxtda nəzarət postunda olmadıqda
B) nəzarət postlarının işçiləri tərəfindən qanunsuz hərəkətlər edildikdə
C) qanun pozuntusunun olmadığı müəyyən edildikdə
D) plomblar yalnız nəzarət postlarının işçiləri tərəfindən açıla bilər

7. Nəzarət postunun işçiləri satışa buraxılan hazır məhsulların sənədlərində göstərilən sayının, həcminin, çəkisinin onların faktiki sayı, həcmi və çəkisi ilə düzgünlüyünü yoxladıqdan və sənədlərdəki göstəriciləri xüsusi jurnalda qeyd etdikdən sonra həmin malların təsdiqedici sənədlərində (qaimə, mal-nəqliyyat qaiməsi, vergi-hesab fakturası) hansı qeydi aparmalıdır?
A) satışa icazə verilir
B) buraxılışa icazə verilir
C) istifadəsinə icazə verilir
D) istehlakına icazə verilir

8. Plombların vurulması və çıxarılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklər edildikdə, texnoloji avadanlıqlardakı plomblar zədələnləndikdə nəzarət postunun işçiləri hansı tədbirləri həyata keçirməlidirlər?
A) müvafiq protokol tərtib etməli, bu barədə dərhal vergi orqanına məlumat verməlidirlər
B) müvafiq akt tərtib etməli, bu barədə dərhal vergi orqanına məlumat verməlidirlər
C) müvafiq arayış tərtib etməli, bu barədə dərhal vergi orqanına məlumat verməlidirlər
D) müvafiq akt tərtib etməli, bu barədə dərhal hüquq mühafizə orqanlarına məlumat verməlidirlər

9. Mallar pərakəndə qaydada göndərildiyi hallar istisna olmaqla, aksizli malları göndərən vergi ödəyicisi normativ-hüquqi aktlara uyğun olaraq malı qəbul edənə hansı sənədi yazmalı və verməlidir?
A) qəbz
B) vergi hesab-fakturası
C) çek
D) qaimə

10. Mallar pərakəndə qaydada göndərildiyi hallarda vergi hesab-fakturası əvəzinə nə verilə bilər?
A) qaimə və ya çek
B) qəbz və ya qaimə
C) bəyannamə
D) qəbz və ya çek

XIII Fəsil. Torpaq vergisi və əmlak vergisi.

§13.1. Torpaq vergisinin tətbiqi xüsusiyyətləri.

Azərbaycan Respublikasının vergi sistemində həm dövlət büdcəsinə, həm də yerli büdcəyə ödənilən vergi növlərindən biri torpaq vergisidir. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında mühüm iştirak payına sahib olmasa da, bu vergi növü daim dövlətin diqqət mərkəzindədir və davamlı olaraq dövlət büdcəsinin gəlirlərində artımla müşahidə olunmaqdadır. Belə ki, əgər 2000-ci ildə torpaq vergisi üzrə büdcə daxilolmaları 6.7 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddə 15.3 milyon manata, 2009-cu ildə 26.2 milyon manata və nəhayət 2011-ci ildə 35.3 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə torpaq vergisi üzrə 28 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır. Rezident və qeyri-rezident fiziki şəxslər, habelə rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir və bu torpaq sahələri torpaq vergisi üzrə vergitutma obyekti sayılır. Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilir. Şərti ballar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd

təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilir.

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələri və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə aşağıdakı dərəcələr tətbiq olunur:

- Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar - Bakı şəhərində 10 manat; Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonunda 8 manat; digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla) və rayon mərkəzlərində 4 manat; rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) 2 manat;
- Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar - Bakı şəhərində 0,6 manat; Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonunda 0,5 manat; digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla) və rayon mərkəzlərində 0,3 manat; rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) 0,1 manat.

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafiəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

Müvafiq orqanlar tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir. Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə etdikləri torpaqlara, habelə hüquqi şəxslərə məxsus olan torpaqlara görə hesablanmış torpaq vergisinin məbləği məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları; dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünü idarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar; istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar; dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar torpaq vergisinə cəlb edilmir. Hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldı-

lan fiziki şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, sənaye və texnologiyalar parkında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.

Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının idarəedici təşkilatı və ya operatoru sənaye və texnologiyalar parkının ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisini ödəməkdən azaddır.

Beynəlxalq təcrübədə torpaq vergisinin tətbiqinin fərqli xüsusiyyətlərinə rast gəlinir. Misal üçün, Fransada torpaqlar üzərilərindəki tikintiyə görə fərqləndirilir: tikilmiş və tikilməmiş ərazilər. Tikilmiş ərazilərə tətbiq edilən torpaq vergisi istifadəçinin bütün əmlakını (binalar, avadanlıqlar, ehtiyatlar) əhatə edir. Tikilməmiş ərazilərə düzənliklər, meşələr, karyerlər, boş sahələr aiddir və bu ərazilərin istifadəçiləri torpaq vergisinin ödəyiciləridirlər. Çexiyada isə torpaq sahələrinə görə və tikintiyə görə vergi daşınmaz əmlaka görə verginin tərkibində birləşib. Bu verginin ödəyiciləri torpaq sahələrinin və tikintilərin sahibləridir. Hər kvadrat metrə görə ödənilən bu vergi tikilmiş sahələr üçün 0,1 kron, tikinti sahələri üçün 1 kron müəyyən olunub. Lakin, bu verginin ayrı-ayrı regionlar üzrə müxtəlif əmsalları mövcuddur. Ən yüksək əmsal olan 4,5 isə Praqa üçün müəyyən olunub. Çexiyada torpaq vergisi torpağın dəyərinə əsasən ödənilir. Tikintiyə görə ödənilən verginin ödəyiciləri bina və tikinti sahibləridir. Bu vergi hər kvadratmetrə görə hesablanır. Belə ki, 16 kvadratmetr-

dən yuxarı sahəsi olan yaşayış evlərinin hər kvadratmetrinə görə 1 kron, fərdi istirahət evlərinə görə 3 kron, qarajlara görə 4 kron ödənilir. Tikinti vergisinin məbləği tikilinin hər mərtəbəsinə görə 0,75 kron artırılır. Almaniyada torpaq vergisinin dərəcələri olduqca aşağıdır. Belə ki, kənd təsərrüfatı və meşə təsərrüfatı müəssisələri 0,6%, digər torpaq sahibləri isə 0,26-0,35% civarında torpaq vergisi ödəyirlər. Bu vergini ödəməkdən büdcə təşkilatları, kilsələr və elmi məqsədlərlə istifadə olunan torpaqlar azaddır. Göründüyü kimi, xarici ölkələrdə torpaq vergisinin dərəcələri çox da yüksək deyil, büdcə gəlirlərində torpaq vergisi üzrə daxilolmaların yüksək mövqelərdə dayanmasının səbəbi isə vergi ödəyicilərinin vicdanla bu vergini ödəməsi ilə əlaqədardır.

§13.2. Əmlak vergisinin tətbiqi xüsusiyyətləri.

Azərbaycan Respublikasının vergi sistemində həm dövlət büdcəsinə, həm də yerli büdcəyə ödənilən vergi növlərindən biri də əmlak vergisidir. Əmlak vergisini hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli büdcələrə ödəyirlər. Xarici ölkələrin təcrübəsinə baxdıqda əmlak vergisinin aparıcı mövqedə dayandığının şahidi oluruq. (Misal üçün, Böyük Britaniyada yerli büdcələrin gəliri əsasən əmlak vergisi üzrə daxilolmaların hesabına formalaşır). Azərbaycanda isə əmlak vergisi üzrə daxilolmalar dövlət büdcəsinin gəlirlərinin kiçik bir hissəsini təşkil edir. Lakin, buna baxmayaraq dövlət büdcəsinin gəlirlərində əmlak vergisi üzrə daxilolmaların həcmi ildən-ilə artmaqdadır. Belə ki, əgər 2000-ci ildə əmlak vergisi üzrə büdcə daxilolmaları 11.8 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddə 40.4 milyon manata, 2009-cu ildə 66.2 milyon manata, 2010-cu ildə 101.8 milyon manata

və nəhayət 2011-ci ildə 103.9 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə əmlak vergisi üzrə 102 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən aşağıda göstərilən vergitutma obyektləri olan fiziki şəxslər və müəssisələr əmlak vergisinin ödəyicilərıdir:

1. Rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri (bundan sonra bina adlandırılacaq), həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri;
2. müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri;
3. Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün - yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri.

Vergitutma obyekti olan və müəssisələr tərəfindən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün birləşdirilən əsas vəsaitlərin dəyəri, bu əsas vəsaitləri birləşdirən birgə fəaliyyət iştirakçıları tərəfindən vergiyə cəlb edilməsi məqsədləri üçün bəyannaməyə daxil olunur. Birgə fəaliyyət nəticəsində yaradılmış (alınmış) əsas vəsaitlərin dəyəri isə birgə fəaliyyətin iştirakçıları tərəfindən müqavilə üzrə mülkiyyətdə müəyyən olunmuş pay haqqına müvafiq olaraq bəyannaməyə daxil edilir.

Fiziki şəxslər əmlak vergisini aşağıdakı qaydada və dərəcələrlə ödəyirlər:

1. onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərindən:
- bu dəyər 5000 manatadək olduqda vergi tutulmur, 5000 manatdan çox olan məbləğdən isə - 0,1 faizlə.
2. su və hava nəqliyyatı vasitələrinə görə:

2.1. su nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün 0,02 manat;
2.2. hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün 0,02 manat.
2.3. mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün - onların bazar qiymətinin 1 faizi.

Müəssisələr əsas vəsaitlərin Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 202-ci maddəsinə (ARVM m-202. Müəssisənin əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi qaydası.) uyğun olaraq müəyyənləşdirilən dəyərindən 1 faiz dərəcəsi ilə əmlak vergisi ödəyirlər.

Beynəlxalq təcrübədə əmlak vergisinin müxtəlif dərəcələrlə tətbiqinə rast gəlmək mümkündür. Belə ki, ABŞ-da əmlak vergisi əmlakın dəyərinin 2%-i, Almaniyada 0,5-0,6%-i, Rusiyada isə 0,1-2,2%-i həcmində tutulur və fiziki şəxslər üçün minimal, hüquqi şəxslər üçün maksimal dərəcələr tətbiq edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində əmlak vergisi üzrə bir sıra vergi güzəştləri və azadolmalar nəzərdə tutulmuşdur. Hazırda, Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünü idarəetmə orqanları, Azərbaycan Respublikasının Mərkəzi Bankı və onun qurumları, dövlət fondları və əlillərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddır. Vergi qanunvericiliyində kiçik sahibkarlıq subyektləri üçün də azadolmalar nəzərdə tutulmuşdur. Belə ki, misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanaları-

nın binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir. Eyni zamanda şəhərlərdə sərnişin daşımaları üçün istifadə olunan trolleybuslar və tramvaylar əmlak vergisindən azaddır. Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, 7 il müddətinə sənaye və texnologiyalar parkındakı əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. Həmçinin, sənaye və texnologiyalar parkının idarəedici təşkilatı və ya operatoru sənaye və texnologiyalar parkının ərazisində yerləşən əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddır.

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılan fiziki şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği isə 30 manat məbləğində azaldılır.

Vergi qanunvericiliyində müəssisələr üçün də güzəştlər nəzərdə tutulmuşdur. Belə ki, vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri aşağıdakı əmlakların dəyərində azaldılır:

1. ekologiya, yanğından mühafizə və ya mülki müdafiə üçün istifadə edilən obyektlərin;
2. məhsul ötürən kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerji ötürücü xətlərinin, meliorasiya və suvarma sistemi obyektlərinin;

3. mühərrikinin həcminə görə yol vergisinə cəlb edilən avtonəqliyyat vasitələrinin;
4. təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi obyektlərinin.

Xarici ölkələrdə əmlak vergisi üzrə azadolma və güzəştlərə daha geniş yer verilir. Misal üçün, ABŞ-da veteranlar birliyi, əmək ittifaqları, fermer birlikləri, Rusiyada dini təşkilatlar, əlillərin ictimai təşkilatları, vəkillər kollegiyası, dövlət elmi mərkəzləri, Sovet İttifaqı qəhrəmanları, I və II qrup əlillər, uşaqlıqdan əlil olan şəxslər əmlak vergisini ödəməkdən azaddır. Almaniyada isə vergi ödəyicilərinin mülkiyyətində olan əmlakın 70 min avroyadək (60 yaşdan yuxarı əlillər üçün 130 min avroyadək) olan hissəsi əmlak vergisindən azaddır.

§13.3. Əmlak vergisinin hesablanması və ödənilməsi qaydası.

Fiziki şəxslərə məxsus binalar üzrə əmlak vergisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada binaların inventar dəyərinə əsasən hesablanılır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq, yuxarıda müəyyən edilmiş qaydaya uyğun olaraq hesablanır.

Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı

vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək müvafiq orqana təqdim edir. Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur.

Bələdiyyələr verginin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir. Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri müəssisənin əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi qaydasına uyğun olaraq müəyyən edilir. Müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda əmlak vergisi bu hala əsasən müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanır. Sığortalanan əmlakın dəyəri bazar qiyməti nəzərə alınmaqla müəyyən edildiyi halda müəssisənin əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi qaydası tətbiq edilmir.

Müəssisənin əmlak vergisi üçün vergi dövrü təqvim ili sayılır. Əmlak vergisi ödəyiciləri cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin məbləğinin 20 faizi həcmində vergi ödəyir. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq, həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi

miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Əmlak vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Dövlət büdcəsinə hesabat dövrü üçün ödənilməli olan verginin məbləği hesabat dövrü ərzində əvvəllər hesablanmış ödəmələr nəzərə alınmaqla müəyyən edilir. Cari vergi ödəmələri müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə «ödənilmə vaxtı keçmiş və artıq ödənilmiş vergilər üzrə faizlərin tətbiqi qaydasına uyğun faiz tutulur. Əmlak vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda, artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

Müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir. Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarının qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) ləqallaşdırıldığı tarixindən sonra 30 gün müddətində vergi orqanına əmlak vergisinin bəyannaməsini verməlidir və bu halda hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir. İllik bəyannamələr üzrə vergilər həmin bəyannamələrin verilməsi üçün müəyyən edilmiş müddətlərədək ödənilir. Hesablanmış verginin məbləği məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

§13.4. Müəssisənin əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi qaydası.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri götürülür. Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) orta illik qalıq dəyəri aşağıdakı qaydada hesablanır:

1. Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) hesabat ilinin əvvəlinə (əvvəlki vergi ilinin sonuna müəyyən edilən qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünür. Müəssisənin əmlakının orta illik qalıq dəyəri hesablanarkən, əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) nəzərə alınmır.
2. Müəssisə hesabat ili ərzində yaradıldıqda və ya əmlak vergisi ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra, ilin sonuna qədər olan ayların sayına vurulur.
3. Müəssisə hesabat ili ərzində ləğv edildikdə və ya sadələşdirilmiş verginin ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) ilin əvvəlinə və ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu aya qədər olan ayların sayına vurulur.

Biliyi möhkəmləndirmək üçün testlər:

Test 55.

1. Aşağıdakılardan hansı əmlak vergisi üzrə vergitutma obyekti sayılmır?

A) rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililəri və ya onların hissələrinin, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri

B) müəssisənin balansında olan əsas vəsaitlərin orta illik dəyəri

C) müəssisənin balansında olan əsas fondların qalıq dəyəri

D) Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün - yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri

2. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalarının inventarlaşdırılmış dəyəri hansı məbləğdək olduqda əmlak vergisi tutulmur?

A) 5000 manatadək olduqda

B) 15000 manatadək olduqda

C) 20000 manatadək olduqda

D) 35000 manatadək olduqda

3. Fiziki şəxslər xüsusi mülkiyyətlərində olan binalara görə əmlak vergisini hansı dərəcə ilə ödəyirlər?

A) onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərinin 5000 manatdan çox olan məbləğindən 0,2%-lə

B) onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərinin 5000 manatdan çox olan məbləğindən 0,1%-lə

C) onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərinin 5000 manatdan çox olan məbləğindən 0,01%-lə

D) onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərinin 50000 manatdan çox olan məbləğindən 0,1%-lə

4. Fiziki şəxslər mühərrikli su və hava nəqliyyatı vasitələrinə görə əmlak vergisini hansı dərəcə ilə ödəyirlər?

A) su və hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün 0,01 manat
B) su və hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün 0,2 manat
C) su və hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün 0,1 manat
D) su və hava nəqliyyatı vasitəsinin mühərrikinin 1 kub santimetri üçün 0,02 manat

5. Fiziki şəxslər mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinə görə əmlak vergisini hansı dərəcə ilə ödəyirlər?
A) su və hava nəqliyyatı vasitəsinin bazar qiymətinin 0,1%-i
B) su və hava nəqliyyatı vasitəsinin bazar qiymətinin 1%-i
C) su və hava nəqliyyatı vasitəsinin bazar qiymətinin 2%-i
D) su və hava nəqliyyatı vasitəsinin bazar qiymətinin 0,2%-i

6. Müəssisələr əsas vəsaitlərə görə əmlak vergisini hansı dərəcə ilə ödəyirlər?
A) onların vergi tutulan dəyərindən 1% dərəcə ilə
B) onların vergi tutulan dəyərindən 0,01% dərəcə ilə
C) onların vergi tutulan dəyərindən 0,001% dərəcə ilə
D) onların vergi tutulan dəyərindən 0,1% dərəcə ilə

7. Aşağıdakı orqanlardan hansı əmlak vergisinin ödəyicisidir?
A) Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları
B) Azərbaycan Respublikasının Mərkəzi Bankı və onun qurumları
C) Qeyri-büdcə təşkilatları və yerli özünü idarəetmə orqanları
D) Dövlət fondları və əlillərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları

8. Sənətkarlığın hansı növləri üzrə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir?
1. misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının hazırlanması

2. təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin hazırlanması
3. qamışdan və qarğıdan musiqi alətlərinin düzəldilməsi
4. xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi
5. zərgərlik məmulatlarının hazırlanması
6. keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallarından məişət alətlərinin hazırlanması
A) 1, 2, 4, 6
B) 1, 4, 5, 6
C) 2, 3, 4, 5
D) 2, 4, 5, 6

9. Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla gəlir vergisi üzrə güzəşti olan şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği nə qədər azaldılır?
A) 50 manat məbləğində
B) 100 manat məbləğində
C) 30 manat məbləğində
D) 40 manat məbləğində

10. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri hansı əmlakların dəyərində azaldılır?
A) ekologiya, yanğından mühafizə və ya mülki müdafiə üçün istifadə edilən obyektlərin dəyərində
B) məhsul ötürən kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerji ötürücü xətlərinin, meliorasiya və suvarma sistemi obyektlərinin dəyərində
C) yol vergisinə cəlb edilməyən minik avtomobillərinin və digər avtonəqliyyat vasitələrinin dəyərində
D) təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi obyektlərinin dəyərində

Test 56.

1. Şəhərlərdə sərnişin daşımaq üçün istifadə olunan hansı nəqliyyat vasitələri əmlak vergisindən azaddır?
A) metro və elektrik qatarları
B) trolleybuslar və tramvaylar
C) avtobuslar və taksilər
D) metro və avtobuslar

2. Fiziki şəxsin xüsusi mülkiyyətində olan binalar üzrə əmlak vergisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada binaların hansı dəyərinə əsasən hesablanılır?
A) maya dəyərinə əsasən
B) bazar dəyərinə əsasən
C) inventar dəyərinə əsasən
D) ilkin dəyərinə əsasən

3. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi hansı orqan tərəfindən hesablanır?
A) binaların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən
B) binaların yerləşdiyi ərazinin icra orqanı tərəfindən tərəfindən
C) vergi orqanları tərəfindən
D) maliyyə orqanları tərəfindən

4. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi hansı qaydada hesablanır?
A) həmin binanın bir sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq
B) həmin binanın dəyərinə uyğun olaraq
C) həmin binanın illik qalıq dəyərinə uyğun olaraq
D) həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq

5. Bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyyə bildirişini nə vaxt vergi ödəyicisinə verməlidirlər?
A) avqustun 1-dən gec olmayaraq
B) yanvarın 20-dən gec olmayaraq
C) iyunun 15-dən gec olmayaraq
D) avqustun 15-dən gec olmayaraq

6. Cari il üçün əmlak vergisi hansı müddətdə ödənilməlidir?

A) bərabər hissələrlə həmin il sentyabrın 15-dən noyabrın 15-dək
B) bərabər hissələrlə həmin il avqustun 15-dək və noyabrın 15-dək
C) bərabər hissələrlə həmin il avqustun 15-dək və dekabrın 15-dək
D) bərabər hissələrlə həmin il avqustun 15-dən noyabrın 15-dək

7. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi kim tərəfindən ödənilir?
A) müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın əvvəlki sahibi tərəfindən
B) müəyyən edilmiş ödəmə vaxtında bələdiyyənin vəsaiti hesabına silinir
C) müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən
D) müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın əvvəlki və hazırki sahibi tərəfindən

8. Fiziki şəxslərdən əmlak vergisi hansı büdcəyə ödənilir?
A) yerli büdcəyə (bələdiyyə büdcəsinə)
B) dövlət büdcəsinə
C) federal büdcəyə
D) xüsusi büdcəyə

9. Müəssisənin əmlak vergisi üçün vergi dövrü hansı dövr sayılır?
A) rüb
B) təqvim ili
C) təqvim ayı
D) yarım il

10. Əmlak vergisi ödəyiciləri olan müəssisələr cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisi məbləğinin neçə faizi həcmində vergi ödəyirlər?
A) 25 %
B) 30 %
C) 50 %
D) 20 %

Test 57.

1. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlak vergisi üzrə cari vergi ödəmələrini hansı qaydada ödəyirlər?
A) əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 25%-i miqdarında
B) əmlakın əldə edildiyi rübdən sonra hər rübün üçüncü ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20%-i miqdarında
C) əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 20-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 25%-i miqdarında
D) əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20%-i miqdarında

2. Dövlət büdcəsinə hesabat dövrü üçün ödənilməli olan əmlak vergisinin məbləği müəyyən edilərkən hesabat dövrü ərzində əvvəllər hesablanmış ödəmələr nəzərə alınırmı?
A) nəzərə alınır
B) nəzərə alınmır
C) müstəsna hallarda nəzərə alınır
D) heç bir halda nəzərə alınmır

3. Əmlak vergisi üzrə cari vergi ödəmələri vaxtında ödənilmədikdə vergi orqanı tərəfindən hansı tədbirlər görülür?
A) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə 0,01 faiz dərəcəsi ilə faiz tutulur
B) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə 0,001 faiz dərəcəsi ilə faiz tutulur
C) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə 0,2 faiz dərəcəsi ilə faiz tutulur

D) ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə 0,1 faiz dərəcəsi ilə faiz tutulur

4. Əmlak vergisi üzrə cari vergi ödəmələri nə vaxt yenidən haqq-hesab edilir ?
A) hesabat başa çatdıqdan sonra
B) hesabat rübü başa çatdıqdan sonra
C) hesabat ili başa çatdıqdan sonra
D) hesabat ayı başa çatdıqdan sonra

5. Müəssisə əmlak vergisinin illik bəyannaməsini nə vaxt vergi orqanına verir?
A) hesabat ilindən sonrakı ilin mart ayının 15-dən gec olmayaraq
B) hesabat ilindən sonrakı ilin mart ayının 20-dən gec olmayaraq
C) hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq
D) hesabat ilindən sonrakı ilin may ayının 31-dən gec olmayaraq

6. Müəssisələrin əmlak vergisi hansı büdcəyə ödənilir?
A) yerli büdcəyə (bələdiyyə büdcəsinə)
B) dövlət büdcəsinə
C) federal büdcəyə
D) xüsusi büdcəyə

7. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının hansı dəyəri əsas götürülür?
A) ilin əvvəlinə qalıq dəyəri
B) yekun transfer dəyəri
C) orta illik qalıq dəyəri
D) orta statistik qalıq dəyəri

8. Aşağıdakı hesablamalardan hansı müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) orta illik qalıq dəyərinin hesablanmasına aid deyil?
A) müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) hesabat ilinin əvvəlinə (əvvəlki vergi ilinin sonuna mü-

əyyən edilən qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünür
B) müəssisə hesabat ili ərzində yaradıldıqda və ya əmlak vergisi ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra ilin sonuna qədər olan ayların sayına vurulur
C) müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) hesabat ilinin əvvəlinə (əvvəlki vergi ilinin sonuna müəyyən edilən qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) və sonuna qalıq dəyəri toplanıb dördə bölünür
D) müəssisə hesabat ili ərzində ləğv edildikdə və ya sadələşdirilmiş verginin ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) ilin əvvəlinə və ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu aya qədər olan ayların sayına vurulur

9. Torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq hər il sabit tədiyyə şəklində hesablanan vergi növü hansıdır?
A) əmlak vergisi
B) sadələşdirilmiş vergi
C) yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi
D) torpaq vergisi

10. Rezident və qeyri-rezident müəssisələr torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında neçə ay ərzində uçota durmalıdırlar?
A) 2 ay ərzində
B) 3 ay ərzində
C) 1 ay ərzində
D) 4 ay ərzində

Test 58.

1. Azərbaycan Respublikasının ərazisində kimlər torpaq vergisinin ödəyiciləridir?
A) mülkiyyətində və ya istifadəsində torpaq sahələri və əmlakı olan fiziki şəxslər
B) mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr
C) mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan müəssisələr
D) istifadəsində torpaq sahələri və avtonəqliyyat vasitələri olan fiziki şəxslər və müəssisələr

2. Kənd təsərrüfatı torpaqları üçün torpaq vergisinin dərəcəsi hansı məbləğdə müəyyən edilir?
A) 1 şərti bal üçün 0,6 manat
B) 1 şərti bal üçün 0,5 manat
C) 1 şərti bal üçün 0,06 manat
B) 1 şərti bal üçün 0,1 manat

3. Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar hansı dövlət orqanı tərəfindən müəyyən edilir?
A) Azərbaycan Respublikasının Vergilər Nazirliyi
B) Azərbaycan Respublikasının Torpaq Komitəsi
C) Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
D) Azərbaycan Respublikasının Nazirlər Kabineti

4. Bakı şəhərində yerləşən sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin dərəcəsi nə qədərdir?
A) 20 manat B) 10 manat C) 8 manat D) 6 manat

5. Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonunda yerləşən sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin dərəcəsi nə qədərdir?

A) 4 manat B) 5 manat C) 6 manat D) 8 manat

6. Bakı, Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla digər şəhərlərdə (rayon tabeliyində olan şəhərlər istisna olmaqla) və rayon mərkəzlərində yerləşən sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin dərəcəsi nə qədərdir?
A) 4 manat B) 5 manat C) 6 manat D) 2 manat

7. Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə, kəndləri istisna olmaqla) yerləşən sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin dərəcəsi nə qədərdir?
A) 4 manat B) 1 manat C) 3 manat D) 2 manat

8. Bakı şəhərində yerləşən yaşayış fondlarının, həyətyanı sahələrinin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin məbləği nə qədərdir?
A) 0,1 manat B) 0,3 manat C) 0,6 manat D) 0,4 manat

9. Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonunda yerləşən yaşayış fondlarının, həyətyanı sahələrinin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin məbləği nə qədərdir?
A) 0,5 manat B) 0,4 manat C) 0,3 manat D) 0,2 manat

10. Bakı, Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla digər şəhərlərdə (rayon tabeliyində olan şəhərlər istisna olmaqla) və rayon mərkəzlərində yerləşən yaşayış fondlarının, həyətyanı sahələrinin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin məbləği nə qədərdir?
A) 0,5 manat B) 0,4 manat C) 0,3 manat D) 0,2 manat

Test 59.

1. Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə, kəndləri istisna olmaqla) yerləşən yaşayış fondlarının, həyətyanı sahələrinin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadrat metrinə görə torpaq vergisinin məbləği nə qədərdir?
A) 0,2 manat B) 0,1 manat C) 0,6 manat D) 0,4 manat

2. Hansı torpaqlar torpaq vergisinə cəlb edilmir?
1. yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları
2. yaşayış fondlarının, həyətyanı sahələrinin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar
3. dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünü idarəetmə orqanlarının, Mərkəzi Bankın və onun qurumlarının, habelə Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar
4. sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar
5. istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar
6. dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar
A) 1, 2, 4, 5 B) 2, 3, 4, 5 C) 1, 2, 3, 6 D) 1, 3, 5, 6

3. Hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılan fiziki şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği nə qədər azaldılır?
A) 100 manat B) 20 manat C) 10 manat D) 55 manat

4. Aşağıda göstərilən şəxslərdən hansılarının mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 m azaldılır?
1. Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının
2. məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin
3. I və II qrup müharibə əlillərinin
4. Sovet İttifaqı Qəhrəmanlarının
5. I və II qrup əlillərin
6. Sosialist Əməyi Qəhrəmanlarının
A) 1, 2, 4, 5 B) 2, 3, 4, 5 C) 1, 2, 3, 6 D) 1, 3, 4, 6

5. Torpaq vergisi hansı sənədlər əsasında müəyyənləşdirilir?
A) torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında
B) torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən qanunlar əsasında

C) mülkiyyət və ya istifadə hüququnu təsdiq edən bütün sənədlərin əsasında
D) torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən qərarlar əsasında

6. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulurmu?
A) tutulmur
B) tutulur
C) 50 faiz güzəşt edilir
D) müstəsna hallarda tutulur

7. Müəssisələr torpaq vergisi üzrə hesablamaları hansı müddətdə vergi orqanına təqdim etməlidirlər?
A) mayın 15-dən gec olmayaraq
B) mayın 30-dan gec olmayaraq
C) avqustun 15-dən gec olmayaraq
D) mayın 20-dən gec olmayaraq

8. Müvafiq orqanlar tərəfindən fiziki şəxslərə torpaq vergisi nə vaxt hesablanılır və tədiyyə bildirişləri hansı müddətdə onlara çatdırılır?
A) iyulun 5-dək hesablanılır və avqustun 1-dən gec olmayaraq onlara tədiyyə bildirişləri çatdırılır
B) iyulun 10-dək hesablanılır və avqustun 1-dən gec olmayaraq onlara tədiyyə bildirişləri çatdırılır
C) iyulun 1-dək hesablanılır və avqustun 1-dən gec olmayaraq onlara tədiyyə bildirişləri çatdırılır
D) iyulun 15-dək hesablanılır və avqustun 1-dən gec olmayaraq onlara tədiyyə bildirişləri çatdırılır

9. Torpaq vergisi hansı məbləğdə və nə vaxt ödənilir?
A) 15 avqust tarixindən gec olmayaraq
B) 15 may və 15 oktyabr tarixlərindən gec olmayaraq
C) 15 iyun və 15 noyabr tarixlərindən gec olmayaraq
D) bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq

10. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi müəyyən edilmiş ödəmə vaxtına kim tərəfindən ödənilir?
A) həmin torpağın sahibi tərəfindən
B) həmin torpağın əvvəlki sahibi tərəfindən
C) vergi ödənilmir
D) 50 faiz güzəştlə həmin torpağın sahibi tərəfindən

XIV Fəsil. Yol vergisi və mədən vergisi.

§14.1. Yol vergisinin ödəyiciləri və vergitutma obyekti.

Azərbaycan Respublikasının dövlət büdcəsinə ən az gəlir gətirən vergi növlərindən biri yol vergisidir. Beynəlxalq təcrübəyə nəzər saldıqda aparıcı dövlətlərdə də yol vergisi üzrə daxilolmaların aşağı cərgələrdə dayandığının şahidi oluruq. Hətta, Rusiya və İspaniya kimi dövlətlər yol vergisini müvafiq olaraq regional və yerli vergilərin siyahısına salıblar və bu vergi növü yerli özünüidarəetmə orqanlarının büdcəsinin formalaşmasına xidmət edir. Azərbaycanda tətbiq edilən yol vergisi büdcə daxilolmalarındakı qeyri-stabilliyi ilə digər vergi növlərindən fərqlənir. Belə ki, əgər 2005-ci ildə yol vergisi üzrə büdcə daxilolmaları 9 milyon manat təşkil etmişdirsə, 2008-ci ildə bu həddə 27.4 milyon manata qalxmış, 2010-cu ildə 15.2 milyon manata enmiş, 2011-ci ildə isə yenidən 28.1 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə yol vergisi üzrə 50 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır. 2005 - 9 mln; 2012 - 50 mln.

Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələri və qeyri-rezident fiziki şəxslər, habelə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslər Azərbaycan Respublikasının avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir. Azərbaycan Res-

publikasının ərazisinə daxil olan xarici dövlətlərin, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyektidir.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman dövlət büdcəsinə ödəyirlər. İllik yol vergisinin bu qaydada ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə, avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı keçirilmir.

Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq, vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər. Hesablanmış verginin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 119-cu maddəsi (AR VM m-119. Gəlirdən çıxılan məbləğlərin məhdudlaşdırılması.) ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

Avtonəqliyyat vasitələrini dövlət qeydiyyatına alan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi hər rüb hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq, yeni qeydiyyata alınmış və qeydiyyatdan çıxarılmış avtonəqliyyat vasitələri barədə məlumatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müəyyən etdiyi formada vergi orqanına təqdim edir.

§14.2. Yol vergisinin dərəcələri.

Avtonəqliyyat vasitələrinin növündən, mühərriklərinin həcmindən, Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən, oturacaqlarının sayından, oxların sayından və avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, Azərbaycan Respublikası ərazisində qət edilən məsafədən, təhlükəli yüklərin daşınmasından asılı olaraq, Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtonəqliyyat vasitələrindən, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin mühərriklərinin həcmindən asılı olaraq, avtonəqliyyat vasitələrindən vergi aşağıdakı dərəcələrlə hesablanır:

1. Azərbaycan Respublikasının ərazisinə daxil olan və ölkə ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı hallarda xarici dövlətlərin avtomobil nəqliyyatı vasitələrindən:

1.1. minik avtomobilləri üçün mühərriklərinin həcmindən və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	Mühərrikin həcmi 2000 kub santimetrədək olduqda	Mühərrikin həcmi 2000 kub santimetrdən 4000 kub santimetrədək olduqda	Mühərrikin həcmi 4000 kub santimetrdən çox olduqda
1 aya qədər	15 ABŞ dolları	20 ABŞ dolları	40 ABŞ dolları
3 aya qədər	30 ABŞ dolları	40 ABŞ dolları	60 ABŞ dolları
1 ilə qədər	40 ABŞ dolları	80 ABŞ dolları	120 ABŞ dolları
1 ildən yuxarı	40 ABŞ dolları + 1 ildən artıq qalan hər gün üçün 0,5 ABŞ dolları	80 ABŞ dolları + 1 ildən artıq qalan hər gün üçün 0,6 ABŞ dolları	120 ABŞ dolları + 1 ildən artıq qalan hər gün üçün 1,2 ABŞ dolları

15; 30; 40; 40+95 / 462 / 40; 40; 80; 80+0,6 / 40; 60; 120; 120+1,2

1.2. avtobuslar üçün oturacaq yerlərinin sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	Oturacaq yerlərinin sayı 12-dək olanda	Oturacaq yerlərinin sayı 13-dən 30-dək olanda	Oturacaq yerlərinin sayı 31 və çox olanda
1 gün üçün	15 ABŞ dolları	20 ABŞ dolları	25 ABŞ dolları
1 həftəyədək	30 ABŞ dolları	40 ABŞ dolları	50 ABŞ dolları
1 aya qədər	100 ABŞ dolları	140 ABŞ dolları	175 ABŞ dolları
3 aya qədər	300 ABŞ dolları	400 ABŞ dolları	500 ABŞ dolları
1 ilə qədər	1050 ABŞ dolları	1400 ABŞ dolları	1750 ABŞ dolları
1 ildən yuxarı	1050 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 12 ABŞ dolları	1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	1750 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 20 ABŞ dolları

1.3. yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün oxların sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Ölkə ərazisində qaldığı müddət	4 (dörd) oxa qədər olanda	4 (dörd) ox və çox olanda
1 gün üçün	20 ABŞ dolları	30 ABŞ dolları
2 həftəyədək	40 ABŞ dolları	80 ABŞ dolları
1 aya qədər	140 ABŞ dolları	280 ABŞ dolları
3 aya qədər	400 ABŞ dolları	800 ABŞ dolları
1 ilə qədər	1400 ABŞ dolları	2800 ABŞ dolları
1 ildən yuxarı	1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	2800 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları

Yuxarıda göstərilən verginin məbləği ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə Azər-

baycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün aşağıdakı qədər artırılır:
- nəqliyyat vasitələrinin yüklə birlikdə ümumi çəkisi:
• 37 tondan 41 tonadək olduqda - 0,15 ABŞ dolları;
• 41 tondan 51 tonadək olduqda - 0,30 ABŞ dolları;
• 51 tondan 61 tonadək olduqda - 0,45 ABŞ dolları;
• 61 tondan 71 tonadək olduqda - 0,60 ABŞ dolları;
• 71 tondan 81 tonadək olduqda - 0,75 ABŞ dolları;
• 81 tondan çox olduqda - 1,8 ABŞ dolları;

1.4. Azərbaycan Respublikasının ərazisinə daxil olan və bəyan edilmiş müddətdən artıq ölkə ərazisində qalan xarici dövlətlərin avtonəqliyyat vasitələri üçün Azərbaycan Respublikasının ərazisini tərk edən zaman ölkə ərazisində artıq qaldığı müddətdən asılı olaraq ödənilməli olan yol vergisinin yekun məbləği 1.1-ci, 1.2-ci və 1.3-cü bəndlərə uyğun olaraq hesablanmış yol vergisinin məbləğindən ölkə ərazisinə daxil olarkən ödənilmiş yol vergisinin məbləği çıxılmaqla hesablanır.

1.5. Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında qüvvədə olan beynəlxalq avtomobil əlaqələri haqqında hökumətlərarası sazişlərə əsasən kvotalar çərçivəsində mübadilə edilmiş «İcazə» blankları ilə Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici ölkələrin avtonəqliyyat vasitələri üçün yol vergisi ödəmələrində azadolmalar nəzərdə tutulduğu hallarda daxil olduqları andan 30 gün sonra ölkədə əlavə qaldıqları müddətdən asılı olaraq, 1.2-ci və 1.3-cü bəndlərə uyğun olaraq yol vergisinə cəlb edilirlər.

Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən yuxarıda müəyyən edilmiş vergini həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman və 1.1 bəndinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisini tərk edərkən yol vergisinə cəlb

olunmalı hallarda gömrük orqanları tuturlar və bir bank günü ərzində dövlət büdcəsinə keçirirlər.

2. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan şəxslər (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası (traktorlar, kombayn və yığım maşınları, pambıq yığan maşınlar) istisna olmaqla) illik yol vergisini həmin avtonəqliyyat vasitələrinin mühərrikinin həcminə görə aşağıdakı dərəcələrlə ödəyirlər:

Vergitutma obyektinin adı	Yol vergisinin dərəcəsi
1	2
Minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri:	
mühərrikin həcmi 2000 kub santimetrədək olduqda	20 manat
mühərrikin həcmi 2000 kub santimetrdən 3000 kub santimetrədək olduqda	20 manat + mühərrikin həcminin 2000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə - 0,02 manat
mühərrikin həcmi 3000 kub santimetrdən 4000 kub santimetrədək olduqda	40 manat + mühərrikin həcminin 3000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə - 0,03 manat
mühərrikin həcmi 4000 kub santimetrdən 5000 kub santimetrədək olduqda	70 manat + mühərrikin həcminin 4000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə - 0,04 manat
mühərrikin həcmi 5000 kub santimetrdən çox olduqda	110 manat + mühərrikin həcminin 5000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə - 0,05 manat

Təhlükəli yüklərin daşınmasına görə isə verginin məbləği aşağıdakı qədər artırılır: (ABŞ dolları ilə)

Ölkə ərazisində qaldığı müddət	4 oxa qədər olduqda			4 ox və çox olduqda		
	az təhlükəli yüklər üçün	təhlükəli yüklər üçün	xüsusi təhlükəli yüklər üçün	az təhlükəli yüklər üçün	təhlükəli yüklər üçün	xüsusi təhlükəli yüklər üçün
1 gün üçün	20	40	80	30	60	120
2 həftəyədək	40	80	160	80	160	320
1 aya qədər	140	280	560	280	560	1120
3 aya qədər	400	800	1600	800	1600	3200
1 ilə qədər	1400	2800	5600	2800	5600	11200
1 ildən yuxarı	1400 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	2800 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları	5600 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları	2800 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları	5600 ABŞ dolları +1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları	11200 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 120 ABŞ dolları

§ 14.3. Mədən vergisinin ödəyiciləri və vergitutma obyekti.

Azərbaycan Respublikasının vergi sistemində tətbiq olunan vergi növlərindən biri mədən vergisidir. Mədən vergisi Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə tutulur. Azərbaycan ərazisində faydalı qazıntıla-

rın əksəriyyətinin çıxarılmasına baxmayaraq, mədən vergisi üzrə daxilolmalar dövlət büdcəsinin gəlirlərində son sıralarda qərarlaşıb. Mədən vergisi üzrə daxilolmaların illər üzrə dinamikasına nəzər saldıqda, görürük ki, bu vergi növü üzrə daxilolmalar artım meylində deyildir. Belə ki, əgər 2000-ci ildə mədən vergisi üzrə büdcə daxilolmaları 50.4 milyon manat təşkil etmişdirsə, 2005-ci ildə bu həddə 53.5 milyon manata, 2008-ci ildə bu həddə 147.7 milyon manata qalxmış, 2009-cu ildə 121.9 milyon manata enmiş, 2010-cu ildə yenidən 130.1 milyon manata qalxmış, 2011-ci ildə isə 129.8 milyon manata enmişdir. 2012-ci ildə isə dövlət büdcəsinə mədən vergisi üzrə 125.2 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir, yerin təkindən çıxarılan faydalı qazıntılar isə vergitutma obyektidir.

Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi onların topdansatış qiymətinə tətbiq edilməklə aşağıdakı kimi müəyyənləşdirilir:

Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı	Mədən vergisinin dərəcələri (faizlə)
Xam neft	26
Təbii qaz	20
Filiz faydalı qazıntıları: - bütün növ metallar	3

Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi hər kubmetr üçün aşağıdakı dərəcələrlə hesablanır:

Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı	Mədən vergisinin dərəcələri (manatla)
Qeyri-filiz faydalı qazıntıları:	
seolit, barit, mişar daşları, çınqıl xammalı	0,5
yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər, bentonit gilləri, kərpic-kirəmit gilləri	0,5
vulkan külü və pemza	0,5
kvars qumları, tikinti qumları	0,5
sement xammalı(əhəng daşı, mergel, vulkan külü)	0,5
üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı)	1
qiymətli və yarımqiymətli bəzək daşları	4
duz	4
yodlu bromlu sular	0,02
mineral sular	6

Göründüyü kimi, Azərbaycanda yalnız neft, təbii qaz və filiz faydalı qazıntıları faizlə mədən vergisinə cəlb edilir və vergini hesablamaq üçün onların topdansatış qiyməti əsas götürülür. Qeyri-filiz faydalı qazıntıları isə hər kubmetrinə görə standart məbləğlə mədən vergisinə cəlb edilir. Bəzi dövlətlərdə isə, misal üçün Rusiyada yerin təkindən çıxarılan bütün növ faydalı qazıntılara faizlə mədən vergisi tətbiq edilir və faiz dərəcələri 0%, 3,8-17,5% arasında dəyişir. Düzdür illik dəyəri əvvəlcədən müəyyən edilən faydalı qazıntılar (neft, qaz) üçün vahid məbləğlər mövcuddur, lakin, qiymətlər dəyişdikcə bu məbləğlər də dəyişir.

§14.4. Mədən vergisinin hesablanması qaydası, ödənilməsi müddəti və bəyannamənin verilməsi.

Mədən vergisi xam neft, təbii qaz və filiz faydalı qazıntıları üzrə yerin təkindən çıxarılmış faydalı qazıntıların topdansatış qiymətinə, digər faydalı qazıntılar üzrə isə yerin təkindən çıxarılmış faydalı qazıntıların hər kub metrinə müvafiq vergi dərəcələrini tətbiq etməklə hesablanır. Bu qaydada hesablanmış verginin məbləği Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 119-cu maddəsi (AR VM m-119. Gəlirdən çıxılan məbləğlərin məhdudlaşdırılması.) ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir. Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq ödənilir. Mədən vergisinin ödəyiciləri hər ay hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına, yerli büdcələrə daxil olan vergisi üzrə isə bələdiyyələrə mədən vergisinin bəyannaməsini verirlər.

Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) dövlət büdcəsinə ödənilir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kiramid gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən normativlər əsasında çıxılır.

Göründüyü kimi, Azərbaycanda neftin və ya qazın mədən vergisinə cəlb edilməsi mexanizmi olduqca sadədir. Dünyanın əsas neft ölkələrindən biri hesab olunan Rusiyada isə bu mexanizm olduqca mürəkkəbdir və dövlət tərəfindən müəyyən edilən vergi dərəcələri mütəmadi olaraq dəyişir. Misal üçün, əgər min kubmetr təbii qaza görə 2011-ci ildə 237 rubl vergi dərəcəsi müəyyən edilmişdirsə, 2012-ci ildə bu həddi 251 rubla, 2013-cü ildə isə 265 rubla qalxmışdır və yaxud 1 ton neftə görə 2011-ci ildə 419 rubl vergi dərəcəsi müəyyən edilmişdirsə, 2012-ci ildə bu həddi 446 rubla, 2013-cü ildə isə 470 rubla qalxmışdır. Bu dərəcələr isə sonradan müvafiq əmsallara (1 barel neftin dünya birjasında olan qiyməti, faktiki çıxarılan neftin miqdarı) vurulur və büdcəyə ödəniləcək mədən vergisinin məbləği müəyyənləşdirilir.

Hesab edirik ki, hazırki şəraitdə büdcə gəlirlərində mədən vergisi üzrə daxilolmaların payının artırılmasına potensial imkanlar vardır və beynəlxalq təcrübəyə əsaslanaraq bu verginin tətbiqinin təkmilləşdirilməsinə və daha səmərəli işləməsinə nail olmaq olar.

Bilik möhkəmləndirmək üçün testlər:

Test 60.

1. Hansı şəxslər yol vergisinin ödəyiciləri deyil?
A) Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyat vasitələri olan qeyri-rezident müəssisələri və qeyri-rezident fiziki şəxslər
B) Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri olan şəxslər
C) Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtobuslar olan şəxslər
D) Azərbaycan Respublikasının ərazisində mülkiyyətində kənd təsərrüfatı texnikası olan şəxslər

2. Azərbaycan Respublikasının ərazisinə daxil olan və ölkəni tərk edən zaman yol vergisinə cəlb olunmalı hallarda, mühərrikinin həcmi 2000 kub santimetrədək olan xarici dövlətlərin minik avtomobillərindən 1 aya qədər qaldıqda hansı məbləğdə yol vergisi tutulur?
A) 50 ABŞ dolları
B) 25 ABŞ dolları
C) 15 ABŞ dolları
D) 10 ABŞ dolları

3. Oturacaq yerlərinin sayı 12-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları ölkə ərazisində qaldıqları 1 gün üçün hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 30 ABŞ dolları
B) 25 ABŞ dolları
C) 20 ABŞ dolları
D) 15 ABŞ dolları

4. Oturacaq yerlərinin sayı 12-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları ölkə ərazisində qaldıqları 1 həftəyədək olan müddət üçün hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 30 ABŞ dolları
B) 45 ABŞ dolları
C) 50 ABŞ dolları
D) 25 ABŞ dolları

5. Oturacaq yerlərinin sayı 12-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları ölkə

ərazisində qaldıqları 1 ayadək olan müddət üçün hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 60 ABŞ dolları C) 100 ABŞ dolları
B) 75 ABŞ dolları D) 105 ABŞ dolları

6. Oturacaq yerlərinin sayı 12-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları ölkə ərazisində qaldıqları 3 ayadək olan müddət üçün hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 100 ABŞ dolları C) 200 ABŞ dolları
B) 150 ABŞ dolları D) 300 ABŞ dolları

7. Oturacaq yerlərinin sayı 12-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları ölkə ərazisində qaldıqları 1 ilədək olan müddət üçün hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 600 ABŞ dolları C) 1000 ABŞ dolları
B) 750 ABŞ dolları D) 1050 ABŞ dolları

8. Oturacaq yerlərinin sayı 13-dən 30-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 günə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 60 ABŞ dolları C) 10 ABŞ dolları
B) 15 ABŞ dolları D) 20 ABŞ dolları

9. Oturacaq yerlərinin sayı 13-dən 30-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 həftəyədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 40 ABŞ dolları C) 50 ABŞ dolları
B) 45 ABŞ dolları D) 60 ABŞ dolları

10. Oturacaq yerlərinin sayı 13-dən 30-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 410 ABŞ dolları C) 150 ABŞ dolları
B) 145 ABŞ dolları D) 140 ABŞ dolları

Test 61.

1. Oturacaq yerlərinin sayı 13-dən 30-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 3 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 200 ABŞ dolları
C) 300 ABŞ dolları
B) 250 ABŞ dolları
D) 400 ABŞ dolları

2. Oturacaq yerlərinin sayı 13-dən 30-dək olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 ilədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 1400 ABŞ dolları
C) 1300 ABŞ dolları
B) 1250 ABŞ dolları
D) 1500 ABŞ dolları

3. Oturacaq yerlərinin sayı 31 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 günə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 30 ABŞ dolları
C) 40 ABŞ dolları
B) 25 ABŞ dolları
D) 20 ABŞ dolları

4. Oturacaq yerlərinin sayı 31 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 həftəyədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 40 ABŞ dolları
C) 50 ABŞ dolları
B) 45 ABŞ dolları
D) 60 ABŞ dolları

5. Oturacaq yerlərinin sayı 31 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 410 ABŞ dolları
C) 150 ABŞ dolları
B) 175 ABŞ dolları
D) 140 ABŞ dolları

6. Oturacaq yerlərinin sayı 31 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 3 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 500 ABŞ dolları
C) 300 ABŞ dolları
B) 250 ABŞ dolları
D) 400 ABŞ dolları

7. Oturacaq yerlərinin sayı 31 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtobusları üçün ölkə ərazisində qaldıqları 1 ilədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 1500 ABŞ dolları
C) 1800 ABŞ dolları
B) 1750 ABŞ dolları
D) 1650 ABŞ dolları

8. Oxlarının sayı 4-ə qədər olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 1 günə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 10 ABŞ dolları
C) 20 ABŞ dolları
B) 15 ABŞ dolları
D) 30 ABŞ dolları

9. Oxlarının sayı 4-ə qədər olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 2 həftəyədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 40 ABŞ dolları
C) 20 ABŞ dolları
B) 30 ABŞ dolları
D) 10 ABŞ dolları

10. Oxlarının sayı 4-ə qədər olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 1 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?

A) 110 ABŞ dolları
C) 120 ABŞ dolları
B) 130 ABŞ dolları
D) 140 ABŞ dolları

Test 62.

1. Oxlarının sayı 4-ə qədər olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 3 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 300 ABŞ dolları C) 200 ABŞ dolları
B) 400 ABŞ dolları D) 500 ABŞ dolları

2. Oxlarının sayı 4-ə qədər olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 1 ilədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 1400 ABŞ dolları C) 1200 ABŞ dolları
B) 1300 ABŞ dolları D) 1140 ABŞ dolları

3. Oxlarının sayı 4 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 1 günə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 30 ABŞ dolları C) 50 ABŞ dolları
B) 45 ABŞ dolları D) 60 ABŞ dolları

4. Oxlarının sayı 4 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 2 həftəyədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 60 ABŞ dolları C) 70 ABŞ dolları
B) 80 ABŞ dolları D) 90 ABŞ dolları

5. Oxlarının sayı 4 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 1 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 300 ABŞ dolları C) 280 ABŞ dolları
B) 250 ABŞ dolları D) 240 ABŞ dolları

6. Oxlarının sayı 4 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində

qaldıqları 3 ayadək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 300 ABŞ dolları C) 600 ABŞ dolları
B) 400 ABŞ dolları D) 800 ABŞ dolları

7. Oxlarının sayı 4 və çox olan Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün ölkə ərazisində qaldıqları 1 ilədək olan müddətə görə hansı məbləğdə yol vergisi ödəyirlər?
A) 1800 ABŞ dolları C) 2200 ABŞ dolları
B) 2800 ABŞ dolları D) 2400 ABŞ dolları

8. Azərbaycan Respublikasının ərazisində istifadə olunan və mühərrikinin həcmi 2000 kub santimetrədək olan minik avtomobilinə görə nə qədər yol vergisi ödənilməlidir?
A) 20 manat B) 10 manat C) 15 manat D) 30 manat

9. Azərbaycan Respublikasının ərazisində istifadə olunan və mühərrikinin həcmi 2000 kub santimetrdən 3000 kub santimetrədək olan minik avtomobilləri və avtobuslara görə nə qədər yol vergisi ödənilməlidir?
A) 20 manat + mühərrikin həcminin 2000 kub santımetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,2 manat
B) 20 manat + mühərrikin həcminin 2000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,02 manat
C) 40 manat + mühərrikin həcminin 2000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,02 manat
D) 40 manat + mühərrikin həcminin 2000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,2 manat

10. Azərbaycan Respublikasının ərazisində istifadə olunan və mühərrikinin həcmi 3000 kub santimetrdən 4000 kub santimetrədək olan minik avtomobilləri və avtobuslara görə nə qədər yol vergisi ödənilməlidir?
A) 20 manat + mühərrikin həcminin 3000 kub santımetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,2 manat
B) 40 manat + mühərrikin həcminin 3000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,03 manat
C) 40 manat + mühərrikin həcminin 3000 kub santımetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,2 manat
D) 40 manat + mühərrikin həcminin 3000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrinə görə 0,3 manat

Test 63.

1. Aşağıdakı avtonəqliyyat vasitələrindən hansı yol vergisinə cəlb edilir?
A) traktorlar
B) pambıq yığan maşınlar
C) yük avtomobilləri
D) kombaynlar

2. Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən gömrük orqanları tərəfindən tutulan yol vergisi neçə gün ərzində dövlət büdcəsinə ödənilir?
A) 5 bank günü ərzində
B) 3 bank günü ərzində
C) 1 bank günü ərzində
D) 2 bank günü ərzində

3. Hansı sənədlər təqdim edilmədikdə avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan müvafiq icra hakimiyyəti orqanı tərəfindən avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı keçirilmir?
A) illik yol vergisinin ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə
B) vergilərin ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə
C) avtonəqliyyat vasitələrinin texniki pasportu təqdim edilmədikdə
D) şəxsiyyət vəsiqəsi təqdim edilmədikdə

4. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin bəyannaməsini nə vaxt vergi orqanlarına təqdim edirlər?
A) hesabat ilindən sonrakı ilin mart ayının 1-dən gec olmayaraq
B) hesabat ilindən sonrakı ilin mart ayının 20-dən gec olmayaraq
C) hesabat ilindən sonrakı ilin may 15-dən gec olmayaraq
D) hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq

5. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini nə zaman dövlət büdcəsinə ödəyirlər?
A) avtomobillər istifadə olunmağa başladığı zaman
B) hesabat ilindən sonrakı ilin yanvar ayının 20-dən gec olmayaraq
C) avtomobillər texniki baxışdan keçən zaman
D) hesabat ilində

6. Mədən vergisi nəyə görə tutulur?
A) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda neft və qazın çıxarılmasına görə

B) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda filiz faydalı qazıntıların çıxarılmasına görə
C) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə
D) Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə

7. Mədən vergisinin ödəyiciləri kimlərdir?
A) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntılar çıxaran fiziki şəxslər və müəssisələr
B) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda filiz faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr
C) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda qeyri-filiz faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr
D) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntılar çıxaran fiziki şəxslər

8. Mədən vergisi üzrə vergitutma obyekti nədir?
A) Azərbaycan Respublikasının ərazisində, (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektoru istisna olmaqla) yerin təkindən çıxarılan faydalı qazıntılar
B) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerin təkindən çıxarılan faydalı qazıntılar
C) Azərbaycan Respublikasının ərazisində yerin təkindən çıxarılan filiz faydalı qazıntıları
D) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerin təkindən çıxarılan neft və qaz

9. Yerin təkindən çıxarılan hansı faydalı qazıntılara mədən vergisi onların topdansatış qiymətinə tətbiq etməklə müəyyənləşdirilir?
A) xam neft, təbii qaz, filiz faydalı qazıntıları
B) hazır neft, təbii qaz, faydalı qazıntılar
C) xam neft, təbii qaz, qeri-filiz faydalı qazıntıları
D) təbii qaz, filiz faydalı qazıntıları

10. Xam neftin topdansatış qiymətinə mədən vergisi neçə faizlə tətbiq edilir?
A) 20% B) 30% C) 22% D) 26%

Test 64.

1. Təbii qazın topdansatış qiymətinə mədən vergisi neçə faizlə tətbiq edilir?
A) 18% B) 10% C) 26% D) 20%

2. Filiz faydalı qazıntılarının topdansatış qiymətinə mədən vergisi neçə faizlə tətbiq edilir?
A) 0% B) 3% C) 5% D) 6%

3. Yerin təkindən çıxarılan xam neft, təbii qaz və filiz faydalı qazıntılarına mədən vergisi hansı göstəriciyə tətbiq edilməklə müəyyənləşdirilir?
A) faydalı qazıntıların bazar qiymətinə
B) faydalı qazıntıların tənzimlənən qiymətlərə
C) faydalı qazıntıların pərakəndə satış qiymətinə
D) faydalı qazıntıların topdansatış qiymətinə

4. Yerin təkindən çıxarılan seolitin hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,5 manat B) 0,6 manat C) 0,05 manat D) 0,06 manat

5. Yerin təkindən çıxarılan baritin hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,4 manat B) 0,5 manat C) 0,6 manat D) 0,8 manat

6. Yerin təkindən çıxarılan mişar daşlarının hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 1 manat B) 2 manat C) 0,5 manat D) 0,6 manat

7. Yerin təkindən çıxarılan çınqıl xammalının hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,5 manat B) 0,6 manat C) 0,3 manat D) 0,4 manat

8. Yerin təkindən çıxarılan bentonit gillərinin hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,2 manat B) 0,4 manat C) 0,3 manat D) 0,5 manat

9. Yerin təkindən çıxarılan kərpic-kirəmit gillərinin hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 2 manat B) 4 manat C) 3 manat D) 0,5 manat

10. Yerin təkindən çıxarılan tikinti qumlarının hər kubmetrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,5 manat B) 0,05 manat C) 1 manat D) 0,6 manat

Test 65.

1. Yerin təkindən çıxarılan sement xammalının (əhəng daşı, mergel, gil, vulkan külü) hər kub metrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,005 manat B) 0,05 manat C) 0,5 manat D) 0,1 manat

2. Yerin təkindən çıxarılan üzlük daşlarının (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı) hər kub metrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 2 manat B) 1 manat C) 0,5 manat D) 0,1 manat

3. Yerin təkindən çıxarılan qiymətli və yarımqiymətli bəzək daşlarının hər kub metrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 1 manat B) 2 manat C) 3 manat D) 4 manat

4. Yerin təkindən çıxarılan duzun hər kub metrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 4 manat B) 6 manat C) 3 manat D) 8 manat

5. Yerin təkindən çıxarılan yodlu-bromlu suların hər kub metrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 0,05 manat B) 0,02 manat C) 0,5 manat D) 0,3 manat

6. Yerin təkindən çıxarılan mineral suların hər kub metrinə görə mədən vergisinin dərəcəsi neçə manat təşkil edir?
A) 4 manat B) 6 manat C) 5 manat D) 2 manat

7. Vergitutma məqsədləri üçün mədən vergisinin dərəcəsi aşağıda göstərilən hansı faydalı qazıntıların fiziki həcminə (kub metrinə) tətbiq edilir?
1. xam neft
2. barit
3. mineral sular

4. təbii qaz
5. tikinti qumları
6. mişar daşları
7. filiz faydalı qazıntıları
A) 1, 4, 5, 6
B) 1, 2, 4, 6
C) 2, 3, 5, 6
D) 2, 3, 4, 6

8. Hesabat ayı üçün mədən vergisinin məbləği nə vaxt büdcəyə ödənilir?
A) faydalı qazıntının çıxarıldığı aydan sonrakı ayın 5-dən gec olmayaraq
B) faydalı qazıntının çıxarıldığı aydan sonrakı ayın 10-dan gec olmayaraq
C) faydalı qazıntının çıxarıldığı aydan sonrakı ayın 15-dən gec olmayaraq
D) faydalı qazıntının çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq

9. Mədən vergisinin ödəyiciləri vergi bəyannaməsini nə vaxt vergi orqanına təqdim edirlər?
A) hər ay hesabat ayından sonrakı ayın 10-dan gec olmayaraq
B) hər ay hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq
C) hər ay hesabat ayından sonrakı ayın 15-dən gec olmayaraq
D) hər ay hesabat ayından sonrakı ayın 5-dən gec olmayaraq

10. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi hansı büdcəyə ödənilir?
A) dövlət büdcəsinə
B) Bələdiyyələr Asossasiyasının büdcəsinə
C) yerli büdcəyə (bələdiyyə büdcəsinə)
D) yerli əhəmiyyətli tikinti materialları mədən vergisinə cəlb edilmir

XV Fəsil. Sadələşdirilmiş vergi.

§15.1. Sadələşdirilmiş verginin ödəyiciləri və vergitutma obyekti.

Azərbaycan Respublikasının vergi sistemində tətbiq olunan vergi növlərindən biri sadələşdirilmiş vergidir. Tətbiqi tarixinin az olmasına baxmayaraq, dövlət büdcəsinin gəlirlərinin formalaşmasında bu vergi üzrə daxilolmaların rolu ildən-ilə artmaqdadır. Belə ki, əgər 2005-ci ildə sadələşdirilmiş vergi üzrə büdcə daxilolmaları 18.8 milyon manat təşkil etmişdirsə, 2007-ci ildə bu həddə 48.1 milyon manata, 2008-ci ildə 65.6 milyon manata və nəhayət 2011-ci ildə 100.4 milyon manata qalxmışdır. 2012-ci ildə isə dövlət büdcəsinə sadələşdirilmiş vergi üzrə 96 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılmışdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində ƏDV-yə dair müddəalar nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər.

Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olan vergi ödəyiciləri (aşağıda 1-ci bənddə nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) hər il aprel ayının 20-dən gec olmayaraq, müvafiq bəyannaməni və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduqları vergi orqanına təqdim edirlər. Vergi ödəyicisinin təqvim ilinin sonunadək seçdiyi metodu dəyişdirmək hüququ yoxdur. Vergi ödəyicisi qeyd olunan müddətdə bəyannaməni və ya yazılı məlumatı təqdim etmədikdə, vergi orqanı vergi ödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir. İl ərzində yeni fəaliyyətə başlayan

vergi ödəyicisi vergi uçotuna durmaq üçün ərizədə qeyd etdiyi metodu tətbiq edir.

1. Aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridirlər:

1.1. mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər;

1.2. mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində) özünəməxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və yaxud müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər).

1.3. idman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər.

2. Aşağıda göstərilən şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur:

- aksizli mallar istehsal edən şəxslər;
- kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardlar;
- qeyri-dövlət pensiya fondları;
- əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər;
- mükiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (1.1-ci bənddə göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 1000000 manatdan artıq olanlar.

Hesabat dövri ərzində vergi ödəyicisi tərəfindən (1.1-ci bənddə nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) həcmi vergitutma obyektidir. Həmçinin 1.1-ci bənddə nəzərdə tutulmuş vergi ödəyicilərinin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri də vergitutma obyektidir. Eyni zamanda mənzil tikintisi fəaliyyətini həyata keçirən şəxslər üçün zirzəmilər, mərtəbələr və çardaqlar daxil olmaqla, tikilən binanın ümumi sahəsi (dövlətə ayrılan hissə, dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət zəmanəti və dövlətə ayrılan yardımlar hesabına tikilən yaşayış sahəsi, başqa tikintilərlə təmasda olmayan ayrıca tikilən fərdi və ya şəxsi yaşayış və ya bağ evlərinin, yaxud tikililərinin sahəsi istisna olmaqla) vergitutma obyektidir. İdman mərc oyunlarının operatoru üçün oyun iştirakçılarından qəbul edilmiş pul vəsaiti, idman mərc oyunlarının satıcısı üçün isə operatorun ona verdiyi komisyon haqq da sadələşdirilmiş vergi-nin vergitutma obyektidir.

Sadələşdirilmiş vergini ödəyən (1.2-ci bənddə göstərilən şəxslər istisna olmaqla) hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyicisi deyildirlər. 1.2-ci bəndə uyğun olaraq sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər bu fəaliyyət üzrə mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fızıki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin ödəyicisi deyildirlər.

§15.2. Sadələşdirilmiş verginin dərəcəsi.

Sadələşdirilmiş vergi (yuxarıda 1-ci bənddə nəzərdə tutulmuş fəaliyyətlə məşğul olan vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhəri üzrə 4 faiz, digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə hesablanır.

Bakı şəhəri istisna olmaqla, Azərbaycan Respublikasının digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən vergi ödəyicilərinə bu regionlar üzrə müəyyən edilmiş vergi dərəcəsi o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsunlar.

Azərbaycan Respublikasının şəhər və rayonlarında, Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış, lakin Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş vergini ödəyiciləri verginin Bakı şəhəri üzrə müəyyən olunmuş vergi dərəcəsi ilə ödəyirlər.

Müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilən gəlirlər üzrə uçot ayrı-ayrılıqda aparılmalıdır. Belə uçot aparılmadıqda ən yüksək vergi dərəcəsi tətbiq edilir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən edilir:

Daşınma növü	Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi	Sadələşdirilmiş verginin aylıq məbləği (manatla)
Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə:	1 oturacaq yeri üçün	1,8
Taksi ilə sərnişin daşınması	1 ədəd nəqliyyat vasitəsi üçün	9,0
Yük daşınması	yükgötürmə qabiliyyəti üçün (hər tona)	1,0

Yük və sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin və yük daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi yuxarıda göstərilən sadələşdirilmiş verginin məbləğinə aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

1. Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - 2,0;
2. Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (1-ci bənddə göstərilənlər istisna olmaqla) - 1,5;
3. Digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında (1-ci və 2-ci bənddə göstərilənlər istisna olmaqla) - 1,0.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yük götürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir. Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə, həmin göstəricilər Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avto-

mobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi müəyyən edilmiş vergitutma obyektinin hər kvadrat metri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

İdman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

§15.3. Sadələşdirilmiş verginin hesablanması qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi.

Hesabat dövri üçün sadələşdirilmiş verginin məbləği (mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər istisna olmaqla) müəyyən edilmiş vergi dərəcəsini hesabat dövrünün ümumi hasilatının həcminə tətbiq etməklə hesablanır. Sadələşdirilmiş vergi üçün hesabat dövri rübdür.

Sadələşdirilmiş verginin ödəyiciləri hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanlarına bəyan-

namə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər. Vergi ödəyicisi fəaliyyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən olunmuş müddətdən gec olmamaq şərtilə vergi orqanına bəyannamə təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildiyi və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir. İdman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər hesabat rübü üçün sadələşdirilmiş vergini yuxarıda (§15.2.) nəzərdə tutulmuş qaydada hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə sadələşdirilmiş vergi aşağıdakı qaydada hesablanır:

1. Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi 2-ci paraqrafdakı cədvəldə göstərilən sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidini həmin cədvəldə qeyd olunan sadələşdirilmiş vergının aylıq məbləğinə, habelə 2-ci paraqrafda göstərilən əmsallara vurularaq hesablanır və dövlət büdcəsinə ödənilir.

2. 2-ci paraqrafda 1.1-ci bənddə göstərilən vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrinin qeydiyyata alındığı yerdən asılı olmayaraq, sərnişin və yük daşımalarının faktiki həyata keçirildiyi ərazi üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər.

3. Vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edilən avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirildikdə, sadələşdirilmiş verginin ödənilməsinə nəqliyyat vasitəsini vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyırlar. Bütün digər hallarda sadələşdirilmiş verginin ödənilməsinə avtomobil nəqliyyatı vasitəsinin sahibi məsuliyyət daşıyır.
4. Hüquqi şəxsin balanşında olan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları hüquqi şəxsin özü tərəfindən həyata keçirildikdə, sadələşdirilmiş vergini həmin hüquqi şəxs ödəyir.
5. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər.
6. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən sadələşdirilmiş verginin düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə ödənilməsinə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzarət edir.
7. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyindən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar. Vergi ödəyicisinə «Fərqlənmə nişanı» ərizəsinə əsasən iki iş günündən gec olmayaraq verilir. Vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara «Fərqlənmə nişanı» verilir. Ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

8. «Fərqlənmə nişanı»nın və 9-cu bənddə göstərilən «Xüsusi fərqlənmə nişanı»nın formaları nəqliyyat siyasətini həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və aşağıdakı məlumatları özündə əks etdirirlər: - vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı; - vergi ödəyicisinin VÖEN-i; - nişanın qüvvədə olma müddəti; - avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı; - avtomobil nəqliyyatı vasitələrində oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti; - daşımanın həyata keçirildiyi ərazi; - ödənilmiş verginin məbləği.

9. Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında istifadə olunan avtomobil nəqliyyat vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün hər hansı haqq ödənilmədən vergi ödəyicilərinin müraciətindən sonra beş iş günü ərzində «Xüsusi fərqlənmə nişanı» alınır. «Xüsusi fərqlənmə nişanı» almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarə-

yə verərkən, ən azı bir iş günü əvvəl «Xüsusi fərqlənmə nişanı»nı onu vermiş orqana geri qaytarmalıdır.

10. Vergi ödəyicisinin işçi heyətinin və özünə məxsus yüklərin daşınmasında istifadə edilən yeni avtomobil nəqliyyatı vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra həmin avtomobil nəqliyyatı vasitələrinin sahibləri 5 gün ərzində Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə bu barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formada məlumat təqdim edirlər.

10. Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır və bu cür avtomobil nəqliyyatı vasitələrinin sahibləri həmin avtomobil nəqliyyatı vasitələri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verirlər. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi növbəti ayın 10-dək əvvəlki ay ərzində verilmiş nişanlar barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə məlumat verir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 220.8-ci maddəsində (ARVM m-220.8. Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi vergitutma obyek-

tının hər kvadrat metri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.) nəzərdə tutulmuş qaydada tikintinin təməl işlərinin başlandığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim edirlər.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri vergi ödəyicisi kimi uçota alındıqları yerdən asılı olmayaraq, mənzil tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (mənzil tikintisi meydançasının faktiki yerləşdiyi) ərazi (zona) üçün eyni qayda ilə sadələşdirilmiş vergini ödəyirlər.

Bəyannamə vergi orqanına təqdim edildikdən sonra hesablanmış vergi bərabər hissələrlə 12,5 faiz həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödənilir.

Sadələşdirilmiş verginin ödəyiciləri olan şəxslər digər fəaliyyət növü üzrə əldə etdikləri gəlirlərin və xərclərin uçotunu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparırlar. Həmin şəxslərin bu fəaliyyət növləri üzrə mənfəəti (zərəri) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir.

Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər bu fəaliyyətlə yanaşı, digər fəaliyyət növləri ilə məşğul olduqda, digər fəaliyyətdən əldə etdiyi gəlirlərə sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdirlər. Bu halda əmlakın icarəyə verilməsi, royalti və digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

Biliyi möhkəmləndirmək üçün testlər:
Test 66.

1. ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi neçə manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər?
A) 190000 manat və ondan az olan şəxslər
B) 125000 manat və ondan az olan şəxslər
C) 900000 manat və ondan az olan şəxslər
D) 120000 manat və ondan az olan şəxslər

2. Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olan vergi ödəyiciləri müvafiq bəyannaməni hansı müddətdə uçotda olduğu vergi orqanına təqdim etməlidirlər?
A) hər il aprel ayının 20-dən gec olmayaraq
B) hər il may ayının 20-dən gec olmayaraq
C) hər il yanvar ayının 20-dən gec olmayaraq
D) hər il mart ayının 20-dən gec olmayaraq

3. Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olan vergi ödəyiciləri bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı hansı müddətdə uçotda olduğu vergi orqanına təqdim etməlidirlər?
A) hər il yanvar ayının 20-dən gec olmayaraq
B) hər il may ayının 20-dən gec olmayaraq
C) hər il aprel ayının 20-dən gec olmayaraq
D) hər il mart ayının 20-dən gec olmayaraq

4. Sadələşdirilmiş vergi ödəyicisinin hansı müddətədək seçdiyi metodu dəyişmək hüququ yoxdur?
A) hesabat rübünün sonunadək
B) təqvim ilinin sonunadək
C) hesabat ayının sonunadək
D) heç vaxt

5. İl ərzində yeni fəaliyyətə başlayan sadələşdirilmiş vergi ödəyicisi vergi uçotuna durmaq üçün hansı metodu tətbiq edir?
A) vergi orqanını müəyyənləşdirdiyi metodu
B) kassa metodunu
C) ərizədə qeyd etdiyi metodu
D) heç bir metod seçmir

6. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyicisi ola bilərmi?
A) ola bilərlər
B) ola bilməzlər
C) müstəsna hallarda ola bilərlər
D) yol vergisinin ödəyicisi ola bilərlər

7. Mənzil tikintisi ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi ola bilərmi?
A) ola bilərlər
B) ola bilməzlər
C) müstəsna hallarda ola bilərlər
D) əmlak vergisinin ödəyicisi ola bilərlər

8. Aşağıda göstərilən şəxslərin hansının sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ vardır?
A) aksizli malları istehsal edən şəxslərin
B) qeyri dövlət pensiya fondlarının
C) kredit və sığorta təşkilatlarının
D) mənzil tikintisi ilə məşğul olan şəxslərin

9. Aşağıda göstərilən şəxslərin hansının sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ vardır?
A) taksi fəaliyyəti ilə məşğul olan şəxslərin
B) investisiya fondlarının
C) əmlakın icarəyə verilməsindən gəlir əldə edənlərin
D) lombardların

10. Aşağıdakılardan hansı sadələşdirilmiş vergi üzrə vergitutma obyekti deyil?
A) vergi ödəyicilərinin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri (bəzi istisnalarla)
B) mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün zirzəmilər, mərtəbələr və çardaqlar da daxil olmaqla tikilən binanın ümumi sahəsi (bəzi istisnalarla)
C) aksizli malları istehsal edən şəxslərin gəlirlərinin həcmi (bəzi istisnalarla)
D) hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmi

Test 67

1. Sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər (mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) hansı vergilərin ödəyicisi deyildirlər?
A) torpaq vergisi, əmlak vergisi və gəlir vergisinin
B) ƏDV, mənfəət vergisi və əmlak vergisinin
C) ƏDV, mənfəət vergisi və gəlir vergisinin
D) ƏDV, mənfəət vergisi və yol vergisinin

2. Sadələşdirilmiş vergini ödəyən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə hansı vergilərin ödəyicisi deyildirlər?
A) ƏDV və gəlir vergisinin
B) ƏDV və əmlak vergisinin
C) ƏDV və mənfəət vergisinin
D) ƏDV və yol vergisinin

3. Sadələşdirilmiş vergini ödəyən mənzil tikintisi fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər hansı vergilərin ödəyicisi deyildirlər?
A) əmlak vergisinin və gəlir vergisinin
B) mənfəət vergisinin və əmlak vergisinin
C) yol vergisinin və mənfəət vergisinin
D) torpaq vergisinin və gəlir vergisinin

4. Sadələşdirilmiş vergini ödəyən mənzil tikintisi fəaliyyəti ilə məşğul olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə hansı verginin ödəyicisi deyildirlər?
A) torpaq vergisinin
B) əmlak vergisinin
C) mənfəət vergisinin
D) gəlir vergisinin

5. Sadələşdirilmiş vergi (avtonəqliyyat vasitələri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhərində hansı dərəcə ilə hesablanır?
A) 14% B) 20% C) 4% D) 2%

6. Sadələşdirilmiş vergi (avtonəqliyyat vasitələri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhəri istisna olmaqla digər şəhərdə, rayonlarda və Naxçıvan Muxtar Respublikasında hansı dərəcə ilə hesablanır?
A) 4% B) 2% C) 1% D) 3%

7. Bakı şəhəri istisna olmaqla, Azərbaycan Respublikasının digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən vergi ödəyicilərinə bu rayonlar üzrə müəyyən edilmiş vergi dərəcəsi hansı halda tətbiq edilir?
A) o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsunlar
B) o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsunlar
C) o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olmasınlar
D) o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsunlar

8. Müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilən gəlirlər üzrə uçot ayrı-ayrı aparılmadıqda, hansı vergi dərəcəsi tətbiq edilir?
A) ikiqat vergi dərəcəsi
B) ən aşağı vergi dərəcəsi
C) orta vergi dərəcəsi
D) ən yüksək vergi dərəcəsi

9. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin daşınarkən (taksi istsna olmaqla) 1 oturacaq yerinə görə sadələşdirilmiş verginin aylıq məbləği nə qədərdir?
A) 1,6 manat B) 1,5 manat C) 1,8 manat D) 2 manat

10. Taksi ilə sərnişin daşınarkən 1 ədəd nəqliyyat vasitəsi üçün sadələşdirilmiş verginin aylıq məbləği nə qədərdir?
A) 8 manat B) 9 manat C) 6 manat D) 5 manat

Test 68.

1. Avtomobil nəqliyyatı vasitələri ilə yük daşınarkən yük götürmə qabiliyyətinə görə 1 ton üçün sadələşdirilmiş verginin aylıq məbləği nə qədərdir?
A) 3 manat B) 8 manat C) 1 manat D) 9 manat

2. Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında həyata keçirilən yük və sərnişin daşınmasına görə sadələşdirilmiş verginin məbləğinə hansı əmsal tətbiq edilir?
A) 5 B) 4 C) 3 D) 2

3. Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı şəhəri istisna olmaqla) həyata keçirilən yük və sərnişin daşınmasına görə sadələşdirilmiş verginin məbləğinə hansı əmsal tətbiq edilir?
A) 1,5 B) 2 C) 2,5 D) 3

4. Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu istsna olmaqla digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında həyata keçirilən yük və sərnişin daşınmasına görə sadələşdirilmiş verginin məbləğinə hansı əmsal tətbiq edilir?
A) 1,5 B) 2 C) 1 D) 0,5

5. Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yük götürmə qabiliyyəti nəyə əsasən müəyyən edilir?
A) avtomobil nəqliyyatı vasitələrinin texniki pasportuna əsasən
B) avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən
C) avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat nişanına əsasən
D) avtonəqliyyat vasitəsinin istehsal göstəricilərinə əsasən

6. Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən vergi hansı qaydada hesablanır?
A) vergitutma obyektinin hər kvadrat metri üçün 9 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq etməklə
B) vergitutma obyektinin hər kvadrat metri üçün 18 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq etməklə
C) vergitutma obyektinin hər kvadrat metri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar

üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq etməklə
D) vergitutma obyektinin hər kvadrat metri üçün 20 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq etməklə

7. Sadələşdirilmiş verginin ödəyiciləri vergi bəyannaməsini nə vaxt vergi orqanına təqdim edir və vergini dövlət büdcəsinə ödəyirlər?
A) hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq
B) hesabat dövründən sonrakı ayın 15-dən gec olmayaraq
C) hesabat dövründən sonrakı ayın 5-dən gec olmayaraq
D) hesabat dövründən sonrakı ayın 10-dan gec olmayaraq

8. Vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edilən avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirildikdə sadələşdirilmiş verginin ödənilməsinə kim məsuliyyət daşıyır - nəqliyyat vasitəsinin sahibi, yoxsa vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında avtomobil nəqliyyatı vasitələrindən istifadə edənlər?
A) nəqliyyat vasitəsinin sahibi
B) vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında avtomobil nəqliyyatı vasitələrindən istifadə edənlər
C) heç biri
D) hər ikisi

9. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyindən ciddi hesabat blankı hesab olunan hansı nişanı almalıdırlar?
A) qeydiyyat nişanı
B) eyniləşdirmə nişanı
C) fərqlənmə nişanı
D) yol nişanı

10. Fərqlənmə nişanında hansı məlumatlar əks etdirilir?
1. vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı
2. vergi ödəyicisi olan hüquqi şəxsin və ya fiziki şəxsin şəxsiyyət vəsiqəsinin nömrəsi
3. vergi ödəyicisinin VÖEN-i
4. nişanın qüvvədə olma müddəti
5. vergi ödəyicisi olan şəxslərin doğum tarixi
6. avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı;
A) 1, 3, 4, 6 B) 2, 3, 5, 6 C) 1, 2, 3, 4 D) 1, 3, 5, 6

Test tapşırıqlarının düzgün cavabları:

Test 1	Test 2	Test 3	Test 4	Test 5	Test 6
1 - D	1 - C	1 - B	1 - D	1 - B	1 - C
2 - C	2 - B	2 - B	2 - B	2 - C	2 - B
3 - A	3 - B	3 - B	3 - C	3 - D	3 - D
4 - B	4 - A	4 - B	4 - B	4 - B	4 - C
5 - D	5 - B	5 - D	5 - C	5 - A	5 - B
6 - A	6 - C	6 - B	6 - C	6 - B	6 - A
7 - B	7 - A	7 - A	7 - D	7 - C	7 - C
8 - C	8 - D	8 - D	8 - D	8 - B	8 - B
9 - A	9 - B	9 - A	9 - B	9 - C	9 - D
10 - D	10 - C	10 - B	10 - D	10 - A	10 - B
Test 7	**Test 8**	**Test 9**	**Test 10**	**Test 11**	**Test 12**
1 - C	1 - D	1 - B	1 - D	1 - A	1 - D
2 - A	2 - C	2 - C	2 - B	2 - C	2 - B
3 - D	3 - B	3 - D	3 - D	3 - D	3 - D
4 - B	4 - A	4 - C	4 - B	4 - C	4 - B
5 - B	5 - D	5 - D	5 - A	5 - A	5 - C
6 - D	6 - C	6 - A	6 - C	6 - C	6 - B
7 - A	7 - D	7 - C	7 - D	7 - D	7 - D
8 - A	8 - B	8 - A	8 - B	8 - D	8 - C
9 - A	9 - D	9 - C	9 - A	9 - B	9 - A
10 - C	10 - A	10 - D	10 - C	10 - C	10 - C
Test 13	**Test 14**	**Test 15**	**Test 16**	**Test 17**	**Test 18**
1 - B	1 - C	1 - C	1 - B	1 - D	1 - B
2 - A	2 - B	2 - A	2 - A	2 - B	2 - B
3 - D	3 - D	3 - B	3 - C	3 - C	3 - C
4 - B	4 - A	4 - D	4 - B	4 - B	4 - C
5 - C	5 - C	5 - C	5 - D	5 - C	5 - C
6 - B	6 - A	6 - A	6 - A	6 - A	6 - B
7 - C	7 - B	7 - D	7 - B	7 - C	7 - A
8 - A	8 - D	8 - C	8 - C	8 - D	8 - B
9 - B	9 - B	9 - B	9 - A	9 - D	9 - C
10 - D	10 - C	10 - D	10 -C	10 -C	10 -B

Test 19	Test 20	Test 21	Test 22	Test 23	Test 24
1 - D	1 - C	1 - D	1 - C	1 - B	1 - D
2 - C	2 - B	2 - C	2 - D	2 - D	2 - C
3 - D	3 - C	3 - B	3 - A	3 - B	3 - D
4 - A	4 - B	4 - A	4 - C	4 - A	4 - A
5 - C	5 - D	5 - C	5 - B	5 - C	5 - D
6 - B	6 - B	6 - B	6 - D	6 - B	6 - B
7 - A	7 - C	7 - D	7 - B	7 - D	7 - C
8 - D	8 - C	8 - B	8 - C	8 - C	8 - B
9 - C	9 - B	9 - C	9 - A	9 - B	9 - D
10 -D	10 - B	10 -C	10 - C	10 - C	10 -C
Test 25	**Test 26**	**Test 27**	**Test 28**	**Test 29**	**Test 30**
1 - D	1 - B	1 - D	1 - C	1 - C	1 - B
2 - A	2 - A	2 - B	2 - D	2 - A	2 - D
3 - B	3 - B	3 - C	3 - D	3 - D	3 - C
4 - D	4 - D	4 - B	4 - C	4 - C	4 - B
5 - B	5 - B	5 - D	5 - B	5 - A	5 - D
6 - B	6 - A	6 - C	6 - D	6 - D	6 - A
7 - A	7 - C	7 - B	7 - B	7 - B	7 - C
8 - D	8 - B	8 - C	8 - C	8 - C	8 - D
9 - B	9 - B	9 - A	9 - D	9 - D	9 - B
10 - D	10 - A	10 - B	10 - A	10 -C	10 - C
Test 31	**Test 32**	**Test 33**	**Test 34**	**Test 35**	**Test 36**
1 - A	1 - A	1 - A	1 - A	1 - A	1 - D
2 - C	2 - C	2 - B	2 - D	2 - C	2 - C
3 - B	3 - D	3 - D	3 - D	3 - B	3 - C
4 - A	4 - B	4 - C	4 - C	4 - D	4 - A
5 - D	5 - C	5 - B	5 - B	5 - C	5 - D
6 - B	6 - D	6 - C	6 - C	6 - B	6 - C
7 - B	7 - A	7 - A	7 - D	7 - D	7 - B
8 - D	8 - B	8 - C	8 - B	8 - C	8 - D
9 - C	9 - A	9 - B	9 - C	9 - B	9 - C
10 - B	10 - D	10 - C	10 - B	10 -B	10 - A

Test 37	Test 38	Test 39	Test 40	Test 41	Test 42
1 - B	1 - B	1 - B	1 - C	1 - D	1 - C
2 - D	2 - C	2 - C	2 - A	2 - B	2 - B
3 - C	3 - D	3 - D	3 - C	3 - C	3 - C
4 - A	4 - A	4 - B	4 - D	4 - D	4 - A
5 - B	5 - C	5 - C	5 - B	5 - A	5 - B
6 - D	6 - D	6 - D	6 - C	6 - C	6 - C
7 - B	7 - B	7 - A	7 - A	7 - B	7 - A
8 - C	8 - B	8 - D	8 - B	8 - D	8 - C
9 - B	9 - A	9 - C	9 - A	9 - B	9 - D
10 - C	10 - D	10 - A	10 - C	10 - D	10 - B
Test 43	**Test 44**	**Test 45**	**Test 46**	**Test 47**	**Test 48**
1 - C	1 - A	1 - C	1 - B	1 - B	1 - D
2 - A	2 - B	2 - A	2 - A	2 - C	2 - C
3 - C	3 - D	3 - C	3 - B	3 - D	3 - B
4 - B	4 - D	4 - B	4 - C	4 - A	4 - D
5 - A	5 - B	5 - C	5 - B	5 - B	5 - C
6 - D	6 - B	6 - D	6 - D	6 - A	6 - B
7 - C	7 - C	7 - C	7 - A	7 - C	7 - C
8 - B	8 - A	8 - C	8 - C	8 - B	8 - A
9 - B	9 - C	9 - D	9 - B	9 - D	9 - D
10 - D	10 - C	10 - B	10 - D	10 - B	10 - A
Test 49	**Test 50**	**Test 51**	**Test 52**	**Test 53**	**Test 54**
1 - C	1 - A	1 - B	1 - D	1 - A	1 - C
2 - B	2 - B	2 - A	2 - B	2 - D	2 - C
3 - B	3 - C	3 - C	3 - D	3 - C	3 - A
4 - C	4 - D	4 - B	4 - C	4 - D	4 - B
5 - B	5 - A	5 - A	5 - A	5 - C	5 - B
6 - D	6 - C	6 - C	6 - B	6 - C	6 - A
7 - A	7 - B	7 - A	7 - D	7 - C	7 - B
8 - D	8 - B	8 - B	8 - C	8 - A	8 - B
9 - C	9 - D	9 - C	9 - B	9 - D	9 - B
10 - B	10 - D	10 -D	10 - C	10 - B	10 - D

Test 55	Test 56	Test 57	Test 58	Test 59	Test 60
1 - C	1 - B	1 - D	1 - B	1 - B	1 - D
2 - A	2 - C	2 - A	2 - C	2 - D	2 - C
3 - B	3 - A	3 - D	3 - D	3 - C	3 - D
4 - D	4 - D	4 - C	4 - B	4 - D	4 - A
5 - B	5 - A	5 - C	5 - D	5 - A	5 - C
6 - A	6 - B	6 - B	6 - A	6 - B	6 - D
7 - C	7 - C	7 - C	7 - D	7 - A	7 - D
8 - A	8 - A	8 - C	8 - C	8 - C	8 - D
9 - C	9 - B	9 - D	9 - A	9 - D	9 - A
10 - C	10 - D	10 - C	10 - C	10 - A	10 - D
Test 61	**Test 62**	**Test 63**	**Test 64**	**Test 65**	**Test 66**
1 - D	1 - B	1 - C	1 - D	1 - C	1 - D
2 - A	2 - A	2 - C	2 - B	2 - B	2 - A
3 - B	3 - A	3 - A	3 - D	3 - D	3 - C
4 - C	4 - B	4 - D	4 - A	4 - A	4 - B
5 - B	5 - C	5 - C	5 - B	5 - C	5 - C
6 - A	6 - D	6 - C	6 - C	6 - B	6 - A
7 - B	7 - B	7 - A	7 - A	7 - C	7 - A
8 - C	8 - A	8 - B	8 - D	8 - D	8 - D
9 - A	9 - B	9 - A	9 - D	9 - B	9 - A
10 - D	10 - B	10 - D	10 - A	10 - C	10 - C
Test 67	**Test 68**				
1 - B	1 - C				
2 - A	2 - D				
3 - B	3 - A				
4 - D	4 - C				
5 - C	5 - B				
6 - B	6 - C				
7 - D	7 - A				
8 - D	8 - B				
9 - C	9 - C				
10 - B	10 - A				

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı-2009.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı-2012.
3. «Azərbaycan tarixi», (yeddi cilddə), III cild (XIII-XVIII əsrlər), Bakı, Elm, 1999.
4. «Azərbaycan tarixi», (yeddi cilddə), IV cild (XIX əsr), Bakı, Elm, 2000.
5. «Azərbaycan tarixi», (yeddi cilddə), V cild (1900-1920-ci illər), Bakı, Elm, 2001.
6. «Azərbaycan tarixi», (yeddi cilddə), VI cild (1920-1941-ci illər), Bakı, Elm, 2000.
7. «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət proqramı (2005-2007-ci illər), Bakı, Vergi xəbərləri qəzeti, sentyabr 2005.
8. «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunları, Bakı, 2002-2012
9. «Azərbaycanın statistik göstəriciləri» (illik məcmuə), Bakı, 2012.
10. Bağırov D.V. «Vergi auditi», Bakı, Maarif nəşriyyatı,1999.
11. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. «Büdcə sistemi», Bakı, 2003, 418 s
12. Черник Д.Г. «Налоги в рыночной экономике». Москва, Финансы, ЮНИТИ, 1997.
13. Черник Д.Г., Морозов В.П. «Основы налоговой системы», Москва, ЮНИТИ, 1998.
14. Добрынин А.И. «Экономическая теория», Санкт-Петербург,1997, 480 с.
15. «Экономика», Москва, 1995, 472 с.
16. Фишер С., Дорнбуш П., Шмалензи Р., «Экономика», Москва, Дело, 1993, 856 с.

17. «Финансы, налоги и кредит» (под ред. И.Д.Мацкиляка), Москва -РАГС, 2007.
18. «Финансы» (под ред. В.В.Ковалева), Москва, «Проспект», 2007.
19. Həsənov M.X. «Keçid iqtisadiyyatlı ölkələrin vergi sistemlərinin formalaşdırılması», Bakı, Azərnəşr, 1995.
20. Həsənli M.X. «Vergilər» Bakı, Şərq-Qərb nəşriyyatı. 1998.
21. «История экономических учений», (под ред. Проф. М.Х.Мейбуллайева), Баку, 2005.
22. «История экономических учений», (под ред. В.Автономова, О.Ананьина, Н.Макашевой), Москва -ИНФРА, 2001.
23. İqtisadi nəzəriyyə (dərslik), Bakı, Çaşıoğlu nəşriyyatı, 1999, 684 s. 46.Kəlbiyev Y.Ə. «Vergilər və vergitutma», Bakı, «Təfəkkür» NPM. 2004.
24. Горский И.В.: Налоги : история: и современность. Б.кне: Налоговое планирование для руководителя у бух-ра. Том 1. Москва -1997
25. Quliyev F.T. «Millət və dövlət gəlirləri» Bakı, 2003.
26. Musayev A.F., Kəlbiyev Y.A., A.A.Hüseynov «Azərbaycan respublikasının vergi xidməti: islahatlar və nəticələr». Bakı, «Təfəkkür» NPM, 2002.
27. Миляков Н.В. «Налоги и налогообложение», Москва, ИНФРА, 2007.
28. Musayev A.F. «Vergi siyasətinin iqtisadi problemləri», Bakı, «Elm», 2004.
29. Musayev A.F. «Naloqi i naloqooblojenie v Azerbaydjane» Baku, «Elm» 2005.
30. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev R.H. «Vergilər və vergitutma» Bakı, «Poliqrafik Prodakşn», 2006.
31. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev R.H. «Vergitutmanın nəzəri və metodoloji əsasları», Bakı, «Ozan», 2001.

32. Mirzəyeva A.O «Maliyyə hüququ», Bakı, «Qanun» nəşriyyatı, 2003.
33. «Налоги и налоговое право»: Учебное пособие (под ред. Брызгалина А.Б), Москва, Аналитика-Пресс, 1997.
34. «Налоги»(учебное пособие - под ред. Черника Д.Г.) Москва, финансы и статситика, 2001.
35. «Налоги» (Учебное пособие). Теоретические и методологические основы налоговой системы, Информатизация государственной налоговой службы. Москва, Финансы и статистика, 1996.
36. «Налоги и налогообложение» (под. Ред Русаковой И.Г, Кашина В.А.) Москва, ЮНИТИ, 2000.
37. «Общая теория занятости, процента и денег» (Перевод с англ.), Москва, «Прогресе» 1978.
38. Пансков В.Г. «Налоги и налогообложение», Москва, Юрайт, 2012.
39. Перов А.В., Толкушин А.В. «Налоги и налогообложение», Москва, Юрайт, 2012.
40. Погорлецкий А.И. «Международное налогообложение», Санкт-Петербург, 2006, 382 с.
41. Поляк Г.В. «Налоги и налогообложение», Москва, Юрайт, 2012.
42. Поляк Г.В. «Финансы», Москва, Юрайт, 2012.
43. Пушкарева Б.М. «История финансовой мисли и политики налогов» (Учевное пособие), Москва, ИНФРА-М, 1996.
44. Рубинов А.М., Нагийев А.Т., «Элементы экономической теории», Баку, Булик, 1992.
45. Самуелсон П., Нордхаус В. «Экономика», Москва,, Бинов-Кно-Рус, 199.
46. Смит А.К. «Исследование о природе и причинах богаств народов», Москва, Соц. экн, Т.2, 1935.
47. «Vergi qanunvericiliyi». Bakı, «Qanun», 2009.

48. Vəliyev D.Ə., Y.N.Balakişiyeva, İ.R.Rəfibəyli, E.E. İmanov, E.M.Qarabalov «Vergi hüququ», Bakı, «Azərbaycan Universiteti», 2003.
49. Юткина Т.Ф «Налог и налогооблажение»». Москва,, ИНФРА –М 2002.
50. Йусуф А. «Китаб ал-Харадж», Санкт-Петербург, изд. «Петербургское востоковедение», 2001.
51. Заяц Н.Е. «Теория финансов», Минск, 1998.
52. w.w.w. taxes. gov. az.
53. w.w.w. azstat. org.
54. w.w.w. rambler. ru.
55. w.w.w. google. az.

M.K.MƏCİDOV

VERGİ SİSTEMİ

(Dərslik)

Texniki redaktor: *Məmmədov T.B.*
Korrektor: *Məcidova L.H.*
Kompüter tərtibatçısı: *Məcidova P.Q*
Kompüter dizayneri: *Əmrullayeva H.C.*
Kompüter operatoru: *Balayev G.Q.*

Çapa imzalanıb:07.01.2013
Kağız formatı: 60x84
Həcmi:32 ş.ç.v.
Tiraj:500

Bakı. «Biznes Universiteti» nəşriyyatı, 2013.